Fiqh

İPƏKYOLU NƏŞRİYYATI

Anar QURBANOV

FİQH

İPƏKYOLU NƏŞRİYYATI

Bakı 2017

Hazırlayan:
Anar Qurbanov

Elmi redaktor:

Fuad Quliyev

İç dizayn:

Əhməd Babayev

Qapaq tərtibatı:

Nicat Qəribov

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin **19 oktyabr 2017- ci il DK-1046/M** nörməli razılıq məktubu ilə nəşr edilmişdir.

Bakı -2017; İpəkyolu Nəşriyyatı: 225

İSBN: 978 9952 449 65 5

İPƏKYOLU NƏŞRİYYATI

Bakı Şəhəri Səbail Rayonu

Cəfərov Qardaşları, 16

Telefon: (+994 12) 492 32 23

Faks: (+994 12) 492 21 67

Web: www.ipekyolunesriyyati.az

E-poçt: ipekyoluneshriyyati@gmail.com

İPƏKYOLU NƏŞRİYYATI

MÜNDƏRİCAT

İPƏKYOLU NƏŞRİYYATI

ÖN SÖZ **7**

I. BÖLMƏ / FİQH ELMİ

A. FİQHİN TƏRİFİ 11
B. FİQH ELMİNİN ƏHƏMİYYƏTİ 11
C. FİQH ELMİNİN MÖVZUSU VƏ MƏQSƏDİ 12
D. FİQH ELMİNİN XÜSUSİYYƏTLƏRİ 13
E. FİQH ELMİNİN ƏSAS BÖLMƏLƏRİ 14
F. FİQH, ŞƏRİƏT VƏ İSLAM HÜQUQU 14
G. FİQH ELMİNİN DİGƏR ELMLƏRLƏ ƏLAQƏSİ 15

II. BÖLMƏ / FİQH ELMİNİN TƏŞƏKKÜL TARİXİ

A. MƏZHƏBLƏRƏ QƏDƏR OLAN DÖVR 21
B. MƏZHƏBLƏRİN MEYDANA GƏLMƏ DÖVRÜ 23
C. MƏZHƏBLƏR FİQHİNİN HAKİM OLDUĞU DÖVR 30
D. QANUNVERİCİLİK FƏALİYYƏTLƏRİNİN BAŞLADIĞI DÖVR 30

III. BÖLMƏ / FİQH ÜSULU VƏ İCTİHAD

A. FİQH ÜSULUNUN TƏRİFİ VƏ TƏŞƏKKÜLÜ 37
B. FİQH ÜSULUNUN MÖVZUSU, MƏQSƏDİ VƏ FAYDALARI 38
C. İCTİHADIN MAHİYYƏTİ VƏ VACİBLİYİ 38
D. TƏQLİD VƏ TƏƏSSÜBKEŞLİK 40

IV. BÖLMƏ / FİQHİ HÖKMLƏRİN MƏNBƏLƏRİ

A. MƏNBƏLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT 47
B. KİTAB (QURANİ-KƏRİM) 47
C. SÜNNƏ 49
D. İCMA 51
E. QİYAS 53
F. KÖMƏKÇİ MƏNBƏLƏR 54

V. BÖLMƏ / MÜKƏLLƏF VƏ ONUN VƏZİFƏLƏRİ

A. MÜKƏLLƏF 67
B. MÜKƏLLƏFİN ƏMƏLLƏRİ 67
C. ƏHLİYYƏTİ MƏHDUDLAŞDIRAN VƏ ONA MANE OLAN HALLAR 74
D. ƏZİMƏT VƏ RÜXSƏT 75

VI. BÖLMƏ / TƏMİZLİK

A. TƏMİZLİYİN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ 81
B. NƏCASƏT VƏ HƏDƏS 82
C. DƏSTƏMAZ 86
D. QÜSL 91
E. TƏYƏMMÜM 93
F. MƏSTLƏR VƏ SARĞILAR ÜZƏRİNƏ MƏSH ETMƏK 97

VII. BÖLMƏ / NAMAZ

A. İBADƏTLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT 107
B. NAMAZIN ƏHƏMİYYƏTİ VƏ FƏZİLƏTİ 108
C. NAMAZIN FƏRZLƏRİ 110
D. NAMAZIN VACİBLƏRİ 116
E. NAMAZIN SÜNNƏLƏRİ 117
F. NAMAZDA MƏKRUH OLAN HƏRƏKƏTLƏR 119
G. NAMAZI POZAL HALLAR 122

VIII. BÖLMƏ / NAMAZ VAXTLARI VƏ NAMAZLARIN QILINIŞI

A. NAMAZIN NÖVLƏRİ 131
B. BEŞ VAXT NAMAZ VƏ QILINMA QAYDASI 132
C. CÜMƏ NAMAZI VƏ QILINMA QAYDASI 136
D. CƏNAZƏ NAMAZI VƏ QILINMA QAYDASI 139
E. BAYRAM NAMAZLARI VƏ QILINMA QAYDASI 143
F. TƏRAVEH NAMAZI VƏ QILINMA QAYDASI 145
G. NAFİLƏ (RƏĞAİB) NAMAZLAR 146

IX. BÖLMƏ / NAMAZLA BAĞLI DİGƏR MƏSƏLƏLƏR

A. YOLÇULARIN NAMAZI 161
B. XƏSTƏ OLANLARIN NAMAZI 164
C. KEÇMİŞ NAMAZLARIN QƏZASI 164
D. İMAMLIQ VƏ CAMAAT 165
E. AZAN VƏ İQAMƏ 177
F. SƏHV, TİLAVƏT VƏ ŞÜKÜR SƏCDƏLƏRİ 182

İPƏKYOLU NƏŞRİYYATI

X. BÖLMƏ / ORUC

A. ORUCUN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI 195
B. ORUCUN FƏRZ OLMASI 196
C. ORUCUN NÖVLƏRİ 197
D. ORUCUN ŞƏRTLƏRİ 200
E. ORUC TUTMAMAĞI VƏ POZMAĞI MÜBAH EDƏN ÜZRLƏR 200
F. ORUCUN FİDYƏSİ 201
G. ORUCU POZAN VƏ POZMAYAN HALLAR 202
H. ORUCLU ÜÇÜN MƏKRUH OLAN DAVRANIŞLAR 206
İ. ORUCLU ÜÇÜN MÜSTƏHƏB OLAN DAVRANIŞLAR 206
J. ETİKAF 207

XI. BÖLMƏ / ZƏKAT VƏ SƏDƏQƏ

A. ZƏKATIN TƏRİFİ VƏ HÖKMÜ 215
B. ZƏKATIN HİKMƏTLƏRİ VƏ FAYDALARI 216
C. ZƏKATIN FƏRZ OLMASININ ŞƏRTLƏRİ 218
D. ZƏKATIN SƏHİH OLMASININ ŞƏRTLƏRİ 221
E. ZƏKAT NECƏ VERİLMƏLİDİR? 222
F. ZƏKAT KİMLƏRƏ VERİLƏR 223
G. ZƏKAT KİMLƏRƏ VERİLMƏZ 226
H. ZƏKATA DAXİL OLAN MALLAR 228
İ. SƏDƏQƏ VƏ NÖVLƏRİ 237
J. ALLAH YOLUNDA VERMƏYİN, İNFAQIN ƏHƏMİYYƏTİ 238
K. FİTRƏ (FİTR SƏDƏQƏSİ) 239

XII. BÖLMƏ / HƏCC VƏ ÜMRƏ

A. HƏCCİN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI 249
B. HƏCCİN ŞƏRTLƏRİ 251
C. HƏCCİN NÖVLƏRİ 253
D. HƏCC VƏ ÜMRƏ İBADƏTİ İLƏ BAĞLI TERMİNLƏR 253
E. HƏCCİN FƏRZLƏRİ 256
F. HƏCCİN VACİBLƏRİ 262
G. HƏCCİN SÜNNƏLƏRİ 268
H. ÜMRƏ 271
İ. HƏCC VƏ ÜMRƏNİN YERİNƏ YETİRİLMƏ QAYDASI 271
J. HƏCC VƏ ÜMRƏ İLƏ BAĞLI DİGƏR MƏSƏLƏLƏR 275

XIII. BÖLMƏ / QURBAN

A. QURBANIN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ 285
B. QURBAN KƏSMƏSİ VACİB OLAN KƏSLƏR 286

İPƏKYOLU NƏŞRİYYATI

C. QURBANLIQ HEYVANLARIN XÜSUSİYYƏTLƏRİ 286
D. QURBANIN VAXTI VƏ KƏSİLMƏSİ 287
E. NƏZİR VƏ ƏQİQƏ QURBANI 290

XIV. BÖLMƏ / İSLAM AİLƏ HÜQUQU

A. AİLƏDƏ TƏLƏB OLUNAN ƏSAS XÜSUSİYYƏTLƏR 295
B. EVLİLİYİN FAYDALARI 298
C. EVLİLİKDƏN ƏVVƏL DİQQƏT EDİLMƏLİ OLAN MƏSƏLƏLƏR 299
D. EVLƏNMƏ MANEƏLƏRİ 300
E. HÜQUQİ NƏTİCƏSİ OLMAYAN NİKAH MÜQAVİLƏLƏRİ VƏ VƏLİNİN SƏLAHİYYƏTLƏRİ 302
F. DİNİMİZƏ GÖRƏ DÜZGÜN OLMAYAN NİKAHLAR 303
G. NİGAH VƏ TOY MƏCLİSİ HAQQINDA BƏZİ MƏSƏLƏLƏR 304
H. MEHR 306
İ. NƏFƏQƏ (AİLƏ DOLANIŞIĞININ TƏMİN OLUNMASI) 309
K. EVLİLİK HƏYATININ SONA ÇATMASI (BOŞANMA) 311
L. BOŞANMANIN NÖVLƏRİ 312
M. İDDƏ VƏ HÖKMLƏRİ 315
N. UŞAĞA BAXMAQ VƏ BUNUNLA BAĞLI ÖHDƏLİKLƏR (HİDANƏ) 317

XV. BÖLMƏ / İSLAMDA TİCARƏT

A. İSLAMIN ƏMƏK VƏ TİCARƏTƏ VERDİYİ ƏHƏMİYYƏT 323
B. RUZİ QAZANMAQLA BAĞLI DİNİ PRİNSİPLƏR 326
C. İŞÇİLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ 329
D. TİCARİ HƏYATDA QADAĞAN OLAN ŞEYLƏR 329

XVI. BÖLMƏ / HALAL VƏ HARAMLAR

A. HALAL VƏ HARAM MÖVZUSUNDA İSLAMIN ƏSAS QAYDALARI 341
B. YEMƏK VƏ İÇMƏKLƏ BAĞLI HALAL VƏ HARAMLAR 342
C. HEYVANLARIN OVLANMASI İLƏ ƏLAQƏDAR HÖKMLƏR 345
D. GEYİMLƏ BAĞLI HALAL VƏ HARAMLAR 346
E. BƏZƏNMƏKLƏ BAĞLI HALAL VƏ HARAMLAR 352
F. EV ƏŞYASI İLƏ ƏLAQƏDAR HALAL VƏ HARAMLAR 354
G. ƏYLƏNCƏ VƏ VAXTIN SƏMƏRƏLİ KEÇİRİLMƏSİ İLƏ BAĞLI HALAL VƏ HARAMLAR 356
H. AND İÇMƏ VƏ NƏZİR 360

İPƏKYOLU NƏŞRİYYATI

Ön söz

Bəşər övladı dünya həyatında özbaşına qoyulmamış, başlı-başına buraxılmamış tarix boyu göndərilən peyğəmbərlər ona getməli olduğu yolu bildirmiş və sanki bir çıraq vəzifəsini yerinə yetirmişlər. Peyğəmbərlər əqidə və ibadətlərlə bağlı prinsiplər gətirmiş və bunların təfərrüatını öz tətbiqatları ilə izah etmişlər. İslam dinin hökmləri etiqadi, əməli və əxlaqi olmaqla üç qisimdən ibarətdir. Etiqadi hökmlər imanın şərtləri – Allaha, mələklərinə, peyğəmbərlərinə, kitablarına, qəzavü-qədərə və öldükdən sonra dirilməyə iman gətirmək, əməli hökmlər İslamın şərtləri – kəlməyi-şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq, həccə getmək və nəhayət, əxlaqi hökmlər isə çoxlu sayda əxlaq normalarından ibarətdir.

Hər bir müsəlmanın dinin buyurduğu əmr və qadağaları, haram və halalı, haqq ilə batili, əxlaqi normaları və digər dini öhdəliklərini yerinə yetirəcək qədər dini bilikləri öyrənməsi onun dini vəzifələrindədir. Fiqh elmi digər hüquqlarla insanlararası münasibətləri nizamlama nöqteyi-nəzərindən eynilik təşkil etməklə yanaşı, onlardan əsasən insanların Uca Allahla olan münasibətlərini nizamlama cəhətindən fərqlənir. Fiqh elmi üsul ve füru olmaqla iki qisimdir. Üsuli-fiqh İslam hüququnun metodologiyası, yəni dini-əməli hökmlərin çıxarıldığı mənbələr, hökmlər, hökmlərin dəlillərdən çıxarılma qaydaları və ictihad olmaqla dörd qisim; fürui-fiqh isə, ibadətlər və müamilələr olmaqla iki qisimdir. Burada həm insanın Allaha qarşı olan vəzifələri, həm də insanlararası münasibətlərdə sahib olduğu hüquqlar və öhdəlikləri nizamlanır. Məhz bu kitabda sözügedən bütün mövzular öz əksini tapmışdır.

Oxucuya təqdim olunan bu əsər on altı bölmədən ibarətdir:

Birinci bölmədə fiqh elmi;

İkinci bölmədə fiqh elminin təşəkkül tarixi;

Üçüncü bölmədə fiqh üsulu və ictihad;

Dördüncü bölmədə fiqhi hökmlərin mənbələri;

Beşinci bölmədə mükəlləf və onun vəzifələri;

Altıncı bölmədə təmizlik;

Yeddi, səkkiz və doqquzuncu bölmələrdə namaz, namaz vaxtları, namazların qılınışı və namazla bağlı digər məsələlər;

Onuncu bölmədə oruc;

On birinci bölmədə zəkat və sədəqə;

On ikinci bölmədə həcc və ümrə;

On üçüncü bölmədə qurban;

On dördüncü bölmədə İslam ailə hüququ;

On beşinci bölmədə İslamda ticarət;

On altıncı bölmədə halal və haramlar.

Əvvəlcə Uca Allaha həmd-səna edir, kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığımızı bildirir və çap edilməsində maddi və mənəvi dəstəyi olan İpəkyolu nəşriyyatına təşəkkür edirik.

Anar Qurbanov
Zaqatala-2017

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

I BÖLMƏ

FİQH ELMİ

MÖVZULAR

A. FİQHİN TƏRİFİ

B. FİQH ELMİNİN ƏHƏMİYYƏTİ

C. FİQH ELMİNİN MÖVZUSU VƏ MƏQSƏDİ

D. FİQH ELMİNİN XÜSUSİYYƏTLƏRİ

E. FİQH ELMİNİN ƏSAS BÖLMƏLƏRİ

F. FİQH, ŞƏRİƏT VƏ İSLAM HÜQUQU

G. FİQH ELMİNİN DİGƏR ELMLƏRLƏ ƏLAQƏSİ

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Fiqh kəlməsinin mənasını lüğətdən öyrənin.
2. Peyğəmbərimizin “Allah kim üçün xeyir diləyərsə, onu dində fəqih (dərin anlayış sahibi) edər” hədisinin mənasını müzakirə edin.
3. Evinizdə, ya da məktəbinizdəki kitabxanada olan bir fiqh kitabını araşdıraraq fiqh elminin mövzuları haqqında məlumat əldə edin.
4. Fiqh elminin digər İslam elmləri ilə olan əlaqəsini kitablardan araşdırın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. FİQHİN TƏRİFİ

I. Fiqh kəlməsinin lüğət mənası

Fiqh (الفقه) ərəbcə bir kəlmə olub "dərindən başa düşmək, anlamaq və qavramaq" mənalarına gəlir. Qurani-Kərimdə iyirmi yerdə keçən fiqh kəlməsi və növləri "söylənən sözün məqsədini qavramaq", "dərindən bilmək" kimi mənalarda işlədilmişdir.(Nümunə olaraq bax. Nisa, 4/78; Ənfal, 8/65; Tövbə, 9/ 87; Həşr, 59/13; İsra, 17/44)

Fiqh kəlməsi hədisi-şəriflərdə isə "dinin incəliklərini qavramaq" mənasında istifadə olunmuşdur. Fiqh kəlməsinin keçdiyi bəzi hədislər belədir:

- *"İnsanın bilmədiyini bilmirəm, Allah bilir, deyə bilməsi onun fiqhindəndir"* (Müslim, Münafiqun 40)

"Bir şəxsin namazını uzun, xütbələrini qısa tutması fəqih olmasının əlamətlərindəndir" (Müslüm, Cümə 47)

- *Allah Rəsulu (s.ə.s) Abdullah ibn Amrın həddindən çox Quran oxuması səbəbilə ona xəbərdarlıq etmiş və: "... üç gündən daha qısa bir müddətdə oxuyub bitirmə, çünki bu qədər sürətlə oxuyan Quranı fiqh edə bilməz (anlaya bilməz, dərk edə bilməz)",* (Əhməd ibn Hənbəli, "Müsnəd", X, 55) - *buyurmuşdur.*

Fiqh elmi ilə məşğul olub, bu sahədə ixtisaslaşan bə dərinləşən şəxslərə **fəqih** deyilir. Cəmi isə **füqəhadır**.

"Fiqh (davranış və əməllərlə əlaqədar olan hər hansı bir dini məsələdə) bir şəxsin faydasına və zərərinə olan məsələləri və bunların hökmlərini bilməsidir".

II. Fiqh kəlməsinin termin mənası

"Dini hökmləri dəlilləri ilə bilmək" olaraq kimi qısa tərif edilən fiqh termininin üç mühüm tərifi var:

1. İmam Əzəm Əbu Hənifəyə aid olan fiqh tərifi:

اَلْفِقْهُ مَعْرِفَةُ النَّفْسِ مَا لَهَا وَمَا عَلَيْهَا

"Fiqh bir şəxsin lehində (sahib olduğu hüquqları) və əleyhində olan məsələləri (öhdəliklərini) bilməsidir".

2. İmam Şafeiyə aid olan fiqh tərifi:

اَلفِقْهُ الْعِلْمُ بِالْأَحْكَامِ الشَّرْعِيَّةِ الْعَمَلِيَّةِ مِنَ أَدِلَّتِهَا التَّفْصِيلِيَّةِ

"Fiqh təfsili dəlillərdən çıxarılan dini-əməli hökmləri bilməkdir".

B. FİQH ELMİNİN ƏHƏMİYYƏTİ

Fiqh elmi dində edilməsi və edilməməsi lazım gələn işləri öyrədən bir elmdir. Fiqh elmi müsəlmanların davranış və yaşayışı ilə birbaşa əlaqəli bir elm olduğu üçün də İslam elmlərinin zirvəsi hesab olunur.

Peyğəmbərimiz (s.ə.s), dini əhkamın yaxşı bilinməsi və araşdırılmasının vacib olduğunu bildirmiş və bunu ümmətinə əmr etmişdir:

"Bir işin başına gətirilmədən öncə, təfəqqüh edin (dini hökmləri yaxşı öyrənin)" (Buxari, Elm, 15).

İPƏKYOLU NƏŞRİYYATI

Fiqhin əhəmiyyətini anlayan səhabələr gecə yarısına qədər oturaraq fiqhi məsələləri müzakirə edərdilər. (Darimi, I, 149-150) Məşhur səhabələrdən biri olan Əbu Dərda (r.ə) bununla bağlı belə demişdir: "Bir saat dinin incəliklərini öyrənmək üçün çalışmaq, mənim üçün fiqhsiz bir gecə səhərə qədər ibadət etməkdən daha yaxşıdır".

Hər bir şəxs, özünü maraqlandıran fiqhi məsələləri yaxşı bilmlidir. Hz. Əli (r.ə) alış-verişdə (ticarətdə) fiqhin əhəmiyyətini belə ifadə etmişdir: "Fiqh bilmədən ticarət edən faizə bulaşar".



OXUYAQ

Allahın Rəsulu Hz. Mühəmməd (s.ə.s):

"Allah kimin haqqında xeyir diləyərsə, onu dində fəqih (dərin anlayış, dərrakə sahibi) edər", - buyurmuşdur. Bu hədis fəqih olmanın hansı dərəcədə əhəmiyyət kəsb etdiyini və dini elmləri dərindən bilməyin Allah dərgahında nə qədər qiymətli olduğunu göstərir.

C. FİQH ELMİNİN MÖVZUSU VƏ MƏQSƏDİ

FİQH ELMİNİN MÖVZULARI		
İBADƏTLƏR	**MÜAMİLƏLƏR**	**CİNAYƏTLƏR**
Təharət, Namaz, Oruc, Zəkat, Fitrə, Həcc, Ümrə, Qurban, Kəffarə, Nəzr, And İçmək	Münakəhat, Müfarəqat, Fəraiz, Vəsiyyət, Alqı-satqı, Kirayə, Şirkət, Hakim, Məhkəmə, Şahidlik	Cinayət, Hədd cəzaları, Təzir

I. Fiqh Elminin Mövzusu

Fiqh elminin mövzusu, mükəlləfin (dini əmr və qadağlardan məsul olan şəxs) felllləridir. Fiqhin əsas mövzuları isə bunlardır:

1. İnsanın yaradıcısı ilə olan əlaqələri (İbadat-İbadətlər): İbadətlər bəhsi ibadətlə əlaqədar olan hökmləri ehtiva edir. Bu mövzu ilə əlaqədar olaraq Qurnai-Kərimdə yüz qırxa yaxın ayə var. İbadətlər bəhsi aşağıdakı mövzuları ehtiva edir:

a) Təmizlik mövzuları: Nəcasət, Təharət, Dəstəmaz, Məsh, Qüsl, Təyəmmüm, Qadınlara aid xüsusi hallar və s.

b) Bədənlə edilən ibadətlər: Namaz, Oruc, Etikaf.

c) Malla edilən İbadətlər: Zəkat, Fitrə sədəqəsi.

d) Həm Bədənlə, həm də Malla edilən İbadətlər: Həcc, Ümrə, Qurban.

e) Kəffarələr: Xəta ilə adam öldürmək, oruc, zihar, and içmək, ehramlı ikən saçkəsmk.

f) Nəzrlər və and içmək: Nəzr etmək və andın növləri.

2. İnsanlar arası əlaqələr (müamilat): Bu fəsil sosial həyatla əlaqədardır. Bu mövzu ilə bağlı Qurani-Kərimdə yüz yetmişə yaxın ayə var. Müamilat bəhsi aşağıdakı mövzuları əhatə edir:

a) Ailə həyatına aid hökmlər (münakəhat, müfəraqat): Nişanlanma, süd süd qohumluğu, mehr, ailə hüququ, nəfəqə, boşanma (talaq), iddə, yas tutmaq və sair.

b) Miras və vəsiyyətə aid hökmlər (fəraiz): Ölü ilə bağlı hüquqi məsələlər, vəsiyyət və s.

c) Maliyyə və iqtisadi məsələlərlə əlaqədar hökmlər: Alış-veriş, faiz, kirayə, şirkət, kəfalə, rəhn (girov) və digər mövzular.

İPƏKYOLU NƏŞRİYYATI

d) Məhkəmə və muhakimə (ədliyyə) məsələləri ilə əlaqəli hökmlər: Hakimin xüsusiyyətləri, mühakimə, istintaq, şahidlik, iqrar etmək və başqaları

e) Dövlətlərarası hüquqla əlaqəli hökmlər (siyər): Müharibə hüququ (cihad), sülh, İslam ölkəsindəki qeyri-müsəlmanların hüquqları və s.

3. Cinayətlərə aid hökmlər (üqubat): Bu fəsil dünyəvi cəzalarla bağlı olan məsələləri ehtiva edir və müəyyidələrlə əlaqədar. Bu mövzu ilə əlaqəli olaraq Qurani-Kərimdə əlliyə yaxın ayə var. Cinayətlər bəhsi aşağıdakı mövzuları əhatə edir:

a) Adam öldürmək və yaralamaq (cinayat): Qisas, diyət və digər mövzular.

b) Həd cəzaları: Oğruluq, zina, zina iftirası, spirtli içki qəbul etmək və dindən çıxmağın cəzaları.

II. Fiqh elminin məqsədi

Fiqh elminin xüsusi məqsədi insanın məsul olduğu mövzulardakı dini hökmləri dəlilləri ilə öyrətməkdir. Ümumi məqsədi isə, müsəlmana dini baxımdan hüquqlarını və öhdəliklərini bildirmək, onu məlumatlandırmaq və beləliklə, dünya və axirətdə xoşbəxt olmalarını təmin etməkdir.

D. FİQH ELMİNİN XÜSUSİYYƏTLƏRİ

Fiqh elminin özünə məxsus bəzi xüsusiyyətləri var. Bunlardan ən mühüm olanlar aşağıdakılardır:

a) Əsasının (istinad nöqtəsi) vəhy olması: Fiqhin əsas mənbələri Quran və Sünnədri. Quran və Sünnədə hökmü açıq-aydın bildirilməmiş məsələlərdən, müctəhidlər tərəfindən hökm qoyulacağı zamanda da Quran və Sünnə əsas alınaraq ictihad edilməlidir.

b) Həyatın tamamını əhatə etməsi: Allahın göndərdiyi olduğu din insan həyatını hər tərəfli əhatə edir. İnsanın özünə, ailəsinə, ətraf aləminə və yaradıcısına qarşı vəzifələri vardır. Bu vəzifələrin nələr olduğunu müəyyən edən elm fiqhdir. Eyni zamanda fiqh dövlət və dövlətlər arası münasibətlərlə bağlı hökmləri də müəyyən edir. Buna görə də, fiqh əhatə dairəsi geniş olan bir elm sahəsidir.

c) Əxlaqla əlaqəli olması: fiqhin ortaya qoyduğu bütün hökmlər əxalqi əsaslara uyğundur. Fiqh elmi, ədalət, fəzilət, yaxşılıq, döğruluq, dürüstlük, qul haqqına hörmət və riayət etmək kimi prinsip və davranışlara diqqət göstərir.

d) Həm fərdin, həm də cəmiyyətin yaxşılığını və mənfəətini qoruması: fiqh hər bir şəxsin bir fərd olaraq mənfəətini qoruduğu kimi cəmiyyətin də mənfəətini qoruyur. Fərdin hürriyyətini cəmiyyətə zərər vermədiyi müddətcə məhdudlaşdırmamağa çalışır.

e) Hökmlərinin bütün dövrlərdə tədbiq edilməsi baxımından əlverişli olması: fiqh elmi müctəhidlərə (dini dəlillərdən - Quran ayələri və hədislərdən, hökm çıxartmaq qabiliyyətinə və səlahiyyətinə sahib alimlər) yeni çıxan məsələ və hadisələrlə bağlı hökmləri müəyyən etmə səlahiyyəti verir. Bu xüsusiyyətinə görə fiqh, hər zaman və şərtdə tətbiq edilə bilən hökmləri ortaya qoyur.

İPƏKYOLU NƏŞRİYYATI

E. FİQH ELMİNİN ƏSAS BÖLMƏLƏRİ

FİQH ELMİNİN ƏSAS BÖLMƏLƏRİ

- **FÜRUİ-FİQH**
- **ÜSULİ-FİQH**

Fiqh elminin iki əsas bölməsi var:

a) Fürui-fiqh: İslam dininin dəstəmaz, namaz, oruc, zəkat, həcc, qurban, nikah və talaq kimi tədbiqi hökmlərini dəlilləri ilə izah edən elmdir.

b) Üsuli-fiqh (fiqh üsulu): fürui-fiqhdə yer alan dini hökmlərin çıxarılma metodlarını göstərən, ümumi prinsipləri bildirən, məzhəblər haqqında məlumat verən və hadisələrə müxtəlif yanaşma üslublarını öyrədən elimdir.

F. FİQH, ŞƏRİƏT VƏ İSLAM HÜQUQU

Fiqh, şəriət və İslam hüququ terminləri bir-birinə yaxın məfhumlar olub, bəzən biri digərinin yerində işlədildiyi müşahidə olunur. Əslində aralarında müəyyən kiçik fərqlər də var.



BİLGİ QUTUSU

Fiqhi hökmləri bir qismi heç vaxt dəyişmir. Bunlara təəabbüdi hökmlər deyilir. Bunlar ayeyi-kərimələrdə və hədisi-şəriflərdə açıq-aydın olaraq bildirilən hökmlərdir. Məsələn; Ramazan ayında oruc tutmaq buna misal verilə bilər.

Fiqhi hökmlərin bir qismi isə zamana və şərtlərə görə dəyişə bilər. Bunlara ictihadi hökmlər deyilir. Məsələn azanı minarədən oxumaq kimi.

Fiqh dinin əməllə olan əlaqəsini ifadə etməklə yanaşı, daha çox fərdlərlə əlaqədar məlumatlar verir. Fiqh bir elm olaraq qəbul edilir və bu ad altında tədris olunan dərslərdə xüsusilə fərdin Allah ilə olan əlaqələri, yəni ibadətlərlə bağlı mövzuları təfərrüatı ilə izah olunur.

Şəriət dinin əməli yönünü ifadə edir. Bəzən fiqh məfhumunun yerində də işlədilir. Qurani-Kərim və hədisi-şəriflərdə keçən "şəriət" kəlməsi ilə Allahın hökmləri, ilahi nizamın dünya ilə sosial həyat və dövlətlə əlaqədar olan yönü ifadə edilir. Şəriətə tabe olmağı və əməl etməyi Uca Allah əmr edir: **"Sonra (ya Rəsulum!) səni də dində şəriət sahibi (bir şəriət üzrə qaim) etdik. Sən ona (o şəriətə) tabe ol və (haqqı) bilməyənlərin nəfslərindən gələn istəklərə uyma!"** (Casiyə, 45/18)

Quranda keçmiş peyğəmbərlərin şəriətlərindən bəhs edilir. Məsələn Hz. Musanın şəriəti kimi (Maidə, 5/48; Şüra, 42/ 13, 21).

Fiqhdə çox işlədilən şəri kəlməsi, dini kəlməsini yerində işlədilən bir ifadədir. Təşri kəlməsi şəriət qoymaq, qanun çıxartmaq; məşru kəlməsi, şəriətə və qanuna uyğun olan deməkdir. Şari şəriət qoyan deməkdir. Bu sözlə həqiqi mənada hökmü göndərən Allah, məcazi mənada isə hökmü insanlara çatdıran və izah edən Allahın Rəsulu nəzərdə tutulur.

İslam hüququ dinin dövləti maraqlandıran hüquqi yönü üzərində duran bir elmdir. Bu termin günümüzdə fiqh mənasında da işlədilir.

İPƏKYOLU NƏŞRİYYATI

G. FİQH ELMİNİN DİGƏR ELMLƏRLƏ ƏLAQƏSİ

1. Təfsirlə əlaqəsi: təfsir elmi Qurani-Kərimi tətqiq edir, ayələrin mənalarını izah edir, nazil olma səbəblərini müəyyən edir. Təfsirlərdə verilən məlumatlar və verilən izahlar, fiqhi hökmlərin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

2. Hədislə əlaqəsi: hədis elmi Peyğəmbərin (s.ə.s) sözləri, davranışları və təqrirləri haqqında məlumat verir. Hədislərin səhihliyini, ravilərin keyfiyyətini müəyyən edib ortaya qoyur. Fiqhi bir hökm veriləcəyi zaman Kitab və Sünnəyə müraciət olunur. Hədislər fiqhi hökmlərin verilməsində müəyyənedici rola sahibdir.

3. Siyərlə əlaqəsi: siyər elmi Rəsulullahın (s.ə.s) həyatını, əxlaqını, davranışlarını, onun dövlət idarəsini, müharibələrini və peyğəmbərin hadisələrə qarşı göstərdiyi reaksiya və həlli yolları haqqında məlumat verən bir elmdir. Fiqh Sünnədən hökm çıxardacağı zaman siyər elminin verdiyi məlumatları də əsas alır. Çünki Sünnə fiqhdə ikinci əsas mənbə olub, hədis və siyərdən öyrənilir.

4. Fiqh elminin faydalandığı digər elmlər: fiqh elmi lazım gəldiyində İslam tarixi, məzhəblər tarixi, əqayid və təsəvvüf kimi elmlərdən də faydalanır.

Fiqhi hökmlər çıxarılarkən hökm veriləcək mövzu ilə əlaqədar zahiri elmlərin də bilinməsi zəruridir. Bu səbəbdən fiqh sosiologiya, psixologiya, tibb, biologiya, coğrafiya, tarix, ədəbiyyat və filologiya kimi müxtəlif elm sahələrindən faydalanır. Fiqhin bu elmlərlə əlaqəsinə nümunə olaraq aşağıdakı məlumatları qeyd edə bilərik:

Fəlsəfə və Məntiqlə əlaqəsi: Fiqh ortaya qoyduğu hökmlərin doğruluğunu isbat etmək və əsaslandırmaq üçün bəzi izahatlar verir. Bunu edərkən fəlsəfə və məntiqin metodlarından istifadə edir. Müctəhid, bir məsələ haqqında öz rəyini, yəni görüşünü ortaya qoyarkən Quran və Sünnəni əsas almaqla bərabər ağıl və məntiqdən də istifadə edər və qiyas metoduna baş vurar.

Sosiologiya ilə əlaqəsi: sosiologiya cəmiyyətin adət-ənənələrini tədqiq edən bir elm sahəsidir. Fiqh də cəmiyyətin dinə uyğun olan adət-ənənəsini hökm verərkən bir mənbə olaraq qəbul edir.

Psixologiya ilə əlaqəsi: fiqh elmi bir şəxsin davranışı haqqında hökm verərkən, o şəxsin psixoloji vəziyyətini nəzərə alır. Məsələn, fiqh, nə dediyinin fərqində olmayacaq qədər hirslənən bir insanın, əsəbi halda ikən içdiyi anddan ötrü məsuliyyət daşımayacağını bildirir.

Filologiya ilə əlaqəsi: ayələrdən hökm çaxara bilmək üçün ərəb dilini çox yaxşı bilmək lazımdır. Çünki Quran ərəb dilində nazil olmuşdur.

Hər hansı bir mövzu ilə əlaqədar ətraflı bilgi və məlumat əldə edilməyincə fiqhdə hökm vermək olmaz. Bir məsələnin tarixi inkişaf prosesini, bir yerin coğrafi vəziyyətini, bir insanın bioloji inkişafını, bir kəlmənin işlədildiyini mənanı bilmədən fitva vermək, hökm qoymaq mümkün deyil.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Fiqhin kəlmə və termin mənalarını yazın.
2. Əbu Hənifəyə görə lən fiqhin tərifini söyləyin.
3. Fəqih kimə deyilir? Fəqih olmağın hansı faydaları var?
4. Hökm və əhkam kəlmələrini izah edin.
5. Fiqh elminin mövzusu barədə danışın.
6. Fiqh elminin xüsusi və ümumi məqsədlərihaqqında məlumat verin.
7. Fiqh elminin xüsusiyyətləri barədə məlumat verin.
8. Fürui-fiqh və üsuli-fiqh terminləri ilə nə qəsd olunur?
9. Fiqh və şəriət kəlməsi arasındakı əlaqəni izah edin.
10. Fiqh elminin digər elmlərlə olan əlaqələrini misallarla izah edin.

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Fiqh alimi		*İctihad etməyə səlahiyyətli şəxs*
2	Müctəhid		*Münakihat*
3	Ailə hüququ		*Cinayətlər*
4	Fiqh		*Zamana görə dəyişən hökm*
5	İctihadi hökm	**1**	*Fəqih*
6	Üqubat		*Dərindən qavramaq*

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) Fiqh kitabını oxuyana fəqih deyilir.

2. ( ) Fiqhin əsas mövzularından biri olan üqubat başlığı altında üxrəvi deyil, dünyəvi cəzalar qeyd olunur.

3. ( ) Fiqh elmində "siyər" deyiləndə sadəcə olaraq Hz Peyğəmbərin (s.ə.s) həyatı başa düşülür.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(müimələ, təəbbüdi hökmlər, ibadət, füqəha, üqubat, fəraiz)

1. Miras bölgüsü ilə əlaqədar hökmlər fiqhin ..... başlığı altında tədqiq edilər.

2. Dinin hökmlərini dəlilləri ilə bilən, şəri dəlillərə əsaslanaraq hökm çıxara bilən şəxslərə ..... deyilir.

3. Ayeyi-kərimələrdə və hədisi-şəriflərdə açıq-aydın olaraq bildirilən, heç bir zaman dəyişməyən fiqhi hökmlərə ..... deyilir.

4. Fiqhin əsas mövzuları ....., ... və .....dir.

İPƏKYOLU NƏŞRİYYATI

CƏDVƏLDƏ BOŞ QOYULAN YERLƏRƏ FİQHİN ƏSAS MÖVZULARINI YAZIN

Namaz	**İbadət**	Dəstəmaz		Münakəhat	
Cinayət	**Üqubat**	İddia		Siyər	
Qurban		Müfarəqat	**Müamilat**	Təzir	**Üqubat**
Diyə		Kəffarə		Oruc	

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakı fiqh tərifllərindən hansı Əbu Hənifənin yolunu təqib edən Hənəfi fəqihləri tərəfindən mənimsənilən tərifidir?

a. Elmi-fiqh məsaili-şəriyyeyi-əməliyyəni bilməkdir.

b. Fiqh təfsili dəlillərdən çıxarılan dini-əməli hökmləri bilməkdir.

c. Fiqh bir şəxsin lehində və əleyhində olan şeyləri bilməsidir.

d. Fiqh hər mövzu ilə bağlı fitvaları bilməkdir.

2. Fiqh kəlməsinə mənaca ən yaxın olan kəlmələr aşağıdakılardan hansıdır?

a. Bilmək, tapmaq

b. Araşdırmaq, tətqiq etmək

c. Anlamaq, qavramaq

d. Ətraflı öyrətmək, yaşamaq

3. "Bir saat dinin incəliklərini öyrənmək üçün çalışmaq, mənim üçün fiqhsiz bir gecə səhərə qədər ibadət etməkdən daha yaxşıdır" ifadəsini kim söyləmişdir?

a. Hz. Əli (r.ə)

b. Muaz ibn Cəbəl (r.ə)

c. Hz. Ömər (r.ə)

d. Əbu Dərda (r.ə)

4. Dövlət idarəsi və dövlətlərarası əlaqələr haqqında fiqhin hansı bölməsində məlumat verilir?

a. İbadət

b. Müamilə

c. Üqubat

d. Şəriət

5.Aşağıdakılardan hansı fiqhin ümumi xüsusiyyətlərindən biri deyil?

a. İnsan həyatının tamamını əhatə etməsi

b. Hökmlərinin hər dövrdə tədbiq edilməsinin mümkün olunması

c. Dövlət idarəçilərinin istəklərini diqqətə alması

d. Vəhyə əsaslanması

İPƏKYOLU NƏŞRİYYATI

II
BÖLMƏ

FİQH ELMİNİN TƏŞƏKKÜL TARİXİ

MÖVZULAR

A. MƏZHƏBLƏRƏ QƏDƏR OLAN DÖVR

B. MƏZHƏBLƏRİN TƏŞƏKKÜL DÖVRÜ

C. MƏZHƏBLƏR FİQHİNİN HAKİM OLDUĞU DÖVR

D. QANUNVERİCİLİK FƏALİYYƏTLƏRİNİN BAŞLADIĞI DÖVR

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Peyğəmbərimizin (s.ə.s) dövründə nə üçün məzhəb yox idi?
2. Məzhəblərə bağlı olmaq lazımdırmı? Böyüklərinizlə məsləhətləşin.
3. İslamda nə üçün fərqli məzhəblər ortaya çıxmışdır? Araşdırın.
4. Günümüzdəki məşhur olan fiqhi məzhəblərin və banilərin (fəqehlərinin) adlarını öyrənin.
5. Müasir dövrdə yazılan fiqh əsərlərindən bildiklərinizin adlarını yazın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. MƏZHƏBLƏRƏ QƏDƏR OLAN DÖVR

I. Hz. Peyğəmbər (s.ə.s) dövründə fiqh

Hz. Mühəmmədin (s.ə.s) peyğəmbərliyi ilə başlayan və əsası Mədinədə qoyulan fiqh, Peyğəmbərin (s.ə.s) həyatı boyunca formalaşaraq inkişaf etməyə davam etmişdir.

Fiqh baxımından Peyğəmbər (s.ə.s) dövrünün diqqət çəkən xüsusiyyətləri bunlardır:

1. *Fiqhi hökmlər vəhy ilə müəyyən olunmuşdur:* Peyğəmbərə (s.ə.s) gələn ayələrin bəzilərində "Sənə soruşurlar", "Səndən fitva istəyirlər" kimi ifadələr var. Haqqında ayə olmayan məsələlərdə isə Hz. Mühəmmədin (s.ə.s) özü qərar vermişdir. Bu da, dinin ikinci əsas mənbəyi olan Sünnəyi-Səniyyəni meydana gətirmişdir.

2. *Fiqhi hökmlər tədricən bildirilmişdir:* hökmlər toplu olaraq bir anda endirilməmiş, iyirmi üç illik bir müddədə mərhələ-mərhələ bildirilmişdir. Tədricilik nəticəsində din insanlar tərəfindən daha yaxşı öyrənilib mənimsənilmiş, cəmiyyətdə vərdiş halına gəlmiş, pis adət-ənənələr və davranışlar isə tədricən ortadan qaldırılmışdır. Məsələn, içki üç mərhələdə qadağan edilmişdir (Bəqərə, 2/19; Nisa, 4/43 və Maidə, 5/90-91).

3. *Qoyulan hökmlərdən bəziləri nəsx olunmuşdur:* nəsx qoyulan bir hökmün daha sonra başqa bir şəri dəlillə qüvvədən düşməsidir. Quran ayələri əvvəlki şəriətləri nəsx etmişdir. İslamın ilk dövrlərində namaz qılmaq üçün qiblə Məscidi-əqsa ikən «Bəqərə» surəsinin 149, 150-ci ayələri ilə qiblənin yönü dəyişdirilmişdir. «Bəqərə» surəsinin 180-ci ayəsi olan vəsiyyət ayəsi miras hökmlərini ehtiva edən «Nisa» sürəsinin 11-ci ayəsi və *"varisə vəsiyyət yoxdur"*(Buxari, Vəsayə, 6; Əbu Davud, Vəsayə, 6;) hədisi ilə nəsx olunmuşdur. Peyğəmbər (s.ə.s) əvvəllər qəbir ziyarətini qadağan etmiş, cahiliyyə dövrünün adətləri aradan qalxdıqdan sonra icazə vermişdir.

4. *Bəzi hökmlər məşvərətlə qoyulmuşdur:* Hz. Peyğəmbər vəhyin gəlmədiyi mövzularda bəzən səhabələri ilə məsləhətləşərək, bəzən də bilgi və təcrübələrinə əsaslanaraq hökmlər qoymuşdur. Bu hökmlər düzgün olmadığı təqdirdə isə, vəhy ilə düzəldilmişdir.

5. *İxtilaf olmamışdır:* Allah Rəsulunun dövründə ona qarşı etiraz edilmədiyi üçün hər hansı bir fiqhi məsələdə ixtilaf və fikr ayrılığı da olmamışdır.



BİLGİ QUTUSU

Fiqh baxımından Peyğəmbər (s.ə.s) dövrünün diqqət çəkən xüsusiyyətləri bunlardır:

* Vəhylə formalaşan fiqh
* Nəsx (hökmün qüvvədən düşməsi)
* Tədricilik
* Təşri (yeni hökm qoyma)
* İxtilafın olmaması

II. Raşidi xəlifələr dövründə fiqh

Bu dövr Allah Rəsulunun (s.ə.s) vəfatı ilə başlayır və h. 40/m. 660-cı illərə qədər davam edər. Əhkamla bağlı ayə və hədislərin səhabə tərəfindən təfsir və izah edildiyi dövrdür.

Bu dövrün fiqh baxımından diqqət çəkən xüsusiyyətləri bunlardır:

1. Yeni ictihadlara ehtiyac olmuşdur: fəthlər nəticəsində, ərəb olmayan bir çox millətlər müsəlman olmuş, bu insanlar da səhabələrə dinlə əlaqədar bəzi suallar soruşmuşlar.

İPƏKYOLU NƏŞRİYYATI

2. *Hadisələrə bağlı qalaraq fiqhlə məşğul olunmuşdur:* səhabə fəqihlər, sadəcə olaraq meydana gələn hadisə və məsələlərə yönəlik fitvalar vermişdir. Hələ meydana gəlməyən bir hadisəni olmuş kimi qəbul edərək hökm çıxarmamışlar. Bunu vaxt israfı hesab etmişlər.

3. *Şura metodu ilə ictihad edilmişdir:* Xülafayi-Raşidin fiqhi mövzuları müzakirə etmək üçün fiqhi məsələni səhabə məclisinə təqdim etmişlər. Şüra ictihadı və icma bu dövrdə ortaya çıxmışdır. Bu dövrdə dövlət idarəçiləri fiqhə uyğun hərəkət etmiş, yeni hadisələr haqqında hökm vermək üçün şura məclisinə təqdim etmişdir.

QEYD EDƏK

Xüləfayi-raşidin dövründə səhabələrdən bəziləri fiqhi anlayışları və fitvaları ilə fiqh sahəsində məşhurlaşmışlar.

Hz. Ömər, Hz. Əli, Hz. Abdullah ibn Məsud, Hz. Abdullah ibn Abbas, Hz. Abdulla ibn Ömər, Hz. Aişə, Hz. Zeyd ibn Sabit ən çox fitva verən yeddi səhabədir.

III. Tabeun dövründə fiqh

Səhabələri görən müsəlmanlara tabeun deyilir. Bu dövr Raşidi xəlifələrin dövrünün axırında başlayıb H. 120-ci ildə Əməvi hökumranlığın süqutuna qədər davam edir.

Tabeun dövründə səhabənin yolu təqib edilmişdir. Tabeun fəqihləri fiqh elmini səhabədən öyrənmişlər. Hər hansı bir məsələ ilə əlaqədar hökmün verilməsi üçün ilk öncə Quran və Sünnəyə müraciət etmiş, onlarda hökm tapa bilmədiyi təqdirdə hökmün illətinə görə ictihad etmişdilər.

Kufədə Əlqəmə, Məsruq, Qazı Şüreyh, İbrahim Nəxəyi, Şəbi, Həmmad ibn Əbu Süleyman, İbn Əbu Leyla; Mədinədə Səid ibn əl-Müsəyyəb, Qasım ibn Mühəmməd, Nafe, Zöhri, Rəbiətur-rəy; Məkkədə Mücahid, İkrimə, Əta ibn Əbi-Rəbah bu dövrdə ən məşhur olan müctəhid fəqihlərdir.

Bu dövrün fiqh baxımından diqqət çəkən xüsusiyyətləri bunlardır:

1. *Əməvilər dövründə siyasi baxımdan fikr ayrılıqlarının meydana gəlməsi, sual və problemlərin artmasına, fərqli fikirlərin formalaşmasına səbəb olmuşdur.*

2. *Fiqhin sahəsi genişlənmiş, önəmli məscidlərdə fiqh məclisləri meydana gəlməyə başlamışdır.*

3. *Zəif və mövzu (uydurma) hədislərin xalq nəzdində çoxalması, hədislərin səhih olub-olmadığını araşdırma fəaliyyətlərinin ortaya çıxmasına səbəb olmuşdur.*

4. *Müəllim və coğrafi fərqlilik müxtəlif rəylərin ortaya çıxmasına səbəb olmuşdur.*

5. *Fiqhlə əlaqədar yazılı mətnlər bu dövrdə ortaya çıxmışdır.*

6. *Əhli-rəy və Əhli-hədis kimi fiqh məktəblərinin ortaya çıxmasına məhz bu dövrə təsadüf edilir.*

Bu məktəblərin ən mühüm xüsusiyyətləri bunlardır:

Əhli-rəy (Kufə məktəbi): Bəsrə körfəzinin kənarında yerləşən Kufə şəhəri, islam dövləti sərhədlərinin (coğrafiyasının) genişlənməsi ilə xülafayi-raşidin dövründə ən mühüm şəhərlərdən birinə çevrilmişdir. Siyasi əhəmiyyətinə görə Hz. Əli tərəfindən paytaxt elan edilmişdir. Seçilən səhabələrdən Abdullah ibn Məsud bura gəlmiş və dini təhsil fəaliyyətləri ilə məşğul olmuşdur. Hz. Ömərin fiqh anlayışını Kufəyə daşıdığı qəbul edilən İbn Məsudun öyrətdikləri Kufədə Əlqəmə, İbrahim ən-Nəxəi və Həmmad ibn Əbu Süleymanın, daha sonra isə Əbu Hənifənin yetişməsində təsirli rola malik olmuşdur.

Kufə şəhəri Məkkə, Mədinə şəhərləri kimi qapalı deyil, əksinə hər cür inkişafa açıq olan ictimai mühitə sahib bir şəhər mövqeyində idi. Ehtiyac və problemlərhəddindən artıq çox idi. Gündəlik baş verən hadisələrin çox və müxtəlif olması ictihada olan ehtiyacı artırmaqdaydı. İctimai-mədəni mühit fərqliydi, əvvəlki dinlər və etiqadlar öz təsirini hələ itirməmişdi. Kufə əhalisi arasında yeni müsəlman olanlar çox idi. Zəif və mövzu hədislər cahil xalq tərəfindən həddindən çox istifadə edilirdi. Bu cür səbəblər Kufənin özünə məxsus fiqh anlayışının formalaşmasında və fəqihlərin yetişməsində təsirli olmuşdur.

Əhli-rəy fəqihləri İslamın ümumi prinsiplərinə tərs düşən fikirləri rədd edir, hökmlərin məqsədini əsas alaraq suallara məntiqli cavablar axtarırdılar.

Əhli-hədis (Hicaz/Mədinə məktəbi): Dini elmlərə hakim olan səhabələrin əksəriyyəti Məkkə və Mədinə şəhərlərində yaşamış və burada insanları məlumatlandırmışlar. Abdullah ibn Abbas və Abdullah ibn Ömərin fitvaları buradakı fiqhin formalaşmasında mühüm rol oynamışdı. Tabeun böyüklərindən Zöhri, Nafe, Rəbiətür-rəy kimi alimlərdən elm əxz etmiş İmam Malik, İmam Şafei və Əhməd ibn Hənbəl bu məktəbin ən məşhur təmsilçiləri olmuşlar.

Mərkəzi Mədinə sayılan əhli-hədis məktəbinin ən mühüm xüsusiyyəti "əsər" xüsusiyyətini daşımasıdır. Əsər Hz. Peyğəmbərin hədisləri ilə səhabə və Tabeun fitvalarına deyilir.

Fərqli mədəniyyətlərə qapalılıq xüsusiyyətini Hz. Peyğəmbərin dövründən etibarən davam etdirən Mədinədə rəyə çox ehtiyac hiss edilməmişdir. Geniş bir hədis mirasına sahib olmanın da təsiri ilə əhli-hədis fəqihləri ağıldan çox nəqlə əhəmiyyət vermişdilər.



B. MƏZHƏBLƏRİN MEYDANA GƏLMƏ DÖVRÜ

I. Müctəhid imamlar (ətbəüt-tabein) dövründə fiqh

Bu dövrün başlanğıcı h. 120/m. 738, sona çatması isə h. 350/m. 960-cı il tarixlərinə təsadüf edir. Fiqh məsələlərinin yazılmağa başlandığı və böyük müctəhidlərin ortaya çıxdığı dövrdür.

Bu dövr fiqhin qızıl hərflərlə yazıldığı dövrüdür və ən önəmli müctəhidlər bu dövrdə yaşamışlar. Ətbəüt-tabein dövründə fiqh ilə bağlı fəaliyyətlərin məhsuldarlığı səbəbilə bu dövrə İslam hüququnun qızıl dövrü, müctəhidlər əsri, tədvin və məzhəblərin meydan gəlmə dövrü adları da verilir.

Kufədə Zeyd ibn Əli Zeynəlabidin (v. 122/740), Əbu Hənifə Nüman ibn Sabit (v. 150/767), Əbu Yusif (v. 182/798), Məhəmməd ibn əl-Həsən əş-Şeybani (v. 189/804), Davud ibn Əli əz-Zahiri (v. 270/883); Mədinədə Cəfər əs-Sadiq (148/765), Malik ibn Ənəs (v. 179/795); Məkkədə İbn Cüreyc (v. 150/767), Bəsrədə Süfyan əs-Sövri (v. 161/778), Süfyan ibn Üyeynə (v. 198/813); Bağdadda Əbu Sövr (v. 240/854), Əhməd ibn Hənbəl (v. 241/855), Təbəri (v. 310/922); Suriyada Övzai (v. 157/774); Misirdə Leys ibn Səd (v. 175/791), Məhəmməd ibn İdris əş-Şafei (v. 204/820); Xorasanda Abdullah ibn Mübarək (v. 181/797) bu dövrdə ən məşhur müctəhid olmuşdur.

Əbu Hənifə, İmam Malik, Şafei, Əhməd ibn Hənbəl və Cəfəri Sadiq kimi alimlərin ətrafında insanlar yığılaraq məzhəblər meydana gətirməyə başlamışdılar. İlk dövrlərdə sadəcə olaraq şəhərlərdə meydana gələn fiqhi qruplaşmalar tədricən başqa yerlərədə yayılmışdır.

Bu dövrün fiqh baxımından diqqət çəkən xüsusiyyətləri bunlardır:

1. *Bu dövrdə böyük fəqihlər yetişmişdir:* Abbasi xəlifələrinin və dövlət rəhbərlərinin fiqh alimlərinə qayğısı və dəyər verməsi bu mühitin meydana gəlməsində təsirli olmuşdur.

2. *Fiqh və fiqh üsulu elmləri tədvin edilmiş və müstəqil elm sahəsi kimi formalaşmışdır:* Həmçinin bu dövrdə fiqhin ikinci əsas mənbəyi olan Sünnə tamamilə tədvin edilmişdir.

3. *Fiqhi məzhəblər ortaya çıxmışdır:* günümüzdə bilinən bütün məzhəblər məhz bu dövrdə formalaşmışdır.

İPEKYOLU NƏŞRİYYATI

4. *Fiqhi mövzuların hamsında ictihadlar edilmişdir:* əməli fiqhlə yanaşı nəzəri fiqh də inkişaf etmiş, meydana gəlməsi ehtimal olunan bütün məsələlərin hökmləri müəyyən olunmuş və fiqhi fərziyyələr (hələ baş verməmiş hadisələr, məsələlər) mübahisə predmetinə çevrilmişdir.

II. Məzhəblərin ortaya çıxma səbəbləri

1. İslam torpaqlarının genişlənməsi və müxtəlif mədəniyyətlərin İslam ilə tanış olması təbii olaraq özü ilə birlikdə yeni problemləri və sualları da ortaya çıxartmışdır. Peyğəmbərdən (s.ə.s) sonra ortaya çıxan siyasi hadisələr və elmi mübahisələr də fikir ayrılıqları ilə nəticələnmişdir.

2. Eyni mövzu ilə əlaqədar ayə və hədislərin müctəhidlər tərəfindən fərqli anlaşılması və izah edilməsi məzhəblərin formalaşmasında mühüm rol oynamışdır.

Fiqh mənbə olaraq Qurani-Kərimə və Hz. Peyğəmbərin Sünnəsinə söykənir. Bu mənbələrdəki ifadələrin fərqli şəkillərdə başa düşülməsi və təvil edilməsi məzhəblərin ortaya çıxmasında mühüm səbəblərdən olmuşdur. Nümunə olaraq aşağıdakı ayələri göstərmək olar:

❖ **"Maidə" surəsinin 6-cı** ayəsindəki "ərculəkum (ayaqlarınızı)" kəlməsinin "ləm" hərfinin hərəkəsini fəthə ilə oxuyaraq ayədəki "fəğsilu (yuyun)" feilinə aid edən Hənəfi, Maliki, Şafei və Hənbəli alimləri tərəfindən ayaqların yuyulmasına hökm verilərkən, həmin "ləm" hərfinin hərəkəsi kəsrə ilə oxuyaraq "vəmsəhu (məsh edin)" feilinə aid edən Cəfəri məzhəbinə mənsub alimlər isə məsh ediləcəyinə hökm vermişlər.

❖ **"Bəqərə" surəsinin 228-ci** ayəsindəki "qüru" kəlməsi müctəhidlər tərəfindən fərqli şəkillərdə başa düşülmüşdür. Bu kəlmənin iki zidd mənası vardır. Ərəb dilində bu kəlmənin aybaşı mənasına gəldiyinə dair dəlillər olduğu kimi, aybaşından təmizlənmə mənasına gəldiyinə dair dəlillər də var. Hənəfi alimləri bu kəlmənin aybaşı mənasını əsas alarkən, Şafei alimləri isə aybaşından təmizlənmə mənasını əsas almışlar və fitvalarını buna müvafiq vermişlər.

❖ **"Maidə" surəsinin 6-cı** ayəsinin "qadınlara toxunsanız" ifadəsindəki "ləms" kəlməsini Şafei alimləri lüğət mənasında başa düşərkən, Hənəfi alimləri isə məcazi mənada başa düşmüşlər. Buna görə də Şafei alimləri qadına əl dəydiyi zaman dəstəmazın pozulduğu fitvasını vermişlər.Hənəfi alimləri isə ayədəki toxunma ifadəsi ilə cinsi münasibətin nəzərdə tutulduğunu söyləyərək qadına əl dəydiyi zaman dəstəmazın pozulmadığı fitvasını vermişlər.

Bu cür hallar fəqihlər arasında elmi mübahisə mövzusuna çevrilmişdir. Müctəhidlər arasında Quranı anlamaqla bağlı ortaya çıxan ixtilafların əsas səbəbləri bunlardır:

- Ayədəki ləfzin hansı mənasına görə hökm veriləcəyi,
- Ayənin mənasının ümumi və ya xüsusi olduğu,
- Ayənin nəsx olunub-olunmadığı,
- Ayələrin hansının daha əvvəl nazil olduğu haqqında fərqli rəylərin olması.

Sünnə ilə əlaqədar ortaya çıxan ixtilafların əsas səbəbləri isə bunlardır:

- Hədislərin əksəriyyətinin Peyğəmbərin (s.ə.s) ağzından çıxdığı sözlərlə deyil, mənaları ilə rəvayət edilməsi və bu rəvayətlər arasında fərqliliyin olması,
- Hədisin bir neçə mənaya gəlməsi,
- Hədislə bildirilən mənanın tam olaraq başa düşülməməsi,
- Peyğəmbərin (s.ə.s) davranışlarının fərqli başa düşülməsi,
- Bir məsələyə aid fərqli iki hədisin olması,

İPƏKYOLU NƏŞRİYYATI

- Müctəhidlərin hədis bilgisinin fərqli olması,
- Hədislərin səhhət dərəcəsini müəyyən etmək üçün lazım olan metodların fərqli olması,
- Xəbəri-vahidə əməl edilib-edilmədiyi,
- Zəif hədisə əməl edilib-edilmədiyi və zəif hədisin, yoxsa *ümumi prinsipin əsas alınacağı.*

Heç bir vaxt unudulmamalıdır ki, fiqhi məzhəblər arasında ixtilaflar dinin fürusunda (dinin tədbiqatla əlaqədar hökmlərində) olub, əsas mövzularda deyil. Yaşayış tərzləri və etiqadi fikirləri ümumi olaraq insanlar tərəfindən bəyənilən müctəhidlərin hamısı beş vaxt namazın qılınması, Ramazanda orucun tutulması, fərz olan zəkatın verilməsi və başqa bütün əsas dini mövzularda həmrəy olmuşlar.

3. Müctəhidlərin fərqli mühitlərdə yetişməsi və fiqhi hökmləri çıxararkən fərqli metodlardan istifadə etmələri bir-birindən fərqli fikirlərin və məzhəblərin ortaya çıxmasına səbəb olmuşdur. Adət-ənənələr və yaşadığı mühit amili müctəhidlərin fərqli fitva vermələrinə əsas təşkil etmişdir.

Müctəhidlərdən bəziləri səhabə qövlünü(rəyini,fitvasını), səhabələr arasında fərq qoyulmadan mütləq olaraq dəlil qəbul edərkən, bəziləri isə sadəcə olaraq bəzi səhabələrin rəylərinin mötəbər olduğunu qəbul etmişlər.

Malikilər Mədinəlilərin adət-ənənələrinə həddindən artıq bağlı qalarkən, digər məzhəblər öz bölgələrinin adət-ənənələrini müəyyən şərtlər daxilində dəlil kimi qəbul etmişlər.

4. Müctəhidlərin fərqli fikirlərə sahib olmalarının səbəblərdən biri də, fərqli xarakterə və fitrətə malik olmalarıdır. Bundan başqa müəllimlərinin fərqli olması və dini məsələlərə fərqli yanaşmaları müctəhidlərin rəylərinin formalaşmasında mühim amillərdən biri olmuşdur.

İnsanların anlayışları, istedadlar, xarakterləri və mühakimə qabiliyyətləri fərqlidir. Bundan əlavə, insanların yetişdiyi mühit, gör-götürləri, təcürbələri, bilik və bacarıqları da bir-birindən fərqlidir. Bu fərqliliklərin dini əhkamın təvilində fərqli nəticələr ortaya çıxarması təbii və qaçınılmazdır.

Eyni zamanda dini məsələləri anlamağa çalışarkən müctəhidlərin istifadə etdikləri dəlillər ilə bunlardan hökm çıxararkən istifadə olunan metodların fərqli olması da fərqli hökmlərin qoyulmasına səbəb olmuşdur.

5. Əvvəlki müctəhidlər fiqhi mövzuların hamısında ictihad etməmişlər. Bu dövrdə artan ehtiyaca görə müctəhidlər sistemli apardıqları ictihad fəaliyyətləri ilə bütün mövzularda fiqhi hökmlər ortaya qoymuşlar. Hökm çıxararkən istifadə etdikləri metodları və çıxardıqları hökmləri özləri və ya tələbələri tərəfindən müəyyən başlıqlar altında kitablarda toplamışdılar. Bu kitablardan asanlıqla bilgi əldə edən digər alimlər bu metodları mənimsəmiş və bunun nəticəsində məzhəblər meydana gəlmişdir.

6. Müctəhidlərin fikirlərinin kitablarda nəql olunması məzhəblərin sistemləşməsində önəmli rol oynamışdır. Müctəhidlərin yetişdirdiyi tələbələrin zamanla dövlət idarəçiliyində önəmli vəzifələrə gəlməsi, bu görüşləri müxtəlif ölkələrə daşımaları məzhəblərin yayılmasında mühüm rol oynamışdır.

Bir məzhəbə bağlı qalmaq lazımdırmı? Sinifdə müzakirə edin.

İPƏKYOLU NƏŞRİYYATI

III. Günümüzdə mövcud olan fiqhi məzhəblər



A. Əhli-sünnə məzhəbləri

Lüğətdə "məzhəb" kəlməsi gedilən yol, təqib edilən cığır mənalarına gəlir. Termin olaraq isə fiqhi məsələlərdəki müxtəlif fikir ayrılıqları səbəbi ilə eyni fikirləri mənimsəyən fiqhi qruplaşmaların hər birinə verilən addır.

Hz. Peyğəmbər (s.ə.s) dövründə, müsəlmanlardan hər hansı biri, bir çətinliklə qarşılaşdığı və dinin bir hökmünü anlamadığı zaman gəlib Peyğəmbərə (s.ə.s) soruşub öyrənərdi. Hz. Peyğəmbərin (s.ə.s) vəfatından sonra Səhabə və Tabeun dövrlərində də məşhur olan Səhabə və Tabeun alimləri, müsəlmanların başa düşə bilmədikləri məsələləri Hz. Peyğəmbərin (s.ə.s) onlara öyrətdiyi şəkildə Quran və Sünnə işığında açıqladılar. Daha sonra isə Əbu Hənifə, İmam Malik, İmam Şafei və Əhməd ibn Hənbəl və Cəfəri-Sadiq kimi dinin əhkamını yaxşı bilən fəqihlərin ətrafında qruplar meydana gəlməyə başladı. Bu qruplar get-gedə bir məzhəb halına gəldi.

Müctəhidlər, xalqın ehtiyacına və cahillərin fitva və hökm vermə istəklərinə görə özlərini elm sahəsində yetişdirmiş və hər cür mövzuda hökm çıxartmaq üçün əllərindən gələni əsirgəməmişdilər. Ancaq bu alimlər fitva verərkən "biz bir məzhəb qururuq, siz də bizə tabe olun, məzhəbimizə girin" deyə bir fikir ifadə etmək, bir təklif vermək bir yana dursun, hətta ağıllarından belə keçirməmişdilər.

Günümüzə qədər gəlib çatan və məşhur olan fiqhi/əməli məzhəblər Hənəfi, Şafei, Maliki və Hənbəli məzhəbləridir. İndi isə bu məzhəblərlə ətraflı tanış olaq:



1. Hənəfi məzhəbi

a. Hənəfi məzhəbinin İmamı: Əbu Hənifə (h. 80-150/m. 699-767)

Adı Numan ibn Sabit olan İmam-Əzəm Əbu Hənifə Xorasandan gəldiyi qəbul edilən Sabit ibn Zutanın oğludur. Əbu Hənifə Kufə şəhərində doğulub böyüdü, təhsilinidə bu şəhərdə aldı. H. 150-ci ildə Bağdadda vəfat etdi. Əbu Hənifənin dərslərində fitva verilən məsələlərin sayı altı yüz mindən çox olduğu rəvayət olunur.

Əbu Hənifədən fiqh elmini əxz edən tələbələrin sayının dörd minə çatdığı, bunlardan yeddi yüz otuzu elmdə yüksəldiyi və qırxa qədər tələbənin isə müctəhidlik dərəcəsinə çatdığı bildirilir. Hənəfi məzhəbində Əbu Yusif ikinci, İmam Məhəmməd üçüncü imam olaraq qəbul edilmişdir.

Əbu Yusif (h. 113-182/m. 731-793): Əbu Yusif H. 113-cü ildə Kufədə doğulmuş, h. 182-ci ildə isə Bağdadda vəfat etmişdir. Əbu Yusif Abbasi xəlifələrindən Mehdi, Hadi və Harun ər-Rəşid dövrlərində qazılıq vəzifələrində işləmişdir. Islam tarixində "qadıl-qudat"(hakimlərin-hakimi) ünvanı ilk dəfə Əbu Yusifə verilmişdir. Əbu Yusifin ən önəmli əsəri vergi hüququ ilə bağlı olan "Kitabul-Xərac"dır.

İmam Məhəmməd (h. 132-189/m. 749-804): Məhəmməd ibn Həsən əş-Şeybani, h. 132-ci ildə Vasid şəhərində doğulmuş, h. 189-cu ildə isə Rəy şəhərində vəfat etmişdir. Onun əsərləri Hənəfiliyin sistemləşməsində və yayılmasında böyük rola sahibdir.

b. Hənəfi məzhəbinin yayıldığı yerlər

Hənəfi məzhəbi demək olar ki, Abbasilər dövlətinin hakim olduğu bütün bölgələrdə yayılmışdı. Abbasilər dövründə Əbu Yusifin qadıl-qudat (bütün hakimlərin başçısı) olması, bu məzhəbin yayılmasında təsirli olmuşdur. Müsəlman nüfusun çox olduğu Orta Asiya (Türkiyə, Pakistan, Banqladeş, Əfqanıstan, Hindistan, Şərqi Türküstan və digər Türk Cümhuriyyətləri və başqaları), Balkanlarda (Arnavutluq, Kosova, Bosna və b.), Şimali Avropada və Qafqazda ən çox yayılan məzhəbdir. Hal-hazırda dünyadakı müsəlmanların nüfusunun 40 % - nın Hənəfi məzhəbinə mənsub olduğu ehtimal olunur.

2. Maliki məzhəbi

a. Malik ibn Ənəs (h. 93-179/m. 712-795)

Malik ibn Ənəs H. 93-cü ildə Mədinədə döğulmuş və H. 179-cu ildə həmin yerdə vəfat etmişdir. Malik ibn Ənəs rəy tərəfdarı Rabiətür-rəyin dərslərində iştirak etmiş və onun da üzərində böyük bir təsirə malik olan Əbdurrəhman ibn Hürmüzdən fiqh elmini öyrənmişdir. Eyni zamanda Abdullah ibn Ömərin köləlikdən azad etdiyi Nafedən elm əxz etmişdir. Bunlardan başqa İbn Şihab əz-Zöhri, Səid ibn Müsəyyəb, Əbu Zinad, Yəhya ibn Səid əl-Ənsaridən faydalanmışdır.

b. Maliki məzhəbinin yayıldığı yerlər

Maliki məzhəbi Afrikada (Misir, Tunis, Əl-Cəzair, Mərakeş və Sudan və.s.) və Əndəlüsdə yayılma imkanı tapmışdır. Hicaz bölgəsində az sayda Maliki məzhəbinə mənsub müsəlmanlara təsadüf edilir. Bu məzhəb xüsusilə də Əndəlüs Əməvi dövlətinin rəsmi məzhəbi olması səbəbilə orada daha çox təsirli olmuşdur. Şimali Afrikada, eləcə də Cənubi Avropa və Amerikada ən çox yayılan məzhəbdir. Hal-hazırda dünyadakı müsəlmanların 20 % - nin Maliki məzhəbinin mənsublarından ibarət olduğu təxmin edilir.

İPƏKYOLU NƏŞRİYYATI

3. Şafei məzhəbi

a. İmam əş-Şafei (h. 150-204/m. 767-819)

Hicri 150-ci ildə Qəzzədə doğulan Məhəmməd ibn İdris əş-Şafei H. 204-cü ildə Misirdə vəfat etmişdir. Soykökü Qureyşə aid olduğu bilinir. Məhəmməd ibn İdris əş-Şafei Mədinəyə gedərək İmam Maliklə qarşılaşmış, onun "Müvəttə" adlı əsərini oxumuş və fiqhi fikirlərini öyrənmişdir. Bir müddət sonra Yəmənə gedərək əl-Övzainin tələbəsi Ömər ibn Əbu Sələmə ilə görüşmüş və onunla elmi müzakirələr etmişdir. Üç dəfə Bağdada gedən Şafei, orada Məhəmməd ibn Həsən əş-Şeybanidən fiqh dərsləri almışdı. Bir müddət sonra Məkkəyə qayıdan Şafei orada tələbə yetişdirməyə başlamışdı. Həyatının son illərini Misirdə keçirən Şafei, orada əl-Leys ibn Sədin tələbəsi Yəhya ibn Həsənlə görüşərək, müəllimi əl-Leysinin fikirlərini öyrənmişdi.

İmam Şafei fiqh üsuluna aid ilk kitab yazan alimdir. Kitabın adı "ər-Risalə"dir.

İmam Şafei Bağdadda olduğu müddətdə "əl-Hüccə" adlı əsərini yazdı və fiqhi fikirlərini bu kitabda cəm etdi. Misirdə isə "əl-Ümm" adlı əsərini yazaraq yeni görüşlərini bu kitabda topladı. Bundan başqa Şafei "Əhkamul-Quran" və "İxtilaful-hədis" adında iki əsər də qələmə almışdır.

b. Şafei Məzhəbinin Yayıldığı Yerlər

Şafei məzhəbi xüsusilə Misirdə daha çox yayılmışdır. Çünki İmam Şafeinin ömrünün son dövrləri burada keçmişdir. Şamda xalq əvvəllər bu gün mənsubu qalmayan Övzai məzhəbinə bağlı idi. Ancaq sonrakı dövrlərdə bu məzhəbə bağlı olanlar Şafei məzhəbini qəbul etdilər. Şafei məzhəbi Yaxın Şərq ölkələrində (Suriya, İordaniya və s.) və Uzaq Şərq ölkələrində (İndoneziya, Malaziya və s.) ən çox yayılmış məzhəbdir. Hal-hazırda dünyadakı müsəlmanların 25 % - nin Şafei məzhəbinə mənsub olduğu təxmin edilir.

4. Hənbəli məzhəbi

a. Əhməd ibn Hənbəl (h. 164-241/m. 781-855)

Əhməd ibn Hənbəl H. 164-cü ildə Bağdadda doğulmuş və H. 241-ci ildə həmin yerdəda vəfat etmişdi. Əhli-hədis tərəfdarı olan bir fəqih və mühəddisdir. İbn Hənbəl kiçik yaşlarında Quranı əzbərləmiş və fiqh dərslərini İmam Məhəmməd ilə İmam Şafeidən öyrənmişdir. Abbasi xəlifəsi Məmun tərəfindən ortaya atılan və Mötəsimin dövründə də davam edən "Quran məxluqdur" fikrini qəbul etməyən Əhməd ibn Hənbəl buna görə həbsə atılmış və işgəncələrə məruz qalmışdır.

Əhməd ibn Hənbəl, "Müsnəd" adlı hədis kitabında təqribən qırx min hədisi toplamışdır. Eyni zamanda "əl-İləl" adlı əsərini qələmə almışdır.

b. Hənbəli məzhəbinin yayıldığı yerlər

Hənbəli məzhəbi xüsusilə Hicaz bölgəsində daha çox yayılmışdır. Bu gün Səudiyə Ərəbistanında xalqın əksəriyyəti bu məzhəbə mənsubdur. Hal-hazırda dünyadakı müsəlmanların 5 % -nin bu məzhəbə bağlı olduğu təxmin edilir.

B. Şiə məzhəbləri

1. Cəfəri məzhəbi

a. Cəfəri-Sadiq (h. 80-148/m. 699-765)

İPƏKYOLU NƏŞRİYYATI

Şiəliyin ən böyük qolu olan Cəfərilik, fiqhi fikirlərini İmam Cəfəri-Sadiqin rəylərinə əsaslandırlar. Cəfəri-Sadiq Mədinədə doğulmuş və Mədinədə də vəfat etmişdir. Şəxsiyyəti ilə əhli-Sünnə mənbələrində də mədh olunaraq haqqında çoxlu sayda məlumatlar olan bir imamdır. Cəfəri-Sadiqdən İmam Əbu Hənifə, İmam Malik və Süfyani-Söfri kimi bəzi alimlər elm əxz etmişdir.

Cəfərilər dinin əsas ibadət və qadağaları haqqında digər məzhəblərin əksəriyyəti ilə müttəfiqdirlər. Ancaq etiqadi mövzularda və 17 məsələdə sünnilərin etiqadi və fiqhi düşüncəsindən fərqlənirlər.

Sözügedən mövzulardan bəziləri bunlardır: dəstəmaz alarkən çılpaq ayaq üzərinə məsh edilməsi, əhli-kitab qadınlarla evliliyin caiz olmaması, azan və iqamədə "Əşhədu ənnə Aliyyən vəliyyullah" cümləsinin əlavə edilməsi, zöhr və əsr namazlarını günorta, məğrib(axşam) və işa(yatsı) namazlarını isə axşam vaxtında heç bir səbəb olmadığı halda birləşdirərək (cəmi-təqdim şəklində) qılınması.

b. Cəfəri Məzhəbinin Yayıldığı Yerlər

Cəfəri məzhəbi daha çox İran və İranla sərhəd olan ölkələrdə yayılmışdır. İraq, Azərbaycan, Pakistan, Livan, Fələstin və Bəhreyn kimi ölkələrdə Cəfəri məzhəbinə mənsub olan şiələr mövcuddur. Hal-hazırda dünyadakı müsəlmanların 10 %-nin Cəfəri məzhəbinə mənsub olduğu təxmin edilir.

2. Zeydiyyə məzhəbi

a. Zeyd ibn Əli (Zeydiyyə) (h. 80-122/m. 698-740)

Zeyd ibn Əli tabeun nəslindən olan bir fiqh alimidir. Hz. Hüseynin nəvəsi və Zeynəlabidinin oğludur. Əməvi xəlifəsi Hişam ibn Əbdülməlik dövründə tərəfdarları kimi bilinən bəzi şəxslərin onu təhrik etməsi nəticəsində xəlifənin əsgərləri ilə etdiyi bir müharibədə şəhid olmuşdur.

Fiqh elmində ilk kitab yazan şəxs kimi tanınan Zeyd ibn Zeynəlabidin bir çox alimə elm öyrətmişdir. Yazdığı kitab "Məcmuul-kəbir fil-fiqh" adlı əsəridir.

b. Zeydiyyə məzhəbinin yayıldıyğı yerlər

Xüsusilə Hənəfi məzhəbinə yaxınlığı ilə bilinən bir Şiə məzhəbi olan Zeydiyyəlik, günümüzə qədər varlığını davam etdirmişdir. Günümüzdə də Yəməndə bu məzhəbin mənsubları mövcuddur.

SƏRBƏST İŞ

Məzhəb imamlarının həyatları ve onların fıqhi rəylərini izah edən bir seminar hazırlayaraq sinifdə ətraflı məlumat verin.

IV. Günümüzdə mənsubu qalmayan fiqhi məzhəblər

İlk dövrlərdə mənsubları olmalarına baxmayaraq günümüzdə fiqhi fikirləri bir məzhəb olaraq gəlib çatmayan müctəhid və məzhəblərin ən məşhurları aşağıdakılardır:

İbn Şübrümə (h. 74-144/m. 693-761)

İbn Əbu Leyla (h. 74-148/m. 693-765)

Övzai (h. 88-157/m. 707-774)

Süfyani Sövri (h. 97-161/m. 715-778)

İPƏKYOLU NƏŞRİYYATI

Leys ibn Səd (h. 94-175/m. 701-788)

Süfyan ibn Üyeynə (h. 98 - 107/m. 725-813)

İshaq ibn Rahuyə (h. 161-238/m. 777-852)

Əbu Sövr (h. 240/m. 854)

Davud ibn Əli (Zahiri) (h. 202-270/m. 817-883)

Təbəri (h. 224-310/m. 836-922)

C. MƏZHƏBLƏR FİQHİNİN HAKİM OLDUĞU DÖVR

Məzhəblər fiqhinin hakim olduğu dövr Abbasi hakimiyyətinin geriləməyə başladığı H. 350/M. 960-cı illərdən etibarən başlayır, Osmanlının son dövrləri olan Məcəllənin yazıldığı H. 1284/M. 1868-ci ilə qədər davam edir.

Bu dövrün fiqh elmi baxımından diqqət çəkən xüsusiyyətləti bunlardır:

1. *Fiqhi fəaliyyətlərdə geriləmə və məzhəb təəssübkeşliyində çoxalma müşahidə edilir. Fəqihlər müəyyən məzhəblərin fiqhi görüşləri ilə kifayətlənməyə üstünlük vermişlər.* Bu dövrün fəqihləri və böyük müctəhidləri təqlidçiliyin kifayət etdiyini ifadə etmişlər. Xalqın cahil davranışlarının qarşısını almaq məqsədi ilə ictihad qapısının bağlandığına dair fitva verərək, rəy və ictihad fəaliyyətlərini dayandırmışlar.

2. *Müəyyən bir məzhəbə bağlı qalmışdırlar.* Dövlət başçıları və rəhbərlərin hər hansı bir məzhəbi mənimsəmələri həmin məzhəbin o bölgədə yayılmasında önəmli rol oynamışdır. Həmçinin ölkədə qazılar dövlət başçısı və rəhbərləri tərəfindən mənimsənilən məzhəb alimlərindən seçilmişdir.

3. *Əvvəlki dövrlərdə hər bir məsələ ilə bağlı hökm verilməsi fiqh elmini dərindən bilmə ehtiyacını azaltmış, icthad fəaliyyətləri bu dövrdə əvvəlki dövrlərə nəzərən xalq və dövlət nəzdində rəğbət görməmişdir.*

4. *Fəqihlər çətin başa düşülən mətn və ifadələri anlaşılan tərzdə izah etmişlər.* Əsas mətn kitabları şərh edilərək şərh kitaplarını ortaya çıxarmışlar.

5. *Fitva kitabları tədvin edilmişdir.* Yeni məsələləri fitva kitabları vastəsi ilə izah edib hökmünü vermişlər.

Məzhəblərə görə yazılmış müvafiq əsərlər:

Hər bir məzhəbin fiqh anlayışına görə məzhəb alimləri tərəfindən yazılan əsərlər vardır. Məzhəblərə görə məşhur olan fiqh kitablarının bəziləri bunlardır:

Hənəfi: Sərəxsi "Məbsut"; Kasani "əl-Bədayius-sənayi"; Mərğinani "əl-Hidayə"; İbnul-Hümam "Fəthül-qədir"; İbn Nüceym "əl-Bəhrür-raiq"; İbn Abidin "Rəddul-muxtar".

Maliki: Əsəd ibn Fürat "əl-Müdəvvənə"; İbn Rüşd "Bidayətul-müctəhid"; Qərafi "əl-Füruq"

Şafei: Müzəni "Müxtəsər"; Şirazi "əl-Mühəzzəb"

Hənbəli: İbn Qüdamə "əl-Muğni"; İbn Teymiyyə "əl-Fətava"

D. QANUNVERİCİLİK FƏALİYYƏTLƏRİNİN BAŞLADIĞI DÖVR

Bu dövr Osmanlı Dövlətinin ilk qanunvericiliyi olan Məcəllənin hazırlanmağa başlandığı H. 1284/M. 1868-ci il tarixdən etibarən başlayıb günümüzə qədər davam edən dövrdir.

Bu dövrün fiqh baxımından diqqət çəkən xüsusiyyətləri bunlardır:

İPƏKYOLU NƏŞRİYYATI

1. Qanunvericilik fəaliyyətləri başlamışdır: Bu dövrə Məcəllə adının verilməsinə səbəb olan "Məcəllətul-əhkamil-ədliyyə" kitabı bu fəaliyyətin ilk addımını təşkil etmiş, arxasınca bütün İslam dünyasında sürətli bir şəkildə qanunvericilik fəaliyyətinə başlanmışdır.

Osmanlı Dövləti, qərbdəki qanunvericilik fəaliyyətlərinin təsiri ilə Hənəfi fiqhinin müamilələrlə bağlı hökmlərini müəyyən etmək üçün, dövrün məşhur fəqihlərindən ibarət bir heyət qurmuşdur. Əhməd Cövdət Paşanın başçılığında altında qurulan bu heyət M. 1868-ci il tarixdə fəaliyyətə başlayaraq, səkkiz il davam edən bir fəaliyyət nəticəsində 1851 maddədən ibarət olan Məcəlləni meydana gətirmişdir. Hazırlanan məcəllə padşahın əmri ilə M. 1876-cı ildə qüvvəyə minmişdir. Məcəlləni 1840-cı və 1851-ci illərdə Cinayət qanunları, 1858-ci ildə Ərazi qanunu, 1917-ci ildə isə Hüquqi-Ailə Qərarnaməsi təqib etmişdir.

Xüsusilə Hüquqi-Ailə Qərarnaməsində Hənəfi məzhəbindən başqa digər üç məzhəbin rəylərinə də yer verilmişdir. Osmanlı Dövlətinin bu cür qanunvericlik fəaliyyətlərini digər İslam ölkələri də nümunə almışlar. Qısa müddət sonra Misir və Suriyada ailə hüququ sahəsində qanunvericilik hazırlanmışdır.

2. İctihad ruhunu bəsləyən bəzi qədim kitablar nəşr edilmişdir: Şah Vəliyyullah, Şövkani, İbn Teymiyyə, İbn Qəyyim, İbn Həzm, Şatibi kimi alim, məzhəb imamları və tələbələrinin əsərləri ön plana çıxarılmışdır.

3. Dörd məzəhəbə görə yazılmış fiqh kitabları ilə yanaşı lüğət və ensklopediyalar yazılmışdır.

4. Əsrimizə hakim olan Qərb mənşəli hüquqlara qarşı İslam hüququnun təbliğatı, müdafiəsi və müqayisəsi məqsədi ilə əsərlər yazılmışdır.



Dünyadakı İslam ölkələrini göstərən xəritə

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Fiqh elminin meydana gəlməsi haqqında məlumat verin.
2. Fiqh elminin hansı dövrləri vardır?
3. Səhabə dövrünün fiqh baxımından xüsusiyyətləri hansılardır?
4. Fiqhi məzhəblərin ortaya çıxmasının səbəbləri hansılardır?
5. Məzhəblərin dünyada yayılması haqqında məlumat verin.
6. Günümüzdə hansı fiqh dövr davam etməkdədir. Bu dövrün ortaya çıxmasında hansı təsir edici amillər olmuşdur?

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Fitva		*Hökmün qüvvədən düşməsi*
2	Tədricilik		*məşvərət üçün məclis*
3	Şura		*Fikir ayrılığı*
4	Tədvin	**1**	*Fiqhi suallara verilən cavab*
5	Nəsx		*Yazılanların bir kitabda toplanması*
6	Ixtilaf		*Zamanla hökmlərin qoyulması*

SƏHV-DÜZ

1. ( ) Müctəhid imamlar dövründə bütün fiqhi mövzularda ictihad edilmiş, bu da məzhəblərin meydana gəlməsində təsirli olmuşdur.
2. ( ) Maliki məzhəbi Afrika qitəsindən başqa bütün İslam aləmində ən çox yayılan fiqh məzhəbidir.
3. ( ) İslam tarixində “Qadıl-qudat” ünvanı ilk dəfə Əbu Yusifə verilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(Maliki, Osmanlı, Orta Asiya, Məcəllətül-əhkamil-ədliyyə, Şafei, Hənəfi, Kufə, Zeyd ibn Zeynəlabidin, Anadolu, Hənbəli, Cəfərilik, Mədinə)

1. Günümüzə qədər gəlib çatan sünni məzhəbləri ....., ... və ..... məzhəbləridir.
2. Şiəliyin ən böyük qolu, fiqhdə İmam Cəfəri-Sadiqin fikirlərini əsas alan ....dir.
3. Fiqh elmi sahəsində ilk kitab yazan şəxs İmam .....dir.
4. İslam dünyasında ilk qanunvericilik fəaliyyətləri ..... dövlətində .... adlı əsərlə başlamışdır.
5. Əhli-rəyin mərkəzi ..... şəhəri, əhli-hədisin mərkəzi isə .... şəhəridir.
6. Hənəfi məzhəbi ..... və .....da ən çox yayılmış məzhəbdir.

CƏDVƏLDƏ BOŞ QOYULAN YERLƏRƏ MÜCTƏHİDİN YAŞADIĞI ŞƏHƏRİN ADINI YAZIN

Məhəmməd ibn İdris əş-Şafei		Malik ibn Ənəs	**Mədinə**
Əhməd ibn Hənbəl		Əvzai	
Əbu Hənifə Numan ibn Sabit	**Kufə**	Süfyan əs-Səvri	
Zeyd ibn Əli Zeynəlabidin		Təbəri	

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakılardan hansı fiqh məzhəblərindən biri deyil?

a. Hənəfi

b. Zeydiyyə

c. Əşəri

d. Hənbəli

2. Aşağıdakılardan hansı Xüləfayi-raşidin dövrünün fiqhi xüsusiyyətlərindən biridir?

a. Hükmlərin nəsx olunması

b. Şura yolu ilə ictihadın edilməsi

c. Məzhəblərin meydana gəlməsi

d. Əhli-rəy və əhli-hədisin meydana gəlməsi

3. Aşağıdakılardan hansı səhabə fəqihlərindən biridir?

a. İbn Teymiyyə

b. İbn Rüşd

c. İbn Məsud

d. İbn Hənbəl

4. Aşağıdakılardan hansı sayıları az da olsa gününmüzə qədər gəlib çatmış bir fiqh məzhəbinin imamıdır?

a. Zeyd ibn Əli

b. Əbu Sövr

c. Övzai

d. Davud ibn Əli

5. Aşağıdakılardan hansı məzhəblər fiqhi dövrün fiqhi xüsusiyyətlərindən biridir?

a. Çətin başa düşülən ifadələr şərh edilmişdir

b. Qanunvericilik fəaliyyətləri başlanmışdır

c. Lüğət kitabları və Ensklopediyalar hazırlanmışdır

d. İctihadi ruhu bəsləyən bəzi əsərlər təkrar nəşr olunmuşdur

6. Aşağıdakılardan hansı Kufə şəhərində əhli-rəy fiqh məzhəbinin meydana gəlməsinin səbəblərindən deyil?

a. Fərqli mədəniyyətlərə və hər cür inkişafa əlverişli olan bir şəhər olması

b. Ehtiyac və problemlərin çox olması

c. Zəif hədislərin xalq arasında məşhur olması

d. Zəngin bir hədis mirasına sahib olması

İPƏKYOLU NƏŞRİYYATI

III
BÖLMƏ

FİQH ÜSULU VƏ İCTİHAD

MÖVZULAR

A. FİQH ÜSULUNUN TƏRİFİ VƏ TƏŞƏKKÜLÜ

B. FİQH ÜSULUNUN MÖVZUSU, MƏQSƏDİ VƏ FAYDALARI

C. İCTİHADIN MAHİYYƏTİ VƏ VACİBLİYİ

D. TƏQLİD VƏ TƏƏSSÜBKEŞLİK

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Fiqh üsulunun dini hökmlərin anlaşılmasındakı rolunu araşdırın.
2. Fiqh üsulu elminin təşəkkülü haqqında məlumat verin. Fiqh elmi ilə fiqh üsulu elminin əlaqəsini araşdırın.
3. Qarşılaşdığınız dini məsələlərin həllində hansı yolları təqib edirsiniz? Müraciət etdiyiniz mənbələr hansılardır?
4. Bir insan bir məzbhənə bağlanmaq məcburiyyətindədirmi? Bu mövzu ətrafında fikir mübadiləsi edin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. FİQH ÜSULUNUN TƏRİFİ VƏ TƏŞƏKKÜLÜ

I. Fiqh üsulunun tərifi

Fiqh üsulunun bir çox tərifi vardır. Ancaq bunlar arasında ən çox istifadə edilən tərif belədir: "Müctəhidin şəri-əməli hökmləri təfsili dəlillərdən əldə etmə prosesində əsas aldığı qaydalardır".

Tərifdəki "təfsili dəlillər" hökmü araşdırılan məsələ ilə bağlı xüsusi hökmləri əhatə edən ayələr, hədislər, icma və qiyaslar mənasına gəlir. "Əməli hökmlər" əqidə və əxlaqla bağlı hökmlərdən başqa davranışlarla əlaqədar olan məsələləri əhatə edir. "Şəri hökmlər" isə Uca Allahın insanların davranışları ilə bağlı bəyanları, yaxud "bəyanların nəticələri"dir. Bu qeydlə eyni zamanda ağıl tərəfindən verilən hökmlər və ya hissiyyat orqanlarına söykənən hökmlər kənarda qoyulur.

II. Fiqh üsulunun təşəkkülü

Fiqh üsulu elmi hicri tarixlə II əsrin sonunda, yəni Hz. Peyğəmbər, səhabə və tabeun dövründən sonra təşəkkül tapmış elmlərdəndir. Çünki Hz. Peyğəmbər dövründə hökmlər şəxsən ondan öyrənilirdi. Belə ki, hökmlər ya Rəsulullaha vəhy olunan Quran ilə və ya onun Quranı söz, əməl və yaxud təqriri yolu ilə izah edən Sünnəsi ilə sabit olurdu. Belə olan təqdirdə bir sıra metod və qaydalara ehtiyac duyulmurdu.

Hz. Peyğəmbər Rəbbinə qovuşduqdan sonrakı dövrlərdə insanlar arasında fitva və hökm vermə vəzifəsini səhabələr yerinə yetirirdi. Səhabələr Quran və Sünnənin dili olan ərəb dilinə, ayələrin nazil olma və hədislərin varid olma səbəblərinə çox yaxşı bələd idilər. Çünki onlar qavrama, zəka və əxlaqi cəhətdən üstün insanlar olmaları ilə yanaşı, uzun müddət Rəsulullah ilə birlikdə yaşamış, onunla yoldaşlıq etmiş şəxslərdi. Şəri mənbələrdən hökm çıxararkən istifadə etdikləri qaydaları nəzəri olaraq ələ alma ehtiyacları yox idi.

Onlar dini və ya dünyəvi hər hansı məsələnin hökmünü təsbit etmək ehtiyacı hiss etdikdə, birbaşa Allahın Kitabına müraciət edir, orada ehtiyac duyulan məsələyə dair hər hansı hökm əldə edə bilməsələr Rəsulullahın Sünnəsinə müraciət edir, orada da hökm olmasa ictihad edirdilər. Belə ki, Quran və Sünnədən həmin məsələyə oxşar məsələləri araşdırır, tapdıqları hökmü qarşılaşdıqları oxşar məsələyə tətbiq edirdilər. Quran və Sünnədə oxşar məsələlər olmasa, İslam hüququnun hökmlərdəki əsas prinsipi olan daim insanların mənafeyini və ehtiyaclarını nəzərə alaraq məsələni həll etməyə və həmin prinsipi gerçəkləşdirməyə səy göstərirdilər.

İlk əsr olan səhabə və Tabeun dövründən sonra müsəlmanlar və müsəlman aləmi böyüməyə başladı. Bunun nəticəsində ana dili ərəbcə olmayan insanlar müsəlmanlığı qəbul etdilər və artıq ərəb dili yalnız müsəlmanların dili deyil, eyni zamanda ərəb olmayan müsəlmanların da dili kimi istifadə edilməyə başlandı. Beləcə ərəblərin ərəb olmayanlara qarışmaları səbəbilə də ərəb dili nisbətən zəifləməyə başladı. Beləcə daha öncə mövcud olmayan məsələlər ortaya çıxır və bunun nəticəsində də müctəhidlər çoxlu sayda ictihadlar, rəylər irəli sürürdülər. Beləliklə də, müctəhidlərin çoxalması, ictihad və hökm istinbatındakı metodların müxtəlifliyi və hər birinin özünə görə düzgün yolu təqib etmə iddiası, bir sözlə, bu kimi amillər fəqih və müctəhidləri ictihad fəaliyyətinin nizama salınması və bu sahədəki hərc-mərcliyin qabağını almaq üçün bir sıra tədbirlər almağa və nəticədə şəri dəlillərdən hökm əldə edərkən əsas alınmalı olan prinsiplər və qaydalar müəyyənləşdirməyə başladılar. Məhz ilk dəfə fiqh üsulu adı verilən bu elm haqqında tərtibli bir şəkildə kitab yazan Məhəmməd İbn İdris əş-Şafei (vəfatı-204/819) olmuş və kitaba "ər-Risalə" adını vermişdir.

İPƏKYOLU NƏŞRİYYATI

B. FİQH ÜSULUNUN MÖVZUSU, MƏQSƏDİ VƏ FAYDALARI

I. Fiqh üsulunun mövzusu və məqsədi

Fiqh üsulu elmi dörd əsas mövzunu tədqiq edir:

Mükəlləf: dini hömklərdən məsul olan şəxslərin müəyyən edilməsi, onların əhliyyətlə bağlı halları və əhliyyəti aradan qaldıran səbəblər.

Şəri hökmlər: mükəlləflərin davranışlarına bağlanan fərz/vacib, məndub, mübah, məkruh və haram" kimi öhdəliklər yükləyən hökmlərlə bu hökmlərin bağlandığı digər bəzi hallar, yəni vəzi hökmlər.

Şəri dəlillər: şəri hökmlərin əldə edildiyi Kitab, Sünnə, İcma və Qiyas kimi hökm mənbələri və metodları.

Müctəhid: şəri dəlillərdən şəri hökmləri çıxarma səlahiyyətinə sahib olan kəslər.

Fiqh üsulu düzgün bir şəkildə fiqhi hökmləri əldə etməyi təmin edən bir elmdir. Fiqh üsulunun məqsədi isə, əməli hökmlərin mənbələrdən necə çıxarıldığını göstərmək, təsbit etdiyi prinsip və qaydalar sayəsində müctəhidin səhvə yol vermədən fiqhi hökm əldə etməsini təmin etməkdir.

II. Fiqh üsulunun faydaları

Fiqh üsulu elmini öyrənməyin faydaları aşağıdakılardır:

- Fiqh üsulu Quran və hədis mətnlərini düzgün şəkildə anlamağa köməklik göstərir.
- Müctəhidlər tərəfindən ortaya qoyulan fiqhi hökmlərin daha yaxşı başa düşülməsini təmin edir.
- Fərqli ictihadlar arasında ən güclü olanı seçmə metodunu göstərir.
- Soruşulan fiqhi sualların cavabında təqib edilməli olan metodları müəyyən edir.
- İctihadın əhəmiyyətini, onun nə qədər incə bir məsələ olduğunu öyrədir.

C. İCTİHADIN MAHİYYƏTİ VƏ VACİBLİYİ

I. İctihadın tərifi

İctihadın lüğət mənası "səy göstərmək, çətin olan bir şeyi ələ keçirmək üçün var gücü ilə çalışmaq" mənasına gəlir. Fiqh termini kimi isə, "müctəhid bir alimin müəyyən qayda və prinsiplər çərçivəsində Qurani-Kərim və Sünnənin izah edilməli olan yerlərini izah etməsi və şəri dəlillər vasitəsilə bu mənbələrdən dini bilmək və yaşamaq üçün lazımi yeni məsələlərlə bağlı düzgün hökmləri ortaya qoymasıdır".

II. Kitab və Sünnənin ictihadı təşviq etməsi

Bir çox ayə və hədislərdə ictihadın təşviq edildiyi nəzərə çarpır. Quranda müsəlmanların işlərinin öz aralarındakı məşvərətə söykənməli olduğu bildirilmişdir ("Şura" surəsi 38-ci ayə).

QEYD EDƏK

Peyğəmbərimiz həm özü ictihad etmiş, həm də əshabələrinə icithad etmələri üçün imkan vermişdir. Məsələn, Hz. Peyğəmbər (s.ə.s) Yəmənə vali göndərdiyi Muaz ibn Cəbələ (r.ə): "Qarşılaşdığın bir məsələ ilə bağlı Kitab və Sünnədə hökm tapmasan, nə edərsən?" – deyə soruşmasının müqabilində Muaz: "Allahın Kitabında və Rəsulunun sünnəsində tapmasam, ictihad edərəm", – deyə cavab vermişdir. Peyğəmbərimiz də Hz. Muazın bu cavabını təqdir etmişdir (Əbu Davud, Əqziyə, 11; Tirmizi, Əhkam, 3).

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbər (s.ə.s) bəzən şəxsən özünün olduğu yerlərdə səhabələrinin öz rəyləri ilə hökm vermə-sini istəmiş, beləcə onların yetişmələrini təmin etmişdir. Məsələn, bir gün Hz. Mühəmmədin (s.ə.s) yanına iddiaçı ilə cavabdeh gəlmişdi. Hz. Peyğəmbər (s.ə.s) də səhabələrin məşhurlarından olan Üqbəyə (r.ə): *"Onların arasındakı iddia haqqında qərarı sən ver!"*-deyə buyurdu. Üqbə: "Siz burada ikən mən necə hökm verə bilərəm, Ey Allahın Rəsulu!"-dedikdə, Hz. Peyğəmbər (s.ə.s): *"Sən onların arasında hökm ver. Düzgün qərar versən sənə on savab, xəta etsən bir savab var"*,-buyurmuşdur (Daraqutni, "Sünən", IV, 203; Əhməd ibn Hənbəl, "Müsnəd", IV, 205).

Görüldüyü kimi Hz. Peyğəmbər (s.ə.s) ictihada icazə verməklə qalmamış eyni zamanda onu təşviq etmişdir. Xəta etmə əndişəsinin ictihada əngəl olmamasının vacibliyini vurğulamışdır.

İPƏKYOLU NƏŞRİYYATI

III. İctihadın vacibliyi

Hər bir müsəlmanın Allah və Onun elçisinə itaət etməyə məcbur edilməsi, insan həyatı boyu Quran və Sünnənin ruhuna uyğun ictihadın yerinə yetirilməsinin vacibliyinə dəlalət edir.

İslamın mənbəyi olan Qurani-Kərim və Sünnə qiyamətə qədər meydana gələcək bütün hadisələrin və məsələlərin hökmünü bir-bir bəyan etməmişdir. Buna imkan da yoxdur. Quran və Sünnə hökmləri məh-dud, lakin hadisə və məsələlər isə qeyri-məhduddur. Yeni məsələləri qiymətləndirmə və onlara müvafiq həll yolları ortaya qoya bilməyin ən mühüm yolu ictihad fəaliyyətidir.

Müsəlmanın həyatının hər sahəsini Allah və Rəsulunun müəyyən etdiyi sərhədlər çərçivəsində keçir-məsi dini baxımdan qaçınılmazdır. Bunun mükəmməl şəkildə təmin edilməsi üçün verilmiş hökmlərin nəzərdən keçirilib dəyişən həyat şərtlərinə görə və İslamın ruhuna uyğun təzələnməsi labüddür.

İPƏKYOLU NƏŞRİYYATI

IV. Müctəhid olmaq üçün tələb olunan şərtlər

İctihad fəaliyyəti hər dövr və hər yerdə alimlərin müəyyən etdikləri şərtlər çərçivəsində yerinə yetiril-məlidir. İslam hüquqşünasları ictihadın şərtlərini aşağıdakı kimi müəyyən etmişlər:

Ərəb dilini bilmək: bir müsəlmanın ictihad etmə səlahiyyətinə malik ola bilməsi üçün ərəb dilinə nöqsansız bir şəkildə yiyələnməlidir. Çünki Quran və Sünnənin mətni ərəbcədir. Məhz buna görə də onla-rı anlamaq üçün həmin dilin qrammatikası və ədəbiyyatını təfərrüatı ilə bilməlidir ki, Quran və Sünnə mətnlərinə onları tətbiq edərək oradan hökm əldə edə bilsin. Ancaq ərəb dilinin dərinliklərini, yəni məani elmini, şeirlərin vəznlərini təfərrüatı ilə bilməsinə ehtiyac yoxdur.

Qurani-Kərimi bilmək: Qurani-Kərimi lüğət və şəri (dini) baxımdan bilməli, eləcədə onun qisimlə-rini, yəni ümumi, xüsusi, müştərək, mücməl kimi ayələri ətraflı bilməlidir. Xüsusilə Qurandakı əhkam ayə-lərini, onların nazil olma səbəblərini və bu ayələrdən hökmləri əldə etmə yollarını, metodlarını bilməlidir.

Sünnəni bilmək: Sünnə elminə mətn və sənədi ilə birgə yiyələnməlidir. Ələlxüsus Sünnədə varid olan əhkam hədislərini və həmin rəvayətlərin mütəvatir, məşhur, səhih, həsən və zəif kimi dərəcələrini bil-məlidir. Eyni zamanda Quran və Sünnənin nasix və mənsuxunu bilməlidir. Lakin bütün nasix və mənsuxu əzbərdən bilməsi şərt deyil. Belə ki, fitva verdiyi məsələdə əsaslandığı ayə və ya hədisin mənsux olub-ol-madığını bilməsi kifayətdir.

İcmanı bilmək: müctəhidin düzgün hökmü əldə etməsi üçün icmanı bilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, qarşılaşdığı və ictihad etdiyi məsələlərdə icmaya zidd hökm verməməsi üçün mövcud olan icmaları və ixtilafları bilməlidir.

Qiyası bilmək: müctəhid nöqsansız hökm əldə etmək üçün qiyasın bütün növlərini, ünsürlərini (rük-nlər), şərtlərini, məqbul/qeyri-məqbul olanlarını və hökmlərin illətlərini (səbəblərini) bilməlidir.

Fiqh üsulu elmini bilmək: müctəhid şəri dəlilləri, bunlardan hökm çıxarma yollarını, ləfzlərlə

əlaqədar qrammatik qaydaları, dəlillər arasındakı üstünlüyü ayırd etmə qaydalarını və digər mövzuları ancaq fiqh üsulu elmindən öyrənə bilər. Məhz bu səbəbdən sözügedən elmi təfərrüatı ilə bilməlidir.

Şəri məqsədi bilmək: müctəhid sözün əsil mənasında şəri məqsədi (İslam hüququnun əsas qayəsi) qavramalıdır. İslam hüququnun əsas qayəsini, hikmətini, hədəflərini, şəri hökmlərin hansı hadisələr haqqında gəldiyini, Şarinin (Qanunverici/Allah-Təala) işarə etdiyi illət (səbəb) və hikmətləri bilmək tədqiqatlar nəticəsində mümkündür. Hətta məşhur İslam hüquqşünası əş-Şatibi (vəfatı-790/1388) "əl-Müvafəqat" adlı möhtəşəm fiqh-üsulu əsərində ictihad üçün İslam hüququnun əsas məqsədlərini qavramağı ən əsas şərt kimi irəli sürmüşdür.

Tərcehi bilmək: müctəhid bir məsələdə bir-birinə zidd olan şəri dəlillər arasında ardıcıllığı və bu ziddiyyətliklərin aradan qaldırılma yollarını bilməlidir. Məzhəblər və müctəhid imamların rəyləri arasında tərceh edərkən (üstün olanını seçərkən) necə hərəkət etməli olduğunu öyrənməlidir.

İctihad edilən məsələ ilə bağlı məlumat: müctəhid hökmünü əldə etmək istədiyi məsələni onun şərtlərinibilməli və onunla bağlı elmi məlumatlardan xəbərdan olmalıdır.

Qabiliyyət: müctəhidin ictihada yaradılışdan istedadı olmalı və eyni zamanda güclüzəkası, mühakimə qabiliyyəti olmalıdır.

Dinə uyğun həyat tərzi: müctəhid dinin əmr və qadağalarına uyğun yaşayan və fasiq olmayan bir kəs olmalıdır.

D. TƏQLİD VƏ TƏƏSSÜBKEŞLİK

Təqlid "başqasının fikrini dəlilin güclü olub-olmadığını bilmədən qəbul etmək" mənasına gəlir. Təqlid edənə **müqəllid** deyilir.

Təəssübkeşlik "hər hansı bir fiqhi rəyi güclü və ya zəif olduğunu bilmədən təəssübkeşliklə mənimsəmək, qəti olmayan bir fikri müdafiə etmək və bu fikrin tənqid oluna biləcəyini qətiyyətlə qəbul etməmək" kimi mənalara gəlir. Təəssübkeşlik edənə də **mütəəssib** deyilir.

İctihad səlahiyyətinə sahib olmayan müsəlmanların hökm məsələsində müctəhidləri təqlid etməsi məcburidir. Çünki mükəlləf olan hər bir müsəlmanın şəri hökmləri öyrənməsi və onlara tabe olması qaçınılmazdır. Ancaq hər bir mükəlləfin şəri hökmləri dəlillərindən çıxararaq öyrənməsi mümkün olmadığına görə, fiqhi mövzularda hər müsəlmanın ictihad etməsini gözləmək düzgün deyil. Çünki belə olan təqdirdə, insanların yaşamaları üçün zəruri olan əkinçilik, heyvandarlıq və sənətkarlıqla bağlı işləri edən tapılmaz. Məhz bu kimi səbəblərdən fiqhi məsələlərdə təqlid prinsip etibarilə məzəmmət edilməklə yanaşı, ictihada qadir olmayanlar üçün zəruri hesab olunmuşdur. Qurani-Kərimdəki **"Allah dində sizə heç bir çətinlik yükləmədi"** (Həcc, 22/78) və **"Əgər bilmirsinizsə, elm əhlindən soruşun!"** (Nəhl, 16/43) ayələrinin hər biri bu mövzuda dəlildir.

Hər hansı bir məzhəbə tabe olub bir müctəhidi təqlid edən bir müsəlman aşağıdakıları nəzərdə saxlamalıdır:

- Müqəllid məzhəb təəssübkeşliyindən uzaq olmalıdır.
- Məzhəb bir din deyil, dinlə bağlı olan ictihad fəaliyyətidir. Məzhəblərin fiqh sahəsində fərqli fikirlərə sahib olmaları müsəlmanlar üçün mənfi bir hal deyil, əksinə bir zənginlikdir.
- Dövrümüzə qədər gəlib çatan müxtəlif fiqn məzhəblərinin baniləri sayılan müctəhidlərin qədir-qiymətini bilməli, onlara qarşı ehtiram göstərməli, xeyir-dua etməli, etdikləri ictihadlarda xətalı olsalar belə üxrəvi mükafata nail olduqları qəbul edilməlidir.
- Bir müsəlman dəlillərini araşdırma nəticəsində bir məsələdə tabe olduğu məzhəbin xətalı, digər bir məzhəbin isə daha düzgün olduğu qənaətinə gələrsə, həmin məsələdə digər məzhəbi təqlid edə bilər.

İPƏKYOLU NƏŞRİYYATI

Bir müsəlman haqq məzhəblərdən birinə tabe olub ibadət və müamilələrini həmin məzhəbin hökm və ictihadlarına görə davam etdirə bilər. İslami həyatını bu məzhəblərdən birinə görə yaşayan bir müsəlmanın ölənə qədər həmin məzhəbdə qalması kimi bir məcburiyyəti yoxdur. Bu səbəbdən istədiyi təqdirdə, tamamilə başqa bir məzhəbə də keçə bilər. Məsələn, Şafei məzhəbinə mənsub olan bir müsəlman istəsə, Hənəfi məzhəbinə və yaxud Hənəfi məzhəbinə mənsub olan bir kəs Şafei məzhəbinə keçə bilər.

Zəmanəmizdə bir müsəlman səhabeyi-kiram kimi bir məzhəbə bağlı olmadan İslamı yaşaya bilərmi? Sinifdə müzakirə edin.

Ancaq bir məzhəbdən digər bir məzhəbə keçən ibadət və müamilələrinin kamil olması üçün, girdiyi məzhəbin məsələlərinə yaxşı bələd olmalıdır. Məsələn, bir hənəfi Şafei məzhəbinə keçirsə, ən azı həmin məzhəbə görə dəstəmazın fərzlərini, onu pozan halları, namazın rüknlərini və vaciblərini bilməlidir. Bunları bilmədən keçərsə, fərqinə varmadan ibadətini əskik yerinə yetirib xətaya yol vermiş olar.

Bir məzhəbdən digərinə tamamilə keçmək mümkün olduğu kimi, öz məzhəbində çıxış yolu tapa bilməyən həmin mövzuda başqa məzhəbin ictihadına əməl edə bilər. Bu, caizdir. Lakin bu, nəfsin istəyinə müvafiq olmamalı, bir zərurətə əsasən olmalıdır.

Bir məsələdə öz məzhəbindən başqa bir məzhəbi təqlid edən şəxs aşağıdakı məsələlərə diqqət yetirməlidir:

Birincisi: Bir ibadət və ya müamilə başqa bir məzhəbə görə təqlid ediləcəksə, o ibadət və ya müamilə daha əvvəl edilməməlidir. Məsələn, Şafei məzhəbinə mənsub olan bir müsəlman namaza başlamadan əvvəl xanımına əli ilə toxunduğunu namazı qıldıqdan sonra xatırlasa, sonra da: "Onsuz da Hənəfi məzhəbinə görə dəstəmazım var",-deyib o məsələdə Hənəfiyə tabe olsa, namaz səhih olmaz.

İkincisi: Təqlid edən hər məzhəbdən özünə asan gələni seçib ona əməl etmək kimi bir yola müraciət etməməlidir. Məhz bu, fərqli məzhəblərə görə bir-birinə zidd olan məsələləri birlikdə etmək hesab olunur və buna "təlfiq" deyilir. Məhz bu, caiz olmayan hərəkətdir.



BİLGİ QUTUSU

Kor-koranə təqlid etməmək və təəssübkeşliyə yol verməmək üçün müctəhidlərin aşağıda qeyd edilən sözlərini bu məsələdə rəhbər tutmaq lazımdır:

"Harada deyidiyimizi, verdiyimiz hökmün dəlil və mənbəyini bilmədən, tədqiq etmədən bizim rəyimizə görə fitva vermək düzgün deyil" (Əbu Hənifə).

"Mən bir insanam. Verdiyim hökm düzgün də, səhv də ola bilər. Belə olan təqdirdə, mənim verdiyim hökmləri araşdırın. Kitab və Sünnəyə uyğun olan hər sözümü qəbul edin. Onlara zidd olan sözlərimi də tərk edin" (İmam Malik).

"Dəlilsiz məlumat toplayan kəs gecənin qaranlığında odun yığana oxşayır. Yığdığı odunları apararkən odunların içində onu sancacaq bir ilanın olduğundan bixəbərdir" (İmam Şafei).

"Nə məni, nə Maliki, nə Sövrini, nə də Övzaini kor-koranə təqlid et. Hökm və bilgini onların aldığı mənbələrdən al!" (Əhməd ibn Hənbəl).

SUALLARI CAVABLANDIRIN

1. Fiqh üsulunun tərifini deyin və izah edin.
2. Fiqh üsulunun təşəkkülü haqqında ətraflı məlumat verin.
3. Fiqh üsulunun hansı faydaları var? Bu barədə ətraflı yazın.
4. Peyğəmbərimiz Muaz ibn Cəbəlin hansı sözünü bəyənmişdir? Bunu izah edin.
5. Müctəhid olmaq üçün tələb olunan şərtlər hansılardır? Bu barədə ətraflı yazın.
6. Təqlid və təəssübkeşlik haqqında məlumat verərək məzhəb təqlidinin caiz olub-olmadığını araşdırın.

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Müctəhid		*Halala yaxın, lakin məkruh sayılanlar*
2	Şəri hökmlər		Müctəhidin çıxardığı hökmlər
3	Təqlid		*Fərz, Sünnə, haram kimi hökmlər*
4	Şəri dəlillər	**1**	Hökm çıxarma səlahiyyətinə sahib
5	Təəssübkeşlik		Başqasının etdiyini eynilə etmək
6	İctihad		Kitab, Sünnə, İcma, Qiyas

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Fiqh üsulu sahəsində yazılan ilk əsər və onun müəllifi hansı bənddə düzgün verilmişdir?

a. İ. Şatibi – əl-Müvafəqat

b. İ. Zeyd ibn Əli – əl-Məcmu

c. İ. Əbu Hənifə – Fiqhi-əkbər

d. İ. Şafei – er-Risalə

2. Aşağıdakılardan hansı fiqh üsulunun məzmunu və faydaları arasında deyil?

a. Fiqhi hökmlərin daha yaxşı anlaşılmasını təmin etməsi

b. Fitva veriləndə təqib edilən metodu müəyyən etməsi

c. Kəlam məzhəbləri arasındakı fikir ayrılıqlarını bildirməsi

d. İctihadın əhəmiyyətini ortaya qoyması

3. Aşağıdakılardan hansı müctəhid olmaq üçün tələb olunan şərtlərdən biri deyil?

a. Dinə uyğun həyat tərzi

b. Təfsir kitablarını oxumaq

c. Dinin əsas qayələrinə dair məlumat

d. Qabiliyyətli olmaq

4. Hansı hal fiqhi baxımdan uyğun deyil?

a. Zərurət olduqda başqa məzhəbin rəyinə əməl etmək

b. Məzhəb dəyişdirmək

c. Məzhəbləri birləşdirmək

d. Güclü fitvaya əməl etmək

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

IV BÖLMƏ

FİQHİ HÖKMLƏRİN MƏNBƏLƏRİ

MÖVZULAR

A. MƏNBƏLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

B. KİTAB (QURANİ-KƏRİM)

C. SÜNNƏ

D. İCMA

E. QİYAS

F. KÖMƏKÇİ MƏNBƏLƏR

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Dini məsələlərlə bağlı suallarınızın cavablarını haradan araşdırmalısınız?
2. Təfsir və hədis dərslərində öyrəndiklərinizdən də istifadə edib Quran və Sünnənin hansı mövzuları əhatə etdiyini araşdırın.
3. Fiqhdə "Kitab, Sünnə, İcma və Qiyas" dəlilləri nə üçün ön plana çıxarılmışdır? Bu mövzunu araşdırın.
4. Əhatənizdə meydana gələn fiqhi ixtilafların necə həll olunduğunu öyrənin. Adət-ənənələrin fiqhi məsələlərin həllindəki təsirini araşdırın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. MƏNBƏLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

Dəlil kəlməsi lüğətdə "bir şeyi göstərən, yol göstərən bir vasitə" mənalarına gəlir. Dəlil kəlməsinin cəmi **dəlail** və ya **ədillə**dir. Fiqh üsulu termini kimi isə, **istər qəti, istər zənni olsun şəri-əməli hökmün çıxarıldığı mənbəd**ir. Dəlil ilə əldə edilən şəri hökm doğru olarsa, ona **elm**, bu elmə çatdıran dəlilə də **qəti dəlil** adı verilir. Əgər hökmün doğruluğu qəti deyilsə, ona **zənn**, bu zənnə çatdıran dəlilə də **zənni dəlil** deyilir. Üsulşünaslar dəlilləri əsli və fəri olmaqla iki qismə ayırırlar. Onlara görə, əsli dəlillər Kitab, Sünnə, İcma və Qiyasdır və bunların dəlil olmasında müctəhidlər müttəfiqdirlər. Bunlara dörd dəlil mənasında **ədilleyi-ərbəə**, yaxud dini dəlillər mənasında **ədilleyi-şəriyyə** deyilir. İstehsan, məsalehi-mürsələ, isteshab, adət-ənənə, səddi-zərayi, şəru mən qəbləna, səhabə fitvası kimi dəlillər isə fəri dəlil hesab olunur.



B. KİTAB (QURANİ-KƏRİM)

Fiqh üsulunda Kitab deyiləndə Qurani-Kərim başa düşülür. Kitab **Allah-Təalanın elçisi Hz. Məhəmmədə ərəbcə endirdiyi, müshəflərdə yazılaraq bizə qədər təvatür yolu ilə çatan, "Fatihə" surəsi ilə başlayıb "Nas" surəsi ilə qurtaran Qurani-Kərimdir**. Üstün tutulan rəyə əsasən "qaraə" feilindən məsdərdir və kök mənası "oxumaq, toplamaq və bir araya gətirmək"dir. Quran yalnız bir etiqad, ibadət və əxlaq kitabı deyil, həm etiqad və ibadət, həm də insanlararası sosial-iqtisadi münasibətləri ümumi prinsiplərlə tənzimləyən bir kitabdır. Ayələrdə belə buyurulur: **"Biz Quranı sənə hər şeyi** (dini hökmləri, halal-haramı, günahı və savabı) **izah etmək üçün, müsəlmanlara** (və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) **da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik! Biz Kitabda** (Quranda) **heç bir şeyi nəzərdən qaçırmadıq"** (Nəhl, 16/89).

Qurani-Kərim Hz. Məhəmmədə (s.ə.s) ilk dəfə 610-cu ildə təfəkkür və ibadət üçün getdiyi Hira mağarasında Ramazan ayının qədr gecəsində nazil olmağa başlamış, Cəbrayıl (ə.s) vasitəsilə 22 il 2 ay 22 gündə tamamlanmışdır.

İlk nazil olan ayələr bunlardır: **"**(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) **yoxdan yaradan Rəbbinin adı ilə** (bismillah deyərək) **oxu! O, insanı laxtalanmış qandan yaratdı.** (Ya Peyğəmbər!)

Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) **öyrətdi.** (O Rəbbin ki) **insana bilmədiklərini öyrətdi"** (Ələq, 96/1-5). Son ayə isə vida həccində zülhiccə ayının doqquzuncu günü nazil olmuşdur. Bu ayə isə: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) **tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim"** (Maidə, 5/3) ayəsidir.

On üç il davam edən Məkkə dövründə nazil olan ayələrdə daha çox axirətlə bağlı məlumatlar var idi. İnsanlar İslama öyrəşdikdən sonra halal və haramla əlaqədar ayələr enmişdir. Ayələrin əksəriyyəti ya bir sual, ya da bir hadisə nəticəsində nazil olurdu. Buna "əsbabün-nüzul (nazil olma səbəbləri)" deyilir. Quran nazil olduqca Allahın Elçisi nazil olan ayələri vəhy katiblərinə yazdırır və hansı ayənin hara yazılacağını deyirdi. Ayələrin sıralanmasının vəhyə istinadı mövzusunda bütün alimlər həmrəydirlər. Surələrin sıralanmasının vəhyə əsaslanması isə qüvvətli fikirdir.

İPEKYOLU NƏŞRİYYATI

Quranın hökmləri bəyanı

Qurani-Kərim hökmləri bəzən açıq-aydın və tam, bəzən müxtəsər və yığcam, bəzən ümumi prinsip qoyaraq, bəzən də işarə yolu ilə bəyan etmişdir. Bunları nəzərə alaraq Qurani-Kərim hökmlərini iki tərzdə bəyan etdiyini demək mümkündür:

1. Müfəssəl bəyan edilən hökmlər: Quran bəzi hökmləri tam və təfsilatlı izah etmişdir. Bu kimi hökmlərin sayı azdır. Məsələn, vərəsəlik hüququ ilə əlaqədar nəzərdə tutulan payları bildirən ayələr, cinayət hüququnda nəzərdə tutulan cəza növlərini müəyyən edən ayələr, nikah və boşanma mövzusundakı ayələr bu qismə daxildir.

2. Müxtəsər bəyan edilən hökmlər: müxtəsər bəyan edilən hökmlər də öz növbəsində üç qismə bölünür:

Mücməl bəyan edilən hökmlər: Quran bəzi hökmləri qısa və yığcam bildirmiş və təfərrüatı Sünnənin öhdəsinə vermişdir. Məsələn, namaz, oruc, zəkat ibadətləri əmr olunmuş, ancaq bu mövzularda geniş məlumat verilməmiş, bunları Hz. Peyğəmbət təfərrüatı ilə izah etmişdir.

Ümumi prinsip kimi bəyan edilən hökmlər: Qurani-Kərim ümumiyyətlə, hökmləri ümumi qayda və əsas prinsiplər qoyaraq qısa və yığcam bəyan etmişdir. Məsələn, şura (məşvərət), ədalət, şəxsi məsuliyyət, əhdə vəfa göstərməyi ifadə edən ayələr bu qəbildəndir.

İşarə və dəlalətlə bəyan edilən hökmlər: Quranda bəzi hökmlər işarə yolu ilə də bildirilmişdir. Məsələn, Quran zina edən cariyələrin cəzası ilə əlaqədar belə buyurmuşdur: **"Əgər ərə getdikdən sonra zina etsələr, cəzaları azad qadınlara verilən cəzanın yarısı qədərdir"** (Nisa, 4/25). Məhz bu ayədə kölələrin cəzalarının azad kişilərə verilən cazanın yarısı qədər olduğuna bir işarə vardır.

Hökm mənbəyi kimi Quran və onun əhəmiyyəti

Qurani-Kərimin dəlillərin ən başında gəldiyini və ondakı mövcud hökmlərə əməlin vacibliyini müsəlmanlar yekdilliklə qəbul etmişlər. Çünki müsəlmanların əqidəsinə görə, Quran əsla batilin yaxınlaşa bilmədiyi Allah kəlamıdır. Uca Allah onu insanları həqiqətə və düzgün yola yönəldən bir düstur kimi nazil etmişdir. Uca Allah "Maidə" surəsinin 44-50 ayələrində belə buyurur:

"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin (başqa-başqa olmanız) sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir.

Onların aralarında Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi (hökmlərin) bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.

Onlar cahiliyyə (dövrünün) hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?"

İPƏKYOLU NƏŞRİYYATI

C. SÜNNƏ

Sünnə **Hz. Peyğəmbərin (s.ə.s) sözləri, əməlləri və təqrirləridir**. Sünnə Qurani-Kərimdən sonra müraciət edilməli olan ikinci mənbədir. Uca Allah Peyğəmbərinə Quranı bəyan etmə vəzifəsi vermiş və: **"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** (hökmləri, halal-haramı) **izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!"** (Nəhl, 16/44) - buyurmuşdur. Beləcə, sünnəni Uca Allah Quranı tamamlayan və yaxşı başa düşülməsi üçün onu izah edən bir vasitə kimi təqdim etmişdir.

Mahiyyət baxımından Sünnə qövli, əməli və təqriri olmaqla üç qisimdir:

- **Qövli sünnə:** Hz. Peyğəmbərin (s.ə.s) müxtəlif məqsədlərlə dediyi sözlərdir, yəni onun dini məzmunlu kəlamlarıdır. Bunlara **hədis** deyilir.

- **Əməli sünnə:** Hz. Peyğəmbərin (s.ə.s) əməlləridir. Onun dəstəmaz alması, namaz qılması və həcc ilə bağlı etdiyi davranışlar əməli Sünnə çərçivəsinə daxildir.
- **Təqriri sünnə:** Hz. Peyğəmbərimizin təsdiqləyib qəbul etdiyi əməllərdir. Bu Sünnə Rəsululahın (s.ə.s) hüzurunda deyilən sözü eşitməsi və ya edilən bir hərəkəti görməsi, onun yoxluğundakı sözləri və əməlləri öyrənib sükut edərək təsdiq etməsi və yaxud təsdiq etdiyini göstərən gülümsəmə, baş hərəkəti ilə qəbul etmə kimi işarələrlə qəbul etdiyi davranışlardır.

Hökm mənbəyi kimi Sünnənin əhəmiyyəti

Hz. Peyğəmbərə nisbəti sabit olan səhih sünnənin İslam hüququnun mənbələrindən olduğunu və buna əməl etməyin vacibliyini bütün müctəhidlər və alimlər yekdilliklə qəbul etmişlər. Belə ki, Qurani-Kərimdə Hz. Peyğəmbərə tabe olmağı əmr edən çoxlu sayda ayələr vardır. Bu ayələrdən bəzisi aşağıda kimidir:

"Allaha və Peyğəmbərə itaət edin. Əgər (itaətdən) boyun qaçırsanız, bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq bir təbliğdir (Quranı açıq-aydın təbliğ etməkdir)" (Maidə, 5/92**).**

"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik" (Nisa, 4/80).

"(Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!" (Ali İmran, 3/31**)**

"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir" (Həşr, 59/7).

“Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!” (Əhzab, 33/36**)**

“Amma, xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar” (Nisa, 4/65**).**

Hz. Peyğəmbər (s.ə.s) də Sünnənin ikinci mənbə olması ilə bağlı müsəlmanlara belə xəbərdarlıq edir:

“Sizə iki əmanət qoyub gedirəm: Allahın kitabı və Onun peyğəmbərinin Sünnəsi. Onlara yapışdığınız müddətdə zəlalətə düşməzsiniz” (Hakim, “Müstədrək”, I, 171-172).

“Xəbəriniz olsun ki, mənə Quran və onunla birlikdə misli verilmişdir” (Əbu Davud, Sünən, 4604).

Peyğəmbərimiz (s.ə.s): “Biz yalnız Qurana baxarıq”,-deyənləri belə tənbeh etmişdir: *“Sizdən heç birinizin kürsüsünə yaslanımış bir halda ona mənim əmr və qadağalarımdan biri çatan zaman: “Başqasını bilmirəm, ancaq mən Uca Allahın kitabında gördüyümə tabe oluram”,-dediyini qətiyyətlə görməyim!”* (Şafei, “Risalə”, s. 89)

Hz. Peyğəmbərin (s.ə.s) davranışları

Bir çox mövzu Qurani-Kərimdə qeyd edilməsinə baxmayaraq onun ətraflı izahı Sünnəyə həvalə edilmişdir. Bunlar: 1) əqidə və qeybə aid məsələlər; 2) halal və haramlar; 3) əmr və qadağalar; 4) ibadətlər; 5) mülki məsələlər; 6) əxlaq normaları; 7) tibb ilə bağlı bəzi məsələlər.

Bəzi mövzularda Hz. Peyğəmbərin (s.ə.s) davranışları bilavasitə Sünnə çərçivəsində qiymətləndirilməmişdir. Bunlar: 1) Hz. Peyğəmbərin (s.ə.s) bəşəri halları, fiziki ehtiyacları və bunlara oxşar digər hallar; 2) nəss gəlməyən idarəçilik və ictimai məsələlərlə əlaqədar tövsiyələr; 3) bir hakim kimi verdiyi qərarları (ictihadları); 4) dünyəvi işləri (ordunun nizamı, əkinçilik, tibbi müdaxilələr və təcrübəyə əsaslanan məsələlər).

İslam hüquqşünasları ümmətin tabe olma məcburiyyəti olub-olmaması baxımından Peyğəmbərimizin davranışlarını araşdırmışlar və aşağıdakı başlıqlarda toplamışlar:

Bir bəşər kimi etdiyi davranışlar: bunlar məsələn, yeməsi, içməsi, geyinməsi, yatması kimi təbii və insani davranışları, eləcə də özünün təcrübəsinə əsaslanaraq etdiyi ticarət, əkinçilik, müharibə ilə bağlı tədbirlər, bir xəstəliyin müalicəsi kimi məsələlərdəki davranışlarıdır. Bütün bu mövzularda nümunə götürülməsi və ona tabe olunması dini baxımdan məcburi deyil.

Peyğəmbərimizin özünəməxsus davranışları: məsələn, təhəccüd namazı, sövmi-visal (iki-üç gün yemədən və içmədən) oruc tutması və ilaxir. Bunlar müsəlmanların məsul olmadıqları əməllərdir.

Bir qanunverici kimi etdiyi davranışlar: bu kimi davranışlar ümumiyyətlə, tabe olunması məcburi hesab edilməmişdir. Hz. Peyğəmbər (s.ə.s) bir işin yerinə yetirilməsini tövsiyə etmşsə, tövsiyə və əməl edilməyə çalışılmalıdır. Əmr etmişsə, ya da qadağa qoymuşsa, itaət etmək məcburidir. Çünki onun buyurduqları və etdikləri Uca Allahın vəhyinə söykənir: **“O, öz istəyi ilə danışmır. Bu, ona göndərilən bir vəhydir”** (Nəcm, 53/3-4). Rəsulullah (s.ə.s) də: *“(Barmağı ilə ağzını göstərərək) Həyatım əlində olana and olsun ki, buradan yalnız haqq çıxar”*, - deyə buyurmuşdur (Əbu Davud, Elm, 3).

Qanunvericilik baxımından Sünnənin dindəki yeri

Sünnə Qurana müvafiq hökmlər qoyur: məsələn, **“Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin…!”** (Nisa, 4/29) ayəsinə müvafiq hədis *“Bir müsəlmanın malı (başqasına) onun qəlbən razılığı olmadan halal deyil”* (Əhməd ibn Hənbəl, V, 72) hədisidir.

İPƏKYOLU NƏŞRİYYATI

Sünnə Quranda mövcud olan mücməli bəyan, mütləqi müqəyyəd edir: məsələn, "namaz qılın, zəkat verin" (Bəqərə, 2/43) ayəsindəki namaz və ya zəkat mücməl ifadədir. Bunları Hz. Peyğəmbər təfərrüatı ilə bəyan etmişdir.

Sünnə Qurandakı bəzi hökmləri nəsx edir: məsələn, *"Varisə vəsiyyət yoxdur"* (Buxari, Vəsaya, 6) hədisi *"Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. Müttəqilərə (bu) vacibdir"* (Bəqərə, 2/180) ayəsini nəsx etmişdir. Ancaq bu, Quranın Sünnə ilə nəsx edilə biləcəyi fikrini qəbul edən bəzi alimlərə görədir.

Sünnə Quranda mövcud olmayan hökmlər qoyur: məsələn, caynaqlı quşların, azı dişi olan yırtıcı heyvanların və ev uzunqulaqlarının yeyilməsinin haramlığı, nənəyə mirasdan 1/6 hissənin verilməsi və s. kimi məsələlərin hökmü Sünnə tərəfindən verilmişdir.

D. İCMA

İcma **Hz. Peyğəmbərin (s.ə.s) vəfatından sonra hər hansı bir əsrdə İslam hüquqşünaslarının (müctəhidlər) əməli bir məsələnin şəri hökmü haqqında həmfikir olmalarıdır**.

İcmanın dəlil kimi qəbul edilməsinin səbəbləri

1. Uca Allah belə buyurur: **"Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onun istədiyi (özünün yönəldiyi) yola yönəldər və cəhənnəmə varid edərik. Ora necə də pis yerdir"** (Nisa, 4/115).

2. Hz. Peyğəmbər (s.ə.s) müsəlman topluluğunun bir yanlış, zəlalət üzrə birləşmələrinin qeyrimümkün olduğunu bildirərək belə buyurmuşdur: *"Ümmətim zəlalət üzrə birləşməz"* (İbn Macə, Fitən, 8). Başqa bir hədisi-şərifdə isə belə buyurmuşdur: *"Müsəlmanların gözəl qəbul etdikləri Allah dərgahında da gözəldir"* (İbn Hənbəl, I, 379).

İcmanın növləri

1. Sərih icma: hər hansı bir əsrdə bütün müctəhidlərin bir məsələnin hökmünə dair öz fikirlərini birbir, ayrı-ayrılıqda izah etməsi ilə əmələ gələn fikir birliyinə "sərih icma" deyilir.

2. Sükuti icma: hər hansı bir məsələ haqqında bir və ya bir neçə müctəhidin öz fikirlərini səsləndirdikdən sonra, bu fikirdən xəbərdar olan və kifayət qədər düşünmə vaxtı keçməsinə baxmayaraq həmin dövrdəki digər müctəhidlərin, sözügedən mövzuda onlara qoşulduqlarına və ya etiraz etdiklərinə dair heç bir şey demədən susmalarına "sükuti icma" deyilir. Bu tərifdən sükuti icmanın səhih olması üçün aşağıdakı şərtlərin vacibliyi ortaya çıxır:

a) Digər müctəhidlərin həmin fikri qəbul etmədiklərinə dair hər hansı bir dəlil olmamalıdır.

b) Müctəhidlər sözügedən fikirdən xəbərdar olduqdan sonra araşdıraraq fikir əldə etmək üçün kifayət qədər vaxt keçməlidir.

c) İcma edilən məsələ ictihad sahəsinə daxil olan və zənni dəlilə əsaslanan bir məsələ olmalıdır.

İPƏKYOLU NƏŞRİYYATI

Qeyd etmək lazımdır ki, sükuti icmanın dəlil olub-olmaması fəqihlər arasında mübahisəlidir. Belə ki, İmam Malik, Şafei və bəzi fəqihlər bu növ icmanın dəlil olmasını qəbul etməmişlər. Çünki onlara görə, buradakı sükut razılıq mənasına gəlmir, müctəhidin ehtiram və ya fitnə-fəsad qorxusundan susmuş olma ehtimalı da var.

İcmanın istinadı

İcmanın məsnədi müctəhidlərin icma etdikləri hökmü əldə edərkən əsaslandıqları dəlil mənasına gəlir. Bundan məqsəd, müctəhidlərin fikirlərini dində mötəbər hesab edilən bir təmələ istinad etməkdir. Heç bir əsasa söykənmədən müctəhidlərin bir yerə cəmləşərək "biz bir yerə toplaşıb belə qərara gəldik ki, bu məsələnin hökmü belə olsun" demələri dinin məqbul gördüyü bir icma deyil. Müctəhidlərin icması ancaq nəslər üzərində həmfikir olmaları ilə mümkündür. Bu da nəsdən müstəqil bir şey deyil. Çünki qətiyyət ifadə edən hökmlər üçün "bu hökm Kitab, Sünnə və İcma ilə sabitdir" deyilir. Hökm qəti isə icmaya nə ehtiyac var deyə sual çıxa bilər. İcmanın funksiyası qəti hökmləri qüvvətləndirməkdən ibarətdir. Zənni hökmlərdə isə icma o hökmə qətiyyət qazandırır. Bu da alimlərin bir məsələdə həmfikir olduqları mənasına gəlir. Müctəhidlər hər hansı bir ayənin ancaq bu şəkildə başa düşülüb təfsir ediləcəyində və başqa cür izah edilməyəcəyi məsələsində icma edərlər. Məhz üzərində icma edilən ayə və ya hədis icmanın sənədi olur. Məsələn, bütün İslam alimləri Qurandakı "əqimus-salət (namaz qılınız)" şəklindəki ayələrin dua deyil, məlum namaz mənasında olduğuna dair icma etmişdir. Eyni zamanda alimlərin icmasına görə muharrəmat mövzusunda "ümm" kəlməsinə nənə də daxildir. İcmanın istinad olunduğu yerləri aşağıdakı kimi sıralamaq mümkündür:

1. Quran nəssi icmanın məsnədi ola bilər: məsələn, nənə ilə evlənməyin haram olduğuna dair icma vardır. Bunun dəlili Qurandakı "ümm/ana" (Nisa,4/23) kəlməsinin eyni zamanda "üsul" mənasına da gəlməsidir. Bu mənada nənə də buna daxildir. Burada "ümm" kəlməsinin nənəyə də şamil olduğuna dair icma meydana gəlmişdir.

2. Sünnə icmanın məsnədi ola bilər: məsələn, *"Kim bir qida maddəsi satın alarsa, onu əldə etmədən satmasın!"* (Tirmizi, Büyu, 56) hədisi xəbəri-vahid olmasına rəğmən sonradan bu mövzuda icma əmələ gəldiyi üçün bu hədis qətiyyət ifadə edir.

3. Qiyas icmanın məsnədi ola bilər: Qiyasın icmanın məsnədi olub-olmaması mövzusunda üləma ixtilaf etmişdir. Bəzi alimlər qiyas zənni dəlil olduğu üçün zənni hökmün qəti hökmə dəlil ola bilmədiyi fikrini mənimsəyərək qiyasın icma üçün məsnədini məqbul saymamışlar. Bu etiraza belə bir cavab verilə bilər ki, xəbəri-vahid də zənni dəlildir, ancaq icmanın məsnədi ola bilər.

4. Məsləhət icmanın məsnədi ola bilər: məsələn, daha sonra üzərində icma edilən sənətkarın təzmin etmə məsuliyyəti və s. məsləhət fikrinə söykənən icmadır. Onu da qeyd etmək lazımdır ki, məsələhətə əsaslanan icma məsləhətin dəyişməsi ilə dəyişə bilər. Ancaq digər icmalar dəyişmir.

İcmanın əhəmiyyəti və faydaları

Bir nəfərin verdiyi hökmün daim doğru və yanlış olma ehtimalı var. Ancaq bir hökmdə yaşayan bütün müctəhidlərin müttəfiq olmaları onunla bağlı başqa bir ictihadın olmadığının açıq-aydın dəlilidir. Məhz bu hal həmin hökmün səhv olma ehtimalını aradan qaldırdığı üçün düzgün olduğunun sübutudur.

Ayə və hədislərdə mövcud olan bəzi hökmlər qəti olmaya bilər. Fərqli mənalara gələn bu nəslərin tam mənası icma ilə dəqiqləşmiş olar. Məsələn, lüğətdə "səlat" kəlməsi "dua" mənasına gəldiyi halda, Quranda müəyyən bir ibadət olan namaz mənasına gəldiyi icma ilə sabitdir. Həmçinin "siyam" kəlməsi lüğətdə "tutmaq, sirr saxlamaq" mənasına gəldiyi halda, Quranda bu kəlmə ilə oruc ibadətinin nəzərdə tutulduğu icma ilə sabitdir.

İPƏKYOLU NƏŞRİYYATI

E. QİYAS

Qiyas **Kitab, Sünnə və İcmada hökmü olmayan məsələyə, aralarındakı illət eyniliyi səbəbilə sözügedən mənbələrdən birində mövcud olan məsələnin hökmünü həmin məsələyə verməkdir**.

Qiyasın dəlil olaraq qəbul edilməsinin səbəbləri

1. Qurani-Kərimdə: Məsələn, **"Ey bəsirət sahibləri, ibrət alın!"** (Həşr, 59/2) kimi insanları ibrət almağa təşviq edən ayələrin ümumi ifadəsi qiyasın şəri dəyəri olduğuna dəlalət edir. Başqa bir ayədə belə buyurulur: **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!"** (Nisa, 4/59). Bir şeyi Allaha və Rəsuluna həvalə etmək Kitab və Sünnənin qayələrini dərk edib qiyas etməklə mümkündür.

2. Hədislərdə: Peyğəmbərimizə yönəldilən suallara bəzən müqayisə ilə cavab verməsi nümunə kimi verilə bilər. Məsələn: "Atamın əvəzinə həcc edə bilərəmmi?" - deyə soruşan səhabəyə: *"Atanın borcu olsaydı və sən onu ödəsəydin, borc ödənmiş sayılardımı?"*-deyib (Buxari, Həcc, 1) sualına müqayisə ilə cavab verərək Allaha olan borcun ödənməsinin daha vacib olduğunu bildirmişdir.

3. İcmada: Hz. Ömər Əbu Musa əl-Əşərini Bəsrəyə qazı təyin etmiş və sonra ona bir məktub yazmışdı. Bu məktubda Hz. Ömər bu sözlərlə Əbu Musadan qiyas metodundan istifadə etməsini tələb edirdi: *"Kitab və Sünnədə hökmünü tapa bilmədiyin və qəti qərara gələ bilmədiyin iddialarda dəqiq fikirləş! Analoqu olan hadisələri araşdır və oxşar tərəflər tapmağa cəhd et! Sonra da oxşarlıq tapdıqda qiyası tətbiq et! Tapdığın qiyasi nəticələr içərisində Allah dərgahında ən çox istənilən və sənin vicdani qənaətinə görə ədalətə ən yaxın olan hökmü ver!"*

4. Əqli dəlil: Uca Allahın hikməti nəticəsində İslam dini səmavi dinlərin axırıncısı olmuşdur. Odur ki, artıq qiyamətə qədər başqa bir din gəlməyəcəkdir. Məhz bu səbəbdən İslam dinin mənbələri, sadəcə, mövcud olan məsələlərin yox, eyni zamanda dünyanın sonuna qədər ortaya çıxacaq bütün hadisələrin hökmünü ortaya qoymağa əlverişli bir tərkibə malik olmalıdır. Quran və Sünnədəki hüquqi nəslər isə məhduddur, artıq vəhy sona çatdığına görə bunlara başqa nəslər də əlavə olunmayacaqdır. Bunun müqabilində insanların qarşılaşdıqları və qarşılaşacaqları hadisələr, məsələlər məhdud deyil, hər an yeni məsələlər ortaya çıxır. Məhdud olan mənbələr qeyri-məhdud olan hadisələri qarşılamayacağına görə, yeni hadisələrin hökmlərini əldə etməyi təmin edən başqa bir mənbəyin (hökm çıxarma yolunun) mövcud olması zəruridir. Məhz bu hökmləri əldə etmə yolu, barəsində nəss olan hökmlərin hansı səbəblərdən qoyulduğunu müəyyən etmə və bu hökmləri oxşar hadisələrə tətbiq etmə metodudur ki, bununlar nəslərin çərçivəsi genişləndirilmiş olur. Məhz bu, Qiyas dəlilidir. Demək ki, qiyas hüquqi nəsləri, barəsində hökm olmayan yeni hadisələri əhatəsinə alacaq vəziyyətə gətirən bir metoddur. Beləliklə, İslam hüququ dünyanın sonuna qədər insanların ehtiyacını qarşılayan, hər yerdə və hər dövrdə tətbiqi əlverişli bir hüquq kimi daimidir. Qiyasın qəbul edilməməsi isə, İslam hüququnun donmuş və artıq insalığın ehtiyacını qarşılamayan bir hüquq olduğu ittihamlarına məruz qalmasına yol verər. Odur ki, qiyas dəlili İslam hüquqşünasının müraciət etdiyi ən mühüm mənbələrdən biridir.

Qiyasın dörd rüknü var: əsil, fər, illət və əslin hökmü.

1. Əsil: hökmünə dair nəss olan məsələdir. Ayə və hədislə hökmü bilinən məsələdir. Buna "əl-məqis əleyh" deyilir.

2. Fər: hökmü haqqında nəss olmayan ikinci məsələ və ya hadisədir. Buna "əl-məqis" deyilir.

3. Əslin hökmü: ayə və ya hədisdəki məsələnin hökmüdür. Bu hökm qiyas nəticəsində fərə verilir.

4. İllət: illət əslin hökmünün əsaslandığı xüsusiyyətdir.

İPƏKYOLU NƏŞRİYYATI

Qiyas üçün nümunələr:

1. Şəraba qiyasla spirtli içki növlərinin və narkotik vasitələrin haram edilməsi: Uca Allah Quranda şərab içməyi: **"Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!"** (Maidə, 5/90) ayəsi ilə haram etmişdir. İnsanlar vaxt keçdikcə şərabdan başqa pivə, konyak, araq kimi spirtli içki növləri istehsal etmişlər. Müctəhidlər də bu içkiləri araşdırmışlar və sərxoşedicilik xüsusiyyətinə görə bunların da haram olduğunu bildirmişlər.

Yuxarıdakı nümunədə əsil: şərab içmə; fər: konyak, pivə; əslin hökmü: haram; illət: sərxoşedici xüsusiyyətdir.

2. Cümə namazı vaxtında alış-verişin qadağan olmasına qiyasla digər dünyəvi işlərin qadağan edilməsi: **"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi tərk edin"** (Cümə, 62/9). Ayədə cümə azanı oxunmağa başlanan zaman alış-verişin qadağan olduğu bildirilir. Müctəhidlər cümə vaxtında cümə namazına getməli olan şəxslərin ticarətdən başqa digər dünyəvi işlərlə də məşğul olmalarının qadağan olduğunu bildirmişlər.

İllətdə aşağıdakı xüsusiyyətlər olmalıdır:

- İllətlə hökm arasında uyğun bir əlaqə olmalıdır.
- Əslə məxsus olmamalı, başqasına sirayət edən xüsusiyyətə malik olmalıdır.
- Dəqiq olmalıdır. Yəni, şəxsə və yerə görə dəyişməməlidir.
- İllət üçün dini baxımdan etibarsız olduğunu göstərən bir dəlil olmamalıdır.

Qiyas ilə verilən hökmlər hikmətə görə yox, illətə əsaslanır. Çünki hikmət bəzən anlaşıla bilmir, şəxslərə və vəziyyətə görə dəyişə bilər. Məsələn, "Nisa" surəsinin 101-ci ayəsində səfərdə namazın qısaldıla biləcəyi bəyan edilir. Buradakı qısaltma hökmünün illəti nədir?

Ümumiyyətlə, ilk ağla gələn "məşəqqət"dir. Lakin məşəqqət açıq-aydın bir xüsusiyyət olmaqla yanaşı, şəxs və yerə görə dəyişir. Belə olan təqdirdə, burada bir illət axtarılmalıdır ki, o da məhz yolçuluqdur. Çünki hər bir yolçuluqda az və ya çox məşəqqət olur. Bu səbəbdən hər bir yolçuluğun olduğu yerdə namaz qısaldıla bilər, lakin hər məşəqqətin olduğu yerdə namaz qısaldıla bilməz.

F. KÖMƏKÇİ MƏNBƏLƏR

Səhabə rəyi

Səhabə Hz. Peyğəmbəri görmüş, ona iman gətirmiş və adətə görə "dost" deyilə biləcək qədər uzun müddət onunla birgə olan kəsə deyilir.

Səhabə rəyi ilə **Rəsulullahın (s.ə.s) əshabələrindən birisindən nəql edilən ictihadı və fiqhi fitvaları** nəzərdə tutulur. Səhabələr vəhyin necə, hansı səbəbdən və hansı məqsədə əsasən nazil edildiyinə ən yaxşı bələd olanlardır. Məqasidi-şəriəni ən yaxşı bilənlər məhz onlardır. Uca Allah **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar"** (Tövbə, 9/100) ayəsində onları tərifləmişdir. Bu məsələ ilə əlaqədar olaraq Hz. Peyğəmbər (s.ə.s) də: *"Ümmətimin ən xeyirlisi mənim dövrümdə olanlardır; sonra onlara yaxın olanlar, sonra da onlara yaxın olanlardır"*, (Müslim, Fəzailüs-səhabə, 213, 215) - buyuraraq, onların yaxşı insanlar olduqlarını xəbər vermişdir.

Səhabeyi-kiramın əksəriyyəti fitva verməkdən uzaq durmuşlar. Fitvaları bizə qədər gəlib çatan səhabələrin sayı 130 civarındadır. Bunlardan yeddisinin fitvalarının hər biri bir kitab qədər çoxdur. Füqəhayi-səbə deyilən bu səhabələr bunlardır: Hz. Ömər, Hz. Əli, Zeyd ibn Sabit, Abdullah ibn Məsud, Abdullah ibn Abbas və Abdullah ibn Ömər.

İPƏKYOLU NƏŞRİYYATI



Kitab, Sünnə və icmada hökm olmadıqda Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəbinin alimləri: "Təəbbüdi (ictihadi olmayan) məsələlərdə səhabə fitvası, rəyi qəti bir dəlildir", - demişlər. Yəni, səhabə qövlü rəy və ictihadla dərk edilməyən bir mövzuda olarsa, bunun dəlil olduğunu və ona əməl etməyin vacibliyini bütün alimlər ixtilafsız qəbul etmişlər. Çünki səhabənin sözügedən mövzudakı rəyi böyük ehtimal Hz. Peyğəmbərə aiddir. Məsələn, Hz. Əli altı rükət və hər rükətdə altı səcdəli bir namaz qılmışdır. Namaz təəbbüdi olduğu üçün həmin namazı çox ehtimal ki, peyğəmbərimizdən öyrənmişdir. Ancaq digər mövzularda alimlərin əksəriyyətinə görə, səhabə ictihadlarına əməl etmək vacib deyil. Müctəhid özü araşdırar, ya səhabə ilə eyni fikrə gələr, ya da başqa bir qənaətə gələr. Çünki onlara görə, səhabə də digər müctəhidlər kimi bir müctəhiddir. Belə olan halda səhabənin də ictihadında xəta etməsi mümkündür. Məhz bu səbəbdən səhabə qövlü digər müctəhidlər üçün şəri dəlil sayılmır.

Bunun tam əksini iddia edən alimlərə görə isə, hərçənd ki, səhabənin xəta etmə ehtimalı var, onların əksər fikirləri doğrudur. Çünki onlar Hz. Peyğəmbərin məktəbindən keçmiş və orada yetişmişlər. Ərəb dilini mükəmməl bilir, Quran ayələrinin nazil olma və hədislərin varid olma səbəblərinə yaxşı bələd idilər. Həmçinin Hz. Peyğəmbərin davranışlarına şəxsən şahid olmuş, onun söylədiklərini dinləmiş və şəri hökmlərin məqsədlərini qavramışdılar. Bu xüsusiyyətlər daha sonra gələn müctəhidlərin heç birində mövcud deyildi. Odur ki, səhabələrin fikirləri digər müctəhidlərin fikirlərindən daha üstündür və digər müctəhidlər üçün mənbə təşkil edir.

Səddi-zərayi

Səddi-zərayi **məfsədətə (haramlara) aparan yolların, hər cür vasitənin qadağan olunması deməkdir**. Bunun əksinə, yaxşılığa aparan yolların qabağının açılmasına isə fəthi-zərayi deyilir. Bu prinsipə əsasən harama vasitə olan hər şey haram, vacibə vasitə olan hər şey vacib, mübaha vasitə olan hər şey mübahdır. Səddi-zərayi dəlilinin növləri aşağıdakı kimidir:

1. Mahiyyəti baxımından: məsələn, cana qıyılan və insalar arasında ədavətə səbəb olan adam öldürmə, namusun kirlənməsinə və nəsillərin qarışmasına səbəb olan zina, əqli müvazinətin pozulmasına səbəb olan spirtli içkilər bu qismə daxildir.

2. Caiz əməllər: fəsada səbəb olması baxımından caiz olan əməllər də öz növbəsində üç qismə bölünür:

a. Nadir: nadir hallarda fəsada aparan (pisliyə səbəb olan) caiz əməllər və ya işlər. Bu kimi əməllərə qadağa qoyulmamasında alimlər həmfikirdir. Çünki bunların təmin etdiyi faydalar səbəb olduğu ziyandan daha çoxdur. Məsələn, təyyarədən istifadə, üzümün əkilib-becərilməsi və s. misallar vermək olar.

b. Əksər: əksər hallarda fəsada səbəb olan caiz əməllər və işlər. Məsələn, şərab fabrikinə üzüm satmaq, daşınmaz əmlakı qumar üçün icarəyə vermək və s. misal vermək olar. Bu kimi əməllərin qadağan olunmasının vacibliyi barəsində İslam hüquqşünasları ixtilaf etməmişlər. Ancaq malikilər və hənbəlilər kimi bəzi alimlər bu qadağanı səddi-zərayi dəlilinə əsaslandırarkən, hənəfilər, şafeilər və zahirilər kimi digər alimlər bunu **"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"** (Maidə, 5/2) ayəsində qeyd edilən prinsipə əsasladırmışlar.

İPƏKYOLU NƏŞRİYYATI

c. Məqsəddən kənar: əsas məqsəddən kənar bir nəticə əldə etmək üçün vasitə edilən caiz əməl və işlər. Məsələn, ölüm xəstəliyi əsnasında ərin arvadını bain talaqla boşaması buna daxildir. Belə ki, əsasən boşama caiz olmasına baxmayaraq, bu vəziyyətdə talaq hökmünün əsas məqsəddən başqa bir nəticə, yəni qadını mirasdan məhrum etməyə vasitə edilə biləcəyi ehtimalı ortaya çıxır. Odur ki, hənəfilərə görə bu talaq qadını mirasdan məhrum etmir.

Səddi-zərayinin Kitab və Sünnədə çoxlu sayda nümunələri var:

❖ Quranda müşriklərin bütlərinin təhqir edilməməsi əmr olunur. Çünki bu bəhanə ilə müşriklər Uca Allaha qarşı nalayiq sözlər sərf edə bilərlər. Uca Allah belə buyurur: **"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiram) bilmədikləri üzündən Allahı düşmənçəsinə söyərlər"** (Ənam, 6/108).

❖ Rəsulullah (s.ə.s) faizə yol açar və ya faiz olar deyə borclunun borc verənə hədiyyə verməsini qadağan etmişdir. Vəzifədən sui-istifadə etmə əndişəsi ilə hakimə hədiyyə verilməsini qadağan etmişdir.

❖ Fəqeh səhabələr ölüm ayağında olanın boşadığı qadını mirasdan məhrum etməmişlər. Bunun səbəbi də xəstənin arvadını mirasdan məhrum etmək üçün bu addımı atma ehtimalından irəli gəlir. Boşama bu kimi haqsızlıqlara vasitə olmasın deyə səddi-zərayi ilə fitva vermişlər.

❖ Zinaya yol verməmək məqsədilə yad bir qadınla təkbaşına qalmaq haram edilmişdir.

❖ Cümə namazı fərzdir, cümə namazına getmək və getmək üçün alış-verişi tərk etmək də fərzdir.

❖ Üzümün suyundan şərab istehsal edəcəyi dəqiq bilinən kəsə üzüm satmaq qadağandır. İçki içməyə sövq edəcəyi üçün içkinin bir damcısı belə haram edilmişdir. Rəsulullah (s.ə.s): *"Çoxu sərxoş edənin azı da haramdır"*, (Əbu Davud, Əşribə, 5)-buyurur.

❖ Zəddi-zərayi prinsipinin bir gərəyi olaraq narkotik vasitələrin emalında istifadə edilən müxtəlif bitkilərin emalı nəzarət altına alınmalıdır.

Məsalehi-mürsələ

Məsalehi-mürsələ **ayə, hədis, icma və qiyas kimi əmr və ya qadağan edən şəri bir dəlil olmayan məsələlərdə İslamın məqsəd və qayələrinə müvafiq hökm verməkdir**. Məsləhət prinsipinin bir gərəyi olaraq cəmiyyət üçün zərəri faydasından çox olan xüsuslar İslam tərəfindən qadağan edilmişdir. Məsələn, içki və qumarın qadağan edilməsi məhz bu çərçivədədir.

İnsanların yaxşılığı üçün xeyirli olanı götürmək, zərərli və ya zərəri xeyrindən çox olanı tərk etmək mənasına gələn məsləhət prinsipi xüsusilə İmam Malikin ən çox istifadə etdiyi prinsiplərdən biridir.

Etibarlı olub-olmaması baxımından məsləhətlər üç növdür:

1. Mötəbər məsləhətlər: dinin etibarlı saydığı məsləhətlər olub beş şeyi mühafizə etmə əsasına söykənir: a) dini qorumaq, b) canı qorumaq, c) ağlı qorumaq, d) nəsli qorumaq, e) mülkiyyəti qorumaq.

❋ Dinin varlığı üçün Allaha iman əmr edilmiş və namaz, oruc kimi ibadətlər fərz buyurulmuşdur. Dini qorumaq üçün isə dinə hücum edənlərə qarşı mübarizə aparmaq əmr edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

❋ Canın qorunması üçün ona zərər verən və ona qıyan cinayətkarlara qarşı cəzalar müəyyən edilmişdir.

❋ Ağlın qorunması üçün ona ziyan vuran və onu zəiflədən içki və narkotik vasitələr haram edilmiş və bunlardan istifadə edənlər üçün müəyyən cəza növləri nəzərdə tutulmuşdur.

❋ Nəslin qorunması üçün evlilik müəssisəsi qoyulmuş və zina qadağan edilmişdir. Zinakarlara da cəza müəyyən edilmişdir.

❋ Mülkiyyətin qorunması üçün oğurluq qadağan edilmiş və buna yol verən üçün müxtəlif cəzalar müəyyən edilmişdir. Digər tərəfdən sələmçilik, aldatma və insanların mallarını haqsız və əsassız mənimsəmə haram edilmişdir.

MÖTƏBƏR OLUB-OLMAMASI BAXIMINDAN MƏSLƏHƏTİN NÖVLƏRİ

- MÖTƏBƏR MƏSLƏHƏTLƏR
- MÜLĞA MƏSLƏHƏTLƏR
- MÜRSƏL MƏSLƏHƏTLƏR

2. Mülğa məsləhətlər: dini baxımdan etibarsız olan məsləhətlərdir. Məsələn, ölkənin inkişafı üçün qurmarxanalar açmaq kimi. Bu məsləhətlərə etibar olunmaz.

3. Mürsəl məsləhətlər: bunlar haqqında dinin hər hansı bir hökmü yoxdur. Ancaq bu məsləhətlərin cəmiyyətin əksəriyyəti üçün "fayda təmin etmək və ya zərəri dəf etmək" kimi xüsusiyyətləri vardır. Səhabə və tabeunlar dövründə hər hansı bir nəss olmayan mövzuda **mürsəl məsləhətə görə verilən fitva və hökmlərlə əlaqədar nümunələr çoxdur**:

❖ Qurani-Kərimin cəm edilməsi, cümə namazı üçün ikinci azan qoyulması, fəth edilən torpaqlara xərac vergisinin qoyulması və s. kimi hökmlər məsləhət prinsipə əsasən qoyulan hökmlərdir.

❖ Sağlamlığa ziyan vuran şeylərin qadağan edilməsi, ictimai yerlərdə siqarət çəkilməsi və s. kimi qadağalar da məsləhət prinsipinə əsasən qoyulan qadağalardandır.

İPƏKYOLU NƏŞRİYYATI

Adət-ənənə

Lüğətdə "comərdlik və ya dəniz dalğası" mənasına gələn adət kəlməsi, fiqh terminologiyasında **insanların əksəriyyətinin mənimsəyib vərdiş etdikləri iş və ya eşidildikdə xatirə başqa məna gəlməyəcək dərəcədə xüsusi bir mənada istifadə etdikləri ləfzdir**. Müsəlmanların yaxşı qəbul edib mənimsədikləri şeylər İslamda bir dəlil hesab olunmuşdur. Hədisi-şərifdə belə buyurulur: *"Müsəlmanların gözəl qəbul etdikləri Allah dərgahında da gözəldir"* (İbn Hənbəl, I, 379).

ADƏT-ƏNƏNƏ

- SƏHİH
- FASİD

Etibarlı olub-olmaması baxımından adət-ənənə iki qisimdir:

Səhih adət-ənənə: Kitab və Sünnəyə zidd olmayan adət-ənənələrdir.

TƏHLİL EDƏK

Uca Allah və Onun Rəsulu ərəblərin İslama zidd olmayan bəzi adət-ənənələrinə icazə vermişlər. İslamda quru xurma ilə yaş xurmanın dəyişdirilməsi qadağan ediliyi halda, ariyə müqaviləsinə icazə verilmişdir. (Ariyə ağacdakı yaş xurmalar quruyanda nə qədər olacağı təxmin edilərək, o qədər xurma ilə ağacdakı yaş xurmaların mübadiləsi mənasına gəlir.) Çünki o dövrdə insanların bu kimi müqavilələrə ehtiyacları vardı və bu müqavilələr adət-ənənə kimi onların arasında mövcud idi.

Ərəblərin İslama zidd olan bəzi adət-ənənələri isə tamamilə aradan qaldırılmışdır. Məsələn, cahiliyyə adəti olan qadına mirasdan pay verməmək aradan qaldırılmış və İslam qadınlara da mirasdan pay vermişdir.

Bu məlumatlar işığında şəhərinizdəki dinə uyğun olan və olmayan adət-ənənələri dəftərinizə qeyd edin və sinifdə müzakirə edin.

Fasid adət-ənənə: Kitab və ya Sünnəyə zidd olan adət-ənənəyə, fasid və batil (etibarsız) adət deyilir. Məsələn, spirtli içki içmək və ya faiz (sələm) alıb vermək bəzən insanlar arasında adət halını ala bilər. Ancaq nəslərə zidd olan bu kimi adətlər məqbul hesab olunmamış və batil çərçivəsinə daxil edilmişdir.

Adət-ənənəyə söykənən hökmlər zamanın və dövrlərin dəyişməsi ilə dəyişikliyə məruz qalır. İslam hüququnda belə bir qayda var: "Zaman, məkan və şərtlərin dəyişməsi ilə bunlara əsasən qoyulan fitvaların da dəyişilməsi qaçınılmazdır". Məsələn, əvvəllər Quran təlimi müqabilində pul alınması caiz hesab edilmirdi. Lakin daha sonrakı dövrlərdə tələbənin yetişməsi üçün sərf edilən əmək nəzərə alınaraq caiz hesab olunmuşdur. Çünki əvvəlki şərtlər tamamilə dəyişmişdir.



BİLGİ QUSUTU

Adət-ənənənin etibarlı olması üçün ayə və hədislərə zidd olmaması şərti var. Əhkamın dəyişməsi ilə bağlı bu məsələ heç vaxt nəzərdən qaçırılmamalıdır. Məsələn, içki içməyin adət halına gəldiyi bir yerdə hökmün dəyişdiyi və içki içməyin caiz olduğu kimi bir ifadə əsla bir müctəhid tərəfindən dilə gətirilə bilməz.

İstehsan

İstehsan **müctəhidin bir məsələdə öz qənaətinə görə həmin məsələnin oxşarlarında verdiyi hökmdən imtina etməsini lazım bilən nəss, icma, zərurət, gizli qiyas, adət-ənənə və ya məsləhət kimi bir dəlilə əsaslanaraq, o hökmü tərk edib başqa bir hökm verməsidir**.

Belə ki, bəzən bir məsələ ümumi olan nəslərdən birinin və ya fiqhdə yaxud bəzi məzhəblərdə mənimsənən bir ümumi qaydanın əhatəsinə daxildir. Ancaq bu məsələdə həmin ümumi nəssin və ya ümumi qaydanın əksinə hökm verməyi lazım bilən nəss, icma, zərurət, adət və ya məsləhət kimi xüsusi bir dəlil də mövcuddur. Müctəhid bu xüsusi dəlilin üstün tutulmasına qənaət gətirərsə, o məsələnin oxşarlarına tətbiq olunan ümumi nəss və ya ümumi qayda hökmünü tərk edərək xüsusi dəlilə əsasən hökm verər. Məhz bu "üdulə", yəni oxşarlarına tətbiq olunan hökmdən imtina etməyə "istehsan" adı verilir. Bu yolla sabit olan hökmə də "qiyasa zidd olaraq sabit olmuş müstəhsən hökm" deyilir. Buradakı qiyasa ziddiyyətdən məqsəd, ümumi nəssə və ya ümumi qaydaya zidd olmasıdır.

İŞƏKYOLU NƏŞRİYYATI

İstehsanın növləri:

1. Dəlili nəss olan istehsan: bir məsələ haqqında müəyyən bir nəss, varsa və bu nəss, ümumi nəss və ya ümumi qaydaya görə o məsələnin oxşarları haqqında tətbiq olunan ümumi hökmün əksinə bir hökm ehtiva edirsə, belə olan təqdirdə bu növ istehsandan bəhs olunur. Sözügedən bu xüsusi nəssin hökmü, Şarinin oxşarlarına aid hökmdən istisna etdiyi bütün məsələlər haqqında etibarlıdır. Məsələn, sələf əqdi (nağd pul müqabilində nisyə mal satmaq) buna nümunə verilə bilər. Çünki bu mövzuda iki nəss vardır. Bunlardan birincisi ümumi nəsdir və bu əqdin etibarsızlığına dəlalət edir. Belə ki, Hz. Peyğəmbər: *"Sahib olmadığın bir şeyi satma",* - buyurmuşdur (Əbu Davud, Büyu, 70). İkinci nəss isə xüsusi nəsdir və bu müqavilənin caiz olduğunu bildirir. Belə ki, Hz. Peyğəmbər Mədinəyə gəldikdən sonra oradakı insanların meyvələri bir və ya iki illiyinə sələf əqdi bağladıqlarını gördü. Bunun müqabilində Hz. Peyğəmbər belə buyurdu: *"Sələf yolu ilə satan, bunu müəyyən ölçüyə, müəyyən tərəziyə görə və müəyyən bir vaxt təyin edərək yerinə yetirsin"* (Əbu Davud, Büyu, 57). Məhz bu hədisə əsasən İslam hüquqşünasları sələf əqdinin mötəbər olmadığını lazım bilən ümumi nəsdən ayıraraq xüsusi nəssə görə hökm vermişlər və sələf əqdini caiz hesab etmişlər.

2. Dəlili icma olan istehsan: müctəhidlərin bir məsələdə, həmin məsələnin oxşarlarına tətbiq olunan ümumi qaydanın əksinə hökm vermələri və ya insanların ümumi bir qaydanın əksinə davranmaları qarşısında sükut etmələri və buna qarşı çıxmadıqları təqdirdə, "icma səbəbilə istehsan" meydana gəlir. Məsələn, istisna əqdi (sifariş müqaviləsi) buna örnək verilə bilər. Belə ki, alqı-satqı mövzusundakı əsas qaydaya görə bu əqd etibarsızdır. Çünki əqdin predmeti "əl-məqud əleyh" əqd bağlanarkən mövcud deyil (mədumdur). Ancaq insanlar bu müamiləni mütəmadi olaraq həyata keçirmişlər və müctəhidlərdən heç kim buna qarşı çıxmamışdır. Belə olan halda, bu əqdin etibarlılığı haqqında müctəhidlərin icma etdiyi qəbul edilir.

3. Dəlili zərurət və ehtiyac olan istehsan: zərurət və ehtiyac səbəbilə istehsana yırtıcı quşların artığı olan sularla dini təmizliyin caiz olması misal verilə bilər. Əslində, bunların da selikləri digər vəhşi heyvanlar kimi nəcis olmalıdır. Ancaq bunlar göydən endikləri və insanların ondan qorunmasında çətinlik olduğu üçün, hənəfilər bu zərurəti nəzərə alaraq bu quşların artığını istehsanən təmiz qəbul etmişlər.

4. Dəlili qapalı qiyas olan istehsan: buradakı istehsan bir-biri ilə ziddiyyətlik təşkil edən, biri açıq digəri qapalı iki qiyas imkanı olan məsələlərdə meydana gəlir. Məsələn, vəhşi quşların artığı haqqında iki qiyas imkanı vardır. Birincisi, onların dört ayaqlı vəhşi heyvanlara qiyas edərək seliklərinin nəcis olduğu fikridir ki, bu açıq qiyasdır. İkincisi isə, vəhşi quşların artığının insan artığına qiyas edilməsidir ki, məhz bu qiyas qapalı qiyasdır. Belə ki, vəhşi quşlar suyu dimdikləri ilə içirlər. Dimdikləri təmiz sümükdür. Eyni zamanda selikləri suya qarışmaz. Belə olan halda, bu qiyasa görə necə ki, insanın içməsi ilə suyun nəcis olmadığına hökm verilirsə, bu kimi quşların da içməsi ilə suyun nəcis olmadığına hökm vermək lazımdır.

5. Dəlili adət-ənənə olan istehsan: insanlar qiyasla müəyyən edilən bir hökmə və ya ümumi qaydaya zidd düşən bir tətbiqatı adət kimi vərdiş etsələr, bu növ istehsandan bəhs olunur. Məsələn, Hənəfi məzhəbindəki ümumi qaydaya görə, vəqf əbədi olmalıdır. Odur ki, bu qayda nəticəsində daşınan (mənqul) əmlak vəqf edilə bilməz. Çünki daşınan əmlak müəyyən müddət sonra öz əhəmiyyətini itirir. Ancaq İmam Məhəmməd kitab və buna oxşarların vəqf edilməsinə yəni vərdiş olunmuş əşyaların vəqf edilə biləcəyinə dair fitva vermişdir.

6. Dəlili məsləhət olan istehsan: bir məsələdə məsləhət fikri, o məsələyə ümumi nəssə və ümumi qaydaya görə tətbiq edilən hökmdən istisna etməyi və əks istiqamətdə bir hökm verməyi lazım bilərsə, bu növ istehsandan bəhs olunur. Məsələn, Hənəfi və Maliki məzhəbində Haşim oğullarına zəkat vermək caiz deyil. Çünki Hz. Peyğəmbər belə buyurmuşdur: "*Zəkat Mühəmmədə və Mühəmmədin ailəsinə halal deyil"* (Müslim, Zəkat, 168). Ancaq Əbu Hənifə və İmam Malik istehsanən öz dövrlərindəki Haşim oğullarına zəkat verilə biəcəyinə dair fitva vermişdirlər. Bu istehsan, məsləhət fikrinə söykənir. Belə ki, onların dövründə, Haşim oğullarına qənimətlərdən ayrılmalı olan pay artıq onlara ayrılmamışdır. Məhz bu səbəbdən onların mənfəətini qorumaq üçün İslam hüquqşünasları bu qənaətə gəlmişlər.

İPƏKYOLU NƏŞRİYYATI

İsteshab

İsteshab **keçmişdə sabit olan bir şeyin dəyişdiyinə dair bir dəlil olana qədər hal-hazırda da mövcud olduğuna hökm verməkdir**.

İsteshabın növləri:

1. İbaheyi-əsliyyə isteshabı: əksinə bir dəlil olana qədər bir əşyadan istifadə etmə və ya bir davranışı etməyin mübah olduğuna hökm vermə isteshabıdır. Müctəhidlərin əksəriyyəti, barəsində müəyyən bir şəri hökm olmayan və insana faydalı olan şeylərdə və işlərdə təməl hökmün mübahlıq olduğunu qəbul edirlər. Çünki bu mövzuda bir çox dəlil vardır. Məsələn, **"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!"** (Bəqərə, 2/29) **"Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!"** (Casiyə, 45/13) Bu kimi ayələrdə yer üzündəki və göylərdəki hər şeyin insanlar üçün yaradılıb, onların əmrinə və xidmətinə verildiyini bildirir.

Odur ki, müctəhid bir məsələ ilə qarşılaşdıqda, bu məsələnin hökmünü nəqli dəlillərdən və ya qiyas metoduna yaxud məsləhət prinsipinə görə araşdırar. Bu dəlillərdə hər hansı bir hökm tapa bilməzsə, sözügedən prinsipə görə mübahlıq hökmünü verər.

2. Bəraəti-əsliyyə isteshabı: bu, ortada bir dəlil olana qədər heç kəsin məsuliyyətə cəlb edilməməsi isteshabıdır. Məsələn, bir şəxs başqa bir şəxsin ona borclu olduğu haqda iddia qaldırarsa, iddia qaldıran şəxs bunu sübuta yetirməlidir. Çünki əsas qayda hər bir insanın əleyhinə bir dəlil olmadıınca borcsuz olmasıdır.

3. Vəsf isteshabı: bu, səbəbi ortadan qalxmadığı müddətcə, şəriətə görə varlığı qəbul edilən hökmün sabit sayılması isteshabıdır. Məsələn, nikah əqdi ilə bağlanmış bir evlilik münasibətinin üstündən nə qədər vaxt keçərsə keçsin, nikahın pozulduğuna dair bir səbəbin meydana gəldiyinə dair dəlil olmadıqca bu nikahın davam etdiyi qəbul olunur.

İsteshab ilə bağlı bəzi fiqhi qaydalar aşağıdakılardır:

1. **Hər hansı bir dəyişiklik meydana gəldiyinə dair dəlil olana qədər, mövcud olanı olduğu kimi qəbul etmək əsasdır:** məsələn, möfqudun (itkin) hüquqları öldüyünə dair bir dəlil olmadıqca qorunur. Belə ki, mirası varislər arasında paylaşdırılmaz, arvadı başqası ilə evlənə bilməz və s. Ancaq sözügedən şəxs yeni haqlar əldə edə bilməz.

2. **Əşyanın əsas xüsusiyyəti onun mübah olmasıdır:** bu qaydaya görə, haram olduğuna dair bir dəlil olmayan hər şey nemət olması baxımından mübahdır.

3. **Yəqin ilə bilinən bir şey şübhə ilə aradan qalxma:** məsələn, dəstəmaz aldığını dəqiq bilən kəs dəstəmazının pozulduğunda şübhə edərsə, dəstəmaz aldığını dəqiq bildiyi üçün burada şübhəyə etibar edilməz və dəstəmazlı olduğuna qərar verilər.

Şəru mən qəbləna

Şəru mən qəbləna **Uca Allahın Hz. Peyğəmbərdən əvvəlki qövmlər üçün qoyduğu və peyğəmbərləri vasitəsilə onlara bildirdiyi hökmlərdir**.

Əvvəlki ümmətə aid hökmlər iki qisimdir:

İPƏKYOLU NƏŞRİYYATI

1. Qurani-Kərimdə və ya Hz. Peyğəmbərin Sünnəsində mövcud olmayan hökmlər: Sözügedən hökmlərin müsəlmanlara heç bir aidiyyəti olmamasını alimlər yekdilliklə qəbul etmişlər.

2. Qurani-Kərimdə və ya Hz. Peyğəmbərin Sünnəsində mövcud olan hökmlər: bu hökmlər də öz növbəsində üç qismə bölünür:

a. Nəsx edilənlər: müsəlmanlar nöqteyi-nəzərindən mənsux olduğuna dair dəlil olan hökmlərdir. Bu kimi hökmlərin də müsəlmanlara aid olmadığında alimlər həmrəydir. Məsələn, **"(Ya Rəsulum!) De: "Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə (bismillah deyilmədən) günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər (bunlardan yesə, Allah ona cəza verməz)". Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!"** (Ənam, 6/145, 146) ayəsi yəhudilər üçün haram edilən heyvanların müsəlmanlara halal edildiyinə dəlalət edir. Eyni zamanda *"Mənə qənimətlər halal edildi. Məndən əvvəlki ümmətlərdən heçbirinə halal edilməmişdir"* (İbn Hənbəl, II, 252, 412) hədisi də əvvəlki ümmətlərə halal olmayan qənimətlərin müsəlmanlara halal olduğunu göstərir.

b. Nəsx edilməyənlər: müsəlmanlar üçün də mötəbər sayılan və əməl olunması vacib olan hökmlərdir. Məsələn, **"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"** (Bəqərə, 2/183) ayəsi və *"Qurban kəsin, çünki qurban atanız İbrahim (ə.s) Sünnəsidir"* (İbn Macə, Əzahi, 3) hədisi misal verilə bilər.

c. Nəsx edilib-edilmədiyi bilinməyən hökmlər: bəzi hökmlər də var ki, Quran və ya Sünnədə qeyd olunmasına baxmayaraq müsəlmanlar üçün mənsux və ya mötəbər olduğuna dair hər hansı bir dəlili yoxdur. Bu kimi hökmlərə əməl olunub-olunmaması alimlər arasında mübahisə mövzusu olmuşdur. Ancaq əsasən əməl edilir fikri mənimsənmişdir. Məsələn, **"Biz (Tövratda İsrail oğullarına) yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır. Lakin hər kəs (qisası) bağışlasa, bu onun üçün bir kəffarədir (Allah onun günahlarının üstünü örtüb bağışlar. Və ya zərərdidə qisası bağışlasa, bu, cani üçün bir kəffarədir. Haqq sahibi haqqından vaz keçib onu tələb etməsə, Allah da cinayətkarı cəzalandırmaz). Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, zalimdirlər!"** (Maidə, 5/45) Bu ayə Tövratda İsrail oğulları üçün qoyulmuş hökmdən xəbər verir.

Onu da qeyd etmək lazımdır ki, əslində sözügedən dəlil müstəqil bir dəlil yox, Kitab və Sünnənin əhatəsinə daxildir. Çünki bu hökmlər ya Qurani-Kərimdə, yada Sünnədə mənsux olduğu bildirilmədən qeyd olunmuşdur. Odur ki, bu kimi hökmlərə əməl olunması məqsədə uyğundur.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Dəlil terminindən nə başa düşürsünüz? İzah edin.
2. Sünnə nədir? Qoyduğu hökmlər baxımından Sünnənin qisimlərini və dindəki əhəmiyyətini izah edin.
3. İcmanın növləri və xüsusiyyətləri haqqında məlumat verin.
4. Qiyasın tərifini deyərək nümunələr verin.
5. Səhabə rəyi nə deməkdir? İzah edin.
6. Adət-ənənənin şəri hökmün dəlili ola bilməsi üçün ən əsas şərti yazın.
7. İstehsanın növlərini nümunələrlə izah edin.
8. İsteshab qaydalarını tərif edərək nümunələrlə izah edin.
9. Son din olan İslamdan əvvəlki dinlər və şəriətlər müsəlmanlara aiddirmi? Bu mövzunu izah edin.

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Qəti dəlil		*Hökmündə qətilik olmayan dəlil*
2	Əsli dəlil		*Nəslərə baxılaraq çıxarılan digər dəlillər*
3	Dəlil	**1**	*Dəqiq hökmə aparan dəlil*
4	Ədilleyi-ərbəə		*Əsil mənbələr (Kitab və Sünnə)*
5	Zənni dəlil		*Bütün müctəhidlərin müttəfiq olduqları dəlillər*
6	Fəri dəlillər		*Rəhbər, iddianı sübut edən vasitə*

SƏHV-DÜZ

1. ( ) Qurani-Kərim bütün fiqhi məsələləri təfərrüatı ilə bildirmişdir.
2. ( ) Dəstəmaz aldığını dəqiq xatırlamayanın dəstəmazı olduğu üçün təkrarən dəstəmaz almasına ehtiyac yoxdur.
3. ( ) Sükuti icmanın nə dərəcədə dəlil olduğu mübahisəlidir. İmam Malik, Şafei və bəzi fəqehlər bu növ icmanın dəlil olduğunu qəbul etməmişlər.

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(səhabə rəyi, isteshab, məsləhət, səddi-zərayi)

1. Rəsulullahın (s.ə.s) əshabələrindən birisindən nəql edilən ictihadi rəy və fiqhi fitvalara ..... deyilir.

2. ..... haram və qadağan olan davranış və hərəkətlərə aparan yolların qadağan edilərək bağlanmasıdır.

3. Keçmişdə sabit olan bir şeyin hal-hazırda varlığını davam etdirməsinə hökm etməyə ..... deyilir.

4. İnsanların yaxşılığı üçün faydalı olanı almağa ..... deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

AŞAĞIDAKI HÖKMLƏR HANSI DƏLİLLƏRƏ BAXILARAQ ÇIXARILAN HÖKMLƏRDİR? YANINDAKI BOŞLUQLARA YAZIN

Müəyyən qədər su çıxardıqda natəmiz olan quyu təmiz hökmündə qəbul edilir.	**İstehsan**
Şəraba oxşadığı üçün digər spirtli içkilərə haram hökmü verilmişdir.	
Kirayə evin xərcləri ev sahibi və kirəkeş arasında cəmiyyətdəki adət-ənənəyə görə müəyyən edilir.	
Dəstəmazın pozulduğunu xatırlamayan dəstəmazlı sayılır.	**İsteshab**
İctimai yerlərdə siqaret çəkmək insanların əksəriyyətinə zərər verdiyi üçün qadağan edilmişdir.	
Rəsulullah (s.ə.s) ev uzunqulaqlarının haram olduğunu bildirmişdir.	
Günahı sübuta yetirilmədən hər bir insan təqsirsizdir.	
Zinaya yol verilməməsi üçün yad qadınla təkbaşına qalmaq haram edilmişdir.	
Bir şəxs itgin düşsə, tapılana qədər və ya yaşıdları ölənə qədər onun hüquqları mühafizə olunar.	
Səhabələr Quranda mövcud olmamasına baxmayaraq donuz yağının da haram olduğunda müttəfiq olmuşlar.	

TEST

1. "Haram olduğuna dair qəti bir dəlil olmayan hər şey nemət olması etibarilə mübahdır" prinsipi hansı qaydaya əsasən qoyulmuşdur?

a. İstehsan

b. İsteshab

c. Adət-ənənə

d. Səddi-zərayi

2. İstehsan prinsipinə nümunə kimi verilən nağd pul müqabilində bir malın nisyə satılmasına nə deyilir?

a. Sələm

b. Beh

c. Faiz

d. Lüqətə

3. "Zaman, məkan və şərtlərin dəyişməsi ilə bunlara söykənən fitvaların da dəyişməsi qaçınılmazdır" qaydası hansı prinsiplə əlaqədardır?

a. İcma

b. Sünnə

c. Adən-ənənə

d. Qiyas

4. Məsləhət prinsipini dəlil kimi ən çox istifadə edən müctəhid kimdir?

a. İmam Əbu Hənifə

b. İmam Malik

c. İmam Şafei

d. Əhməd ibn Hənbəl

5. Ölkənin inkişafı üçün dövlətin qumarxanalar qurması dini baxımdan qəbuledilməzdir. Çünki burada dini hökm ilə ziddiyyətlik təşkil edən məsləhət vardır. Bu məsləhətə nə deyilir?

a. Mürsəl məsləhət

b. Təhsini məsləhət

c. Mötəbər məsləhət

d. Mülğa məsləhət

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

V
BÖLMƏ

MÜKƏLLƏF VƏ ONUN VƏZİFƏLƏRİ

MÖVZULAR

A. MÜKƏLLƏF

B. MÜKƏLLƏFİN ƏMƏLLƏRİ

C. ƏHLİYYƏTİ MƏHDUDLAŞDIRAN VƏ ONA MANE OLAN HALLAR

D. ƏZİMƏT VƏ RÜXSƏT

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Gündəlik istifadə baxımından əhliyyət hansı məsələlərdə istifadə olunur. Araşdırın.
2. Vücub və əda əhliyyəti haqqında məlumat toplayın.
3. Mükəlləfin vəzifələri deyiləndə nə başa düşürsünüz? Bu mövzuda bildiklərinizi deyin.
4. Bir elmihal kitabından fərz və onun qisimləri haqqında məlumat toplayın.
5. Sünnə və müstəhəb terminlərinin mənalarını bir fiqh kitabından öyrənin.
6. Həddi-büluğa çatmaq nə deməkdir? Bu mövzunu böyüklərinizdən soruşun.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. MÜKƏLLƏF

Fiqh terminologiyasında mükəlləf **dinin əmrlərini yerinə yetirməklə, qadağalarından da çəkinməklə məsul olan və etdiyi davranışlarla bağlı öhdəlik daşıyan ruhi xəstə olmayan və həddi-büluğa çatan kəsdir**.

İnsanın mükəlləf olması və dini hökmlərdən məsul tutula bilməsi üçün əhliyyət sahibi, yəni müsəlman olması, ruhi xəstə olmaması və həddi-büluğa çatması şərtdir.

a) Müsəlman olmaq: İslam dininə girməyincə müsəlman olmayanlar Allahın ibadətlə bağlı əmr və qadağalarına müxatəb deyillər.

b) Ruhi xəstə olmamaq: İslam dini ağla xitab edir. Bu səbəbdən ruhi xəstələrlə, həddi-büluğa çatmayan uşaqlar mükəlləf sayılmırlar. Çünki **"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)"** (Bəqərə, 2/286).

c) Həddi-büluğa çatmaq: həddi-büluğ yaşına çatmaq insanın uşaqlıq dövründən çıxıb yetkinlik dövrünə qədəm qoymasıdır. Yetkinlik yaşına çatmaq bədənin fiziki dəyişikliyə məruz qalmaq-kişilərdə ehtilam, qadınlarda aybaşı olma ilə ortaya çıxar. On beş yaşına çatan qız və ya oğlanda sözügedən hallar müşahidə olunmazsa, artıq həddi-büluğa çatmış sayılır və dinin hökmləri ilə mükəlləf olur.

B. MÜKƏLLƏFİN ƏMƏLLƏRİ

İslam dini mükəlləf olan insanlardan bəzi şeyləri etmələrini, bəzi şeyləri də etməmələrini tələb etmiş, bəzi şeyləri də edib-etməməkdə sərbəst buraxmışdır. Mükəlləf olan insanların davranışları ilə bağlı dinin əmr və qadağalarını bildirən hökmlərə əfali-mükəlləfin, yəni **mükəlləfin əməlləri** deyilir.

Mükəlləfin əməlləri səkkiz növdür: **fərz, vacib, Sünnə, müstəhəb, mübah, məkruh, haram və müfsid**.



İPƏKYOLU NƏŞRİYYATI



1. Fərz

Allah və ya Rəsulunun sübutu (sabit olması) və dəlaləti (mənası) qəti olan dəlillərlə əmr etdiyi əməllərə "fərz" deyilir. Odur ki, fərzlər başqa mənaya gəlmə ehtimalı olmayan ayə, mütəvatir və ya məşhur hədis, ya da icma kimi qəti dəlillərlə sabit olur. Beş vaxt namaz, Ramazan orucu, zəkat və həcc kimi ibadətlər bu qəbildəndir. Bunların fərz olduğu mövzusunda həm açıq ayələr, həm də Hz. Peyğəmbərin mütəvatir və ya məşhur hədisləri mövcuddur.

Qurani-Kərimin bir çox ayəsində **"namaz qılın, zəkat verin"** (Bəqərə, 2/43, 83, 110; Nisa, 4/77, 103; Həcc, 22/78; Nur, 24/56) və namazda qiraəti əmr edən ayədə: **"Qurandan sizə müyəssər olanı oxuyun"**, (Müzzəmmil, 73/20) - buyurulması fərzə nümunə verilə bilər.

Fərzlər fərd və ya cəmiyyət tərəfindən yerinə yetirilmə məsuliyyəti baxımından fərzi-eyn və fərzi-kifayə olmaqla iki qisimdir:

a. Fərzi-eyn: mükəlləf olan hər bir müsəlmanın şəxsən yerinə yetirməli olduğu fərzlərdir. Bir sıra insanların yerinə yetirməsi ilə digərlərindən məsuliyyət götürülmür. Beş vaxt namaz, Ramazan orucu, zəkat və həcc kimi ibadətlər bu növə daxildir.

b. Fərzi-kifayə: mükəlləf olan müsəlmanlara ayrı-ayrılıqda deyil, toplu şəkildə əmr edilən şeylərdir. Bir sıra müsəlmanlar bunu yerinə yetirdikdə, digərləri məsuliyyətdən azad olur. Müharibədə iştirak etmək, Qurani-Kərimi əzbərləmək, şahidlik etmək, yaxşılığı tövsiyə edib pislikdən çəkindirmək, cəmiyyətin ehtiyacı olan peşələri öyrənmək və cənazə namazı qılmaq kimi əmrlər məhz bu qəbildəndir. Müsəlman cəmiyyətindəki bəzi insan və ya qruplar bunları yerinə yetirdikdə, digərlərindən bu öhdəliklər götürülər. Fərzi-kifayənin savabı yalnız onu edənə aiddir. Cəmiyyətdə bu fərzi heç kim yerinə yetirməzsə, bütün cəmiyyət günahkar olar.

Fərzin hökmü: qətiyyətlə yerinə yetirilməlidir. Tərk edən dünya və axirət cəzasına məruz qalar, fərz olduğunu inkar edən dindən çıxmış sayılar. Fərzi yerinə yetirən Uca Allahın əmrini etdiyi üçün savab qazanar. Üzrsüz tərk edən isə haram işləmiş olar və fərzi tərk etdiyi üçün axirətdə əzaba düçar olar. Bir rüknü və şərti əskik yerinə yetirilən ibadət etibarsız sayılır. Bu səbəbdən yenidən düzgün şəkildə yerinə

BİLGİ QUTUSU

Fərzi-kifayə bəzi hallarda fərzi-eynə çevrilə bilər. Məsələn, bir həkimin öz peşəsini yerinə yetirməsi fərzi-kifayədir. O, öz hüququndan istifadə edərək məzuniyyətə çıxa bilər. Həkim məzuniyyətdə ikən olduğu bölgədə təcili tibbi yardıma ehtiyac duyular və ondan başqa bir həkim də olmazsa, o, dərhal tibbi yardım göstərməlidir. Çünki fərzi-kifayə olan bu vəzifə bu həkim üçün fərzi-eynə çevrilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

yetirilməlidir. Məsələn, namazın fərzlərindən biri tərk edilsə, nazam heç qılınmamış sayılır və təkrarən qılınmalıdır. Əks təqdirdə qəzaya qalmış olar.

2. Vacib

İslam alimlərinin əksəriyyətinə görə, fərzlə vacib sinonim xarakterlidir və hər ikisi də eyni hökmlərə tabedir. Hənəfilərə görə, fərz və vacib bir-birindən fərqli məna daşıyır. Vacib Allah və Rəsulunun mükəlləf olan hər bir müsəlmandan yerinə yetirilməsini qətiyyətlə tələb etdiyi, lakin bu qətiliyin zənni dəlil ilə sabit olduğu əməldir. Fitrə sədəqəsi, qurban kəsmə, vitr və bayram namazları, namazda "Fatihə" surəsini oxumaq kimi. Bütün bunlar hənəfilərə görə vacibdir. Çünki xəbəri-vahid ilə, yəni bir ravinin rəvayət etdiyi və bu səbəbdən də zənni dəlil sayılan hədislə sabit omuşdur.

Vacib sübutu qəti, dəlaləti zənni olan dəlillə sabit olur. Bu dəlil təvil (şərh) olunmuş ayə və ya hədis ola bilər. Məsələn Qurani-Kərimdə: **"Rəbbin üçün namaz qıl və qurban kəs!"** (Kövsər, 108/2) - buyurulur. Burada bayram namazı qılma və qurban kəsmə əmri Hz. Peyğəmbərə xitab edilmişdir. Odur ki, bunlar Rəsulullah (s.ə.s) üçün fərz hökmündədir. Lakin əmrin digər müsəlmanları əhatə edib-etmədiyi qəti deyil. Bununla yanaşı bu əmrlərin digər müsəlmanları da əhatə etdiyi daha qüvvətli olan fikirdir. Beləcə, sünnədən daha qüvvətli, lakin ayədəki dəlalət qəti olmadığı üçün fərz dərəcəsinə çatmayan bir əmr növü ortaya çıxmış olur və buna vacib deyilir.

Məsələn, namazda heç Qurani-Kərim oxunmazsa namaz fasid olar. Çünki **"Qurandan sizə müyəssər olanı oxuyun"** (Müzzəmmil, 73/20) buyurulması fərz olduğunu bildirir. Ancaq "Fatihə" surəsinin namazda oxunmaması təkbaşına namazın etibarsız olmasının səbəbi deyil. Bu surənin oxunmamasında kərahət olmaqla yanaşı namaz səhihdir. Çünki namazda "Fatihə" surəsinin oxunması hökmü zənni dəlil ilə sabit olmuşdur. Bu dəlil Hz. Peyğəmbərin *"Fatihə surəsini oxumayanın namazı yoxdur"* (Tirmizi, Məvaqitss-səlat, 69, 115) hədisidir. Çünki bu hədisin "Fatihə oxumadan qılınan namaz tam və mükəmməl olmaz" mənasını da ifadə etmə ehtimalı var. Belə ki, Hz. Aişə, Əbu Hüreyrə və Amr ibn Şüeybin atasından, onun da babasından birlikdə rəvayət etdikləri bir hədisdə "Fatihənin oxunmadığı hər bir namazın nöqsan olduğu və kamil olmadığı" (İbn Macə, İqamə, 11) bildirilmişdir. Məhz bu rəvayət *"Fatihəsiz namaz yoxdur"* hədisini izah edir.

Vacibin hökmü: qətiyyətlə yerinə yetirilməlidir, tərk edən fərzi tərk edəndən daha az bir cəzaya məruz qalar. Vacib olduğunu inkar edənin dindən çıxdığına hökm verilməz. Belə bir şəxs zəlalətdə sayılır. Vacibi yerinə yetirən Uca Allahın əmrini yerinə yetirdiyi üçün savab qazanar, üzrsüz tərk edən təhrimən məkruh bir əməl etmiş olar və axirətdə əzaba düçar olar. Namazın vaciblərindən birini qəsdən tərk etmək harama yaxın məkruhdur. Xətaən tərk etmə və ya gecikdirmədə isə səhv səcdəsi vacib olur. Fərz tərk edildikdə isə namaz pozulur. Namazda rükunu tərk etmək kimi.

3. Sünnə

Sünnə lüğətdə gözəl əxlaq, müsbət xarakter, yol, Allah-Təalanın qanunu, hal və getmə, vərdiş edilmiş yol deməkdir. Yaxşı və ya pis yolda getmə mənasını bu hədisdə görmək mümkündür: *"Kim gözəl bir adət başladarsa, ona həm o davranışın, həm də qiyamətə qədər onu nümunə götürən kəslərin savabı verilər. Həmçinin kim pis bir adət başladarsa, ona həm o davranışın, həm də qiyamətə qədər onu nümunə götürən kəslərin günahı yazılar"* (Müslim, Elm, 15, Zəkat, 69).

Sünnə fiqh üsulu termini kimi Hz. Peyğəmbərdən rəvayət edilən söz, əməl və təqrirlərdir (təsdiq, təsvib).

Sünnə müəkkəd, qeyri-müəkkəd və zəvaid Sünnə olmaqla üç qisimdir:

İPƏKYOLU NƏŞRİYYATI

a. Müəkkəd Sünnə: Hz. Peyğəmbərin mütəmadi olaraq etdiyi, lakin çox nadir hallarda tərk etdiyi, fərz və ya vacib olmayan əməllərdir. Bu növ Sünnəni yerinə yetirən savab qazanar. Tərk edən isə cəzaya məruz qalmamaqla birgə qınanar.

Sübh, günorta və axşam namazlarının Sünnələri, dəstəmaz alarkən su ilə ağzı təmizləmək müəkkəd sünnələrdəndir. Bu növ Sünnəyə "sünneyi-hüda" da deyilir.

b. Qeyri-müəkkəd Sünnə: Hz. Peyğəmbərin çox vaxt edib bəzən tərk etdiyi sünnələrdir. Ilkindi və yatsı (işa) namazlarının ilk sünnələri kimi. Qeyri-müəkkəd Sünnələrə müstəhəb və ya məndub da deyilir.

Bu kimi sünnələri edən savab qazanar, etməyən qınanmaz.

c. Zəvaid Sünnə: Hz. Peyğəmbərin bir insan olaraq etdiyi, Allah-Təaladan təbliğ və ya Allahın dinini öyrətmə xüsusiyyəti daşımayan davranışlardır. Peyğəmbərinin yemək-içmək və geyim tərzi, ağ libası üstün tutması, saç və saqqalına xına yaxması bu qəbildəndir.

Zəvaid sünnənin hökmü: mömin Hz. Peyğəmbərə sevgi, hörmət və bağlılığından ötrü onun kimi yeyər, içər və geyinərsə, əcr qazanar. Bu əməlləri tərk edən isə pis bir davranış etmiş sayılmaz.

Hənəfilərdən başqa əksər İslam alimləri yuxarıdakı üç növ sünnəni və Qurani-Kərimdəki fərz və vacib qəbilindən olmayan, edilməsi qəti olaraq əmr edilməyən hökmləri də əhatə etmək üzrə "məndub" terminindən istifadə etmişlər.

4. Müstəhab

Xoş, üstün tutulan, yaxşı sayılan əməl deməkdir. Hz. Peyğəmbərin bəzən edib, bəzən tərk etdiyi, sələfi-salehin tərəfindən xoş qarşılanan və onların əhəmiyyət verdikləri işlərə müstəhəb deyilir. Bəzi nafilə namaz və oruclar bu qəbildəndir. İbadətlərin yerinə yetirilməsində, fərz, vacib və Sünnələrdən əlavə və müstəhəb növünə daxil olan işlər də vardır.

Sübh namazının hava işıqlanana qədər, isti yay günlərində günorta namazının sərin vaxta qədər təxirə salınması, axşam namazında isə tələsilməsi, eləcədə namaz qılarkən üst paltarı düymələmək kimi davranışlar müstəhəbə nümunə verilə bilər.

Müstəhəbin hökmü: yerinə yetirilməsində savab, tərk edilməsində hər hansı qınağın olmaması ilə yanaşı, təkr edildiyi üçün savaban məhrum olunar. İbn Abidin (v. 1252/1836) **məndub, müstəhəb, nafilə** və **tətəvvü** terminlərinin eynimənalı olduğunu, bunları tərk etməyin "övla olanı tərk" (daha uyğun olanı tərk etmək) mənasına gəldiyini, bəzi hallarda da bunları tərk edənin məkruh bir iş etdiyi hesab edilə bilər fikrini irəli sürmüşdür.

5. Mübah

Allah-Təalanın və ya Rəsulunun edib-etməmədə müsəlmanlara sərbəstlik verdiyi işə, əmələ "mübah" deyilir. "Halal" və "caiz" kəlmələri mübahla eynimənalıdır.

Əşyada əsas olan mübahlıqdır. Yəni, barəsində bir hökm gəlməyən şeylər halaldır. Qurani-Kərimdə belə buyurulur: **"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur** (Allahdır)**! O, hər şeyi biləndir!"** (Bəqərə, 2/29) **"**(Ey İnsanlar!) **Məgər Allahın göylərdə və yerdə olanları** (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) **sizə ram etdiyini** (sizin istifadənizə verdiyini)**, aşkar** (görmə, eşitmə, sağlamlıq) **və gizli** (əql, şüur, fəhm, elm və i. a.) **nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?"** (Loğman, 31/20) Bu ayələrdən yerdə və göydəkilərin insanların faydalanması üçün yaradıldığı açıq-aşkar anlaşılır. Yeyilməsi, içilməsi və ya istifadəsi ayə və ya hədislərlə qadağan edilməyən şeylər halal və caizdir. Bunlar insan üçün faydalı olan şeylərdir. Haramlar isə zərərli olanlardır.

İPƏKYOLU NƏŞRİYYATI

Bir şeyin mübah və halal olduğu aşağıdakı yollardan biri ilə aydın olur:

a. Halal olduğuna dair nəss (ayə-hədis) olmalıdır. Təmiz şeyləri yeyib içmək kimi. Ayədə belə buyurulur: **"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır"** (Maidə, 5/5).

Bir şeyin mübah olduğu vaxt və növünü təyinlə əlaqədardır. Məsələn, yemək zamanını və çeşidini seçmək mübahdır. İnsan istədiyi vaxt özünə halal olan bir qadınla evlənə bilər. Həmçinin insan halal çərçivədə əylənə bilər. Ancaq bütün vaxtını əyləncə ilə keçirməsi caiz deyil.

b. Günah olmadığı bildirilməlidir. Nəslərdə günah, sıxıntı və hər hansı problemin olmadığının bildirilməsi, həmin şeyin halal olduğunu göstərir. Ayeyi-kərimələrdə belə buyurulur: **"O** (Allah) **sizə ölmüş heyvanı,** (axar) **qanı, donuz ətini və Allahdan başqasının adı ilə** (bütlərin və s. adı ilə) **kəsilənləri** (yeməyi) **qəti haram etmişdir. Lakin naəlac qaldıqda** (başqasının malını) **zorla mənimsəmədən və həddi aşmadan** (zəruri ehtiyacı ödəyənə qədər) **bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir!"** (Bəqərə, 2/173), **"**(Bu müddəti gözləyən) **qadınlara elçi göndərmək** (onlarla evlənmək) **istədiyinizi** (rəmz və) **işarə ilə bildirməkdən və ya belə bir istəyi ürəyinizdə gizlətməkdən sizə heç bir günah gəlməz"** (Bəqərə, 2/235), **"Kora, çolağa, xəstəyə** (başqaları ilə bir yerdə oturub yemək yeməkdə) **günah yoxdur. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan** (səlahiyyətiniz çatan) **evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdən heç bir günah gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yeməyinizdə də heç bir günah yoxdur"** (Nur, 24/61).

c. Əmr ifadəsi vaciblik yox, mübahlıq bildirməlidir. Bu ayə buna misal verilə bilər: **"Allahın verdiyi ruzidən yeyin-için"** (Bəqərə, 2/60).

d. Bir əməl ilə bağlı hökm olmamalıdır. İsteshab dəlilinə görə, "əşyada əsas olan mübahlıqdır".

MÜZAKİRƏ EDİN

Prinsip etibarilə qaçmaq mübahdır. Aşağıdakı maddələrdəki qaçış növlərinin nə üçün mübah qəbul edilmədiyini sinifdə müzakirə edin.

Camaat namazına çatmaq məqsədilə qaçmaq

Qəzəbləndiyi adamı yaxalayıb döymək məqsədilə qaçmaq

Vücudu göstərən bir geyimdə qaçmaq

Mübahın hökmü: edilib-edilməməsində nə savab, nə də günah vardır. Müsəlmana mübahı edib-etməməkdə sərbəstlik verilmişdir.

6. Haram

İslam dinində edilməməsi qətiyyətlə tələb edilən əmələ "haram" deyilir. Haram ayə, mütəvatir və ya məşhur hədislə sabit olması, qəti və qaçınılmaz olaraq edilməməsi tələb edilən bir əməl qəbilindən olmalıdır. Hənəfilərdən başqa əksər İslam alimlərinə görə, haram zənni dəlil sayılan xəbəri-vahidlə də sabit ola bilər. Hənəfilər xəbəri-vahidlə qəti və qaçınılmaz olaraq qadağan edilən əmələ "təhrimən məkruh", qəti və qaçınılmaz olmayan qadağaya da "tənzihən məkruh" deyirlər.

İPƏKYOLU NƏŞRİYYATI

Allah və Onun elçisinin bir şeyi qadağan etməsi aşağıdakı formalarda ola bilər:

a. Haramlıq bildirən kəlmə ilə qoyulan qadağalar. Qurani-Kərimdə belə buyurulur: **"Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları** (ögey qızlarınız) **ilə evlənmək haram edildi"** (Nisa, 4/23). **"Ölü** (kəsilmədən ölüb murdar olmuş) **heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə** (bismillah deyilmədən) **kəsilmiş, boğulmuş,** (küt alət və ya silahla) **vurulmuş,** (bir yerdən) **yıxılaraq ölmüş,** (başqa bir heyvanın buynuzu ilə) **vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar** (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) **üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi"** (Maidə, 5/3). Bu və buna oxşar ayələrdə bir şeyin qadağan edilməsi açıq-aydın "haram" kəlməsi ilə ifadə edilmişdir.

b. Halal olmadığını bildirməsi ilə qoyulan qadağalar. Uca Allah buyurur: **"Bundan sonra** (bu övrətlərindən əlavə) **sənə** (başqa) **qadınlar halal olmaz"** (Əhzab, 33/52). Hz. Peyğəmbər belə buyurmuşdur: *"Müsəlmanın malını onun könüldən razılığı olmadan almaq halal olmaz"* (İbn Hənbəl, "Müsnəd", V, 72).

c. Qadağa bildirən kəlmələrlə qoyulan qadağalar. **"Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur!"** (İsra, 17/32) ayəsini bu kimi qadağaya misal vermək olar.

d. Çəkindirmə ifadə edən bir kəlmə ilə qoyulan qadağa. **"Ey iman gətirənlər! Şərab da** (içki də)**, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!"** (Maidə, 5/90) Bu ayədəki "çəkinin" sözü sadalananlara yaxınlaşmağı qadağan edərək, daha güclü bir üslubla haram hökmü bildirmişdir.

Haramın növləri: bir şeyin haram buyurulmasının əsası, həmin şeyin zərərli olmasıdır. Bir haramdakı zərər ya qadağan edilən şeyin özündən irəli gəlir, ya da dolayı olaraq bir səbəbə istinad edilir. Belə olan təqdirdə, haram bilavasitə və ya dolayı yoldan olmaqla iki qismə bölünür:

a. Bilavasitə haram (haram li-zatihi): Allah və Rəsulunun müvəqqəti bir səbəbə bağlı olmadan, ta əvvəldən etibarən haram etdiyi şeydir. Zina, oğurluq, ölü heyvan ətini satma, evlənmə maneəsi olanlarla evlənmə kimi. Bunlardakı zərər öz tərkiblərindəki pisliyə əsasəndir. Bilavasitə haramlar ümumi olaraq mal, can, ağıl, din və nəsildən ibarət olan beş ünsürü qorumaq məqsədilə qadağa qoyulanlardır.

Bilavasitə haramın hökmü: əməlin köklü şəkildə qadağan edilməsidir. Mükəlləf müsəlman bu işi edərsə, hər hansı hüquqi nəticə əmələ gəlməz. Sadəcə cəza əmələ gələr. Məsələn, zina nəsil və vərəsəliyin sabit olması üçün səbəb deyil. Ancaq sabit olarsa, cəza tətbiq edilir. Oğurluq da həmçinin oğurlayana oğurlanan malın mülkiyyətini verməz. Bu növ haram zərurət olmadıqca oğurlayana mübah olmaz.

b. Dolayı haram (haram li-qeyrihi): əslində halal olduğu halda, haram edilməsini vacib edən müvəqqəti bir şeylə əlaqədar olan işdir. Məsələn, Cümə namazı əsnasında cümə namazından məsul kişilərin alış-veriş etmə qadağası, dolayı yolla haramdır (Cümə, 62/9). Buradakı qadağa, namaza mane olduğu üçün müəyyən bir müddət xarici səbəbdən ötrü qoyulan qadağadır.

Dolayı haramın hökmü: bu növ haram ehtiyac qarşısında mübah olur. Sözgəlişi, bir qadının ayıb yerinə baxmaq haramdır, ancaq müalicə üçün ehtiyac varsa və mütəxəssis qadın həkim tapma imkanı da yoxdursa, bir qadını kişi həkimin müayinə etməsi mübah olar.

Haramla eynimənalda olan günah termini də işlədilir. Haramı inkar edən dinin əhatə dairəsindən kənara çıxar. Allah qorxusundan haramdan çəkinən savab qazanar.

Səmimi bir müsəlman şərtlər və cəmiyyətin gedişatından asılı olmayaraq hər yer və zamanda istiqamət əhli olub dinin əhkamını həyata keçirmək məcburiyyətindədir. Haramdan, harama yol verən vasitələrdən və haram şübhəsi daşıyan hər bir şeydən çəkinmək insanı Allahın sevdiyi bir şəxsiyyət edər və onu təqva sahibi halına gətirər.

İPƏKYOLU NƏŞRİYYATI

Hədisi-şərifdə qurtuluşun haramdan çəkinmək ilə mümkün olduğu belə vurğulanır: "*Həqiqətən halal da bəllidir, haram da. Onların arasında (halal və ya haramlığı bəlli olmayan) şübhəli şeylər vardır ki, bir çox insanlar bunu bilməzlər. Kim şübhəli şeylərdən çəkinərsə, dinini və namusunu qorumuş olar. Kim ki, şübhəli şeylərə düşərsə, harama düşmüş sayılar. Onun halı qoruğun ətrafında sürüsünü otaran çobana bənzəyir ki, az qala (sürü) qoruğa girsin. Bilin ki, hər bir hökmdarın qadağa bölgəsi (qoruğu) vardır. Allahın qoruğu isə Onun qoyduğu qadağalardır (haramlardır). Bunu da bilin ki, bədəndə bir ət parçası vardır. Əgər o sağlam olarsa, bütün bədən də sağlam olar. Yox əgər o fəsada uğrayarsa, bütün bədən də fəsada uğrayar. Diqqət edin, o (ət parçası) qəlbdir*". (Buxari, Büyu, 2).

İPƏKYOLU NƏŞRİYYATI

7. Məkruh

Allah və Rəslunun tərk edilməsini qəti və qaçınılmaz olmayan bir tərz və üslubda tələb etdiyi şeyə məkruh deyilir. Haramla məkruh arasında bəzi ortaq cəhətlər var. Hər ikisi də qadağan edilən, ya da xoş qarşılanmayan və ya çirkin olan əməlləri ifadə edir. Lakin haram və məkruh məfhumları hənəfilərdə digər məzhəblərə görə bəzi fərqliliklər daşıyır.

Belə ki, haram ayə, mütəvatir və ya məşhur Sünnə ilə qəti və qaçınılmaz olaraq edilməməsi tələb edilən işi ifadə edərkən, məkruh həmiçinin bu dəlillərlə, lakin qəti və qaçınılmaz bir tərzdə qadağa ifadə etməyən bir üslubla və ya xəbəri-vahid kimi zənni bir dəlillə sabit olmaqla qadağan edilmiş əməlləri öz əhatəsinə alır.

Məkruh təhrimən və tənzihən olmaqla iki qisimdir:

İPƏKYOLU NƏŞRİYYATI

a. Təhrimən (harama yaxın) məkruh

Allah və Rəsulunun edilməməsini qəti və qaçınılmaz tərzdə tələb etdiyi əməl olmaqla yanaşı, bu tələb xəbəri-vahid kimi zənni bir dəlil ilə sabit olmuşsa, buna "təhrimən (harama yaxın) məkruh" adı verilir. Bu hədis buna misal verilə bilər: *"Heç kim qardaşı icazə verməyin, onun alış-veriş etdiyi alış-verişə girişməsin və elçiliyə getdiyi qıza da elçiliyə getməsin"* (Buxari, Nikah, 45; Müslim, Büyu, 8). Bu hədisdə iki əməl qəti bir üslubla qadağan edilmişdir. Əslində, buradakı iki əməlin hökmü haram olmalıdır. Ancaq bu hədis xəbəri-vahid olduğu üçün buradakı hökm "təhrimən məkruh" sayılmışdır.

Təhrimən məkruh olan bir işi etməyin cəzası var, lakin bunu inkar edən dindən çıxmaz.

b. Tənzihən (halala yaxın) məkruh

Allah və Rəsulunun qoyduğu qadağanın qəti deyilsə, buna "tənzihən məkruh" deyilir. Soğan və ya sarımsaq yeyib namaz üçün məscidə getmək buna misal verilə bilər. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Soğan və sarımsaq yeyən məscidimizə gəlməsin, evində otursun"* (Buxari, Azan, 160). Hz. Peyğəmbər hədisi-şərifdə ətrafdakıların narahat edilməməsi üçün bir tədbir almağa diqqəti cəlb etmişdir. Qoxusu camaatı narahat edən tər, corab və digər qoxuların da hədisin əhatəsində düşünülməsi qaçınılmazdır.

Tənzihən məkruhu etmək cəza və ya qınama səbəbi deyil. Ancaq üstün və fəzilətli olana ziddir. Beləliklə də, hər iki məkruhu tərk edən şəxs mədh edilir. Hənəfilərdən başqa digər məzhəb imamları hənəfilərin təhrimən məkruh saydıqları əməlləri də harama daxil edirlər. Onlar haram mənasında qadağan edilmədiyinə dair işarə olan əməllər üçün isə yalnız "məkruh" terminindən istifadə edirlər.

İPƏKYOLU NƏŞRİYYATI

Hənəfilərdə təhrimən məkruh Vacibin, tənzihən məkruh isə məndubun ziddidir.

8. Müfsid

Bir ibadəti batil edən, pozan, yaxud bir müamiləni nöqsanlaşdıran əməl və ya nöqsanlığa "müfsid" deyilir. Fəsad kökündən ismi-faildir. Səhhət, fəsad və bütlan bir-biri ilə əlaqədar terminlərdir. Səhih, fasid

və batil təsnifatı bir kəsin etdiyi əməllər (işlər) üçün şəriətə görə lazımi ünsür (rükn) və şərtləri daşıyıb-daşımamasına görə edilən təsnifatdır. Bir sıra hökmlərə bağlanan caiz əməllər ya ibadət, ya da müamilələr qəbilindən olur. Şari (qanunverici) bu əməllər üçün bir sıra ünsürlər (rüknlər) və şərtlər qoymuşdur. Beləliklə də, istər ibadətlər, istərsə də müamilələr olsun şəriətə görə müəyyən edilmiş ünsür və şərtlərinə uyğun edilən ibadət və ya müamiləyə "səhih" deyilir. "Mötəbər", "caiz" və ya "etibarlı" terminləri də eyni mənada istifadə edilir.

İbadətlərdə fasid və batil eyni mənada istifadə edilir. Ünsür (rükn) və ya şərtlərindən biri əskik olan ibadət "batil" və ya "fasid" olur. Bunun üçün "qeyri-səhih" və ya "etibarsız" kimi ifadələr də istifadə edilir. Məsələn, səcdəsiz bir namazda ünsür, dəstəmazsız qılınan bir namazda şərt əskik olduğu üçün namaz fasid olur, yəni namaz yenidən qılınmalıdır. Bu mövzuda məzhəblər həmrəydir.

Əksər İslam fəqihlərinə görə, ibadətlərdə olduğu kimi, müamilələrdə də fasid və batil eynimənalıdır. Nöqsanlıq müqavilənin istər ünsürlərində olsun, istərsə də şərtlərində olsun nəticə dəyişmir. Məsələn, ruhi xəstənin bağladığı alqı-satqı müqaviləsi və ya ödəmə vaxtı müəyyən edilməyən nisyə satış hüquqi hər hansı nəticə əmələ gətirmir. Bu müqaviləyə "batil" deyilə bildiyi kimi "fasid"də (etibarsız) deyilə bilər.

Hənəfilərə görə, müamilələr ilə bağlı mövzularıda fasidlə batil fərqli mənada istifadə edilir. Əqdin icab (təklif) və qəbul kimi əsas ünsürlərindəki bir nöqsanlıq müqaviləni batil edərkən, əqdin ünsürləri ilə bağlı olmayan digər şərtlərdən birisində olan nöqsanlıq isə müqaviləni fasid edər. Əsas ünsürləri mövcud olduğu üçün bu kimi əqdlərin bəzi hüquqi nəticələri əmələ gəlir. Məsələn, əqdin tərəflərinin bilinməyən bir əvəz qarşılığında bağladıqları alqı-satqı müqaviləsi, fasid bir şərt daşıyan alqı-satqı müqaviləsi və şahidsiz nikah müqaviləsi bunların hər biri fasid olan hüquqi müamilədir. Hənəfilər bu və buna bənzər müamilələrə "batil" demir və bunların bir sıra hüquqi nəticələri olduğunu irəli sürürlər. Məsələn, fasid bir alqı-satqı müqaviləsində, alan satıcının açıq və ya üstüörtülü razılığı ilə satış predmeti olan malı almışsa, bu mal müştərinin mülkiyyətinə keçir. Lakin müştərinin bu maldan istifadə etməsi, əqddəki nöqsanlıq ortadan qaldırılıb əqd etibarlı edilmədikcə, halal deyil. Fasid bir nikah müqaviləsində, əgər zifaf meydana gəlmişsə, qadın mehr hüququ əldə edər, ayrıldıqda iddət gözləməli və doğulan uşağın da atalığı müəyyən olur. Ancaq nikah müqaviləsi etibarlı edilmədikcə, tərəflərin bu nikahla ər-arvad həyatı yaşamaları halal deyil, nəfəqə və tərəflər arasında vərəsəlik hüququ meydana gəlməz.

Müfsidin hökmü: müfsid olan bir əməlin üzrsüz qəsdən edilməsi günahdır və mütləq aradan qaldırılmalıdır. Lakin xəta ilə meydana gəlməsində günah yoxdur. Pozulub etibarsız olan bir ibadətin yenidən yerinə yetirilməsi, qəzası, bəzən də cəza olaraq kəffarəsi lazım gəlir. Bilərəkdən Ramazan orucunu pozan bir müsəlmanın günahdan qurtula bilməsi üçün iki ay kəffarə orucu tutmasının vacibliyini burada misal vermək olar.

C. ƏHLİYYƏTİ MƏHDUDLAŞDIRAN VƏ ONA MANE OLAN HALLAR

Əhliyyət insanın bir işi etməyə səlahiyyətli olması, bir işi yerinə yetirmə səlahiyyətinə sahib olması mənasına gəlir. Əhliyyət vücub və əda əhliyyəti olmaqla iki qisimdir:

Vücub əhliyyəti: sırf bir insan olmaqdan irəli gələn səbəbə görə müəyyən hüquqlara sahib olma səlahiyyətidir. İnsan sağ doğulduğu andan etibarən tam vücub əhliyyətinə malik olur. Ruhi və fiziki inkişafından asılı olmayaraq yaşayan hər bir şəxs sözügedən əhliyyətə sahibdir.

Əda əhliyyəti: insanın sahib olduğu hüquqlardan istifadə etmə səlahiyyətinə malik olmasıdır. Dini və hüquqi cəhətdən etibarlı olan bir işi yerinə yetirməyə sahib olmasıdır. Əda əhliyyətinin əsasını ağıl və təmyiz gücü təşkil edir. Təmyiz insanın yaxşını pisdən, xeyirlini zərərlidən ayırd edə bilməsi mənasına gəlir.

İPƏKYOLU NƏŞRİYYATI

Bəzi hallarda əhliyyət ya tamamilə, ya da qismən məhdudlaşdırılır. Əhliyyəti məhdudlaşdıran və ona əngəl olan hallar aşağıdakılardır:

Səmavi maneələr: külli iradə nəticəsində meydana gələn əhliyyət əngəlidir. Səmavi maneələr fiziki bir qüsurdan, ağır bir xəstəlikdən, ruhi xəstəlikdən, yuxu və ürək getməsi kimi huşun itirilməsindən, unutma, müvəqqəti yaddaşsızlıq, yaşlanma və xəriflik halı kimi hallardan irəli gələ bilər. Rəbbimiz bu kimi hallarda yerinə yetirilməsi istənilməsinə baxmayaraq edilə bilməyən iş və ibadətlərdən insanı məsul tutmur.

Müktəsəb (sonradan baş verən) maneələr: insan iradəsi ilə meydana gələn əhliyyət əngəlidir. Müktəsəb maneələr sərxoşluqdan, zor altında olmaqdan, düşmən tərəfindən əsir alınmaqdan, həbs olunmaqdan, aclıq və susuzluq kimi hallardan irəli gələ bilər. Bu hallar, əgər başqa birisinin məcbur etməsi ilə meydana gəlmişsə, Uca Allahın nəzdindəki məsuliyyət tamamilə aradan qalxa bilər. Ancaq insan öz istəyi ilə sərxoş olmuşsa, bilməli olduğu şeyləri öyrənməmişsə, şübhəsiz ki, məsuliyyət daşıyır.

D. ƏZİMƏT VƏ RÜXSƏT

Əzimət lüğətdə "bir şeyə qəti şəkildə əzm etmək, yönəlmək və niyyət etmək" deməkdir. Termin mənası isə Uca Allahın mükəlləflərin hamısı üçün bütün vəziyyətlərdə qaçınılmaz olaraq əvvəlcədən qoyduğu hökmləri ifadə edir. Namaz, oruc, həcc və bu kimi dini öhdəliklər məhz bu qəbildəndir. Adam öldürmə, şərab içmə, ölü heyvan əti və donuz əti kimi haram olan hökmlər də həmçinin əzimət hökmlərinə daxildir.

Rüxsət lüğətdə "asanlıq" deməkdir. Termin mənasına gəlincə, Allahın bəndələri üçün üzr və ehtiyaclarına əsasən qoyduğu müvəqqəti hökmləri ifadə edir. Belə olan halda əzimət ümumi və təməl hökmü, rüxsət isə istisna olan hökmü ifadə edir. Əzimətdə ümumi və normal vəziyyət, rüxsətdə isə üzr, ehtiyac və zərurət halı var. Rüxsət iki qisimdir:

1. Haram etmə rüxsəti

Zərurət və ya zərurət dərəcəsinə çatan ehtiyac halında haram mübaha çevrilə bilər. Öldürülmə və ya bədənin bir üzvünü itirmə təhdidi altında qəlbi imanla dolu olan bir kəsin küfr kəlməsini deməsi mübahdır. Bu rüxsəti Allah-Təala zorakılığa məruz qalana tanımışdır (Nəhl, 16/106).

Məkkə müşrikləri İslamın ilk günlərində Əmmar ibn Yasirə (v. 34//657) işgəncə vermişlər, Hz. Peyğəmbəri təhqir edib öz bütlərini mədh etməyincə də buraxmamışdılar. Əmmar (r.ə) vəziyyəti Allahın elçisinə çatdıraraq qəlbinin imanla dolu olduğunu bildirdikdə, Rəsulullah (s.ə.s): *"Yenə işgəncə versələr, sən də eyni şeyi et!"*-buyurmuşdur.

2. Vacibi tərk etmə rüxsəti

Fərz və Vacibin yerinə yetirilməsində əlavə bir çətinlik olduqda, bəzən məsul şəxs bunu yerinə yetirə bilmir. Məsələn, Ramazan ayında yolçu və xəstə olan mükəlləfin oruc tutmaması mübahdır. Bunu daha sonra qəza edər. Lakin burada əzimətə əməl etmək, rüxsətə əməl etməkdən daha üstündür. Çünki rüxsət bildirən ayənin arxasınca: **"Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"** (Bəqərə, 2/184) - buyurulur.

QEYD EDƏK

Əzimət: normal hallarda hər bir mükəlləfin tabe olmalı olduğu əsil hökmdür.

Rüxsət: məşəqqət, zərurət, ehtiyac kimi sonradan ortaya çıxan bir səbəbə görə bəzi insanlara məxsus olaraq əzimət hökmünü tərk etmə imkanı verən yüngülləşdirilmiş və müvəqqəti hökmlərdir.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Mükəlləfin tərifini deyin.
2. Vacib nəyə deyilir? Fərz və vacib arasında fərq varmı?
3. Müəkkəd və qeyri-müəkkəd Sünnə nə deməkdir? Nümunələrlə izah edin.
4. Müstəhəb qəbul edilən davranışlar haqqında məlumat verin.
5. Məkruhu tərif edərək növlərini izah edin.
6. Haramın qisimlərini nümunələrlə izah edin.
7. Səmavi və müktəsəb maneələrə nümunələr verin.
8. Rüxsətə görə hərəkət etmək nə deməkdir? Nə vaxt rüxsətə əməl etmək olar?

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Mükəlləf		*Halala yaxın, ancaq məkruh sayılanlar*
2	Tənzihən məkruh		*Dini baxımdan edilməsi qəbahət olmayan*
3	Tətəvvü		*İnsan iradəsi ilə edilən işlər*
4	Caiz		*Qəlbdən gələrək edilən davranış*
5	Müktəsəb		*Etdiyi işlərdən məsul olan*

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

( ) Əzimət, məşəqqət və zərurət kimi bir səbəbə görə bəzi insanlara xas qoyulan yüngülləşdirilmiş və müvəqqəti hökmlərdir.

( ) Sərxoş olub əqli fəaliyyətinə bir müddət əngəl olmaq kimi insan iradəsi ilə meydana gələn əhliyyət maneələrinə səmavi maneələr deyilir.

( ) Sələfi-salehinin sevib etdiyi və rəğbət göstərdikləri işlər üçün tətəvvü ifadəsindən istifadə edilir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(müamilat, təəbbüdi hökmlər, ibadat, füqəha, üqubat, fəraiz)

Miras bögüsü ilə bağlı hökmlər fiqhin ..... başlığı altında bəhs olunur.

Dini hökmləri dəlilləri ilə bilən, şəri dəlillərə söykənərək hökm çıxara bilən kəslərə .... deyilir.

Ayeyi-kərimələrdə və hədisi-şəriflərdə açıq-aydın bildirilən və heç vaxt dəyişməyən fiqhi hökmlərə ..... deyilir.

Fiqhin təməl mövzuları ....., ... və .... dır.

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Cənazə nmazı qılmaq	**fərzi-kifayə**		Yerə tüpürmək	**məkruh**
Namazda danışmaq			Saqqal saxlamaq	
Gəzmək	**mübah**		Salam vermək	
Varlının həccə getməsi			Züha namazı qılmaq	

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakılardan hansı sırf bir insan olmaqdan irəli gələn hüquqlara malik olma səlahiyyəti mənasına gəlir?

a. Səmavi maneələr
b. Əda əhliyyəti
c. Müktəsəb maneələr
d. Vücub əhliyyəti

2. Normal hallarda hər bir mükəlləfin tabe olmalı olduğu əsli hökmə nə deyilir?

a. Əzimət
b. Rüxsət
c. Əhliyyət
d. Fərz

3. **Aşağıdakılardan hansı haram li-qeyrihi çərçivəsinə daxildir?**

a. Adam öldürmək
b. Dini baxımdan murdar sayılan ət yemək
c. Süd qardaşla evlənmək
d. Bismillah demədən kəsilən bir qoyunun ətini yemək

4. Aşağıdakılardan hansı fərzi-kifayə deyil?

a. Şahidlik etmək
b. Fərz namazdan əvvəl iqamə oxumaq
c. Salamı almaq
d. Allah yolunda mübarizə aparmaq

5. Aşağıdakılardan hansı alimlərin əksəriyyətinə görə mükəlləfin əməlləri arasında yer almır?

a. Məndub
b. Fərz
c. Müfsid
d. Mübah

6. Həddi-büluğa çatma yaşı hansı bənddə düzgün verilmişdir?

a. Qız: 9-12/oğlan: 12-14
b. Qız: 10-12/oğlan: 12-14
c. Qız: 9-15/oğlan: 12-15
d. Qız: 10-14/oğlan: 12-15

İPƏKYOLU NƏŞRİYYATI

VI BÖLMƏ

TƏMİZLİK

MÖVZULAR

A. TƏMİZLİYİN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ
B. TƏMİZLİYİN NÖVLƏRİ
C. NƏCASƏT VƏ HƏDƏS
D. DƏSTƏMAZ
E. QÜSL
F. TƏYƏMMÜM
G. MƏSTLƏR VƏ SARĞILAR ÜZƏRİNƏ MƏSH ETMƏK

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Sağlamlıq baxımından təmizliyin əhəmiyyətini müzakirə edin.
2. İslamın təmizliyə verdiyi əhəmiyyət haqqında nə deyə bilərsiniz?
3. Mənəvi baxımdan təmiz olmaq nə deməkdir? Bu mövzu ilə bağlı fikirlərinizi deyin.
4. Qüsl etməyi vacib edən hallar haqqında bir fiqh kitabından məlumat alın.
5. Təmizliklə əlaqədar bir ayənin mənasını Qurani-Kərim tərcüməsindən öyrənin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. TƏMİZLİYİN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ

Təmizlik həm sağlamlıq, həm də ibadətlərin yerinə yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İslama görə, həm natəmizlikdən, həm də pis vərdişlərdən, davranışlardan, yalnış əqidə və düşüncələrdən təmizlənmək vacibdir.

I. Təharətin kəlmə və termin mənası

Lüğətdə "təmizlik və paklıq" mənasına gələn **təharət** dini terminologiyada nəcasət deyilən natəmizlik və hədəs deyilən ibadətlərə mane olan hökmi natəmizlikdən təmizlənmək mənasına gəlir.

QEYD EDƏK

Təmizlik imandan irəli gəlir. Peyğəmbərimizin (s.ə.s) "Təharət imanın yarısıdır" hədisi-şərifi təmizliyin imanla əlaqəsini vurğulamışdır. İnanan hər bir insanın təmizliyə əhəmiyyət verməsi onun imanının bir gərəyidir.

II. Təmizliyin əhəmiyyəti və onun növləri

İslam dini təmizliyə çox əhəmiyyət vermiş, Uca Allahın hüzuruna çıxmaq üçün bədən, paltar və namaz qılınacaq yerlə, qəlbin təmizliyini tələb etmişdir. Qurani-Kərimin hələ Məkkə dövründə nazil olan ayələrində belə buyurulur: **"Libasını təmizlə!** (Nəfsini günahlardan pak et!)**"** (Müddəssir, 74/4), **"Ey Adəm oğulları! Hər bir ibadət vaxtı** (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) **gözəl libaslarınızı geyin..."** (Əraf, 7/31). İbadət yerinin təmizliyi isə bütün İbrahimi dinlərdə ortaq bir prinsip olub, bu da Kəbeyi-müəzzəmə ilə simvollaşdırılır. **"... İbrahimə və İsmailə də: Evimi** (Kəbəni) **təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün** (bütlərdən) **təmizləyin! - deyə tövsiyə etdik"** (Bəqərə, 2/125). Quranda mənəvi kirlərdən təmizlənmə olan tövbə ilə maddi kirlərdən təmizlənmə birlikdə qeyd edilmiş və bunları edənlərin Allahın sevgisini qazanacaqları bildirilmişdir: **"Allah** (günahından) **tövbə edənləri,** (təmiz və) **pak olanları sevər!"** (Bəqərə, 2/222). Həmçinin təmizlikləri ilə ümmətə nümunə göstərilən Mədinənin Quba xalqı da belə tərifləmir: **"Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları** (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) **sevər!"** (Tövbə, 9/108) Xarici təmizliklə yanaşı, qəlbin və daxili təmizliyin olması daha əhəmiyyətlidir. Çünki xarici görünüşü bəzəkli, ancaq daxili aləmi mənəvi kirlərlə dolu olan bir şəxs imanın həqiqətinə çata bilməz. Allah-Təala qurtuluşa çatanların birinci xüsusiyyətinin təmizlənmək olduğunu belə izah edir: **"**(Günahlardan) **təmizlənən kimsə isə nicat tapacaqdır. O kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar!"** (Əla, 87/14-15)

Hz. Peyğəmbər (s.ə.s) təmizliyin əhəmiyyətini belə bildirmişdir: *"Təmizlik imanın yarısıdır"* (Müslüm, Təharət, 1). *"Allah təmizdir, təmizliyi sevər"* (Tirmizi, Ədəb, 41). *"Namazın açarı təmizlikdir"* (Əbu Davud, Salat, 73). Allahın elçisi müxtəlif səbəblərdən bədən və ətraf mühitin təmizliyini əmr etmiş, özü də bu xüsusda əshabına və bütün insanlara nümunə olmuşdur.

İslam alimləri insanın daxili təmizliyini də nəzərə alaraq təmizliyi dört dərəcəyə ayırmışlar:

a. Bədən, paltar və namaz qılınan yerin təmizlənməsi. Dəstəmaz, qüsl, geyim və namaz qılınan yerin təmizliyi ilə yanaşı, dırnaqların kəsilməsi, qoltuqaltı və qasıq tüklərinin təmizlənməsi, həmçinin Sünnət olmaq bu növə daxildir.

b. Bədən əzalarının yalan, qeybət, haram yemək, əmanətə xəyanət etmək, zina və buna bənzər günahlardan təmizlənməsi. Bu, hər bir möminin əhəmiyyət verməli olduğu mənəvi təmizlənmə şəklidir.

c. Qəlbin xaricinin; həsəd, kibir, riya, ehtiras, düşmənçilik, göstəriş və buna bənzər pis xəstəliklərdən təmizlənməsi. Bu çirkin xislətlər aradan qalxdıqdan sonra yerini təvazökarlıq, qənaət, tövbə, səbir, qorxu (təqva), ümid, sevgi və bunun kimi gözəl sifətlər alır. Bu da təqva sahiblərinin imanının dərəcəsidir.

İPƏKYOLU NƏŞRİYYATI

ç. Qəlbin Allah-Təaladan başqa hər şeydən təmizlənməsi. Allah-Təala belə buyurur: **"**(Ya Rəsulum!) **Sən: "Allah!" deyib çağır, sonra da onları burax ki, düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar.** (Özlərinin dedi-qodularında, pis işlərində və yaramaz əqidələrində davam etsinlər)**"** (Ənam, 6/91). Bunun da mənası budur; əgər qəlb Allah-Təaladan başqa digər varlıqlardan boşaldılarsa, yalnız Uca Allahla məşğul olar. Bu da "La ilahə illəllah (Allahdan başqa heç bir ilah yoxdur)" tövhid kəlməsi ilə qəlbin uyğunluq içində olması deməkdir. Allahla, Onun xaricindəki digər şeylərin (masiva) eyni anda bir qəlbdə olması mümkün deyil. Çünki Haqq-təala bir insanın bağrında iki qəlb yaratmamışdır (Əhzab, 33/4). Təmizliyin bu axırıncı dərəcəsi, peyğəmbərlərin və siddiqlərin iman dərəcəsidir. Qəlbi masivadan (dünyalıqdan) təmizləmək imanın yarısıdır. Bax belə bir maddi və mənəvi təmizlənmə ilə Allahın hüzurunda duran möminin namazı onun meracı olar və onu hər cür azğınlıqdan, haram və məkruh şeylərdən uzaqlaşdırar (Ənkəbut, 29/45). Beləliklə, insanın ətrafında mənəvi bir zireh meydana gələr və imanını nəfs və cəmiyyətdən gələn zərərlərdən qoruyar.

Odur ki, təharət və nəzafət kəlmələri üç cür təmizlənməni əhatə edir:

a. Bədən, paltar və ətraf mühitin kir və pisliklərdən təmizlənməsi. Buna nəcasətdən təharət deyilir. Buna **maddi təmizlik** deyilir.

b. Dəstəmazsızlıq halının ortadan qaldırılması. Buna hədəsdən təmizlənmə deyilir. Qüsl, namaz dəstəmazı və bu ikisi mümkün olmazsa, bunların yerinə keçmək üzrə təyəmmüm hədəsdən təmizlənmənin yollarıdır. Bu, həm maddi, həm də mənəvi təmizlikdir və buna **hökmi təmizlik** deyilir.

c. Qəlbin təkəbbür, özünü bəyənmək, kin, həsəd, qısqanclıq kimi mənəvi kirlərdən təmizlənməsi və bunun yerinə iman, ixlas, təqva və gözəl əxlaqla bəzənməsidir. Buna **mənəvi təmizlik** deyilir.

B. NƏCASƏT VƏ HƏDƏS



I. Nəcasətin tərifi və növləri

Tərkibinə görə dinən təmiz sayılmayan şeylər, namazın səhhətinə mane olma miqdarı baxımından "qəliz/ağır və xəfif/yüngül" olmaqla iki qisimdir. Qəliz növünə girən nəcasət, əgər qatıdırsa, təxminən dörd qram (1 dinar) ağırlığındakı miqdarı, maye isə bədən və ya paltarda ovuc içindən çox (təqribən 12 sm^2) bir yerə yayılmış olanı namaza əngəldir. Xəfif nəcasət isə bədənin (bulaşdığı orqanın) və ya patların dörddə birindən (təqribən 90 sm^2) çox bir yerə bulaşmışsa, namaza mane olur. Bunlardan az olan nəcasətlər isə namaza əngəl deyil.

<u>Qəliz olan nəcasətlər bunlardır:</u>

1. İnsandan çıxan qan, sidik, nəcis, məni, eləcə də kiçik tualet ehtiyacını gördükdən sonra cinsi orqandan çıxan qatı və ağ rəngli "vədi" deyilən maye, sevişmək və ya qarşı cinsi düşünməklə cinsi orqandan gələn ağ rəngli, yapışqan "məzi" deyilən maye, ağız dolusu qusmalar, hər hansı bir üzvdən axıp çıxan qan, bədəndən kəsilib düşən ət və dəri parçaları. Qadınların aybaşı, zahılıq və ya üzrlü vaxtlarında gələn qanlar da bu mahiyyətdədir.

2. Əti yeyilməyən heyvanların sidikləri, ağız selikləri, quşların xaricində digər heyvanların nəcisləri və bütün heyvanların axan qanları.

3. Əti yeyilən heyvanlardan toyuq, qaz və ördəyin nəcisi.

4. Kəsilmədən öz-özünə ölən heyvan murdardır. Bunların aşılanmamış dəriləri də belədir.

Malikilərə görə, ölmüş murdar heyvanın əti kimi, dərisi, sümüyü və sinirləri də təmiz deyil. Qıl, yun və tükləri isə təmizdir. Şafeilərə görə isə, kəsilmədən ölən heyvanın qıl, tük, yun və dırnaqları daxil bütün əzaları nəcisdir.

5. Şərab və digər spirtli içklər. İçilməsi və istifadə edilməsi haram olan içkilər paltara və bədənə tökülərsə, yuyulmadığı müddət ərzində təmiz olmaz.

Xəfif sayılan və təmiz olmayan şeylər bunlardır:

1. Atların, qatırların, uzunqulaqların və həmçinin ətləri yeyilən qoyun, keçi, maral, yaxud cüyür kimi əhliləşmiş və ya vəhşi heyvanların sidikləri və nəcisləri ƏbuYusif və İmam Məhəmmədə görə xəfif nəcasətdir. Fitvada əsas alınan da bu rəydir. Əbu Hənifəyə görə isə bunlar qəliz nəcasət növünə daxildir.

2. Ətləri yeyilməyən heyvanlardan çaylaq quşu, qartal və şahin kimi havada nəcisini edən quşların nəcisləri.

3. Hər heyvanın "öd" kisəsi bu heyvanın nəcisi hökmündədir.

Namaza mane olmayan nəcasətlər isə bunlardır:

İynə ucu qədər sidiyin sıçraması,

Yollardan sıçrayan palçığın içində görülməyən nəcasətlər,

Pişik kimi heyvanların ağız seliklər,

Göyərçin və sərçə kimi əti yeyilən və havada nəcisini edən quşların nəcisləri,

Cənazə yuyanın üstünə sıçrayan sular.

Yuxarıda qeyd edilən nəcasətlərdən qorunmağa, xüsusilə də ayaqyolu əsnasında sıçrayan sidik damcılarından uzaq durmağa çalışmalıyıq. İbadətə mane olmayan miqdarda olsa belə, vücudumuzu, patlarlarımızı və ibadət etdiyimiz yerləri ağır və yüngül hər cür nəcasətdən təmizləməliyik. Məhz bu, təqvaya müvafiq olan bir davranışdır.

II.Təmizlik baxımından sular

Su həm natəmizliyi təmizləmək, həm də dəstəmaz və qüslda istifadə edilməsi baxımından əsil təmizləyici vasitədir. Allah-Təala belə buyurur: **"Allah sizi** (çirkdən-pasdan) **təmizləmək** (və ya dəstəmaz almaq) **üçün göydən üstünüzə yağış yağdırmışdı"** (Ənfal, 8/11), **"Biz göydən tərtəmiz su endirdik ki, ..."** (Fürqan, 25/48).

İPƏKYOLU NƏŞRİYYATI

Suları xüsusiyyətlərinə görə beş qisimdir:

1. Həm təmiz, həm də təmizləyici sular: yağış, qar, çay, dəniz, quyu, bulaq, su anbarı və sel sularının toplandığı gölməçə suları bu keyfiyyətə sahibdir. Bunlara "mütləq sular" deyilir. Mütləq su həm təmiz, həm də təmizləyicidir.

Əbu Ümamədən (r.ə) edilən bir rəvayətə görə, Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Su təmizdir. Rəngini, dadını və qoxusunu dəyişdirən şeydən başqa heç bir şey onu nəcis (natəmiz) etməz"* (İbn Macə, Təharət, 76).

İnsanın, qoyun, keçi, dəvə, inək kimi əti yeyilən ev heyvanlarının, at və qatırların, əti yeyilən vəhşi heyvanlar ilə quşların selikləri bulaşan sular həm təmiz, həm də təmizləyicidir.

2. Təmiz və təmizləyici olmaqla yanaşı, istifadə edilməsi tənzihən məkruh olan sular: bir qab və ya yalaqda olub pişik, siçan və ya yırtıcı quş kimi qarşısının alınması çətin olan bir heyvanın içdiyi suyu içmək və ya təmizlikdə istifadə etmək tənzihən məkruh sayılmışdır. Hədisdə pişiklə əlaqədar belə buyrulmuşdur: *"O natəmiz deyil, çünki aranızda gəzib dolaşanlardandır"* (Əbu Davud, Təharət, 38).

Yırtıcı quşların artığının təmiz sayılması; bunlardan qorunmanın çətinliyi, dimdiklərinin təmiz olması, suyu çəkib içmələri üzündən və insanla müqayisədə ağız suyu ifraz etməmələrinin müşahidə edilməsinə əsaslanır.

Xülasə, normal su tapılmadıqda bu cür sular dəstəmaz, qüsl və natəmiz şeylər təmizlənməsədə təmizlikdə istifadə edilə bilər.

3. Təmiz olan, ancaq təmizləyici olmayan sular: dəstəmaz və ya qüsl kimi hökmi təmizlikdə istifadə edilmiş sulara "müstəməl su" deyilir.

Dəstəmaz və qüslun alınmasında, yeməkdən əvvəl və sonra Sünnəyə əməl edərək əlləri yumaqda istifadə edilən sulara "istifadə edilmiş (müstəməl) su" deyilir. İmam Məhəmmədə görə, bunlar nəcasət daşımaması şərtilə təmizdir, ancaq təmizləyici deyil. Ancaq nəcasəti, natəmiz olan şeyləri təmizləmədə istifadə edilə bilər. Fitvada əsas alınan rəy budur. Əbu Hənifə və Əbu Yusifə görə, istifadə edilmiş su natəmiz sayılır. Ancaq içinə nəcasət qarışan və ya natəmizin yuyulmasında istifadə edilən su təmiz deyil.

İmam Maliklə İmam Şafeinin bir rəyinə görə, istifadə edilmiş sular həm təmiz, həm də təmizləyicidir. Ancaq yenidən istifadə edilməsi məkruhdur.

4. Həm təmiz, həm də təmizləyici olmayan sular: içinə natəmiz bir şeyin düşdüyü bilinən az miqdardakı su ilə, içinə düşən nəcasətdən ötrü rəngi, dadı və ya qoxusu dəyişən böyük su hövzələri və axar sular belədir.

Ancaq sularda hiss edə bilmədiyimiz çirklər də ola bilər. Necə ki, it, canavar, aslan və donuz kimi yırtıcı heyvanların artığı olan sularda bir nəcasət görülməsə belə natəmiz sayılır. Bu heyvanların ağız seliyi suya qarışa bilər. Ağız seliyi də ətin hökmündədir. Bunlar nə təmizlikdə istifadə edilə bilər, nə də bir zərurət olmadıqda içilə bilər. Hədisdə itin yaladığı bir qabın bir dəfə torpaqla təmizləmək şərtilə üç dəfə yuyulmasının istənilməsi buna sübutdur (Buxari, Vüdu, 33; Müslim, Təharət, 89, 93).

5. Dəstəmaz və qüslda işlədilməsi şübhəli olan sular: uzunqulaq və qatırın artığı belədir. Təmiz su tapılmadığı zaman bu cür sularla dəstəmaz və qüsl alına bilər, ancaq bununla birlikdə təyəmmüm də edilməlidir.

Gül suyu, meyvə suları (şirələri), mineral su, digər spirtsiz içki növləri və ya içində noxud, mərci və lobya kimi təmiz (halal) şeylərin bişməsi ilə incəlik (duruluğunu) və axıcılığını itirmiş sulara "müqəyyəd su" deyilir. Bu cür sularla normal su tapılmadığı zaman yalnız paltar və ya bədənə bulaşan nəcasətin təmizlənməsi caizdir. Bu rəy Əbu Hənifə ilə Əbu Yüsifə aiddir. Fitvada əsas götürülən rəy budur. Ancaq bu cür mayelərlə dəstəmaz və ya qüsl alınmaz. Bunda alimlər həmrəydirlər.

İPƏKYOLU NƏŞRİYYATI

İçinə sabun, torpaq, yuyucu toz kimi təmiz maddələr qarışmış olan sularda qarışma az olarsa, təmizləyicidir.

Sularla bağlı bu rəy xüsusilə quraq və su qıtlığı olan bölgələrdə daha çox əhəmiyyət kəsb edir.

III. Ayaqyoluna dair ədəblər

Böyük və kiçik ayaqyolu ehtiyacını görənlər üçün aşağıdakılar məndubdur:

1. Üstündə Allahın və ya Hz. Mühəmmədin adı yazılan bir şeylə ayaqyoluna girməmək. Ənəs (r.ə) belə demişdir: *"Hz. Peyğəmbər ayaqyoluna girəndə üzüyünü çıxarardı"* (Əbu Davud, Təharət, 10). Çünki Onun üzüyünün üstündə "Muhammədun Rəsulullah" yazısı vardı. Ancaq belə bir yazı gizlədilər, üstü örtülərsə və ya üzüyün itməsindən qorxularsa, qadağa qalxar.

2. Ayaqyoluna girmədən əvvəl Hz. Peyğəmbərin oxuduğu bu duanı oxumaq:

بِسْمِ اللهِ اَللّٰهُمَّ اِنِّى اَعُوذُ بِكَ مِنَ الْخُبْثِ وَالْخَبَائِثِ

"Bismilləhi Allahummə inni əuzu bikə minəl-xubsi vəl-xəbais/Allahım natəmizlikdən və natəmiz olan şeylərin şərindən sənə sığınıram!" (Əbu Davud, Təharət, 3). Bundan sonra sol ayaqla girib sağ ayaqla çıxmaq. Evə girmək, evdən çıxmaq kimi işlərdə isə sağ ayaqla girilib və sağ ayaqla çıxılır.

Ayaqyolundan çıxarkən:

اَلْحَمْدُ لِلّٰهِ الَّذِى اَذْهَبَ عَنِّى مَا يُؤْذِينِي وَأَمْسَكَ عَلَيَّ مَا يَنْفَعُنِي

"Əlhəmdu lilləhilləzi əzhəbə anni mə yuzini və əmsəkə aleyyə mə yənfəuni/Məndən mənə əziyyət verən şeyləri götürən və mənə faydalı olanı məndə saxlayan Allaha həmd olsun" (İbn Macə, Təharət, 26) duası oxunar.

3 Ayaqyolunda Quran oxunmaz, danışılmaz, salam verilərsə alınmaz.

4. Açıq ərazidə gözdən uzaqlaşmaq və ya bir şeylə örtünmək.

5. İstər açıq yerdə, istərsə də qapalı yerdə tualet ehtiyacını görərkən üzü və arxanı qibləyə çevirmək təhrimən məkruhdur. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Ayaqyoluna getdiyinizdə kiçik və böyük tualet ehtiyacını görmək üçün qibləyə ön və arxanızı çevirməyin, şərqə və ya qərbə tərəf çevirin"* (Tirmizi, Təharət, 6).

Hənəfilərdən başqa əksər fəqehlər örtülü tualetlərdə bu kərahətin olmadığını bildirmişlər. Əsaslandıqları dəlil Hz. Cabirin nəql etdiyi hədisdir (Əbu Davud, Təharət, 4).

6. Həşəratların yaşadığı dəliklərə, yol, kölgəlik, ağac altı kimi insanların keçdiyi, istirahət etmək üçün oturduğu yerlərə tualet ehtiyacını görməkdən çəkinməliyik. Hz. Peyğəmbər: *"Lənət olunan üç yerdən çəkinin: su kənarı, yol və kölgəlik. Bu yerlərdə tualet ehtiyacı görməyin"*, (Müslim, Təharət, 68)-buyururdu.

7. Durğun və ya axar suda tualet ehtiyacını görməməli, bir üzr olmadıqca tualet ehtiyacı görməkdən çəkinilməlidir. Bütün bunların edilməsi məkruhdur.

İPƏKYOLU NƏŞRİYYATI

8. Tualet ehtiyacı görüldükdən sonra təmizlik sol əllə edilməli və tualetdən çıxan kimi əllər sabun və başqa təmizləyici vasitələrlə yuyulmalıdır.

9. Böyük və kiçik ehtiyacını gördükdən sonra ayıb yerlərini təmizləməyə **istinca** deyilir. Ayaqyolunu etdikdən sonra su ilə istinca edib tuvalet kağızı ilə qurulanmaq günümüzdə ən məqsədəuyğun təmizlənmə qaydasıdır. Sudan istifadə etmədən yalnız tuvalet kağızı ilə istinca etmək isə məkruhdur.

10. Sidik sızıntısının tamamilə kəsilməsini gözləməyə **istibra** deyilir. Bu səbəbdən bir az gəzmə, öskürmə kimi hərəkətlərlə istibra edilə bilər. Kişilər sidik sızıntısının kəsilməsi üçün çalışmalı, bir az gözləməli, ondan sonra dəstəmaz almalıdırlar.

İPƏKYOLU NƏŞRİYYATI

IV. Hədəsin tərifi və qisimləri



Hədəsin lüğət mənası "sonradan meydana gəlmək, yeni olmaq" mənalarına gəlir. Fiqh terminologiyasında isə **hədəs** "bəzi ibadətlərin edilməsinə dini baxımdan əngəl olan və hökmi nəcasət sayılan haldır". Kiçik və böyük hədəs olmaqla iki qisimdir:

1.Kiçik hədəs: dəstəmazı pozan bir halın meydana gəlməsi ilə əmələ gələn hədəsdir. Bu hədəs dəstəmaz almaqla aradan qalxar.

2.Böyük hədəs: cünub olmaqla, ya da aybaşı və yaxud zahılıqla meydana gələn hədəsdir. Bu hədəs də qüsl almaqla aradan qalxar.

İPƏKYOLU NƏŞRİYYATI

Namaz və təharətə bağlı olan digər ibadətlər dəstəmazla mübah hala gəlir

C. DƏSTƏMAZ

Dəstəmazın temrin mənası "müəyyən əzaları qaydasına uyğun yumaqdan, ya da məsh etməkdən ibarətdir". Dəstəmaz ilə bədənin əl, üz, ağız, burun, diş və ayaqlar kimi kirlənməyə və xaricdən mikroblamağa ən əlverişli olan əzaları gündə bir neçə dəfə yuyulmuş olur. Sinir sistemi və qan dövranı tənzimlənir. Beləliklə, Uca Allahın hüzuruna sükunətlə çıxmaq imkanı meydana gəlir.

Hz. Peyğəmbərin (s.ə.s) dəstəmaz almadan heç bir iş görmədiyi nəql edilir. Dəstəmaz Qurani-Kərimdə namazdan əvvəl yerinə yetirilməli olan bir şərt olaraq qeyd edilir: **"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə əllərinizi yuyun.** (Yaş əlinizlə) **başınızı məsh edin və topuqlarla birlikdə ayaqlarınızı yuyun. Əgər cünub** (murdar) **olmusunuzsa, qüsl edin** (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin)**. Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün** (paklığa niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək qollarınızı məsh edin)**"** (Maidə, 5/6).

Hz. Peyğəmbər özü bir neçə dəfə dəstəmazın alınma qaydasını göstərmiş və dəstəmazsız qılınanbir namazın Allah tərəfindən qəbul olunmadığını bildirmişdir (Buxari, Vüdu, 2). Ağıllı və həddi-büluğ yaşına çatmış, sudan istifadə etmə gücünə sahib olan hər bir müsəlman lazım olduğunda dəstəmaz almaqla məsuldur.

Dəstəmaz almaqla dünyəvi və uxrəvi bir çox fəzilətlər və gözəlliklər əldə edilir. Allahın Rəsulu

(s.ə.s) belə buyurmuşdur: *"Kim əmr olunduğu kimi dəstəmaz alar və əmr olunduğu kimi namaz qılarsa, keçmiş günahları bağışlanar"* (Buxari, Vüdu, 28). *"Hər hansı bir şəxs dəstəmaz alarkən, üzünü yuduğunda, üzündəki əzaları ilə işlədiyi bütün günahları, əl və ayaqlarını yuduqda, bunlarla işlədiyi günahları su damcıları ilə birlikdə axıb gedər və özü də tərtəmiz olar"* (Müslüm, Təharət, 32, 33).

I. Dəstəmazın fərzləri

Dəstəmazın dört fərzi yuxarıda qeyd etdiyimiz ayədə sıra ilə bildirilmişdir. Bunlar da üzü yumaq, dirsəklərə qədər qolları yumaq, başa məsh etmək və topuqlarla birlikdə ayaqları yumaqdan ibarətdir (Maidə, 5/6). Bunları qısa olaraq izah edəcəyik:

1. Üzü yumaq

Üzün bir dəfə yuyulması fərzdir. Üz saçın bitdiyi yerdən saqqal və ya çənə altına və qulağın dibinəqədər olan yerdir. Saqqal, bığ və qaşların dibinəsuyun keçməsi lazımdır.

2. Qolları yumaq

Qolları dirsəklərlə birlikdə bir dəfə yumaq fərzdir. Barmaqlarda dar və altına su keçirməyən üzük varsa, üzük yerindən tərpədilərək altına suyun keçməsi təmin edilməlidir.

3. Başı məsh etmək

Başın dörddən birini yaş əllə bir dəfə məsh etmək fərzdir. Başın əmgək deyilən qabaq tərəfinə məsh edilməsi daha fəzilətlidir. Məsh edilən yer iki qulağın üst tərəfidir. Bu bölgədəki saçların üstünə məsh edilməsi kifayətdir.Muğirə ibn Şubə belə demişdir: *"Peyğəmbər (s.ə.s) dəstəmaz aldı, başının qabaq tərəfini, sarığın üstünü və məstlərini məsh etdi"* (Buxari, Vüdu, 48).

İmam Şafei başa çəkilən məsh miqdarının bir saç telinin belə kifayət etdiyini söyləyir. Malikilər, zahirilər və hənbəlilərdə qəbul edilən rəyə görə, başın hər yerini məsh etmək fərzdir. Digər tərəfdən hənbəlilərə görə, qadının başının qabaq tərəfini məsh etməsi kifayətdir.

4. Ayaqları yumaq

Ayaqları topuqlarla birlikdə bir dəfə yumaq fərzdir. Hz. Peyğəmbər: *"Vay odda yanan o topuqların halına!"* (Buxari, Elm, 30, Vüdu, 27, 29; Müslüm, Təharət, 25-28, 30)-buyuraraq, ayaqların topuqlarla birgə yuyulmasının lazım olduğuna diqqət çəkmişdir.

Hənəfilərdən başqa əksər fəqehlər sünnədən dəlillər gətirərək dəstəmaza bunlardan başqa fərzlər də əlavə etmişlər. Şafeilər və hənbəlilər dəstəmazı fərz buyuran ayədəki ardıcıllığa (tərtib) diqqət yetirməyi, maliki və hənbəlilər ard-arda (müvalat) etməyi, malikilər əzaları ovaraq yumağı, hənbəlilər bismillahı, ağzı və burnu yumağı, eləcə də hənəfilərdən başqa xaricindəki bütün məzhəblər "niyyəti" dəstəmazın fərzi qəbul edirlər.

II. Dəstəmazın sünnələri

1. Niyyət etmək.
2. Dəstəmaza "əuzu-bismillah" ilə başlamaq.
3. Biləklərə qədər əlləri yumaq.
4. Ağız və buruna üç dəfə su alaraq təmizləmək.
5. Dişləri təmizləmək.
6. Ardıcıllığa riayət etmək.
7. Cüt organlarda, yumağa sağdan başlamaq.
8. Hər bir dəstəmaz əzasını üç dəfə yumaq.
9. Dəstəmaz alarkən əlləri və ayaqları yumağa barmaq uclarından başlamaq.

İPƏKYOLU NƏŞRİYYATI

10. Barmaq aralarına əl gəzdirmək.

11. Saqqalın içinə suyun girməsini təmin etmək.

12. Başın hamısını bir su ilə (bir dəfə əllərini su ilə isladaraq) məsh etmək.

13. Qulaqları məsh etmək.

14. Dəstəmaz əzalarını ovaraq yumaq.

15. Dəstəmaz əzalarını fasilə vermədən ard-arda yumaq.

16. Boynu məsh etmək.

III. Dəstəmaz alarkən məkruh olan hərəkətlər

1. Dəstəmaz alarkən lazımından çox suyu boş yerə israf etmək.

2. Suyu üzə və digər əzalara çırparaq yumaq.

3. Dəstəmaz alarkən lazımsız yerə danışmaq.

4. Ehtiyacı olmadığı halda başqasından kömək və su tökməsini istəmək.

5. Təmiz olmayan pis və kirli bir yerdə dəstəmaz almaq.

6. Oruclu bir şəxsin məzməzə və istinşaqı həddindən artıq etməsi.

7. Dəstəmazın Sünnələrindən birini tərk etmək.

Yuxarıda qeyd edilənlər tənzihən məkruh olub dəstəmazın savabını azaldan hərəkətlərdir. Bir üzr olmadığı təqdirdə bu kimi hərəkətlərə yol verilməməlidir.

IV. Dəstəmazsız caiz olmayan əməllər

Dəstəmazı olmayan aşağıdakı dörd şeyi edə bilməz:

Namaz qılmaq.

Tilavət səcdəsi etmək.

Kəbəni təvaf etmək.

Qurana toxunmaq. Dəstəmazı olmayan Qurani-Kərimə və hər hansı bir yerdə yazılmış ayəyə əl vura bilməz. Ekranı açıq olan virtual Quran da müshəf hökmündədir.

Aşağıdakı hallarda dəstəmaz almaq məndubdur:

Ərəfatda vəqfədə olmaq və səy etmək üçün,

Azan oxumaq üçün,

Cənazə yumaq üçün,

Əzbərdən və ya üzündən toxunmadan Quran oxumaq üçün,

Hədis oxumaq üçün,

Bir xəta etdikdən, qəzəbləndikdən və qeybət etdikdən sonra.

Daim dəstəmazlı olmaq, hər namaz vaxtı üçün dəstəmaz almaq, dəstəmazlı yatmaq müstəhəbdir. Dəstəmaz möminin silahıdır.

İPƏKYOLU NƏŞRİYYATI

V. Dəstəmazı pozan və pozmayan hallar

Aşağıdakı hallardan birisi meydana gəldiyi təqdirdə dəstəmaz pozulur:

1. Ön və arxa tərəflərdən sidik, nəcis, qan, məni, məzi, vədi kimi bir mayenin çıxması.

2. Arxadan yel çıxmaq.

3. Bədənin hər hansı bir yerindən qan, irin və ya başqa bir mayenin çıxması.

4. Ağız dolusu qusmaq.

5. Ağlın dərk etmə qabilyyətini itirən hallar dəstəmazı pozar. Yatmaq, huşu itirmək, ağlı itirmək, sərxoşluq və ya epilepsiya tutmaları bunlar arasında sayıla bilər.

Böyrü üstə, bardaş quraraq, dirsəklərə söykənərək, yaxud namazdan kənarda səcdə vəziyyətində yatmaq dəstəmazı pozar. Həmçinin hər hansı bir şeyə söykənər və söykəndiyi bu şey çəkildiyi təqdirdə yıxılıcaq halda olar və ombaları da yerdə olmazsa dəstəmaz pozular. Çünki bədənin boşalma halı, bu şəkildəki bir söykənmə ilə ən son həddinə çatmış olar. Şafeilərə görə isə, bu sonuncu vəziyyətdə, ombalar yerə yaxşı oturmuşsa, dəstəmaz pozulmaz. Çünki belə bir vəziyyətdə hər hansı bir şeyin çıxmayacağından arxayın ola bilər.

6. Namazda yaxındakı şəxslərin eşidə biləcəyi bir səslə, yəni bərkdən gülmək.

8. Məstlər üzərinə məsh edilib dəstəmaz pozulduqdan sonra müqim üçün bir gün, yolçu üçün üç gün keçmiş olması və ya bunların bildirilən müddət ərzində ayaqdan çıxması və ya çıxarılması.

9. Üzrlü olanın dəstəmazı namaz vaxtının çıxması ilə pozulur.

10. Təyəmmümlü olanın su əldə etməsi.

Aşağıdakı hallarda dəstəmaz pozulmur:

Bir yaradan çıxan, ancaq ətrafa yayılmayan sarı su və ya qan.

Parlaq işıqda görünən ətrafa çox az yayılmış incə ağ maye.

Alma kimi dişlənən bir şeydə görülən dişdən gələn az olan bir qan.

Bəlğəm.

Barmaq aralarının bişməsi.

Şüuru itirmədən diz üstə və ya omba yerə qoyularaq oturan yerdə yatmaq.

Ağlamaq, göz yaşı tökmək.

Namazdan kənarda gülmək.

Tənasül orqanına toxunmaq.

Qarşı cinsə əl ilə toxunmaq.

İPƏKYOLU NƏŞRİYYATI

VI. Üzrlü olanların dəstəmazı

Dəstəmazını saxlaya bilməyəcək dərəcədə mütəmadi olaraq bir üzrü olan şəxsə üzr sahibi deyilir. Dəstəmazı pozan hər hansı bir halın üzr ola bilməsi üçün zaman şərti vardır. Belə ki, üzr namaz vaxtının başlanğıcından etibarən dəstəmaz alıb namaz qılacaq qədər bir müddət kəsilməmək şərtilə, tam bir namz vaxtı davam edərsə və daha sonra da hər namaz vaxtında ən az bir dəfə təkrar edərsə, bu halın sahibi üzrlü sayılır. Ancaq belə bir üzr, tam bir namaz vaxtı içində bir dəfə belə olsa baş verməzsə, artıq kəsilmiş və bu halın sahibi də üzrlü hesab edilmir. Məsələn, bir şəxsin burnu, bir gün günorta namazı vaxtının başlanğıcından sonuna qədər, yəni ilkindi namazının vaxtı girənə qədər, dəstəmaz alıb namaz qılacaq bir müddət kəsilmədən aramla qanamağa davam edərsə və bundan sonra da hər namaz vaxtında bir dəfə belə olsun qanayarsa, o şəxs üzrlü sayılır.

- Üzrlü bir şəxs hər fərz namaz vaxtı üçün dəstəmaz alar, bu üzr halının dəstəmazı pozmadığını qəbul edərək, həmin dəstəmazla, onu pozan yeni başqa bir hal meydana gəlmədikcə, istədiyi qədər fərz, vacib, Sünnə, əda və qəza namazı, cümə və bayram namazı qıla bilər. Kəbəni təvaf edə bilər, müshəfi tuta bilər. Namaz vaxtının çıxması ilə üzrlü şəxsin dəstəmazı pozulmuş olar. Dəlili isə bu hədisdir: *"Üzr qanı görən qadın (müstəhazə) hər bir namaz vaxtı üçün dəstəmaz almalıdır"* (Zeylai, "Nəsbür-rayə", I, 204). Digər üzr sahibləri də buna qiyas edilmişdir. Üzrdən başqa dəstəmazı pozan digər bir hal meydana gəlməsi ilə də dəstəmaz pozulur.

- Üzrlünün dəstəmazı namaz vaxtının çıxması ilə pozulur. Məsələn, bir üzrlü sübh namazı üçün tam vaxtında dəstəmaz alsa, bu dəstəmaz sübh namazının vaxtının çıxmasına qədər davam edər. Bu dəstəmaz vaxtın çıxması ilə, başqa sözlə, günəşin çıxması ilə pozulur. Artıq bu dəstəmazla başqa bir namaz qıla bilməz. Ancaq üzrünün müvəqqəti kəsildiyi bir vaxtda dəstəmaz alar və hələ üzr halı ortaya çıxmadan və dəstəmazı pozan başqa bir hal da meydana gəlmədən vaxt çıxarsa, bu vəziyyətdə, namaz vaxtının çıxması ilə bu dəstəmaz pozulmuş olmaz.

Ancaq bu üzrlü şəxs günəş çıxdıqdan sonra alınan bir dəstəmazla, günorta namazının vaxtı çıxıanadək dəstəmazı pozan başqa bir hal meydana gəlmədiyi müddətcə, istədiyi qədər namaz qıla bilər. Çünki günorta vaxtının girməsi üzrlü üçün dəstəmazı pozan hal deyil. Eyni şəkildə bayram namazının vaxtının çıxması da üzrlünün dəstəmazını pozmur. Çünki bu bir fərz namaz vaxtı deyil. Üzrlünün dəstəmazı Əbu Hənifəyə görə, vaxtın çıxması ilə, Əbu Yusifə görə isə, həm namaz vaxtının girməsi ilə həm də çıxması ilə pozulur. Vaxtın girməsi ilə dəstəmazın pozulması, təkcə günorta namazının girməsində fərqli nəticə meydana gətirir. İmam Şafeiyə görə, üzrlü hər namaz üçün ayrıca dəstəmaz almalıdır. Üzrlünün dəstəmazı qıldığı namaz qurtaran kimi pozulmuş olar.

- Bir üzr sahibi üzrü aradan qalxdığı halda, dəstəmazı pozan başqa bir haldan ötrü dəstəmaz alar və daha sonra əvvəlcədən düçar olduğu üzrü təkrar ortaya çıxarsa, dəstəmazı pozular və təkrar dəstəmaz almalıdır. Çünki əvvəlki dəstəmazı bu üzr halından ötrü alınmamışdır. Ancaq üzrü kəsildiyi halda, namaz vaxtının içində üzründən və ya dəstəmazı pozan başqa bir haldan ötrü dəstəmaz alar və o vaxt içində üzrü ortaya çıxarsa, bu dəstəmazı pozulmaz. Çünki bu dəstəmaz həm üzrü, həm də o dəstəmazı pozan başqa hal üçün alınmışdır.

- Üzrlü bir şəxs oturaraq namazını ima ilə qılar və ya üzrünün bədəndəki meydana gəldiyi yerinə sarğı sarımaq kimi müxtəlif üsullarla üzrün ortaya çıxmasına mane olarsa, artıq üzrlü olma hökmündən çıxmış olar.

- Üzrlü bir şəxsin paltarına üzr yerindən çıxıb bulaşan qan, irin və axıcı mayelər üzr davam etdiyi müddətcə namazının səhhətinə mane olmaz. Bərkimiş nəcisin bir dirhəmə çatması, mayenin isə ovuc içindən çox bir yerə yayılması da eynidir. Ancaq bu nəcasətin axması kəsilmişsə, bunlarn yuyulmalıdır.

- Üzr halı ilk ortaya çıxanda namazı vaxtın sonuna qədər gecikdirib qılmaq müstəhəbdir. Üzrlü olanlar imamlıq etməməlidirlər.

- Üzrün hər hansı bir namaz vaxtı boyu kəsilməsi ilə üzr halı sona çatar. Belə olan təqdirdə, həmin şəxs üzr sahibi olmaqdan çıxar və sağlam olanlara aid hökmlərlə məsul olar.

İPƏKYOLU NƏŞRİYYATI

Nəticə etibarilə, İslam dini asanlıq dinidir. Üzr sahibləri haqqında hər cür asanlıq göstərmişdir. Sarğı və məstlər üstünə məsh etmək və su tapmayan üçün təyəmmümün alınması bunlara daxildir.

D. QÜSL

ARAŞDIRIN

Üzr sahibi olanların nə vaxt dəstəmaz almalı olduqlarını və aldığı dəstəmaz ilə nə qədər namaz qıla bildiyini araşdırın.

Qüsl bütün bədəni qüsl niyyəti ilə heç bir quru yer qalmadan yumaqdır. Qüsl bəzi ibadətlərin yerinə yetirilməsinə əngəl olan halları aradan qaldırması baxımından mühüm əhəmiyyət kəsb edir. Qurani-Kərimdə qüsldən bəhs edən üç ayə vardır. Bunlardan birincisində cünubluqdan ötrü qüslun vacibliyi belə bildirilir: **"Əgər cünub olmusunuzsa, qüsl edin** (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin)**"** (Maidə, 5/6). Heyz halında olan qadınla cinsi əlaqədə olmağın qadağan olduğunu bildirən ayədə isə belə buyurur: **"Heyz zamanı qadınlardan kənar olun,** (heyzdən) **təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən** (buyurduğu qayda üzrə) **onlara yaxınlaşın!"** (Bəqərə, 2/222) Başqa bir ayədə də cünub ikən yuyunmadıqca namaza yaxınlaşmaması tələb edilir: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cünub** (murdar) **olduğunuz zaman - yol ötən müsafirlər istisnadır - qüsl edənədək namaza** (namaz qılınan yerə) **yaxınlaşmayın"** (Nisa, 4/43).

I. Qüslu vacib edən hallar

Aşağıdakı hallardan biri meydana gəldikdə qüsl almaq fərz olur:

1. Cünubluq: fiqh ədəbiyyatında cünubluq cinsi əlaqə, ehtilam və buna oxşar bir yolla məninin vücud xaricinə çıxmasını, müəyyən ibadət və əməllərin edilməsinə mane olan qüslsuzluğu ifadə edir.

Kişi və qadının cinsiyyət orqanından adətən ləzzət və təzyiqlə, yuxulamış və ya oyanıq olduğu halda isə baxmaq və ya düşünməklə, yaxud həqiqətən cinsi münasibətdə olmaqla məninin xaric olması cünubluğa səbəbdir. Məni şəhvətin artdığı bir vaxtda təzyiqlə çıxan qatı mayedir. Qadının mənisi incə və sarı rəngdədir.

Məzi və vədi səbəbilə qüsla ehtiyac yoxdur. Məzi ağ rəngə yaxın bir maye olub, ər və arvadın bir birinə qarşı cinsi hislər keçirməsi halında cinsi orqandan xaric olur. Vədi isə, kiçik dəstəmaz pozduqdan sonra cinsi orqandan gələn qatı bir mayedir. Bu iki maye də yerindən şəhvətsiz öz-özünə gəlir.

Yatan bir şəxs yuxu gördüyünü xatırlamasa belə, oyandıqda bədənində və ya paltarında məniyə oxşar bir nəmlik görərsə, qüsl almalıdır. Ancaq yuxu gördüyü halda paltarında və ya bədəninin hər hansı bir yerində nəmlik olmazsa, qüsl almasına ehtiyac yoxdur. Huşunu itirən və ya sərxoş bir şəxs, özünə gəldikdən sonra məni zənn etdiyi bir islaqlıq görərsə, ehtiyata görə qüsl etməlidir.

2. Heyz və nifas halının qutarması: Heyz (aybaşı) və nifas (zahılıq) halı qurtaran qadın qüsl almalıdır. Ayədə: **"Heyz zamanı qadınlardan kənar olun,** (heyzdən) **təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən** (buyurduğu qayda üzrə) **onlara yaxınlaşın!"**-buyurulur (Bəqərə, 2/222). Hz. Peyğəmbər də Fatma binti Əbu Hübeyşə belə demişdir: *"Adət qanaması olunca namazı qılma. Kəsilən kimi də qüsl al və namaz qıl"* (Buxari, Vüdu, 63, Heyz, 24; Müslim, Heyz, 62-63).

İPƏKYOLU NƏŞRİYYATI

Aybaşı: qızlar yetkinlik yaşına çatdıqdan sonra hər ayın müəyyən günlərində baş verən xüsusi bir haldır. Aybaşı heyz qanının gəlməsi ilə başlayır. Heyz qanı həddi-büluğa çatmış hamilə olmayan bir qadından, üzr və zahılıqdan başqa hər ay müəyyən günlərdə gələn qandır. Müddəti ən az üç gün, ən çox isə on gündür. Üç gündən az, ya da on gündən çox gələn qan heyz deyil, üzr qəbul edilir.

Zahılıq: övlad dünyaya gətirən qadından doğuş səbəbilə qanın gəldiyi halıdır. Qadının zahılıq halı körpə dünyaya gəldiyi andan başlayır. Zahılığın ən az müddət üçün müəyyən bir vaxt yoxdur. Lakin ən çox müddət qırx gündür. Qırx gündən sonra gələn qan artıq zahılıq yox, üzr qanı sayılır. Zahı olan qadın qırx gündən sonra qüsl alar və ibadətlərinə başlayar.

II. Qüslsuz üçün haram olan əməllər

Cünub olan, aybaşı və zahı olanlara haram olan əməllər aşağıdakılardır:

Namaz qılmaq.

Tilavət səcdəsi etmək.

Kəbəni təvaf etmək.

Etikafa girmək.

Məscidə girmək: məcburi bir hal olmadıqca cünub məscidə girə bilməz.

Qurana əl vumaq: cünub olan, aybaşı və zahı olanlar müshəfə toxuna bilməz, hər hansı bir yerdə yazılmış ayəyə də əl vura bilməz. Qurana baxmasında isə hər hansı bir qəbahət yoxdur.

Quran oxumaq: cünub aybaşı və zahı olanlar əzbərdən də olsa Quran oxuya bilməzlər. *"Cünub və aybaşı olan Qurandan heç bir şey oxumasın!"* (İbn Macə, Təharət, 105) hədisi-şərifi aybaşı və ya zahı olan qadının da tilavət məqsədilə Quran oxuya bilməməsini açıq-aydın bildirmişdir.

Aybaşı və ya zahı olan qadın yuxarıdakılardan başqa oruc tuta bilməz, əri ilə cinsi əlaqədə ola bilməz. Cünub olanın üzünü qırxması, saçını qırxdırması və dırnaq tutması məkruhdur. Aybaşı olana isə sonuncular məkruh deyil.

Aybaşı və zahılıqda qılınmayan namazların qəzası yoxdur. Ancaq tutulmayan Ramazan oruclarının qəzası fərzdir.

BİLGİ QUTUSU

Cünub ikən – qüsl alıb namazı vaxtında qılmaq şərtilə, normal namaz dəstəmazı alıb yatmaqda, əli yuyub, ağzı yaxalayıb yemək yeməkdə və su içməkdə hər hansı qəbahət yoxdur. Bundan başqa, cünub olaraq səhəri açanın bu halı oruca zərər verməz. Ancaq oruclu olan qüsl alan zaman boğazına və ya burnundan boğaza suyun getməməsinə diqqət yetirməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

Cünub olan kişi və ya qadınla aybaşı və ya zahı olan qadın "Rabbənə ətinə..." kimi ayələri dua məqsədilə oxuya bilər, "əlhəmdülilləh" deyə bilər, "lə iləhə illəllah" deyərək zikr edə bilər, "bismillah" deyə bilər. Məcbur qaldıqda bir parça və ya oxşar bir şeylə müshəfi tuta bilər.

III. Qüslun növləri

Fərz olan qüsl: cünubluq halında, aybaşı və zahı halının sona çatması hallarında qüsl almaq fərzdir. Vəfat edən bir müsəlmana qüsl aldırmaq isə fərzi-kifayədir.

Sünnə olan qüsl: cümə və bayram namazları üçün qüsl almaq, həcc və ümrə üçün ehrama girmədən əvvəl və ərəfə günü vəqfə üçün qüsl almaq Sünnədir.

Müstəhəb olan qüsl: günahından tövbə edən, uzun yoldan gələn, müsəlman olan təmiz bir kəs, ürək getmədən, ruhi xəstəlikdən və sərxoşluqdan ayılan, meyit yuyan, yağış duasına çıxanların qüsl almaları da müstəhəb qəbul edilmişdir.

IV. Qüslun fərzləri

Qüslun üç fərzi var:

Ağza bol su alıb boğaza qədər çalxalamaq.

Buruna su çəkib yaxşıca təmizləmək.

Bütün bədəni quru yer qoymadan yumaq.

Əgər bədənin hər hansı bir yerində altına su keçirməyən bir maddə olarsa, bunu əvvəlcədən təmizləmək lazımdır. Ancaq yara üstündə sarğı kimi sarılmış bir şey çıxarıldığı təqdirdə yaraya ziyan verəcəksə, bu sarğının çıxarılmasına ehtiyac yoxdur və onun üstünə məsh edilir.

Bir qadının hörülməmiş saçlarının hər tərəfini yuması fərzdir. Əgər saçı hörülmüş olarsa, saç diblərinə su dəyirsə, hörüyünü açmasına ehtiyac yoxdur. Lakin sıx hörülmüşsə və saçın diblərinə su dəymirsə, hörüyü açıb saçın hər tərəfini yumalıdır.

V. Qüslun sünnələri və alınma qaydası

Qüsla bəsmələ və niyyət ilə başlamaq. Hənəfilərdən başqa digər üç məzhəbə görə isə niyyət fərzdir. Cünubluqdan təmizlənmək üçün yuyunduğunu bilmək niyyət sayılır və ibadət savabı qazanmağa səbəb olur.

Əvvəlcə əlləri və ədəb yerlərini yumaq, bədənin hər hansı bir yerində natəmizlik varsa, onu təmizləmək.

Daha sonra namaz dəstəmazı kimi dəstəmaz almaq sünnədir. Əgər yuyunduğu yerdə su yığılan yer varsa, ayaqların yuyulması ən axıra saxlanır. Bu dəstəmazı alarkən hənəfi və hənbəlilərə görə qüsldə fərz hökmündə olan ağza və buruna su almaq da yerinə yetirilmiş olur.

Dəstəmazdan sonra əvvəl üç dəfə başa, sonra sağ, sonra isə sol çiynə su tökərək və hər su tökülüşündə də bədəni yaxşıca ovmaq və daha əvvəl ayaqlar yuyulmamışsa, çıxarkən əvvəl sağ, sonra sol ayağı yumaq.

Qüsl alarkən həm həddindən artıq çox, həm də həddindən artıq az su istifadə etməkdən çəkinmək.

Başqalarının görə bilmədiyi bir yerdə yuyunmaq. Ancaq müsəlman bir şəxs müalicəvi əhəmiyyətli və normal hamamlar və üzmək üçün hovuzlar kimi insanlar tərəfindən ümumi olaraq istifadə edilən yerlərdə yuyunarkən, ədəb yerlərini dəsmalla və ya diz qapağıyla göbək arasını örtən bir geyim ilə örtməli,

İPƏKYOLU NƏŞRİYYATI

başqasının açılan ədəb yerlərindən gözünü çəkməlidir. Hz. Peyğəmbər (s.ə.s) hamama bir örtü ilə girməyi əmr etmiş, ədəb yerlərini açaraq və ya çıplaq yuyunan şəxslərə mələklərin lənət etdiyini bildirmişdir (Əbu Davud, Hammam, 2, 3). Bəzi hədislərdə və fiqh kitablarında ümumi hamamlara getməyin pis görülməsi, bəzi ölkə və bölgələrdə müşahidə edilən açıq-saçıqlıq və həyasızlığın, müsəlmanlar arasında da yayılma qorxusu buna qarşı tədbir alma istəyindən irəli gəlir.

Gözdən uzaq bir yerdə olsa belə, qüsl alarkən ədəb yerlərini açmamaq. Əgər ədəb yeri açılarsa qibləyə tərəf dönməmək.

Qüsl alarkən danışmamaq.

Qüslün alınması qurtaran kimi bədəni bir dəsmal ilə qurulamaq.

Qüsldən sonra dərhal geyinmək.

Cünub olan bir şəxs hovuz, çay, göl, dənizə girərsə, bu əsnada əzalarını suda hərəkət etdirər və ya su içində dəstəmaz və qüsl alınacaq qədər bir müddət durarsa, sünnəyə də riayət etmiş olar.

Qüslda normal dəstəmazdan fərqli olaraq dua oxumaq məkruhdur. Çünki belə bir şəxs ümumi olaraq təmiz bir yerdə sayılmır.

E. TƏYƏMMÜM

Təyəmmüm su tapılmadığı və ya sudan istifadə mümkün olmadığı zaman hədəsdən təmizlənmək niyyəti ilə torpaqla və ya torpaq növündən olan bir şeylə üz və qolları məsh etməkdir.

Dinimizin ibadətlərdə qoyduğu asanlıqlardan biri olan təyəmmümə hicrətin beşinci ilində icazə verilmişdir. Müreysi qəzvəsi olaraq adlanan Müstəliq oğulları qəzvəsində Hz. Peyğəmbər və minə yaxın İslam əsgəri gecəni suyun olmadığı bir yerdə keçirmişdi. Su olan yerə çatmaq üçün hərəkət ləngiyincə, sübh namazı üçün dəstəmaz alacaq su tapa bilmədilər. Bunun nəticəsində; **"Xəstələndikdə və ya səfərdə olduqda, sizlərdən biri ayaq yolundan gəldikdə, yaxud qadınlara toxunmuş** (yaxınlıq etmiş) **olduqda** (qüsl və dəstəmaz üçün) **su tapmadığınız zaman pak bir torpaqla təyəmmüm edin,** (ovuclarınızı) **üzünüzə və əllərinizə sürtün!"** (Nisa, 4/43) ayəsi nazil oldu. Eyni ayənin bənzəri təmiz (tayyibən) və onunla (minhu) kəlmələrindən başqa "Nisa" surəsinin 43-cü ayəsində də təkrarlanır. Hz. Peyğəmbər də belə buyurmuşdur: "*Yer üzü bizə məscid edildi, torpağı da bizim üçün təmizləyicidir"* (Şövkani, Neylül-övtar, I, 258),*"Su tapmadığı və dəstəmazsızlıq halı davam etdiyi müddətcə, torpaq müsəlmanın təmizləyicisidir. İstərsə bu hal on il belə davam etmiş olsun"* (Zeyləi, *Nasbür-rayə,* I, 48).

I. Təyəmmümü mübah edən hallar

Təyəmmüm dəstəmaz və qüsl yerinə keçən bir əvəzedici və bir hökmi təmizlənmə yolu olduğu üçün, sadəcə, aşağıdakı üzrlərin olması ilə caiz olur:

1. Dəstəmaz və ya qüsl almaq üçün kifayət qədər suyun olmaması: dəstəmaz və qüsl almaq üçün kifayət qədər suyun olmaması, piyada və ya minik vasitəsilə gətirilə bilməyəcək qədər uzaqda olması, su yolunda bir təhlükənin varlığı, pulla suyun satın alına bilməməsi və ya qiymətin həqiqi dəyərindən həddindən artıq çox olması kimi hallar təyəmmümü mübah edən üzrlərdəndir. Çünki ayədə: **"Su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün** (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin)**"**,-buyurulmuşdur (Maidə, 5/6).

Suyun varlığını unudaraq təyəmmüm alan bir şəxs namazı qıldıqdan sonra suyun mövcud olduğunu xatırlayarsa, Əbu Hənifə ilə İmam Məhəmmədə görə namazı təkrar qılmaz. Buradakı unutma, sudan istifadəyə gücün çatmaması kimidir. Ancaq suyun varlığını namaz qılarkən xatırlayarsa, namazını pozar və su ilə dəstəmaz alıb təkrar qılar.

İPƏKYOLU NƏŞRİYYATI

2. Sudan istifadə etmə imkanının olmaması: sudan istifadə etməyin sağlamlıq baxımından təhlükəli olması, suyu əldə etmək üçün lazım olan vasitə və ehtiyacların olmaması, fiziki və çoğrafi şərtlərin suyu əldə etməyə mane olması, həbsdə olmaq, əşyaların oğurlanması və ya düşmən hücumundan qorxmaq və su olduğu halda sudan istifadə etməkdən aciz olmaq kimi hallarla qarşılaşan bir şəxs təyəmmüm edər. Məcburiyyət qarşısında (zor altında) sudan istifadə edə bilməyən bir şəxs isə, əvvəl təyəmmümlə namazını qılar, daha sonra məcburiyyət ortadan qalxdıqdan sonra dəstəmaz alıb namazını qılar.

3. Xəstəlik və ya sağalmanın gecikmə təhlükəsinin olması: sudan istifadə edildiyi təqdirdə xəstə olmaqdan və ya xəstə isə xəstəliyinin uzanmasından, yaxud sağalmanın gecikməsindən qorxan bir şəxs təyəmmüm alar. Bu mövzuda müsəlman bir həkimin rəyi mühümdür. Çünki "zərurətlər qadağan olan şeyləri mübah edər", "öz əlinizlə özünüzü təhlükəyə atmayın" prinsipləri ilə "müalicə olun" əmri bunu göstərir. Hz. Peyğəmbər dövründə yaralı bir səhabənin yuyunması səbəbilə ölməsi bunun dəlilidir. Cabir (r.ə) belə deyir: "Bir səfərə çıxmışdıq. Bizdən birinə bir daş dəydi, başı yarıldı. Sonra ehtilam oldu və yoldaşlarına təyəmmüm edib-edə bilməyəcəyi soruşdu. Onlar: "Sudan istifadə etmək imkanına sahib olduğun üçün, sənə bu xüsusda rüxsət (icazə) veriləcəyini zənn etmirik"- dedilər. Bu şəxs su ilə qüsl aldı və sonra da yarası daha pisləşib öldü. Hadisə Allahın elçisinə çatdıqda belə dedi: *"Onu öldürdülər, Allah onlara kömək olsun! Bilmədikləri bir şeyi niyə soruşmadılar? Şübhəsiz bir şeyi öyrənməyin yolu soruşmaqdır. O şəxsə, təyəmmüm etməsi və yarasının üzərinə bir sarğı bağlayıb üztünə məsh etməsi və vücudunun digər yerlərinin yuyulması da kifayət edərdi"* (Şövkani, *e.a.ə.,* I, 257).

4. Suyun həddindən artıq soyuq olması: sudan istifadə edildiyi üçün ölüm, əzalardan hər hansı birinin xəsarət alması və ya xəstə olma təhlükəsi təyəmmümü caiz edər. Zatüs-səlasil qəzvəsində iştirak edən Amr ibn-As soyuq bir gecədə ehtilam olmuş, təyəmmüm edərək yoldaşlarına sübh namazında imam olmuşdu (sübh namazını qıldırmışdı). Buna görə Amr ibn-Asdan Peyğəmbərə (s.ə.s) şikayət etdilər. Rəsulullah da (s.ə.s) vəziyyəti ondan öyrənmək istədi. Amr ibn-As belə dedi: "Uca Allahın; **"özünüzü öldürməyin, çünki Allah sizə qarşı çox mərhəmətlidir"** ayəsini xatırladım və təyəmmüm etdikdən sonra da namaz qıldırdım", - dedi. Bunu eşidən Rəsulullah (s.ə.s) güldü və heç bir şey demədi" (Şövkani, *e.a.ə.,* I, 258; bax. Bəqərə, 2/195).

5. Dəstəmaz və ya qüsl aldığı təqdirdə, qılınan cənazə namazına və ya bayram namazına çatmama qorxusu: cümə namazı üçün isə bu etibarlı deyil. Çünki cümə namazını bir üzr səbəbilə qıla bilməyən onun əvəzinə günorta namazını qılmalıdır.

Yuxarıda qeyd edilən hallardan hər hansı biri mövcud olduqda dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm alına bilər.

II. Təyəmmümün etibarlı olması üçün tələb olunan şərtlər

Təyəmmümün etibarlı olması üçün lazımi şərtlər aşağıdakılardır:

1. Təyəmmümü qaçınılmaz edən bir vəziyyətin mövcud olmasə: su olmadığı üçün təyəmmüm alınacaqsa, suyu tapmaq üçün kifayət qədər axtarmaq lazımdır.

2. Niyyətin açıq-aydın olması: niyyətin tam müəyyən edilməsi ilə hədəstən təmizliyin şərt olduğu (namaz, təvaf, tilavət səcdəsi kimi) bir ibadəti yerinə yetirmək nəzərdə tutulur. Bir təyəmmümlə fərz, vacib və ya nafilə olmaqla istənilən qədər namaz qılına bilər. Ancaq qəbir ziyarəti etmək, azan oxumaq, iqamə oxumaq və İslama girmək məqsədilə alınan təyəmmümlə namaz qılına bilməz. Çünki bunlar dəstəmazsız da edilə bilir.

İPOKYOLU NƏŞRİYYATI

3. Təyəmmüm təmiz torpaqla və ya torpaq növündən olan (qum, çınqıl, gips, kərpic, mərmər kimi) bir şeylə alınmalıdır.

4. Təyəmmümün iki əlin iç tərəflərinin və ən az yarıdan çoxunun torpağa və ya torpaq növündən olan bir şeyə iki dəfə vurularaq alınmalıdır.

5. Üz və əllərlə birlikdə qollar dirsəklərlə birlikdə məsh edilməlidir. Məsh edilən orqanlarda məshə mane olan mum, yağlı boya kimi bir maddə varsa, bunlar aradan qaldırılmalıdır.

III. Təyəmmümün fərzləri

Təyəmmümün fərzi ikidir:

1. Niyyət etmək,

2. Əlləri təmiz torpağa və ya torpaq növündən olan bir şeyə sürtüb əvvəlcə üzü məsh etmək; sonra əlləri ikinci dəfə torpağa sürtüb dirsəklərlə birlikdə qolları məsh etməkdir.

Bu fərzlərdən biri, ya da bir hissəsi yerinə yetirilmədiyi təqdirdə təyəmmüm etibarsız olur.

IV. Təyəmmümün sünnəyə uyğun alınma qaydası

1. Təyəmmüm almağa başlayarkən bismilla deyib namaz və ya ümumi olaraq ibadət üçün təmizlənməyə niyyət edilir. Hənbəlilərdə bəsmələ vacibdir.

2. Barmaqları açıq olduğu halda iki əl təmiz bir torpağa vurulub irəli-geri çəkilir.

3. Əllərdəki artıq toz silkələnib, bununla üzün hər yeri məsh edilir.

4. Əllər yenə torpağa vurulub silkələndikdən sonra, barmaqların iç tərəfindən istifadə edərək sol əllə sağ qol, sağ əllə də sol qol dirsəklərlə birlikdə məsh edilir.

5. Yuxarıdakı sıraya görə əvvəl üz, sonra qollar məsh edilməli və məshlər arasında fasilə verilməməlidir.

6. Fərz namazlar üçün alınan təyəmmüm namaz vaxtı girdikdən sonra olmalıdır.

Hənəfilərə görə, namaz vaxtı girmədən də təyəmmüm etmək caizdir. Su olmadığı və üzr halı davam etdiyi müddətcə bir şəxs etdiyi təyəmmümlə istədiyi qədər fərz və ya nafilə namaz qıla bilər. Ancaq suyu əldə etmək ümidi varsa təyəmmümü namaz vaxtının sonuna qədər gecikdirmək məndubdur.

Hənəfilərdən başqa əksər füqəhaya görə isə, təyəmmümün qəbul olması üçün namaz vaxtı girməlidir və bir təyəmmümlə birdən çox fərz namazı qılına bilməz. Ancaq hənbəlilər birdən çox qəza namaz qılına biləcəyi fikrindədirlər. Əksər fəqehlər zərurət səbəbilə məşru edildiyini nəzərə alaraq təyəmmümü üzrlü şəxsin dəstəmazına qiyas etmişlər.

V. Təyəmmümü pozan hallar

1. Dəstəmaz və ya qüslu pozan hər bir şey təmmümü də pozur. Çünki təyəmmüm bu ikisinin də əvəz edicisidir. Əsil olanı pozan onun əvəzedicisini də pozar. Cünub olan bir şəxs təyəmmüm aldıqdan sonra dəstəmazı pozan bir hal meydana gələrsə, təkcə dəstəmazı pozulmuş sayılar. Cünubluq halı geri qayıtmaz.

2. Təyəmmüm almağı mübah edən üzrün ortadan qalxması ilə təyəmmüm pozulur. Məsələn, düşmənin çəkilməsi, soyuğun keçməsi, xəstəliyin qutarması, su çıxarmaq üçün alətin əldə edilməsi, məhbusun suyun əldə edilməsi mümkün olmayan bir həbsxanadan, içində suyun əldə edilməsi mümkün olan başqa bir həbsxanaya köçürülməsi və azadlığa çıxarılması kimi hallar təyəmmümü pozar.

İPƏKYOLU NƏŞRİYYATI

3. Suyu görmək və ya bir dəfə belə olsa sudan istifadə edəcək gücə sahib olmaq təyəmmümü pozur. Suyun namaz qılınarkən görülməsi hənəfi və hənbəlilərə görə təyəmmümü pozur və təyəmmüm pozulduğu üçün namaz da pozulur. Malikilər isə bu haqda əks fikirdədirlər. Suyun namaz qılındıqdan sonra görülməsi halında, əgər namaz vaxtı çıxmışsa, təkrar qılmanın vacib olmadığı ilə bağlı fikir birliyi vardır. Əgər suyun görülməsi namaz vaxtı çıxmadan olmuşsa, şafeilərdən başqa əksəriyyətə görə, təkrar qılmaq lazım deyil. Şafeilərə görə isə, bu halda müqim olan təkrar qılar, yolçular isə təkrar qılmazlar.

4. Hənbəlilərə görə, namaz vaxtının çıxması, şafeilərə görə dindən çıxmaq (irtidad), malikilərə görə isə təyəmmüm ilə namaz arasında uzun bir müddətin keçməsi təyəmmümü pozur. Hənəfilərə görə isə, son hallarda təyəmmüm pozulmur.

İPƏKYOLU NƏŞRİYYATI

VI. Təyəmmümlə bağlı bəzi hökmlər

Bir təyəmmüm ilə bir namaz vaxtın içində birdən çox fərz və nafilə namaz qılına bilər. Lakin İmam Şafeiyə görə, bir təyəmmüm ilə yalnız bir fərz namaz ilə birdən çox nafilə namaz qılına bilər. Məzhəb ixtilafından qurtulmaq üçün hər fərz namaz üçün təyəmmüm almaq daha düzgün və daha ehtiyatlı bir davranışdır.

Təmiz bir yerdən çoxlu sayda adam təyəmmüm edə bilər. Çünki torpaq su kimi deyil, təkrar istifadə edilməklə müstəməl olmaz.

Dəstəmaz üzvlərinin yarısında və ya əksər hissəsində yaraları olan təyəmmüm alar. Dəstəmaz almaqda köməyi olmayan aciz bir şəxs də təyəmmüm ilə namazını qılar.

F. MƏSTLƏR VƏ SARĞILAR ÜZƏRİNƏ MƏSH ETMƏK

Dəstəmazda məstlər üzərinə məsh etmək ayaqları yumaq yerinə keçir. Ayağa geyilən və "məst" deyilən və ya məst hökmündə olan şeylərin üzərinə dəstəmaz alarkən məsh edilməsi caizdir. Bu, müsəlmanlar üçün bir asanlaşdırma halıdır. **Məsh** etməkdən məqsəd dəstəmaz alarkən məstlərin üzərinə, ayaqların barmaq ucundan başlayaraq ən az ayaq pəncəsindən üç barmaq yuxarı islaq əli bir dəfə sürtməkdir. Dəri və buna bənzər şeylərdən düzəldilən, topuqları və daha çox yeri örtən ayaq geyiminə **məst** deyilir.

Dinimiz məşəqqət olduqda ibadətlərin yerinə yetirilməsinə asanlıqlar gətirmişdir. Su olmadığı, ya da olub istifadə edilməsi mümkün olmadığı təqdirdə təyəmmüm edilməsi, məstlər və sarğılar üzərinə məsh edilməsi dinimizin təmin etdiyi asanlıqlardır.

I. Məstlər üzərinə edilən məshin caiz olması üçün tələb olunan şərtlər

1. Məstlər ayağa dəstəmaz üçün ayaqlar yuyulduqdan sonra geyilməlidir. Məst üzərinə məsh edilə bilməsi üçün əvvəlcə dəstəmaz alınmalı və sonra da bu dəstəmaz pozulmadan məstlər geyilməlidir.

2. Məstlər dəstəmazda yuyulması fərz olan yeri örtmüş olmalıdır. Bu yerdən məqsəd topuqlarla birlikdə ayaqdır. Ayaq ilə birlikdə topuqları örtməyən məstin üzərinə məsh etmək caiz deyil.

3. Ayağa geyilmiş məst təxminən 6 km. yol gedə biləcək qədər möhkəm və dözümlü olmalıdır.

4. Məstlər deşiksiz və sağlam olmalıdır. Belə ki, məstin topuqdan aşağı qismində, altında və ya üstündə üç barmaq (ayaq barmağı) girəcək qədər bir deşiyin və yırtığın olmaması şərtdir.

5. Məstlər ipsiz ayaq üstə dura biləcək dərəcədə qalın olmalıdır. Malikilərdən başqa əksər fəqehlər dəri, qalın keçə və bunlara oxşar şeylərdən düzəldilən məstlərə məsh edilməsini caiz hesab edirlər. Ancaq hənəfi və şafeilər məstlərin çöldən üstünə tökülən suyu dərhal içinə keçirməyəcək qədər qalın olmasını şərt qoşurlar. Onlara görə, məstin məşruluğuna dəlalət edən nəslərdə bu şərtin varlığı da nəzərdə tutulmuş qəbul edilir. Malikilər isə məstin dəridən və tikişli olmasını lazımlı görürlər.

6. Məstlər içinə dərhal suyu keçirməməlidir.

Qeyd: məstlər üzərinə məsh yalnız dəstəmazda etibarlıdır. Qüsl alarkən ayaqları yumaq əvəzinə məst geyib üstünə məsh etmək caiz deyil.

II. Məshin müddəti

Fəqehlərin əksəriyyətinə görə, məskunlaşdığı yerdə bir şəxs üçün məshin müddəti bir gün və bir gecə, yəni iyirmi dörd saat, yolçu üçün, yəni 90 km. bir məsafəyə gedən bir yolçu üçün üç gün üç gecə yetmiş iki saatdır. Bu müddət məstləri dəstəmazlı olaraq geydikdən sonra birinci dəstəmazın pozulduğu vaxtdan etibarən başlayır. Məsələn, bir şəxs saat birdə ayaqlarını yuyaraq dəstəmaz alıb, məstlərini geysə və saat beşdə dəstəmazını pozan bir hal meydana gəlsə, məshin müddəti bu vaxtdan, yəni saat beşdən etibarən başlamış olar. Yoxsa, məstləri geydiyi vaxtdan etibarən başlamır.

Müqim ikən məsh edən səfərə çıxsa, səfərilik müddətinə tabe olar və bu müddəti doldurar. Bunun əksinə, səfərdə olan bir gün və bir gecə məsh etdikdən sonra müqim olarsa, müddəti qurtarmış olar. Artıq ayaqlarını yumalıdır.

Məstlərinə məsh etməklə dəstəmazlı olan bir şəxs məstlərini ayağından çıxartsa, təkcə ayaqlarını yuması kifayətdir, dəstəmazını yenidən almasına ehtiyac yoxdur. Ancaq ayaqlarını yuyaraq dəstəmaz alıb məstlərini geyən bir şəxs hələ bu dəstəmazı pozulmadan, hər hansı bir səbəbdən məstlərini ayağından çıxartsa, dəstəmazı pozulmadığı üçün, ayaqlarını təzədən yumasınaehtiyac yoxdur.

Malikilərə görə, məstlərin üzərinə məsh etmək üçün müəyyən bir müddət yoxdur. Məstlər ayaqdan çıxarılmadığı və cünub olmadığı müddətcə, məstlər üzərinə məst etməyə davam edilə bilər.

III. Məshi pozan hallar

1. Dəstəmazı pozan hər şey məst üzərinə edilən məshi də pozur. Bu səbəbdən, hələ vaxtı qutarmamışsa, təzədən alınan dəstəmazda məstlərə və ya sarğılara təzədən məsh edilir.

2. Cünubluq və buna qiyas edilən aybaşı, zahılıq kimi qüsl almağı vacib edən hallar məshi pozur və ayaqlar yuyulmalıdır. Çünki Rəsulullah (s.ə.s) yolçuluqda, cünubluq istisna olmaqla, üç gün üç gecə məstlərin çıxarılmamasını əmr etmişdir.

3. Üzərinə məsh edilmiş olan məstin ayaqdan çıxması və ya çıxarılması. Bu vəziyyətdə dəstəmaz varsa təkcə ayaqları yumaq kifayətdir. Bir məstdən ayağın çoxunun çıxması, tamamiylə çıxması hökmündədir.

4. Məsh müddətinin qutarması. Məsh müddəti qutardıqdan sonra ayaqlar su ilə yuyularaq dəstəmaz alınıb lazımdırsa məstlər təzədən geyilməlidir. Müddət qurtardığı halda məstlər çıxarıldığı təqdirdə, ayaqların soyuqdan donma təhlükəsi varsa, məshə davam edilə bilər.

5. Məstin tələb olunan şərtlərdən birisini itirməsi. Məsələn, məstdə üç barmaq qədər bir deşiyin meydana gəlməsi məshi pozur.

IV. Sarğı və yaranın üzərinə məsh etmə

Üzərində sarğı olan bir üzvün dəstəmaz və ya qüsl alarkən su ilə yuyulması sağlamlıq yönündən zərər verəcəksə, bu sarğı açılmayıb üstündən məsh edilir. Edilən bu məshlə həmin üzv hökmi olaraq yuyulmuş qəbul edilir. Hətta məsh də zərər verəcəksə, bu da tərk edilə bilər.

İslamda hər çətinliyin arxasından bir asanlıq vardır. Belə vəziyyətlərdə "zərurətlər adi halda qadağan olan şeyləri mübah edər" prinsipi tətbiq edilir. Altını yumaq düşüncəsi ilə tənzifin və ya sarğıların açılmasının sağlamlığa nə qədər zərərli olduğu göz qabağındadır. Bəzi vaxtlar yaranın üstünü və ya sarğını islaq

İPƏKYOLU NƏŞRİYYATI

əllə məsh etmək də mikroblanmasına yol açа bilər. Bu səbəbdən məsh etmək də zərərli olarsa, bu da tərk edilməlidir.

Sarğının çox hissəsinə yalnıız bir dəfə məsh etmək kəfayətdir. Hər yerini məsh etmək, təkrarlamaq və niyyət edilməsi şərt deyil. Digər tərəfdən, sarğı və ya gips qoyularkən yaranın ətrafında sarğı və ya gibs altında qalan digər yerlərin yuyulması, əgər yaraya zərərli olarsa, həmin yerlərin üzərindəki sarğı və gibsin məsh edilməsi də caiz olar. Çünki sarğılar çox vaxt yaraya mikrob düşməməsi üçün geniş sarılır. Üzərində dərman, məlhəm olan yaraların məsh edilməsi də sarğı üzərinə məsh hökmündədir.

Sarğının dəstəmazlı sarılması şərt deyil. Sarğı istər dəstəmazlı, istərsə də dəstəmazsız və ya cünub sarılsın, üzərinə məsh edilməsi caiz olur. Üzərinə məsh ediməsi baxımından aralarında bir fərq yoxdur. Sağaldıqdan sonra da namazını təkrarlamasına ehtiyac yoxdur. Çətinliyi ortadan qaldırmaq üçün fitva belədir. Məntiqə müvafiq olanı da budur. Çünki insanın nə vaxt yaralanacağı, qırıq və çıxıq səbəbilə gibsin nə vaxt qoyulacağı bilinmir. İnsanın belə bir vaxtda dəstəmazlı olmasını şərt qoşmaq çətinlik meydana gətirir.

Sarğı üzərinə məsh etməyin müəyyən bir müddəti yoxdur. Sarğının sarılmasına səbəb olan üzr halı davam etdikcə məsh edilməsi caizdir.

Bir sarğı üzərinə məsh edildikdən sonra dəyişdirilərsə, təzədən məsh edilməsinə ehtiyac yoxdur. Həmçinin bir sarğıya məsh edildikdən sonra üstündən başqa bir sarğı əlavə edilərək bağlansa, təzədən məsh edilməsinə ehtiyac yoxdur. Üzr ortadan qalxmadan sarğı açılarsa, məsh pozulmuş olmaz. Ancaq sarğı yara sağaldığı üçün düşərsə, artıq sarğı üzərinə məsh etibarsız olar. Çünki üzr halı qurtarmışdır. Hətta sağalmış bir yaranın üstündəki sarğı namazda ikən düşərsə, dəstəmaz tam alındıqdan sonra namaz təkrar qılınmalıdır. Qan və ya irin sarğının üstünə çıxarsa, dəstəmaz pozular. Bu kimi hallarda sağrı dəyişdirilməlidir. Dəyişdirilən sarğının üstünə məsh emək məstəhəb hesab olunmuşdur.

İki ayaqdan birinə hər hansı bir üzr səbəbilə məsh edilərsə, digərini yumaq lazımdır. Çünki üzrlü ayağın məsh edilməsi də yumaq hökmündədir.

Sarğı üzərinə məsh edilərək dəstəmaz alan bir şəxsin dəstəmazı pozulduqda, məshinin də pozulduğu barədə fikir birliyi vardır.

Plomb qoyulmuş dişlər də sarğılı və ya dərmanlı yara, yaxud da suyun dəriyə çatmasının qarşısını alan ancaq çıxarılması çətin olan boya və başqa şeylərin bulaşdığı üzv kimidir. Buna görə də dəstəmaz və qüsl alarkən suyun plomba çatması kifayətdir.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Təmizliyin əhəmiyyətini izah edin.
2. Təmizlik haqqında bir ayə və bir hədisin mənasını deyin.
3. Mənəvi təmizlik nə deməkdir? İzah edin.
4. Mütləq və müqəyyəd sular haqqında məlumat verin.
5. Hədəs və nəcasətin tərifini deyin.
6. Xəfif nəcasətin namaza mane olan miqdarını söyləyin.
7. Hədəstən təmizlənmə yolları haqqında məlumat verin.
8. Məzhəblərə görə dəstəmazın fərzlərini söyləyin.
9. Dəstəmazın Sünnələrindən 10 dənəsini sadalayın.
10. Dəstəmazda məkruh olan hallardan beşini sadalayın.
11. Dəstəmazı pozan halları izah edin.
12. Kimə üzr sahibi deyilir?
13. Dəstəmazsız qadağan olan əməllər hansılardır?
14. Qüsl necə alınır?
15. Qüslsuz halal olmayan işlər hansılardır?
16. Qüslu fərz edən hallar haqqında məlumat verin.
17. Təyəmmümün fərzlərini qeyd edərək alınma qaydasını izah edin.
18. Təyəmmümü pozan hallar barədə məlumat verin.
19. Məst üstünə məsh etməyin şərtlərini söyləyin.
20. Sarğı üstünə məsh nə vaxt caiz olur?

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) Başın hər tərəfini məsh etmək Sünnədir.

2. ( ) Ayaqların üstünə məsh edilən zaman məstin alt tərəfi kirləndiyi üçün üst tərəfi yox, alt tərəfi məsh edilir.

3. ( ) Vaxt girmədən əvvəl alınan təyəmmümlə daha sonrakı vaxtın namazı qılına bilər.

4. ( ) Məst üzərinə məshin etibarlı olması üçün məstin dəri olması şərtdir. Dəri olmayan heç bir şeyə məsh edilə bilməz.

5. ( ) Sarğının üstünə məshin müddəti sarğını sardıqdan etibarən bir gün sonra sona çatır.

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(mütləq sular, istibra, maye olan nəcasət, istinca, kiçik hədəs, qatı olan nəcasət)

1. Nəcis, heyvan təsəyi kimi nəcasətlərə ....; sidik, spirtli içki kimi nəcasətlər də .... deyilir.

2. Rəngi, dadı və ya qoxusu dəyişməyən sulara ..... deyilir.

3. Böyük və kiçik ehtiyacını gördükdən sonra ayıb yerlərini təmizləməyə .....; sidik sızıntısının tamamilə kəsilməsini gözləməyə də ..... deyilir.

4. Dəstəmazı pozan bir halın meydana gəlməsi ilə əmələ gələn hədəs halına ..... . deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Dəstəmaz alarkən niyyət etmək	**Sünnə**
Qüsl alarkən danışmaq, musiqi oxumaq	
Dəstəmaz əsnasında ehtiyac olmadığı halda başqasından yardım istəmək	**məkruh**
Dəstəmaz üzvlərini ovmaq	
Üzr halı meydana gəldikdə namazı vaxtın sonuna qədər gecikdirmək	
Üzrsüz gün boyu cünub gəzib dolaşmaq	
Təyəmmümdə əli təmiz yerə sürtüb üz və qolları məsh etmək	

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakılardan hansı dəstəmaz və qüsl kimi ibadətlər üçün istifadəsi münasib olan mütləq su hökmdündə qəbul edilmir?

a. Qar suyu

b. Bulaq suyu

c. Yağış suyu

d. Günəşdə isinmiş su

2. Ayaqyolu ədəbləri arasında yer almayan bənd hansıdır?

a. Ayaqyolunda boş durmaq yerinə zikr etmək, Allahın adını anmaq

b. Sidik sıçratmamağa diqqət etmək

c. Qibləyə ön və arxa tərəfi çevirməmək

d. Ayaqyoluna girmədən əvvəl bismillah demək

3. Aşağıdakılardan hansı dəstəmazın fərzlərindən biri deyil?

a. Adam öldürmək

b. Dini baxımdan murdar sayılan ət yemək

c. Süd qardaşla evlənmək

d. Bismillah demədən kəsilən bir qoynun ətini yemək

4. Dəstəmazsız olan aşağıdakılardan hansını edə bilər?

a. Müshəfi götürmək

b. Quranı oxumaq

c. Müshəfə toxunmaq

d. Bir kitabda yazılmış ayəyə əl sürtmək

5. Aşağıdakılardan hansı qüsl almağın məcbur olmadığı bir haldır?

a. Heyz halının davam etməsi

b. Cinsi əlaqədə olma

c. İslamı qəbul etmə

d. Məninin çıxması

6. Məstlərin üzərinə məsh etmək üçün hansı şərt lazım deyil?

a. Ayağı örtməsi

b. Keyfiyyətli olması

c. Gəzməyə davamlı olması

d. Sərt olması

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

VII BÖLMƏ

NAMAZ

MÖVZULAR

A. İBADƏTLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

B. NAMAZIN ƏHƏMİYYƏTİ VƏ FƏZİLƏTİ

C. NAMAZIN FƏRZLƏRİ

D. NAMAZIN VACİBLƏRİ

E. NAMAZIN SÜNNƏLƏRİ

F. NAMAZDA MƏKRUH OLAN HƏRƏKƏTLƏR

G. NAMAZI POZAL HALLAR

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Dinin hər bir hökmünü yerinə yetirmək ibadət sayılırmı? Bu mövzuya öz münasibətinizi bildirin.
2. Uca Allah: **“Mən cinləri və insanları yalnız Mənə ibadət etsinləri deyə yaratdım”**, – buyurur (Zariyat, 51/56). İnsanın yaradılış məqsədi baxımından ibadətin əhəmiyyəti ilə bağlı qeyd edilən ayə çərçivəsində fikir mübadiləsi edin.
3. İslamda ən çox edilən ibadət hansıdır? Bunun səbəbləri barədə düşünün.
4. Namazlarını mütəmadi olaraq qılanlarla çox az qılanlar və qılmayanlar arasında təmizlik baxımından nə kimi fərqlər ola bilər? Bu mövzuda fikir mübadiləsi aparın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. İBADƏTLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

İbadətin lüğət mənası "qulluq etmək, itaət etmək, boyun əymək"dir. Termin mənası isə Uca Allahın bütün əmrlərini tələb olunan qaydalar çərçivəsində sırf Allah rizası üçün yerinə yetirmək, Allahın qadağalarından da sırf Onun rizası üçün uzaq durmaqdır.

İbadətlər yerinə yetirilməsi baxımından üç qisimdir:

1. *Bədənlə edilən ibadətlər:* namaz, oruc, Quran oxumaq kimi ibadətlər,
2. *Mal ilə edilən ibadətlər:* zəkat, sədəqə, fitrə kimi ibadətlər,
3. *Həm bədən, həm də mal ilə edilən ibadətlər:* həcc, cihad, ümrə, qurban kimi ibadətlər.

I. İbadətin məqsədi

1. İbadət Allahın əmri olduğu üçün yerinə yetirilir: ibadətdə əsas məqsəd Uca Allahın əmrini yerinə yetirməkdir. Çünki ibadət Allahın əmri olduğu üçün yerinə yetirilir. Allahın əmrinə itaət etmək qulluğun bir gərəyi, insanın yaradılış qayəsidir.

2. İbadət cənnətə nail olmaq ümidi ilə edilir: insan axirətdə cəhənnəm əzabından uzaq olmaq və cənnətə girmək istəyir. Hər bir müsəlman bu arzusuna nail olmaq üçün bu dünyada öhdəsinə düşən vəzifələri yerinə yetirməyə çalışmalıdır.

3. İbadət Allahın razılığına nail olmaq üçün edilir: ibadətdə güdülən əsas məqsəd Uca Allahın razılığına nail olmaqdır. Uca Allah bir ayədə belə buyurur: **"De: 'Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"** (Ənam, 6/162). Allahın rizası ibadəti sırf Allah üçün etməklə əldə edilir.

Dünyəvi mənfəət əldə etmək və ya insanlar tərəfindən bəyənilmək kimi məqsədlərlə ibadət etmək bir növ şirkdir. İnsan Allahın rizasına nail olmaq və axirətdə qurtuluşu əldə etmək üçün ibadətlərini vaxtlı-vaxtında və nöqsansız yerinə yetirməlidir.

II. İbadətin faydaları

1. İbadət imanı qüvvətləndirir: imanın qorunması, davamlılığı və qüvvətlənməsi məhz ibadətlər sayəsində mümkündür. Çünki ibadətlər Uca Allahın əmri olduğu və Onun rizasını qazanmaq məqsədilə yerinə yetirildiyi üçün insana daim Allahı xatırladır. Uca Allahı yaddan çıxarmayanın imanı da qüvvətlənir.

2. İbadət insanı ucaldır və əxlaqını kamilləşdirir: insan məxluqat içərisində şərəfli bir varlıqdır. Ancaq insanın bu şərəf və qiymətini qoruya bilməsi iman sahibi olmasına və ibadətlərini yerinə yetirməsinə bağlıdır. Hz. Peyğəmbərimiz ibadətin insanın mənəvi baxımdan dərəcəsini ucaltdığını bu hədisi-şərifində bildirmişdir: *"Çoxlu səcdə (ibadət) edin. Çünki siz səcdə etdikcə hər səcdə səbəbilə Allah sizin dərəcənizi artırır"* (Müslim, Səlat, 225). İbadət edən insanın qiyməti yalnız Allah dərgahında yox, insanların nəzərində də artar. Allaha qarşı vəzifələrini yerinə yetirən insan cəmiyyətdə sevilib sayılan bir insan olur. Çünki o, başqalarına pislik etməz, insanlara sevgi və hörmətlə yanaşar və qul haqqına riayət edər. Belə olan halda ona qarşı hamı ehtiram görstərər.

3. İbadət insan psixologiyasına müsbət təsir göstərir: ibadətlər insanın rahat və xatircəm olmasına səbəb olur. İbadətlərin hər biri insan psixologiyasına müsbət təsir göstərir. Məsələn, namaz insanın ruhunu sakitləşdirir. Namazını qıldıqdan sonra mühüm bir vəzifəni yerinə yetirən insan rahatlığa qovuşur.

İPƏKYOLU NƏŞRİYYATI

Namaz insandakı yaxşılıq və dürüstlük düşüncəsini gücləndirir, insanı nəfsin pis istəklərinə tabe olmaqdan uzaqlaşdırır.

4. Bədənlə edilən ibadətlər sağlamlıqdır: məsələn, dəstəmaz və qüsl insanın bədənini təmizləyir. Gündə beş dəfə namaz hərəkətləri ilə insanın bədəni dinc və gümrah olur.

5. İbadət insanı nizamlı-intizamlı yaşamağa sövq edir: namazını qılan insan gündəlik işlərini də planlı edər, həmin insan nizamlı və intizamlı olar.

6. İbadət insanı pisliklərdən uzaqlaşdırır: ibadət əxlaqı kamilləşdirir və insanı pisliklərdən uzaqlaşdırır. Uca Allah belə buyurur: **"Həqiqətən, namaz** (insanı) **çirkin və pis əməllərdən çəkindirər"** (Ənkəbut, 29/45).

İPƏKYOLU NƏŞRİYYATI

B. NAMAZIN ƏHƏMİYYƏTİ VƏ FƏZİLƏTİ

I. Namazın əhəmiyyəti və fərz olması

Fərzlərin ən böyük və əhəmiyyətlisi namazdır. Qiyamət günündə insan imandan sonra namazından sorğuya çəkiləcəkdir. O, əqidənin cəmiyyətə və ətrafa əks edən nişanələrindəndir. Bu ibadət qəlbin nuru, könlün sevinci, ruhun qidası, möminin meracı, uca yaradıcı ilə vasitəsiz görüşmə və danışma halıdır.

Namaz lüğətdə "dua etmək, mədh etmək, təzim göstərmək, xeyir-dua etmək" kimi mənalara gəlir. Allah-Təala bir ayədə belə buyurur: **"**(Ey Mühəmməd!) **Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır)"** (Tövbə, 9/103). Bir fiqh termini kimi namaz təkbir ilə başlayıb salam ilə tamamlanan xüsusi əməl, hərəkət və sözlərdən ibarət olan bir ibadətdir. İslamdan əvvəlki ilahi dinlərdə də namazın əmr edildiyi Qurani-Kərimin müxtəlif ayələrində xəbər verilir.

Səlat kəlməsi Qurani-Kərimdə dua və namaz mənasında 78 ayədə tək və 5 ayədə "sələvat" formasında cəm şəkilçisi ilə qeyd olunur. 3 ayədə "namaz qılanlar (musallin)" şəklində işlədilir. Bundan başqa 14 ayədə cəmdə "namaz qılın", 4 ayədə təkdə "namaz qıl" buyurulur və 24-ə yaxın ayədə keçmiş zaman forması ilə "namaz qılanlar"dan bəhs olunur. Həmçinin 10-a qədər ayədə də "sallə" (dua etdi, namaz qıldı) feili ilə dua və namaz mövzusu qeyd olunur. Bir çox hədisdə də oxşar ifadələrlə namazdan bəhs olunması bu ibadətin əhəmiyyətinə dəlalət edir. Əvvəlcə bir neçə ayənin mənası ilə tanış olaq: **"Şübhəsiz ki, namaz möminlərə bəlli vaxtlarda vacib** (fərz) **edilmişdir"** (Nisa, 4/103). **"Halbuki onlara əmr edilmişdi ki, Allaha - dini yalnız ona xas edərək, batildən haqqa** (İslama) **dönərək-ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!"** (Bəyyinə, 98/5) **"Elə isə namaz qılın, zəkat verin və Allaha sığının.** (Allah) **sizin ixtiyar sahibinizdir. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir!"** (Həcc, 22/78) **"**(Fərz, vacib) **namazlara,** (xüsusilə) **orta namaza riayət edin"** (Bəqərə, 2/238).

Sünnədən dəlillər: Bu mövzuda rəvayət olunmuş çoxlu hədislər var. Bu hədislərdən bəziləri aşağıdakılardır:

Abdullah ibn Ömərdən (r.ə) rəvayət edildiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"İslam beş əsas üzərində qurulmuşdur; Allahdan başqa ilah olmadığına, Mühəmmədin Allahın elçisi olduğuna şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq* (Buxari, İman, 1, 2; Müslim, İman, 19-22).

Hz. Peyğəmbər Muaz ibn Cəbəli Yəmənə göndərərkən ona belə demişdir: *"Sən əhli-kitab olan bir cəmiyyətə gedirsən. Onları əvvəlcə Allaha qulluq etməyə çağır, Allahı tanıyarlarsa, Allahın onlara gecə və gündüzdə beş vaxt namaz fərz buyurduğunu söylə. Namaz qılarlarsa, Allahın onlara zənginlərindən alınıb yoxsullarına verilmək şərtilə zəkatı fərz etdiyini söylə. Əgər itaət edərlərsə, bunu (zəkatı) onlardan al, insanların mallarının ən yaxşısını alma, məzlumun bəd duasından çəkin. Çünki onun duası ilə Allah arasında hər hansı pərdə yoxdur"* (Buxari, Zəkat, 41, 63).

İslam ümməti bir gün ərzində beş namazın fərz olduğunda həmfikirdir. Namaz hicrətdən əvvəl Merac gecəsində fərz buyurulmuşdur. Ənəs (r.ə) rəvayət etdiyi bir hədisdə belə buyurulur: "Merac gecəsində Hz. Peyğəmbərə namaz əlli vaxt fərz buyurulmuş, sonra azaldılaraq beş vaxta endirilmiş, ardından belə nida olunmuşdur: "Ey Mühəmməd! Mənim dərgahımda söz dəyişməz. Bu beş vaxt namaza sənin üçün əlli vaxt namaz savabı vardır" (Tirmizi, Səlat, 45; Nəsai, Namaz, 1).

Namaz həddi-büluğa çatmış, ruhi xəstə olmayan hər bir müsəlman kişi və qadına fərzdir. Lakin yeddi yaşına çatan uşaqlar artıq namaz qılmağa təşviq etmək məqsədəuyğundur. On yaşına çatdıqlarında namaz qılmazlarsa, tərbiyə məqsədilə tənbeh olunmaları məqsədə müvafiqdir. Hz. Peyğəmbər belə buyurur: *"Uşaqlarınıza yeddi yaşlarında namaz qılmağı əmr edin, on yaşına çatdıqlarında bundan ötrü onları yüngülcə tənbeh edin və bu yaşda yataqlarını ayırın"* (Əbu Davud, Səlat, 26).

Bir gün və gecədə beş namaz fərzdir. Ancaq nəzir olunmuş (əhd), vitr və ya bayram namazları vacibdir. Beş vaxt namazın dəlili kimi bir bədəvi ilə bağlı bu hədisi göstərə bilərik: Allah Rəsulu belə buyurur: *"Bir gün və gecədə fərz olan namazlar beşdir"*. Orada olan bir bədəvi: "Mənim üçün bundan başqa bir borc varmı?" - deyə soruşdu. Allahın Rəsulu belə cavab verdi: *"Xeyr, ancaq nafilə namaz qılmağın istisnadır"*. Bu zaman bədəvi belə dedi: "Səni haqq ilə göndərən Allaha and olsun ki, bundan

QEYD EDƏK

"Namaz dinin dirəyidir" (Tirmizi, İman, 8) hədisi-şərifi ilə namazın dindəki yerini bizə xatırladan Peyğəmbərimiz beş vaxt namazın fərz olması ilə bağlı belə buyurmuşdur: *"Allah-Təala müsəlman kişilərlə müsəlman qadınlara gecə və gündüz olmaqla beş vaxt namazı fərz buyurmuşdur"* (Buxari, Səlat, 1; Müslim, İman, 263).

İPƏKYOLU NƏŞRİYYATI

nə artıq edərəm, nə də əskik". Hz. Peyğəmbər (s.ə.s) buyurdu: *"Əgər doğru söyləyirsə, bu adam nicat tapmışdır"* (Buxari, İman, 34).

II. Namazın faydaları

Namaz Allahın verdiyi saysız-hesabsız nemətlərə qarşı bir şükürdür. Namazın dini, fərdi və sosial cəhətdən bir sıra faydaları vardır:

1. Namazın dini faydaları: namaz Allah ilə bəndə arasında rabitə qurmaqdır. Həmin bu rabitə isə dinin dirəyi və əsasıdır. Beş vaxt namazı şərtlərinə uyğun və vaxtında qılanlar böyük günahlardan əl çəkdiklərində digər günahlarının bağışlanacağı ayə və hədislərdə açıq-aydın bildirilmişdir. Qurani-Kərimdə belə buyurulur: **"**(Ey Mühəmməd!) **Qurandan sənə vəhy olunanı oxu və** (lazımınca) **namaz qıl. Həqiqətən, namaz insanı çirkin və pis əməllərdən çəkindirər, Allahı zikr etmək, şübhəsiz ki,** (savab etibarilə bütün başqa ibadətlərdən) **daha böyükdür. Allah etdiklərinizi bilir!"** (Ənkəbut, 29/45) **"Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında** (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) **müti olub** (Ona) **boyun əyərlər!"** (Möminun, 23/1-2)

Hz. Peyğəmbər buyurur: *"Birinizin qapısının qarşısında çay axar və gündə beş dəfə bu çayda yuyunarsa, üzərində kir qalarmı?"* - deyə soruşdu. Səhabələr: "Xeyr, qalmaz", - dedilər. Hz. Peyğəmbər davam edərək buyurdu: *"Beş vaxt namaz da belədir, suyun kiri təmizlədiyi kimi günahları təmizləyər"* (Buxari, Məvaqit, 6; Müslim, Məsacid, 283). Qılınan namazların kiçik günahlar üçün kəffarə olması bir hədisdə belə ifadə edilir: *"Böyük günah işlənmədikcə, beş vaxt namaz ilə cümə namazı digər cüməyə qədər arada işlənən günahları örtər* (Müslim, Təharət, 14, 15).

2. Namazın fərdi faydaları: namaz bəndəni Allaha yaxınlaşdırır, ruhu və iradəni qüvvətləndirir. İnsana səbir və şükür etməyi öyrədir. Hər gün müəyyən vaxtlarda namaz qılan mömin dünyanın acgözlüyündən, pisliklərindən və gözbağlayıcılığından qorunur. Hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha yönələrək qılınan namaz ixlas, təqva və ali əxlaqın meydana gəlməsinə səbəb olur.

Qurani-Kərimdə belə buyurulur: **"Səbir etmək və namaz qılmaqla** (Allahdan) **kömək diləyin! Bu, ağır iş olsa da, Allaha itaət edənlər üçün ağır deyil"** (Bəqərə, 2/45). Hz. Peyğəmbər bir hədisində belə buyurur: *"Dünyalıqlarınızdan mənə qadın və gözəl qoxu sevdirildi. Namaz isə mənim göz bəbəyimdir"* (Nəsai, İşrətün-nisa, 1). Bununla yanaşı Allah Rəsulunun hüzn və kədərli zamanlarda sükunətə qovuşmaq üçün: *"Ey Bilal, Qalx! Azan oxu ki, sükunətə və rahatlığa çataq",*-dediyi rəvayət olunur. (İbn Hənbəl, I, 206).

3. Namazın sosial faydaları: namaz irq, rəng, dil və ölkə fərqi qoymadan möminləri bir cərgədə cəmləşdirir və vəhdət şüurunu qüvvətləndirir. Həmçinin qarşılıqlı köməkləşməyi və ictimai birliyi təmin edir. Beləliklə də, küfrün qarşısında möminlərin vəhdətini formalaşdırır.

Camaatla namaz qılınan məscidlər xalq arasında köməkləşmə, həmrəylik və təşkilatlanma üçün zəmin hazırlayır. Qurani-Kərimdə buyurulur: **"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin"** (Maidə, 5/2). Hz. Peyğəmbər (s.ə.s) bu mövzuda belə buyurur: *"Bir mömin digər mömin üçün binanın bir-birini dəstəkləyən kərpiclər kimidir"* (Buxari, Səlat, 88).

C. NAMAZIN FƏRZLƏRİ

Namazın fərzləri on ikidir. Namazın on iki fərzindən altısı namaza başlamazdan əvvəl edilməlidir və bunlardır: 1) Hədəsdən təmizlənmə (təharət), 2) Nəcasətdən təmizlənmə, 3) Ayıb yerini örtmək (sətri-övrət), 4) Qibləyə yönəlmə (istiqbali-qiblə), 5) Vaxt, 6) Niyyət. Bunlara "namazın şərtləri" deyilir. Digər altısı da namaza başladıqdan sonra yerinə yetirilməli olan fərzlərdir və bunlardır: 1) İftitah təkbiri, 2) Qiyam, 3) Qiraət, 4) Rüku, 5) Səcdələr, 6) Namazın axırında təhiyyatı oxuyacaq qədər oturmaq (qədeyi-axirə). Bunlara da "namazın rüknləri" deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

I. Namazın şərtləri

1. Hədəsdən təharət: namaz qılmaq üçün hökmi natəmizlik deyilən "hədəs"dən təmizlənmək şərtdir. Dəstəmazı olmayan, cünub, aybaşı və zahı olanların bu vəziyyətlərinə "hədəs halı" deyilir. Bunlardan dəstəmaz və qüsl almalı olanın su ilə yuyunmasına və ya su olmayanda, yaxud su olub işlədilməsi mümkün olmayanda təyəmmüm almasına "hədəsdən təmizlənmə" deyilir. Dəstəmazsız olmağa "kiçik hədəs", cünubluq və bu hökmdə olanlara "böyük hədəs" deyilir. Bunlar təmizlik və sağlamlıqdır.Həmçinin insanı Uca Rəbbinə ibadətə hazırlayır. Allah-Təala namaz qılmaq üçün dəstəmaz və lazımi hallarda qüslu şərt qoşmuşdur: **"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə əllərinizi yuyun. Başınızı məsh edin, ayaqlarınızı isə hər iki topuğa qədər yuyun. Əgər cünub olmusunuzsa, qüsl edin. Su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün"** (Maidə, 5/6). Hz. Peyğəmbərimiz (s.ə.s) də belə buyurumuşdur: *"Sizdən birinizin namazı dəstəmazsız olduqda dəstəmaz almadıqca qəbul olunmaz"* (Buxari, Vüdu, 2; Müslim, Təharət, 2; Tirmizi, Təharət, 1).

2. Nəcasətdən təharət: namazdan əvvəl bədən, paltar və ya namaz qılınan yerin qan, sidik, nəcis kimi dini baxımdan natəmiz sayılan şeylərdən təmizlənməlidir. Bu təmizlik namazın qəbul olması üçün əsas şərtdir. Paltarda və ya namaz qılınan yerdə, ayaq, əl və dizlər ilə alının qoyulduğu yerdə dörd qramdan (1 misqaldan) çox insan nəcisi kimi bərk və ya ovuc içindən daha geniş yerə yayılan qan, insan sidiyi və ya şərab kimi maye bir şey bulaşarsa, namaz səhih olmaz. Əti yeyilən heyvanların və ya atların sidiyi və ya nəcisinin, digər heyvanlara nisbətən təmiz olması və bunlardan qaçınmağın çətinliyi nəzərə alınaraq, bədən və ya paltarın dörddə birindən daha az bir yerinə bulaşarsa, namaza mane olmaz və əfv olunur. Bu miqdardan çox olarsa və təmizlənməsi də mümkün olarsa, namazın etibarlılığına mane olar.

3. Sətri-övrət: ayıb yeri insan bədənində başqası tərəfindən görülməsi ayıb, ya da günah sayılan yerlərdir. Ayıb sayılan yerlər namazda olduğu kimi namazdan kənarda da örtülməlidir. Kişilərin ayıb yerləri göbəkləri ilə diz qapaqlarına qədər olan qisimdir. Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Kişinin ayıb yeri, göbəyi ilə diz qapağının arasıdır"* (İbn Hənbəl, "Müsnəd", II, 187). Namazda çiyinləri də örtən bir üst paltar geyinmək Sünnədir. Qadınların üzləri ilə əllərindən başqa saçları da daxil olmaqla bütün bədənləri örtülməlidir. Üzləri ilə əlləri namazda və namazdan kənarda ayıb yeri deyil. Ayaqları haqqında fikir ayrılığı vardır. Mötəbər olan rəyə görə, ayaqları ayıb yeri deyil, lakin qolları ilə qulaqları və saçları ayıb yerləridir. Bundan əlavə, bədənin rəngini göstərən incə paltarla namaz qılmaq olmaz. Üzvləri bildirən dar paltarla namaz qılmaq isə məkruhdur.

4. İstiqbali-qiblə: namazı qibləyə yönələrək qılmaq namazın fərzlərindən biridir. Qibləmiz Məkkədəki Kəbədir. Kəbəni gözlə görən bilavasitə Kəbəyə yönəlməlidir. Kəbədən uzaq olan isə Kəbənin olduğu tərəfə və istiqamətə yönəlməli, yəni Kəbə istiqamətinə tərəf çevrilməlidir.

Əgər bir nəfər namazda ikən qiblə tərəfə yönəlmədiyini anlayarsa, həmin anda qibləyə tərəf çevrilərək namazını tamamlamalıdır. Kəbənin olduğu nöqtədən 45 dərəcə sağa və sola yönəlmək qiblə istiqamətindən tamamilə kənarlaşmaq sayılmır.

Hər hansı bir üzr ucbatından qiblə tərəfə yönələ bilməyənin qibləsi gücünün çatdığı tərəfdir. Qibləni bilməyənin yanında bilən varsa, mütləq soruşub öyrənməlidir. Yanında soruşacaq adam yoxdursa, qibləni tapmağa cəhd etməli və gəldiyi qənaətə müvafiq tərəfə yönələrək namazını qılmalıdır.

5. Vaxt: namazları öz vaxtında qılmaq şərtdir. Vaxtı girmədən əvvəl bir namazı qılmaq etibarsız olduğu kimi, üzrsüz namazı vaxtından sonraya qoymaq da böyük günahdır. Qurani-Kərimdə belə

İPƏKYOLU NƏŞRİYYATI

buyurulur: **"Çünki namaz möminlərə bəlli vaxtlarda fərz** (vacib) **edilmişdir"** (Nisa, 4/103). Namazı vaxtı girdikdən sonra gecikdirmədən qılmaq daha fəzilətlidir.

Sübh namazının vaxtı: fəcri-sadiqdən, yəni ikinci fəcr deyilən dan yerinin ağarması ilə başlayır, günəşin doğmasına qədər davam edir. Sübh namazını günəş doğmadan yarım saat əvvəl qılmaq müstəhəbdir. Sübh namazı qəzaya qaldığı təqdirdə, istiva vaxtına qədər, yəni günəş zenit nöqtəsinə gələnə qədər sünnəsi ilə birlikdə qəza edilir.

Günorta və cümə namazının vaxtı: istiva vaxtından sonra günəşin qərbə tərəf meyil etməsi ilə başlayır, hər bir şeyin kölgəsinin bir misli olmasına qədər davam edir. Çox isti havalarda günorta namazını bir az gecikdirmək müstəhəbdir.

İlkindi namazının vaxtı: günorta namazının vaxtının çıxması ilə girər və günəşin batması ilə sona çatar. İlkindi namazını günəş batarkən kərahət vaxtında qılmaq isə məkruhdur.

Axşam namazının vaxtı: günəşin batması ilə başlayar, günəşin batdığı tərəfdə görülən qırmızılıqdan sonra ağlıq itənə qədər davam edər. Axşam namazını vaxtı girən kimi qılmağa riayət olunmalıdır. Çünki Hz. Peyğəmbərimiz (s.ə.s) bir hədisi-şərifində belə buyurur: *"Axşam namazını ulduzların bir-birinin içində gördüyü vaxta qədər gecikdirməyincə, ümmətim xeyir üzrədir"* (Əbu Davud, Səlat, 6).

Yatsı namazının vaxtı: axşam namazının vaxtı çıxdıqdan sonra başlayıb ikinci fəcrə, yəni dan yerinin ağarmasına qədər davam edir. Yatsı namazını üzr olmadan gecə yarısından sonraya saxlamaq məkruhdur.

Vitr namazının vaxtı: yatsı namazından sonradır və sübh namazının vaxtına qədər davam edir. Bu namazı gecə, təhəccüd və Ramazan ayında təraveh namazından sonra ən son namaz kimi qılmaq ən düzgün olandır.

Təraveh namazının vaxtı: Ramazan ayına məxsus olan bir namaz olub, yatsı namazı qılındıqdan



BİLGİ QUTUSU

Bəzi vaxtlarda nafilə hökmündə olan namazları qılmaq düzgün deyil. Nafilə namaz qılmağın məkruh olduğu vaxtlar aşağıdakılardır:

a. Sübh namazının fərzini qıldıqdan sonra (sübh namazının vaxtında sübh namazının sünnəsindən başqa nafilə namaz qılınmaz);

b. İlkindi namazının fərzi qılındıqdan sonra;

c. Axşam namazının fərzindən əvvəl;

d. Bayram günü bayram namazından əvvəl evdə və ya məsciddə nafilə namaz qılmaq (bayram namazından sonra da günortaya qədər məsciddə nafilə namaz qılmaq məkruhdur);

e. Vaxtın daralması səbəbilə fərz üçün çox az bir müddət qaldıqda;

f. Fərzə başlamaq üzrə iqamə oxunarkən (sübh namazının sünnəsi istisnadır);

g. Cümə günü xütbə oxunarkən və cümənin fərzi qılınarkən;

h. İki namazı birləşdirərkən iki fərz namaz arasında (hənəfilərə görə, birləşdirmə yalnız Ərəfat və Müzdəlifədə olur və aradakı sünnələr qılınmır);

i. Arzulanan bir yemək hazır olduğu zaman;

j. Tuvalet ehtiyacı olan zaman da qılmaq məkruhdur (son iki hal hər bir namaz üçün etibarlıdır).

İPƏKYOLU NƏŞRİYYATI

sonra başlayır və sübh namazının vaxtı girənə qədər davam edir. Təraveh namazı yatsı namazına tabe bir sünnə olduğu üçün, vitr namazından əvvəl qılınır, ondan sonra da vitr namazı qılınır.

Bayram namazının vaxtı: günəş doğduqdan 45 dəqiqə sonra başayır, günəşin istiva etməsinə, yəni zenit nöqtəsinə çatmasına qədər davam edir.

Gün ərzində namaz qılınması təhrimən məkruh olan üç vaxt var:

Günəş doğarkən: Günəşin doğmağa başlamasından etibarən təqribən 45 dəqiqəlik bir müddət keçənədək namaz qılmaq olmaz.

Günəş tam zenit nöqtəsində ikən: Günəş zenit nöqtəsində ikən, yəni istiva vaxtından zaval vaxtına, yəni günorta namazının vaxtı girənədək keçən yarım saatlıq müddət ərzində namaz qılmaq olmaz.

Günəş batarkən: Günəşin batmasına təqribən 45 dəqiqə qaldıqdan sonra batanadək namaz qılmaq olmaz.

Qeyd edilən bu üç vaxtda fərz, vacib və nafilə namaz qılınmamaqla yanaşı, keçmiş namazların qəzalarını da qılmaq olmaz. "Üç vaxt var ki, Hz. Peyğəmbər (s.ə.s) bu vaxtlarda bizə namaz qılmağımızı və ölülərimizi dəfn etməyimizi qadağan etdi: Günəş doğub yüksələnə qədər, Günəş zenit nöqtəsinə gəlib qərbə tərəf meyl etməsinə qədər, Günəş batmağa doğru meyil etdiyi zaman" (Müslim, Müsafirun, 293).

İlkindi namazının fərzi zəruri bir iş çıxdığı üçün vaxtında qılına bilməmişsə, gün batana qədər qılınmalıdır. Ancaq ilkindi namazını gecikdirmək yaxşı deyil. Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Bu vaxtda qılınan namaz münafiqlərin namazıdır. Münafiq oturub Günəşi gözləyər. Günəş batmağa üz tutduğu zaman tələm-tələsik ilkindi namazını dörd rükət qılar. Allahı çox az xatırlayar"* (Malik, "Müvəttə", Quran 46).

Təhrimən məkruh olan üç vaxt istisna olmaqla digər vaxtlarda qəza namazları, cənazə namazı, eləcə də ehram və təvaf namazları qılına bilər. Məsciddə namazın fərzini təkbaşına qılan, əgər məsciddə imamla namaz qılınmağa başlanarsa, imama tabe ola bilər. Quran oxunarkən və ya qulaq asarkən səcdə ayəsi oxunan zaman tilavət səcdəsi edilə bilər.

6. Niyyət: hansı namazı qıldığını bilmək və bu ibadəti sırf Allah üçün etməyi qəlbən istəməkdir. Niyyətin dil ilə deyilməsi müstəhəbdir. Təkbirdən sonra niyyət edilə bilməz. Niyyətin təkbirə yaxın olması daha fəzilətlidir. Təkbirlə niyyət arasında məsələn, yemək, içmək və danışmaq kimi namaza zidd olan hər hansı hərəkət etməmək məqsədə müvafiqdir.

İmamla namaz qılan "imama tabe oldum" deməyə diqqət yetirməlidir. Qadın və kişi camaata imamlıq edənin isə "mən, mənə tabe olanlara imamam" kimi ifadələrlə imamlığa niyyət etməlidir.

II. Namazın rüknləri

1. İftitah təkbiri: namaz qılanın ayaq üstə və özünün eşidəcəyi qədər bir səslə "Allahu əkbər" deməsinə "iftitah təkbiri" və ya "təhrimə" deyilir. Bu təkbirlə namaza başlanmış və digər bütün şeylərlə əlaqə kəsilmiş olur. İftitah təkbiri namazın əvvəlində olduğu üçün şərtə oxşasa da, rüknlərə bitişik olduğuna görə bir rükn sayılmışdır.

Namaza iftitah təkbiri ilə başlamağın fərz olması Kitab və Sünnə dəlillərinə istinad edir. Allah-Təala: **"Öz Rəbbini uca tut!"**-buyurur (Müdəssir, 74/3). Hz. Peyğəmbər (s.ə.s) də belə buyurmuşdur: *"Namazın açarı təmizlik, balanğıcı isə təkbirdir"* (Əbu Davud, Səlat,73). *"Allah-Təala dəstəmazı yerli yerində alıb, sonra qibləyə dönərək "Allahu əkbər" demədikcə heç kimin namazını qəbul etməz"* (Əbu Davud, Səlat, 144). Hz. Peyğəmbər səhv namaz qılan bir səhabəyə namazı tərif edərkən: *"Namaza başladığın zaman təkbir gətir"*,-buyurmuşdur (Buxari, Azan, 95).

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbərin namaza başlayarkən təkbir alaraq, əllərini qulaqlarının səviyyəsinə qədər qaldırdığına dair müxtəlif hədislər rəvayət edilmişdir (Buxari, Əməl fis-səlat, 316, Məvaqit, 24; Müslim, Səlat, 21-25).

Şafei və hənbəlilərə görə, əlləri təkbir alarkən, rükuya əyilərkən və rükudan qalxarkən çiyin səviyyəsinə qədər qaldırmaq Sünnədir (Müslim, Səlat, 21, 25, 26).

Təkbir niyyətdən sonra alınmalı və imama tabe olanın təkbiri imamın təkbirindən sonra olmalı, ondan əvvəl olmamalıdır.

2. Namazda qiyam (ayaq üstə durmaq): qiyam yönəlmək, dik durmaq, ayaq üstə durmaq deməkdir. Gücü çatanın fərz və ya vacib namazlarda başlanğıc təkbiri və hər rükətdə Qurandan oxunmalı lazım olan ən az miqdarı oxuyacaq qədər ayaq üstə durması namazın rüknlərindəndir. Belə olan halda ayaq üstə durmağa gücü çatanın oturaraq qıldığı fərz və ya vacib namaz məqbul deyil. Rüknləri yerinə yetirmək fərz olduğu üçün, üzrsüz bir fərzi tərk etmək namazın məqbul olmasına əngəldir. Quranda: **"Allaha itaət üçün ayağa qalxın** (namaza durun)**",**-buyurulur (Bəqərə, 2/238). Narahatçılığı olduğu üçün ayaq üstə namaz qılmaqda çətinlik çəkən İmran ibn Husaynın (r.ə) sualına cavab olaraq Allahın Rəsulu belə buyurmuşdur: *"Namazı ayaq üstə qıl, əgər buna gücün çatmasa oturaraq, yenə gücün çatmasa söykənərək qıl"*. Nəsainin rəvayətində belə bir əlavə var: *"Əgər gücün çatmasa, arxan üstə qıl. Allah heç kimə gücünün çata bildiyindən artığını yükləməmişdir"* (Buxari, Təqsir, 19). Namaz əsnasında narahat olan namazını oturaraq tamamlaya bilər.

Şəhərlərarası avtobuslar namaz vaxtlarında fasilə verməsələr, yolçu oturduğu yerdə rüku və səcdəni ima (işarə) ilə edərək namazlarını vaxtında qılmalıdır. Hərəkət halında olan birqatar, gəmi və ya təyyarə içində namazlar oturularaq qılına bilər. Lakin ayaq üstə və qibləyə tərəf durmağa çalışılaraq qılınması daha fəzilətlidir.

3. Qiraət: qiraətin leksik mənası oxumaqdır. Termin mənası Quran oxumaqdır. İmamın və ya təkbaşına namaz qılanın nafilə namazlar ilə vitr namazının bütün rükətlərində müəyyən qədər Qurani-Kərim oxuması fərzdir. Lakin dörd və ya üç rükətli fərz namazlarda qiraətin ilk iki rükətdə olması vacibdir.

Namazda qiraətin fərz olan miqdarı Əbu Hənifəyə görə, hər rükətdə qısa da olsa bir ayədir. Belə bir ayə oxunduqda bu fərz yerinə yetirilmiş olur. Lakin Əbu Yusif, İmam Məhəmməd və Əbu Hənifədən başqa bir rəvayətə görə, bu miqdar qısa üç ayə və ya üç qısa ayə qədər uzun bir ayədir. Ehtiyata uyğun olan rəy məhz budur.

Namazda "Fatihə" surəsini oxumaq vacibdir. "Fatihə" surəsi tərk edilərsə, namaz təhrimən məkruh olmaqla yanaşı səhih olar. Hz. Peyğəmbərin *"Fatihəsiz heç bir namaz yoxdur"* (Tirmizi, Məvaqit, 69) hədisi Hənəfi müctəhidlər tərəfindən "Fatihəsiz namazın fəziləti yoxdur" kimi şərh edilmişdir. Çünki bu hədis, *"Məscidə qonşu olanın məsciddə qılmadıqca qıldığı namaz caiz olmaz"* hədisinə oxşayır. İslam alimləri bu hədisə əsaslanaraq, məscidə qonşu olanların təkbaşlarına qıldıqları namazın səhih olmadığını söyləməmişlər. Lakin camaat savabından məhrum olmağı və namazın fəzilətinin azaldığını bildirmişlər.

İmama tabe olanın Quran oxuması vacib deyil. Çünki Allah-Təala belə buyurmuşdur: **"Quran oxunan zaman onu dinləyin və susun ki,** (onun sayəsində) **sizə rəhm olunsun!"** (Əraf, 7/204) Bu ayənin tətbiqini göstərən hədislərdə belə buyurulur: *"İmamın oxuması ona tabe olan camaatın da oxumasıdır"* (İbn Macə, İqamə, 18). Bu hədisdə bərkdən və ya yavaşdan oxunan namazlar arasında heç bir fərq qoyulmur. Aşağıdakı hədis bu mövzunu daha da aydınlaşdırır: *"İmam tabe olunmaq üçün rəhbər seçilmişdir. Elə isə, imam təkbir gətirdikdə siz də gətirin, Quran oxuduqda siz susun"* (Buxari, Təqsir, 19).

Namazda qiraətin bərkdən (cəhri) oxunması başqalarının eşidə biləcəyi səslə oxumaq deməkdir. İmamın və ya təkbaşına namaz qılanın yavaşdan (xəfi) oxuması isə özünün eşidə biləcəyi bir səslə, hərfləri bir-bir tələffüz edərək oxumasıdır. Beləliklə, yavaşdan oxumağın ən üst səviyyəsi oxuyanın özünün eşidəcəyi qədər olmalı, yanında olanların diqqətini yayındıracaq tərzdə olmamalıdır.

İPƏKYOLU NƏŞRİYYATI

Bir ayədən başqasını oxumağı bacarmayan şəxs, Əbu Hənifəyə görə, bu ayəni bir dəfə oxuyar. Əbu Yusif və İmam Məhəmmədə görə isə bir rükətdə üç dəfə təkrar edər. Lakin üç ayə oxumağı bacaran bir ayəni üç dəfə təkrar edə bilməz.

Bir kimsə ayəti-kürsi kimi uzun bir ayənin bir qismini bir rükətdə, digər qismini o biri rükətdə oxuya bilər. Çünki bunlar üç qısa ayəyə bərabərdir.

4. Rüku: rüku lüğətdə əyilmək deməkdir. Namazın əsas ünsürlərindən olan rüku qiraətdən sonra qabağa əyilməklə, baş və bel düz olacaq şəkildə əllər diz qapaqlarının üstünə qoyularaq edilir. Bu səbəbdən ayaq üstə namaz qılanın rüku üçün yalnız başını əyməsi kifayət deyil, belini də əyərək baş və belini eyni istiqamətdə düz saxlamalıdır. Bu, tam rükudur. Üzrsüz tam rüku etməyən, əgər qiyama daha yaxın olarsa, bu rüku məqbul olmaz, lakin rükuya daha yaxın olarsa, belə bir rüku məqbul sayılar. Beli donqar və ya bel xəstəliyi olan rükunu gücü çatdığı qədər edər.

Rükunun fərz olması ayə və hədislərdə mövcuddur. Allah-Təala: **"Ey iman gətirənlər!** (Namaz qılanda) **rüku edin, səcdəyə qapanın!"**-buyurur (Həcc, 22/27). Hz. Peyğəmbər namazını tamamilə nöqsanlıqla qılan bədəviyə belə buyurmuşdur: *"Sonra bədən üzvlərin tam rahat olacaq şəkildə rüku et, sonra bədən üzvlərin tam rahat olacaq şəkildə səcdə et. Sonra bunu bütün namazın boyunca belə et"* (Buxari, Azan, 95, 122).

5. Səcdə: səcdənin leksik mənası itaət, təslim olmaq, təvazökarlıqla təzim etmək və üzü (alın və burnu) yerə qoymaqdır. Namazın hər rükətində rükudan sonra müəyyən üzvləri yerə və ya yerə bitişik bir şey üstünə qoyaraq iki dəfə yerə qapanmaq namazın rüknlərindəndir. Sünnəyə ən müvafiq səcdə şəkli alın, üz, iki əl, iki diz və iki ayağın yerə və ya yerə bitişik bir şey üstünə qoyularaq edilənidir.

Allah-Təala belə buyurur: **"Ey iman gətirənlər!** (Namaz qıldıqda) **rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edin"** (Həcc, 22/77).

Sünnəyə müvafiq səcdə yeddi bədən üzvü üzərinə edilən səcdədir. İbn Abbasdan (r.ə) rəvayət edildiyinə görə Hz.Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Mənə yeddi üzv üzərinə səcdə etmək əmr olundu. Bunlar alın, (əli ilə burnuna da işarə etdi), iki əl, iki diz və iki ayaqdır"* (Buxari, Azan, 133, 134, 137).

Camaatın çoxluğu səbəbilə yerə səcdə edə bilməyən şəxs insan, heyvan, əşya və bu kimi şeylərin üstünə səcdə edə bilər. Bununla bağlı Hz. Ömərin belə dediyi rəvayət edilmişdir: "Namazda camaat həddindən artıq çox olduqda, qardaşınızın belinə səcdə etsin".

Hər bir kəs paltarını təmiz yerə sərərək üstünə səcdə edə bilər. Lakin səcdədə yerin sərtliyinin hiss edilməsi vacibdir. Odur ki, yerin bərkliyinin hiss edilməsinə əngəl olan pambıq və digər şeylərin üstünə səcdə etmək olmaz.

Yun, pambıq, saman və qar kimi bir şeyin üstünə səcdə edilən zaman bunlar çox olub həcmləri hiss olunduqda, səcdə etmək caizdir. Lakin bunların içində üz batıb hər hansı sərtlik hiss olunmazsa, səcdə etmək caiz olmaz.

Çuval içində buğda, arpa, düyü və darı kimi dənəli bitkilər üstünə səcdə edilə bilər. Lakin çuval içində olmayan buğda və arpa üstünə səcdə edilə bilsə də, darı kimi sürüşkən dənli bitkilər üstünə səcdə edilməz.

İPƏKYOLU NƏŞRİYYATI

MÜZAKİRƏ EDİN

Hənəfi məzhəbindən başqa digər məzhəblərə görə namazın rüknlərini araşdırıb sinifdə müzakirə edin. Müştərək və fərqli rüknləri söyləyin.

Kiçik bir daşın üstünə səcdə edilməz. Lakin alnın çox hissəsi bu daşla birlikdə yerə təmas edərsə, səcdə caiz olar.

Səcdə namazın ən mühüm rüknüdür. Allah-Təalaya göstərilən hörmət, təvazökarlıq və təzimin ən mükəmməl ifadəsidir. Bir hədisi-şərifdə belə buyurulmuşdur: *"Bəndənin Rəbbinə ən yaxın olduğu hal, səcdə etdiyi haldır. Odur ki, səcdədə duanı çox edin"* (Müslim, Səlat, 215).

6. Son oturma: "Qədeyi-axirə" son oturma mənasına gəlir. Namazın axırında təşəhhüd miqdarı oturub gözləmək namazın rüknlərindəndir. İki rükətli namazlarda ikinci, üç rükətli namazlarda üçüncü və dört rükətli namazlarda isə dördüncü rükəttən sonrakı oturmalar "son oturma" adlanır. Son oturma namazdan çıxmaq üçün məcburidir.

İPƏKYOLU NƏŞRİYYATI

D. NAMAZIN VACİBLƏRİ

Namazın vacibləri aşağıdakılardır:

1. Namaza "Allahu əkbər" sözü ilə başlamaq.

2. Namazların hər rükətində "Fatihə" surəsini oxumaq.

3. Namazlarda fərz olan qiraəti ilk iki rükətdə yerinə yetirmək.

4. İlk iki rükətin hər birində "Fatihə" surəsini bir dəfə oxuyub təkrar etməmək.

5. "Fatihə" surəsini oxunan digər surə və ya ayələrdən əvvəl oxumaq. Hz. Peyğəmbər məhz bu şəkildə oxumuşdur. Bir kimsə rükuya getmədən əvvəl "Fatihə" surəsini oxumadığını xatırlayarsa, "Fatihə" oxuyub, sonra başqa surə oxuyar və bu gecikdirmə səbəbilə namazın sonunda səhv səcdəsi edər.

6. Fərz namazların ilk iki rükətində, vacib və nafilə namazların hər bir rükətində "Fatihə"dən sonra Qurandan qısa bir surə və ya buna bərabər olan bir və ya bir neçə ayə oxumaq. "Fatihə"dən sonra bir kiçik surə və ya ən kiçik surəyə bərabər üç qısa ayə, ya da üç qısa ayəyə bərabər uzun bir ayə oxumaq vacibdir.

7. Təkbaşına namaz qılan şəxs sübh, axşam və yatsı namazlarında bərkdən və ya astadan oxumaqda sərbəstdir. Lakin günorta, ilkindi namazlarında və gündüz qılınan nafilələrdə astadan oxunması vacibdir.

8. Camaatla qılınan namazda imamın sübh, cümə, bayram, təraveh və vitr namazlarının hər bir rükətində, axşam və yatsı namazlarının ilk iki rükətlərində bərkdən, eləcə də axşam namazının üçüncü və yatsı namazının son iki rükətlərində astadan qiraət etməsi vacibdir.

9. Vitr namazında qunut duası oxumaq və qunut təkbiri gətirmək Əbu Hənifəyə görə vacibdir. Əbu Yusif və İmam Məhəmmədə görə bunlar Sünnədir.

10. Qəzaya qalan bir namaz gündüz camaatla qılındıqda, əgər sübh namazı kimi bərkdən oxunan bir namazdırsa, bərkdən oxunmalıdır. Günorta namazı kimi astadan oxunan bir namazdırsa yavaşdan oxunmalıdır. Namazı təkbaşına qəza edən şəxs isə bu mövzuda sərbəstdir.

11. İki bayram namazının üç əlavə təkbirləri vacibdir. Bu namazlarda birinci rükətlərin rüku və səcdə təkbirləri Sünnədir. İkinci rükətlərin rüku təkbirləri isə vacib olan əlavə təkbirlərə bitişik olduğu üçün vacib sayılır.

12. Səcdədə alın ilə birlikdə burnu da yerə qoymaq vacibdir.

13. Üç və ya dörd rükətli namazlarda ikinci rükətin sonunda oturmaq (qədeyi-ülа) vacibdir.

14. Namazlarda hər oturmada təşəhhüd etmək, yəni təhiyyatı oxumaq vacibdir.

15. Namazda fərz olan əmälləri gecikdirməmək. Məsələn, ilk oturmada təhiyyatı oxuduqdan sonra "Allahummə salli alə Muhəmməd" deyəcək qədər gözləyib sonra üçüncü rükətə qalxılarsa, fərz gecikdirilmiş olur və səhv səcdəsi edilməlidir.

16. Namazın fərzlərində ardıcıllığa riayət etmək. Ardıcıllağa riayət etmək qiraət ilə rüku arasında və hər rükətdə təkrarlanan hərəkətlərdə olur. Məsələn, bir nəfər ilk rükətin bir səcdəsini etməzsə, axırıncı oturmadan və ya salam verdikdən sonra danışmadan bu səcdəni qəza edər, sonra təşəhhüd ilə oturmanı yenidən edər və birinci salamdan sonra səhv səcdəsi edər, sonra da təşəhhüdə oturar və salam verərək namazını yekunlaşdırar.

17. Vaciblərdən hər birini yerində edib gecikdirməmək. Məsələn, qiraətdən sonra bir müddət fikrə gedib daha sonra rükuya getmək kimi.

18. Namazda çaşaraq tərk edilən vaciblərdən ötrü səhv səcdəsi etmək vacibdir.

19. Namazda oxunan səcdə ayəsindən ötrü tilavət səcdəsi etmək vacibdir.

20. Əbu Hənifəyə və İmam Məhəmmədə görə namazın rüknlərində tədili-ərkana riayət etmək vacibdir. Rüku, səcdə, rükudan qalxma və ya iki səcdə arasında bədən üzvləri sakitləşməli və tam rahatlamalıdır.

21. Namazların axırlarında salam vermək. Əvvəlcə sağ tərəfə, sonra sol tərəfə üz çevirərək "əs-səlam" (salam olsun) demək vacibdir. "Aleykum və rahmətullah (salam və Allahın rəhməti sizə olsun)" sözünü söyləmək isə sünnədir.

Namazın vaciblərini qəsdən tərk etmək namazı pozur. Lakin unudaraq tərk etmək və ya gecikdirmək nəcitəsində "səhv səcdəsi" edilməlidir.

E. NAMAZIN SÜNNƏLƏRİ

Namazın sünnələri aşağıdakılardır:

1. Beş vaxt namaz ilə cümə namazı üçün azan və iqamə oxumaq sünnədir. Camaatla qılınan fərz namazlar üçün azan və iqamə sünnə olduğu kimi, camaatla qılınan qəza namazları üçün də sünnədir. Birdən çox namaz camaatla qəza edilərkən bunlardan yalnız ilk qılınan namaz üçün azan oxunur, sonra həm bu namaz üçün, həm də bundan sonra qılınacaq hər bir qəza namazı üçün iqamə oxunur.

2. İftitah təkbiri üçün əlləri yuxarı qaldırmaq sünnədir. Kişilər əllərini baş barmaqları qulaqlarının yumuşaqlığına dəyəcək qədər, qadınlar isə barmaqlarının ucları çiyinləri səviyyəsinə çatacaq şəkildə sinələrinin önünə qaldırıb həmin vəziyyətdə "Allahu əkbər" deyərlər. Qadınların əllərini çiyin səviyyəsinə qədər qaldırmaları hicaba müvafiq olması səbəbindəndir. Əllərin içi qibləyə və ya bir-birinə baxa bilər. Barmaqları sərbəst saxlayıb nə bitişdirmək, nə də ayırmaq lazımdır.

3. İmama tabe olanın iftitah təkbirinin imamın təkbirinə yaxın olması sünnədir. Lakin imama tabe olanın təkbiri imamın təkbirindən sonra olmalıdır.

4. İftitah təkbirinin ardınca dərhal əlləri bağlamaq sünnədir. Kişilər göbək altında, qadınlar isə sinə üzərində əlləri bağlayarlar.

Əlin qoyulma forması belədir: sağ əlin ovucu sol əlin üstündə qoyulur. Beləliklə, baş barmaq ilə balaca barmaq bilək üzərində halqa edilir. Qadınlar isə iki əllərini sinə üzərində halqa etmədən qoyarlar. Çünki bu vəziyyət hicaba müvafiqdir.

5. Sübhanəkə duasını oxumaq sünnədir. İftitah təkbirindən sonra astadan "səna" duasını oxumaq sünnədir. "Fatihə"dən əvvəl astadan "əuzu-bəsmələ" oxunması və digər rükətlərdə "Fatihə"dən əvvəl yalnız bəsmələ oxunması Sünnədir.

6. "Fatihə"dən sonra yavaşca "amin (Allahım, dualarımızı qəbul et!)" demək Sünnədir.

7. İmam olanın təkbirləri və rükudan qalxarkən "səmiallahu limən hamidəh (Allah həmd edənin həmdini eşidir)" cümləsini və namazın sonunda iki tərəfə salamı, səsini camaata eşitdirəcək şəkildə ucadan söyləməsi sünnə olduğu kimi, imama uyanların da rükudan qalxarkən yavaşca "Rabbənə ləkəl-hamd" (Rəbbimiz, həmd yalnız sənədir!) deməsi, təkbirlər ilə salamı ürəkdə oxunması sünnədir.

İPƏKYOLU NƏŞRİYYATI

Təkbaşına namaz qılan rükudan qalxarkən həm “səmiallahu limən həmidəh”, həm də “Rabbənə ləkəl-hamd” deyər.

8. Rüku və səcdəyə əyilib qalxarkən deyilən təkbirlər Sünnədir. Qiyamdan rükuya və səcdələrə gedərkən və ya səcdədən qalxıb yenə səcdəyə gedərkən “Allahu əkbər” deyilməsi Sünnədir. Ancaq rükudan qalxarkən təkbir yerinə “səmiallahu limən hamidəh” deyilir.

9. Rükudan qalxarkən “səmiallahu limən hamidəh” ardınca da “Rabbənə ləkəl-hamd” deyilməsi Sünnədir. Bunların birincisinə “təsmi,” ikincisinə “təhmid” deyilir. İmam “təsmii” bərkdən, “təhmidi” isə astadan deyər. İmama tabe olan yalnız yavaşca “rabbənə ləkəl-hamd” deyər. Təkbaşına namaz qılan hər ikisini də astadan deyər.

10. Qiyamda bir üzr olmadığı təqdirdə iki ayağın arasını dörd barmaq qədər açıq saxlamaq Sünnədir. Çünki bu hal xüşuya daha uyğundur.

11. Rükuda kişilərin əlləri ilə barmaq araları sərbəst saxlanılaraq dizlərini tutmaları Sünnədir. Qadınlar bu vəziyyətdə əllərini dizləri üstünə qoymaqla kifayətlənərlər. Həmçinin rükuda kişilərin qıçlarını dik tutmaları, başın bel səviyyəsindən yuxarı qaldırılmaması aşağıya da əyilməməsi Sünnədir. Qadınların dizləri bir az bükük olur və beləliklə də, onların belləri bir az yuxarı meyilli olur.

12. Rüku və səcdə təsbehləri Sünnədir. Rükuda üç dəfə “subhanə Rabbiyəl-azim (Uca Rəbbimi nöqsan və əskik sifətlərdən uzaq tuturam)” demək Sünnədir. Bununla yanaşı səcdədə üç dəfə “Sübhanə Rabbiyəl-ələ (Ən Uca Rəbbimi nöqsan və əskik sifətlərdən uzaq tuturam)” demək də Sünnədir.

13. Səcdə oturmaları ilə təşəhhüd oturmalarında sol ayağı yerə yatırıb sağ ayağı dik qoymaq və ayaq barmaqlarını qibləyə tərəf yönəltmək Sünnədir. Qadınlar sol ayaqlarını sağ tərəfə qoyaraq yerə oturarlar. Bu oturuşa “təvərrük” deyilir. Çünki bu oturuş tərzi qadının örtünməsinə köməkçi olur.

14. Səcdəyə gedilərkən əvvəlcə dizləri, sonra əlləri, sonra üzü yerə qoymaq, səcdədən qalxarkən də əvvəlcə üzü, sonra da dizlərin üstünə basaraq əlləri yerdən qaldırmaq Sünnədir. Üzrü səbəbilə bunu edə bilməyənlərin əlləri ilə yerə basaraq qalxmaları caizdir.

15. Oturmalarda və ya iki səcdə arasında qısa oturmada əlləri budların üstünə qoymaq Sünnədir. Namaz qılan təşəhhüddə və səcdələr arası oturmalarda sağ əlini sağ budunun, sol əlini sol budunun üstünə qoyar. Barmaqlar azca aralanaraq barmaq ucları dizlərin üstündə olacaq şəkildə qoyulur. Mötəbər rəyə əsasən əllərlə diz qapaqları tutulmaz. Çünki bunda çətinlik vardır.

16. Oturmalarda təhiyyatı oxuyarkən “lə iləhə” deyildikdə, sağ əlin şəhadət barmağı qaldırılıb, “illəllah” deyilərkən saldırılması Sünnədir. Bunu edərkən də baş barmaq ilə orta barmaq halqa edilib digər iki barmaq bükülməlidir. Bu işarə ilə Allahdan başqa heç bir ilah olmadığı vurğulanır.

17. Fərz namazlarının üçüncü və dördüncü rükətlərində “Fatihə” oxumaq əsas götürülən rəyə görə Sünnədir. Buna bir surə əlavə edilə bilər. Çünki bu iki rükətdə qiraətə məhdudiyyət qoyulmamışdır.

18. Fərzlərin, vitr namazının və müəkkəd Sünnələrin son oturmalarında, qeyri-müəkkəd Sünnələr ilə digər nafilə namazlarda hər oturmada təhiyyatdan sonra Həzrət Peyğəmbərə və ailəsinə salavat gətirmək sünnədir.

19. Bütün namazların son oturmalarında təhiyyat və salli-barik dualarından sonra iki tərəfə salam vermədən əvvəl dua edilməsi Sünnədir. Bu duanın Qurani-Kərim ayələrindən seçilməsi və ya bunlara oxşaması məqsədəuyğundur. İnsanlardan istənilməsi mümkün olan şeylər üçün namazda dua edilməz.

20. Namazın sonunda “əs-səlamu aleykum və rahmətullah” deyərək salam verərkən üzün əvvəlcə sağa, sonra sola çevrilməsi Sünnədir. Namaz qılan sağ və sol tərəfinə salam verərkən sağ və solunda olan insan, cin və mələklərə salam verməyə niyyət edər. İmam da ona tabe olanlara salam verməyə niyyət edər. Camaat imamın sağında isə, birinci salamda imamın salamını almağa, solunda isə ikinci salamda salam almağa niyyət edər.

İPƏKYOLU NƏŞRİYYATI

21. Sütrə qoymaq Sünnədir. Qabağından keçənlərə mane olmaq üçün namaz qılanın öz qabağına qoyduğu şeyə "sütrə" deyilir. Namaz qılanın qabağından keçmək məkruhdur. Namaz qılanın qabağından keçənə mane olmaq İslamın ilkin dövrələrində mübah ikən bu hökm sonradan nəsx edilmişdir. Namaz qılanın qabağından keçənə mane olması üçün yalnız "subhanəllah" deməsi və ya əl, göz, yaxud baş işarəsi ilə ona xəbərdarlıq etməsi mümkün və caizdir. Sütrə namaz qılanın gözlərini sütrənin arxasına baxmağa əngəl olar və diqqətin namaza cəmləşdirilməsinə kömək edər.

Namazın Sünnələrinə riayət edərək qılmaqla namaz tamamlanmış olur. Bunlar tərk edildikdə isə namazın savabının azalmasına ilə nəticələnər.

Namazda rahatlıq, sükunət və xüşu içində olmaq, gözəl paltarla namaz qılmaq, qiyamda səcdə yerinə, rükuda ayaqların uc tərəfinə, oturuşlarda qucağa və salamda da sağ və sol çiyinə baxmaq, ilk rükətdə oxunan qiraətin ikinci rükətdən çox oxunması, rükudan doğrulduqda (qəvmə) əlləri yana salmaq, səcdədən qalxarkən əlləri yerə qoymadan qalxmaq, namazda əsnəməməyə çalışmaq müstəhəb olan davranışlardır.

Sünnələrə və müstəhəblərə riayət edildikdə namaz Hz. Peyğəmbərin (s.ə.s) tərif etdiyi kimi qılınmış olar. Fərzləri Sünnə və müstəhəbləri ilə dəstəkləməklə namaz mükəmməl bir ibadət halını alar.

F. NAMAZDA MƏKRUH OLAN HƏRƏKƏTLƏR

1. Namazın vaciblərindən birini bilərəkdən tərk etmək. Məsələn, "Fatihə"ni tərk etmək və ya astadan oxunan namazda bərkdən oxumaq, bərkdən oxunan namazda astadan oxumaq. Təhrimən məkruh olan belə bir namaz səhih olmasına baxmayaraq, təkrarən qılınması vacibdir. Çünki buradakı səhv üzürlü səbəbdən olmadığı üçün səhv səcdəsi etmək də kifayət etmir.

2. Namazın Sünnələrindən birini bilə-bilə tərk etmək. Məsələn, sübhanəkəni oxumamaq, rüku və ya səcdələrdəki təsbehləri etməmək, ya da rükuda başı qaldırmamaq və ya çox əymək.

3. İkinci rükətdə birinci rükətə nisbətən daha çox qiraət etmək məkruhdur. Hənəfilərə görə, bu miqdar üç ayədən çox olmamalıdır. Əks təqdirdə məkruh olmaz.

4. Namaz qılarkən bir üzr olmadan bir yerə, divara, dirəyə və ya əsaya söykənmək məkruhdur.

5. Namazda üzrsüz və ardarda olmamaq şərtilə bir neçə addım gəzmək məkruhdur. Ancaq ilan və ya əqrəb öldürmək kimi üzrlü səbəbdən bir neçə addım atmaq məkruh deyil. Namaza aid olmayan hərəkət əməli-kəsir (çox hərəkət etmək) dərəcəsinə çatarsa, namaz pozular. Namazda ikən bir nəfəri ölümdən və ya yaralanmaqdan xilas etmək, yaxud az da olsa bir malın tələf olmasına mane olmaq üçün namazı pozmaq caizdir,hətta namaz pozulmalıdır. Bu malın namaz qılana məxsus olub-olmaması nəticəni dəyişdirmir.

6. Bir rükətdə bir surənin iki dəfə oxunması və ya fərzlərdə hər iki rükətdə də "Fatihə"dən sonra eyni surənin təkrarlanması məkruhdur. Lakin bu, nafilə namazlarda məkruh deyil. Namazda "Fatihə"dən sonra daima eyni surənin oxunması da məkruhdur.

7. Qiraətdə Qurani-Kərimdəki surələrin ardıcıllığına riayət etməmək də məkruhdur. Məsələn, birinci rükətdə "İxlas" surəsini oxuyub sonra "Ləhəb" və ya "Kafirun" surəsini oxumaq məkruhdur. Çünki Rəsulullahın (s.ə.s) qiraətdə surələrin ardıcıllıqlarına riayət etdiyi rəvayət edilmişdir.

8. Namazda paltar, bədən və ya saqqalı əl ilə oynatmaq, əlini ağzına qoymaq və ya ehtiyac olmadan burnunu tutmaq kimi namaza müvafiq olmayan bir işlə məşğul olmaq məkruhdur.

Üzdəki təri silmək və ya əsnəmək kimi təbii bir hərəkət məkruh sayılmadığı halda, barmaqları şaqqıldatmaq, namaz qılınan yerdəki çınqıl daşlarla oynamaq boş işlə məşğul olmaq sayılır. Lakin səcdə edilən yerdəki çınqıl daşlarını yalnız bir dəfə düzəltmək caiz hesab edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

9. Namazda əlləri üzrsüz qiyam, rüku və səcdədə Sünnə ilə bildirilən üzvlər üzərinə qoymamaq məkruhdur.

10. Namazda bit, birə, qarışqa kimi həşəratları tutmağa çalışmaq va ya öldürmək məkruhdur. Lakin bunların dişləməsindən ağrı hiss edənin bunları namazda ikən tutub atmasında hər hansı qəbahət yoxdur.

11. Kişilərin səcdə edərkən qollarını tamamilə yerə bitişdirmələri məkruhdur.

12. Namazda üzr olmadan bardaş qurmaq və ya dizləri dikib oturmaq məkruhdur.

13. Namazda əsnəmək və bu kimi şeyləri etmək məkruhdur. Çünki bunlar qafillik və tənbəllik əlamətləridir. Əsnəmə zamanı ağız bağlana bilməzsə, namazda sağ əlin arxası ilə, namazdan kənarda isə sol əlin arxası ilə ağız bağlanmalıdır.

14. Namazda heç bir səbəb olmadan insanın öz istəyi ilə öskürməsi məkruhdur. İmkan daxilində öskürəyin qarşısının alınması ədəbə müvafiqdir.

15. Verilən salamı namazda əl və ya baş işarəsi ilə almaq məkruhdur.

16. Namazda dişlərin arasında qalan noxud dənəsindən kiçik yemək qırıntısını udmaq məkruhdur. Bu qırıntı noxud dənəsindən böyük olarsa, namaz pozular.

17. Yemək süfrəsi hazır ikən namaza başlamaq məkruhdur. Lakin namaz vaxtının çıxacağından ehtiyat edilməsi istisnadır.

18. Namazda gözləri yummaq və ya gözləri göyə tərəf çevirmək, sağa-sola baxmaq və ya başı bir tərəfə çevirib baxmaq məkruhdur. Namazda sağa-sola baxmaq da xüşuya manedir və boş işlə məşğul olmaqdır. Bununla yanaşı namazda görülməməli olan bir şeyi görməmək və ya xüşunu daha da artırmaq məqsədilə gözün yumulması mümkündür. Hər hansı bir ehtiyac üçün isə göz ucu ilə baxıla bilər.

19. Barmaqları bir-birinə keçirmək, barmaq şaqqıldatmaq və ya əlləri böyürə qoymaq məkruhdur. Bu hərəkətlər namaz qılanı xüşudan uzaqlaşdırar.

20. İmamdan əvvəl rüku və ya səcdəyə getmək və ondan əvvəl rüku və ya səcdədən başını qaldırmaq məkruhdur. Lakin imama tabe olan imamdan əvvəl rüku və ya səcdəyə gedib, ondan əvvəl başını qaldırarsa, namazı pozular. Əgər həmin şəxs imam salam verməzdən əvvəl bu rüku və ya səcdəni təkrarən edərsə, namazı tam olar və pozulmaz.

21. Qiyam, rüku və səcdə aralarındakı təkbir və zikrləri edilməli olduğu yerlərində etməyib gecikdirmək məkruhdur. Məsələn, qiyamdan rükuya getdikdən sonra "Allahu əkbər" demək və rükudan qiyama tamamilə qalxdıqdan sonra "səmiallahu limən hamidəh" demək məkruhdur. Bu zaman təkbir və zikrlər gecikdirilmiş olur.

22. Yanan alov istiqamətinə namaz qılmaq məkruhdur. Çünki bu şəkildə namaz qılmaq məcusilərə oxşamaqdır. Yanan ocaq, soba və alovu olan manqal da "yanan od" hökmündədir. Şama, lampaya, işığa qarşı namaz qılmaq isə məkruh deyil, eləcədə elektrikli və digər isitmə cihazları da bu mahiyyətdədir. Lakin birbaşa qaz, neft və ya yanacaqla olan isitmə cihazlarının od hökmündə olma ehtimalı çoxdur. Bununla yanaşı asılı duran Qurana və ya bir qılınca qarşı namaz qılmaq məkruh deyil. Çünki heç kim tərəfindən bunlara sitayiş edildiyi nəql edilməmişdir.

23. Ortada pərdə olmadan bir insanın üzünə tərəf namaz qılmaq məkruhdur. Lakin bir insanın arxasına tərəf namaz qılmağa hər hansı əngəl yoxdur. Ancaq həmin insanın danışması səbəbilə çaşma ehtimalının olması bundan istisna edilir.

24. Geniş vaxtda kiçik və ya böyük dəstəmaza ehtiyacın olması və ya bu kimi ehtiyaclar güclə saxlanaraq namaza başlanması məkruhdur. Namaz əsnasında kiçik və ya böyük dəstəmaz ehtiyacı olub qəlbi məşğul etməyə başlayarsa, həm də vaxt var isə namaz dayandırılaraq ehtiyac təmin edildikdən sonra dəstəmaz alıb yenidən namaza başlanılmalıdır ki, namaz xüşu içində qılına bilsin. Əks təqdirdə namaz səhih olmaqla yanaşı savabı əskik olar.

İPƏKYOLU NƏŞRİYYATI

25. Paltar, bədən və ya namaz qılınan yerdə namazına mane olmayacaq qədər nəcasətin olması məkruhdur.

26. Tək ayaq üstündə durmaq və ya bir ayağı yerdən qaldırmaq və digər ayağa söykənmək məkruhdur. Lakin bu üzrlü bir səbəbdən edilərsə, məkruh olmaz.

27. Namazda üzrsüz paltarı geyinmədən çiyinə salmaq məkruhdur.

28. Başqa paltar var ikən namazda kirli ev və iş paltarı geymək məkruhdur.

29. Bir üzr olmadan yalnız bir paltar ilə namaz qılmaq məkruhdur. Məsələn, yalnız bir köynək ilə namaz qılmaq məkruhdur. Həmçinin isti bölgələrdəki kişilərin bədənin göbəkdən üst qisminə heç bir şey geymədən namaz qılmaları məkruhdur.

30. Kişilərin bir üzr olmadıqca ipək paltar geyərək namaz qılmaları məkruhdur.

31. Paltarı torpaqdan və ya dizlərinin ağarmasından, yaxud qırışmasından qorumaq üçün rüku və ya səcdəyə gedərkən yavaşca yuxarı çəkmək məkruhdur.

32. Namazda başın kənarına əl yaylığı və ya parça sarıyaraq ortasını açıq saxlamaq məkruhdur.

33. Namazda tənbəllik və ya səhlənkarlıq səbəbilə başı açıq olmaq məkruhdur. Namazda başı səcdəyə maneçilik törətməyəcək bir şeylə örtmək daha fəzilətlidir. Qadınların isə namazda başlarını örtmələri hicabları səbəbilədir. Başın açıq olması qadınlarda namazı pozar.

34. Üstündə insan və ya heyvan şəkilləri olan paltarla namaz qılmaq və ya belə bir parça üzərinə səcdə etmək məkruhdur. Lakin həmin paltarın üstünə pencək, plaş və ya cübbə kimi bir şey geyilərsə onunla namaz qılınmasında heç bir əngəl yoxdur. Bilindiyi kimi qədim dövrlərdə bir çox qövm tövhid əqidəsindən uzaqlaşıb şirkə düşmüş, müxtəlif tanrıların şəkil və heykəllərini düzəldərək onlara sitayiş etmiş və məbədlərini onlarla doldurmuşlar.

35. Namaz qılanın başının üstündə, qabağında, sağ və ya sol tərəfində çəkilmiş canlı rəsmlərin, yaxud heykəllərin olması məkruhdur. Bunların arxa tərəfdə olmasının kərahəti nisbətən azdır.

Namaz qılanın ayaqları altında və ya oturduğu yerdə olan, ya da qarşıdan baxıldıqda görülməyəcək qədər kiçik olan rəsmin namaz baxımından hər hənası məkruhluğu yoxdur.

Şəxsiyyət vəsiqəsi, pasport, sürücü vəsiqəsi kimi sənədlərin üstündəki şəkillərlə, kağız pulların üstündəki şəkillərlə, pul qabı və ya çanta, yaxud cibdə qapalı olduqları üçün nə namazda, nə də namazdan kənarda hər hansı kərahəti yoxdur. Digər tərəfdən rəsmi sənədlərə şəkillərin yapışdırılmasının məqsədi insanları bir-birindən ayırd etmək, xəta və haqsızlıqları aradan qaldırmaq, bir sıra hüquqları qorumaq və ən əsası da təhlükəsizliyi təmin etməkdir.

Canlı olmayan əşya və varlıqlara aid rəsm, şəkil və ya heykəllərin namaza hər hansı maneəsi yoxdur.

36. Yeddi yerdə namaz qılmaq məkruh sayılmışdır. İbn Ömərdən (r.ə) belə dediyi rəvayət edilmişdir: Rəsulullah (s.ə.s) yeddi yerdə namaz qılmağı qadağan etmişdir: "*Zibilliklərdə, heyvan kəsilən yerlərdə, qəbiristanlıqlarda, yol kənarlarında, hamamlarda, dəvə axırlarında və Beytullahın üstündə*" (Şövkani, *e.a.ə.,* II, 138).

Qəbiristanlıqda namaz qılmağın qadağan olmasının səbəbi torpağın altında cəsədlərin olması və yəhudilərə oxşama təhlükəsidir. Hədisdə belə buyurulmuşdur: *"Allah yəhudilərə lənət etsin. Onlar peyğəmbərlərinin qəbirlərini məscid etdilər. Məndən sonra qəbrimi məscid etməyin"* (Buxari, Səlat, 43). Hənəfilərə görə, qəbiristanlıqda bir qəbrə tərəf namaz qılmaq məkruhdur. Çünki bu zaman qəbir namaz qılanın gözünü və qəlbini məşğul edə bilər. Qəbir arxa və ya yan tərəfdə olarsa,məkruh olmaz. Bununla yanaşı, ümumiyyətlə, peyğəmbərlərin qəbirlərinin olduğu yerlərdə namaz qılmaq məkruhdur.

Yol başında və ya kənarında namaz qılmağa gəlincə, insanların namaz qılanın qabağından keçməsi və ya bu yerlərin təmiz olmaması səbəbilə qadağan edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

G. NAMAZI POZAL HALLAR

Namazın fərzlərindən biri tərk edildikdə namaz pozulmaqla yanaşı, bəzi şeylərin namazda edilməsi ilə də ibadət batil olur. Bunların əsasları aşağıdakılardır:

1. Namazda danışmaq: namazda bilərək, bilməyərək, səhvən, unudaraq və ya qorxutma səbəbilə danışmaq namazı pozar.

a. Asqırana namazda "yərhamukəllah" deyilməsi və ya bir nəfərin "rahiməkəllah" deməsinə "amin" deyə cavab verilməsi namazı pozar. Ancaq asqıranın öz-özünə "yərhamukəllah" deməsi namazı pozmaz. Çünki bu zaman başqasına cavab verilmir.

b. Bir xəstəlik və ya bir malın, yaxud bir nəfərin itməsi kimi müsibət səbəbilə açıq-aydın hərflərlə səs çıxararaq ağlamaq və ya "ax, uf, of" kimi səslər çıxarmaq, yaxud toza üfürmək və ya bir şeydən bezmə nəticəsində "of" və s. demək namazı pozar.

Lakin özünə nəzarət edə bilməyən xəstənin inildəməsi, ax, of deməsi namazı pozmaz. Çünki bu vəziyyətdəki xəstənin inildəməsi qeyri-ixtiyari asqırmaq, öskürmək və əsnəmək kimidir. Belə vəziyyətdə bəzi hərflər tələffüz edilsə də namaz pozulmaz.

Allah-Təalanın qorxusundan, cənnət və ya cəhənnəm xatırlandığı üçün ağlamaq, inildəmək və ax demək namazı pozmaz.

c. İmamın oxuduğu Quran-Kərim xoşuna gəldiyi üçün ağlayanın ağlamadakı niyyətinə baxılar. Bu, xüşu səbəbilə ağlamadırsa, namazı pozulmaz. Lakin yalnız səs gözəlliyindən duyduğu zövq səbəbilə ağlamışsa, namazı pozular. Bununla yanaşı imam Quran oxuyarkən, cənnət və ya cəhənnəmi xatırlayaraq xüşudan ötrü "bəla (belədir), nəam (bəli)" deyərək ağlayan camaatın da namazı pozulmaz.

ç. Namaz qılarkən eşidilən kədərli xəbərə: "İnnə lilləhi və innə ileyhi raciun (Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!)", - deyə cavab verilməsi namazı pozar. Çünki bu ifadə namazdan kənar bir xəbərə cavab vermə mahiyyəti daşıyır.

d. Namazda qəlbə gələn şeytani vəsvəsədən ötrü "lə havlə və la qüvvətə illə billəh" deyilərsə və bu vəsvəsə axirətlə bağlı bir şey haqqında olarsa namaz pozulmaz, lakin dünyaya aid bir vəsvəsə olarsa namaz pozular. Çünki vəsvəsə əzab və əziyyətdir. Bu zaman dünyəvi çətinlikdən ötrü "lə havlə" sözü deyilmiş olur.

e. Namaz qılan Allahın adı çəkildikdə cavab vermək məqsədilə "Lə iləhə illəllah (Allahdan başqa ilahi yoxdur)" və ya cəllə cəlalühu (Onun şəni ucadır)" desə, yaxud Həzrət Peyğəmbərin adı çəkildikdə "salavat" gətirsə və ya imam oxuyarkən "Sadəqallahül-azim (Uca Allah doğru buyurdu)" kimi sözlər söyləsə, namazı pozular. Ancaq başqa birisinə cavab verməmək məqsədilə bu sözləri söyləsə, məsələn Allah və Rəsulunu tərifləmək və onlara hörmət göstərmək məqsədilə bu sözləri söyləsə, namazı pozulmaz. Çünki Allah-Təalaya təzim etmək, Rəsuluna salat və səlam demək namaza zidd deyil.

ə. Namaz qılan onu çağıran və ya içəri girmək üçün icazə istəyənə namazda olduğunu bildirmək üçün "əlhamdulilləh", "Allahu əkbər" və ya "Subhanəllah" deyərsə, ya da bərkdən oxuyarsa, namazı pozulmaz.

f. Quran-Kərim və ya hədislərdə mövcud olan bir duanı namazda oxumaq namazı pozmaz. Məsələn, "Allahummə əkrimni (Allahım, mənə ikram et!)", "Allahummə ənim aleyyə (Allahım, mənə nemətlərini ver)," "Allahumməğfirli və li vəlideyyə və lil-mumininə yevmə yəqumul-hisəb (Allahım, məni, atamı, anamı və bütün möminləri haqq-hesab qiyamət günündə bağışla!)" və s. kimi duaların edilməsi namazı pozmaz. Lakin "Allahumməğfir li ammi (Allahım, əmimi bağışla!)" və ya "Allahumməğfir li xali (Allahım, dayımı bağışla!)" kimi dua ilə namaz pozular. Çünki Quran və hədislərdə belə bir dua yoxdur. Namazdan kənarda isə, Quran və Sünnədə mövcud olub-olmamasından asılı olmayaraq dinə uyğun bütün dualar edilə bilər.

İPƏKYOLU NƏŞRİYYATI

Quran və Sünnədə nümunəsi olmayıb insanlardan istənilməsi mümkün olan bir şeyin Allahdan istənilməsi namazı pozar. Məsələn, “Allahummə ətimni ləhmən (Allahım mənə ət ver!)”, “Allahummə əqdi deyni (Allahım, borcumu ödə)”, “Allahummərzuqni zevcətən (Allahım, mənə həyat yoldaşı ver!)” deyə dua edilməsi namazı pozar.

g. Bir nəfərə salam vermək və ya bir nəfərin salamını almaq, yaxud əl ilə görüşərək salamlaşmaq namazı pozar. Salamlaşmanın bilərək və ya unudaraq, yaxud çaşaraq edilməsindən asılı olmayaraq namaz pozular.

Namazda əl və ya baş ilə salam alınsa və ya istənilən bir şey üçün baş, göz və ya qaş ilə işarə edilsə namaz pozulmaz.

ğ. Namaz qılana “qabağa get” və ya “filankəsə sədəqə ver” deyilsə, o da buna görə hərəkət etsə, namazı pozular. Çünki namazda Allah-Təaladan başqasının əmrinə tabe olmuşdur. Lakin öz-özünə bir az kənara çəkilərək başqasına yer versə, namazı pozulmaz.

h. Namazda yazılmış bir yazıya baxılarsa, onu başa düşməklə namaz pozulmasa da bunu etmək məkruhdur. Əbu Hənifəyə görə, namaz qılarkən müshəfdən (Qurani-Kərimdən) baxaraq oxumaq namazı pozur. Çünki müshəfə baxmaq və vərəqlərini çevirmək “əməli-kəsir”dir. Həmçinin bu, başqasına kənardan təlqin etmək kimidir. Əbu Yusif və İmam Məhəmmədə görə isə namaz pozulmur, lakin məkruhdur. Çünki müshəfdən oxumaq ibadətdir, namaz qılarkən edilərsə, başqa bir ibadətə əlavə edilmiş hesab edilir. Bunun məkruh olması isə əhli-kitaba bənzəmə səbəbinə görədir.

x. İmam qiraət əsnasında çaşar və ya oxuduğu ayədə tərəddüd edərsə, başqa bir ayəyə keçməzdən əvvəl camaatın onun qiraətini düzəltməsi caizdir. Lakin imamın xətasını düzəltmək üçün camaat tələsməməlidir. İmam çaşan kimi dərhal ona kömək etmək məkruhdur. Bu kimi hallarda imamın camaatdan kömək gözləməsi də məkruhdur. İmam çətinə düşəndə namaz səhih olacaq qədər oxumuşsa, ya rüku etməli və ya başqa bir ayəyə keçməlidir.

İmam başqa ayəyə keçdikdən sonra ilişdiyi əvvəlki yeri düzəldənin namazı pozulur. İmam başqa ayələrə keçdikdən sonra həmin yeri düzəldənin düzəltdiyi yeri təzədən oxumağa başlayarsa, imamın da namazı pozulur. Çünki bu halda zərurət olmadan təlqin edilmiş və təlqin də qəbul edilmişdir.

Bir şəxs namazda öz imamından başqa bir adamın oxuyarkən etdiyi xətanı düzəltməsi namazı pozar. Çünki bu öyrətmə və öyrənmə hesab edilir. Öyrətmə və öyrənmə isə çox işlə məşğul olmaqdır. Lakin imama yol göstərmək üçün deyil, qiraət məqsədilə oxusa və bunun nəticəsində imam səhvini düzəldərsə, namazı pozulmaz.

2. Yemək-içmək: namaza başladıqan sonra ağza alınaraq yeyilən və ya içilən hər hansı şey az da olsa namazı pozur. Lakin namazdan əvvəl yeyilən bir şeyin dişlər arasında qalması və bunun udulması namazı pozmasa da, böyük olsun kiçik olsun hər hansı şey ağızda çeynənərək udularsa, namazı pozar. Odur ki, saqqız çeynəmək və ya namazdan əvvəl ağza alınan bir şəkəri əridikcə udmaq namazı pozar. Çünki bilərəkdən və ya bilməyərəkdən edilən bu kimi hərəkətlər namazdan kənar işlərdir.

3. Ardarda çox hərəkət etmək (əməli-kəsir): namaza və ya namazı daha da yaxşı qılmağa aid olmayıb namazdan kənar bir çox iş və əməl/hərəkət namazı pozur. Namazda az iş və hərəkətə “əməli-qəlil” deyilir və bu, namazı pozmur. Kənardan baxanın həmin iş və ya hərəkəti edənin heç şübhə etmədən namazda olmadığı qənaətinə gələrsə, buna çox hərəkət (əməli-kəsir) deyilir. Əgər həmin hərəkəti edənə baxan, namazda olub-olmadığında şübhəyə düşərsə, bu da az hərəkət (əməli-qəlil) sayılır. Əməli-kəsir sayılan bəzi hərəkətlər aşağıdakılardır:

a. Namazda ikən yerdən bir daş götürərək quşa atmaq və ya heyvana atmaq namazı pozar. Çünki bu hərəkət əməli-kəsirdir. Lakin yanındakı bir daşı bir əli ilə atarsa, namaz pozulmaz. Çünki bu, əməli-qəlil sayılır. Bununla birlikdə həmin hərəkət namazda başqa işlə məşğul olduğu üçün məkruh sayılır.

b. Namazda bədənini bir dəfə və ya ardarda iki dəfə, yaxud müxtəlif rükətlərdə bir-iki dəfə qaşıyarsa

İPƏKYOLU NƏŞRİYYATI

namazı pozulmaz. Lakin bir rükətdə ardarda üç dəfə qaşıyarsa, namaz pozular. Bir yerini əlini bir dəfə qaldırmaqla bir neçə dəfə qaşıyarsa, bir dəfə qaşıma sayılır.

c. Namazda üzrsüz ardarda ən az üç addım atmaq namazı pozur. Lakin qibləyə tərəf hər addımdan sonra bir rüknü yerinə yetirəcək qədər (üç dəfə subhanallah deyəcək qədər) fasilə verərək addım atılarsa, məkan dəyişmədiyi müddətcə çox da gəzsə, namaz pozulmaz.

Bundan əlavə, birinin namaz qılana ilişməsi və ya namaz qılınan yerdən çıxarılması kimi səbəblərdən namaz qılınan yerdən qeyri-ixtiyari üç addım yeriməsi də namazı pozar.

ç. Namazda təkrarlamadan bir əli ilə başdan sarığı və ya təsəyi çıxarıb yerə qoymaq və ya bunları yerdən götürüb başa qoymaq namazı pozmaz. Lakin bunları yerdən alıb başa qoymaq çox hərəkətlə olarsa, namaz pozular.

d. Namaz qılan şəxs başqasına əl, çomaq və bu kimi şeylərlə vurarsa, namazı pozular. Çünki bu, əməli-kəsirdir. Lakin heyvan üzərində namaz qılanın bu heyvana bir və ya iki dəfə vurması namazı pozmaz. Həmçinin heyvanı sürmək üçün bir ayağı iki dəfə hərəkət etdirmək namazı pozmaz. İki ayağı hərəkət etdirmək isə pozar. Çünki iki ayaq və iki əl hərəkət baxımından eynidir.

e. Namazda ikən heyvana minmək namazı pozar, lakin heyvandan düşmək pozmaz. Heyvanlarla bağlı bu hökmləri zəmanəmizdəki digər nəqliyyat vasitələrinə də tətbiq etmək mümkündür.

f. Namaz qılarkən bir ayaqqabını iki əl ilə geymək namazı pozar. Lakin ayaqqabıları ayaqdan asanlıqla dərhal çıxarmaq namazı pozmaz.

g. Bir şəxs namazda bilərək və ya bilməyərək az, ya da çox yeyərsə, bir az su içərsə, bir üzvünə və ya saçlarına yağ, krem və bu kimi şeylər sürtərsə, saçını darayar, yaxud hörərsə namazı pozular. Çünki bunlar əməli-kəsirdir.

h. Namazda uşağı götürüb əmizdirmək namazı pozar. Uşaq özbaşına gəlib əmdikdə, əgər süd çıxmadan bir dəfə əmərsə, namazı pozulmaz. Lakin süd çıxar və ya süd çıxmadan iki dəfədən çox əmərsə, namaz pozular.

x. Namazda olan bir kişinin namazı, arvadının öpməsi və ya oxşatması ilə pozulmaz. Ancaq kişidə ehtiras hisləri oyanmamalıdır. Bununla birlikdə bir qadının namazı, ərinin ehtirasla onu oxşatması və ya şəhvətlə, ya da şəhvətsiz onu öpməsi ilə pozular. Çünki cinsi təmasda kişinin əsas olması bir reallıqdır.

ı. Namaz qılan bir şəxs neçə rükət namaz qıldığı barədəki suala cavab olaraq, bir əlinin iki və ya üç barmağı ilə işarə edərsə, namazı pozulmaz.

4. Qibləyə arxa çevirmək: hənəfi və şafeilərə görə, namazda ikən üzrsüz qibləyə arxa çevirmək namazı pozar. Üzr səbəbilə arxasını qibləyə tərəf döndərərsə, namazı pozulmaz. Çünki bu kimi hərəkətlər əfv olunmuşdur.

5. Ayıb yerlərinin açılması: namaz qılarkən bilərəkdən ayıb yerini açmaq və ya qadınlarda baş örtüyünün külək və digər səbəblərdən sürüşməsi nəticəsində başın açılması və bir rüknü yerinə yetirəcək qədər açıq qalması namazı pozar. Hənəfilərə görə, ayıb yerinin ən az dörddə birinin açılması namazın pozulması üçün kifayətdir.

6. Namaz qılanın dəstəmazının pozulması: namaz qılan burun qanaması və ya qaytarma kimi qeyri-ixtiyari dəstəmazı pozan hər hansı bir şeyin baş verməsi nəticəsində sərbəstdir. Belə ki, istər dəstəmaz alıb namazı yenidən qılar və əfzəl olan budur, istərsə də namaza aid olmayan bir şey ilə məşğul olmadan ən yaxın məsafədəki su ilə dəstəmaz alar, təkbaşına namaz qılırdısa dəstəmaz aldığı yerdə və ya namaza başladığı yerdə namazının qalan hissəsini tamamlayar. Əgər camaatla namaz qılar və namaz da başa çatarsa, təkbaşına namaz qılan kimi davam edər. Həmin şəxs dəstəmaz almaq üçün yaxın yeri qoyub uzağa gedərsə və ya gedib gələrkən Quran oxuyarsa, ya da həmin müddətdə ayıb yeri açılarsa, artıq namazı tamamlaya bilməz, yenidən qılmalıdır.

İPƏKYOLU NƏŞRİYYATI

Namazı pozulan bir imamın öz yerinə başqasını keçirməsi caizdir. Bu mövzuda icma vardır. Belə ki, bir imam hər hansı bir səbəbdən dəstəmazı pozularsa, camaatdan imamlığa layiqli birisini işarə ilə və ya tutaraq mehraba keçirməlidir. İmam ilə birlikdə yalnız bir nəfər olarsa və həmin şəxs imamlığa layiq olarsa, mehraba keçməlidir. İmam yerinə başqasını keçirmədən məsciddən çıxarsa və ya səhrada olarsa cərgələrdən uzaqlaşsa camaatın namazı pozulur və imam təkbaşına namaz qılan kimi olar. Ya dəstəmaz alıb namazın qalan qismini tamamlayar, ya da namazını təzədən qılar. Əgər imamın arxasındakı camaat bu hallardan xəbərsiz olsa, imamın yerinə başqasını keçirməyib namazın təzədən qılınması məqsədəuyğundur. Əks təqdirdə camaat arasında çaşbaşlıq yaranmış olar.

Hənəfilər görə, axırıncı oturmada təşəhhüd miqdarı oturduqdan sonra dəstəmaz qeyri-ixtiyari pozularsa namaz məqbuldur. Digər üç məzhəbə görə, salam namazın fərzlərindən olduğu üçün axırıncı oturmada təşəhhüd miqdarı oturmaq namazı tamamlamaq üçün kifayət deyil.

7. Bərkdən gülmək: namaz qılanın özünün eşidəcəyi qədər bir səslə gülməsi yalnız namazı pozar, yaxınlığındakıların eşidəcəyi qədər bərkdən gülməsi isə dəstəmazını da pozar. Lakin təbəssüm namazı pozmaz. Hənəfilər istisna olmaqla üç məzhəbə görə isə, bərkdən gülmək yalnız namazı pozar, dəstəmazı pozmur.

8. Ürəkgetmə, ruhi xəstəlik və ya ölmək: bu kimi hallarda iradə mövcud olmadığı üçün namaz pozulur.

9. Namazda ikən niyyət dəyişdirmək: namaz qılınan bir namazdan başqa bir namaza keçməyə niyyət edib təkbir alınmaqla əvvəlki namazı pozulmuş olur. Məsələn, günorta namazının bir rükəti qılındıqdan sonra təkbir alaraq ilkindi namazına və ya nafilə namaza keçilərsə, ilk başlanan günorta namazı pozular. Bir şəxs bir namazın fərzini təkbaşına qılmağa başlayarsa, daha sonra imamın başladığı namaza tabe olmağa niyyət edərək təzədən təkbir gətirsə və ya başladığı namazda qadınlara imam olmağa niyyət edərsə, başladığı birinci namaz fasid olar, ikinci namaza başlamış sayılar.

10. Namazın bir şərt və ya rüknünü üzrsüz tərk etmək: namazın bir rüknünü qəza etmədən tərk etməklə namaz pozulur. Namazın bir rükətinin səcdəsini tərk etmək və bunu qəza etmədən salam vermək kimi. Həmçinin namazın şərtlərindən birini üzrsüz tərk etməklə namaz pozulur. Ədəb yerini örtən paltar tapa bilməmə, bədəndəki nəcisi təmizləyəcək qədər suyun olmaması və ya qiblə tərəfə çevrilə bilməyəcək dərəcədə xəstə olma kimi üzrlər olmadıqda, bu şərtləri tərk etməklə namaz pozulur.

11. Bir rüknü imamdan əvvəl etmək: bir şəxs səhvən də olsa bir rüknü imamdan əvvəl edərsə, həmin rüknü imamla birlikdə və ya imamdan sonra təkrarən etməz və imamla birlikdə salam verərsə, namazı fasid olar. Lakin imamla birlikdə və ya imamdan sonra yenidən yerinə yetirər və imamla birlikdə salam verərsə namazı pozulmaz.

Şafeilərə görə, unutma kimi üzr olmadan iki rüknü imamdan əvvəl etməyincə imama tabe olanın namazı pozulmaz.

12. Arada boşluq olmadan kişinin qadınla eyni cərgədə namaz qılması: aralarında namaz qılınacaq qədər məsafə olmadan və ya pərdə, divar və bu kimi maneələr olmadan kişilərin qadınlarla eyni cərgədə namaz qılmaları namazı pozan hallardandır.

13. Təyəmmümlə namaz qılanın suyu görməsi: təyəmmümlə namaz qılanın istifadə edəcəyi qədər su tapması (görməsi) ilə namazı pozulur. Məsələn namaz əsnasında suyun gəldiyini görən şəxs kimi. Lakin hənəfilərə görə, axırıncı oturmada təşəhhüd miqdarı oturduqdan sonra suyun tapılması namazı pozmur. Çünki artıq namaz tamamlanmış hesab olunur.

14. Namaz tamamlanmadan bilərək salam vermək: dörd rükətli namazı bilmədən iki rükət sanaraq birinci oturmanın sonunda salam verən şəxsin namazı pozulur. Yatsı (işa) namazının fərzini təraveh, günortanın fərzini cümə və ya sübh namazı sanaraq birinci oturmada salam vermək kimi. Ancaq namazın dörd rükətli olduğunu və hansı namazı qıldığını bilərək səhvən birinci oturmadan sonra salam verilərsə

İPƏKYOLU NƏŞRİYYATI

namaz pozulmaz. Salamdan sonra əməli-kəsir etmədikcə və ya danışmadıqca namazın geri qalan qismi tamamlanar və gecikdirildiyi üçün də səhv səcdəsi edilər.

15. Qeyri-ixtiyari şeylərlə namazın pozulması: sübh namazını qılarkən günəşin doğması, bayram namazını qılarkən zaval vaxtının və ya cümə namazını qılarkən ilkindi namazı vaxtının girməsi ilə namaz pozulur. Lakin günorta namazını qılarkən ilkindi vaxtının girməsi ilə günorta namazı pozulmaz. Məst üzərinə məsh edən şəxs namaz qılarkən məsh müddəti qurtarsa, namazı pozular. Bu müddət müqim (səfərdə olmayan) üçün bir gün yolçu üçün üç gündür.

İPOKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Namazı tərif edərək fərz olması ilə bağlı ayələri söyləyin.
2. Namaz qılarkən yerinə yetirilməsi məcburi olan əməllər hansılardır?
3. Namazın digər ibadətlərdən üstün olan cəhətləri hansılardır?
4. Namaz qılmadan qəlb təmiz ola bilərmi?
5. Namazın cəmiyyət üçün hansı faydaları var?
6. Namazın şərtləri və rüknləri hansılardır?
7. Namaza necə niyyət edilir?
8. Tam bir namaz necə qılınır?
9. Namazda məkruh olan hallardan 10 dənəsini deyin.
10. Camaatla namaz qılarkən qabaq cərgədəki boşluğa doğru getmək namazı pozmur. Bunun səbəbini izah edin.

İPOKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Qunut		*Namaza "Allahu əkbər" deyə başlamaq*
2	Təhrimə təkbiri		*Rüknləri edərkən üzvləri tam rahatlatmaq*
3	Qiraət		*Namaz qılarkən fərz olan son oturuş*
4	Qədeyi-üla		*Namaz qılınanın Kəbə istiqamətinə yönəlməsi*
5	Tədili-ərkan	**1**	*Vitr namazının 3-cü rükətində rükudan əvvəl oxunan dua*
6	İsqbali-qiblə		*Xəfif səslə və ya cəhri Quran oxumaq*

SƏHV-DÜZ

1. ( ) Qiblədə səhv etdiyini anlayanın namazını pozmadan həmin anda qibləyə çevrilməsi kifayətdir.

2. ( ) Sübh namazının Sünnəsini qılarkən gücü çatan kəs ayağa qalxıb qiyam etməsə belə namazı səhih olar.

3. ( ) Yeni yağmış qarın üstünə səcdə edildikdə yerin sərtliyi hiss olunmazsa, səcdə caiz olmaz.

4. ( ) İmama tabe olanın qiraət etməsinə ehtiyac yoxdur.

5. ( ) Günorta və ilkindi namazlarının bütün rükətlərində, axşam namazının son rükətində və yatsı namazının son iki rükətində imamın qiraəti yavaşdan oxuması sünnədir.

6. ( ) Namaz qılan bir insanın böyük günahları əfv olunur.

7. ( ) Mükəlləf işlərinin çoxluğu ucbatından namazı vaxtında qılmaq məcburiyyətində deyil, vaxt tapanda qıla bilər.

8. ( ) İlkindinin fərzindən sonra qəza namazı qılına bilər.

9. ( ) Ayaqyolu üçün tələsən adam namaz qıla bilər.

10. ( ) Qadın saçları və ayaqları örtülü olmadan namaz qılarsa, namazı səhihdir.

11. ( ) Quranda olmayan bir kəlmə namazda səhvən ağızdan çıxarsa, namaz pozular.

12. ( ) Namazda bədən və paltar ilə oynamaq, boynunu çevirərək baxmaq məkruhdur.

13. ( ) Namazda ikən yanındakının eşidəcəyi qədər bərkdən gülmək həm namazı, həm də dəstəmazı pozur.

14. ( ) Səcdəyə gedərkən sıra ilə dizləri, əlləri, üzü yerə qoymaq, qalxarkən də bunun ziddini etmək Sünnədir.

15. ( ) Namazda iki səcdə arasında oturmaq fərzdir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Salam verərkən başını əvvəlcə sağ tərəf çevirmək	
Niyyət etmək, hansı namazı qıldığını bilmək	*Fərz*
“Fatihə” surəsini hər rükətdə oxumaq	
Gözəl, düzgün paltarla namaz qılmaq	
Oturuşlarda əttəhiyyatu duasını oxumaq	
Səcdədə ayaq barmaqlarını qiblədən çevirmək	
Təkbirlərdə kişilərin əllərini qulaq tərəfinə qaldırması	

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

VIII BÖLMƏ

NAMAZ VAXTLARI VƏ NAMAZLARIN QILINIŞI

MÖVZULAR

A. NAMAZIN NÖVLƏRİ

B. BEŞ VAXT NAMAZ VƏ QILINMA QAYDASI

C. CÜMƏ NAMAZI VƏ QILINMA QAYDASI

D. CƏNAZƏ NAMAZI VƏ QILINMA QAYDASI

E. BAYRAM NAMAZLARI VƏ QILINMA QAYDASI

F. TƏRAVEH NAMAZI VƏ QILINMA QAYDASI

G. NAFİLƏ (RƏĞAİB) NAMAZLAR

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Bir müsəlman bütün namazları qılmaq məcburiyyətindədirmi? Namaz növlərini söyləyərək sinifdə müzakirə edin.
2. Cümə və bayram namazları nə üçün toplu qılınır? Dini və sosial təsirlərini araşdırın.
3. İftar yeməyi ilə təraveh namazı arasındakı münasibət nədir? Bunu araşdırın.
4. Ölənlər üçün yerinə yetirilən vəzifələr hansılardır? Fikirləşin, araşdırın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. NAMAZIN NÖVLƏRİ

Namazlar fərz, vacib və nafilə olmaqla üç növdür.



İPƏKYOLU NƏŞRİYYATI

I. Fərz namazlar və növləri

Fərz namazlar iki qisimdir:

1. Fərzi-eyn olan namazlar: beş vaxt namazların fərzləri, bunlar qəzaya qalmışsa, qəzaları ilə cümə namazı fərzi-eyn olan namazlardır. Cümə namazı yalnız kişilərə fərzdir.

2. Fərzi-kifayə olan namaz: cənazə namazı fərzi-kifayə olan namazdır.



BİLGİ QUTUSU

خَمْسُ صَلَوَاتٍ كَتَبَهُنَّ اللَّهُ عَلَى الْعِبَادِ فَمَنْ جَاءَ بِهِنَّ لَمْ يُضَيِّعْ مِنْهُنَّ شَيْئًا اسْتِخْفَافًا بِحَقِّهِنَّ كَانَ لَهُ عِنْدَ اللَّهِ عَهْدٌ أَنْ يُدْخِلَهُ الْجَنَّةَ

(Nəsai, Səlat, 6)

II. Vacib namazlar və növləri

Vitr namazı ilə bayram namazları vacib olan namazlardır.

Vitr namazı üç rükət qılınır. Bu namaza "səlati-vitr" deyilməsinin səbəbi tək rükətli qılınmasından ötrüdür. Bu namaz Ramazanda təraveh camaatla qılındıqdan sonra camaatla qılınır, digər vaxtlarda yatsı namazından sonra təkbaşına qılınır.

Ramazan və qurban bayramları namazlarının hər biri iki rükət qılınır. Cümə namazı fərz olan kişilər bayram namazından da məsuldurlar. Cümə və bayram namazları yalnız camaatla qılına bilər.

Bundan başqa, başlanıb bitirilmədən pozulmuş hər bir nafilə namazla qılınması əhd edilmiş nəzir namazlar da vacib namazlardır.

İPƏKYOLU NƏŞRİYYATI

III. Nafilə namazlar və növləri

Nafilələr "rəvatib (sünnə) və rəğaib (müstəhəb)" olmaqla iki qisimir.

1. Rəvatib namazlar (sünnə namazlar): beş vaxt namazların fərzlərindən əvvəl və ya sonra qılınan müəkkəd və qeyri-müəkkəd olan sünnə namazlardır. Sübh, günorta və axşam namazlarının sünnələri, yatsı namazının son sünnəsi və təraveh namazı "sünneyi-müəkkədə", ilkindinin və yatsının ilk sünnələri isə "sünneyi-qeyri-müəkkədə" olan namazlardır.

Ən güclü rəvatib sünnə isə sübh namazının sünnəsidir.

Günorta və yatsı namazlarının fərzindən sonra qılınan iki rükət sünnələri dörd rükət qılmaq, axşam namazının iki rükət sünnəsindən sonra nafilə namaz qılmaq məndubdur.

Hənəfi məzhəbinə görə, qəzaya qalmış namazları olanların belə rəvatib sünnələri tərk etməsi düzgün deyil.

2. Rəğaib namazlar (müstəhəb namazlar): yuxarıda qeyd edilən sünnələrdən başqa qalan və tətəvvü də deyilən müstəhəb və ya məndub növündən olan namazlardır. Bu namazlar xalq arasında nafilə namazlar kimi bilinir. Bunlar beş vaxt namaza bağlı olmayıb digər zamanlarda savab qazanmaq məqsədilə qılınan namazlardır. Təhəccüd namazı və züha namazı kimi.

B. BEŞ VAXT NAMAZ VƏ QILINMA QAYDASI

1. Sübh (fəcr) namazı

Sübh namazının iki rükət sünnəsini qılmaq üçün: "Niyyət etdim bugünkü sübh namazının sünnəsini qılmağa", - deyərək, niyyət edər və əllərin baş barmaqları qulaqlarının yumşağına tərəf qaldırıb: "Allahu əkbər", - deyərək təkbir alar.

Bundan sonra əlləri bağlayıb "Sübhanəkəllahummə və bi hamdik və təbərakəsmuk və təalə cədduk və lə iləhə ğayruk" duasını oxuyar və "əuzu billəhi minəşşeytanirracim (ilahi rəhmətdən qovulmuş şeytandan Allaha sığınıram)-bismilləhirrahmənirrahim (mərhəmətli, rəhmli Allahın adı ilə)" deyər və "Fatihə" surəsini oxuyar, sonra "amin (Allahım qəbul et!)" deyər və yenə müəyyən qədər Quran oxuyar. Sözügedən müəyyən miqdar ilə ən az bir surə və ya üç qısa ayə, yaxud da üç qısa ayə qədər bir ayə nəzərdə tutulur.

Bundan sonra "Allahu əkbər" deyərək rükuya gedər, burada ən az üç dəfə "Sübhanə rabbiyəl-azim (Uca Rəbbimi bütün nöqsan vəsflərdən uzaq tuturam)" deyər. Sonra "səmiallahu limən hamidəh (Allah, özünə həmd edən qulunu eşitdi)" deyərək doğrulub dik durar və "Allahummə Rabbənə ləkəl-hamd (Allahım, həmd sənə məxsusdur !)" deyər, bundan sonra "Allahu əkbər" deyərək səcdəyə gedər, səcdədə üç dəfə "Sübhanə rabbiyəl-ələ (ən Uca olan Rəbbimi bütün nöqsan vəsflərdən uzaq tuturam)" deyər, sonra "Allahu əkbər" deyərək durar, bir təsbeh miqdarı oturub, yenə "Allahu əkbər" deyərək ikinci səcdəyə gedər, burada da üç dəfə "Sübhanə rabbiyəl-ələ" deyər. Beləliklə də, bir rükət tamamlanmış olar.

İkincə səcdədən sonra "Allahu əkbər" deyilərək ikinci rükətə durulur. Ayaq üstə durarkən yalnız Bəsmələ ilə "Fatihə" və müəyyən qədər də Quran oxuyar, birinci rükətdə olduğu kimi rüku və səcədələrə gedilir, ikinci səcdədən sonra oturulur ki, bu, iki rükətli bir namazda son oturmadır. Burada təhiyyat, səlli -barik və "Rabbənə ətinə fiddunyə hasənətən…" duaları axıra kimi oxunar, sonra "əs-sələmu aleykum və rahmətullah (Allahın salamı və rəhməti sizə olsun)" deyərək sağ tərəfə, sonra da yenə "əs-sələmu aleykum və rahmətullah" deyərək sol tərəfə üzü çevirib salam verilir. Bununla sağ və sol tərəfdə olan möminlərə, mələklərə və mömin cinlərə salam verilmiş olur. Beləliklə də, iki rükətli bir namaz başa çatmış olur.

İPƏKYOLU NƏŞRİYYATI

Kərahət vaxtı Günəşin çıxdığı an, zenitdə olduğu an və batdığı andır. Bu vaxtlarda namaz qılınmaz.

Yatsı namazının vaxtdı sünnə, mübah və məkruh olmaqla üç yerə ayrılır. Ən fəzilətlisi sünnə olan vaxtda qılmaqdır.



Sübh namazının vaxtıdır
Günorta namazının vaxtıdır
İlkindi namazının vaxtıdır
Axşam namazının vaxtıdır
Yatsı namazının vaxtıdır

Kərahət vaxtıdır (45 dəqiqə)
(Heç bir namaz qılınmaz {ilkindi namazından sonrakı kərahət vaxtında ilkindinin fərzi qılına bilər.})

Sübh namazı və ilkindi namazı vaxtında həmin namazların sünnəsi istisna olmaqla, nafilə və qəza namazı qılınmaz. Digər vaxtlarda qılına bilər.

Gün ərzində vaxtı bəlli olan nafilə namazlar:

- İşraq namazı
- Duha namazı
- Əvvabin namazı
- Təhəccüd namazı

Yuxarıda qeyd edilən bütün təkbirlər, təsbeh və qiraətlər gizlin, yəni namaz qılanın özünün eşidə bildiyi bir səslə oxunur.

Namazda kişilərlə qadınların əllərini qaldırma, bağlama tərzi, rüku ilə səcdələrdə və oturmalardakı oturuş tərzi “Namazın Sünnələri və ədəbləri” mövzularında izah olunmuşdur.

Sübh namazının iki rükət fərzi isə aşağıdakı kimi qılınır:

Əvvəlcə kişilərə məxsus olaraq iqamə oxunar, sonra “bugünkü sübh namazının fərzini qılmağa” deyərək niyyət edilir və əllər qulaqlara qədər qaldırılaraq “Allahu əkbər” deyərək namaza başlanır və sübh namazının Sünnəsindəki kimi qılınaraq tamamlanır. Ancaq sübh namazının fərzində “Fatihə”dən sonra bir az çox Quran oxunması Sünnədir. Bu Sünnənin ən az miqdarı qırx ayədir. Bununla belə üç qısa ayə miqdarı oxunması da caizdir. Vaxtın çıxmasından qorxulduğu təqdirdə az ayə oxunar. Hətta yalnız “Fatihə” ilə və ya bir neçə ayə ilə də kifayətlənmək olar. Əbu Hənifəyə görə, fərz olan qiraətin minimum həddi altı hərfli bir ayədir. “Summə nəzara (sonra baxdı)” və “ləm yəlid (doğmadı)” ayələrində olduğu kimi.

Təkbaşına namaz qılan, bu fərzi qılarkən təkbirləri, “Fatihə”ni, əlavə oxunan surə və ya ayələri və “səmiallahu limən hamidəh” cümləsini bərkdən oxuya bilər.

2. Günorta (zöhr) namazı

Günorta namazının ilk dörd rükət Sünnəsinin ilk iki rükəti tamamilə sübh namazının iki rükət Sünnəsi kimi qılınır. Ancaq burada “Bugünkü günorta namazının Sünnəsinə” deyərək niyyət edilir və buradakı ikinci rükəttən sonrakı oturma, son oturma deyil, ilk oturma olduğundan bu oturmada yalnız “təhiyyat”

İPƏKYOLU NƏŞRİYYATI

oxunur, sonra "Allahu əkbər" deyərək üçüncü rükətə durulur, Sübhanəkə oxunmadan yalnız bəsmələ ilə "Fatihə" və bir az da Quran oxunaraq, yenə yuxarıda qeyd edildiyi kimi rüku və səcdələrə gedilər, bundan sonra dördüncü rükət üçün "Allahu əkbər" deyilərək ayağa durar, burada da yalnız bəsmələ ilə "Fatihə" və bir az da Quran oxunaraq, yenə qeyd edildiyi tərzdə rüku və səcdələrə gedilir, bundan sonra oturulur və bu son oturmadır. Burada "təhiyyat" ilə "salli-barik" və "Rabbənə ətinə…" duaları axıra kimi oxunub hər iki tərəfə də salam verilir. Beləliklə də, bu dörd rükət Sünnə başa çatmış olur.

Günorta namazının dörd rükət fərzi isə belə qılınır: Sünnədən sonra, namaza zidd hər hansı bir şey ilə məşğul olmadan ayağa qalxılar, iqamə oxunar. "Bugünkü günorta namazının fərzini qılmağa" deyərək niyyət edilir və əllər təkbir üçün qaldırılıb "Allahu əkbər" deyilir, ilk iki rükəti sübh namazının iki rükət fərzi kimi qılınır. Ancaq bu iki rükətdən sonrakı oturma, ilk oturma olduğundan burada yalnız "təhiyyat" oxunur, bundan sonra "Allahu əkbər" deyilərək üçüncü rükətə qalxılır, yalnız bəsmələ ilə "Fatihə" oxunaraq, rüku və səcdələrə gedilər, yenə bəsmələ ilə "Fatihə" surəsi oxunaraq rüku və səcdələrə gedilər. Bundan sonra oturulur və bu son oturmadır. Burada "təhiyyat" ilə "salli-barik" və "Rabbənə ətinə…" duaları axıra qədər oxunub hər iki tərəfə salam verilir. Beləcə fərz də başa çatmış olur.

Günorta namazının fərzində oxunan ayələr, sübh namazında oxunan ayələrdən daha az olur.

Günorta namaznın son iki rükət Sünnəsi isə, "bugünkü günorta namazının son Sünnəsini qılmağa" deyərək niyyət edilib tamamilə sübh namazının iki rükət Sünnəsi kimi qılınır. Həmçinin bu son Sünnəni dörd rükət olaraq qılmaq da müstəhəbdir. Dörd rükət olaraq qılındıqda ya hər iki rükətdə bir salam verilir, yaxud da dörd rükətin axırında salam verilir. Belə olan təqdirdə, birinci oturmada "Rabbənə atinə…" duası oxunmaz, "təhhiyyat" və "salli-barik" duaları oxunur, üçüncü rükət üçün təkbir alınaraq ayağa qaxılınca yenə "sübhanəkə" oxunur və bu son iki rüklət də əvvəlki iki rükət kimi qılınır.

Təkbaşına namaz qılan, günorta namazının həm Sünnəsində, həm də fərzində gizlin oxuyar.

3. İlkindi (əsr) namazı

İlkindi namazının dörd rükət Sünnəsi, müəkkəd olmayan Sünnədir. Hər iki rükəti ayrı namaz kimidir. Bu səbəbdən dörd rükətdən hər iki rükətlik qismi sübh namazının iki rükət Sünnəsi kimi qılınır. Əvvəlcə "bugünkü ilkindi namazının Sünnəsini qılmağa" deyərək niyyət edilir. Bu namazın ilk iki rükəti sübh namazının Sünnəsi kimi qılınaraq oturulur və bu son oturma deməkdir. Bu səbəbdən burada "təhiyyat" ilə birlikdə "salli-barik" duaları da oxunur, ancaq "Rabbənə ətinə…" duası oxunmaz. Sonra "Allahu əkbər" deyərək üçüncü rükətə qalxılır. "Sübhanəkə" ilə "əuzu-bəsmələ"dən sonra "Fatihə" və bir az da Quran oxunaraq rüku və səcdələrə gedilir. Bundan sonra təkbir ilə dördüncü rükətə qalxılaraq yalnız "bəsmələ" ilə "Fatihə" və bir az da Quran oxunur. Sonra yenə rüku və səcdələrə gedirlir. Bundan sonra oturulur və bu son oturmadır. Burada "təhiyyat" ilə "salli-barik" və "Rabbənə ətinə…" duaları axıra kimi oxunaraq hər iki tərəfə də salam verilir.

İlkindi namazının fərzinin qılınışı tamamilə günorta namazının fərzi kimidir. Ancaq niyyət fərqli olur, belə ki, "bugünkü ilkindi namazının fərzini qılmağa" deyə niyyət edilir.

Təkbaşına namaz qılan, ilkindi namazının Sünnəsini və fərzini günorta namazı kimi gizlin oxuyaraq qılar.

4. Axşam (məğrib) namazı

Axşam namazının üç rükət fərzi, günorta və ilkindi namazlarının ilk üç rükət fərzləri kimi qılınır. Belə ki, "bugünkü axşam namazının fərzini qılmağa" deyərək niyyət edilib namaza təkbir ilə başlanılır. Yuxarıda açıqlanan tərzdə ilk iki rükət qılınaraq oturulur və bu birinci oturmadır. Burada yalnız "təhiyyat" oxunur. Sonra üçüncü rükətə qalxılaraq yalnız "bəsmələ" ilə "Fatihə" oxunur, sonra "Allahu əkbər"

İPƏKYOLU NƏŞRİYYATI

deyilərək rüku və səcdələrə gedilir. Bundan sonra oturulur və bu son oturmadır. Burada "təhiyyat" ilə "salli-barik" və "Rabbənə ətinə…" dualarını oxuduqdan sonra hər iki tərəfə salam verilir.

Axşam namazının fərzində vaxtın darlığından ötrü qısa surələr oxunur.

Axşam namazının Sünnəsinin qılınışı: Burada da "bugünkü axşam namazının Sünnəsini qılmağa" deyərək niyyət edilib tamamilə sübh namazının Sünnəsi kimi qılınır. Həmçinin bu Sünnəni altı rükət olaraq qılmaq isə müstəhəbdir. Belə olan təqdirdə bir, iki və ya üç salamla qılınır. İki rükətdən bir salam verilərsə, hər iki rükət sübh namazının Sünnəsi kimi qılınır. Bununla birlikdə dörd rükətdə bir salam verilib ilkindi namazının Sünnəsi kimi də qılına bilər. Sözügedən bu əlavə dörd və ya altı rükətli namaza "əvvabin namazı" deyilir.

Təkbaşına namaz qılan, axşam namazının fərzini də sübh namazının fərzi kimi bərkdən oxuya bilər.

5. Yatsı (işa) namazı

Yətsı namazının ilk dörd rükət sünnəsi müəkkəd olmayan sünnələrdəndir və tamamilə ilkindi namazının dörd rükət Sünnəsi kimi qılınır. Dörd rükət fərzi də tamamilə günorta və ilkindi namazlarının fərzləri kimi qılınır. İki rükət son sünnəsi isə tamamilə sübh namazının və axşam namazının iki rükət sünnələri kimi qılınır. Bunlarda yalnız niyyətlər dəyişir, yatsı namazının fərzinə və ya sünnələrinə niyyət edilir.

Yatsı namazının axırıncı Sünnəsi də dörd rükət olaraq qılına bilər. Belə olduqda ilkindi namazının dörd rükət Sünnəsi kimi qılınır. Bununla belə iki rükətdən bir salam vermək surəti ilə də qılına bilər və hər iki rükət ayrı namaz olduğu üçün oturmalarda "təhiyyat", "salli-barik" və "Rabbəna" duaları oxunur. Gecə qılınan nafilə namazlarda ən yaxşısı da bu tərzdə iki rükətdən bir salam verməkdir.

Təkbaşına namaz qılan yatsı namazının fərzini bərkdən oxuyaraq da qıla bilər.

Günorta və gecə namazını özbaşına qılan, daha sonra camaata qıldıran imama tabe ola bilər. Belə olduqda camaatla qıldığı namazı nafilə olur və camaat savabı alması ümid edilir. Çünki bu namazlardan sonra nafilə qılmaq caizdir. Sübh, ilkindi və axşam namazlarını özbaşına qılanın daha sonra camaata qıldıran imama tabe olması isə caiz olmaz. Çünki imamla birlikdə ikinci dəfə qılınan bu namazlar nafilə hökmündə olur. Sübh və ilkindi namazından sonra nafilə namaz qılmaq məkruh olduğu kimi, axşam namazına oxşar üç rükətli nafilə namaz yoxdur. Bununla birlikdə günorta namazını evində qılan və daha sonra bu namazı camaata qıldırarkən Hz. Mühəmmədin (s.ə.s) yanına gəlib ona tabe olmayan səhabəyə Allah Rəsulu belə buyurmuşdur: *"Bizim yanımıza gəldiyin halda sənə bu namazı qılmağa mane olan nədir?"* (İbn Hənbəl, IV, 215)

Vitr namazı

Vitr ərəb dilində cütün ziddi olan "tək" mənasına gəlir. Hz. Peyğəmbər günün qılınan son namazının tək (vitr) olmasını tövsiyə və təşviq etmiş və bu namazı oyanacağından əmin olanın, sübh namazının vaxtının girməsindən bir az əvvəl, gecə oyana bilməyəcəyindən əmin olmayanın isə yatsı (işa) namazından sonra, yatmadan əvvəl qıla biləcəklərini bildirmişdir. Şafei, Malik və Əhməd ibn Hənbələ görə, sübh namazını qılmadığı müddətcə vitr namazı fəcrdən sonra da qılına bilər.

Hənəfilikdə vitr namazı axşam namazı kimi bir salamla qılınır və üç rükətdən ibarətdir. Axşam namazından fərqi, bunun hər rükətində "Fatihə" və ardından bir surə və son rükətdə rükudan əvvəl təkbir alınaraq "qunut duası" oxunmasıdır. Qunut duası oxumaq Əbu Hənifəyə görə vacib, Əbu Yusif və İmam Məhəmmədə görə isə sünnədir.

Malikilərə görə, vitr namazı bir rükətdir. Yatsı namazının fərzindən sonra iki rükət Sünnə qılınır, salam verdikdən sonra buna bir rükət də vitr namazı əlavə olnur. Hənbəlilərə görə isə, vitr bir rükətdir, ancaq üç və ya daha çox rükət vitr qılınarsa, bunda da hər hansı bir problem yoxdur.

İPOKYOLU NƏŞRİYYATI

Şafeilərə görə, vitrin ən azı bir rükət, ən çoxu isə on bir rükətdir. Bir rükətdən çox qılındığı təqdirdə əvvəlcə iki rükətə niyyət olunur və salam verilir. Sonra vitrdən bir rükətə niyyət edilib salam verilir.

Hz. Ömər ilə oğlu Abdullahdan (r.ənhüma) rəvayət edilən, hənəfi və malikilər tərəfindən qəbul edilən qunut duası aşağıdakı kimidir:

أَللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَنَسْتَغْفِرُكَ وَنَسْتَهْدِيكَ وَنُؤْمِنُ بِكَ وَنَتُوبُ اِلَيْكَ وَنَتَوَكَّلُ عَلَيْكَ وَنُثْنِي عَلَيْكَ

الْخَيْرَ كُلَّهُ نَشْكُرُكَ وَلَا نَكْفُرُكَ وَنَخْلَعُ وَنَتْرُكُ مَنْ يَفْجُرُكَ.

أَللَّهُمَّ إِيَّاكَ نَعْبُدُ وَلَكَ نُصَلِّي وَنَسْجُدُ وَاِلَيْكَ نَسْعىَ وَنَحْفِدُ نَرْجُو رَحْمَتَكَ وَنَخْشَى عَذَابَكَ إِنَّ

عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ.

Allahummə innə nəstəinukə və nəstəğfirukə və nəstəhdik, və numinu bikə və nətubu ileykə və nətəvəkkəlu aleykə və nusni aleykəl-xayra kulləhu nəşkurukə və lə nəkfuruk, və nəxləu və nətruku mən yəfcuruk.

Allahummə iyyəkə nəbudu və ləkə nusalli və nəscudu və ileykə nəsa və nəhfidu nərcu rahmətəkə və nəxşə azəbəkə, innə azəbəkə bil-kuffəri mulhiq.

Mənası: “Allahım! Biz şübhəsiz Səndən kömək və bağışlanma diləyir, Səndən hidayət istəyirik. Səni təsdiq edir, günahlarımıza tövbə edir, Sənə təvəkkül edirik. Səni bütün xeyirlərlə uca tutaraq zikr edir, neməti etiraf edərək sənə şükür edirik. Səni əsla inkar etmərik. Sənə üsyan edənləri rədd edir, tərk edir və onlarla əlaqələrimizi də kəsirik. Sənin razılığına və qulluğuna nail olmaq üçün səy göstəririk. Sənin mərhəmətini ümid edir və əzabından qorxuruq. Şübhəsiz ki, Sənin əzabın kafirlərə çatacaqdır”.

Qunut duasını oxuya bilməyənlər “Rabbənə ətinə...” duasını oxuyar və ya üç dəfə “Allahumməğfir li (Allahım, məni bağışla!)”, yaxud üç dəfə “Yə Rabbi (Ey Rəbbim)” deyər.

C. CÜMƏ NAMAZI VƏ QILINMA QAYDASI

I. Cümənin fəziləti və hikməti

Cümə namazı Hz. Mühəmməd əleyhissalamın Mədinəyə hicrəti ərəfəsində Mədinə yaxınlarındakı Ranuna vadisində olduğu əsnada fərz buyurulmuş, ilk cümə xütbəsi də orada Bəni-Salim məscidində oxunmuşdur.

İslam müsəlmanları daim birlikdə namaz qılmağa təşviq etmişdir. Cümə namazı isə şərtlərini daşıyan bütün müsəlman kişilərə fərzdir. Azan oxunan zaman cümə namazı qılmaqla mükəlləf olanlar işlərini tərk edib məscidə getməlidirlər. Müsəlmanlar müəzzin cümə azanını oxuyanda Uca Allahın **“Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi tərk edin. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!”** (Cümə, 62/9) əmrinə tabe olurlar.

Cümə namazını qılanlar haqqında Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *“Bir kimsə gözəl bir şəkildə dəstəmaz aldıqdan sonra cümə namazına gələr, sakit duraraq xütbəni dinləyərsə, üç gün də artıqlaması ilə bu cümədən digər cüməyə qədər vaxt ərzindəki günahları bağışlanar”* (Müslim, Cümə, 8).

Cümə müsəlmanların cəmiyyətinin həftəlik bayramıdır. Bu səbəbdən Hz. Peyğəmbər (s.ə.s) cümə günü oruc tutmağı qadağan etmişdir (Buxari, Səvm, 63). Cümə namzına xüsusi əhəmiyyət vermək, yuyunub təmizlənmək, dırnaqları tutmaq, dişləri fırçalamaq, gözəl ətir sürtmək, gözəl və təmiz paltarları geyinərək

İPƏKYOLU NƏŞRİYYATI

məscidə getmək müstəhəbdir. Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Həddi-büluğa çatan hər kəsə cümə günü qüsl almaq, imkan daxilində misvaklanmaq və gözəl ətir vurmaq vacibdir"* (Buxari, Cümə, 4, 6).

II. Cümə namazının qılınma qaydası

Cümə günü günorta namazının vaxtında kəndin və ya məhəllənin ən böyük məscidində cümə namazı qılınar. Əvvəlcə dörd rükət sünnə qılıb xütbə üçün gözlənilər. Xütbə dinləndikdən sonra cümənin iki rükət fərzi camaatla qılınar. Fərzdən sonra da dörd rükət son Sünnə qılınar.

Cümənin ilk dörd rükət Sünnəsi üçün "niyyət etdim Allah rizası üçün cümə namazının ilk sünnəsini qılmağa" deyə niyyət edilər. Bu sünnə günorta namazının ilk Sünnəsi kimi qılınır. Salamdan sonra da xütbəyə qulaq asılar.

Xütbə qurtardıqdan sonra cümənin iki rükət fərzi üçün imama tabe olub "niyyət etdim cümənin fərzini qılmağa və tabe oldum imama" deyilərək təkbir alınar. Cümənin fərzi sübh namazının fərzi kimi qılınır. İmam qiraəti bərkdən edər və camaat da ona qulaq asar. Fərzdən sonra imkan daxilində fərz namazı qılınan yer dəyişdirilərək təkbaşına dörd rükət də sünnə namazı qılınar. Bunun qılınma qaydası da cümənin ilk sünnəsi kimidir. "Niyyət etdim Allah rizası üçün cümənin son sünnəsini qılmağa" deyə niyyət edilər. Cümə namazının sözügedən sünnələri müəkkəd sünnələrdir və tərk etmək düzgün deyil.

QEYD EDƏK

Cümə namazını tərk edənlər haqqında Rəsulullah (s.ə.s) mühüm xəbərdarlıqlar edərək: "*Əhəmiyyət verməyərək üç həftə cümə namazı qılmayanın qəlbini Allah-Təala möhürləyər"* (Əbu Davud, Səlat, 204) və *"Bəziləri cümə namazlarını tərk etməkdən ya vaz keçərlər, ya da Allah-Təala onların qəlblərini möhürləyər və onlar qafillərdən olarlar"*, – buyurmuşdur (Müslim, Cümə, 40).

III. Cümənin fərz və etibarlı olması üçün tələb olunan şərtlər

1. Cümənin fərz olmasının şərtləri

a. Kişi olmaq: qadınlara cümə namazı fərz deyil. Ancaq qıldıqları təqdirdə namazları səhih olub günorta namazı qılmalarına ehtiyac qalmaz.

b. Azadlıq: həbsdə və nəzarətdə olanlara cümə namazı fərz deyil.

c. Səfərdə olmamaq: yolçulara cümə namazı fərz deyil.

d. Sağlam olmaq: gəzə bilməyəcək dərəcədə yaşlı olanlara, məscidə gedə bilməyəcək qədər xəstələrə, xəstə olub çölə çıxdıqda xəstəliyin artması, ağır xəstələrə baxan və cümə namazına getdiyi təqdirdə xəstənin zərərə məruz qalmasından qorxanlara cümə namazı fərz deyil.

e. Məscidə getməyə mane olan bir vəziyyət olmamalı: görmə qabiliyyətini itirənlər, iflic olanlar, ayaqları olmayanlar cümə namazından məsul deyillər. Şiddətli qar, yağış və s. kimi pis hava şəraitinə görə evdən çıxıb məscidə getmək mümkün olmadığı vəziyyətlərdə cümə namazı ilə bağlı öhdəlik aradan qalxar.

f. Təhlükəsizlik: sui-qəsd qorxusu, quldur və düşmən qorxusu səbəbilə təhlükəsizliyin təmini üçün növbətçi və ya gözətçilərə cümə namazı fərz deyil.

g. Təcili yardımda işləmək: xəstəxana, yanğın söndürmə məntəqəsi və s. kimi işlərdə işləyənlər və cümə namazı vaxtında işdə olanlara cümə namazı fərz deyil.

İPƏKYOLU NƏŞRİYYATI

2. Cümənin etibarlı olmasının şərtləri

a. Cümə namazı qılınan yer müsəlmanların toplu yaşadıqları bir yer olmalıdır. Kənddən uzaqda yaylaqda yaşayanlar, köçəri həyat sürənlər öz aralarında yığışıb cümə namazı qılmamalı, cümə namazının qılındığı ən yaxın yerə getməlidirlər.

b. Cümə namazı səlahiyyətli orqan tərəfindən təyin olunan bir şəxs tərəfindən qıldırılmalıdır. Onlar da başqasına həvalə edə bilərlər. İdarəçiləri müsəlman olmayan yerlərdə də cümə namazı qılına bilər.

c. Cümə namazı günorta namazının vaxtında qılınmalıdır.

d. Cümə namazı qılınan məscid hamıya açıq olan bir məscid olmalıdır. Cümə namazı İslamın şüarlarından olduğuna görə açıq-aşkar qılınmalıdır.

e. Cümənin etibarlı olması üçün imamdan başqa ən az üç nəfər kişi olmalıdır.

f. Cümə namazının fərzindən əvvəl bir imam camaatın hüzurunda xütbə oxumalı və camaat da bu xütbəni dinləməlidir.

IV. Xütbənin şərtləri və sünnələri

1. Xütbənin şərtləri

Xütbənin rüknü Allahı səmimi-qəlbdən anmaqdır. İki rükət fərz namaz yerinə keçdiyi qəbul edilən xütbənin şərtləri isə aşağıdakılardır:

a. Cümə xütbəsi namazdan əvvəl oxunmalı və xütbə niyyəti olmalıdır.

b. Cümə vaxtında oxunmalı və ən az üç nəfər kişi həmin vaxt orada olmalıdır.

c. Xütbə ilə namaz arası bir iş ilə kəsilməməlidir. Belə ki, xütbə oxunan zaman camaat səssiz olmalı və imamın oxuduğu xütbəni dinləməlidir. Yəni, camaat namazda imiş kimi hərəkət etməli, telefonu ilə belə oynamamalıdır. Salavat gətirmək olmaz, salam vermək və almaq olmaz, asqırana yərhəmukəllah demək də olmaz. İmamın dusına bərkdən amin demək olmaz və əlini də üzünə sürtməməlidir. Camaat xütbə əsnasında diz çökərək və ya bardaş quraraq oturmalıdır. Dizləri dikib oturmaq və yaxud bir üzr olmadan ayaqları qibləyə uzadıb oturmaq olmaz.

2. Xətibin diqqət etməli olduğu sünnələr

a. Xətib xütbədən əvvəl minbər tərəfdə öz yerini tutmalıdır.

b. Minbərə çıxdıqdan sonra camaata tərəf çevrilib oturmalıdır.

c. Xətibin hüzurunda cümənin daxili azanı oxunmalı, azandan sonra xətib ayağa durmalı və hər iki xətbəni ayaq üstə oxumalıdır.

d. Birinci və ikinci xütbələrə "əlhamdülillah" kəlməsi ilə başlamalıdır. Arxasınca da şəhadət kəlmələrini söyləməli, ondan sonra isə Hz. Peyğəmbərə (s.ə.s) səlat və salam gətirməlidir.

e. Əuzu bismillah deməli və mövzu ilə bağlı ayə və hədislər oxumalı, xalqa lazımi öyüd-nəsihətlər verməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

f. Xütbənin axırını bir ayə ilə bitirməlidir.

g. Xütbəni iki hissəyə bölməli, ikisi arasında müəyyən qədər müddət oturmalı və dua oxumalıdır. İkinci xütbədə bütün müsəlman aləmi üçün dua etməlidir. Hər iki xütbəni uzatmamalıdır.

h. Xütbəni camaatın eşidəcəyi səs tonu ilə oxumalıdır.

D. CƏNAZƏ NAMAZI VƏ QILINMA QAYDASI

I. Cənazə haqqında bəzi məlumatlar

Cənazə yuyulub kəfənlənib basdırılmaq üçün hazırlanmış meyit deməkdir. Ölmək üzrə olan insan çətinlik olmadığı təqdirdə, sağ tərəfi üzrə qibləyə tərəf qoyulur. Kəlmeyi-şəhadət və kəlmeyi-tövhid təlqin olunur. Qurandan ayələr və surələr oxunur. Canını tapşırdıqdan sonra açıq qalmasın deyə çənəsi bağlanır və göz qapaqları bağlanır. Onun yanına gözəl ətirlər qoyulur. Cənazə imkan daxilində gözlədilmədən, vaxt itirilmədən dəfn edilməlidir.

II. Cənazənin yuyulması və kəfənlənməsi

Cənazə hündür bir yerə qoyulur, paltarları çıxarılıb ayıb yerləri bir parça ilə örtülür. Ağzına və burnuna su verilmədən dəstəmaz aldırılır, sonra da bütün bədəni sabunlu və ilıq su ilə yuyulur. Quru yer qoymamağa diqqət yetirilir. Sonra da cənazəni yuyan onu özü tərəfə yaslayaraq oturdar və cənazənin qarnını sığallayar, bir şey çıxtığı təqdirdə onu da yuyar. Bundan sonra bir daha dəstəmaz aldırmasına ehtiyac yoxdur. Kişini kişi, qadını da qadın yumalıdır. Cənazə yuyanlar təmiz olmalı və bu işi bacarmalıdırlar.

Cənazənin başına, saç və üzünə gözəl ətirlər vurular. Saçı və dırnaqları kəsilməz və daranmaz. Ölüyə əvvəlcə kəfən köynəyi (qəmis) geydirilməlidir. Köynək çiyinlərdən ayaqlara qədərdir. Sonra birinci qat kəfən, yəni "izar" geydirilməlidir. Bu da başdan ayağa qədərdir. Bunun da üstünə ikinci qat kəfən, yəni "lifafə" geyindirilər, sarılar. Bu da başdan ayağa qədərdir. Bundan sonra baş və ayaq hissələri bağlanır və kişinin kəfənlənməsi tamamlanmış olur.

Qadının kəfəni baş örtüyü ilə sinə örtüyü olan əlavə ilə beş parçadan meydana gəlir. Qadının saçları iki parça halında örtülür, sinə örtüyü üzərindən sinənin üstünə qoyulur. Cənazənin yuyulması və kəfənlənməsi fərzi-kifayədir.

III. Cənazə namazının şərtləri, qılınma qaydası və duaları

1. Cənazə namazının şərtləri

Vəfat edənin cənazə ilə bağlı işləri fərzi-kifayə olduğu kimi, onun namazını da qılmaq fərzi-kifayədir. Müsəlman bir şəxs vəfat etdikdə həmin bölgədəki insanların bir qismi cənazə namazını qılmalı və onun cənazəsi ilə məşğul olmalıdırlar. Uca Allah buyurur: **"Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda** (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) **mindirib sahib etdik, özlərinə** (cürbəcür nemətlərdən) **təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik"** (İsra, 17/70). Əgər mömin ölünün cənazə namazını heç kəs qılmazsa, qonşu, dost və qohumları ilə vəfatından xəbərdar olan digər müsəlmanlar günahkardırlar.

Cənazə namazı qılanlar üçün təmiz və dəstəmazlı olmaq, sətri-övrətəriayət etmək, qibləyə yönəlmək və niyyət etmək şərtdir.

Qılınacaq cənazə namazı üçün aşağıdakı şərtlər tələb olunur:

İPƏKYOLU NƏŞRİYYATI

a. Ölü müsəlman olmalıdır. Qeyri-müsəlman ilə münafiqliyi açıq-aşkar olanların cənazə namazları qılınmaz. Ayədə belə buyurulur: **"Onlardan** (münafiqlərdən) **ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər"** (Tövbə, 9/84).

b. Vəfat edən şəxs təmiz, yuyulmuş və kəfənlənmiş olmalıdır.

c. Cənazə camaatın önündə olmalıdır. Camaatın üç cərgə olması, ilk cərgələrin uzun olması müstəhəbdir.

d. Cənazə namazının qılına bilməsi üçün ölünün bədəninin hamısı, yaxud əksər hissəsi, ya da başı ilə birlikdə vücudunun yarısı olmalıdır.

e. Cənazə namazı ayaq üstə qılınmalıdır. Cənazə namazınının rüku və səcdəsi yoxdur.

f. Cənazə yerə və ya hündür bir daşın üstünə qoyulmalıdır.

g. Cənazə namazında camaat şərti yoxdur. Bir nəfərin belə qılması kifayətdir. Birdən çox cənazənin hamısına birlikdə kişilər, qadınlar və uşaqlar ayrı olmaqla cənazə namazı qılına biləcəyi kimi, bir-bir də cənazə namazları qılına bilər.

Məkruh olan üç vaxtdan savayı hər vaxt cənazə namazı qılına bilər. Cənazə namazının rüknləri dörd təkbir ilə qiyamdır. Salam vermək isə vacibdir. Digər namazları pozan hallar cənazə namazını da pozur. Cənazəni məscidin içinə qoyaraq cənazə namazını qılmaq məkruhdur. Cənazə məscidin həyətinə qoyulub camaatın bir hissəsi imamla birlikdə cənazənin yanında, bir hissəsi də məscidin içində qılsalar, məkruh olmaz.

2. Cənazə namazının qılınma qaydası və duaları

Cənazə camaatın qabağında olmalıdır. Namazı qıldıran imam ölünün sinə tərəfində dayanmalıdır. Niyyət edərkən ölünün kişi və ya qadın, oğlan və ya qız uşağı olduğunu bildirər. Camaat da niyyət edib imama tabe olar.

Əllər qaldırılaq əvvəlcə bir təkbir alınır, əllər namazdakı kimi bağlanır və "sübhanəkə" (cəllə sənaük ilə birlikdə) duası oxunur. Əllər qaldırılmadan ikinci təkbir alınır (Şafei məzhəbində əllər təkrarən qaldırılıb bağlanır.) "salli və barik" duaları oxunur. Yenə əllər qaldırılmadan üçüncü təkbir alınır və cənazə duası oxunur. Dua belədir:

أَللَّهُمَّ اغْفِرْ لِحَيِّنَا وَمَيِّتِنَا وَغَائِبِنَا وَذَكَرِنَا وَأُنْثَانَا وَصَغِيرِنَا وَكَبِيرِنَا. أَللَّهُمَّ مَنْ أَحْيَيْتَهُ مِنَّا فَأَحْيِهِ عَلَى الْإِسْلَامِ وَمَنْ تَوَفَّيْتَهُ مِنَّا فَتَوَفَّهُ عَلَى الْإِيمَانِ وَخُصَّ (هَذِهِ) هَذَا الْمَيِّتَ بِالرَّوْحِ وَالرَّاحَةِ وَالْمَغْفِرَةِ وَالرِّضْوَانِ. أَللَّهُمَّ إِنْ كَانَ مُحْسِنًا فَزِدْ فِي إِحْسَانِهِ وَإِنْ كَانَ مُسِيئًا فَتَجَاوَزْ عَنْهُ وَلَقِّهِ الْأَمْنَ وَالْبُشْرَى وَالْكَرَامَةَ وَالزُّلْفَى بِرَحْمَتِكَ يَا أَرْحَمَ الرَّاحِمِينَ

(Mənası: *Allahım! Dirimizi, ölümüzü, burada olanımızı, olmayanımızı, kişimizi, qadınımızı, kiçiyimizi, böyüyümüzü bağışla. Allahım! Aramızda yaşadacaqlarını İslam üzrə yaşat, öldürəcəklərini imanlı öldür. Bu ölüyə də yüngüllük və rahatlıq ver, onu bağışla. Allahım! Bu adam yaxşı bir kimsə idisə, Sən onun yaxşılığını artır; əgər pis bir adamdırsa, günahlarını bağışla. Onu etibar, müjdə, ikram və rəhmətinə yaxınlaşdır. Ey mərhəmət edənlərin ən mərhəmətlisi olan Allahım!)*

Əgər cənazə qadındırsa "və xussə"dən sonrakı zamirlər müənnəs oxunur. *"**Həzihil meyyitə in kənət muhsinətən fəzid fi ihsənihə və in kənət musiətən fətcəvəz an səyyiətihə və ləqqihəl-əmnə...**"* kimi.

İPƏKYOLU NƏŞRİYYATI

Bu duaları bilməyənlər münasib bir dua da oxuya bilərlər. "Rabbənə, ətinə" duası bunlardan biridir. Belə də dua etmək olar; *"**Allahummağfir li və ləhu vəlil-muminina vəl-muminət**" (Allahım, məni, bu ölünü və bütün möminləri bağışla!).*

Ruhi xəstə və kiçik uşaqlar üçün istiğfar edilməz. Çünki onların günahı yoxdur. Onlar üçün cənazə duasının "fə təvəffəhu aləl-imən" dən sonrakı yerinə bu dua əlavə edilir: "***Allahummə-calhu lənə fə-ratən, Allahummə-calhu lənə əcran və zühran, Allahummə-calhu lənə şafiən muşəffəan***" (*mənası: Allahım, Sən onu bizim üçün əvvəldən göndərilmiş bir savab vasitəsi et! Allahım, onu bizim üçün axirət sərmayəsi et! Allahım, onu bizə axirətdə sözü keçən bir şəfaətçi et!*)

Bundan sonra dördüncü təkbir alınır və hər iki tərəfə salam verilir. Cənazə namazı qılındıqdan sonra dəfn edilir və zərurət olmadıqca dəfn axşama qoyulmaz. Qəbir insanın dünyadakı həyatına görə ya cənnət bağçalarından bir bağça, ya da cəhənnəm çuxurlarından bir çuxur olur.

Şübhəsiz ki, ölüm hər kəsin başına gələcəkdir və ondan qaçınılması qeyri-mümkün olan ilahi bir qanundur. Ölünün arxasından matəm etmək, bağırıb-çığırmaq və dində icazə verilməyən hərəkətlərə yol vermək düzgün deyil. Ölünün qohumlarına təsəlli vermək və onlara baş sağlığı üçün təziyəyə getmək lazımdır.

IV. Şəhidliyin dindəki yeri və hökmləri

Şəhidlik ali dərəcədir. Allah yolunda canını fəda edən bir müsəlmana "şəhid" deyilir. Ona bu adın verilmə səbəbi cənnətlik olduğuna şahidlik edilməsi, yaxud şəhidin Allah dərgahında diri olması və ya ölüm əsnasında mələklərin şahid və hazır olmalarıdır.

Hənəfilərə görə bunlar şəhid sayılır: müharibədə düşmən tərəfindən öldürülən və ya quldurlar tərəfindən qətlə yetirilən, yaxud evinə girən oğrular tərəfindən öldürülən kəslər. Müharibədə yanıq, kəsik kimi müxtəlif yaralarla gözündən, qulağından qanlar axan vəziyyətdə ölən və ya bir müsəlman tərəfindən iti alətlə haqsız yerə qəsdən qətlə yetirilən kəs də şəhiddir.

Bununla birlikdə şəhidin müsəlman, ağlı başında və yetkinlik yaşına çatması, heyzli (aybaşı), nifaslı (zahı) və cünub olmaması, vurulduqdan dərhal sonra ölməsi də şərtdir. Bunlar həm dünya, həm də axirət baxımından şəhid sayılır və hər birinə "həqiqi şəhid" deyilir. Bunlar yuyulmaz, kəfənlənməz və paltarları ilə dəfn olunurlar. Cənazə namazları isə qılınar.

Şəhidin insanlara olan borcları istisna olmaqla bütün günahları bağışlanır. Ona cənnətdə ali dərəcə və mənsəblər bəxş olunacağı barədə ayə və hədislər vardır. Uca Allah belə buyurur: **"Allah yolunda öldürülənləri** (şəhid olanları) **heç də ölü zənn etmə! Əsil həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi** (cənnət ruzisi) **əta olunur. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə** (şəhidlik rütbəsinə) **sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış** (şəhidlik səadətinə hələ nail olmamış) **kəslərin** (axirətdə) **heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar"** (Ali-İmran, 3/169-171). Məsruq (r.ə) Abdullahdan bu ayədə qeyd olunan şəhidlər haqqında soruşmuş, o da belə cavab vermişdir: Biz də bunu Rəsulullahdan (s.ə.s) soruşmuşduq o, belə cavab vermişdi: *"Şəhidlərin ruhları yaşıl quşların qarnındadır. Onların ərşdən asılmış qəndilləri var. Cənnətdə istədikləri kimi gəzir, sonra o qəndillərə qayıdarlar"* (Müslim, İmarə, 121).

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Cənnətə daxil olan heç kim dünyadakı hər şey ona verilsə də dünyaya qayıtmaq istəməz. Lakin şəhid bundan istisnadır. O, görəcəyi ikramdan ötrü təzədən dünyaya qaytarılıb on dəfə daha öldürülməyi təvəqqe edər"* (Buxari, Cihad, 6). *"Mühəmmədin həyatı əlində olan Allaha and olsun ki, Allah yolunda savaşmaq və öldürülmək, sonra savaşmaq və yenə öldürülmək, sonra yenə savaşmaq və öldürülmək istərdim"* (Buxari, İman, 26).

Şəhidlər yuma, kəfənləmə, cənazə namazı və dəfn baxımından digər cənazələrdən fərqlənir.

Şəhid qanı yuyulmadan, sadəcə olaraq üstündəki kürk, palto, gödəkcə, silah, məst və buna oxşar şeylər çıxarılıb olduğu kimi dəfn olunur. Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Şəhidləri yumayın. Çünki hər yara və hər qan damcısı qiyamət günü ətrafa müşk qoxusu saçar"* (İbn Hənbəl, III, 299). Hz. Peyğəmbərin əmri ilə Ühüd şəhidləri yuyulmamış, qanlı patlarlarla dəfn olunmuş və onlara cənazə namazı da qılınmamışdır (İbn Hənbəl, III, 299).

Müharibə meydanında düşmən tərəfindən öldürülən şəhidlər yuyulmaz, yalnız kəfənə uyğun bir patlarla kəfənlənər. Paltar əskik olduqda tamamlanar. Sünnə olan kəfəndən çoxu da çıxarılar. Qanları ilə dəfn olunar. Hənəfilərə görə, cənazə namazı qılınar.

Cünub, heyz (aybaşı) və nifas (zahı) olanlara gəldikdə, onlar müharibə əsnasında şəhid olsalar, Əbu Hənifəyə görə, uşaq və ruhi xəstələrdə olduğu kimi yuyularlar. İstinad etdikləri dəlil Hənzələ (r.ə) ilə əlaqədar hədisdir: "Hənzələ ibn Əbu Amir (r.ə) Ühüddə şəhid olduqda Hz. Peyğəmbər (s.ə.s) belə buyurdu: "*Yoldaşınız Hənzələni mələklər yuyur"*. Arvadından soruşdular, o da onun cünub ikən qüsl almağa vaxt tapmadan orduya qoşulduğunu xəbər verdikdə, Allahın Elçisi: "*Məhz bu səbəbdən mələklər onu yudular"*,-buyurmuşdur" (Şövkani, *Neylül-övtar,* IV, 29).

Əbu Yusif və İmam Məhəmmədə görə isə, şəhid olan cünub, heyzli (aybaşı) və ya nifaslı (zahı), yaxud müsəlman uşağı da olsa yuyulmaz. Əgər yumaq fərz olsaydı, bütün Adəm övladlarına fərz olardı və mələklərin yuması kifayət olmazdı.

Hənəfilərdən başqa əksər İslam alimlərinə görə, şəhid yuyulmaz, kəfənlənməz və cənazə namazı qılınmaz. Lakin qandan başqa hər hansı kirlilik varsa, bunları yumaq kifayətdir. Çünki Cabir (r.ə) hədisində belə buyurulmuşdur: "Hz. Peyğəmbər Ühüd şəhidlərinin qanları ilə dəfn olunmalarını əmr etdi. Onları yumadı və cənazə namazlarını da qılmadı" (Buxari, Cənaiz, 72, 75, 78).

Qəlbində nifaq (münafiqliq) olmasına baxmayaraq, zahirən müharibədə müsəlmanların cərgələrində olarkən düşmən tərəfindən qətlə yetirilən yalnız dünya baxımından şəhid hesab olunur. Buna da "hökmi şəhid" deyilir. Bunlar da yuyulmaz, cənazə namazları qılınmaz və paltarları ilə dəfn olunarlar.

Bəzi şəhidlər də yalnız axirət hökmü baxımından şəhid sayılırlar. Məsələn, xəta ilə öldürülən və varislərinə diyət verilməli olan şəxs ilə müharibə və ya üsyankarlarla mübarizə apararkən yaralanıb müharibə qurtardıqdan sonra və bir az yeyib-içdikdən, danışdıqdan, yaxud yatdıqdan, ya da dərman qəbul etdikdən və ya ağlı başında olmaqla bir namaz vaxtı keçdikdən sonra vəfat edən müsəlman yalnız axirət baxımından şəhid sayılır. Bunlar digər ölülər kimi yuyulur, kəfənlənir və cənazə namazları qılındıqdan sonra dəfn olunurlar.

Suda boğulan, odda yanan, qar uçqunu, torpaq və ya bina altında qalan; vəba kimi yoluxucu xəstəlikdən, əqrəb sancmasından ölən, qərib ölkədə və ya elm uğrunda, yaxud cümə gecəsində vəfat edən müsəlman da eyni hökmdədir. Həmçinin doğum sancısından ölən də bunlar kimidir. Bunlara "həqiqi şəhid" də deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

Müharibədən başqa yerlərdə ölüb şəhid hökmündə olanların bəziləri hədisi-şəriflərdə qeyd olunur. Məsələn, vəba xəstəliyi, boğulma, üstünə bir şeyin düşməsi, yanğında ölmə, nifas (zahı) ikən ölmə, ağciyər xəstəliyindən ölmə bunlar arasında sayıla bilər (Buxari, Azan, 32).

- Nəticə etibarilə şəhidlik böyük nemətdir. Bir müsəlmanın İslamı mənimsəyərək ona əməl edib, axırda şəhid olaraq vəfat etməsi onun üçün böyük xoşbəxtlik və səadətdir. Ancaq şəhidlik çox az insana qismət olduğu və ya bunun üçün çox az fürsət olduğu üçün möminin qəlbində bu şüurun olması da kifayətdir. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Şəhid olmağı Uca Allahdan səmimi-qəlbdən diləyəni, Haqq-Təala rahat yatağında vefat etsə də şəhidlərin dərəcələrinə vasil edər"* (Müslim, İmarə, 156, 157).

Şəhid olmaq üçün döyüşdə ölmək şərtdirmi? Sinifdə müzakirə edin.

E. BAYRAM NAMAZLARI VƏ QILINMA QAYDASI

I. Bayram namazlarının qılınışı və təkbirləri

Cümə namazının fərz olduğu hər kəsə Ramazan və Qurban bayramı namazları vacibdir. Qadınların bayram namazına getmələri isə müstəhəbdir. Bayram namazlarından sonra oxunana xütbəni hökmü isə sünnədir.

Bayram namazlarının səhih olması üçün tələb olunan şərtlər xütbə istisna olmaqla, cümə namazının şərtləri ilə eynidir. Sadəcə xütbə cümə namazında etibarlılıq şərti olduğu halda bayram namazında Sünnədir. Həmçinin xütbə cümə namazında namazdan əvvəl, bayramda isə namazdan sonra oxunur. Bundan əlavə, cümə namazının hökmü fərzi-eyn olduğu halda, bayram namazının hökmü vacibdir.

Bayram namazının ilk vaxtı günəşin üfüqdən bir və ya iki mizraq qədər yüksəldiyi vaxtdır. Bu vaxt günəşin doğmasından təqribən 50-55 dəqiqə sonra başlayır və günorta namazından əvvələ qədər davam edir.

Bayram namazları iki rükətdir. Camaatla və bərkdən qiraət edilir. Azan və iqamə oxunmur. İmam "iki rükət Ramazan və Qurban bayramı namazına", camaat da "bayram namazına, uydum hazır olan imama" deyə niyyət edər. "Allahu əkbər" deyərək iftitah təkbiri alınar və əllər bağlanar. İmam və camaat birlikdə gizli "Sübhanəkə" duasını oxuyar, sonra imam bərkdən, camaat astadan "Allahu əkbər" deyərək üç dəfə təkbir gətirər. Hər təkbirdə əllər yuxarı qaldırılar, sonra yanlara salınaraq hər təkbir arasında sübhənallah deyiləcək qədər dayanılar. Üçüncü təkbirin arxasından yenə əllər bağlanılaraq imam gizlicə "əuzu bəsmələ"dən sonra bərkdən "Fatihə" və müəyyən qədər Quran oxuyar. Bərkdən "Allahu əkbər" deyərək rüku və səcdələr edilər. Sonra camaat da gizlicə təkbir alaraq imama uyar. Sonra təkbir alınaraq ikinci rükətə qalxılar. İmam gizli bəsmələdən sonra "Fatihə" və Qurandan müəyyən qədər oxuyar. Təkrar üç dəfə əllər qaldırılaraq ilk rükətdə olduğu kimi təkbir alınar, bundan sonra yenə imam bərkdən, camaat da yavaşdan "Allahu əkbər" deyə təkbir alaraq rüku və səcdələr edər. Sonra oturaraq "təhiyyat, salli barik və rabbənə" dualarını astadan oxunaraq, imam və camaatın iki tərəfə salam verməsi ilə namaz sona çatar.

Beləliklə də, bayram namazlarının hər rükətində üç əlavə təkbir alınmış olur və bu təkbirlər vacibdir. Hənəfilərdən başqa üç məzhəbə görə, bu təkbirlər hər rükətdə qiraətdən əvvəl edilir. İmam Malik və hənbəlilərə görə, birinci rükətdə altı, ikincidə beş təkbir, İmam Şafeiyə görə isə birincidə yeddi, ikincidə isə beş təkbir alınar.

İmam bayram namazından sonra minbərə çıxaraq oturmadan xütbəyə başlayar. Cümə namazındakı kimi iki xütbə oxuyar. Cümə xütbəsindəki həmd-sənanın əvəzinə bayram xütbələrinə "Allahu əkbər, Allahu əkbər, Lə iləhə illəllahu vallahu əkbər, Allahu əkbər və lilləhil-hamd" təkbiri ilə başlanılar. Camaat da

İPƏKYOLU NƏŞRİYYATI

bu təkbirləri imamla birgə oxuyar. İmam Ramazan bayramı xütbəsində camaata fitrə sədəqəsi, Qurban bayramı xütbəsində isə qurban ilə təşriq təkbirləri haqqında məlumat verər. Cümə xütbələrində Sünnə olanlar bayram xütbələrində də Sünnədir. Məkruh olanlar bunlarda da məkruhdur. Bayram xütbələrinin namazdan əvvəl oxunması məkruh sayılır.

II. Təşriq təkbirləri və hökmü

Qurban bayramının birinci gününə "yövmi-nəhr", digər üç gününə isə "əyyami-təşriq (təşriq günləri)" deyilir. Bayramdan bir gün əvvəlki günə isə "yövmi-ərəfə (ərəfə günü)" deyilir. Bu, zülhiccənin doqquzuncu günüdür.

Ərəfə günü sübh namazından etibarən bayramın dördüncü gününün ilkindi namazına qədər iyirmi üç vaxt fərz namazın arxasından bir dəfə "***Allahu əkbər, Allahu əkbər, lə iləhə illəllahu vallahu Əkbər. Allahu əkbər və lilləhil-hamd***" deyə təkbir gətirilir ki, buna da təşriq təkbiri deyilir.

Təşriq təkbirinin mənası: "Allah hər şeydən ucadır, Allah hər şeydən ucadır. Allahdan başqa heç bir ilah yoxdur. O Allah hər şeydən ucadır. Allah hər şeydən ucadır. Həmd, şükür Allaha məxsusdur".

Təkbirlərin iyirmi üç vaxt oxunması Əbu Yusiflə İmam Məhəmmədin rəyidir. Fitva da buna əsasən verilmişdir. Əbu Hənifəyə görə təşriq təkbirləri ərəfə günü sübh namazından bayramın ilk günü ilkindi vaxtına qədər olan səkkiz vaxt fərz namazının ardından gətirilər.

Təşriq təkbirləri bir çox fəqihə görə vacibdir. Sünnə deyənlər də var. Əbu Yusiflə İmam Məhəmmədə görə, fərz namazlarını qılan hər şəxsə bu təkbirləri gətirmək vacibdir. Bu mövzuda təkbaşına namaz qılanla imama uyan, səfərdə olanla olmayan kəndli ilə şəhərli, kişi ilə qadın eynidir. Beləliklə, bu təkbirlər camaatla da, təkbaşına da yerinə yetirilməlidir. Qəza da edilə bilər. Kişilər təkbiri bərkdən, qadınlar isə astadan gətirər. Vitr namazı ilə bayram namazının sonunda təkbir gətirilməz.

Əbu Hənifəyə görə isə, təşriq təkbirlərinin vacib olması üçün səfərdə olmamaq, azad və kişi olmaq və namaz camaatla qılınan fərz namaz olması lazımdır. Odur ki, yolçu, kölə, qadın və təkbaşına namaz qılana bu təkbirlər vacib deyil. Ancaq bu sadalananlar bir imama uyarsa, camaatla birlikdə təkbir gətirərlər. Cümə və bayram namazı qılınmayan kiçik yerlərdə də təşriq təkbiri gətirilməz və cümə günü günorta namazını camaatla qılan üzrlü şəxslərə də vacib deyil.

Bir ilin təşriq günlərində qəzaya qalan bir namaz, yenə o ilin təşriq günlərindən birində qəza edilərsə, namazdan sonra təşriq təkbiri alınar. Lakin başqa günlərdə və ya başqa ilin təşriq günlərində qəza edilərsə, təşriq təkbiri alınmaz.

Bayram günlərində müsəlmanların bir-birini təbrik etməsi, bir-biri ilə əl sıxaraq görüşməsi və bir-birinə "Ğafərallahu lənə və ləkum (Allah bizi və sizi bağışlasın)" və ya "Təqabbələllahu minnə və minkum (Allah bizdən və sizdən qəbul etsin)" kimi dualar etməsi məndubdur.

III. Bayramda məndub olan hallar

Bayramda aşağıdakıları etmək məndubdur:

- Səhər tezdən durmaq,
- Yuyunmaq (qüsl almaq),
- Misvakdan istifadə etmək (dişləri fırçalamaq),
- Gözəl ətir vurmaq və ən gözəl paltarları geyinmək,
- Allahın verdiyi nemətlərə şükür etmək üçün sevincək olmaq,
- Möminlərə rast gəldikdə təbəssümlü olmaq və xoş sözlər sərf etmək,

İPƏKYOLU NƏŞRİYYATI

- Bayram namazı üçün məscidə getmək,
- Namaza gedərkən Ramazan bayramında daxilən, Qurban bayramında isə aşkar təkbir gətirmək; qayıdan başı isə imkan daxilində başqa yoldan evə qayıtmaq,
- Ramazan bayramında məscidə getmədən səhər yeməyi yemək; (Qurban bayramında isə imsakdan sonra qurban kəsilənə qədər heç bir şey yeməyib səbir etmək və kəsilən ilk qurbanın əti ilə yeməyə başlamaq),
- İmkan daxilində çoxlu sədəqə vermək.

F. TƏRAVEH NAMAZI VƏ QILINMA QAYDASI

Təraveh sözü ərəbcə "tərvihə" kəlməsinin cəmidir. Lüğət mənası "istirahət etmək, dincəlmək" deməkdir. Ramazan ayına məxsus yatsı (işa) namazından sonra qılınan təraveh namazının hər dörd rükətinin sonundakı oturuş tərvihə adlandırılmışdır. Sonralar bu kəlmənin cəmi olan təraveh, Ramazan gecələrində qılınan nafilə namazın adı olmuşdur. Təraveh namazı kişilərə və qadınlara müəkkəd Sünnədir. Bu namazın camaatla qılınması kifai Sünnədir. Hz. Peyğəmbər təraveh namazını bir neçə gecə istisna olmaqla mütəmadi olaraq təkbaşına qılmış və əshabi-kiramı bu namaza təşviq edərək belə demişdir: *"Kim Ramazan ayını inanaraq və savabını Allahdan gözləyərək keçirərsə, keçmiş günahları bağışlanar"* (Buxari, Səlatüt-təravih). Hz. Aişədən gələn rəvayətə görə: "Hz. Peyğəmbər (s.ə.s) (Ramazan gecəsində yatsıdan sonra) məsciddə namaz qıldı. İnsanlar da onun kimi namaz qıldılar. Sabahı gün insanlar bir-birinə bu namazdan bəhs etdilər. Növbəti gün camaat bir az da artdı. Rəsulullahla namaz qıldılar. Yenə öz aralarında bu namaz haqqında danışdılar. 3-cü gecə camaat daha da artdı. Rəsulullah (s.ə.s) namaz qıldı. İnsanlar da onun kimi namaz qıldılar. 4-cü gecə insanlar Hz. Peyğəmbərin namaz qılacağını gözlədikləri halda Peyğəmbər gəlmədi. Sübh namazını qıldıqdan sonra camaata belə buyurdu: *"Dünən axşam toplaşdığınızı gördüm. Bu namazı sizə qıldırmağıma heç nə mane deyildi. Lakin bunun sizə fərz edilərək ağır gəlməsindən qorxdum"*. Rəsulullah (s.ə.s) vəfat edənə qədər tətbiqat bu şəkildə davam etdi" (Buxari, Səlatut-təravih, 1).

Təraveh namazı yatsıdan sonra vitrdən öncə qılınır. Bu namazın gecə yarıdan və ya gecənin üçdə birindən sonraya buraxılması müstəhəbdir. Qılınmayan bir təraveh namazı qəza edilməz. Bu namaz təkbaşına da qılına bilər. Lakin camaatla qılınması daha fəzilətlidir.

Təraveh namazı iyirmi rükətdir. Hər dörd rükətdən sonra müəyyən qədər duraraq istirahət edildiyi üçün bu dörd rükətə tərvihə deyilmişdir. Bir təraveh namazında beş tərvihə var.

Bu namaza "Niyyət etdim təraveh namazına", "Vaxtın Sünnəsinə" və ya "Gecə namazına" deyə niyyət edilir. Ümumi namaza və ya nafiləyə niyyət edilməsi də bir çox fəqihə görə caizdir.

Təraveh namazını hər iki rükətdə bir salam verərək on salam ilə bitirmək daha fəzilətlidir. Dörd rükətdə bir də salam vermək olar. Səkkiz, on hətta iyirmi rükətdən bir salam vermək də caizdir.

Təraveh namazı iki rükətdə bir salam verilərsə, axşam namazının Sünnəsi kimi, dörd rükətdə bir salam verildikdə isə, yatsı namazının dörd rükət Sünnəsi kimi qılınar. Başlanğıcda və hər iki rükətin başında sübhanəkə, əuzu-bəsmələ və hər oturuşda təhiyyat, salli-barik duaları oxunar. Bu namaz camaatla qılındığı təqdirdə camaat həm təravehə, həm də imama uymağa niyyət edər. İmam isə təravehi sübh namazının fərzi kimi bərkdən qıldırar. Hənəfilərə görə, təraveh namazının rükət sayı və davamlı camaatla qılınması Hz. Ömərin tətbiqatına əsaslanır. Əbdürrəhman ibn Əbdülqaridən gələn rəvayətə görə: "Bir Ramazan gecəsi Ömərlə birlikdə Məscidi-nəbəviyə getdim. İnsanların hərəsi bit tərəfdə idi. Bəzisi təkbaşına bəziləri də kiçik qruplarla namaz qılırdılar. Hz. Ömər bunları bir imamın arxasında toplasam daha gözəl olar deyədüşündü və Übey ibn Kəbi təraveh qıldırmaq üçün imam təyin etdi. Başqa bir gecə yenə Ömərlə birgə çıxarkən insanlar imamlarının arxasında namaz qılırdılar. Bunu görən Hz. Ömər: "Bu yenilik necə də gözəldir! Bu namaza qoşulmayıb yatanlar namaz qılanlardan daha üstündür". Hz. Ömər son cümləsi ilə axşamdan yataraq təhəccüd namazı vaxtında təravehi qılan səhabələri nəzərdə tutmuşdur".

İPƏKYOLU NƏŞRİYYATI

Odur ki, istər Hz. Ömər, istərsə də digər Raşidi xəlifələr dövründə və sonralar insanlara Məscidi-nəbəvidə təraveh namazlarının iyirmi rükət olaraq qıldırılmasına qarşı çıxan olmamışdır. Allah Rəsulu belə buyurmuşdur: *"Məndən sonra mənim və Raşidi xəlifələrin sünnəsindən ayrılmayın"* (Əbu Davud, Sünnət, 5). Həmçinin İbn Abbasın Ramazan ayında camaat xaricində təraveh namazını iyirmi rükət olaraq qıldığı, arxasından da üç rükət vitr namazını qıldığı rəvayət edilmişdir.

Əbu Hənifəyə Hz. Ömərin tətbiqatı haqqında soruşulduqda belə cavab vermişdir: "Təraveh qüvvətli bir Sünnədir. Hz. Ömər bunu özündən çıxarmamışdır. Bu mövzuda yeni bir şey icad etməmişdir. O, sadəcə bunu öz bildiyi bir dəlilə dayanaraq Rəsulullahdan bir əhd olaraq etmişdir".

Bəzi hədis alimləri Rəsulullahın Ramazanda təravehi səkkiz rükət qıldığını təsbit etmişdir. Bunun əsaslandığı dəlil isə, Buxarinin və başqalarının Hz. Aişədən rəvayət etdikləri bu hədisdir: "Hz. Peyğəmbər nə Ramazanda, nə də başqa bir vaxtda on bir rükətdən artıq nafilə namaz qılmamışdır. Belə ki, o, dörd rükət qılardı. Bunun gözəlliyi və uzunluğunu soruşma. Bundan başqa dörd rükət qılardı. Daha sonra üç rükət qılardı. Mən bir dəfə: "Ey Allahın rəsulu, vitr namazını qılmadanmı yatacaqsan?"-dedim. Mənə dedi ki: "Ey Aişə, mənim gözlərim yatar, lakin qəlbim yatmaz" (Buxari, Təhəccüd, 16, Təravih, 2). Həmçinin İbn Hibban "Səhih"ində Cabirdən bu hədisi rəvayət etmişdir: "Hz. Peyğəmbər onlara səkkiz rükət namaz qıldırdıqdan sonra vitr namazını qıldırmışdır".

Odur ki, təravih namazının səkkiz rükətinin müəkkəd Sünnə olduğuna şübhə yoxdur. İbn Hümam kimi bəzi alimlər səkkiz rükətdən artığının müstəhəb olduğunu söyləmişdir. Bu vəziyyət yatsı namazından sonra dörd rükət nafilə namaz qılmağın müstəhəbliyinə bənzəyir ki, bunun da iki rükəti müəkkəd sünnədir.

G. NAFİLƏ (RƏĞAİB) NAMAZLAR

İnsan nafilə ibadətlərlə Uca Allaha yaxınlaşır. Bir hədisi-qüdsidə Uca Allah belə buyurur: *"...Qulum Mənə nafilə ibadətlərlə yaxınlaşmağa davam edər və nəticədə Mənim məhəbbətimə nail olar. Onu bir dəfə sevdimmi, artıq onun eşidən qulağı, görən gözü, tutan əli, gəzən ayağı olaram. Məndən bir şey istəyən zaman onu verir, Məndən sığınma tələb edən zaman onu himayə edərərəm.."* (Buxari, Riqaq, 38).

Müstəhəb qəbul edilən nafilə namazlar aşağıdakılardır:

Təhəccüd namazı

Təhəccüd lüğətdə "yatmaq, oyanmaq" mənasına gəlir. Bir termin olaraq isə "gecə qalxıb namaz qılmaq" mənasındadır. Yatsı namazından yatmadan və ya bir az yatandan sonra qalxıb qılınan namaza "gecə namazı (səlatül-leyl)" deyilir. Bir müddət yatandan sonra gecə yarısından imsak vaxtına qədər qılınarsa, təhəccüd adlanır. Bu namaz iki rükətdən səkkiz rükətə qədərdir. Hər iki rükətdə bir salam vermək daha fəzilətlidir.

Qurani-Kərimdə təhəccüd namazı ilə bağlı belə buyurulur: **"Ya Rəsulum gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə** (təhəccüd) **namazı qıl ki, Rəbbin səni** (bununla) **bəyənilib tərifənən bir məqama** (axirətdəki ən böyük şəfaət məqamına) **göndərsin"** (İsra, 17/79). Təhəccüd namazına möminləri təşviq edən müxtəlif ayə və hədislər mövcuddur. Allah-Təala belə buyurur: **"Ya Peyğəmbər həqiqətən Rəbbin bilir ki, sən** (yatağından) **qalxıb bəzən gecənin təqribən üçdə ikisini, bəzən yarısını bəzən də üçdə birini namaz qılırsan. Səninlə birlikdə olan bir zümrə** (yaxın səhabən) **də belədir"** (Müzzəmmil, 73/20). Haqq-Təala başqa ayələrdə gecə namazına qalxanları belə tərif edir: **"Onlar ibadət üçün yataqlarından qalxar** (gecələr az yatar)**, qorxu və ümid içində** (Allahın əzabından qorxaraq mərhəmətinə ümid bəsləyərək) **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən sərf edərlər"** (Səcdə, 32/16). **"Rəhmanın əsil bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə** (təvazökarlıqla) **gəzər, cahillər onlara söz atdıqları** (xoşlarına gəlməyən bir söz dedikləri) **zaman** (onları incitməmək üçün) **salam deyərlər. Onlar**

gecəni Rəbbi üçün səcdə və qiyam (namaz) **içində keçirərlər"** (Fürqan, 26/63-64). **"Onlar gecələr** (ibadətlə məşğul olub) **az yatırdılar. Səhərlər isə** (Allahdan) **bağışlanmalarını dinləyirdilər"** (Zariyat, 51/17-18). Başqa bir ayədə də təqvaya çatanların Allaha təhəccüd vaxtı istiğfar edənlər olduğu bildirilir (Ali-İmran, 3/16-17). Səhər vaxtı gecənin son altıda biridir. Ancaq sübh namazının vaxtı girdikdə onun sünnəsindən başqa nafilə namaz qılmaq məkruhdur.

Abdullah ibn Ömər başına gələn hadisəni belə nəql edir: "İbn Ömər yuxuda özünü bir cəhənnəm çuxurunda görür. Bir mələk yaxınlaşaraq: "Sən qorxma, sən buradan çıxacaqsan",-deyir. Yuxunu Peyğəmbərə danışdıqda Hz. Peyğəmbər (s.ə.s) belə buyurur: *"Abdullah necə də yaxşı bir bəndədir. Amma qalxıb gecə namazı da qılsaydı daha yaxşı olardı"*. Abdullah ibn Ömər bundan sonra gecə yuxusunu azaltmışdır.

Hz. Aişə Rəsulullahın gecə namazını belə izah edir: "Bir gecə icazə istəyib dəstəmaz aldı. Namaz qıldı, uzun-uzadı ağladı, sübh namazı üçün Bilal gəldi. Keçmiş və gələcək günahları bağışlandığı halda nə üçün bu qədər özünü yorduğunu soruşduqda Hz. Peyğəmbər (s.ə.s): *"Mən çox şükür edən bir qul olmayımmı? Üstəlik, Allah bu gecə "Ali-İmran" surəsinin son on ayəsini nazil etdi"*, - deyərək sözünə belə davam etdi: *"Bu ayələri oxuyub və ya bunları çənəsi arasında çeynəyib üzərində düşünməyənlərə yazıqlar olsun!"* (Buxari, Təhəccüd, 6). Başqa bir hədisi-şərifdə belə buyurulur: *"Kim gecə vaxtı oyanıb xanımını da oyandırar və iki rükət namaz qılarsa, Allahı çox zikr edən kişilər ilə qadınlardan yazılarlar"* (Əbu Davud, Səlat, 307).

Duha namazı

Duha namazına quşluq namazı da deyilir. Hz. Peyğəmbərin duha vaxtında iki rükətlə on rükət arasında namaz qıldığı və bu namaza insanları təşviq etdiyi haqqında müxtəlif hədislər var. Əbu Hüreyrənin rəvayət etdiyi bir hədisdə: *"Kim iki rükət duha namazı qılmağa davam edərsə, dəniz köpüyü qədər günahları olsa da bağışlanar"* (İbn Macə, İqamə, 187). Ənəs ibn Malik Peyğəmbərin belə buyurduğunu rəvayət edir: *"Kim on iki rükət (duha) quşluq namazı qılarsa, Allah onun üçün cənnətdə bir köşk qurar"* (İbn Macə, İqamə, 187). Hz. Aişə (r.ənha) belə demişdir: "Mən Rəsulullahın duha namazını bir dəfə qıldığını gördüm və bir daha həyatım boyu onu tərk etmədim" (Buxari və Müslim). Duha namazı qılmaq müstəhəbdir. Günəşin bir mizraq yüksəlməsindən, yəni günəşin doğmasından 45-50 dəqiqə keçəndən sonra zaval vaxtına qədər qılına bilər.

Əvvabin namazı

Əvvab "tövbə edən, sığınan" deməkdir. Bunun cəmi olan "əvvabin namazı" tövbə edən və Allaha sığınanların namazı deməkdir. Bu namaz altı rükətdir. Axşam namazından sonra iki və ya üç salamla qılınır. Qurani-Kərim əvvabinnamazından belə bəhs edir: **"Rəbbiniz ürəklərinizdə olanları** (qəlblərinizin sirlərini) **ən yaxşı biləndir. Əgər əməlisaleh olsanız** (ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz və bundan sonra onlarla yaxşı davransanız, bilin ki,) **Rəbbiniz, həqiqətən, tövbəkarları** (əvvabin) **bağışlayandır!"** (İsra, 17/25). Əmmar ibn Yasirdən bu hədis rəvayət edilmişdir: *"Hər kim axşam namazından sonra altı rükət namaz qılarsa, günahları dənizin köpükləri qədər də olsa, Allah onları bağışlayar"* (Heysəmi, "Məcməüz- zəvaid", II, 230). Hz. Peyğəmbər axşam namazından sonra altı rükət namaz qılmış, bu namazın da əvvabinsayıldığını bildirmişdir. Əbu Hüreyrə (r.ə) Rəsulullahın (s.ə.s) belə buyurduğunu deyir: *"Kim axşam namazından sonra pis bir söz söyləmədən altı rükət namaz qılarsa, bu, həmin şəxs üçün on illik ibadətə bərabərdir"* (İbn Macə, İqamə, 185).

Təhiyyəti-məscid (məscidi salamlama) namazı

Təhiyyə sözü ərəbcə "salam vermək" deməkdir. Təhiyyətül-məscid isə məscidi salamlamaq mənasına gəlir. Məscidə girənlər üçün məscidin sahibi olan Allaha salam vermək, Ona təzim etmək məqsədilə

İPƏKYOLU NƏŞRİYYATI

iki rükət namaz qılmaq məndubdur. Bir gündə təmizlik və ya başqa səbəblərə görə məscidə bir neçə dəfə girən şəxsin bu namazı bir dəfə qılması kifayətdir.

Bu namazı məscidə girəndən sonra oturmadan qılmaq lazımdır. Çünki bu, daha fəzilətlidir. Oturduqdan sonra da qılmaq olar. Əbu Qətadə Rəsulullahın (s.ə.s) belə buyurduğunu rəvayət edir: *"Sizdən biri məscidə girərkən oturmadan iki rükət namaz qılsın"* (Buxari, Səlat, 60, Təhəccüd, 25). Məscidi-haram bu namaz baxımından digər məscidlərdən istisna edilər. Çünki Məscidi-haramın təhiyyəsi təvafdır.

Hənəfi və malikilərə görə, kərahət vaxtı məscidə girənə bu namazı qılmaq məkruhdur. Şafeilərə görə isə, məscidə istənilən vaxt girdikdə, bu namazı qılmaq müstəhəbdir. Bundan başqa, məscidə hər hansı bir namazı və ya fərz namazı qılmaq üçün imama uymaq niyyəti ilə girmək də təhiyyətil-məscid yerinə keçir.

Dəstəmaz və qüsldan sonra qılınan namaz

Dəstəmaz və ya qüsl aldıqdan sonra, əgər vaxt əlverişlidirsə, üzərindəki su quruyana qədər iki rükət namaz qılmaq hənəfilərə görə məndub, şafeilərə görə isə, Sünnədir.

Dəstəmaz aldıqdan sonra başqa bir Sünnə və ya fərz namaz qılınacaqsa, bu da dəstəmaz namazı yerinə keçir. Məscidlərdə qılınan fərz namazların ilk Sünnəsinin təhiyyəti-məscid yerinə keçməsi də belədir.

Hz. Peyğəmbər belə buyurmuşdur: *"Bir şəxs dəstəmazı gözəl alaraq, qalxıb xüşu içində iki rükət namaz qılarsa, keçmiş günahları bağışlanar"* (Buxari, Vüdu, 24). Burada savabın böyüklüyü vurğulanmışdır.

Bundan əlavə, Hz. Peyğəmbər bir gün sübh namazı vaxtı Bilaldan (r.ə) ən çox savab gözlədiyi əməlin hansı olduğunu soruşdu. Çünki cənnətdə onun ayaq səsini eşitmişdi. Bilal: "Gecə va ya gündüz dəstəmaz aldıqdan sonra Allahın mənim üçün yazdığı qədər namaz qılıram. Ən çox savab umduğum ibadət budur", - deyə cavab verdi (Buxari, Təhəccüd, 17).

Səfərə çıxarkən və səfərdən qayıdarkən qılılnan namaz

Bir müsəlmanın səfərə çıxarkən və səfərdən qayıdarkən iki rükət namaz qılması məndubdur. Gedərkən evdə, dönərkən də məsciddə qılmaq daha fəzilətlidir. Hz. Peyğəmbər (s.ə.s) gündüz səfərdən qayıdar və Məscidi-nəbəviyə gedərək iki rükət namaz qılıb orada bir müddət oturardı (Buxari, Səlat, 59).

Bu namaz səfəri rahat keçirərək işlərin rahatlaşması və evə sağ-salamat qayıtmaq üçün Allaha dua mahiyyətini daşıyır. Qayıdarkən qılınması da Allaha minnətdarlıq və şükür ifadəsidir.

Hacət namazı

Dünyəvi və üxrəvi bir istəyi olan şəxs dəstəmaz alaraq yatsı namazından sonra iki və ya dörd rükət, başqa bir rəvayətə görə isə on iki rükət namaz qılar. Namazdan sonra Allaha həmd-səna, Rəsuluna salat-salam edər. Bunlardan sonra Hacət duasını oxuyaraq istəyini Allahdan niyaz edər.

Mərfu bir hədisin rəvayətinə görə, bu namazın birinci rükətində bir dəfə "Fatihə", üç dəfə "Ayətül -kürsi" oxunar. Digər rükətlərin hər birində isə "Fatihə" ilə yanaşı, "İxlas", "Fələq" və "Nas" surələri oxunar.

Tirmizi və İbni Macənin Abdullah ibn Əbi Övfadan rəvayət etdiklərinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Kimin Allahdan və insanlardan hər hansı bir istəyi, diləyi varsa, dəstəmaz alıb iki rükət namaz qılsın. Sonra Allaha həmd-səna edərək Rəsuluna səlat-salam gətirsin. Bundan sonra bu duanı oxusun:*

İPƏKYOLU NƏŞRİYYATI

لَا إِلَهَ إِلَّا اللهُ الْحَلِيمُ الْكَرِيمُ، سُبْحَانَ اللهِ رَبِّ الْعَرْشِ الْعَظِيمِ. اَلْحَمْدُ للهِ رَبِّ الْعَالَمِينَ، أللهم إنيِّ أسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَالْغَنِيمَةَ مِنْ كُلِّ بِرٍّ، وَالسَّلَامَةَ مِنْ كُلِّ إِثْمٍ لَا تَدَعْ لِي ذَنْبًا إِلَّا غَفَرْتَهُ وَلَا هَمًّا إِلَّا فَرَّجْتَهُ وَلَا حَاجَةً هِيَ لَكَ رِضًا إِلَّا قَضَيْتَهَا يَا أَرْحَمَ الرَّاحِمِينَ.

"Lə ilə̇hə illəllahul-halimul-kərim. Subhanəllahi Rabbil-arşil-azim. əl-Hamdu lilləhi Rabbil-aləmin. Allahummə inni əsəlukə mucibəti rahmətikə və azəimə məğfiratikə vəl-ğanimətə min kulli birrin vəs-sələmətə min kulli ismin. Lə tədə li zənbən illə ğafərtəhu və lə həmmən illə fərractəhu və lə hacətən hiyə ləkə ridan illə qadaytəhə. Yə ərhəmər-rahimin".

Mənası: "Kərəm sahibi olan Allahdan başqa ilah yoxdur. Uca ərşın sahibi olan Allahı təsbih edirəm (bütün nöqsanlıqlardan uzaq tutaram). Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Allahım! mərəhmətinə nail olan şeyləri, əfvini, hər yaxşılığı əldə etməyi və hər günahdan uzaq durmağı Səndən istəyirəm. Mənim bağışlamadığın heç bir günahımı, uzaqlaşdırmadığın heç bir şübhəmi, Sənin rizana uyğun, ancaq yerinə yetirmədiyim heç bir ehtiyacımı buraxma. Ey mərhəmətlilərin ən mərhəmətlisi olan Allahım!" (Tirmizi, Vitr, 17)

Osman ibn Hüneyfdən (r.ə) rəvayətə görə, Hz. Peyğəmbərin yanına gözləri görməyən bir adam gələrək, özünün sağalması üçün Allaha dua etməsini xahiş etdi. Allahın Elçisi: "İstəyirsən, haqqındakı duanı gecikdirim. Sənin üçün bu daha xeyirli olar", - buyurdu. Həmin şəxs: "Xeyr, dua et!"- dedikdə, bu adama şərtlərinə uyğun gözəl bir dəstəmaz alaraq iki rükət namaz qılmasını, sonra da bu duanı etməsini bildirmişdir:

"Allahummə! İnni əsəlukə və ətəvəccəhu ileykə bi Muhəmmədin-nəbiyyər-rahməti. Ya Mühəmməd! İnni qad təvəccəhtu bikə ilə Rabbi fi hacəti həzihi li tuqdə. Allahummə! Fə şəffihu fiyyə".

Mənası: "Allahım! Səndən bir şey istəyirəm. Sənə rəhmət peyğəmbəri Hz. Mühəmməd (s.ə.s) ilə birlikdə yönəlirəm. Ey Mühəmməd! Şübhəsiz mən, bu ehtiyacımın qarşılanması üçün Rəbbimə yönəldim. Ey Allahım! Mühəmmədi (s.ə.s) mənim haqqımda vasitəçi (şəfaətçi) elə!" (İbn Macə, İqamə, 189) Duadan sonra bu səhabənin gözlərinin gördüyü nıql edilmişdir.

İstixarə namazı

İstixarə kəlməsi "xeyirli olanı istəmək" deməkdir. İstixarə namazı necə hərəkət etmək lazım olduğu bilinməyən mübah işlərdə, mənəvi bir işarəyə nail olmaq üçün qılınan namazdır. Bir şəxsin qərar vermək qarşısında qaldığı məsələdə, bu işi bilən, etibarlı insanlarla məsləhətləşməsi Sünnədir. Qurani-Kərimdə belə buyurulur: **"**(Ya Rəsulum) **Allahın mərhəməti səbəbinə sən onlarla** (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) **yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onların sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün** (Allahdan) **bağışlanmaq dilə. İşdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et. Həqiqətən Allah** (Ona) **təvəkkül edənləri sevər"** (Ali-İmran, 3/159). **"O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edər, namaz qılar, işlərini öz aralarında məsləhət-məşvərətlə görər, onlara verdiyimiz ruzidən** (Allah yolunda) **sərf edərlər"** (Şura, 42/38).

Məsləhət nəticəsində o işin uyğun və xeyirli olduğu qənaətinə gəlmək mümkündürsə, istixarəyə ehtiyac yoxdur. Ancaq məsləhət nəticəsində bir qərar alınmazsa, istixarəyə müraciət etmək mümkündür. İstixarə namazının ilk rükətində "Fatihə"dən sonra "Kafirun", ikinci rükətində isə "İxlas" surəsini oxumaq müstəhəbdir.

İPƏKYOLU NƏŞRİYYATI

Cabir ibn Abdullahın (r.ə) belə dediyi rəvayət olunmuşdur: Rəsulullah (s.ə.s) bütün mühüm işlərdə bizə Qurandan bir surə öyrədirmiş kimi istixarəni də öyrədər və belə deyərdi: "Sizdən kim bir iş etmək istəyərsə, fərz namazdan əlavə iki rükət namaz qılsın və belə dua etsin:

أَللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ الْعَظِيمِ. فَإِنَّكَ تَقْدِرُ وَلَا أَقْدِرُ وَتَعْلَمُ وَلَا أَعْلَمُ وَأَنْتَ عَلَّامُ الْغُيُوبِ. أَللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ خَيْرٌ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي (أو قال: عَاجِلْ أَمْرِي وَآجِلِهِ) فَاقْدِرْهُ لِي وَيَسِّرْهُ لِي ثُمَّ بَارِكْ فِيهِ لِي وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ شَرٌّ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةُ أَمْرِي (أو قال: عَاجِلْ أَمْرِي وَآجِلِهِ) فَاصْرِفْهُ عَنِّي وَاصْرِفْنِي عَنْهُ فَاقْدِرْ لِيَ الْخَيْرَ حَيْثُ كَانَ ثُمَّ أَرْضِنِي بِهِ قال: وَيُسَمِّي حَاجَتَهُ عِنْدَ قَوْلِهِ «هَذَا الْأَمْرَ»

Mənası: Ey Allahım! Sənin elminə güvənərək Səndən haqqımda xeyirlisini istəyirəm. Gücümə güc qatmağını, hüdudsuz lütf və kərəmindən mənə bəxş etməyini istəyirəm. Çünki Sənin hər şeyə gücün çatır, mənim isə çatmır, Sən hər şeyi bilirsən, halbuki mən bilmirəm. Çünki Sən qeyb aləmini tam bilənsən. Ey Allahım! Etməyi fikirləşdiyim bu iş, mənim dinim, həyatım və gələcəyim və ya dünya və axirətim üçün xeyirlidirsə, onu mənə asanlaşdır. Haqqımda xeyirli, uğurlu və bərəkətli et. Yox əgər mənim dinim, həyatım və gələcəyim və ya dünya və axirətim baxımından pisdirsə, onu məndən məni də ondan uzaqlaşdır. Haqqımda xeyirlisi nədirsə, məni onunla xoşbəxt et" (Buxari, Təhəccüd, 25; Dəavat, 49; Tövhid, 10).

İstixarə səmimi olaraq edildikdə, Allah xeyirlisini insana bəxş edər. Müəyyən işarələrlə yanaşı qəlbdə rahatlıq və fərəhlik hiss edilərsə, o işin xeyirli olacağına və ya sıxıntı və kədər hiss edilərsə, baş tutmayacağına yozulur. Birinci dəfədə nəticə alınmasa üç və ya yeddi dəfə bu təkrarlanır. Duanın ərəbcəsi oxuna bildiyi kimi, tərcüməsi də oxuna bilər. Bir şəxs namaz qılaraq istixarə edə bilmirsə, bu təqdirdə sadəcə yuxarıdakı duanı oxuyaraq istixarə edə bilər.

Tövbə namazı

Müsəlman günah və pis işlərdən çəkinməlidir. Bununla yanaşı insan çox vaxt günah işləməkdən uzaq dura bilmir. Buna görə Quran və Sünnədə insanın günah etdikdən sonra dərhal tövbə etməyinin lüzumu, səmimi edilən tövbənin Allah tərəfindən qəbul ediləcəyi bildirilmişdir. Hətta heç bir günahı olmadığını düşünən də tövbə etməlidir. Belə ki, Hz. Peyğəmbərin gəlmiş-keçmiş bütün günahları bağışlanıldığı halda, gündə yetmiş və ya yüz dəfə tövbə etdiyi, yorulana qədər ibadət etdiyi, bunların səbəbi soruşulduqda isə: *"Allaha çox şükür edən bir bəndə olmayımmı?"*-dediyi rəvayət edilmişdir.

Tövbənin müəyyən bir vaxtı və yeri yoxdur. Qəbul olma ehtimalı daha çox olduğuna görə, tövbə üçün xüsusilə mübarək gün və gecələr, təhəccüd vaxtları və namazdan sonrakı vaxtlar məqsədə uyğun hesab edilmişdir.

Əbu Hüreyrənin rəvayət etdiyi bir hədisdə Allah Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Rəbbimiz hər gecənin son üçdə birində rəhməti ilə göy üzünə enər. Və: "Mənə dua edən yoxdurmu? Onu qəbul edim. Məndən bir şey istəyən yoxdurmu? Ona verim. Məndən bağışlanma istəyən yoxdurmu? Onu bağışlayım",-deyə səslənər"* (Müslim, Müsafirin, 168). Başqa rəvayətlərdə *"gecənin son üçdə birindən, üçdə ikisindən, yaxud da yarısından sonra olduğu"* bildirilir (Müslim, Müsafirin, 169-172). Son "üçdə bir" ifadəsində alimlər həmfikir olduqları üçün, bu vaxtın gecənin son üçdə birindən imsak vaxtına qədər olduğu aydın olur.

İPƏKYOLU NƏŞRİYYATI

Bundan əlavə, qəbul olma ümidi olan tövbə hədisdə namazla birgə qeyd edilir: "Bir bəndə günah işlədikdən sonra, gözəl bir dəstəmaz alıb iki rükət namaz qılaraq Allahdan bağışlanma istəyərsə, Allah onu mütləq bağışlayar" (Müslim, Təharə, 5-16). Hz. Peyğəmbər bundan sonra aşağıdakı ayəni oxumuşdur: **"O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb** (tövbə edərək) **günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini** (gördükləri işin pis olduğunu) **bildikdə** (tövbədən sonra) **bir daha ona qayıtmazlar"** (Ali-İmran, 3/135).

Təsbeh namazı

Təsbeh namazının ömürdə bir dəfə də olsun qılınması məsləhət görülür. Təkbaşına və ya camaatla qılına bilər.

Hz. Peyğəmbərin bir gün əmisi Abbas ibn Əbdülmüttəlibə: *"Əmi! Sənə on faydalı əməl öyrədimmi? Bunları etsən, günahlarının ilki-sonu, köhnəsi-təzəsi, bilərək və ya bilməyərək işlədiklərin, günahlarının kiçik və böyüyü, gizli və açığı işlənən on günahı Allah bağışlayar",* - deyərək təsbeh namazını tövsiyə etmiş və qılınma qaydasını öyrətmişdir. Abbas (r.ə) bunu hər gün edə bilməyəcəklərini dedikdə, bu namazın həftədə, ayda, ildə və ya ömürdə bir dəfə qılınmasının kafi olacağı bildirilmişdir" (Əbu Davud, Tətəvvü, 14).

Təsbeh namazı dörd rükətdir. Hər rükətdə "Fatihə" və bir surə oxunar. Bir və ya iki salamla tamamlamaq olar. Bu namazın qılıma qaydası Əbu Vəhbin Abdullah ibn Mübarəkdən nəql etdiyinə görə belədir: Allah rizası üçün namaz qılmağa niyyət edərək namaza başlayar. Sübhanəkədən sonra on beş dəfə "Subhanəllahi vəlhamdulilləhi və lə iləhə illəllahu vallahu əkbər" deyilər. Əuzu-bəsmələ, "Fatihə" və əlavə surə oxunduqdan sonra bu təsbeh duası on dəfə, rükuda on dəfə, rükudan qalxarkən on dəfə, birinci səcdədə on dəfə, səcdədən qalxdıqda on dəfə, ikinci səcdədə on dəfə deyilər. Beləliklə, birinci rükətdə cəmi yetmiş beş dəfə təsbeh oxunar. Geri qalan üç rükətin hər birində də ayağa qalxanda on beş dəfə, "Fatihə" və surədən sonra on, digərləri də on dəfə olmaq şərtilə yetmiş beş təsbeh oxunar. Təsbehlərin cəmi üç yüzdür. Əbu Vəhb rüku və səcdələrdəki normal təsbehlərin üç dəfə oxunduqdan sonra bu təsbehlərin oxunacağını bildirmişdir. (Tirmizi, Vitr, 19).

Abbas və Əbu Rafinin təsbeh namazı rəvayətlərində təsbeh duası, onun sayı və qılınma qaydası eyni olmaqla yanaşı, təsbeh duasının ilk on beşinin oxunma yeri "Fatihə" və surədən sonradır. İkinci səcdədən qalxdıqda isə on təsbeh əlavəsi vardır. Ümumi say yenə üç yüzdür.

Təsbeh namazında səhv olarsa, səhv səcdələrində bu əlavə təsbehlər oxunmaz, namaz qılan bu təsbehləri yadda saxlaya bilirsə, barmaqları ilə saymaz. İmam təsbeh namazı qıldırarsa, bərkdən oxuyaraq təsbehləri də səsli təkrarlayar. Bir qadın da, qadınlar camaatına səfin ortasında duraraq təsbeh namazı qıldıra bilər.

İstisqa (yağış duası namazı)

Yağışın heç yağmadığı, az yağdığı, yeraltı suların kəsildiyi, kənd təsərrüfatı məhsulları və heyvanlar üçün su qıtlığı yarandığı təqdirdə yağış duası edilir. İnsanların Allahdan qafil olması və aralarında günahların yayılmasına görə, Allah insanları sınamaq üçün bəzi vaxtlarda quraqlıqlar meydana gətirər. Bu vəziyyətin dəyişməsi üçün Allaha tövbə və istiğfar etmək lazımdır. Belə ki, Quranda Nuh, Musa və Hud (ə.s) kimi peyğəmbərlərin qövmlərinə yağmur verilməsi üçün dua etdiklərindən bəhs edilir:

Nuh (ə.s) Allaha öz qövmündən belə bəhs edir: **Və dedim: "**(Tövbə edib) **Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O,** (tövbə edən bəndəsinin günahlarını) **çox yaxşı bağışlayandır! O sizə göydən bol yağış göndərər. O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-baxçalar yaradar və çaylar axıdar"** (Nuh, 71/10-12), Hz. Musadan bəhs edərək Uca Allah belə buyurur: **"Yadınıza salın ki, Musa öz qövmü üçün su istədikdə, Biz ona: "Əsanı daşa vur!" - dedik"** (Bəqərə, 2/60).

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Hənifəyə görə, yağmur duası namazının camaatla qılınması Sünnə deyil. İnsanlar yağmur duasında tək-tək namaz qılsa da bu caizdir. Çünki yağmur duası (istisqa) dua və istiğfardan ibarətdir. Buna görə bu dua camaatsız və xütbəsiz yerinə yetirilir. Bu dua Rəsulullahın Sünnəsi və Raşidi xəlifələrin tətbiqi ilə sabitdir. Əgər yağışın yağması gecikərsə, bir neçə gün dəfələrlə bu dua edilər. Çünki Allah duada israrlı olanları sevər.

Ənəs ibn Malik nəql edir ki, Hz. Peyğəmbər cümə günü xütbə oxuyarkən bir adam gəldi. Onun qarşısında duraraq belə dedi: "Ya Rəsulullah, heyvanlar məhv oldu. Yollar kəsildi. Allaha dua et bizə yağış versin."

Rəsulullah (s.ə.s) əllərini qaldıraraq:

أَللَّهُمَّ أَسْقِنَا أَللَّهُمَّ أَسْقِنَا

"Allahummə əsqinə! Allahummə əsqinə!" "Ey Allahım, bizə su ver, Ey Allahım, bizə su ver!" deyə dua etdi. Bu duadan sonra göydə heç bir yağış əlaməti yox ikən, birdən yağış yazmağa başladı. Bu vəziyyət bir həftə çəkdi. Növbəti cümə yenə bir adam gələrək:

"Ey Allahın Elçisi! Mallarımız məhv oldu. Yollar bağlandı. Allaha yağışın dayanması üçün dua edin",- dedi. Bunu eşidən Hz. Peyğəmbər belə dua etdi".

أَللَّهُمَّ حَوَالَيْنَا وَلَا عَلَيْنَا. أَللَّهُمَّ عَلَى الْأَكَامِ وَالضِّرَابِ وَبُطُونِ الْأَوْدِيَةِ وَمَنَابِتِ الشَّجَرِ.

"Allahım, yağışı üzərimizə yox, dağlara, təpələrə, vadilərə və ağac bitən yerlərə ver!". Bu duadan sonra yağmur kəsildi (Buxari, İstisqa, 6; Müsilm, İstisqa, 2-8).

Hədis mənbələrində qeyd edilən Hz. Peyğəmbərin etdiyi yağmur duası belədir:

أَللَّهُمَّ أَسْقِنَا غَيْثًا مُغِيثًا مَرِيئًا طَبَقًا مَرِيعًا غَدَقًا عَاجِلًا غَيْرَ رَائِثٍ

أَللَّهُمَّ أَسْقِ عِبَادَكَ وَبَهَائِمَكَ وَانْشُرْ رَحْمَتَكَ وَأَحْيِ بَلَدَكَ الْمَيِّتَ

"Allahım, can qurtaran, şirin, bol, bərəkətli, çox gec deyil, tez yağış ver! Allahım" qullarını, heyvanlarını sula, rəhmətini yay, ölü bölgəni dirilt (İbni Macə, İqamə, 154).

Yağmur duası namazı cümə namazı kimi bərkdən qılınır. Namazdan sonra bayram xütbəsi kimi xütbə oxunur. Ancaq bu xütbədə xətib minbərə çıxmadan yerdə əsa və qılınc kimi bir şeyə istinad edir.

Yağmur gecikərsə, köhnə paltarlar geyinərək uşaqlar, heyvanlar və balaları ilə birlikdə çölə çıxılır. Uşaqlar və balalar bir müddət analarından uzaqlaşdırılaraq zəiflərə və yaşlılara dua etdirilir. Bununla Allahın rəhmət və mərhəmətinin cəlb olunması gözlənilir.

Yağmur duası sulamaq və bol yağış əldə etmək üçün bəzi təbii və texniki tədbirlər almağa mane deyil. Ağaclar əkmək, su anbarları tikmək, yeraltı və dəniz sularından sulamaq məqsədilə istifadə etmək bu tədbirlərdən sayıla bilər.

Küsuf Namazı

Günəşin tutulmasına "küsuf", ayın tutulmasına isə "xüsuf" deyilir. Günəş tutulduqda həmin bölgədəki cümə namazını qıldıran imam azansız və iqaməsiz ən az iki rükət namaz qıldırar. Hər rükətdə müəyyən qədər Əbu Hənifəyə görə astadan, Əbu Yusif və İmam Məhəmmədə görə bərkdən Quran oxuyar. Xütbə oxunmaz, hər rükətdə digər namazlardakı kimi rüku və səcdələr edilər.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Davud belə rəvayət edir: "Günəş tutulduqda Hz. Peyğəmbər iki rükət namaz qıldı və hər iki rükətdə qiyamı uzatdı. Günəş açılanda da namazdan ayrıldı. Sonra isə belə buyurdu: *"Bu hadisələr Allahın böyüklüyünü göstərən dəlillərdir. Allah bunlarla qullarını qorxutmaq istəyir. Bunları görərkən, ən son qıldığınız fərz namaz kimi namaz qılın"* (Buxari, Küsuf, 1-17). İbn Hümam deyir ki, səhabənin ən son qıldığı namaz səhər namazı idi. Çünki küsuf namazı günəşin iki mizraq qədər yüksəldiyi əsnada qılınmışdır.

Ay və günəşlə əlaqədar Allah belə buyurur: **"Gecə və gündüz, günəş və ay Onun** (vəhdaniyyətinə, qüdrət və əzəmətinə dəlalət edən) **əlamətlərindəndir. Günəşə və aya səcdə etməyin, onu yaradan Allaha səcdə edin"** (Füssilət, 41/37). Bu ayədəki səcdə etməklə bağlı əmr, ay və günəş tutulduqda namaz qılınmasına işarədir.

Hz. Peyğəmbər oğlu İbrahim öldüyü gün günəş tutularkən belə buyurmuşdur: *"Ay və günəş Allahın varlığını göstərən ayələrdəndir. Bir şəxsin ölümü və yaşamasına görə tutulmazlar. Belə bir vəziyyət gördükdə ay və günəş açılana qədər namaz qılın, dua edin"* (Buxari, Küsuf, 1-15).

Küsuf namazından sonra imam günəş açılana qədər qibləyə doğru ayaq üstə və ya camaata qarşı oturaraq dua edər, camaat da: "Amin!"-deyər. İmam olmasa, hər kəs bu namazı evində təkbaşına qılar.

Xüsuf namazı

Ay tutulan zaman müsəlmanların evlərində təkbaşına küsuf namazı kimi astadan və ya bərkdən qiraətlə iki və ya dörd rükət namaz qılması məndubdur. Bu namaza küsuf namazı deyilir. Əbu Hənifəyə görə, bu namazın məsciddə camaatla qılnması Sünnədə yoxdur. Ancaq qılınması caizdir. Ayın tutulma hadisəsi gecə baş verdiyi üçün camaatın məsciddə toplanması çətindir.

İmam Şafei, Əhməd ibn Hənbəl və bəzi hədisçilərə görə, bu namaz camaatla qılınır. İmam Malikə görə isə, camaatla qılına bilməz.

Zəlzələ, şimşək, şiddətli külək, gündüz çökən qaranlıq, kəsməyən yağış və qar, gecə vaxtı işığın yayılmasından qorxmaq, ulduz axması, yayılan xəstəliklər, düşməndən qorxmaq və bu kimi hallarda xüsuf və küsuf namazları kimi namazların qılınması məsləhətdir. Bu haqda xüsuf namazına qiyas edilmişdir.

Allah Rəsulunun güclü külək əsdikdə belə dua etdiyi rəvayət olunur: "Allahım! Səndən küləyin xeyirlisini, küləkdə olanların ən xeyirlisini, küləklə göndərdiklərinin xeyirlisini istəyirəm. Bu küləyin şərindən, bu küləkdə olanların şərlərdən, bu küləklə göndərdiyin şeylərin şərindən Sənə sığınıram" (Tirmizi, Dəəvat, 48-88). Bu gün bəzi ölkələrdə tez-tez rastlanan və minlərlə insanın ölümünə səbəb olan qasırğa, tufan və sunamiləri nəzərə alsaq, Rəsulullahın bu duasının dəyərini daha yaxşı anlayarıq. Belə fəlakətlər qarşısında Allaha sığınmaqdan başqa əlimizdən heç nə gəlmir. Ancaq fırtınadan öncə hər cür tədbiri almaq lazımdır.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Gündəlik qılınan namazlar haqqında rükətlərin sayı ilə birlikdə məlumat verin.

2. Namaz qılmanın təhrimən məkruh və tənzihən məkruh olduğu vaxtları bildirin. Bu vaxtlarda hansı namazların qılıb-qılımadığı haqqında xəbər verin.

3. Qunut tutarkən, təşəhhüd əsnasında və cənazə namazı qılarkən oxunmalı olan duaları yazın və əzbərləyin.

4. Vitr namazı nə vaxt və necə qılınır?

5. Cümə xütbəsi əsnasında danışmaq olarmı?

6. Xütbə nədir? Nə vaxt oxunur? Şərtləri nələrdir?

7. Ölü üçün yerinə yetirilməli olan dini və insani vəzifələrimiz nələrdir?

8. Şəhidlik haqqında məlumat verin.

9. Bayram namazının qılınma qaydasını izah edin.

10. Təşriq təkbirləri haqqında məlumat verin.

11. Təraveh namazının hökmünü və qılınma qaydasını izah edin.

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Əvvabin namazı		*Günəş tutulanda qılınan namaz*
2	Hacət namazı		*Günəş bir az yüksələndə qılınan namaz*
3	Təhiyyəti-məscid		*Allahdan bir istək olanda qılınan namaz*
4	Duha namazı		*Sübh namazının başlanğıcı*
5	Küsuf namazı		*Bir məscidə girənin qıldığı namaz*
6	Fəcri-sadiq	**1**	*Axşam namazından sonra qılınan namaz*

SƏHV-DÜZ

1. ( ) Cümə namazı həddi-büluğa çatan bütün müsəlmanlara fərzdir.

2. ( ) Vitr namazı üç rükətli vacip bir namazdır.

3. ( ) Təhəccüd namazı rəvatib bir namazdır.

4. ( ) Ramazanda qılınan təraveh namazı camaatla qırx rükət qılınır.

5. ( ) Günorta namazının vaxtı Əbu Hənifəyə görə əsri-saniyə (hər şeyin kölgəsinin ikiqatı) qədər davam edir.

6. ( ) Namazı zəruri bir maneə ucbatından vaxtında qıla bilməyən bir şəxs zərurət aradan qalxandan sonra dərhal qəza etməlidir.

7. ( ) Bayram namazları vacib olduğuna görə qadınların da məscidə gedib camaatla qılmaları məcburidir.

8. ( ) Vaxt namazı üçün iqamə oxunanda nafilə namaza başlana bilər.

9. ( ) Təraveh namazının vaxtı yatsı namazı qılındıqdan sonra başlayır və sübh namazının vaxtına qədər davam edir.

10. ( ) Namazda səcdədən sonra ayağa qalxan şəxs əllərini yerə qoyaraq qalxmamalıdır.

11. ( ) Cümə namazı gündüz qılındığı üçün imam bərkdən qiraət etməməlidir.

12. ( ) Namaz sona çatanda camaatın sol tərəfində heç kəs yoxdursa, o tərəfə doğru salam verilməz.

13. ( ) İmam cümə xütbəsini oxuyarkən camaat cib telefonuna gələn ismarıca baxa bilər.

14. ( ) Cümə namazının etibarlı olması üçün xütbə əsnasında ən az qırx kişi olmalıdır.

15. ( ) Bir az yatdıqdan sonra durub qılınan gecə namazına təhəccüd namazı deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakılardan hansı müəkkəd Sünnə qəbul edilən bir namaz deyil?

a. Axşam namazının Sünnəsi

b. Təraveh namazı

c. İlkindi namazının Sünnəsi

d. Sübh namazının Sünnəsi

2. Qunut hansı namazda olur?

a. Sübh namazında

b. Vitr namazında

c. Axşam namazında

d. Tövbə namazında

3. Kərahət vaxtında hansı namazın fərzi qılına bilər?

a. Sübh namazı

b. Günorta namazı

c. İlkindi namazı

d. Axşam namazı

4. Zəruri və ya qeyri-ixtiyari bir vəziyyətlə qarşılaşanın namazı qəzaya qala bilər və bundan ötrü insan günahkar olmaz. Hansı vəziyyət sözügedən üzrdən qəbul edilməz?

a. Əməliyyatda olmaq

b. Yatıb qalmaq

c. Qəzaya düşüb ağır yaralanmaq

d. Qəflətə qərq olub unutmaq

5. Aşağıdakı məlumatlardan hansı səhvdir?

a. Namazda bütün təkbirlər "Allahu əkbər" ifadəsi ilə deyilir

b. Bütün dörd rükətli fərz namazlar eyni formada qılınır

c. Bütün qeyri-müəkkəd Sünnələr eyni formada qılınır

d. Bütün namazların ilk oturuşunda yalnız təhiyyat oxunur

6. Kişilər qiyamda əllərini hara qoyurlar?

a. Göbəkdən yuxarı

b. Göbəyin altına

c. Sinə tərəfə

d. Ürək tərəfə

7. Aşağıdakı məlumatlardan hansı səhvdir?

a. İmam "Fatihə" oxumadan əvvəl bismillahı yavaşdan deyər

b. Camaat "semiallahu limən hamidəh" sözünü deməz

c. Kişilər namaza başlayarkən əllərini çiyin tərəfə qaldırar

d. Kişilər səcdə əsnasında qollarını vücuduna birləşdirməz

İPƏKYOLU NƏŞRİYYATI

8. Cümənin fərz olmasının şərtlərində aşağıdakılardan hansı yoxdur?

a. Niyabət

b. Kişi olmaq

c. Azad olmaq

d. Müqim olmaq

9. Cümə namazının etibarlı olması üçün bəzi şərtlər olmalıdır. Aşağıdakılardan hansı bu şərtlərdən deyil?

a. Fərzdən əvvəl xütbə oxumaq

b. Hər möminə məscidi açmaq

c. Məscidin içində olmaq

d. Günorta namazının vaxtında olmaq

10. Cənazə namazının rüknləri hansı bənddə düzgün qeyd edilmişdir?

a. Qiyam və cənazə duası

b. Niyyət və Hz. Peyğəmbərə salavat

c. Cənazə duası və salam

d. Qiyam və dörd təkbir

11. Cənazə namazı ilə bağlı aşağıdakı məlumatlardan hansı düzgündür?

a. İmam cənazənin başı tərəfində durar

b. Niyyət edərkən ölünün cinsiyyətini deməyə ehtiyac yoxdur

c. Başlama təkbiri ilə birlikdə cəmi dörd təkbirlə qılınır

d. Cənazə namazı qılanların dəstəmazlı olma şərti yoxdur

12. Aşağıdakılardan hansı hökmi şəhid qəbul edilib yuyulmaz və paltarları ilə dəfn olunar?

a. Elm yolunda ölənlər

b. Müharibədə ölən münafiqlər

c. Xəta ilə öldürülənlər

d. Yoluxucu xəstəlikdən ölənlər

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

IX BÖLMƏ

NAMAZLA BAĞLI DİGƏR MƏSƏLƏLƏR

MÖVZULAR

A. YOLÇULARIN NAMAZI

B. XƏSTƏ OLANLARIN NAMAZI

C. KEÇMİŞ NAMAZLARIN QƏZASI

D. İMAMLIQ VƏ CAMAAT

E. AZAN VƏ İQAMƏ

E. SƏHV, TİLAVƏT VƏ ŞÜKÜR SƏCDƏLƏRİ

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Yolçuluqda, xəstəlik vaxtı və digər üzrlü hallarda ibadətlərimizdə hansı asanlıqlar təmin edilmişdir? Bu mövzunu araşdırın.
2. Bir müsəlman namazını bilərəkdən qəzaya qoya bilərmi? Bu məsələni müzakirə edin.
3. Məscid və məscidlərin inşası və bunun əhəmiyyəti ilə bağlı ayə və hədisləri təsbit edin.
4. Günün 24 saatında azan oxunur. Bunun hikmətini böyüklərinizdən soruşub öyrənin.
5. Səcdənin mənası nədir? Hansı hallarda səcdə edilir? Bu mövzunu araşdırın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. YOLÇULARIN NAMAZI

I. Səfərilik

Dini terminologiyada "səfərilik" müəyyən məsafənin qət edilməsidir. Bu məsafə piyada getməklə üç günlük bir məsafədir. Alimlərin əksəriyyətinə görə, miniklə təqribən 90 kilometrlik bir məsafədir. Buna yolçuluq məsafəsi deyilir. Səfərilik bir şəxsin yaşadığı yerin ən son yaşayış yerlərini keçməsi ilə başlayır. Bir yerdə 15 gün və ya daha çox qalmağa niyyət etmək, yaxud qaldığı yerə geri qayıtmaqla sona çatar. 90 kilometrdən az olan məsafəyə yolçuluq edən dini baxımdan səfəri sayılmamaqla yanaşı, evindən çıxarkən ən az 90 kilometr uzağa gedəcəyinə niyyət etməyən, lakin bu qədər və ya daha çox yol qət edən də səfəri sayılmır.

Səfəriliklə bağlı hökmləri yaxşı başa düşmək üçün bir insanın oturduğu yer mənasına gələn "vətən" məfhumu yaxşı dərk olunmalıdır.

Fiqhi baxımdan vətən üç növdür:

1. Vətəni-əsli: qalınan yer, insanın daim qaldığı, qazancını təmin etdiyi və ya onu himayə edən ailə üzvlərinin olduğu yerdir. Həmçinin bir insanın doğulub böyüdüyü, evləndiyi, elm üçün tərk etdiyi və gələcəkdə qayıtma ehtimalı olan məmləkəti üçün də əlaqəsi davam etməsi şərtilə vətəni-əslisi ola bilər. İnsanın başqa bir yerə yerləşməsi ilə onun vətəni-əslisi dəyişmiş olur. Məsələn, bir şəxs doğulub böyüdüyü yerdən çıxar, iş üçün başqa bir yerə yerləşər və ömrünü orada keçirməyə niyyət edərsə, artıq yeni yerləşdiyi yer onun vətəni-əslisi olar. Əvvəlki yeri vətəni-əsli olmaqdan çıxar.

2. Vətəni-iqamə: bir şəxsin doğulub böyüdüyü, evlənib yaşamağa qərar verdiyi bir yer olmadan sadəcə olaraq on beş gündən çox qalmaq üzrə yerləşdiyi yerə vətəni-iqamə deyilir. Əsgərlik, tələbəlik, işçi və ya dövlət qulluğu kimi xidmətlər səbəbilə daimi yerləşmə məqsədi olmayan yerlər on beş gündən çox qalmağa niyyət edildiyi üçün vətəni-iqamə hökmündədir.

3. Vətəni-sükna: bir insanın yolçuluğunda on beş gündən daha az bir müddət qalmağa niyyət etdiyi yerdir.

Yuxarıda qeyd edilən üç vətəndən yalnız vətəni-süknada yolçuluq əsnasında səfərilik hökmləri etibarlıdır. İnsan doğulub yaşadığı və ya həyat yoldaşının yaşadığı yerə gəldikdə səfəri olmaz. Sadəcə gedəcəyi bu yer 90 km-dən uzaqda olarsa, yolçuluq müddətində səfəri sayılar, lakin ora çatdıqdan sonra səfəriliyi sona çatar.

Bir kimsə yaşadığı yerdən uzun müddət yaşamaq məqsədi ilə başqa bir yerə gedərsə, getdiyi yer vətəni əslisi olar, əvvəlki yer isə əsli vətən olmaz. Çünki Hz. Peyğəmbər (s.ə.s) Məkkəyə getdikdə özünü müsafir saymış və: *"Biz yolçuyuq"*,-buyurmuşdur (Şövkani, *e.a.ə.,* III, 207).

Vətəni əsli, vətəni iqamə ilə pozulmaz. Doğulduğu və ya yoldaşının yaşadığı yerdən tələbəlik, əsgərlik, iş kimi məqsədlərlə on beş gündən artıq qalmaq niyyəti ilə bir şəxsi "səfəri" edən uzaqlıqdakı bir yerə gedən kimsənin əvvəlki əsli vətəni öz xüsusiyyətini dəyişdirməz. Ora qayıdanda üç gün qalası olsa belə səfəri sayılmaz. Çünki vətəni iqamə vətəni əslini pozmaz.

Bir kəs bir şəhərdə yaşayarkən ailəsini köçürmədən başqa bir şəhərdə də evlənərsə, hər iki şəhər onun üçün əsli vətən olar. Hansına getsə müqim sayılar. Vətəni iqamə isə başqa bir vətəni iqaməyə getmək və ya oradan ayrılıb səfərə çıxmaq, yaxud əsli vətənə qayıtmaqla pozular. Yəni, vətəni iqamədən ayrılan şəxs yenidən bura qayıtdıqda on beş gündən az qalacaqsa, səfəri sayılar.

On beş gündən az qalınan yer olan vətəni süknan hər bir şəxs səfəri sayılır. Bu vətən digər vətən növlərini dəyişdirməz. Bir şəxs on beş gündən qısa davam edən və 90 km-dən uzağa getdiyi bütün səfərlərdə şəhərin yerləşdiyi ərazilərdən kınara çıxdığı andan etibarən və getdiyi yerdə səfəri sayılar. Bu vəziyyət geri qayıdıncaya qədər davam edər.

İPƏKYOLU NƏŞRİYYATI

Camaatla namazda müqim müsafir bir imama tabe olarsa, imam iki rükət qıldıqdan sonra salam verər, müqim isə salam verməyib namazı dörd rükətə tamamlayar. Namazı dörd rükətə tamamlayarkən qiyamda bir şey oxuması vacib deyil, lakin oxuya bilər. Çünki namazın əvvəlini imamla qılmış və fərz olan qiraət yerinə yetirilmişdir.

II. Səfəriliyin hökmləri

Yolçular üçün bir sıra asanlıqlar var. Ramazanda səfərdə olan üçün orucunu tutmaması mübahdır. Yolçunun məsh müddəti üç gün üç gecədir. Yolçu dörd rükətli fərz namazlarını iki rükət qılar. Buna "qəsri-səlat" deyilir. Aşağıda bunlar təfərrüatı ilə izah olunur.

1. Dörd rükətli namazların iki rükət qılınması

Səfər zamanı dört rükətlik namazların qısaldılaraq qılınması Quran, Sünnə və İcma ilə caizdir.

Uca Allah belə buyurur: **"Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq** (dörd rükətli namazı iki rəkət qılmaq) **sizə günah hesab edilməz"** (Nisa, 4/101). Bu ayədə qısaltmanın qorxu şərtinə bağlanması, o gün mövcud olan hadisəni göstərmək məqsədi daşıyır. Çünki Rəsulullahın (s.ə.s) bir çox səfərləri müəyyən təhlükələrlə qarşı-qarşıya idi. Əshabi-kiramdan Yəla ibn Ümeyyə (r.ə) Hz Ömərə belə demişdir: "Biz nə üçün namazları qısaldaraq qılırıq, halbuki təhlükəsiz yerdəyik. Hz. Ömər bu suala belə cavab vermişdir: Mən də eyni sualı Hz. Peyğəmbərdən soruşmuşdum, o mənə belə demişdi: *"Bu, Allahın sizə verdiyi bir sədəqədir, Allahın sədəqəsini qəbul edin"* (Müslim, Müsafirin, 4).

Hz. Peyğəmbərin ümrə, həcc və ya hərb üçün etdiyi səfərlərdə namazları qısaldaraq qıldığını bildirən hədislər təvatür dərəcəsindədir. Abdullah ibn Ömər (r.ə) belə demişdir: "Hz. Peyğəmbərə (s.ə.s) yoldaşlıq etdim. O, səfərlərdə iki rükətdən artıq qılmazdı. Hz. Əbu Bəkr, Hz. Ömər və Hz. Osman da belə edərdilər". Hz. Ömərin də belə dediyi rəvayət edilmişdir: "Yolçunun namazı, peyğəmbərimizin dediyi kimi qısaltmadan tam iki rükətdir".

Səfərdə olan dört rükətlik fərz namazlarını qısaltmaq məcburiyyətindədirmi? Yoxsa qısaltmaqla tam qılmaq arasında sərbəstdirmi?

Hənəfilərə görə, yolçunun dörd rükətlik fərz namazı iki rükət qılması rüxsət deyil əzimətdir. Yolçu bunu bilərək tam qılarsa, yaxşı iş görməmiş sayılır və son iki rükət nafilə hökmündə olur. Hz. Aişənin belə dediyi rəvayət edilmişdir: "Namaz iki rükət olaraq fərz buyuruldu, sonra iki rükət da artırıldı, səfərdə isə olduğu kimi qaldı". İbn Abbasın (r.ə) belə dediyi rəvayət olunmuşdur: "Allah-Təala namazı peyğəmbərimizin dili ilə dört rükət, səfərdə isə iki rükət fərz etmişdir".

Səfəri dört rükətli namazı iki rükət qılıb təşəhhüddə oturduqdan sonra iki rükət də əlavə qılsa, fərzi yerinə yetirmiş olur, son iki rükət isə nafilə sayılır. Ancaq salamı gecikdirdiyi üçün xoş qarşılanmayan bir iş etmiş sayılır. Bundan əlavə, birinci təşəhhüdü tərk etsə və ya ilk iki rükətdə qiraəti oxumasa fərzi yerinə yetirmiş sayılmaz. Həmçinin sübh və cümə namazları da bu hökmdədir.

Şafei və hənbəlilərə görə, fərzin əsli dört rükətdir. Səfərdə qısaldılması məşəqqətdən irəli gəlir. Dəlili isə səfərdə namazın qısaldıla biləcəyini bildirən ayə bunun tam olduğuna dəlalət edir və qısaltma "əmr" üslubunda deyil. Bununla yanaşı Hz. Ömərin rəvayət etdiyi "qısaltmanın bir sədəqə olduğu" ifadəsi ilə Hz. Aişənin səfərdə bəzən tam qılması da bunu göstərir. İmam Şafei bu mövzunu Ramazan orucuna qiyas etmişdir. Hənbəlilərə görə, qısaltmaq daha fəzilətlidir. Malikilərdəki əsas rəyə görə, səfərdə namazları qısaldaraq qılmaq müəkkəd Sünnədir. Çünki Hz. Peyğəmbərin tətbiqatı məhz belə olmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

2. Səfərdə iki namazı birləşdirərək qılmaq

Hənəfilərə görə, beş vaxt namazın hər biri öz vaxtında qılınmalıdır. Çünki "vaxt" namazın şərtlərindəndir. Lakin həcc ibadətini yerinə yetirərkən ərəfə günü Ərəfatda günorta ilə ilkindini birləşdirərək günorta vaxtında, Müzdəlifədə axşamla yatsı (işa) namazını birləşdirərək yatsı namazının vaxtında qılınır. Bu tətbiqat səhih Sünnəyə istinad edir. Hz. Peyğəmbərin Təbuk səfərində etdiyi kimi, günortanı son, ilkindini ilk vaxtında, axşam namazını gecikdirib son, yatsı namazının ilk vaxtında birləşdirərək qılmaq caizdir. Buna "suri cəm", yəni şəklən birləşdirmə deyilir. Əslində, burada hər namaz öz vaxtında qılınmış olur.

Alimlərin əksəriyyətinə görə isə, səfərdə günorta ilə ilkindini və axşamla yatsı namazını bir-birinin vaxtında birləşdirərək qılmaq caizdir. Onlar Hz. Peyğəmbərin səfərdə və yağmurlu havada bu namazları birləşdirərək qıldığını bildirən hədislərə əsaslanmışlar.

İPƏKYOLU NƏŞRİYYATI

3. Ramazan orucunu sonraya saxlamaq

Yolçu istəsə, Ramazan orucunu tutmayaraq sonraya saxlaya bilər. Quranda belə buyurulur: **"Sizdən kim xəstə olar və ya səfərdə olarsa, tutmadığı orucu sayı qədər başqa günlərdə tutsun"** (Bəqərə, 2/184).

Hz. Aişə Mədinədən Məkkəyə ümrə üçün Allahın Rəsulu ilə birlikdə səfər edib Məkkəyə çatdıqda belə demişdir: "Ey Allahın Elçisi! Mən namazlarımı bəzən qısa, bəzən də tam qıldım. Oruc tutdum, tutmadığım vaxt da oldu. Rəsulullah (s.ə.s) gözəl etdiyini bildirdi və onu qınamadı".

4. Məstlər üzərinə üç gün məsh etmə

Məstlər üzərinə məsh etmə müddəti müqim (bir yerdə yaşayan) üçün bir gün, səfəri üçün üç gündür. Ancaq bu müddət bitməsə də, cünubluq səbəbi ilə məstlər çıxarılmalıdır.

İPƏKYOLU NƏŞRİYYATI

5. Səfərdə nafilə namazlar

Hənəfilərə görə, səfər zamanı qaldığın yerdə, əgər rahatlıq və təhlükəsizlik varsa, fərzlərə bağlı müəkkəd Sünnələri qılmaq lazımdır. Hədisdə: *"Sizi atlar qovsa da sübh namazının iki rükət Sünnəini tərk etməyin"*,-buyurulmuşdur (Əbu Davud, Tətəvvü, 3). Xeybər müharibəsindən qayıdarkən dayandıqları yerdə *sübh* namazına yatıb qaldıqlarına görə, günəş çıxdıqdan sonra, əvvəl iki rükət namaz qılınmış, sonra Allahın Rəsulu fərzi qıldırmışdır. Hz Peyğəmbərin səfər zamanı nafilə namazları miniyin üzərində, minik hansı tərəfə dönərsə dönsün ima ilə qıldığı da nəql edilmişdir. Səfər vaxtı qorxu, zaman məhdudiyyəti kimi çətinliklər varsa, nafilə namazını qılmaq lazım deyil. Əbu Musadan (r.ə) edilən rəvayətə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Bir kimsə xəstələnər və ya səfərdə olarsa, əməl əskikliyi olarsa, ona sağlam və müqim olarkən etdiyi əməllərin bənzəri yazılar"* (Buxari, Cihad, 56).

Məzhəb imamlarının əksəriyətinə görə, səfərdə sübh namazının Sünnəsindən başqa fərzlərə bağlı nafilə namazlara ehtiyac yoxdur. Dəlil Abdullah ibn Ömərdən nəql edilən bu hədisdir: "İbn Ömər Məkkə səfəri zamanı yoldaşlarına günorta və ilkindi namazlarını iki-iki qıldırmışdır. Günorta namazından sonra, bəzi insanların Sünnə namaz qıldıqlarını görəndə: "Əgər mən Sünnə namazı qılmalı olsaydım, fərzi dördə tamamlayardım", - demiş və bu hədisi nəql etmişdir: "Mən Rəsulullah (s.ə.s) ilə birlikdə səfərdə oldum, o vəfat edənə qədər iki rükətdən artıq qılmadı. Əbu Bəkr (r.ə) ilə birlikdə oldum, o da vəfat edənə qədər iki rükətdən artıq qılmadı. Ömər və Osmanla bilikdə oldum. Onlar da vəfat edənə qədər iki rükətdən artıq qılmadılar. Allah-Təala belə buyurur: **"Şübhəsiz sizin üçün Allahın Rəsulunda gözəl bir örnək vardır"** (Müslim, Müsfirun, 8). Nəvəvi (ö. 676/1277) bu hədislə əlaqədar olaraq: "Bəlkə də, Peyğəmbər (s.ə.s) nafilələri minik üzərində və ya çadırında qıldığı üçün İbn Ömər onu görməmişdir!" izahını vermişdir.

İPƏKYOLU NƏŞRİYYATI

B. XƏSTƏ OLANLARIN NAMAZI

Burada nəzərdə tutulan xəstə ayaq üstə namaz qıla bilməyəcək qədər fiziki baxımdan xəstə olan insan və ayaq üstə namaz qıldığı təqdirdə xəstəliyi artan, yaxşılaşması çətinləşən kəsdir.

Xəstə aşağıdakı kimi namazlarını qıla bilər:

1. Oturaraq: ayaq üstə dayanmağa gücü çatmayan və ya ayaq üstə dayandığı təqdirdə xəstəliyinin uzanması, yaxud da çoxalmasından qorxan bir xəstə oturduğu yerdə rüku və səcdələri edərək namazını qılmalıdır. Rüku və səcdələri edə bilməzsə, ima ilə qılmalıdır. Belə ki, başını bir az əyməli, səcdədə rükudan bir az çox əyməlidir. Səcdədə başını yerə qoya bilməyən yerə bir şey qoyub onun üzərinə səcdə edə bilməz.

Oturaraq namaz qılan diz üstə otura bilmirsə, ayaqlarını qibləyə uzadıb oturar. Bir şəxs ayaq üstə dayana bildiyi halda rüku və səcdələri edə bilmirsə, ayaq üstə ima ilə qılması caiz olsa da, oturaraq ima ilə qılması daha məqsədəuyğundur. Baş hərlənməsi ucbatından ayaq üstə dayana bilməyən oturaraq namazını qılmalıdır.

2. Yataraq: oturaraq namaz qıla bilməyən, arxası üstə yatıb rüku və səcdələri baş işarəsi ilə edərək namazlarını qılmalıdır. Bu formada namaz qılanın üzünün qibləbyə tərəf yönəlməsi üçün başının altına yastıq qoyması məqsədəuyğundur.

3. İma (işarə) ilə: çox yaşlı və aciz olan xəstə yan tərəfinə yatıb üzünü qibləyə çevirərək və ya sağ tərəfinə dönərək başını oynadıb ima ilə namazını qılmalıdır. Hənəfi məzhəbinə görə, yalnız göz ilə ima yoxdur. Qibləyə yönəlməkdən aciz olan xəstə gücünün çatdığı istiqamətə tərəf qıla bilər.

Başını əyməklə ima ilə namaz qılmağa gücü çatmayan namazını sonraya qoyar. Hənəfi məzhəbinə görə, xəstənin bu vəziyyəti bir gündən çox davam edərsə, qıla bilmədiyi namazları qəza etməsinə ehtiyac yoxdur. Lakin acizliyi altı namaz vaxtından az davam edənin acizlik halı aradan qalxan kimi qıla bilmədiyi namazlarını qəza etməlidir.

C. KEÇMİŞ NAMAZLARIN QƏZASI

Həddi-büluğa çatmış müsəlman hər bir namazını vaxtında qılmalıdır. Namazın vaxtında qılınmasına əda deyilir. Vaxtında qılınmayan namazın daha sonra qılınmasına isə qəza deyilir. Namaz qəza edilməklə də yerinə yetirilmiş olur, lakin namazı bilərəkdən sonraya qoymaq böyük günahdır və Uca Allahdan əfv istəmək lazımdır.

I. Namazı vaxtında qılmamağın günahı

Namaz üçün ən mühüm məsələlərdən biri onun vaxtlı-vaxtında qılınmasıdır. Qurani-Kərimdə belə buyurulur: **"Şübhəsiz ki, namaz möminlərə bəlli vaxtlarda fərz edilmişdir"** (Nisa, 4/103). Rəsulullahdan (s.ə.s) əməllərin ən fəzilətli olanı haqqında soruşulmuş o da: *"Vaxtında qılınan namazı"*,-buyuraraq cavab vermişdir (Buxari, Məvaqitüs-səlat, 5). Namazı vaxtında qılmayıb tərk edən ilə şirk və küfr arasında bir maneə qalmaz və imanı təhlükəyə girər. Hz. Peyğəmbər (s.ə.s): *"İnsan ilə küfrə düşmək arasında namazı tərk etmək var"*,-buyurmuşdur (Müslim, İman, 134).

Namazını unudaraq və ya yatıb qalaraq vaxtında qıla bilməyən bunu ən qısa vaxtda qəza etməlidir.

II. Namazın qəzası ilə bağlı hökmlər

Unudaraq və yatıb qalaraq, yaxud da üzrsüz qılınmayan namazlar mütləq qəza edilməlidir.

Hansı namazlar qəza edilməlidir?

İPƏKYOLU NƏŞRİYYATI

1. Beş vaxt namazın fərzlərini qəza etmək fərzdir. Vitr namazının qəzası isə vacibdir.

Bir namaz qəza edilən zaman qəzaya qaldığı vəziyyət nəzərə alınır. Belə ki, yolçuluqda qılınmamış bir namaz harada qəza edilirsə edilsin səfərilik hökmlərinə uyğun qəza edilməlidir. Məsələn, səfərdə qəzaya qalmış günorta, ilkindi və yatsı namazlarının fərzi iki rükət olaraq qəza edilir. Müqim ikən qəzaya qalmış bir namaz da səfərdə qəza edilsə belə yenə də dörd rükət qəza edilməlidir.

2. Sübh namazının Sünnəsi və fərzi həmin günün istiva vaxtına qədər qəza edilə bilər. Günorta və cümə namazının ilk Sünnəsi fərzləri qılındıqdan sonra son Sünnələrindən əvvəl və ya sonra qılına bilər. Digər Sünnələrin isə qəzası yoxdur. Namazları qəzaya qalanın namazlarını qəza etməsi, nafilə namaz qılmasından daha yaxşıdır. Hənəfi məzhəbinə görə, qəza namazı olanın vaxtı bəlli nafilə namazlar ilə rəvatib sünnələri tərk etməsi düzgün deyil.

İPƏKYOLU NƏŞRİYYATI

III. Namazların qəza edilmə qaydası

Yuxu, unutma, qəflət və ya məşru olmayan səbəblərə görə namazları vaxtında qıla bilməyən üçün iki xüsus var:

1. Bu namazların sayı beş və ya daha az olarsa, həmin adama "tərtib sahibi" deyilir. Xüşu ilə namazlarını qılıb tərtib sahibi olaraq bu dünyadan köçən üçün Allah və Rəsulunun himayəsi olacaq və bu hal onun cənnətə girməsini asanlaşdıracaqdır.

2. Qıla bilmədiyi namazların sayı altı və ya daha çox olarsa, həmin şəxs artıq tərtib sahibi deyil.

Tərtib sahibi qılacağı qəza namazlar birdən çox olarsa, ilk əvvəl qəzaya qalan namazdan etibarən sıra ilə (sübh, günorta, ilkindi, axşam və yatsı kimi) qəza etməlidir. O, qəza namazlarını qılıb qurtarmadan içində olduğu vaxtın namazını qıla bilməz. Əvvəlcə qəzalarını qılmalı, sonra da vaxtın namazını qılmalıdır. Bundan əlavə, namaz qılınmayan üç vaxtdan başqa digər vaxtlarda namazlar daim qəza edilə bilər.

İPƏKYOLU NƏŞRİYYATI

D. İMAMLIQ VƏ CAMAAT

"Camaat" namaz qılarkən imama tabe olan və ya olanlar mənasına gəlir. Ən azı bir nəfər, ən çoxu üçün isə hər hansı məhdudiyyət yoxdur. "İmam" kəlməsi isə rəhbər mənasına gəlsə də, namaz məsələləri ilə bağlı namaz qılarkən camaatın tabe olduğu kəsdir.

I. Camaatın fəziləti və hökmü

Camaat imamla imama tabe olanlar arasında meydana gələn əlaqə və mənəvi vəhdətdir. İslam öz mənsublarının bir yerə toplanıb böyük və ya kiçik cəmiyyətlər meydana gətirmək üçün bir sıra ibadətləri və sosial əlaqələri vasitə etmişdir. Bir gün və gecədə beş vaxt namazın birgə qılınması, həftədə bir dəfə cümə namazının və ildə iki dəfə bayram namazlarının daha böyük topluluqlar tərəfindən qılınması, eləcə də ildə bir dəfə bütün müsəlman aləmindən imkanlı və səfər etməyə gücü çatan müsəlmanların Ərəfatda həcc üçün cəmləşmələri məhz bunlar arasında sayıla bilər.

Camaatla namazın mövcudluğu Quran, Sünnə və İcma dəlillərinə istinad edilir.

Uca Allah buyurur: **"**(Ya Rəsulum!) **Sən** (əsgərlərin) **içərisində olub onlara namaz qıldırdığın zaman onlardan bir dəstə sailahlarını** (özlərilə) **götürsünlər"** (Nisa, 4/102). Məhz bu ayədə Uca Allah cihad əsnasında, qorxulu anlarda belə camaatla namaz qılmağı əmr etmişdir. Qorxulu vəziyyətdə camaatla namaz əmr edilirsə, deməli əmin-amanlıq şəraitində camaatla namaz qılmaq labüddür.

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbər (s.ə.s) camaatla namazı təşviq edərək belə buyurmuşdur: *"Camaatla qılınan namaz, təkbaşına qılınan namazdan iyirmi yeddi dərəcə daha fəzilətlidir (üstündür)"* (Buxari, Azan, 30). *"Hər kəs təmizliyini tam və mükəmməl edər, sonra bu məscidlərdən birinə getmək üçün yola çıxarsa, Allah atdığı hər bir addıma bir savab yazar, onu bir dərəcə yüksəldər və ondan hər bir addım üçün bir günahı da silər"* (Müslim, Məsacid, 257).

Cümə namazı istisna olmaqla ən üstün camaat sübh namazındakı camaat, sonra yatsı (işa) namazındakı camaat, daha sonra da ilkindi namazındakı camaatdır. Bunun dəlili iki hədisdir: Əbu Hüreyrədən (r.ə) rəvayət edildiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Əgər insanlar azan ilə birinci cərgənin savabını bilsəydilər və sonra da bunları etmək üçün püşk atmaqdan başqa çarə tapmasaydılar, püşk atardılar. Namazı ilk vaxtında qılmağın savabını bilsəydilər, bunun üçün yarışardılar. Yatsı (işa) namazı ilə sübh namazının fəzilətini bilsəydilər, imək ləyərək də olsa bu namazları camaatla qılmağa gələrdilər"* (Buxari, Azan, 9, 32). Osman ibn Əffan (r.ə) Rəsulullahın (s.ə.s) belə buyurduğunu rəvayət etmişdir: "*Kim gecə (işa) namazını camaatla qılarsa, gecə yarısına qədər namaz qılmış kimi savab alar. Sübh namazını da camaatla qılarsa, bütün gecəni namaz qılaraq keçirmiş kimi savab alar*" (Buxari, Azan, 34).

Hənəfi və malikilərdə cümə namazı istisna olmaqla digər fərz namazları camaatla qılmaq, iqtidarı olan və ruhi xəstə olmayan kişilər üçün müəkkəd Sünnədir. Məhz bu səbəbdən qadınlara, uşaqlara, ruhi xəstələrə, yataq xəstəsi olanlara, xəstələrə, çox yaşlılara camaatla namaz qılmaq üçün məscidə getmək şərt deyil. Camaatla namazın Sünnə olması "camaatla namazın təkbaşına qılınandan iyirmi yeddi dərəcə daha fəzilətli olduğunu" bildirən hədisin açıq olan mənasına istinad edilir.

Şafeilikdə isə, fərz namazlar üçün camaata davam etmək azad və bir yerdə məskunlaşmışlar üçün fərzi-kifayədir. Beləliklə də, fərz namazların camaatla qılınması İslamın simvolu olmuşdur. Məhz buna görə, bir bölgə xalqının hamılıqla camaatla namazı tərk etmələri caiz deyildir. Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Üç kişi bir kənddə və ya səhrada məskunlaşıb öz aralarında camaatla namaz qılınmazsa, şeytan onlara hakim olar. Belə olan halda camaatdan ayrılma! Çünki sürüdən ayrılan qoyunu qurd qapar"* (Əbu Davud, Səlat, 47).

Hənbəlilərə görə, camaatla namaz qılmaq fərzi-eyndir. Bu rəyin istinad olunduğu dəlil: **"Sən onların içində olub namaz qıldırdığın zaman…"** mənasındakı daha əvvəl də qeyd edilən ayədir. **"Rüku edənlərlə birlikdə rüku edin!** (Bəqərə, 2/43) ayəsi də məhz bunu dəstəkləyir. Sözügedən dəlillərdən başqa hənbəlilər başqa müxtəlif hədislərə də əsaslanırlar. Belə ki, Hz. Peyğəmbər buyurmuşdur: *"Həyatım əlində olana and olsun ki, od qalamaq üçün odun yığılmasını əmr etməyi, sonra da namaz üçün azan oxunmasını, daha sonra birisinə əmr edib imam olmağını, sonra da camaatla namaza gəlməyənlərə gedib evlərini yandırmağı fikirləşdim"* (Buxari, Azan, 29, 34).

Hənəfi və şafeilərə görə, camaatın ən az sayı imam və ona tabe olanlarla birlikdə iki nəfərdir. Hətta tabe olan şəxs uşaq da ola bilər. Çünki Hz. Peyğəmbər (s.ə.s) təhəccüd namazında uşaq yaşda olan İbn Abbasa (r.ə) imamlıq etmiş və bir hədisdə: *"İki nəfər və daha çoxu camaatdır"* (Zeyləi, *Nəsbur-Rayə,* II, 198) ,-buyurmuşdur.

II. Camaat namazına getməmək üçün üzr sayılan hallar

Bir üzr olmadıqca camaat namazına davam etmək lazımdır. Aşağıdakı üzrlər səbəbi ilə camaat namazına getməmək mübah hesab edilmişdir:

1. Xəstəlik: təyəmmüm etmək mübah olacaq dərəcədə xəstəlik və ya iflic olmaq. Yüngül baş ağrısı, yüksək olmayan qızdırma kimi narahatçılıqlar, eləcə də yeriməyə mane olmayan iflic də üzr hesab edilməmişdir.

Xəstəliyin üzr olması ilə əlaqədar dəlil **"**(Allah) **sizin üçün dində heç bir çətinlik yeri qoymadı"** (Həcc, 22/78) ayəsidir. Bundan əlavə, Rəsulullah (s.ə.s) xəstələndikdə məscidə çıxmadı və buyurdu: *"Əbu Bəkrə deyin, insanlara namaz qıldırsın"* (Buxari, Ənbiya, 19; Azan, 46, 47, 51; Etisam, 5).

İPƏKYOLU NƏŞRİYYATI

Bununla yanaşı qrip, vərəm mikrobu daşıyıcısı kimi sahibini yatağa düşürməyən, ancaq yoluxucu xəstəliyə tutulanların məscidə getməməsi, ya da getdiyi təqdirdə xəstəliyin başqasına yoluxmaması üçün tədbirlər alması labüddür.

2. Bədən üzvlərindəki şikəstliklər: görmə qabiliyyətinin itirilməsi, yataq xəstəliyi, qocalıq, iflic olma kimi xəstəliklər camaat namazına getməməyi mübah edir.

3. Qorxu: məscidə getdiyi təqdirdə əmlakına, canına, ya da namusuna zərər gəlməsindən qorxan hər bir kəs camaat namazına getməyə bilər. Hz. Peyğəmbərin *"Azanı eşidən kəs üzr olmadan camaat namazına getməzsə, onun namazı yoxdur"* buyurması müqabilində əshabdan birisi üzrün nə olduğunu soruşmuş və Allahın Elçisi: *"Qorxu və xəstlikdir"*, - deyə cavab vermişdir (İbn Macə, Məsacid, 17).

4. Pis hava şəraiti: yağış, palçıq, şiddətli qar və dolu, şiddətli soyuq, şiddətli isti, şiddətli külək, zülmət qaranlıq kimi hava şəraiti vaxt namazlarına olduğu kimi cümə namazına iştirak etməmək üçün də üzrdür. Abdullah ibn Ömərdən (r.ə) belə dediyi rəvayət edilmişdir: *"Səfərdə Hz. Peyğəmbərlə birlikdə ikən, gecə qaranlıq və ya palçıqlı olduqda, birisi belə səsləndi: "Namazı miniklərinizin yanında qılın!"* (Şövkani, *e.a.ə.,* III, 155)

5. Dəstəmazın təzədən alınmasına ehtiyac duyulması: çünki sözügedən hal namazın xüşu ilə yerinə yetirilməsinə manedir. Belə ki, insanın qəlbini, fikrini məşğul edəcək dərəcədə aclıq və susuzluq halı, yemək hazır olduqda təkbaşına, ya da camaatla namaz qılmaq da məkruh hesab olunmuşdur. Oruclu haqqında aclıq və susuzluq, camaat namazına iştirak etməmək üçün üzr sayılmır, çünki yemək-içmək oruclunun qəlbini məşğul etməz.

6. Qoxulu və qoxusunu aparmaq mümkün olmayan çiy olan bir qida maddəsi yemək: soğan və sarımsaq kimi şeyləri yeyən hər kəs bunların qoxusu gedənədək camaatla namaza getməməlidir. Hədisdə buyurulur: *"Soğan və ya sarımsaq yeyən evində otursun, bizdən və məscidimizdən uzaq dursun!"* (Buxari, Azan, 160; Etisam, 24)

7. Bir yerdə həbs olunmaq: Uca Allah buyurmuşdur: **"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər** (bir işə mükəlləf edər)**"** (Bəqərə, 2/256).

8. Müsəlman cəmiyyətində hər bir kəs üçün vacib olan və ya cəmiyyət üçün kifayət sayda fərz olan elmləri araşdırmaq və bunların təlim-tərbiyəsi ilə məşğul olmaq da camaatla namaza iştirak etməmək üçün bir üzr sayılır. Bununla yanaşı elmi fəaliyyətlə məşğul olanların camaatla namazı tamamilə tərk etməməsi və imkan tapan kimi camaatla namaza iştirak etməsi məqsədəuyğundur.

Camaata mütəmadi olaraq getmək istədiyi halda, məqbul bir üzr səbəbindən nizamlı bir şəkildə davam etməkdən məhrum olan kəs də niyyətinə görə camaatla namaz savabına nail olur.

İPƏKYOLU NƏŞRİYYATI

Nəticə etibarilə, hənəfilikdə camaatla namaza iştirak etməməyi mübah edən üzrlər on səkkiz maddədən ibarət olub bunlardır: yağış, soyuq, qorxu, qaranlıq, həbs cəzası, kor olmaq, iflic olmaq, çarpazlama əlin və ayağın kəsilmiş vəziyyətdə olması, xəstəlik, yatalaqlıq, palçıq, zəiflik, yaşlılıq, fiqh elmi ilə məşğul olmaq, nəfsin çəkdiyi bir yeməyin hazır olması, səfərə getmək üzrə olmaq, xəstəyə baxmaq, gecə küləyin sərt əsməsi. Gündüz əsən şiddətli külək isə üzr sayılmamışdır. Çünki gündüz işıqlı olduğu üçün təhlükədən qorunmaq mümkündür.

İPƏKYOLU NƏŞRİYYATI

III. İmamlıq və xüsusiyyətləri

Bir şəxs camaata namaz qıldıra bilməsi üçün müsəlman bir kişi olmalı, həddi-büluğa çatmalı, ruhi xəstə olmamalı, eləcə də "Fatihə" surəsi ilə namaz qıldıracaq qədər bəzi surə və duaları düzgün bir şəkildə bilməli və üzr sahibi olmamalıdır.

Bir məscidin təyin olunmuş imamı varsa, namazı o qıldırmalıdır. Ancaq imam istədiyi təqdirdə camaatdan səlahiyyətli bir şəxsi namaz qıldırması üçün keçirə bilər. Bir şəxs başqa bir məzhəbə bağlı təqvalı olan bir imamın arxasında namaz qıla bilər.

İslamın ilk dövrlərində imamlıq edənlərin dini məlumatlarının çox olmasına, həyat tərzlərinin dinə uyğun olmasına diqqət yetirilirdi.

İmamlıq edə bilən və ya imamlıq etmək istəyənlər birdən çox olarsa, imamda aşağıdakı xüsusiyyətlər olmalıdır:

1. Namaza aid hökmləri və fiqhi ən yaxşı bilən,
2. Quranı qaydalarına uyğun ən yaxşı oxuyan və ya hafiz olan,
3. Haram və şübhəli şeylərdən daha çox uzaq duran,
4. Daha yaşlı, əxlaqı daha üstün, səsi daha yaxşı və üst-başı təmiz olana üstünlük verilir.

Evdə qılınan namazda ev sahibi səlahiyyətli olarsa, onun qıldırması daha yaxşıdır.

Aşağıdakıların imam olmaları caiz deyil:

1. Qadınların kişilərə;
2. Üzr sahibi olanın üzrsüz olana;
3. Dilsizin ümmiyə (oxumağı və yazmağı bilməyənə);
4. Xəriflərin ağlı başında olanlara.

Cahil və fasiq olanın imamlıq etməsi məkruh qəbul edilmişdir. İmamdakı pis bir xüsusiyyətdən ötrü camaat onu istəməzsə, o imamın oradakı camaata namaz qıldırması məkruhdur. Bundan əlavə, imam tədili-ərkana uyğun namaz qıldırmalıdır. Ancaq cümə, bayram və fərz namazları qıldırarkən qiraət və namazdakı rüknləri uzun-uzadı edərək camaatı bezdirici tərzdə qıldırması məkruhdur. Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Kim insanlara imamlıq edərsə, yüngül qıldırsın. Çünki onların içində zəif, xəstə və yaşlı olanı var. Kim öz-özünə qılarsa, istədiyi qədər uzatsın"* (Buxari, Azan, 21).

MÜZAKİRƏ EDİN

İmamlığa layiq olmada hafizlik şərtinin olmamasını sinifdə müzakirə edin

IV. Camaatla namaz qılma qaydası

Namazı camaatla qılanlar aşağıdakılara əməl etməlidirlər:

1. Camaatdan hər kəs imama tabe olmağa niyyət edər, məsələn; "Niyyət etdim bugünkü sübh namazının fərzini qılmağa, tabe oldum hazır olan imama" sözləri ilə niyyət edər. Sonra imam əllərini qaldırıb bərkdən "Allahu əkbər" deyərək namaza başlayar. Camaat da əllərini qaldıraraq gizlincə "Allahu əkbər" deyib imamla birgə namaza başlayarlar. İmam və camaat "Sübhanəkə"ni gizlincə oxuyarlar, sonra camaat susar. Abdullah ibn Ömərdən (r.ə) belə dediyi rəvayət edilmişdir. "Sizdən hər kim imamın arxasında namaz qıldıqda, ona imamın qiraəti kifayətdir. Təkbaşına namaz qıldıqda isə özü oxusun". İmam yavaşdan "əuzu" və "bəsmələ" oxuyar, qiraət edərək namazı aşağıdakı kimi qıldırar.

Sübh namazı ilə axşam və yatsı (işa) namazlarının ilk iki rükətlərində və vitr namazının hər üç rükətində, cümə və bayram namazlarının bütün rükətlərində "Fatihə" ilə əlavə etdiyi ayələri bərkdən, yəni camaatın eşidə biləcəyi bir səslə oxuyar, digər təkbirləri, təsmiləri (səmiallahu limən hamidəh) və salamları bərkdən deyər. Axşam namazının üçüncü və yatsı namazının üçüncü və dördüncü rükətləri ilə, günorta və ilkindi namazının bütün rükətlərində təkbirləri, təsmiləri və salamları bərkdən, "Sübhanəkə" ilə qiraəti də astadan oxuyar.

2. İmam sübh namazının ilk rükətində oxuduğu ayələri, ikinci rükətdə oxuduğu ayələrdən daha uzun oxuması sünnədir.

3. Camaat təkbirləri yavasdan alar. İmam rükudan qalxarkən bərkdən "Səmiallahu limən hamidəh" və yavasdan "Rabbənə ləkəl-hamd" deyər. Əbu Hənifədən gələn başqa bir rəvayətə görə, imam "Rabbənə ləkəl-hamd" deməz. Bunu astadan yalnız camaat deyər. Eləcə də camaat rükuda imamla birgə astadan üç dəfə "Subhanə rabbiyəl-azim (uca olan Rəbbimi hər cür nöqsanlıqdan uzaq tuturam)", səcdələrdə də üç dəfə "Subhanə rabbiyəl-ələ (ən uca olan Rəbbimi hər cür nöqsanlıqdan uzaq tuturam)" deyərlər.

4. İmam ilə camaat birinci oturuşlarında yalnız "təhiyyatı", ikinci oturuşlarında "təhiyyat" ilə birlikdə "salli-barik" və "Rabbənə ətinə…" dualarını astadan oxuyarlar. İmam əvvəlcə sağ tərəfə, sonra da sol tərəfə bərkdən salam verdikdə, camaat da onunla birlikdə salam verər.

İmam bərkdən oxuduğu "Fatihə"nin axırında astadan "amin" deyər, camaat da astadan "amin" deyər.

5. İmam salam verdikdən sonra müəzzin bərkdən:

أَللَّهُمَّ أَنْتَ السَّلَامُ وَمِنْكَ السَّلَامُ تَبَارَكْتَ يَا ذَا الْجَلَالِ وَالْإِكْرَام

"Allahummə əntəs-sələmu və minkəs-sələm, təbəraktə yə zəl-cələli vəl-ikram" deyər.

Mənası: *"Allahım, sən Salamsan, bütün nöqsanlıqlardan uzaqsan. Dünya və axirət salamatı sənin yardımınla olar. Ey cəlal və ikram sahibi olan Allahım, Sən müqəddəssən, ucalığa həqiqi mənada layiqsən!"*

Fərzin arxasından Sünnə varsa qılınar, daha sonra Hz. Peyğəmbərə salavat gətirilər. Ya müəzzin bərkdən və ya imam ilə camaatdan hər biri astadan "Ayətül-kürsi"ni oxuyar, otuz üç dəfə "sübhanəllah", "əlhamdülilləh", "Allahu əkbər" deyərlər. Bunların sayı, sağ əlin barmaqları ilə sayıla bildiyi kimi, təsbehlə də sayıla bilər.

6. Yuxarıda qeyd edilən təsbehlərdən sonra müəzzin bərkdən:

لَا اِلَهَ إِلَا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْئٍ قَدِيرٌ سُبْحَانَ رَبِّيَ الْعَلِيِّ

الْأَعْلَى الْوَهَّاب

İPƏKYOLU NƏŞRİYYATI

"Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-hamdu və huvə alə kulli şeyin qadir, subhanə Rabbiyəl-aliyyil-ələl-vəhhəb" deyər. Duadan sonra imam və camaat iki əllərini təbərrükən üzlərinə sürtərlər.

Təkbaşına namaz qılanlar da bunları oxuyarlar. Bunlar namazın müstəhəblərindəndir və bunlara riayət edənlər böyük savab qazanarlar.

7. Namazların vaxt, rükn və rükətlərinə riayət olunaraq qılınması, Hz. Peyğəmbərdən təvatür yolu ilə rəvayət olunmuş, eləcədə bu mövzuda əsrlərdən bəri icma meydana gəlmişdir. Rəsulullah (s.ə.s): *"Namazı mənim qıldığım kimi qılın!"* - buyurmuşdur. Məhz bu səbəbdən Hz. Mühəmmədin (s.ə.s) qıldığı namazlara zidd düşən bir namaz İslam dini nəzərində mötəbər deyil.

İPƏKYOLU NƏŞRİYYATI

V. Qadınların camaatda kişilərlə bir cərgədə dayanmaları (mühazat)

İmamın arxasındakı cərgələrdə kişilər safda dayanmalı, sonra oğlan uşaqları və ən axırda da qadınlar cərgədə dayanmalıdırlar. Qadınların kişilərdən arxada safda dayanmaları şərtdir. Camaatla namaz qılınarkən bu şərt yerinə yetirilməz, qadınlar kişilərlə arada hər hansı maneə olmadan eyni cərgədə yanbayan və ya kişilərdən qabaqda dayansalar, sağında, solunda və ya tam qabağında qadın olan kişilərin namazları pozular.

VI. İmamın arxasında namaz qılanların halları

İmama tabe olaraq namaz qılana "müqtədi" deyilir. Müqtədi üç qisimdir:

1. Müdirk: namazın hamısını imamla birlikdə qılan şəxsə müdrik deyilir. İmama ən gec ilk rükətin rükusunda yetişən şəxs həmin rükətə çatmış sayılır. Bu şəxs ayaq üstə iftitah təkbirini almış və imam rükuda olarkən rükuya getmişsə, o rükəti tam qılmış sayılır. Namazı camaatla qılmağın savabı təkbaşına qılmaqdan iyirmi yeddi dəfə daha çox olduğu üçün bu vəziyyətlərdə təkbaşına qılınan namaz tərk edilərək imama uymaq lazımdır:

Bir şəxs təkbaşına bir fərz namazı qılmağa başladıqdan sonra, olduğu yerdə o fərz namaz camaatla qılınmağa başlanılsa, təkbaşına qılan səcdəyə getməyibsə, namazı dərhal kəsərək imama uyar ki, bu müstəhəbdir. Belə bir vəziyyətlə qarşılaşanın salam verməsi lazım deyil. Ədəbə uyğun olsun deyə sağ tərəfə salam verməyin düzgün olduğunu deyənlər də vardır. Təkbaşına qıldığı namazda birinci rükətin səcdəsində olanın, əgər qıldığı namaz sübh və axşam namazıdırsa, bu namazları buraxaraq imama uyar. Lakin bunların ikinci rükəti üçün səcdəyə gedibsə, namazı tərk etməyərək tamamlayar, salam verdikdən sonra isə camaatın namazda olmasına baxmayaraq onun imama uyması lazım deyil. Çünki imamla qılacağı namaz nafilə hökmündədir. Sübh namazının fərzindən sonra nafilə qılınmadığı üçün, üç rükətli namaz da nafilə olaraq qılına bilməz.

Əgər başladığı və ilk rükətin səcdəsini etdiyi namaz günorta, ilkindi və yatsı namazıdırsa, qıldığı bir rükətə bir rükət də əlavə edib təşəhhüddə oturaraq salam verər, sonra da imama tabe olar. Özünün qıldığı iki rükət isə nafilə hökmünə keçər.

Belə bir namazın üçüncü rükətində olan, lakin hələ səcdəyə getməyən şəxs dərhal ayaq üstə və ya oturaraq salam verib namazdan çıxar, imama tabe olar, təkbaşına qıldığı iki rükət isə nafilə sayılar. Lakin bu namazın üçüncü rükətinin səcdəsini etmişsə, bu namazı axıra qədər qılar və bununla da fərzi yerinə yetirmiş olar. Ancaq bu namaz günorta və ya yatsı namazı olarsa, təkbaşına qıldığı bu fərzdən sonra yenə imama tabe ola bilər. İmamla qılacağı namaz nafilə hökmünə keçər. Ancaq ilkindi namazında belə edə bilməz. Çünki ilkindi namazından sonra nafilə namaz qılmaq məkruhdur.

Nafilə bir namaza başlamış bir şəxsin yanında camaatla namaz başlansa, bu nafiləni iki rükət qılaraq camaata qatılar. Üçüncü rükətə qalxıbsa, onu da dördüncü rükətə tamamlayar. Amma nafilə namaza başlayan şəxs, qılınmağa başlayan bir cənazə namazına çatmayacağından qorxarsa, nafilə namazı dərhal tərk edərək cənazə namazı üçün imama uyar. Sonra isə nafiləni qəza edər. Çünki cənazə namazının qəzası mümkün deyil.

Camaatla sübh namazının qılındığını görən şəxs camaata çata biləcəyini düşünürsə, dərhal sübh namazının Sünnəsini qılar və əgər lazım gələrsə, sübhanəkə, əuzu və əlavə suräni buraxaraq yalnız "Fatihə" ilə kifayətlənə bilər. Bundan sonra imama tabe olar. Ancaq imama çatmayacağından qorxarsa, Sünnəni qılmadan imama tabe olar, Sünnəni qəza etməz, əgər Sünnəyə başlayıbsa, bunu tamamlayar.

Günorta, ilkindi və yatsı namazlarının camaatla qılındığını görən şəxs bunların Sünnəsini qılmadan imama tabe olar, sonra günortanın dörd rükət Sünnəsini qəza edər, lakin ilkindinin Sünnəsini kərahət vaxtı olduğu üçün qəza edə bilməz. Yatsı namazının Sünnəsini isə qeyri-müəkkəd bir Sünnə olduğu üçün istəsə qılar, istəsə tərk edər.

2. Lahiq: imamla birlikdə namaza başlamasına baxmayaraq namazın bütün rükətlərini və ya bir hissəsini imamla qıla bilməyən şəxsə lahiq deyilir. İmamla namaza başladığı təqdirdə yuxu, narahatlıq, xəyala dalma, dəstəmazın pozulması kimi səbəblərə görə, üzrsüz (məsələn, imamdan əvvəl rüku və səcdə etmək) namazın hamısını və ya bəzi rükətlərini imamla birlikdə qıla bilməyən şəxs qılmadığı rükətləri qəza edər. Üzrlü səbəbə görə camaat namazını tərk etmək məcburiyyətində qalan şəxs bu səbəb ortadan qalxdıqda danışmadan, dünya işləri ilə məşğul olmadan və əgər dəstəmazı pozulubsa, ən qısa yolla dəstəmaz alaraq qaldığı yerdən namaza davam edə bilər.

Lahiqin hökmü: qılmadığı rükətlərdə başdan ayağa imama uyanın hökmü kimidir. Buna görə də qılmadığı rükətləri qılarkən imama tabe olarkən etdiyi kimi Quran oxumaz, səhv səcdəsi etməz. Qıldığı namazın fərzliyi də dəyişməz. Səfəri olduğu təqdirdə, bu əsnada digər insanlar kimi niyyət edərsə, qıldığı namazı dörd rükət qılar.

Lahiq maneə ortadan qalxdıqda mümkündürsə, qılmadığı rükətləri və rüknləri qəza edər sonra imama tabe olaraq onunla birlikdə salam verər. Məsələn, imama uyan şəxsi birinci rükətin qiyamında yuxu tutsa, imamın səcdəyə getdiyi vaxt ayılsa, dərhal rükuya sonra səcdəyə gedərək imama çatar. Lahiq imama çatmayacağını anlayarsa, dərhal imama tabe olar. Çatmadığı rükət və ya rüknləri imam namazdan çıxandan sonra qəza edər. Məsələn, imama uyan şəxs dördüncü rükətdə olarkən burnu qanayarsa, cərgədən ayrılaraq namaza zidd bir hərəkət etmədən dərhal dəstəmaz alıb imama tabe olar. İmam salam veribsə, bu dördüncü rükəti özbaşına heç bir şey oxumadan, imamın arxasındaymış kimi tamamlayar. Çünki lahiq hökmən imamın arxasında namazını qılmış sayılar.

İmama tabe olanın dəstəmazı üçüncü rükətdə pozulsa, dəstəmaz aldıqdan sonra dördüncü rükətdə imama çatsa, əvvəlcə qiraətsiz üçüncü rükəti qılar. Sonra imama tabe olar, onunla dördüncü rükəti qılaraq salam verər. Ancaq imama bu şəkildə çatmayacağını anlayarsa, dərhal imama tabe olar, imam salam verəndən sonra qalxaraq üçüncü rükəti qiraətsiz qılar. İmam səhv səcdəsi etsə, lahiq hələ namazını tamamlamayıbsa, onunla birlikdə bu səcdələri etməz. Namazını tamamladıqdan sonra bu səcdələri edər. Digər tərəfdən imama birinci rükətdə çatmayan şəxs, çatmadığı rükətlər baxımından məsbuq olduğu kimi, çatdığı rükətlərdən birində bir mane çıxarsa, lahiq sayılar. Belə vəziyyətlərdə məsbuq və lahiqin hökmü eyni şəxsdə birləşər. Əskik rükət və ya rüknləri tamamlayarkən məsbuq və lahiq hökmlərini gözləyər.

Camaat namazının savabından məhrum olmamaq üçün lahiqin hökmlərini yerinə yetirməyin faydaları ilə yanaşı, yuxarıdakı xüsusiyyətlərə diqqət etməyin bəzi çətinlikləri də var. Buna görə də belə vəziyyətdə olan şəxsin namazı yenidən qılması daha uyğundur.

3. Məsbuq: imama birinci rükətin rükusundan sonrakı rükətlərdə tabe olan şəxsə məsbuq deyilir. Son rükətin rükusundan sonra imama tabe olan heç bir rükətə qaçırmış olar.

İPƏKYOLU NƏŞRİYYATI

Məsbuqun hökmü: çatmadığı rükətləri qəzaya başladıqdan sonra təkbaşına namaz qılan şəxs kimidir. Sübhanəkəni oxuyar, əuzu-bəsmələ çəkərək oxumağa davam edər. Çünki bu şəxs qiraət baxımından namazın ilk rükətini qəza edir. Odur ki, qiraəti tərk edərsə, namazı çatmamış sayılır.

Sübhanəkə duasını oxumağın yeri: əgər qılınan namaz günorta və ilkindi namazı kimi astadan oxunan namazdırsa, iftitah təkbirindən sonradır. Əgər bərkdən oxunan namazdırsa, imam qiraətdə ikən çatıbsa, sübhanəkəni oxumadan imamın qiraətini dinləyər, sübhanəkəni özü qəza edəcəyi rükət üçün ayağa qalxanda oxuyar və qiraətdən əvvəl əuzu-bəsmələ çəkər.

Məsbuqla bağlı misallar

1. Sübh namazının ikinci rükətində imama tabe olan məsbuq təkbir alaraq susar. İmamla birlikdə son oturuşda yalnız təhiyyat oxuyar, imam salam verdikdən sonra isə ayağa qalxaraq qılmadığı birinci rükəti qılmağa başlayar. Sübhanəkə və əuzu-bəsmələdən sonra "Fatihə" və müəyyən qədər Quran oxuyar, rüku və səcdələr edər, təhiyyat, salli-barik və Rabbənə duaları oxuyaraq salam verər.

2. Axşam namazının iknci rükətində imama tabe olan, birinci rükət üçün yuxarıdakı kimi hərəkət edər.

Axşam namazının son rükətində imama tabe olan şəxs sübhanəkəni oxuyar, imamla birlikdə o rükəti qılaraq təşəhhüddə oturar, sonra ayağa qalxaraq sübhanəkə və əuzu-bəsmələ çəkər, "Fatihə" və müəyyən qədər Quran oxuduqdan sonra rüku və səcdələr edər. Yalnız təhiyyat oxuyaraq "Allahu əkbər" deyib ayağa qalxar, bəsmələ çəkib, fatihə və bir miqdar Quran oxuduqdan sonra rüku və səcdələri və son oturuşu edərək salamla namazdan çıxar. Belə vəziyyətdə üç dəfə təşəhhüddə oturmuş olar. Bununla yanaşı məsbuq ikinci rükətin sonunda çaşaraq oturmadan ayağa qalxarsa, səhv səcdəsi etməz. Çünki bu rükət birinci rükət hökmündədir.

3. Dörd rükətli bir namazın son rükətində imama tabe olan şəxs imam ilə təşəhhüddə olduqdan sonra qalxar, sübhanəkə, əuzu-bəsmələ, "Fatihə" və müəyyən qədər Qurandan oxuyar, rüku və səcdələrdən sonra oturar, sadəcə təhiyyatı oxuduqdan sonra qalxar, bismillah ilə "Fatihə"ni və müəyyən qədər Quran oxuyub rüku və səcdələrə gedər. Oturmadan qalxar, sadəcə bismillah və "Fatihə" ilə bir rükət qılar. Son oturuşu edər. Təhiyyat ilə salli-barik və Rabbənə atinə dualarını oxuyaraq salam verər.

4. Dörd rükətli namazın üçüncü rükətində imama tabe olan özünün birinci oturuşunu imamın son oturuşu ilə birgə edər. Yalnız təhiyyatı oxuyar, imam salam verdikdən sonra qalxaraq sübhanəkə, əuzu-bəsmələ, "Fatihə" və müəyyən qədər Qurandan oxuyar, rüku və səcdələrdən sonra qalxar, yalnız bəsmələ və "Fatihə" ilə müəyyən qədər Quran oxuyaraq yenə rüku və səcdələrə gedər, son oturuşda təhiyyat, salli-barik və Rabbənə dualarını oxuyaraq namazını tamamlayar.

5. Dörd rükətli namazın ikinci rükətində imama uyan şəxs üç rükəti imamla birgə qıldıqdan sonra ayağa qalxaraq sübhanəkə, əuzu-bəsmələ, "Fatihə" və bir miqdar Quran oxuduqdan sonra rüku və səcdələr edər. Son oturuşu edərək namazı tamamlayar.

İmama ilk rükətin rükusunda yetişən müdrik sayılır. Lakin imama birinci rükətin rükusundan sonra yetişən şəxs o rükəti ötürdüyü üçün məsbuq, çatmadığı rükudan sonra səcdələri imama uyaraq etməsinə baxmayaraq, imam salam verəndən sonra yenidən bu rükəti qəza etməlidir.

Məsbuqun imam salam vermədən qabaq ayağa qalxa biləcəyi vəziyyətlər: Təşəhhüd miqdarı oturduqdan sonra, imam salam vermədən qabaq məsbuqun çatmadığı rükətləri qılmaq üçün ayağa qalxması məkruhdur. Ancaq dəstəmazının pozulma təhlükəsi, günəşin doğması, namaz vaxtının çıxması kimi vəziyyətlərdə məsbuq imamım salam verməsini gözləmədən namazı tamamlaya bilər. İmama birinci rükətdən sonrakı rükətlərdə tabe olan şəxs ötürdüyü rükətləri qəza etmək üçün qalxanda neçə rükət ötürdüyü xatırlamasa, özü ilə birlikdə sonradan imama tabe olan məsbuqun qıldığı qədər namaz qılar.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Hənifəyə görə, məsbuq qurban bayramında təşriq təkbirlərini imam ilə birlikdə alar, daha sonra ayağa qalxıb ötürdüyü rükətləri tamamlayar. Halbuki, bu müctəhidə görə təkbaşına namaz qılan şəxs bu təşriq təkbirləri ilə məsul deyil. Bu mövzuda məsbuq təkbaşına namaz qılan kəs kimi deyil, imama tabe olan kəs kimidir.

İmam daha salam vermədən məsbuq tahiyyatı oxuyub bitirmiş olsa, bir rəyə görə kəlmeyi-şəhadəti təkrar edər, başqa bir rəyə görə isə sakit durar. Bu mövzuda doğru olan məsbuqun təhiyyatı yavaş-yavaş oxumasıdır.

İmam səhvən beşinci rükətə qalxsa, məsbuq da ona tabe olaraq qiyama qalxsa, əgər imam dördüncü rükətdə oturubsa, məsbuqun namazı bu qiyamla fasid olar. Lakin imam dördüncü rükətdə oturmayıbsa, beşinci rükətdə səcdəyə getməyibsə, məsbuqun namazı pozulmaz.

İPƏKYOLU NƏŞRİYYATI

VII. Camaatın imama tabe olması ilə bağlı müxtəlif məsələlər

Camaatla namaz qılınarkən imama tabe olmağa "iqtida", imama tabe olana da "müqtədi" deyilir. Bir şəxsin imama tabe olmasının mötəbərliyi üçün aşağıdakı şərtlər olmalıdır:

1. İmama tabe olan namaza başlayarkən həm namaz qılmağa, həm də imama tabe olmağa niyyət etməlidir.

2. İmama tabe olan imamdan geridə duraraq onun qabağına keçməməlidir. Çünki Rəsulullah (s.ə.s): *"İmam yalnız ona tabe olunmaq üçün seçildi"*,-buyurmuşdur (Buxari, Səlat, 18; Azan, 51, 74, 82, 128, Təqsirus-Səlat, 17, Səhv, 9). Əgər yuxarıdakı hallarda imamla camaat eyni cərgədə durarsa, camaatın namazı kərahətlə birlikdə caiz olar.

Bununla yanaşı, hənəfi və hənbəlilərə görə, Kəbeyi-müəzzəmə ətrafında namaz qılarkən, camaatın imamdan qabağa keçməsi caiz hesab edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

3. Qılınan namazın növünə görə imamla camaatın namazı eyni olmalı və ya imamın namazı camaatın namazından daha üstün olmalıdır. Bu qaydadan hərəkətlə hənəfi və malikilərə görə, nafilə namaz qılan fərz qılan imama tabe olması mümkün ikən, fərz qılanın nafilə qılan imama tabe olması düzgün deyil. Şafei və hənbəlilərə görə isə, tabe ola bilər. Dəlili Muazın (r.ə) Rəsulullahın (s.ə.s) arxasında yatsı (işa) namazını qıdıqdan sonra, gedib qövmünə yatsı namazını qıldırmasıdır.

Günorta və yatsı namazını özbaşına qılan, daha sonra camaata qıldıran imama tabe ola bilər. Belə olan halda camaatla qıldığı namazı nafilə olar və camaat savabı alması ümid edilir. Çünki bu namazlardan sonra nafilə qılmaq caizdir. Belə ki, günorta namazını evində qılan və daha sonra bu namazı camaata qıldırarkən Hz. Mühəmmədin (s.ə.s) yanına gələrək ona tabe olmayan səhabəyə Allahın Rəsulu belə buyurmuşdur: *"Bizim yanımıza gəldiyin halda sənə bu namazı qılmağa mane olan nədir?"* (İbn Hənbəl, IV, 215)

Sübh, ilkindi və axşam namazlarını özbaşına qılanın, daha sonra camaata qıldıran imama tabe olması caiz deyil. Çünki imamla birgə ikinci dəfə qılınan bu namazlar nafilə sayılır. Sübh və ilkindi namazından sonra nafilə namaz qılmaq məkruhdur. Axşam namazı kimi isə üç rükətli nafilə namaz yoxdur. Günorta namazının fərzini qılan bir imama, başqa günə aid bir günorta namazının fərzini qəza etmək üçün tabe olanın tabeçiliyi mötəbər deyil.

İPƏKYOLU NƏŞRİYYATI

Nafilə namaz qılan fərz namaz qılan imama tabe ola bilər. Çünki burada zəif qüvvətliyə istinad edilmişdir. Bunun ziddi isə caiz deyil. Ancaq qüvvətli rəyə əsasən təraveh namazı qılmaq niyyəti ilə, fərz namaz qılan imama tabe olmaq düzgün deyil. Çünki təraveh namazı xüsusi şəkildə qılınan Sünnə olan bir namazdır. Nafilə namaz qılanın nafilə qılan imama tabe olması caizdir. Əhd olunmuş namazı qılanın, əhd olunmuş namazı qıldıran imama tabe olması da düzgündür. Vitr namazının vacib olduğunu qəbul edən, onu Sünnə olaraq qəbul edən imama tabe ola bilər.

Dəstəmazlının təyəmmümlü olana, ayaqlarını yuyanın məstlərinə və ya yarasındakı sarğısına məsh edənə, ayaq üstə olanın oturaraq rüku və səcdə edənə, qaməti düz olanın rüku dərəcəsində qozbel olana tabe olması mümkündür. Lakin İmam Məhəmməd bu kimi mövzularda əks fikirdədir. İşarə ilə namaz qılan, yalnız özü kimi işarə ilə namaz qılana imamlıq edə bilər.

Camaat arasında qadınlar da olarsa, imam qadınlar üçün də niyyət etməli və ya ona tabe olan hər kəsə imam olmaq üzrə niyyətini ümumiləşdirməlidir.

4. İmam ilə ona tabe olan camaat arasındakı məsafə normal uzaqlıqda olmalıdır. Əks təqdirdə imama tabe olmaq etibarsız olar.

Odur ki, imamla ona tabe olanlar arasında bir çay, insanların və avtomobillərin keçdiyi yol və ya boş bir ərazi olar, yaxud Qüds məscidi kimi çox böyük bir məsciddə imam ilə imama tabe olan arasında iki və ya daha çox cərgə sığacaq qədər boşluq olarsa, bu kimi vəziyyətlərdə imama tabe olmaq mötəbər sayılmaz. Ancaq cərgələrin yolu və ya çay üstündəki körpünü əhatə etməsi və boş ərazini doldurması kimi hallarda bir əngəl təşkil etməz. Girişləri ayrı olub aralarında başqa bir əlaqə olmayan mərtəbələrdə də, camaat çölə daşarsa mərtəbələr arasında əlaqə meydana gələ bilər. Hz. Ömərin: "İmamla arasında yol, çay və ya qadınlara məxsus bir cərgə olanın namazı mötəbər deyil",-dediyi rəvayət olunmuşdur.

İmam ilə camaat və ya camaatla öndəki cərgə arasında uzaqlıq olduqda baxılmalıdır; əgər namaz məscidin çölündə qılınar və aradakı məsafə bir cərgə sığacaq qədər az olarsa, imama tabe olmaq düzgündür. Əks təqdirdə tabe olmaq caiz deyil. Ancaq namaz məscid daxilində qılınarsa, bu uzaqlıq imamla camaat arasındakı əlaqəni kəsməz. Bununla belə bəzi fəqihlərə görə, çox böyük məscidlərdə cərgələrarası rabitə olmadan məscidin ən uzaq bir yerində duraraq imama tabe olmaq caiz deyil.

İmamın təkbirlərini eşitməyə əngəl olan pərdə və ya divar, aradakı səsgücləndiricilər vasitəsi ilə imamın təkbirlərini eşitməyə maneçilik təşkil etmirsə, imama tabe olma mötəbər hesab olunur.

Piyada minikdəki imama tabe olarsa və ya bunun əksi baş verərsə, yaxud minikdə olan başqa minikdəki imama tabe olarsa, namaz qılınan yer ayrı məkanlar olduğu üçün caiz olmaz.

5. Namazın fərz, vacib və Sünnələrini yerinə yetirmədə camaat imama tabe olmalıdır. Bu, üç şəkildə olur.

a. Rüknlərdə yaxınlıq: imama tabe olanın etdiyi namaz rüknləri imamınkına yaxın olmalıdır. Məsələn: iftitah təkbiri, rüku və səcdələri imamın hərəkətlərinə yaxın olmalıdır.

b. İmamı təqib etmək: imama tabe olanın etdikləri, imamın etdiklərinin arxasınca edilməlidir.

c. İmamın əməli ilə ona tabe olanın əməli arasında hər hansı gecikmənin olmaması: bu da imamın bir əməlindən sonra camaatın da eyni əməli yerinə yetirməsi ilə reallaşır.

Yuxarıda qeyd edilən üç şəkildən biri ilə imama tabe olmaq namazın fərzlərindən isə fərz, vacib bir əməlsə vacib, Sünnə olan bir əməlsə Sünnədir. Hər kim imamdan əvvəl rükuya getmək və ya imamın rükusundan sonra rüku etmək, ya da imama ortaq olmayan tərzdə imamdan əvvəl və ya sonra səcdəyə gedərək rüku və ya səcdəni tərk edərsə, imama tabe olmadığı üçün bu rükəti qəza etməlidir. Əgər qəza etməzsə, namazı batil olar. Hz. Peyğəmbər belə buyurmuşdur: *"İmam ona tabe olunması üçün imam edilmişdir. O, təkbir aldığında siz də təkbir alın. O, rüku etdikdə siz də edin!"* (Buxari, Səlat, 18; Azan, 51, 74, 82, 128; Təqsirus-Səlat, 17, Səhv, 9)

Dörd yerdə camaat imama tabe olmaz. İmamın bilərək namaza bir səcdə əlavə etməsi, bayram təkbirlərini və cənazə namazının təkbirlərini miqdarından çox alması, fərz namazda axırıncı oturuşdan sonra səhvən əlavə bir rükət daha qılmaq üzrə üçüncü və ya beşinci rükətə durması bunlardandır. Əgər imam camaatın xəbərdarlığı nəticəsində geri qayıdıb oturarsa, namaz mötəbərdir və namazın axırında səhv səcdəsi etməlidir. Əgər imam əlavə rükətin səcdəsini etmişsə, camaat ona tabe olmayıb özbaşlarına salam verərlər. Ancaq imam son oturuşdan əvvəl ayağa durar və bu rükətin səcdəsini də edərsə, həm imamın, həm də camaatın namazı batil olur və təzədən qılınmalıdır. Çünki fərz olan axırıncı oturuş tərk edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

İmama tabe olan hər kəs aşağıdakı doqquz məsələdə imama tabe olmayıb özləri yerinə yetirərlər:

1. İftitah təkbirində əlləri qaldırmaq,

2. Sübhanəkə duasını oxumaq,

3. Rüku təkbirlərini almaq,

4. Səcdə təkbirlərini almaq,

5. Rüku və səcdədə təsbeh dualarını oxumaq,

6. Rükudan qalxarkən "səmiallahu limən hamidəh" demək,

7. Təhiyyatı oxumaq,

8. Salam vermək,

9. Qurban bayramı günlərində təşriq təkbirlərini demək.

İmam tərk etdikdə ona tabe olanların da tərk etməli olduqları beş məsələ aşağıdakılardır:

a. Bayram təkbirləri,

b. Üç və ya dörd rükətli fərz namazlarda ilk oturuş,

c. Tilavət səcdəsi,

ç. Səhv səcdəsi,

d. Qunut duası. Ancaq qunut duası rükunu ötürmə təhlükəsi olduqda tərk olunur.

Camaat təhiyyatı imamdan əvvəl tamamlasa da imamla birlikdə salam verməsi daha fəzilətlidir. İmama tabe olan təhiyyatı oxuyub qurtarmamışsa, qurtarar və ondan sonra salam verər. Təhiyyatı qurtarmadan imamla birlikdə salam vermək də caizdir. Lakin camaat şalli-barik duaları üçün salamı təxir etməz.

Vitr namazında camaat hələ qunutu qurtarmadan imam rükuya gedərsə, camaat da gedər. Ancaq camaat hələ qunutdan bir şey oxumazsa, imamla birlikdə rükunu ötürməyəcək şəkildə müəyyən qədər oxuyar.

İmam qunutu unudaraq rükuya getdikdə camaat ona tabe olmazsa, imam da başını qaldırıb qunut duasını oxuduqdan sonra təzədən rükuya gedərsə, camaat da ona tabe olduqda camaatın namazı fasid olar.

Camaatdan birinin ön cərgədə yer olmasına rəğmən arxa cərgədə təkbaşına imama tabe olması məkruhdur.

İmam rükuda ikən imama çatan kəs qabaq cərgələrə getdikdə rükəti ötürməsindən qorxarsa, axırıncı cərgədə duraraq imama tabe olar. Rükəti ötürəcəyini bilsə belə, cərgələrdən birində durmadan arxada təkbaşına bir yerdə durub imama tabe ola bilməz.

6. Məhrəmi belə olsa cərgədə qadınlarla eyni sırada namaz qılmaq, qadının sağ və solundan bir kişi ilə arxadan bir kişinin namazının fasid olmasına səbəb olar.

7. Məzhəb fərqliliyi imama tabe olmağa mane deyil.

VIII. Namazdan sonrakı dua və zikrlər

Namazlardan sonra Allahı zikr etmək, rəvayət olunan müxtəlif duaları oxumaq və istiğfar etmək sünnədir. Bu dua və zikrlər sübh və ilkindi namazında olduğu kimi fərzdən sonra və ya günorta ilə axşam və yatsı (işa) namazlarında olduğu kimi son Sünnələri qıldıqdan sonra edilir. Çünki istiğfar namazın nöqsanlıqlarını ortadan qaldırar, eləcə də dua, əcr və savab qazanma yoludur.

İPƏKYOLU NƏŞRİYYATI

Namazın axırındakı dua və zikrlər prinsip olaraq gizli edilir. Ancaq imam camaata öyrətmək məqsədi ilə öyrənincəyə qədər bərkdən zikr və duaları edər. İmam namazın axırında camaata doğru yönələr, sol tərəfini bir az mehraba tərəf çevirər. Hz. Səmurənin belə dediyi rəvayət olunmuşdur: "Hz. Peyğəmbər (s.ə.s) namaz qıldırdıqda üzünü bizə tərəf çevirərdi". Bəra ibn Azib (r.ə) belə demişdir: "Hz. Peyğəmbərin arxasında namaz qıldığımız zaman onun sağ tərəfində durmaq istərdik. Çünki belə olduqda üzü bizə tərəf dönmüş olurdu".

Rəsulullahın (s.ə.s) namazlardan sonra etdiyi əsas dua və zikrlər aşağıdakılardır:

1. Üç dəfə

أَسْتَغْفِرُ اللهَ الْعَظِيمَ الَّذِي لَا اِلهَ إِلَا هُوَ الْحَيُّ الْقَيُّومَ وَأَتُوبُ اِلَيْه

"*Əstəğfirullah* (Allahdan bağışlanma diləyirəm)" və ya üç dəfə *"əstəğfirullahəl-aziməlləzi lə iləhə illə huvəl-hayyəl-qayyumə və ətubu ileyh"* deyə dua etmək.

Mənası: "Ulu, olan Özündən başqa ilah olmayan, Həyy və Qəyyum (başlanğıcı və sonu olmayan diri olan, zatı və kamalı ilə qaim, yəni məxluqatı hər an idarə və mühafizəsində tək, mütləq hakim) olan Allahdan bağışlanmağımı diləyirəm". Bunun dəlili Sövbandan (r.ə) rəvayət olunan bu hədisdir: "Hz. Peyğəmbər salam verdikdə (bir rəvayətdə də namazını qurtardıqda) üç dəfə "əstəğfirullah" deyər və belə söyləyərdi: *"Allahummə əntəs-sələmu və minkəs-səlam, təbəraktə yə zəl-cələli vəl-ikram"* (Müslim, Məsacid, 135, 136).

Daha sonra belə deyərdi:

أَللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ

"Allahummə əinni alə zikrikə və şukrikə və husni ibədətikə".

"Allahım! Mənə Səni zikr etmə, Sənə şükür və yaxşı ibadət etmədə kömək ol!" Hz. Peyğəmbər (s.ə.s) Muaz ibn Cəbələ hər namazda və ya hər namazın axırında bu duanı etməsini tövsiyə etmişdir (İbn Hənbəl, V, 247).

2. Ayətül-kürsünü oxumaq: Əbu Ümamədən (r.ə) rəvayət olunan xəbərdə belə deyilmişdir: *"Kim fərz namazdan sonra ayətül-kürsü və "İxlas" surəsini oxuyarsa, cənnətə girməsinə bir əngəl qalmaz"* (Sənani, "Sübülüs-salam", I, 200).

3. Namazlardan sonra Allahı təsbih etmək: 33 dəfə "subhanəllah (Allah bütün nöqsanlıqlardan uzaqdır)", 33 dəfə "əlhamdulilləh (hər cür tərif, həmd Allaha məxsusdur)", 33 dəfə də "Allahu Əkbər (Allah ən ucadır)" deyilir. Yüzüncüdə belə deyilir: *"Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-hamdu və huvə alə kulli şeyin qadir".*

Bunun dəlili Əbu Hureyrədən (r.ə) rəvayət edilən bu hədisdir: *"Kim hər namazın arxasınca 33 dəfə Allahı təsbeh edər, 33 dəfə Allaha həmd edər, 33 dəfə də Allahı təkbir edərsə, bunlar 99 olub Allahın gözəl adlarının (əsmayi-hüsna) sayı qədərdir. Yüzüncüdə: "Allahdan başqa ilah yoxdur, tək ilah yalnız Odur, şəriki də yoxdur. Bütün mülk Ona aiddir, bütün həmd və səna Onadır. O, hər şeyə qadirdir",- deyərsə, dənizin köpükləri qədər günahları olsa da bağışlanar"* (Müslim, Məsacid, 144-146).

Əbu Zərdən (r.ə) gələn rəvayət belədir: "Rəsulullaha (s.ə.s) belə deyildi: "(danışan şəxs Süfyan (r.ə) idi) ey Allahın Elçisi! Malı olan və comərdlik edənlər savabı alıb gedirlər. Bizim etdiyimiz duaları edirlər, Allah yolunda xərcləyirlər, biz isə infaq edə bilmirik". Allahın Rəsulu belə buyurdu : "*Diqqət edin, sizə, etdiyiniz zaman əvvəlkilərə çatacağınız, sizdən sonrakıları da keçəcəyiniz bir əməli xəbər verirəm. Hər namazın arxasından 33 dəfə Allaha həmd, 33 dəfə təsbeh və 34 dəfə də təkbir edin"* (İbn Macə, İqamə, 32).

İPOKYOLU NƏŞRİYYATI

4. Daha sonra namaz qılan, imam və müsəlman qardaşlar üçün istədiyi qədər dünya və axirət xeyirlərini istəyər. Duaların ən fəzilətlisi Sünnədə olan dualardır. Bunlardan birisini Səd ibn Əbu Vəqqas (r.ə) rəvayət etmişdir. Səd (r.ə) oğullarına, uşaqlara yazma öyrədirmiş kimi bu kəlmələri öyrədir və belə deyərdi: "Rəsulullah (s.ə.s) hər namazın ardından bu dualarla Allaha sığınardı:

أَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْبُخْلِ وَأَعُوذُ بِكَ مِنَ الْجُبْنِ وَأَعُوذُ بِكَ مِنْ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ الْعُمْرِ

وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ

"Allahummə inni əuzu bikə minəl-buxli və əuzu bikə minəl-cubni və əuzu bikə min ən uraddə ilə ərzəlil-umri və əuzu bikə min fitnətid-dunya və əuzu bikə min azəbil-qabri".

Mənası: "Allahım! Xəsislikdən Sənə sığınıram. Qorxaqlıqdan Sənə sığınıram. Əldən düşmüş və baxılmağa möhtac bir yaşlılıqdan Sənə sığınıram. Dünya fitnəsindən Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram" (Buxari, Azan, 149).

Dua ədəbi

Duada əllər çiyin səviyyəsinə qaldırılır. Çətinlik olarsa, gücün çatdığı qədər qaldırılır. Əllərin duada təbii olan bir açıqlıqda tutulması məqsədəuyğundur.

Duaya Allaha həmd və Rəsuluna salavatla başlanılır və axırı həmçinin "əl-hamdu lilləhi" deyərək tamamlanır. Çünki Uca Allah belə buyurur: **"Onların oradakı** (möminlərin cənnətdəki) **duası: «Pərvərdigara! Sən paksan, müqəddəssən!», orada salamlaşması: «Salam!» duası: «Həmd olsun aləmlərin Rəbbi Allaha!» sözləridir"** (Yunis, 10/10). Həmçinin duaların sonu məhz bu mənaya müvafiq olaraq bu ayeyi-kərimə ilə bitirilir:

سُبْحَانَ رَبِّكَ رَبِّ الْعِزَّةِ عَمَّا يَصِفُونَ وَسَلَامٌ عَلَى الْمُرْسَلِينَ وَالْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

"Subhanə Rabbikə Rabbil-izzəti ammə yəsifun və sələmun aləl-mursəlin vəl-hamdu lilləhi Rabbil-aləmin".

Mənası: "Sənin yenilməz qüvvət sahibi (mülkündə hər şeyə qalib) olan Rəbbin (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Peyğəmbərlərə salam olsun! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" (Saffat, 37/180-183)

E. AZAN VƏ İQAMƏ

I. Azanın mənası, dəlilləri və fəziləti

Azan lüğətdə "eşitdirmək, bildirmək" deməkdir. Termin mənası isə, fərz namazların vaxtlarını bildirən, xüsusi sözlərdən ibarət elan deməkdir. Azan oxuyana "müəzzin" deyilir.

Fərz namazlar üçün azan oxunması, yəni bu namazların qılınacağının elan edilməsi Kitab və Sünnə ilə sabitdir. Namaz Məkkə dövründə fərz buyurulmasına baxmayaraq, Hz. Peyğəmbərin Mədinəyə gəlişinə qədər namaz vaxtlarını bildirmək üçün bugünkü kimi azan oxunmazdı. Bəlkə ilk başlanğıcda camaatla namaz qılınmadığı üçün buna ehtiyac olmamışdır. Mədinəyə gəldiklərində bir müddət namaz vaxtı girəndə "əs-salət, əs-salət" (namaza, namaza)" və ya "əs-salətu cəmiah (namaz insanları bir yerə toplayandır)" deyə elan edilirdi.

Hicrətin birinci ilində Mədinədə Məscidi-nəbəvinin inşası tamamlandıqdan sonra əshabi-kiram müntəzəm şəkildə toplaşaraq camaatla namaz qılmağa başlamışdılar. Bu zaman Hz. Mühəmməd (s.ə.s) namaz

İPEKYOLU NƏŞRİYYATI

vaxtlarının elanı barəsində əshabı ilə müşavirə keçirdi. Bayraq sancma, boru çalma və zınqırov kimi şeylər təklif edildi. Lakin bunlardan boru çalma yəhudilərə, zınqırov da xristianlara məxsus olduğundan qəbul olunmadı. Ənsardan Abdullah ibn Zeyd (r.ə) yuxusunda əlində zınqırov olan birini gördü və almaq istəyəndə həmin adam bunu nə edəcəyini soruşdu. İnsanları bununla namaza çağıracağam dedikdə: "Mən sənə bundan daha xeyirlisini bildirimmi?"-dedi və ona azanın bütün cümlələrini öyrətdi. Abdullahın bu yuxunu ertəsi gün Hz. Peyğəmbərə danışması və onun da bunu təsdiqləməsi nəticəsində azan ortaya çıxdı.

Müsəlman cəmiyyətində namaz vaxtları girdikdə azan oxumaq müəkkəd Sünnədir. Azan eyni zamanda dini simvol xüsusiyyəti daşıdığı üçün tamamilə tərk edildiyində o bölgədəki bütün müsəlmanlar günaha batmış olarlar.

Allah-Təala belə buyurur: **"Siz** (bir-birinizi) **namaza çağırdığınız zaman onlar onu oyun-oyuncaq sayarlar. Bu, onların anlamaz bir tayfa olmalarındandır"** (Maidə, 5/58). **"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Biləsiniz, bu sizin üçün nə qədər xeyirlidir!"** (Cümə, 62/9). Azan bu ayədə elan və bildirmə mənasında işlədilir: **"Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü insanlara bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur"** (Tövbə, 9/3).

Hz. Peyğəmbərin (s.ə.s) azanla bağlı bir çox hədisi vardır. Bəziləri bunlardır: *"Namaz vaxtı çatdıqda aranızdan birisi sizin üçün azan oxusun, ən yaşlı olanınız da imam olsun"* (Buxari, Azan, 17, 18, 49, 140). Hz. Peyğəmbər (s.ə.s) yuxarıda qeyd edilən Abdullah ibn Zeydin azanla əlaqədar yuxusu ilə bağlı belə buyurmuşdur: *"İnşallah bu yuxu gerçəkdir. Qalx və Bilala gördüyün yuxudakı sözləri öyrət! Çünki onun səsi sənindən daha yaxşıdır"* (Tirmizi, Məvaqit, 25).

Aşağıdakı hədis azandakı böyük əcri belə dilə gətirir: *"Əgər insanlar azandakı və ilk cərgədəki üstünlüyü bilsəydilər və bunları püşksüz edə bilməyəcəklərini anlasaydılar, püşk atardılar"* (Buxari, Azan, 9, 32, Şəhadət, 30). Başqa bir hədisdə də Allahın Elçisi belə buyurmuşdur: *"Qoyun sürüsünün başında və ya çöldə olduğun zaman namaz üçün azan oxuduqda səsin ucadan şıxsın. Çünki müəzzinin səsini eşidən heç bir cin, insan və ya başqa bir şey yoxdur ki, qiyamət günündə müəzzin üçün şahidlik etməsin"* (Buxari, Azan, 5, Bədül-xəlq, 12, Tövhid, 52). Başqa bir hədis də belədir: *"Qiyamət günündə müəzzinlər insanların ən uca boylusu olacaqlar"* (Müslim, Səlat, 14).

İqamə oxumaq və imamlıq etmək azan oxumaqdan daha fəzilətlidir. Çünki Hz. Peyğəmbər və ona tabe olan dörd xəlifə imamlıq etmiş, müəzzinlik etməmişlər. Bununla yanaşı, imamlıqdan sonra müəzzinlik gəlir. Hətta şafeilərdə ən səhih fikrə görə və hənbəlilərə görə, azan və iqamə birlikdə, imamlıq etməkdən daha fəzilətlidir. Çünki Allah-Təala: **"**(Xalqı) **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" - deyən kəsdən daha gözəl danışan kim ola bilər?!"** - deyə buyurur (Füssilət, 41/33). Hz. Aişə bu ayədə bəhs olunan "Allaha çağıranların" müəzzinlər olduğunu söyləmişdir. Hz. Peyğəmbər də (s.ə.s) belə buyurmuşdur: *"İmam camaatın zamindir. Müəzzin etibarlı şəxsdir. Allahım, imamlara doğru yolu göstər, müəzzinləri bağışla!"* (Tirmizi, Səlat, 39).

Azanla cəmiyyətə həm namaz vaxtları bildirilmiş, həm namazın nicatın səbəbi olduğu çatdırılmış, həm də İslam dininin ən uca əsasları bütün cahana elan edilmiş olur. Bununla yanaşı, yer üzündə namaz vaxtları müxtəlif saatlara rast gəlir. Beləliklə, günün hər saatında bəşəriyyətə Allah-Təalanın varlığı, birliyi, ucalığı, Hz. Mühəmmədin (s.ə.s) peyğəmbərliyi və namazın nicat səbəbi olduğu ucadan elan edilir.

II. Azanın sözləri

Azanın sözləri üzərində alimlər həmfikirdirlər. Bu sözlər iki-iki təkrarlanır. Yalnız sübh namazında "hayyə aləl-fələh" dan sonra "əs-salətu xayrun minənnəvm" (namaz yuxudan daha xeyirlidir)" cümləsi əlavə edilir. Bu cümlə də iki dəfə təkrarlanır. Bunun əsaslandığı dəlil Bilaldan (r.ə) rəvayət edilmişdir. Bununla yanaşı, Nəbi (s.ə.s) Əbu Məhzurəyə "Sübh azanı olduğu zaman iki dəfə "əs-salətu xayrun minənnəvm" deməyini təlim etmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

Hənəfi və hənbəlilərə görə, azan on beş kəlmədən ibarətdir. Abdullah ibn Zeydin (r.ə) rəvayət etdiyi hədisdə qeyd olunan azan sözləri bunlardır:

اَللّٰهُ اَكْبَر اَللّٰهُ اَكْبَر

أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللّٰهُ أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللّٰهُ

اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَّسُولُ اللّٰه اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَّسُولُ اللّٰه

حَيَّ عَلَى الصَّلٰوة حَيَّ عَلَى الصَّلٰوة

حَيَّ عَلَى الْفَلَاح حَيَّ عَلَى الْفَلَاح

قَدْ قَامَتِ الصَّلٰوةُ قَدْ قَامَتِ الصَّلٰوةُ

اَللّٰهُ اَكْبَر اَللّٰهُ اَكْبَر

لَا اِلٰهَ اِلاَّ اللّٰه

Allahu əkbər

Allahu əkbər

Allahu əkbər

Allahu əkbər

Əşhədü ən lə iləhə illəllah

Əşhədü ən lə iləhə illəllah

Əşhədü ənnə Muhammə-dər-Rasulullah

Əşhədü ənnə Muhammə-dər-Rasulullah

Hayyə aləs-saləh

Hayyə aləs-saləh

Hayyə alял-fəlah

Hayyə alял-fəlah

Allahu əkbər

Allahu əkbər

Lə iləhə illəllah

Azanın sözlərinin dilimizə tərcüməsi belədir:

Allah ən böyükdür

Allah ən böyükdür

Allah ən böyükdür

Allah ən böyükdür

Şəhadət gətirirəm ki, Allahdan başqa ilah yoxdur

Şəhadət gətirirəm ki, Allahdan başqa ilah yoxdur

Şəhadət gətirirəm ki, Mühəmməd Allahın elçisidir

Şəhadət gətirirəm ki, Mühəmməd Allahın elçisidir

Gəlin namaza

Gəlin namaza

Gəlin nicata

Gəlin nicata

Allah ən böyükdür

Allah ən böyükdür

Allahdan başqa ilah yoxdur.

İqamə azana oxşayır, lakin “hayyə alял-fəlah”dan sonra iki dəfə “qad qamətis-saləh (namaz başladı)”

İPƏKYOLU NƏŞRİYYATI

deyilir. Həmçinin azanda hər cümlənin arasında bir az fasilə verilir və ikinci cümlədə səs bir az yüksəldilir, buna "irtisal və tərəssül" deyilir. İqamədə isə fasilə verilməz, sürətli oxunur, buna "hadr" deyilir.

III. Azan və iqamə oxuyanlar aşağıdakılara riayət etməlidirlər:

1. Namaz vaxtı girməlidir: bir namaz üçün hələ vaxt girməmiş azan oxumaq caiz deyil. Əgər vaxt girməzdən əvvəl azan oxunmuşsa, təkrar oxunmalıdır. Lakin əksər İslam alimlərinə görə, yalnız sübh namazı üçün gecənin ən son altıda birini təşkil edən vaxtda azan oxumaq məndubdur. Daha sonra bu azan dan yeri ağaranda (fəcri-sadiq olduqda) Sünnə olaraq yenidən oxunur. Dəlil Abdullah ibn Amrdan (r.ə) rəvayət edilən bu hədisdir: *"Bilal gecə azanını oxuyar, İbn Ümmü Məktumun azanını eşidənə yeyin, için"*. Buxari bu hədisə bunu əlavə etmişdir: "İbn Ümmü Məktum kor olmuşdu, ona üçüncü bir şəxs "sübh oldu" deməyincə azan oxumazdı" (Buxari, Azan, 11, 13, Şəhadət, 11, Səvm, 17).

2. Azan ərəbcə olmalıdır: ərəbcə olan azan sözləri dillərindən asılı olmayaraq bütün dünya müsəlmanları üçün simvoldur. Hənəfi və hənbəlilərə görə, azan Qurani-Kərim kimi ərəbcə gəldiyi üçün bunun başqa dildə oxunması caiz deyil.

3. Azan və iqamə camaata eşitdirilməlidir. Təkbaşına namaz qılanın özünün eşidəcəyi qədər oxuması kifayətdir.

4. Azan və iqamənin sözləri arasında tərtib və ardıcıllıq olmalıdır. Tərtibsiz və ardıcıl oxunmayan azan məqbul olmaqla yanaşı məkruhdur. Belə bir azan və iqamənin təkrar oxunması daha fəzilətlidir.

5. Azanı bir nəfər oxumalıdır.

6. Müəzzinin kişi, ağlı başında, təqvalı, Sünnəni və namaz vaxtlarını bilən bir şəxsin olması müstəhəbdir. Dəstəmazsız olanların da azan və iqamə oxumaları məkruhdur. Hədisdə: *"Yalnız dəstəmazlı kimsə azan oxuyar"*,-buyurulmuşdur (Tirmizi, Səlat, 33).

7. Müəzzinin səsi gur və gözəl olmalıdır. Çünki bu zaman azanı eşitdirmək və elan etmək daha asandır.

8. Azanın eşitdirilə bilməsi üçün yüksək bir divar və ya minarədən ayaq üstə oxunmalıdır.

9. Azan oxunarkən iki kəlmə arasında dayanaraq kəlmələr uzadılır, iqamə oxunarkən isə iki kəlmə birləşdirilərək sürətli oxunur. Hədisdə: *"Ey Bilal! Azan oxuduğunda kəlmələri uzadaraq yavaş-yavaş oxu, iqamə oxuyarkən də sürətli oxu"*,-buyurulmuşdur (Tirmizi, Səlat, 29).

10. Azan və iqamədə müəzzin qibləyə tərəf dayanır. "Hayyə aləs-saləh" deyərkən sağ tərəfə, "hayyə alel-fələh" deyərkən də sol tərəfə dönər, minarədə isə sağ tərəfdən sol tərəfə doğru fırlanaraq oxuyar. Azanda səsin ucadan çıxmağı üçün iki barmağının uclarını iki qulağına qoyar. Əbu Cühəfədən (r.ə) belə dediyi rəvayət edilmişdir: "Bilalın azan oxuduğunu gördüm. O üzünü sağa-sola çevirirdi. Hayyə aləs-saləh, hayyə alel-fələh deyirdi. İki barmağı da iki qulağında idi".

11. Azan və iqamə vaxt namazları və qəza namazları üçün Sünnədir. Çünki azan və iqamə vaxtın deyil, namazın Sünnəsi olduğu üçün qəza namazı qılarkən də azan və iqamə oxumaq sünnədir. Əbu Hüreyrədən edilən rəvayətə görə, Hz. Peyğəmbər (s.ə.s) və əshabı Xeybər müharibəsindən qayıdarkən gecəni yolda keçirmişlər və Bilal Həbəşini növbətçi qoymuşdular. Ancaq çox yorğun olan Bilal (r.ə) da yatıb qaldığı üçün sübh namazına dura bilməmişdilər. Günəş yüksəldikdən sonra dəstəmaz almışlar, Bilal azan oxumuş, iki rükət namaz qılındıqdan sonra iqamə oxumuş və sübh namazının iki rükət fərzi qılınmışdır.

12. Birdən çox qəza namazı qılınacaqsa, məkanın bir və ya müxtəlif olmasına baxmayaraq, hər bir namaz üçün ayrı-ayrı azan və iqamə gətirilməsi daha fəzilətli hesab edilmişdir. Bununla yanaşı eyni yerdə birdən çox qəza namazı qılınacaqsa, ilk qəza ediləcək namaz üçün azan və iqamə, digərləri üçün yalnız iqamə gətirmək kifayətdir. Həmçinin Rəsulullah (s.ə.s) Xəndək müharibəsində üç vaxt namaz vaxtında qılına bilmədiyi üçün eyni günün gecə namazı vaxtında Bilala (r.ə) azan və iqamə oxumasını bildirmiş

İPƏKYOLU NƏŞRİYYATI

və günorta namazını qıldırmışdı. Sonra iqamə ilə ilkindi, ardından iqamə ilə axşam və sonra da iqamə ilə yatsı namazını qıldırmışdı.

13. Azanla iqamə arasında bir az fasilə vermək məqsədəuyğundur. Bu fasilə axşam azanından sonra üç qısa ayə oxunulacaq qədər, digər vaxtlarda isə hər iki rükətində on iki ayə oxunaraq iki və ya dörd rükət namaz qılacaq qədər olmalıdır. Dəlil bu hədisdir: *"Ey Bilal! Azanla iqamə arasında yemək yeyən kimsənin yeməyini qurtarıb, adi qaydada ehtiyacını təmin edəcək qədər müddət gözlə"* (İbn Hənbəl, V, 143).

14. İqamə ilə namaz arasına yemək, içmək, yuyunmaq kimi bir fasilə girərsə, iqaməni yenidən oxumaq lazımdır. Lakin iqaməni oxuyan kəs iqamədən sonra Sünnəni qılsa və ya imam iqamədən sonra gəlsə, təkrar iqamə oxumağa ehtiyac yoxdur.

15. Müəzzin mükafatını (əvəzini) Allahdan istəyərək azan oxumalıdır.

İPOKYOLU NƏŞRİYYATI

IV. Azanı dinləmə qaydası

1. Azan oxunarkən eşidənlərin söhbəti kəsməsi, hətta Quran oxuyanın da azanı dinləməsi daha fəzilətlidir. Başqa bir rəyə görə isə, məsciddə və ya öz evində Qurani-Kərim oxuyan oxumasını davam etdirə bilər. Bununla yanaşı azan əsnasında eşidənlərin danışmalarında və ya etdikləri işləri davam etmələrində bir eyib və zərər olmadığını söyləyənlər də olmuşdur.

2. Azan və iqaməni eşidənin bunları müəzzin kimi öz-özünə oxuması və "hayyə aləs-saləh və hayyə aləl-fələh" deyilərkən "lə havlə və lə quvvətə illə billəh (Allahdan başqa güc və qüvvət sahibi yoxdur)" deməsi, həmçinin sübh azanında müəzzin "əs-səlatu xayrun minənnövm (namaz yuxudan daha xeyirlidir)" deyəndə "sadəqtə və bərartə (doğru söylədin, gözəl dedin)" qarşılığını verməsi müstəhəbdir.

İPOKYOLU NƏŞRİYYATI

3. Azanı eşidən bu duanı da oxuya bilər: "Səd ibn Əbu Vəqqas (r.ə) Hz. Peyğəmbərin (ə.s) belə buyurduğunu rəvayət etmişdir: *"Bir kimsə azanı eşitdikdə "əşhədü ən lə iləhə illəlahu vəhdəhu lə şərkə ləh və ənnə Muhammədən abduhu və Rasuluh. Raditu billəhi Rabbən və bi Muhammədin Rasulən və bil isləmi dinən" deyərsə günahları bağışlanar"* (Müslim, Səlat, 13). Duanın mənası belədir: "Allahdan başqa ilah olmadığına, Onun tək olub heç bir şərikinin olmadığına və Mühəmmədin Onun bəndəsi və elçisi olduğuna şəhadət edirəm. Rəbb olaraq Allahdan, peyğəmbər olaraq Mühəmməddən və din olaraq İslamdan razı qaldım".

4. Azandan məqsəd insanları namaza çağırmaqdır. Beləliklə, fərz namazı qılan azana ən gözəl qarşılığı vermiş olur.

5. Azandan sonra vəsilə duasını oxumaq müstəhəbdir. Çünki Cabirdən (r.ə) rəvayətə görə, Rəsulullah (s.ə.s) azanı eşidəndən sonra aşağıdakı duanı oxuyana qiyamət günündə şəfaətinin halal olacağını bildirmişdir: *"Allahummə Rabbə həzihid-dəvətit-təəmməh vəs-salətil-qaiməh, əti Muhammədənil-vəsilətə vəl-fadilətə (vəd-dəracətər-rafiah). Vəbashu məqamən məhmudənilləzi vəadtəh (innəkə lə tuxliful miad)"* (Buxari, Azan, 8).

Mənası belədir: "Ey bu əskiksiz dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Mühəmmədə vəsiləni və fəziləti (və yüksək mənsəbi) ver. Onu vəd etdiyin məqami-Mahmuda (mədh olunan) çatdır. (Şübhəsiz ki, Sən verdiyin vəddən dönməzsən)".

Cünub olan da azanla bağlı duaları oxuya bilər. Aybaşı və zahı olan qadınlar namazdan azad olduqları üçün azanla əlaqədar hər hansı məsuliyyətləri də yoxdur.

İPOKYOLU NƏŞRİYYATI

Birdən çox azan eşidilən yerlərdə ilk oxunan azana cavab vermək kifayətdir.

V. Namazdan başqa yerlərdə azan oxumaq

Namazdan başqa bəzi səbəblərdən də azan oxumaq məndubdur. Səbəblər bunlardır:

1. Uşaq anadan olduğunda qulağına azan oxumaq məndubdur. Çünki Hz. Peyğəmbər (s.ə.s) nəvəsi Hz. Həsən dünyaya gələndə qulağına azan oxumuşdur.

2. Müharibədə, yanğın zamanı və ya yolçunun arxasınca azan oxumaq məndubdur.

3. Bərk qəzəblənən, sinir sistemi pozulan, sudurqa xəstəliyi keçirən üçün azan oxunması, həmçinin pis xasiyyətli insan və ya heyvanın qulağına azan oxumaq məndubdur. Cin və şeytanın görünmələri zamanı da bunların şərindən qorunmaq üçün azan oxunar. Çünki şeytanın azan oxunan zaman uzaqlaşması müxtəlif hədislərdə bildirilmişdir.

VI. İqamə

Kişilərin təkbaşına və ya camaatla qıldıqları fərz və ya qəza namazı üçün iqamə oxumaları sünnədir. Qadının azan və ya iqamə oxuma məsuliyyəti yoxdur. Bununla yanaşı azan və ya iqamə oxuyarsa, məkruh olar və oxuduğu azan təkrar oxunmalıdır.

Cümədən başqa bir fərz namaz üçün birdən çox azan və heç bir fərz üçün birdən çox iqamə oxumaq doğru deyil. Buna görə də bir məsciddə azan və iqamə ilə vaxt namazı qılınmışsa, daha sonra təkbaşına və ya camaatla eyni vaxt namazını qılanların təkrar azan və ya iqamə oxumalarına ehtiyac yoxdur. Hətta azan oxunduqdan sonra vaxtın fərz namazını evində və ya iş yerində qılanlar azan oxumadıqları kimi, camaat da olsalar iqamə oxumaya bilərlər. Bununla yanaşı camaatla qıldıqlarında iqamə oxumaları müstəhəbdir. Bundan əlavə vitr, təraveh və bayram namazları kimi namazlarda iqamə yoxdur.

İqamənin sözləri azandakı ilə eynidir. Lakin "hayyə aləl-fələh"dən sonra iki dəfə "qad qamətis-saləh" (namaz başladı) cümləsi əlavə edilir. İqamə də azan kimi iki-iki oxunur. Dəlili bu hədisdir: "Abdullah ibn Zeyd əl-Ənsari (r.ə) Hz. Peyğəmbərin yanına gələrək belə dedi: "Mən röyamda üstündə iki yaşıl xələt olan bir nəfərin divarın üstünə çıxıb iki-iki söyləyərək azan və iqamə oxuduğunu gördüm".

Şafei və hənbəlilərə görə, iqamənin sözləri hər biri bir dəfə oxunmaqla on bir kəlmədən ibarətdir. Yalnız "qad qamətis-saləh" sözü iki dəfə təkrarlanır. Onlar bu barədə Abdullah ibn Ömərdən rəvayət edilən bir hədisə əsaslanmışlar.

İqamə oxunarkən hərflərini açıq-aydın tələffüz etmək və sürətli oxunmaq Sünnədir. Azanda olduğu kimi iqamənin də dəstəmazlı, qibləyə tərəf yönələrək, gəzmədən və danışmadan oxunması sünnədir.

F. SƏHV, TİLAVƏT VƏ ŞÜKÜR SƏCDƏLƏRİ

I. Səhv səcdəsi

1. Səhv səcdəsinin tərifi, hökmü və edilməsi

Səhv bir şeydə yanılmaq, onu bilməyərək tərk etmək deməkdir. Yanılaraq namazın vaciblərindən birini tərk edən namazın sonunda səcdə etməlidir ki, buna da səhv səcdəsi deyilir. Edilmə qaydası belədir: bir rükn gecikdirildiyi və ya bir vacib tərk edildiyi təqdirdə son oturuşda yalnız təhiyyat oxunduqdan sonra iki tərəfə salam verilər, sonra "Allahu əkbər" deyilərək səcdəyə gedib üç dəfə "Subhanə Rabbiyəl-ələ" deyilər. Sonra "Allahu əkbər" deyilərək oturular və yenidən "Allahu əkbər" deyərək ikinci dəfə səcdəyə gedilər. Yenə üç dəfə "Subhanə Rabbiyəl-ələ" oxuduqdan sonra "Allahu əkbər" deyərək təhiyyat, salli-barik və Rabbənə duaları oxunduqdan sonra salam verilər.

Səhv səcdəsindən qabaq iki tərəfə salam vermək Əbu Hənifə və Əbu Yusifin görüşüdür. İmam Məhəmmədə görə, yalnız sağ tərəfə salam verildikdən sonra səhv səcdəsi etmək daha fəzilətlidir. Belə ki, camaatla qılınan namazlarda camaatın səhvən dağılışmasına yol açmamaq üçün yalnız sağ tərəfə salamdan sonra səhv səcdəsi etmək daha uyğundur.

İPƏKYOLU NƏŞRİYYATI

Şafei və Əhməd ibn Hənbələ görə, səhv səcdəsi salamdan qabaq edilər. İmam Malikə görə isə, səhv səcdəsi namazdakı bir nöqsana görə ediləcəksə, salamdan öncə, artıqlığa görə ediləcəksə salamdan sonra edilər. Hər iki hal birdən baş verərsə, bu təqdirdə səhv səcdəsi salamdan öncə edilər. Namazda əskiklik müəkkəd Sünnəni və ya ən az iki qeyri-müəkkəd Sünnəni tərk etməklə baş verər. Namazdakı artıqlıq isə namazın növündən olmasından asılı olmayaraq namazı pozmayan bir hərəkətin əlavəsi ilə baş verir. Bir rükətdə iki dəfə rüku və üç səcdə etmək kimi.

Hənəfilərə görə, səhv səcdəsi vacib, digərlərinə görə isə Sünnədir. Hənəfilər bu mövzuda belə deyir: "Namaz qılan, bu səcdəni tərk etməklə günahkar olar, amma namazı fasid olmaz. Çünki səhv səcdəsi itmiş bir şeyin geri qaytarılmasıdır. Bu isə vacibdir. Səhv səcdəsi təşəhhüd oxumaq və salam vermək kimi vacib olan işlərdən irəli gələn günahı ortadan qaldırar. Lakin bir rüknü etməməkdən irəli gələn əskikliyi (məsələn, rüku etməmək) ortadan qaldırmaz".

Səhv səcdəsi imama və təkbaşına namaz qılana lazımdır. İmama tabe olan şəxs namazında çaşarsa, səhv səcdəsi etmək ona lazım deyil. İmam çaşdığı təqdirdə özü üçün əsil, camaat üçün isə ona tabe olaraq səhv səcdəsi lazımdır. İmama uyan şəxs imam səhv səcdəsi etdiyi təqdirdə da səhv səcdəsini etməlidir. Əgər İmam səhv səcdəsi etməzsə, bu səcdə camaatın üzərindən qalxar. Çünki camaat imama tabedir. Ancaq məsbuq yalnız səcdələrdə imama tabe olar, salamda ona tabe olamaz.

Səhv səcdəsi vaxt namazını qılmağa əlverişli vaxtlarda lazımlıdır. Məsələn, sübh namazını qılarkən salam verdikdən sonra günəş çıxsa və ya ilkindi namazında günəş batsa, bu şəxsdən səhv səcdəsi düşər.

Cümə və bayram namazlarında camaat çoxdursa, camaatı çaşdırmamaq üçün səhv səcdəsini tərk etmək daha uyğundur. Bir şəxs səhv səcdəsi edərkən yanılarsa, yenidən səhv səcdəsi etməsi lazım deyil.

2. Səhv səcdəsinin əsaslandığı dəlillər:

Səhv səcdəsi Sünnə dəlilinə söykənir. Abdullah ibn Məsud belə nəql edir: *"Sizdən biri namazında şübhəyə düşərsə, doğrusunu araşdırsın və namazını qənaətinə görə tamamlasın. Sonra salam verərək səhv səcdəsi etsin. Yəni, yanıldığı üçün iki səcdə etsin"* (Buxari, Səlat, 31). Əbu Səid əl-Xüdri belə demişdir: "Rəsulullah buyurmuşdur ki, sizdən biriniz namazı dörd, yoxsa üç rükət qıldığı haqda şübhəyə düşərsə, şübhəsini bir kənara qoysun və dəqiq bildiyi nədirsə, namazını ona görə tamamlasın. Salam vermədən qabaq da iki səcdə etsin. Əgər beş rükət qılıbsa, bu səcdələr namazına şəfaətçi olar. Əgər tam qılıbsa, bu əlavə iki səcdə şeytanın ondan uzaqlaşdırılmasına səbəb olar".

Hz. Peyğəmbər və əshabının müəyyən vəziyyətlərdə səhv səcdəsi etməsi, bu səcdənin vacib olduğunu göstərir. Həccin vaciblərindən biri tərk edildiyi təqdirdə bunun ortadan qaldırılması üçün qurban kəsildiyi kimi, səhv səcdəsi də namazdakı əskikliklərin tamamlanması üçün vacib sayılmışdır.

3. Səhv səcdəsi aşağıdakı hallarda vacibdir

Namazın tam olması üçün onun fərz, vacib və sünnələrinə dəqiqliklə riayət etmək lazımdır. Bəzi vəziyyətlər var ki, həmin vəziyyətlərdə namaz tam yerinə yetirilmir və səhv səcdəsi vacib olur. Bu vəziyyətlər aşağıdakılardır:

Namazın fərzlərindən biri tərk edildiyi təqdirdə bunun namaz daxilində qəza edilməsi mümkündürsə qəza edilər. Fərzin gecikdirilməsindən ötrü namazın sonunda əlavə səhv səcdəsi də edilər. Unudaraq və ya unutmayaraq belə bir fərzin və ya bir rükətin əskik qılınması kimi vəziyyətlərdə namaz batil olar və yenidən qılınmalıdır. Çünki namazın əsas hissəsini təşkil edən bir rükn və ya şərtin əskikliyi səhv səcdəsi ilə tamamlanmaz.

Namazdakı bir Vacibin bilərək tərk və ya təxiri pis bir işdir. Buna görə səhv səcdəsi lazım deyil. Ancaq belə bir namaz yenidən qılınmalıdır. Ancaq "Fatihə" surəsi və ya birinci oturuşun bilərək və ya yanılaraq tərk edilməsi vəziyyətində səhv səcdəsi lazımdır. Bir Sünnənin tərkindən ötrü səhv səcdəsi lazım deyil. Amma qəsdən tərk etmək savabdan boyun qaçırmaq deməkdir. Səhv səcdəsinin səbəbləri bunlardır:

İPƏKYOLU NƏŞRİYYATI

1. Namazın fərzlərindən biri gecikdirildiyi təqdirdə səhv səcdəsi lazımdır. Dörd rükətli fərz namazın ilk oturuşunda salli-barik dualarını oxumaq sonrakı fərzləri gecikdirəcəyi üçün belə vəziyyətdə səhv səcdəsi vacibdir.

2. Namazın vaciblərindən biri unudularaq tərk edildikdə səhv səcdəsi vacibdir. Bu da vacibi tamamilə tərk etdikdə və ya gecikdirdikdə lazımdır. Vaciblər bunlardır:

a. Fərz namazlarının ilk iki rükətində "Fatihə"nin hamısını və ya bir hissəsini tərk etmək.

b. Fərz namazlarının ilk iki rükətində "Fatihə"dən sonra üç qısa ayə oxumağı tərk etmək.

c. Namazlardakı bərkdən və astadan oxuma qaydalarına riayət etməmək. Bir şəxs astadan oxunan günorta və ilkindi namazlarında bərkdən oxuyarsa və ya imamın bərkdən oxumalı olduğu namazlarda astadan oxuyarsa, namazın sonunda səhv səcdəsi etməlidir. Astadan oxumaq əvəzinə "Fatihə"nin bir qismini bərkdən oxuyan geri qalanını astadan oxumalıdır. Bunun əksi isə, yəni bərkdən oxumalı olan bir namazda "Fatihə"nin bir qismi astadan oxuyarsa, "Fatihə" yenidən bərkdən oxunar.

ç. Üç və ya dörd rükətli namazların ilk oturuşunda təhiyyatı tərk etmək.

d. Son oturuşda təhiyyat oxumağı tərk etmək.

e. Bir rükətdəki eyni hərəkətləri təkrar edərkən sıraya riayət etməmək. Bu, hər rükətin ikinci səcdəsinə şamildir. Məsələn, bir şəxs bir rükətdə ilk səcdədən sonra yanılaraq sonrakı rükətə qalxar və o rükəti səcdələri ilə bərabər yerinə yetirərsə, namazın sonunda tərk etdiyi bu səcdəni yerinə yetirərsə, sıraya riayət etmədiyinə bu şəxsə səhv səcdəsi etmək vacibdir.

İftitah təkbirindən sonra rükuya gedib, lakin yanıldığını anlayaraq geri dönüb "Fatihə" və əlavə surə oxuyan şəxs rükunu yenidən edər və sıranı pozduğu üçün səhv səcdəsi də edər. Bunun kimi tilavət səcdəsini etmədikdə də səhv səcdəsi lazımdır.

Bundan əlavə, namazda ayaq üstəykən üzrsüz oturulduğu, oturan yerdən ayağa qalxılmadığı vəziyyətlərdə də səhv səcdəsi lazımdır.

f. Rüku və səcdələrdə tədili-ərkanı tərk etmək. Yəni, yanılaraq tədili-ərkanı tərk edənə səhv səcdəsi etmək vacibdir.

g. Fərz namazlarda qiraətin yerini dəyişdirmək. Məsələn, əlavə surədən sonra "Fatihə" oxumaq və ya dörd rükətli fərz namazların son iki rükətində "Fatihə"dən sonra əlavə surə oxumaq və s. vəziyyətlərdə səhv səcdəsi lazımdır.

h. Vitr namazının qunutunu tərk etmək.

x. Qunut təkbirini tərk etmək.

ı. Bayram təkbirlərinin hamısını və ya bir qismini tərk etmək. Yaxud bayram namazının ikinci rükətinin rüku təkbirini tərk etmək. Bu vəziyyətlərdə də səhv səcdəsi lazımdır. Çünki bunlar vacib təkbirlərdir. Birinci rükətin rüku təkbiri isə buna daxil deyil.

3. Namaza namazdan olmayan bir şeyi əlavə etmək: iki dəfə rükuya getmək kimi....

4. Yanılaraq tərk edilən hərəkətə yenidən dönmək. Bir şəxs yanılaraq ilk oturuşu etməzsə, sonra bu oturuşu xatırlayarsa, əgər oturuş vəziyyətinə yaxındırsa geri dönərək oturar, yaxın deyilsə geri dönməz və namazın sonunda səhv səcdəsi edər.

Son oturuşu yanılaraq tərk edib beşinci rükətə qalxan şəxs beşinci rükətin səcdəsini etməyibsə, geri dönərək oturar və sonda səhv səcədsini edər. Əgər beşinci rükətin səcdəsini edibsə namaz pozular. Artıq qıldığı namaz nafilə hesab olunar. Belə vəziyyətlə qarşılaşanın bu namazı altı rükət olaraq qılması isə məndubdur. Bu hökm Əbu Hənifə və İmam Məhəmmədə görədir.

Əgər son oturuşda təşəhhüd miqdarı oturduqdan sonra yanılaraq ayağa qalxar və bu oturuşu birinci oturuş zənn edərək salam verməyibsə: beşinci rükətin səcdəsini etməyibsə oturar, edibsə bu rükətə bir

İPƏKYOLU NƏŞRİYYATI

rükət də əlavə edərək namazı tamamlayar ki, bununla da fərz namaz tamamlanmış olar. Çünki son oturuş öz yerində olmuşdur. Artıq qılınan iki rükət isə nafilə əvəzi olar.

5. Namazda rükət sayında şübhəyə düşmək:

Bir şəxs namazda üç və ya dörd rükət qıldığından şübhələnərsə, əgər yanılma hadisəsi ilə ilk dəfə qarşılaşırsa, namazını yenidən qılmalıdır. Bunu yenidən qılmaq üçün oturaraq salam verməsi məqsədə uyğundur. Çünki Allah Rəsulu: *"Sizdən biriniz namazda neçə rükət qıldığı haqda şübhəyə düşərsə, namazı təkrar qılsın"*,-buyurmuşdur.

Əgər şübhələnmə hadisəsi çox baş verirsə, əsas qənaətinə görə namazına davam edər. Çünki tez-tez şübhələnənin hər dəfə namazı yenidən qılması ona əziyyət verər. Hz. Peyğəmbər bu haqda belə buyurmuşdur: *"Sizdən biri şübhələndikdə doğrunu araşdıraraq namazını tamamlasın"* (Buxari, Səhv, 6, 7).

Namazda neçə rükət qıldığından şübhələnən şəxs ən az rükəti əsas alaraq hərəkət edər. Çünki ən dəqiq bildiyi budur. Belə bir şəxs oturması lazım olan hər yerdə oturmalıdır. Bununla da fərz və ya vacib olan bir oturuşu tərk etməmiş olur. Məsələn, dörd rükətli bir namazda qıldığı rükətin birinci və ya ikinci olduğu haqqında şübhəyə düşən əsas qənaətinə görə hərəkət edər. Əgər bundan bir nəticə hasil olmasa, ən az olan bir rükəti əsas alaraq namaza davam edər. Amma bunun ikinci rükət olma ehtimalından ötrü oturar, çünki ikinci rükətdə oturmaq vacibdir. Sonra qalxıb bir rükət də qılıb oturar.

Ən az qılınan rükətə əməl etməyin dəlili Əbu Səid əl-Xudridən rəvayət olunan bu hədisdir: *"Sizdən biri namazında şübəhələnərsə, üç, yoxsa dörd rükət qıldığını bilməzsə, şübhəsini bir kənara qoysun və ən az rükəti əsas alaraq namaza davam etsin"*.

Bir şəxs namazda iki dəfə və ya daha çox yanılarsa, hamısı üçün namazın sonunda bir səhv səcdəsi etməlidir. Rəsulullah belə buyurmuşdur: *"Sizdən biri yanıldığı zaman iki dəfə səcdə etsin"* (İbn Macə, İqamə, 129).

Bu hədis rüku və səcdəsi olan bütün vacib, Sünnə və nafilə namazların hamsına şamildir. Təkbaşına namaz qılanın bərkdən və ya astadan oxumasına görə zahirur-rivayəyə görə səhv səcdəsi lazım deyil. Ancaq astadan oxunmalı olan yerdə bərkdən oxuyarsa, pis bir iş etmiş olar. Təkbaşına namaz qılanın gündüz qıldığı nafilə namazlarda bərkdən oxuması məkruhdur. İmam məsələn, sübh namazında "Fatihə"ni yanılaraq gizli oxuyub sonradan xatırlayarsa, əlavə suräni bərkdən oxuyar. "Fatihə"ni yenidən oxuması lazım deyil.

Dörd və ya üç rükətli fərz və ya vitr namazlarında birinci oturuşda təhiyyat oxuduqdan sonra yanılaraq "Allahummə salli alə Muhəmmədin və alə Muhəmməd" deyildikdə də səhv səcdəsi lazımdır. Ancaq son oturuşlarda təhiyyatdan sonra Quran oxuduqda və ya dua edildikdə səhv səcdəsi lazım deyil.

Namazda zikrlər, dua və təhiyyat bərkdən oxunduqda da səhv səcdəsi lazım olmaz. İmam yanılarkən camaatın ona xatırlatma qaydası haqqında Rəsulullah belə buyurmuşdur: *"Belə bir vəziyyətdə kişilər "sübhanəllah" deməli, qadınlar isə əl çırpmalıdırlar"* (Buxari, Səhv, 9).

II. Tilavət səcdəsi

Qurani-Kərimdə on dörd yerdə səcdə ayəsi var. Bu ayələrdən birini oxuyan və ya dinləyənin etdiyi səcdəyə tilavət səcdəsi deyilir. Hz. Peyğəmbərin də belə etdiyi rəvayət edilir.

1. Tilavət səcdəsinin dəlilləri

Allah belə buyurur: **"Onlara nə olub ki, iman gətirmirlər? Özlərinə Quran oxunduqda səcdə etmirlər?"** (İnşiqaq, 84, 20/21) Abdullah ibn Ömər belə demişdir: "Nəbi (s.ə.s) biz yanında olarkən səcdə ayəsini oxuyaraq səcdə edərdi. Biz də onunla bərabər səcdə edərdik. Belə ki, bizdən bəziləri insanlar çox olduğu üçün səcdədə alnını qoymağa yer tapmazdı".

Əbu Hüreyrədən rəvayətə görə Hz. Peyğəmbər belə buyurmuşdur: *"Adəm oğlu səcdə ayəsini oxuyub səcdə etdikdə şeytan ağlayaraq ondan uzaqlaşar və belə deyər: "Vay mənim halıma! Adəm oğlu səcdə*

İPƏKYOLU NƏŞRİYYATI

etməklə əmr olundu və səcdə etdi. Buna görə cənnət onundur. Mən isə səcdə ilə əmr olundum. Ancaq səcdə etməkdən boyun qaçırdım. Buna görə də cəhənnəm mənimdir" (Müslim, İman, 133). Bu dəlillərə əsaslanaraq hənəfilər tilavət səcdəsinin vacib olduğunu bildirirlər.

2. Tilavət səcdəsinin səbəbi və edilmə qaydası

14 səcdə ayəsinin bir qismi müşriklərin Allaha boyun əymədikləri və səcdə etməkdən boyun qaçırdıqları haqqındadır. Bir qismində isə möminlərə səcdə etmək əmr olunur. Buna görə səcdə ayələrini oxuyan və eşidən həm Allahın əmrinə tabe olmaq, həm də müşriklərin üsyanına münasibət bildirmək üçün səcdə etməlidir. İmama tabe olanlar səcdə ayəsini eşitməsələr də imamla bərabər səcdə etməlidirlər.

Tilavət səcdəsi belə edilir: Bu səcdəni edən şəxsin bədəni və paltarı təmiz, özü isə dəstəmazlı olmalıdır. Bundan sonra tilavət səcdəsi etmək niyyəti ilə qibləyə yönələrək əlləri qaldırmadan "Allahu əkbər" deyib səcdəyə gedər. 3 dəfə "Sübhanə rabbiyəl ələ" dedikdən sonra "Allahu əkbər" deyərək səcdədən qalxar. Bu tək səcdənin rüknü Allahı ucaltmaq üçün üzü yerə qoymaqdır. Ancaq namazda səcdə ayəsi qiraətin sonuna düşdükdə namazda rüku və səcdə edə bilməyənlər ima ilə tilavət səcdəsi edər.

Tilavət səcdəsində səcdədən sonra ayağa qalxarkən "ğufranəkə rabbənə və ileykəl-məsir" demək müstəhəbdir. Tilavət səcdəsindəki təkbirlər də müstəhəbdir. Əsil səcdə isə vacibdir.

3. Tilavət səcdəsi ilə bağlı məsələlər

Hənəfilərə görə, namazdan kənarda oxunan səcdə ayəsindən ötrü istənilən vaxt səcdə etmək olar. Ancaq səbəbsiz gecikdirmək məkruhdur. Əbu Yusifə görə isə, ayə oxunandan dərhal sonra edilməlidir. Quran oxuyan oyaq və ağılı başında olmalıdır. Oxuyanın cünub, aybaşı və zahı halında olması kafir və ya balaca uşaq olması hökmü dəyişdirməz. Çünki bunların oxuması da etibarlıdır. Müsəlman cünub və ya sərxoş olsa da oxuduğu və ya eşitdiyi səcdə ayəsindən ötrü tilavət səcdəsi etməlidir.

Tilavət səcdəsini etmək üçün eşidilən ayənin səcdə ayəsi olduğu bilinməlidir. Odur ki, eşitdiyi ayənin səcdə ayəsi olduğunu bilməyənə bu səcdə lazım deyil. Radio, televizor, telefon, kompuyuter və s. vasitələrlə Quran dinləyərkən səcdə ayəsi keçsə və dinləyən şəxs bunun həmin ayə olduğunu bilməsə səcdə etməz. Ancaq oxuyan şəxs dinləyiciləri xəbərdar edər və ya Quranı tərcüməsindən oxuyan və ya izləyən şəxs səcdə ayəsi olduğunu anlayarsa, səcdə etməlidir. Səcdə ayəsi yeddi yaşından kiçik uşaqlara vacib deyil.

Aybaşlı və ya zahıolan bir qadın da oxudacağı və ya eşitdiyi səcdə ayəsindən ötrü tilavət səcdəsi etməz. Çünki qadınlar bu hallarda namazla mükəlləf deyillər.

Namaz əsnasında oxunan səcdə ayəsindən dərhal sonra tilavət səcdəsi etmək vacibdir. Çünki bu namazdan bir hissə sayılır. Buna görə də namazdan sonraya qoyulması doğru deyil. Səcdə ayəsi namazda qiyam halında oxunarsa, əgər bundan sonra üç ayə oxunmayacaqsa, namaz üçün edilən rüku və səcdələr bu səcdənin yerinə keçər. Niyyət bunu dəyişdirməz. Ancaq üç ayədən çox oxunacağı təqdirdə səcdə etmək daha fəzilətlidir. Belə vəziyyətdə namazın rüku və səcdələri tilavət səcdəsini əvəz etməz.

Səcdə ayəsini namazda oxuyan şəxs, əgər istəsə oxuyacağı ayələrin miqdarına baxmadan dərhal "Allahu əkbər" deyərək səcdə edə bilər. Tilavət səcdəsi niyyəti ilə yalnız rükuya getməsi də kifayətdir. Bundan sonra ayağa qalxaraq bir neçə ayə oxuyar və namazına davam edər. Əgər bir suräni bitirmiş olarsa, başqa surədən bir neçə ayə oxuyar. Çünki tilavət səcdəsindən qalxdıqdan sonra bir neçə ayə oxumadan namazın rüku və səcdəsinə getmək məkruhdur.

Səcdə ayəsi bir namazda bir neçə dəfə oxunarsa, bir dəfə tilavət səcdəsi etmək kifayətdir. Müxtəlif rükətlərdə səcdə ayəsinin təkrarlanması da Əbu Yusifə görə eyni hökmdədir. İmam Məhəmmədə görə isə, hər səcdə ayəsindən sonra səcdə etmək lazımdır.

Səcdə ayəsini oxuyub səcdəyə getdikdə camaat da imamın rüku və səcdə etdiyini zənn edərək onun kimi etsələr namazları pozulmaz. İmamın cümə və bayram namazları ilə astadan oxunan namazlarda

İPOKYOLU NƏŞRİYYATI

səcdə ayəsini oxuması məkruhdur. Çünki bu, camaatı yanılda bilər. Ancaq qiraətinin sonunda oxuya bilər. Belə olduqa namazın rüku və səcdəsi tilavət səcdəsi yerinə keçir.

Bir şəxs namaz qılarkən rüku, səcdə və ya oturarkən səcdə ayəsini oxuyarsa, yaxud imama tabe olduğu halda onun arxasında səcdə ayəsini oxuyarsa, özünün və imamın səcdə etməsi vacib deyil. Çünki namaz qılanlar qiraətdən mükəlləf deyil, bunların qiraəti hökmsüzdür. Ancaq bunu eşidənlər tilavət səcdəsi etməlidirlər.

Səcdə ayəsini dinləyənlər səcdə üçün hazırdırlarsa bərkdən, hazır deyillərsə, astadan oxumaq müstəhəbdir. Bir surəni oxuyub içindəki səcdə ayəsini ötürmək məkruhdur. Lakin səcdə ayəsini oxuyub digər ayələri oxumamaq məkruh deyil. Səcdə ayəsi ilə bərabər bir və ya bir neçə ayə oxumaq müstəhəbdir. Səcdə ayəsi oxunduqda dərhal səcdə edə bilməyənlərin (istər oxuyan, istər dinləyən) "səminə və ətanə ğufranəkə rabbənə və ileykəl-məsir" (eşitdik və boyun əydik, ey Rəbbimiz. Bağışlamağını gözləyirik) deməsi müstəhəbdir.

4. Səcdə ayəsinin təkrarlanması

Bir məclisdə bir neçə dəfə səcdə ayəsi oxunarsa, bunun üçün bir tilavət səcdəsi edilməlidir. Səcdəni ilk oxunuşdan sonra etmək daha yaxşıdır. Bəzi alimlərə görə isə, bu səcdəni qiraət tamamlanandan sonra etmək lazımdır. Ancaq eyni səcdə ayəsi müxtəlif məclislərdə təkrarlanarsa, səcdə də təkrarlanmalıdır.

Bir neçə səcdənin olduğu müxtəlif ayələri oxuyan şəxs hər bir ayə üçün ayrı-ayrı səcdə etməlidir. Açıq ərazidə və yolda olan məclis həmin yerdən üç addım başqa yerə getdikdə dəyişmiş hesab olunur. Lakin evdə və ya böyük məsciddə bir tərəfdən o biri tərəfə getməklə məkan dəyişməz. Ancaq oxuyan sabit bir yerdə olar və dinləyən dəstəmaz almaq üçün məsciddən çıxarsa, bu təqdirdə həmin şəxsə səcdə yenidən vacib olar.

5. Səcdə ayələrinin yerləri

Qurani-Kərimdə 14 səcdə ayəsi var: "Əraf", 7/206; "Rəd", 13/15; "Nəhl", 16/50; "İsra", 17/109; "Məryəm", 19/58; "Həcc", 22/18; "Fürqan", 25/60; "Nəml", 27/25; "Səcdə", 32/15; "Sad", 38/25; "Füssilət", 41/38; "Nəcm", 53/62; "İnşiqaq", 84/21; "Ələq", 96/19.

Şafei və hənbəlilər "Sad" surəsindəki səcdə ayəsini şükür səcdəsi sayır, "Həcc" surəsindəki ayəni isə 2 səcdə ayəsi qəbul edirlər. Malikilərə görə isə, 11 səcdə ayəsi var. Onlar "Nəcm", "İnşiqaq" və "Ələq" surələrindəki ayələri nəzərə almırlar. Bu 14 səcdə ayəsini bir məclisdə oxuyaraq hər biri üçün ayrı-ayrı səcdə edən və ya axırda 14 səcdə edən şəxsin dünyəvi və üxrəvi istəklərinin Allah tərəfindən həyata keçiriləcəyi bildirilir.

6. Tilavət səcdəsini pozan hallar

Namazı pozan hər şey tilavət səcdəsini də pozar. Ancaq bu səcdədə bərkdən gülmək dəstəmazı pozmur. Qadınlarla eyni səfdə durmaq bu səcdəyə təsir etməz.

III. Şükür səcdəsi

Şükür səcdəsi bir nemətə nail olduqda, hər hansı sıxıntı və bəladan qurtulduqda qibləyə dönərək tilavət səcdəsi kimi edilən səcdədir. Hz Əbu Bəkrin rəvayət etdiyinə görə, "Hz. Peyğəmbər sevindirici bir xəbər aldıqda və ya özünə bir müjdə verildikdə səcdəyə qapanardı".

Şükür səcdəsi müstəhəbdir. Ancaq bu səcdəni namazdan sonra etmək məkruhdur. Çünki insanlar bunu namazdan bir hissə kimi başa düşə bilərlər. Bu inanca yol verən hər cür mübah iş də məkruhdur. Şükür səcdəsi məkruh vaxtlar xaricində edilməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Səfərilik və səfəri nə deməkdir?
2. Yolçu və xəstə olanlara tanınan dini asanlıqlar hansılardır?
3. Xəstə olan namazlarını necə qılmalıdır?
4. Xüşu ilə namaz qılmaq nə deməkdir? Xüşu ilə namaz necə qılınır?
5. Əda və qəza nədir?
6. Namazı tərk etmək nə üçün böyük günah qəbul edilmişdir?
7. Namazı qəzaya qalan bir insan nə etməlidir?
8. Camaatla namaz qılmağın dini, əxlaqi, mədəni və sosial baxımdan faydaları haqqında fikirləşin.
9. İmam kimə deyilir? Onun xüsusiyyətləri barədə danışın.
10. Müəzzin kimə deyilir? Müəzzinliyin əhəmiyyətini və fəzilətini araşdırın.
11. Kimlər camaatla qılınan namaza getməyə bilərlər?
12. Camaat, müqtədi, münfərid, müdrik, məsbuq və lahiq terminlərinin fiqhdəki mənalarını izah edin.
13. Mühazat kəlməsindən nə başa düşürsüz?
14. İmama tabe olunan və olunmayan yerlər hansılardır?
15. Namazın axırında oxunan ayələr və dualar hansılardır?
16. Səhv səcdəsi nədir? Hansı hallarda və nə vaxt edilir?
17. Tilavət səcdəsi necə edilir? Hökmləri barədə məlumat verin.

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) Səfərilikdə fərz namazları qısaldılaraq qılmağa ehtiyac yoxdur.

2. ( ) Başqa şəhərə yerləşib evlənərək iş quran və məmləkətinə geri qayıtmağı düşünməyən bir şəxs 120 kilometr məsafədə olan məmləkətində yaşayan ana və atasının yanına ziyarət getdikdə səfəri sayılır.

3. ( ) Yolçunun müqim olan imama tabe olması caizdir.

4. ( ) Bir şəxs səfərdə olub nə vaxt qayıdacağını bilməsə, müddət nə qədər uzun olursa olsun namazlarını qısaldaraq qıla bilər.

5. ( ) Hənəfi məzhəbinə görə günorta və ilkindi namazı ilə axşam və yatsı namazları səfərdə cəm olunaraq qılına bilər.

6. ( ) Minik, avtobus, təyyarə və s. ilə səfər edən orada oturduğu yerdə getdiyi istiqamətə doğru namazını qılar.

7. ( ) Bir namaz səfərdə və ya müqim ikən qılına bilmədikdə qəzaya qalan yer əsas alınaraq qəza edilməlidir.

8. ( ) Qibləyə tərəf dayanmaqdan aciz olan xəstə namazını qəzaya qoyar.

9. ( ) Camaatla namaza çatmaq üçün qaçaraq getmək məkruhdur.

10. ( ) Camaatla namaz qılarkən fasiq bir imamın arxasında namaz qılınsa, namaz etibarsız olar.

11. ( ) Səhv səcdəsi bir müəkkəd Sünnəni əskik etmək, yaxud iki və ya daha çox müstəhəbi əskik etmək səbəbi ilə lazım gəlir.

12. ( ) Qılına bilməyən sübh namazının Sünnəsi o günün günortasına qədər qəza edilə bilər.

13. ( ) Namaza aid hökmləri və fiqhi ən yaxşı bilən imamlıq etməyə ən çox layiq olan şəxs qəbul edilir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Azan oxuyarkən dəstəmazlı olmaq	
Qadınların kişilərə imamlıq etməsi	*caiz deyil*
Beş vaxtdan daha az qəza olarsa, tərtibə riayət etmək	
İmamın camaatı bezdirəcək şəkildə namazı uzatması	
Qadınların iqamə oxması	
Ehtiyac olanda səhv səcdəsi etmək	
Cahil və fasiqin imamlıq etməsi	

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Yolçuluqda hansı namaz qısaldılaraq qılınmır?

a. Sübh

b. Günorta

c. İkindi

d. Yatsı

2. Hansı vətəndə səfərilik hökmləri etibarlıdır?

a. Vətəni-əsli

b. Vətəni-iqamə

c. Vətəni-sükna

d. Vətəni-sani

3. Səfəriliklə bağlı aşağıda qeyd edilən məlumatların hansı səhvdir?

a. Fiqhdə yolçuluq üçün səfər kəlməsindən istifadə edilir

b. Yoçuluq ən azı 90 km məsafəni qət etməyə niyyət etmək və yola çıxmaqla başlayır

c. Getdiyi yerdə on beş gündən çox qalanlar yolçu sayılır

d. Səfərilər vitr namazını olduğu kimi 3 rükət qılarlar

4. Namazlar harada birləşdirilərək qılınır?

a. Zülmət qaranlıqda

b. Səfərdə

c. Dolu yağışda

d. Ərəfat və Müzdəlifədə

5. Namazla bağlı xüsusi hallarla əlaqədar olaraq aşağıda qeyd edilən məlumatların hansında yanlışlıq var?

a. Yolçu geyindiyi məstini çıxarmadan üç gün məsh edə bilər

b. Xəstə və ya şikəst ayaq üstə namaz qıla biləməyəcək qədər narahat olarsa, namazı qəzaya qoyar.

c. Dəstəmaz ala bilməyən xəstələr təyəmmümlə namazlarını qılmalıdırlar

d. Yolçu cümə namazını və bayram namazlarını qılmaya bilər

6. Sünnələrini də qılmaq istəyən bir yolçu 10 rükət olan günorta namazını neçə rükət qılmalıdır?

a. 4 rükət

b. 6 rükət

c. 8 rükət

d. 10 rükət

İPƏKYOLU NƏŞRİYYATI

7. Aşağıdakılardan hansı bir şəxsin camaata namaz qıldıra bilməsi üçün lazımi şərtlər arasında yer almır?

a. Kişi olmaq

b. Camaatla eyni məzhəbdən olmaq

c. Şikəst olmaq

d. "Fatihə" və digər surələri əzbər bilmək

8. Camaatla namaz qılarkən aşağıdakılardan hansının imam durması məkruh deyil?

a. Fasiq

b. Cahil

c. Yaşlı

d. Görmə qabiliyyətini itirən

9. Camaatla namaz qılarkən hansını etmək caiz deyil?

a. Namaza çatmaq üçün qaçmaq

b. Uşaqları camaata aparmaq

c. Qadınların camaata getməsi

d. Mikrofondan istifadə etmək

10. Camaatla bağlı bəzi xüsusi hökmlər var. Bu məsələdə hansı məlumat səhvdir?

a. İmamın qıldığı namazla camaatın qıldığı namaz bir olmalıdır

b. Sayı ikidən çox olarsa, camaat imamın arxasında cərgədə dayanar

c. İmamla camaat və ya iki cərgə arasında ən kiçik bir daş keçəcək qədər bir yol varsa, bu, ona tabe olmağa əngəl təşkil edir.

d. İmamla camaat arasında imamın görünməsinə əngəl olan hündür divarın olması namazı etibarsız edər

11. Kimin səhv səcdəsi etməsi vacib deyil?

a. Oturuşlarda təhiyyat duasını oxumayan

b. Qiraətdə ilişən və təkrarən geridən gəlib düzəldən

c. Namazın fərzlərindən birini gecikdirən

d. Vitr namazında qunut duasını unudan

12. Tilavət səcdəsinin hansı halda edilməsinə ehtiyac yoxdur?

a. Səcdə ayəsini eşitmək

b. Səcdə ayəsinin tərcüməsini oxumaq

c. Səcdə ayəsini görmək

d. Namazda səcdə ayəsi oxumaq

İPƏKYOLU NƏŞRİYYATI

X
BÖLMƏ

ORUC

MÖVZULAR

A. ORUCUN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI

B. ORUCUN FƏRZ OLMASI

C. ORUCUN NÖVLƏRİ

D. ORUCUN ŞƏRTLƏRİ

E. ORUC TUTMAMAĞI VƏ POZMAĞI MÜBAH EDƏN ÜZRLƏR

F. ORUCUN FİDYƏSİ

G. ORUCU POZAN VƏ POZMAYAN HALLAR

H. ORUCLUYA MƏKRUH OLANLAR

I. ORUCLU ÜÇÜN MÜSTƏHƏB OLAN DAVRANIŞLAR

J. ETİKAF

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Orucun sağlamlığa müsbət təsirləri haqqında həkimlərdən məlumat alın.
2. Orucun hikməti və fəziləti haqqında müəllimlərizindən məlumat alın.
3. Ramazan orucundan başqa oruc tutanlara rast gəldinizmi? Onların tutduqları orucları araşdırın.
4. Orucu pozan halları bir elmihal kitabından oxuyub öyrənin.
5. Başqaları ilə iftar süfrəsində oldunuzmu? Sizcə bunun digər günlərdəki süfrələrdən bir fərqi varmı? Əgər varsa, bunlar hansılardır?
6. Oruc tuta biləməyəcək dərəcədə yaşlı, ya da xəstə olana dinimizdə hansı asanlıqlar var? Bu məsələ ilə bağlı fiqh kitablarından məlumat alın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. ORUCUN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI

I. Orucun lüğət və termin mənası

Oruc kəlməsinin lüğət mənası "özünü bir işdən uzaq tutmaq, yemək və içməyə əngəl olmaq" deməkdir. Dini terminologiyada isə "mükəlləf olanların imsak vaxtından etibarən günəş batana qədər yemək, içmək və cinsi əlaqədən ibadət niyyət ilə uzaq durmaları" mənasına gəlir.

II. Orucun əhəmiyyəti və faydaları

Orucun məqsədi inanan insanı Allahın əmrlərinə tabe olmağı və qadağanlarından da çəkinməyi öyrətməkdir. Oruca riyanın qarışma ehtimalı çox az olduğu üçün, o ən çox savab qazandıran ibadətlərdəndir.

Orucla Ramazan ayı arasında da çox möhkəm bir fəzilət bağı vardır. Belə ki, Əbu Hüreyrədən nəql olunan bir hədisdə Rəsulullah belə buyurur: *"Ramazan ayı gəldiyi zaman cənnətin qapıları açılır, cəhənnəmin qapıları bağlanır və şeytanlar zəncirlənir"* (Müslim, Siyam, 1, 2). Bu hədisi belə izah etmək olar ki, Ramazan ayında mömini cənnətə aparan rəhmət qapıları açılır, cəhənnəmə getməsinə səbəb olan əməllərdən uzaqlaşır, ona görə də şeytanın insana təsir gücü zəifləyir. Ramazan ayının fəziləti Quranın bütün surələrinin birinci dəfə bu aydakı Qədr gecəsində dünya səmasına endirilməsindən və o gecədə "Ələq" surəsinin ilk ayələrinin Hira mağarasında Allahın Rəsuluna endirilməyə başlanmasından irəli gəlir.

Qüdsi bir hədisdə belə buyurulur: *"Hər bir yaxşılıq üçün on mislindən yeddi yüz mislinə qədər savab vardır. Ancaq oruc itisnadır. Çünki oruc Mənim üçündür və onun qarşılığını da Mən verəcəyəm"* (Buxari, Səvm, 2, 9). Başqa hədislərdə belə buyurulur: *"Kim iman edərək və savabını Allahdan umaraq Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar"* (Buxari, Səvm, 6), *"Oruclu üçün iki sevinc anı vardır. Biri iftar etdiyi vaxt, digəri Rəbbi ilə qarşılaşdığı vaxt"* (Buxari, Səvm, 9).

Oruc insana səbri öyrədir. Gündəlik hadisələr qarşısında səbirli olan insan da dünya və axirəti üçün çox şey qazanmış olar. Ayələrdə belə buyurulur: **"Ey iman gətirənlər! Səbir və dua ilə** (namazla Allahdan) **kömək diləyin. Çünki Allah səbir edənlərlədir"** (Bəqərə, 2/153), **"Yalnız səbir edənlərə** (axirətdə) **saysız-hesabsız mükafat veriləcəkdir"** (Zümər, 39/10).

Hədisdə: *"Oruc səbrin yarısıdır"* (Tirmizi, Dəəvat, 86), *"Oruc bir qalxandır",* (Buxari, Səvm, 9) - buyurulur. Onunla "Rəyyan" deyilən və yalnız oruc tutanlara ayrılmış xüsusi qapıdan cənnətə girmə haqqı əldə edilir (Nəsai, Siyam, 43). Oruc keçən bir ildə işlənən kiçik günahlara kəffarədir. Oruc Allahın əmrlərinə itaət etmək və qadağanlardan çəkinməkdən ibarət olan təqvaya səbəb olar. Allah-Təala belə buyurur: **"Ey iman edənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki,** (bunun vasitəsi ilə) **siz pis əməllərdən çəkinəsiniz!"** (Bəqərə, 2/183)

Orucun dini, ruhi, tibbi, sosial, iqtisadi və pedaqoji baxımdan çoxlu sayda faydaları var. Ancaq oruc hər şeydən əvvəl Allaha itaət və ibadət məqsədilə tutulur.

Oruc bir il ərzində yorulan insan bədənini bir növ istirahət etdirmək mahiyyəti daşıyır və müalicəvi əhəmiyyətə malikdir. Xüsusilə mədə və həzm orqanları oruc sayəsində istirahət etmək fürsəti tapır. Allahın Elçisi: *"Oruc tutun, sağlam olun!"*-buyurur.

Oruc nəfsi tərbiyədə, şəhvəti və nəfsə aid istəklərə əngəl olmada bir qalxandır. Rəsulullah (s.ə.s) xüsusilə evlənməyə imkanı olmayan gənclərə oruc tutmağı tövsiyə edərək belə buyurmuşdur: *"Ey gənclər! Evlənməyə gücü çatanınız evlənsin, çünki evlilik gözü və namusu haramdan qoruyur. Evlənməyə gücü çatmayanlar isə oruc tutsun, çünki oruc qoruyucu bir qalxandır"* (Buxari, Səvm, 10).

İbn Hümam (v. m.861/h.1467) orucun bir çox faydalara görə fərz buyurulduğunu bildirdikdən sonra, bunlardan ən mühüm olanları belə qeyd edir:

1. İnsanı həmişə pisliyə çəkmək istəyən nəfs oruc vasitəsilə sükunət tapır, nəfsin harama qarşı meyli azalır.

İPOKYOLU NƏŞRİYYATI

2. Oruc yoxsullara qarşı şəfqət və mərhəmətlə rəftar etməyi öyrədir. Çünki nəfs aclığın çətinliyini daddıqdan sonra yoxsulların vəziyyətini başa düşər və edəcəyi yardımlarla Allah dərgahında gözəl bir mükafata nail olar.

3. Oruclu olan müsəlman yoxsulların çəkdiyi çətinlikləri yaşayaraq onların vəziyyətlərini daha yaxşı başa düşür. Bu da onlarla yaxından maraqlanmağa və onların problemlərini həll etməyə təşviq edir. Beləcə, insan Allah dərgahında dərəcə qazanar.

B. ORUCUN FƏRZ OLMASI

Ramazan orucu İslamın beş şərtindən biridir. İstinad etdiyi dəlillər Kitab, Sünnə və İcmadır.

Allah-Təala belə buyurur: **"Ey iman edənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki,** (bunun vasitəsi ilə) **siz pis əməllərdən çəkinəsiniz!** (Oruc tutmaq) **sayı müəyyən olan günlərdir.** (Bu günlərdə) **sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdır. Oruc tutmağa taqəti olmayanlar isə** (hər günün əvəzində) **bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə** (həm oruc tutub həm də fidyə verərsə)**, bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir! Aya** (ramazan ayına) **yetişən şəxslər** (bu ayı) **oruc tutmalıdırlar. Sübh açılarkən sizin üçün ağ sap qara sapdan** (dan yerinin ağartısı gecənin qaranlığından) **fərqlənincəyə qədər yeyin-için; sonra axşama** (günəş batana) **qədər orucunuzu tamamlayın"** (Bəqərə, 2/183-187).

Hədisdə İslamın şərtləri belə sıralanmışdır: *"İslam beş təməl üzərinə qurulmuşdur; Allahdan başqa bir ilah olmadığına və Mühəmmədin Onun qulu və elçisi olduğuna şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və imkanı çatanların Beytullahı ziyarət etmələridir"* (Buxari, İman, 34, 40, Elm, 25).

Təlhə ibn Ubeydullahdan (r.ə) edilən bir rəvayətə görə, bir gün Hz. Peyğəmbərin yanına saçı-saqqalı bir-birinə qarışmış bir adam gəldi və aralarında belə dialoq keçdi:

İPƏKYOLU NƏŞRİYYATI

- Ey Allahın Elçisi! Allahın mənə orucdan nəyi fərz buyurduğunu bildir!

- Ramazan ayı orucunu fərz buyurdu.

- Mənim üzərimdə bundan başqa bir borc varmı?

- Xeyr, ancaq öz istəyinlə nafilə oruc tutsan, bu, istisnadır.

- Allahın mənə namazdan nəyi fərz buyurduğunu bildir.

- Beş vaxt namazı, ancaq öz istəyinlə nafilə namaz qılsan, bu, istisnadır.

- Allahın mənə zəkatdan nəyi fərz buyurduğunu bildir!

Bundan sonra Hz. Peyğəmbər ona zəkatı və İslamın digər şərtlərini izah etdi. Sonra o adam belə dedi: *"Sənə ikram edən Allaha and olsun ki, Allahın mənə fərz buyurduqlarından nə artıq, nə də əskik bir şey edərəm"*. Bunun müqabilində Allahın Elçisi belə buyurdu: *"Əgər doğru deyirsə, bu adam xilas olmuş, (yaxud cənnətə girəcəkdir)"* (Buxari, İman, 34, Səvm, 1).

C. ORUCUN NÖVLƏRİ

Oruclar hökmlərinə görə fərz, vacib, nafilə və məkruh olan oruclar olmaqla dörd qisimdir.



I. Fərz oruclar

Fərz oruc deyilərkən ağla gələn ilk oruc Ramazan orucudur ki, bu barədə məlumat verilmişdir. Üzrlü və ya üzrsüz tərk edilərsə, qəzası da fərz hökmündədir.

Kəffarə orucların tutulması da fərzdir. Ramazan orucu bilərək pozulduğu zaman, zihar, xətaən və qəza ilə adam öldürmə, həcdə ehramlı ikən vaxtından əvvəl taraş olma və and içən üçün tutulan kəffarə orucları bu qismə daxildir. Kəffarə orucu, edilən bir xətanın cəzası və ya həmin xətanın əvəzi mahiyyətini daşıdığı üçün əvvəlcədən müəyyən edilən bir oruc olmayıb, buna səbəb olan hər hansı bir qüsur halında ortaya çıxan məsuliyyətdir. Ona görə Ramazan orucu "müəyyən fərz", digərləri isə "qeyri-müəyyən fərz" olaraq ayırd edilmişdir.

Qəzaya qalan Ramazan orucu bütün mübah günlərdə tutula bilər. Ancaq İmam Şafeinin qəzaya qalan Ramazan orucunun eyni il içində qəza edilməsinə dair fikri də nəzərə alınaraq, vaxtında tutula bilməyən orucun mümkün olan ən tez zamanda tutulması məqsədəuyğundur.

İPƏKYOLU NƏŞRİYYATI

II. Vacib oruclar

Əhd edilərək tutulan nafilə oruc pozulduğu zaman onun qəzası vacib hökmündədir. İnsanın dinən məsul olmadığı bir ibadəti özü üçün vacib etməsinə "nəzir" deyilir. Nəzir edilərkən orucun tutulacağı gün müəyyən edilərsə, məsələn filan ayın filan günü kimi, bu müəyyən bir vacib sayılır və oruc müəyyən edilən bu gündə tutulmalıdır. Nəzir edilən etikaf orucu da müəyyən gündə tutulacağı üçün müəyyən oruca daxildir. Orucun tutulacağı gün müəyyən edilməmişsə, burada qeyri-müəyyən orucdan söhbət gedir ki, bu oruc istənilən mübah bir gündə tutula bilər.

Tutulan bir nafilə oruc pozulduğu zaman onun qəzası hənəfilərə görə vacib, malikilərə görə isə fərzdir. İmam Şafeiyə və İmam Malikdən nəql edilən digər rəyə görə, nafilə orucun qəza edilməsi vacib deyil.

III. Nafilə oruclar

Fərz və vacib oruclardan başqa tutulan oruclara nafilə oruclar deyilir. Nafilə oruclar bütün mübah günlərdə tutula bilər. Ancaq bəzi günlərdə oruc tutmaq daha fəzilətli hesab edilərək, bu günlərdə oruc tutmaq Sünnə və ya məndub olaraq qəbul edilmişdir. Hz. Peyğəmbərin əksər hallarda oruc tutduğu və möminləri də oruc tutmağa təşviq etdiyi günlər aşağıdakılardır:

1. Davudun (ə.s) tutduğu oruc: ən fəzilətli oruc günaşırı oruc tutmaqdır. Rəsulallah (s.ə.s) belə buyurmuşdur: *"Ən fəzilətli oruc Davudun (ə.s) tutduğu orucdur. Davud (ə.s) bir gün oruc tutar, bir gün tutmazdı"*. Abdullah ibn Ömər: *"Mən daha artıq tuta bilərəm"*,- dediyi zaman Hz. Peyğəmbər: *"Bundan daha üstünü yoxdur"*,-buyurmuşdur (Müslim, Siyam, 192, 203).

2. Hər ay üç gün oruc tutmaq: xüsusilə də hər qəməri ayın 13, 14, 15-ci günlərində oruc tutmaq müstəhəbdir. Qəməri təqvimə görə bu günlərə "əyyami-biyz" deyilir. Əbu Zərdən (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Hər ay oruc tutduğun zaman 13, 14, 15- ci günlərdə tut!"* (Buxari, Ənbiya, 37, Səvm, 56, 58). Hz. Aişə (r.ənha) Rəsulullahın (s.ə.s) hər ayda üç gün oruc tutduğunu bildirmişdir.

3. Bazar ertəsi və cümə axşamı oruc tutmaq: Üsamə ibn Zeyddən (r.ə) rəvayət edildiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) bazar ertəsi və cümə axşamları oruc tutardı. Ondan nə üçün bu günlərdə oruc tutduğu haqqında soruşulduğu zaman: *"İnsanların əməlləri Allah-Təalaya bazar ertəsi və cümə axşamları məruzə edilir. Mən, əməllərim məruzə edilən vaxt oruclu olmağı xoşlayıram"*, - deyə buyurdu (Əbu Davud, Səvm, 60).

4. Şəvval ayında oruc tutmaq: qəməri təqvimə görə Ramazan ayından sonrakı ay şəvval ayıdır. Bu ayda altı gün oruc tutmaq müstəhəbdir. Ayrı-ayrı günlərdə tutula bildiyi kimi, bayram günlərinin ardından ardarda tutulması daha da fəzilətlidir. Qəza, nəzir və s. oruclar da bu günlərdə tutularsa, eyni savab əldə edilir. Əbu Əyyub əl-Ənsarinin (r.ə) nəql etdiyi bir hədisdə belə buyurulur: *"Hər kim Ramazan ayını oruclu keçirər və arxasınca şəvval ayından altı gün oruc tutarsa, bütün ili oruc tutmuş kimi olar"* (İbn Macə, Siyam, 33). Birə on qat əcr verilməklə Ramazan orucunun on aya, altı gün şəvval orucunun da altmış günə bərabər olduğu və beləcə, bütün ilin oruclu keçirilmiş sayıldığı da rəvayət edilmişdir. Çünki Qurani-Kərimdə: **"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər"**,-buyurulmuşdur (Ənam, 6/160). Digər tərəfdən aybaşı səbəbi ilə Ramazan orucu qəzaya qalmış qadınların, altı günün qəzasını bu günlərdə tutmaları onlara da bu əcri qazandırır.

5. Ərəfə günü oruc tutmaq: həccə getməyənlərin zülhiccə ayının doqquzuncu günü oruc tutmaları müstəhəbdir. Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Ərəfə günü tutulan orucun, bundan əvvəlki və sonrakı bir ilin günahlarını örtəcəyi Allahdan umulur"* (İbn Hənbəl, V, 196).

6. Zülhiccə orucu: zülhiccə ayının ilk doqquz günü oruc tutmaq tövsiyə edilmişdir. Ancaq həcdə olanların bitab düşəcəkləri onların ərəfə günü oruc tutmaları məkruh sayılır. Bu haqda Hz. Həfsə (r. ənha) belə demişdir: "*Hz. Peyğəmbər (s.ə.s) bu dörd şeyi heç vaxt tərk etməmişdir: aşura orucu, zilhiccənin ilk on günü, hər ayda üç gün, sübh namazından əvvəl iki rükət namaz"* (Nəsai, Siyam, 83).

İPƏKYOLU NƏŞRİYYATI

7. Aşura günü oruc tutmaq: məhərrəm ayının onuncu gününə "aşura" günü deyilir. Yalnız bu gün deyil, əvvəlki və sonrakı günü də əlavə edərək oruc tutmaq müstəhəb sayılır. İbn Abbasdan (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) Mədinəyə hicrət etdiyi zaman yəhudilərin aşura günü oruc tutduqlarını görmüş və nə üçün bu gün oruc tutduqlarını soruşmuşdu. Onlar da bu günün böyük bir gün olduğunu, Allahın bu gündə Musa (ə.s) və İsrail oğullarını düşmənlərindən xilas etdiyini, buna görə də Hz. Musanın (ə.s) bu gündə oruc tutduğunu bildirdikləri zaman: *"Mən Musaya sizdən daha yaxınam"*, - buyurdu və bu gündə oruc tutulmasını əmr etdi (Buxari, Səvm, 69, Ənbiya, 24). Cahiliyyə dövründə ərəblərin aşura orucu tutduqları, Hz. Peyğəmbərin (s.ə.s) də Ramazan orucu fərz *buyurulmamışdan* əvvəl bu orucu tutmağı əmr etdiyi nəql edilmişdir. Həmçinin daha sonra Ramazan orucu fərz buyurulduqdan sonra aşura orucu müstəhəb və ya Sünnə kimi tutulmuşdur.

8. Haram aylarda oruc tutmaq: "haram aylar" deyilən zülqədə, zülhiccə, məhərrəm və rəcəb aylarının cümə axşamı, cümə və şənbə günləri oruc tutmaq məndubdur.

9. Şaban ayında oruc tutmaq: şaban ayında oruc tutmaq müstəhəb sayılır. Hz. Aişə (r.ənha) belə deyir: *"Hz. Peyğəmbər (s.ə.s) şaban ayından çox başqa heç bir ayda oruc tutmazdı. O, demək olar ki, şaban ayının hamısını oruclu keçirirdi"* (Müslim, Səlat, 176).

IV. Məkruh oruclar

1. Təhrimən məkruh olan oruclar: müsəlmanların bayram etdikləri, sevinclərini bölüşdükləri vaxtlarda oruc tutmaq harama yaxın məkruhdur. Bunlar Ramazan bayramının birinci günü və Qurban bayramının dörd günü tutulan oruclardır.

2. Tənzihən məkruh olan oruclar:

a. Visal orucu tutmaq: fasilə vermədən, yəni axşam iftar etmədən bir günün orucunu ertəsi günə birləşdirərək tutulan oruclar tənzihən məkruhdur.

b. Bütün ili oruclu keçirmək: hər gün dalbadal, bütün ili və ya əksər hissəsini oruclu keçirmək tənzihən məkruhdur.

c. Hacıların tərviyə və ərəfə günü oruc tutmaq: həcc ibadəti başladığı üçün hacıların Qurban bayramından bir və iki gün əvvəl olan ərəfə və tərviyə günlərində oruc tutmaları tənzihən məkruhdur.

d. Yalnız aşura günü oruc tutmaq: yalnız məhərrəm ayının onuncu günü tutulan oruc tənzihən məkruhdur. Həmin gündə tutulan orucun məkruh olmaması üçün bir gün əvvəl və ya bir gün sonra da oruc tutulmalıdır.

e. Şəkk günü və şaban ayının son günlərində oruc tutmaq: ramazan ayının girib-girmədiyinin tam müəyyən edilməməsi səbəbilə şabanın son günü olan şəkk günündə ramazan orucu niyyəti ilə tutulan oruc tənzihən məkruhdur. Həmçinin Ramazanı qarşılamaq məqsədilə şaban ayının son günlərində oruc tutmaq da tənzihən məkruhdur. Çünki ramazan ayına dinc girmək əsasdır. Ancaq əvvəlcədən davam edilən orucdursa, məkruh deyil.

f. Yalnız cümə günü oruc tutmaq: müsəlmanların bayramı olan cümə günündə, yəni həftə boyu tutmayıb sırf həmin gündə oruc tutmaq tənzihən məkruhdur. Bundan başqa, yalnız şənbə günü oruc tutulmaması ilə bağlı hədislər də var. Əgər bu günlərdən əvvəl və ya sonrakı günlərdə də oruc tutulursa, belə olan halda məkruhluq aradan qalxar.

g. Milli bayramlarda oruc tutmaq: milli bayram olan novruz və digər günlərdə hörmət məqədilə otuc tutmaq tənzihən məkruhdur.

Qeyd: Günü bəlli olan bir nafilə oruc məkruh bir günə rast gələrsə, nafilə oruc tutulmalıdır. Məsələn, ərəfə günü cümə gününə rast gələrsə, rəcəb ayının ilk cümə axşamı günü novruza rast gələrsə, məqsəd həmin gün savab qazanmaq olduğu üçün bu oruclar tutula bilər.

İPƏKYOLU NƏŞRİYYATI

D. ORUCUN ŞƏRTLƏRİ

I. Ramazan orucunun fərz olmasının şərtləri

Orucun fərz olması üçün aşağıdakı şərtlər olmalıdır:

1. **Müsəlman olmaq.**

2. **Həddi-büluğa çatmaq və ruhi xəstə olmamaq.**

3. **Oruc tutmağa gücün çatması:** oruc tuta bilməyəcək dərəcədə yaşlı, ya da xəstə olanların oruc tutmaları fərz deyil. Yaşlılar tuta bilmədikləri orucların əvəzində fidyə verməlidirlər. Xəstə olan isə tuta bilmədiyi oruclarını sağaldıqdan sonra qəza etməlidir. Bundan başqa, özü və ya körpəsinə ziyan olacaqsa, hamilə və südəmər uşağı olan qadınlara oruc fərz deyil. Ancaq oruclarını daha sonra qəza etməlidirlər.

4. **Müqim olmaq:** dini baxımdan səfərdə sayılana yolçuluq müddətində oruc tutmaq fərz deyil. Ancaq istəsə, orucunu tuta bilər. Tuta bilmədiyi oruclarını isə səfərdən sonra qəza etməlidir.

II. Orucun səhih olmasının şərtləri

1. **Niyyət etmək:** oruca qəlbən niyyət etmək orucun səhih olmasının şərtidir. Niyyəti ağızla demək isə Sünnədir. Ramazan orucu, nafilə oruc, günü bəlli olan nəzir oruclarına təqribən günorta namazına bir saat qalmışa qədər; qəza, kəffarə və vaxtı bəlli olmayan nəzir oruclarına isə imsak vaxtına qədər niyyət etmək şərtdir. Ramazan orucuna hər gün ən azı qəlbən niyyət etmək lazımdır. Oruc tutmaq məqsədilə səhurə (o başdan) durmaq da niyyət sayılır. Ramazan orucunun qəzasında niyyət imsak vaxtına qədər edilməlidir. İmsakdan sonra edilən niyyət etibarsızdır. Bu oruca niyyət edərkən "Ramazan orucunun qəzasına" kimi ifadə ilə müəyyən etmək lazımdır. Digər oruclara niyyət edərkən də hansı oruc olduğu müəyyən edilməlidir.

2. **Orucu pozan hallardan uzaq olmaq:** tutulan orucun səhih olması üçün yemək, içmək və cinsi əlaqədən uzaq durulmalıdır. Bundan əlavə, yalan, qeybət, nalayiq sözlər sərf etmək kimi günahlardan da uzaq durmaq orucdan savab qazanmaq üçün şərtdir.

3. **Qadının heyz və nifas halında olmaması:** qadın oruc tuta bilmək üçün aybaşı və zahılıq halında olmamalıdır. Heyz və ya nifaslı qadın Ramazanda tuta bilmədiyi oruclarını təmizləndikdən sonra qəza etməlidir.

E. ORUC TUTMAMAĞI VƏ POZMAĞI MÜBAH EDƏN ÜZRLƏR

Uca Allah bəndələrinə taqətlərinin fövqündə heç bir şey yükləməmişdir. Məhz bu, oruc üçün də belədir. Allah-Təala oruc üçün tanınan asanlıqları ayələrində belə bildirmişdir: **"**(Oruc tutmaq) **sayı müəyyən olan** (bir ay) **günlərdir.** (Bu günlərdə) **sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə** (hər günün əvəzində) **bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə** (həm oruc tutub, həm də fidyə verərsə)**, bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"** (Bəqərə, 2/184)

I. Ramazan orucunu tutmamağı mübah edən üzrlər

1. **Yolçuluq:** səfəri sayılan və ya sonrakı gün səfərə çıxan Ramazan orucunu tutmaya bilər. Ancaq səhur yeməyini yeyə bilən və ya yolçuluğu rahat olan bir şəxsin səfərdə oruc tutması daha məqsədəuyğundur. Oruca niyyət edib oruc tutmağa başlayan gündüz yola çıxsa, orucunu poza bilməz, pozduğu təqdirdə qəza edilməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

2. Xəstəlik: ağır xəstə olan və ya xəstə olub mömin bir həkim tərəfindən oruc tutması qadağan edilən oruc tutmaya bilər.

3. Hamiləlik və südəmər körpəsi olan qadın: hamilə və südəmər körpəsi olan qadınlar uşağa ziyan olmasında əndişə etsələr, oruc tutmaya bilərlər.

4. Yaşlılıq: oruc tutmaqdan aciz olan yaşlı kişi və qadınlar oruc tutmaya bilərlər. Əgər il boyu oruc tutmaqdan acizdirlərsə, hər oruc üçün bir nəfərlik fidyə verməlidirlər.

5. Düşmənlə cihad: müharibə edən əsgər düşmən qarşısında zəif olmaması üçün komandirin əmrinə müvafiq hərəkət edərək oruc tutmaya bilər.

II. Ramazan orucunu pozmağı mübah edən üzrlər

1. Xəstəliyin artması və ya ağız dolusu qaytarmaq: oruclu ikən xəstəliyin özünə zərər verdiyini görən bir şəxs və ya xəstəlik səbəbilə ölməkdən qorxan orucunu poza bilər. Bu kimi hallarda orucunu ramazan ayından sonra qəza etməlidir.

2. Həddindən artıq aclıq və susuzluq: əgər bir şəxs oruc tutarkən açlıq və susuzluq səbəbilə ölmə təhlükəsi keçirərsə, orucunu pozmalıdır.

3. Dolanışıq üçün çətin işdə işləmək məcburiyyətində qalmaq: gündəlik əmək haqqına çalışan və imkanı olmayan bir şəxs fiziki baxımdan çox ağır bir işdə işləmək məcburiyyətində qalmış, oruc tutduğu üçün tamamilə taqətdən düşmüş və artıq işləməsi də qeyri-mümkün vəziyyətəd gəlmişsə, zəruri olan dolanışığını təmin etmək üçün orucunu poza bilər, sonra da qəzası tutar.

4. Zor altında olmaq: orucunu pozması üçün silah və digər öldürücü bir alətlə başqası tərədindən təhdid edilib zor altında olan şəxs orucunu poza bilər.

5. Müharibə vəziyyəti: ramazan ayında müharibənin ediləcəyi gün düşmən qarşsında güclü olmaq üçün səfərdə olan əsgərlər dini məsələləri bilib həssas olan komandirlərinin istəklərinə görə hərəkət edərək oruclarını poza bilərlər.

Ramazan orucu hansı hallarda pozula bilər? Sinifdə müzakirə edin

III. Nafilə orucu pozmağı mübah edən üzrlər

Nafilə orucu pozmaq aşağıdakı hallarda caizdir:

1. Ramazan orucunu da pozmağı mübah edən hallardan birisinin meydana gəlməsi.

2. Qonaqlığa dəvət edilmək: bir qonaqlıqda iştirak etmək üçün israrla dəvət edilən bir şəxs nafilə olaraq tutduğu orucunu poza bilər. Əgər qonaqlıq günortadan əvvəl olarsa, pozulması yaxşı, günortadan sonra olarsa, oruc tutan şəxs pozub-pozmamaqla bağlı qərarını özü verməlidir.

3. Əmrə tabe olma vəziyyəti olduqda: əsgər komandirinə, övlad valideynlərinə, qadın ərinə, qonaq ev sahibinə uyğun hərəkət etməlidir. Nafilə oruclarda bu kimi hallar nəzərə alınmalıdır.

F. ORUCUN FİDYƏSİ

Quranda oruc fidyəsi ilə bağlı belə buyurulur: **“Oruc tutmağa taqəti olmayanlar isə bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər”** (Bəqərə, 2/184).

İPƏKYOLU NƏŞRİYYATI

İbn Abbas (r.ə) belə demişdir: "Bu ayə yaşlı şəxslərə asanlıq gətirmək üçün enmişdir. Ramazan Orucunu tutmaq fərzdir. Fərzin qəza edilməsi ilə borcun öhdəlikdən düşməsi kimi, fidyə kəffarəsi ilə düşməsi də caizdir. "Oruc tutmağa taqəti olmayanlar" ifadəsi həddən artıq yaşlılara şamil olduğu kimi, sağalma ümidi qalmayan xəstələri də əhatə edir. Bunun dəlili: **"Allah dində sizin üçün heç bir çətinlik yeri qoymadı"** ayəsidir (Həcc, 22/78). Odur ki, ayə oruc tutmağa gücü çatmayan yaşlılar və sağalma ümidi qalmayan xəstələrin tuta bilmədikləri oruc üçün fidyə vermə hökmünü gətirmiş və fidyənin miqdarını da hər gün "bir kasıbı doyurma" olaraq bəyan etmişdir.

Gündən-günə bədəni zəifləyən xəstə və yaşlılar tuta bilmədikləri hər gün üçün bir yoxsulu doyura biləcəkləri kimi, bir kasıbı doyuracaq qədər fidyəni ramazan ayının əvvəlində və ya axırında nağd pul və ya mal olaraq da verə bilərlər. Bu fidyəni sağlıqlarında ödəyə bilməyiblərsə, vəfatlarından sonra ödənməsini vəsiyyət etməlidirlər. Belə bir vəsiyyət olunar və mirasın da üçdə biri bunu ödəməyə kifayət edərsə, mirasçılar bu fidyəni yoxsullara ödəməlidilər. Vəsiyyət edilməz və ya mirasın üçdə biri bunu ödəməyə kifayət etməzsə, mirasçıların bağışlama qəbilindən bunu ödəmələri tövsiyə olunmuşdur.

Orucu fidyə yolu ilə yerinə yetirmə mütəmadi xəstəlik və yaşlılıq səbəbilə oruc tuta bilməyənlərə məxsus olub, bu iki vəziyyətdən başqa üzrlü və ya üzrsüz fərz orucu vaxtında tutmayanlara aid deyil. Ancaq bunlar oruc borclarını qəza etmədən ölüblərsə, mirasçıların eyni şəkildə bu oruclar üçün də fidyə verməsi caiz, hətta məndub sayılmışdır. Çünki məsul şəxsin qəzanı gecikdirmə imkanı olsa da, ölüm qəza etmə imkan və ehtimalını ortadan qaldırmış və bir növ "qəzaya gücü çatmama" vəziyyətinə düşmüşdür.

Tutula bilməyən orucların fidyəsi bir çox yoxsula verilə bildiyi kimi, bu fidyələrin hamısı bir dəfəyə bir kasıba da verilə bilər. Əbu Yusifə görə isə, bir fidyəni bir neçə yoxsul arasında da bölüşdürmək olar.

Fidyə olaraq bir yoxsulu doyurmaq normal olmadığı üçün, əvvəllər bunun müəyyən miqdarda qida maddəsi kimi verilməsi nəzərdə tutulmuşdu. Hənəfilərə görə, bir yoxsulu doyuracaq qədər fidyə miqdarı buğdadan yarım sa, arpa, xurma və ya quru üzümdən bir sadır.

Oruc fidyəsinin miqdarı fitr sədəqəsinin miqdarına bərabərdir. Dövrümüzdə yoxsulu bir gün ərzində doyuracaq məbləğ cəmiyyətin sosial və iqtisadi səviyyəsi nəzərə alınaraq ən az miqdar olaraq müəyyən edilməli, bundan çox miqdar mövzusunda məsul şəxs öz iqtisadi vəziyyətini nəzərə almalıdır.

Hənəfilərdən başqa digər fəqehlərin əksəriyyətinə görə, Ramazan orucunu bir il içərisində qəza etməyərək təxir edən şəxslərin bundan sonrakı müddət içində fidyə ilə yanaşı, qəza da etmələri lazımdır. Burada qəsdən orucunu pozana qiyas edilmişdir. Çünki bunların hər ikisi də orucluğa hörmət etməmişlər. Xəstəlik, yolçuluq, ruhi xəstəlik, heyz və nifas kimi üzrlərə görə orucun qəzasını gələcək Ramazan ayından sonraya saxlayanların isə fidyə vermələri şərt deyil.

G. ORUCU POZAN VƏ POZMAYAN HALLAR

I. Orucu pozub həm qəza, həm də kəffarə lazım gələn hallar

Orucu pozub həm qəza, həm də kəffarə lazım gələn xüsusların birincisi Ramazan günü oruclu ikən edilən cinsi əlaqədir. Quranda oruc kəffarəsi ilə bağlı bir hökm yoxdur. Hz. Peyğəmbər (s.ə.s) də oruc kəffarəsi hökmünü o dövrdə baş verən bir cinsi əlaqə hadisəsi ilə əlaqədar vermişdir. Oruc kəffarəsi mövzusunda tətbiq edilən yeganə misal bu hadisədir: "Bir adam: "Məhv oldum", - deyərək Hz. Peyğəmbərin (s.ə.s) yanına gəldi və Ramazanın gündüzündə yoldaşı ilə cinsi əlaqədə olduğunu bildirdis. Bundan sonra aralarında bu söhbət oldu:

İPƏKYOLU NƏŞRİYYATI

-Kölə azad etməyə imkanın varmı?

-Xeyr, yoxdur.

-Ardarda iki ay oruc tuta bilərsənmi?

-Xeyr, bu iş onsuz da səbir edə bilmədiyim üçün başıma gəldi.

-Altmış yoxsulu doyuracaq qədər imkanın varmı?

-Xeyr.

Bu əsnada Allahın Rəsuluna (s.ə.s) bir səbət xurma gətirdilər. Bu xurmanı o adama verərək yoxsullara paylamasını istədi. Həmin adam: *"Bizdən daha yoxsul varmı?!"* - dediyi zaman Allahın Rəsulu (s.ə.s) gülümsəyərək: *"Al apar, bunları ailənə yedir!"*-buyuraraq adamı göndərdi (Buxari, Səvm, 30).

Hz. Peyğəmbər (s.ə.s): *"Kim Ramazan ayında qəsdən orucunu pozarsa, ona zihar edən adama lazım gələn şey (kəffarə) vardır"*, - buyurmuşdur. Burada orucun pozulma şəklindən bəhs edilmədiyi üçün hənəfilərə görə bilərək yemə-içmə yolu ilə pozulan oruc üçün də kəffarə ödənər. Digər tərəfdən, Hz. Aişənin (r.ənha) rəvayət etdiyi *"Oruc ancaq daxil olandan pozulur, çıxandan pozulmaz"* hədisi də, orucun pozulması ilə bağlıdır ümumi məna ifadə edir.

Odur ki, adətən yeyilən və içilən bir şeyi oruclunun bilərək yeməsi və içməsi orucu pozar həm qəza, həm də kəffarə lazım gələr. Ancaq bu arada xəstəlik, heyz və nifas halı, yolçuluq, məcburiyyət, qorxutma və xəta etmə kimi oruc tutmamağı mübah edən bir üzr ortaya çıxarsa, təkcə qəza etmək kifayətdir.

Ancaq onu da qeyd etmək lazımdır ki, oruc kəffarəsi yalnız fərz olan və niyyət edərək başlanan Ramazan orucunun qəsdən pozulmasının cəzasıdır. Odur ki, qəza, nəzir, Sünnə və ya nafilə olan digər orucların bilərək və ya bilməyərək pozulması halında yalnız günə-gün qəza edilməsi kifayətdir. Ancaq başlanan bir ibadəti yarıda tərk etmkdən ötrü eyni zamanda Allah-Təaladan məğfirət istəmək də lazımdır.

Şafeilərə görə, oruc kəffarəsi zihar kəffarəsinə qiyas edildiyi üçün, yalnız cinsi birləşmə yolu ilə pozulan Ramazan orucu üçün kəffarə lazımdır.

II. Orucu pozub yalnız qəza lazım gələn hallar

Orucu pozub təkcə qəza edilməli olan halları üç bənddə cəmləşdirmək mümkündür:

1. Qidalanma və ya müalicə məqsədi daşımayan bir şeyi yemək və ya içmək orucu pozur və yalnız qəza lazım gəlir. Bunları yeyib-içmək adət olmadığı kimi, insan təbiətinin də meyil etmədiyi şeylərdir. Məsələn, quru düyü, quru darı və mərcimək, çiy xəmir, un, kal meyvə yemək və ya fındıq, badam və qozu qabığı ilə udmaq və s. bunlar qida maddələri olsalar da, bu cür yeyilmələri normal deyil. Bir dəfəyə çoxlu duz yemək orucu pozur. Az miqdarda duz yeməklə qidalanma məqsədi daşıdığı üçün həm qəza, həm də kəffarə vacib olar.

Ağıza daxil olan yağış, qar və dolunu bilərək udmaq, su içmək kimi sayılır və orucu pozur. Ancaq istəməyərək olarsa, orucu pozmur.

Unudaraq bir şey yemək, içmək və cinsi əlaqədə olmaqla oruc pozulmur. Bundan fərz, vacib və ya nafilə heç bir fərq yoxdur. Çünki unutma bağışlanmışdır. Allah Rəsulu (s.ə.s) unudaraq yeyib içənlərin oruca davam etmələrini, onları Allahın yedirib-içirdiyini bildirmişdir (Buxari, Səvm, 26). Ancaq xəta ilə yeyib-içmək bundan fərqli olub, hənəfilərə görə orucu pozur. Məsələn, bir nəfər oruclu olduğunu bilə-bilə xəta ilə bir şey yesə və ya içsə orucu pozular və qəza edər. Dəstəmaz alarkən (oruclu olduğunu bildiyi halda) ağıza alınan sudan udmaq və ya dənizdə üzərkən su udmaq da bu cürdür.

Şafeilərə görə, orucu pozma qəsdi olmadığı üçün xəta ilə yeyib- içmək orucu pozmur. Malikilərə görə isə, oruc pozular və qəza edilməlidir. Çünki bu vəziyyətdə orucun rüknü olan imsak ortadan qalxmışdır.

İPƏKYOLU NƏŞRİYYATI

Oruclu adamın yemək yediyi görülərsə, əgər o adam qoca və zəifdirsə, susmaq caiz qəbul edilmişdir. Əgər oruca gücü çatan biridirsə, ona oruclu olduğunu xatırlatmamaq harama yaxın məkruhdur.

Diş ətləri qanayarsa, tüpürcəyə bərabər və ya çox olan qan boğaza gedərsə, orucu pozar. Daha azı pozmaz, çünki bundan qaçmaq çətindir.

Qusmaq qəsdən olmadığı zaman orucu pozmur. Qəsdən və ağız dolusu olarsa, oruc pozular. İstinad edilən dəlil budur: *"Oruclu qeyri-ixtiyari qaytararsa, qəza lazım deyil. Öz istəyi ilə qusarsa, orucunu qəza etsin"* (Əbu Davud, Səvm, 33).

Yeyilməsi adət olmayan, ancaq ehtiyatlı davranmağın da çətin olduğu şeylərin udulması orucu pozmaz. Məsələn, tüstü, toz və s. Ancaq dərmanın, məsələn dişə qoyulan bir dərmanın udulması orucu pozar.

Qulaq və ya buruna damcıladılan dərman, boğaz yolu ilə mədəyə çatdığı üçün orucu pozar. Qulağa girən və ya tökülən su isə orucu pozmaz. Gözə tökülən bir dərman boğazda hiss edilsə də orucu pozmaz. Gözə çəkilən bir sürmə də, rəngi tüpürcəkdə görülsə də oruca zərər verməz. Çünki gözün boğazla birbaşa deyil, dolayı yolla əlaqəsi vardır.

Qadın və kişinin cinsi orqanlarına iynə ilə dərman vurdurması orucu pozar.

Dərman işlətmək, peyvənd və iynə vurdurmaq: İslamda xəstə oruca gücü çatdığı təqdirdə oruc tuta bilər. Bu halda günün müəyyən saatlarında qəbul etməli olduğu dərmanları varsa, nə edilməlidir? Ağız, burun, ön və arxa kimi normal yollardan oruclu ikən qəbul edilən yemək, içmək, dərman və bənzərlərinin orucu pozduğu ilə bağlı İslam alimləri həmfikirdirlər.

Əbu Hənifəyə görə, qarın boşluğuna və ya beynə qədər çatan dərin yaralara vurulan dərmanlar qarın boşluğuna və ya beynə çatdığı zaman oruc pozulur və qəza edilməlidir. Belə olan halda peyvənd və ya iynə yolu ilə dəri altına, əzələyə və damara vurulan dərman orucu pozur. Çünki bu yolla qəbul edilən dərman, peyvənd və s. bütün bədənə yayılmış olur. Eyni zamanda oruclunun istəyi ilə olmuş və bədənin səhhətinə faydalı olmuşdur. Dərmanın bədənə bu cür daxil olması, suyun dəri məsamələrindən içəriyə nüfuz etməsi kimi deyil. Buna görə də peyvənd və iynəni zərurət olmayan hallarda iftardan sonraya saxlamaq daha münasibdir.

İmam Məhəmməd və Əbu Yusifə görə, bir şey normal yolla bədənə daxil olmadıqca oruc pozulmaz. Çünki oruc "normal bir yoldan, ağız və ya burun kimi bir üzvdən bədənə heç nə daxil etməmək surətilə nəfsi saxlamaq" şəklində tərif edilmişdir. Bu mövzuda dərin bir yaraya vurulan dərmanın qarına və ya beynə çatmasına etibar olunmamalıdır. Çünki bu nüfuzetmə normal bir yolla olmamışdır. Buna görə peyvənd və iynə də orucu pozmamalıdır. Əvvəllər fitva mərkəzlərində və Əzhər Universiteti fitva komissiyasında 1948-ci ildə "Bədənin normal dəlikləri xaricində qalan bir yerdən içəri daxil olan şey orucu pozmaz" şəklində fitva verilmişdir.

Dövrümüzdə müctəhid imamlar zamanında olmayan və aclığı, susuzluğu aparan və ya oruca qarşı bədən gücünü artıran dərman, iynə və s. işlədilməsi oruc ibadətini məqsədindən uzaqlaşdıra bilər. Çünki bir çox dərmanın , iynəsi də ola bilər. Həb şəklində udulan dərman orucu pozarkən, eyni dərman maye halında əzələyə vurularkən orucun pozulmaması arada bir ziddiyyət meydana gətirir. Buna görə də gündüz dərman qəbul etməyə məcbur olan xəstələrin orucu qəzaya buraxmaları, vəziyyəti daha yüngül olanların isə iynəni iftardan sonra vurdurması ehtiyata daha uyğundur.

2. Oruclu bir qida maddəsini və ya dərmanı hər hansı bir üzr səbəbi ilə qəbul edərsə ona yalnız qəza lazımdır. Xəstəlik, yolçuluq, məcburiyyət, xəta, səhlənkarlıq və ya şübhə dini üzrlərdəndir. Bunlar baş verdiyi təqdirdə oruc yalnız qəza edilər, kəffarə ödənməz. Məsələn:

a. Dəstəmaz alarkən və ya başqa bir halda mədəyə su getməsi,

b. Başındakı və ya qarnındakı dərin bir yaranı müalicə edərkən dərmanın beynə və ya qarın boşluğuna çatması,

İPƏKYOLU NƏŞRİYYATI

c. Yuxuda olan bir adama su içirilməsi.

d. Ağır bir işdə işləyərkən xəstələnərək özünə bir zərər gəlməsindən qorxaraq orucu pozmaq,

e. Unudaraq yeyib içdikdən və ya cinsi əlaqədə olduqdan sonra, orucun pozulduğunu zənn edərək günün geri qalan hissəsində bilərək bir şey yemək və ya cinsi əlaqədə olmaq,

f. Gecə niyyət etməyib, gündüz niyyət etdikdən sonra bu niyyətin etibarsız olduğunu sanaraq yeyib -içmək,

g. Gecə oruc tutmağa niyyət edib gündüz yolçuluğa başlayan şəxsin, səfərdə ikən orucu pozmağın caiz olduğunu sanaraq yeyib-içməsi və ya cinsi əlaqədə olması,

h. Gecə oruc tutmağa niyyət edən yolçunun müqimliyə niyyət etdikdən sonra yeməsi,

i. Sübh vaxtının girib-girmədiyi mövzusunda şübhə içində qalan şəxs yeməyə davam etsə və bu zaman ikinci fəcrin doğduğunu görsə, yalnız qəza edər. Çünki fəcrin doğuşu qəti olaraq bilinməzdən əvvəl əsil olan gecənin davam etməsidir.

j. Oruclu şəxs günəşin batdığını sanaraq orucunu açsa, ancaq günəş batmayıbsa, yalnız qəza edər.

Bir kimsə yemək yeyərkən imsak vaxtı girdiyi zaman dərhal yeməyi qurtararsa, o günkü oruca davam edə bilər.

3. Oruclu kimsənin şəhvətini cinsi əlaqədən başqa bir yolla tətmin etməsi halında oruc pozular, yalnız qəza vacib olar.

Bir kimsə Ramazan ayından başqa tutduğu bir orucu yemək, içmək və ya cinsi əlaqədə olmaqla pozarsa, Ramazan ayına hörmətsizlik olmadığı üçün kəffarə deyil, yalnız qəza edər.

III. Orucu pozmayan hallar

- Oruclu olduğunu unudaraq yemək və içmək.
- Dəstəmazdan sonra ağızda qalan islaqlıq.
- Ağzın içindəki tüpürüyü və bəlğəmi udmaq.
- Boğaza toz və tüstü girməsi, qulağa suyun getməsi.
- Dişlər arasında səhur yeməyindən qalan və noxud dənəsindən kiçik olan qırıntını udmaq.
- Qeyri-ixtiyari qaytarmaq, ağızdan çölə çıxmayan qusuntunu geri udmaq.
- Misvakdan istifadə etmək, məcunsuz diş fırçalamaq (diş məcununun dad verməsi və ya suyun boğaza getməsi ehtimalına görə imsakdan əvvəl diş fırçalamağa əhəmiyyət verilməlidir).
- Gül, çiçək, ətir, müşk kimi gözəl ətirləri iyləmək.
- Gözə sürmə sürtmək.
- Mədəyə gedib çatmayan bir dərman sürtmək və ya damcılatmaq.
- Diş çıxartdırmaq. (Ancaq diş çıxartdırarkən qanın və ya başqa bir maddənin udulması orucu pozur.)
- Qan aldırmaq, həcəmət etdirmək.
- Yatarkən ehtilam olmaq.
- Çimmək. Ehtilam olanın və ya gecə cünub olanın imsakdan sonra qüsl alması da orucu pozmur.

Qeyd: Orucu pozmayan hallarda orucun pozulduğunu zənn edərək yeyib-içmək nəticəsində qəza lazım gəlir.

İPƏKYOLU NƏŞRİYYATI

H. ORUCLU ÜÇÜN MƏKRUH OLAN DAVRANIŞLAR

· Üzrsüz bir şeyin dadına baxmaq və çeynəmək məkruhdur. Çünki ağızda olan bir şeyin udulma təhlükəsi var. Ancaq zəruri halda bişirilən yeməyin və ya aldanma təhlükəsi varsa, satın alınan qida maddəsinin dadına baxmaq olar. Bu zaman boğaza heç bir şeyin getməməsi şərtdir.

· Oruclunun əvvəlcədən çeynənmiş, şəkərli olmayan, ağ və parçalanmayan saqqızı çeynəməsi məkruhdur. Yeni bir saqqızı çeynəmək isə caiz deyil. Digər tərəfdən, bu gün çoxlu dadvericilər qarışan saqqızları ilk çeynəməkdə şəkər udulsa oruc pozulur.

· Yoldaşını öpmək, onu qucaqlamaq özünə güvənməyən üçün məkruhdur. Çünki bu, orucu pozacaq bir işi görməyə gətirib çıxara bilər. Ümumiyyətlə, yoldaşını öpmək oruca zərər verməz. Necə ki, Hz. Aişə (r.ənha) Rəsulallahın (s.ə.s) oruclu ikən xanımları ilə zarafatlaşdığını və öpüşdüyünü nəql etmişdir. Ancaq oruclu şəxsin yoldaşı ilə çılpaq olduqları halda sarılmaları özünə güvəni olsa da, olmasa da məkruhdur.

· Damardan qan aldırmaq və ya həcəmət etdirmək kimi insan bədənini zəiflədə bilən şeyləri etmək məkruhdur. Bədəni zəiflətməyəcəksə, məkruh deyil. Ancaq bunu iftardan sonra etmək daha yaxşı olar.

· Əksər hənəfi alimlərinə görə, yaş və ya quru misvakla dişlərin təmizlənməsində heç bir mane yoxdur. Əbu Yusifə görə isə, su ilə isladılmış misvakı işlətmək məkruhdur. Ağız və diş təmizliyi yeyilən yeməklərin artıqlarının təmizlənməsi məqsədilə edilir. Səhur yeməyindən sonra misvak və ya fırça ilə ağız və dişlər təmizləndikdən sonra, axşama qədər bu təmizlik kifayət edər. Çünki oruclu adamın ağzına onu kirləndirəcək heç nə daxil olmur. Həmçinin hər dəstəmaz alanda ağzı üç dəfə yumaq da Sünnədir. Oruclu xüsusilə diş məcunlarındakı dadlandırıcı maddələri udmaqdan qorunmalıdır. Şafeilərə görə, zaval vaxtından günəşin batışına qədər misvak işlətmək məkruhdur. Dəlilləri bu hədisdir: *"And olsun ki, oruclu insanın ağız qoxusu Allah qatında müşk qoxusundan daha üstündür"* (Buxari, Səvm, 2, 9, Libas, 78). Çünki zavaldan əvvəlki ağız qoxusu yeməyin, zavaldan sonrakı isə ibadətin əsəridir.

· Sərinləmək üçün yuyunmaq və ya islaq bir parçaya bürünmək Əbu Yusifə görə, oruca zərər verməz. Əsas alınan görüş də budur. Çünki bununla ibadətə kömək olunur. Əbu Hənəfiyə görə isə, sərinləmək məqsədilə ağız və buruna su almaq və ya soyuq su ilə yuyunmaq məkruhdur.

· Oruclunun gül, müşk, ətir kimi şeyləri iyləməsi məkruh deyil. Hənəfilərdən başqa üç məzhəbə görə, ətir vurmaq və xüsusilə də iyləmək məkruhdur.

· Qan aldırmaq və ya həcəmət etdirmək orucu pozmur. Ancaq oruclunun müqavimətini zəiflədərsə, məkruh olar. Hz. Peyğəmbərin (s.ə.s) ehramlı ikən və oruclu olduğu əsnada qan aldırdığı, həcəmət etdirdiyi nəql olunmuşdur.

İ. ORUCLU ÜÇÜN MÜSTƏHƏB OLAN DAVRANIŞLAR

· Səhurə durmaq və səhuru gecikdirmək.

· İftara tələsmək.

· Orucu xurma, su və ya şirin bir şeylə açmaq.

· İftar zamanı dua etmək.

· Oruclu bir möminə iftar vermək.

· Ramazan ayında yaxınlara, yoxsullara daha çox köməklik göstərmək və daha çox sədəqə vermək.

· Oruclu ikən lüzumsuz sözlərdən uzaq durmaq.

· Pis bir şeylə qarşılaşanda: "Mən orucluyam!" - deyib uzaq durmaq.

İPƏKYOLU NƏŞRİYYATI

- Quran oxumaq və müqabilə etmək.
- Etikafa girmək.



BİLGİ QUTUSU

İftarda bu duanı oxumaq müstəhəbdir: *"Allahummə ləkə sumtu və bikə aməntu və aleykə təvəkkəltu və alə rizqikə əftartu/Allahım, Sənin üçün oruc tutdum, Sənə inandım və Sənə etimad göstərdim. Sənin ruzinlə orucumu açdım!"*

J. ETİKAF

Etikaf kəlməsi "bir yerdə dayanmaq, gözləmək, səbir etmək" mənalarına gəlir. Fiqh terminologiyasında isə **etikaf** "bir məsciddə və ya məscid hökmündəki bir yerdə ibadət məqsədilə bir müddət dayanmaqdır". Etikaf hökmü baxımından vacib, müəkkəd Sünnə və müstəhəb olmaqla üç qisimdir. Nəzir edilən bir etikaf **vacib**, Ramazanın son on günündəki etikaf **müəkkəd Sünnə**, başqa bir vaxtda ibadət niyyəti ilə edilən etikaf isə **müstəhəb**dir. Allah rizası üçün edilən bir etikaf ilə müvəqqəti olaraq dünyadan təcrid edilməklə Uca Allaha yönəlmək və vaxtı ibadətlə keçirmək nəzərdə tutulur.

Etikaf məsciddə və ya məscid hökmündəki bir yerdə edilməlidir. Kişinin etikafı camaatla namaz qılınan bir məsciddə olmalıdır. Qadın üçün etikaf yeri isə evində namaz qıldığı otağıdır. Etikafa girən ərarvad bir-birindən icazə almalıdırlar.

Vacib olan etikaf vaxtı və müddəti müəyyən edilmişsə, həmin vaxt və müddətdə, Sünnə olan etikaf Ramazanın son on günündə, nafilə etikaf isə münasib bir vaxtda yerinə yetirilməlidir. Bundan əlavə, vacib və Sünnə olan etikafda oruclu olmaq lazımdır.

Etikaf əsnasında təmiz paltar geyinməli və gözəl ətir sürtülməlidir. Qurani-Kərim, hədisi-şərif və dini kitablar oxunmalı, eləcə də zikr, nafilə namaz və ya qəza namazı ilə məşğul olunmalıdır.

Üzrsüz etikaf yerindən çölə çıxmaq və cinsi əlaqədə olmaq etikafı pozur.

Aşağıdakıları etmək etikafı pozmur:

- Ayaqyolu ehtiyacı üçün çölə çıxmaq,
- Etkafa girdiyi yerdə cümə namazı qılınmırsa, cüməni qılmaq üçün başqa bir məscidə getmək,
- Etikafa girənin ailə üzvləri və ya əmlakı təhlükə altında olarsa, onları xilas etmək üçün çıxmaq,
- Nalayiq sözlər sərf etmək, qeybət etmək, dava-dalaşa yol vermək. Bu kimi hərəkətlər etikafı pozmur, lakin ibadətdən alınan savabları azaldır.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Orucun tərifini deyin.
2. Orucun nə vaxt fərz buyurulduğu barədə məlumat verin.
3. Orucun fərz olması ilə bağlı ayeyi-kərimə və hədisi-şərifləri yazın.
4. Orucun fərz olmasının şərtləri hansılardır?
5. Orucun növləri barədə məlumat verin.
6. Orucunun səhih olması üçün tələb olunan şərtlərdən danışın.
7. Orucu pozana hansı hallarda kəffarə vacib olur?
8. Oruc kəffarəsi necə yerinə yetirilir?
9. Orucu pozan hallar hansılardır?
10. Oruc tutmamağı mübah edən üzrlər hansılardır?
11. Orucun məkruhları barədə məlumat verin.
12. Etikaf nədir? Necə edilir?

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Səhur		*Quranı qarşılıqlı oxuyub dinləmək*
2	Etikaf		*Orucun qurtarma vaxtı*
3	Müqabilə		*Oruc tutmaq üçün o başdanda yeyilən yemək*
4	Fidyə		*Qadağalara məhəl qoymayanın cəzası*
5	Kəffarə	**2**	*Məsciddə ibadət məqsədilə dayanmaq*
6	İftar		*Bir yoxsulun doyacağı qədər pul vermək*

SƏHV-DÜZ

1. ( ) Aybaşı və zahı olan qadının oruc tutması məkruhdur.

2. ( ) Ramazan bayramının birinci günü və Qurban bayramı günlərində oruc tutmaq təhrimən məkruhdur.

3. ( ) Hamilə və südəmər uşağı olan qadınlar uşağa zərər olmasından qorxarlarsa, oruc tutmaya bilərlər.

4. ( ) Hənəfi məzhəbinə görə, Ramazan orucu qəzaya qalan digər ramazan ayı gələnə qədər bu qəzanı tutmaq məcburiyyətindədir.

5. ( ) "Filan işim olarsa, Allah rizası üçün üç gün oruc tutacağam" deyənin şərtlər gerçəkləşdiyi təqdirdə orucları tutması vacibdir.

6. ( ) Orucu xurma, su və ya şirin bir şeylə açmaq müstəhəbdir.

7. ( ) Oruca niyyət etmədən Ramazan günü yeyib-içmək həm qəza, həm də kəffarəni vacib edir.

8. ( ) Yaşlılıq səbəbilə orucunu tuta bilməyən fidyə vermək məcburiyyətində deyil.

9. ( ) Dəstəmaz alarkən boğazından su gedənin orucu pozulmur.

10. ( ) Öz istəyi ilə ağız dolusu qaytaran orucunu yalnız qəza edər.

11. ( ) Qidalandırma ehtimalı olan yemək qoxusunu və ya hər hansı bir qoxunu bilərəkdən içinə çəkmək məkruhdur.

12. ( ) Ramazanın son on günündə etikafa girmək vacibdir.

13. ( ) İftara tələsmək məkruhdur.

14. ( ) Vacib və Sünnə olan etikafda oruclu olmaq lazımdır.

15. ( ) Etikafa girən qadın ərindən icazə almalıdır.

16. ( ) Oruc tutarkən qüsl almaq və ya çimmək orucu pozur.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Zərurətən bir yeməyin dadına baxıb tüpürmək	
Hər ayda üç gün oruc tutmaq	
Qeybət etmək, yalan danışmaq	
Oruclu bir möminə iftar vermək	*müstəhəb*
Şəvval ayında 6 gün oruc tutmaq	
Ramazan orucunun qəzasını tutmaq	
Həcdə ikən ərəfə günü oruc tutmaq	

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakılardan hansı oruc vacib qəbul edilən bir orucdur?

a. Ərəfə günü oruc tutmaq

b. Aşura günü oruc tutmaq

c. Nəzir orucu

d. Ramazan orucunun kəffarəsi

2. Aşağıdakılardan hansı oruc nafilə oruc deyil?

a. Aşura günü və həmin günlərdə oruc tutmaq

b. Şaban ayının son günü Ramazanı qarşılamaq üçün oruc tutmaq

c. Şaban ayının ortası Bəraət gecəsinin gündüzü oruclu olmaq

d. Bazar ertəsi və cümə axşamı oruc tutmaq

3. Aşağıdakılardan hansı orucu pozub həm qəzanı, həm də kəffarəni vacib edən haldır?

a. İmsak vaxtı keçdiyi halda hələ vaxtın qaldığını fikirləşərək ilə yemək

b. Çöldən küngüd dənəsi qədər bir şeyi yemək

c. Unudaraq yeyib-içdikdən sonra orucun pozulduğunu zənn edərək yeyib-içmək

d. Müalicə məqsədilə iynə vurdurmaq

4. Aşağıdakılardan hansı orucu pozub yalnız qəzanı vacib edən haldır?

a. Qeyri-ixtiyari qaytarmaq

b. Dişləri misvaklamak

c. Oruclu olduğunu unudaraq yeyib-içmək

d. Dəstəmaz əsnasında ağza və burna su alarkən qeyri-ixtiyari boğaza suyun getməsi

5. Etikafın etibarlı olması üçün müəyyən şərtlər var. Aşağıdakılardan hansı sözügedən şərtlər arasında yoxdur?

a. İbadət məqsədilə bir müddət dayanmaq

b. Sünnə olan etikafda oruclu olmaq

c. Etikaf əsnasında zərurət olmadan danışmamaq

d. Məsciddə və ya məscid hökmündəki bir yerdə etikafa girmək

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

XI BÖLMƏ

ZƏKAT VƏ SƏDƏQƏ

MÖVZULAR

A. ZƏKATIN TƏRİFİ VƏ HÖKMÜ

B. ZƏKATIN HİKMƏTLƏRİ VƏ FAYDALARI

C. ZƏKATIN FƏRZ OLMASININ ŞƏRTLƏRİ

D. ZƏKATIN SƏHİH OLMASININ ŞƏRTLƏRİ

E. ZƏKAT NECƏ VERİLMƏLİDİR?

F. ZƏKAT KİMLƏRƏ VERİLƏR

G. ZƏKAT KİMLƏRƏ VERİLMƏZ

H. ZƏKATA DAXİL OLAN MALLAR

İ. SƏDƏQƏ VƏ NÖVLƏRİ

J. ALLAH YOLUNDA VERMƏYİN, İNFAQIN ƏHƏMİYYƏTİ

K. FİTRƏ (FİTR SƏDƏQƏSİ)

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. İnsanlar arasında köməkləşmə və dayaqdurma kimi halların təmin edilməsində zəkatın əhəmiyyətini araşdırın.
2. Zəkatın fərz olması üçün varlı olmaq şərtdir. Dini baxımdan kimlərin varlı sayıldığını müəllimlərinizdən soruşaraq öyrənin.
3. Kimlərə zəkat və fitrə verilmədiyini bilirsinizmi? Bu mövzuda bildiklərinizi danışın.
4. Zəkatla sədəqə arasındakı ortaq və fərqli cəhətləri bir elmihal kitabından araşdırın.
5. Ətrafınızdakı vəqf və xeyriyyə cəmiyyətlərini sayın və bunların nə üçün qurulduqlarını araşdırın.
6. Qərzi-həsən müəssisəsi fəaliyyət göstərdikdə hansı mənfi halların aradan qalxacağı barədə fikir mübadiləsi edin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. ZƏKATIN TƏRİFİ VƏ HÖKMÜ

Zəkat lüğətdə "artma, çoxalma, təmizləmə, bərəkət və mədh etmə" kimi mənalara gəlir. İslam hüquq terminologiyasında zəkat "təyin olunan mal növlərindən müəyyən qismini Allah-Təalanın bildirdiyi müsəlmanlara, onların mülkiyyətinə keçirməklə verməkdir."

Zəkata həmçinin möminlərin Allahın əmrlərinə tabe olma baxımından göstərdikləri sədaqətə görə "sədəqə" də deyilmişdir. Odur ki, sədəqə kəlməsi zəkatdan vacib və nafilə qəbilindən olan bağışlamaları da əhatə edən daha geniş bir məfhumdur.

Allah rizası üçün seçilib verilən mala ona görə zəkat adı verilmişdir ki, arxada qalan malı təmizləyir və fəlakətlərdən mühafizə olunmasına vasitəçi olur. Allah-Təala belə buyurur: **"**(Ya Rəsulum!) **Onların mallarından sədəqə** (zəkat) **al. Bununla onları** (günahlarından) **təmizləmiş, pak etmiş** (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) **olarsan"** (Tövbə, 9/103). Bununla yanaşı, zəkat onu verəni günahdan, malı kirdən təmizləyər və mənəvi baxımdan onu ucaldar.

Zəkat İslamın beş təməl əsasından biridir. Hicri tarixlə II il şəvval ayında Ramazan orucu və fitrə sədəqəsindən sonra vacib olmuşdur. Qurani-Kərimdə zəkat kəlməsi iki yerdə lüğət mənasında istifadə olunmuşdur. Otuz ayədə isə termin mənasında istifadə olunmuşdur. Sözügedən ayələrin səkkizi Məkkə dövründə nazil olmuşdur. Quran zəkat kəlməsinin sinonimi kimi "sədəqə" və "haqq" kəlmələrini də qeyd etmişdir. Müxtəlif ayələrdə təşviq edilən "infaq" isə könüllü yaxşılıq etməyi ifadə edir. Zəkat iyirmi yeddi ayədə namazla yanaşı qeyd olunmuşdur. Bu da namaz ilə zəkat arasında yaxın əlaqənin olduğunu göstərir.

Digər tərəfdən zəkat əvvəlki peyğəmbərlərə də ümumiyyətlə namazla birgə əmr edilmişdir. Quranda İbrahim (ə.s) və oğulları İshaq və Yaqubun doğru yolu göstərən rəhbərlər edildikləri bildirildikdən sonra belə buyurulur: **"Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər"** (Ənbiya, 21/72-73). İbrahimin (ə.s) digər oğlu Hz. İsmayıl haqqında da belə deyilir: **"O öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi"** (Məryəm, 19/55). Uca Allah ümumi olaraq Tövrata tabe olan İsrail oğullarına da belə səslənir: **"**(Müsəlmanların namazı kimi) **namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!."** (Bəqərə, 2/43) Hz. Musa yetmiş nəfərlə Sina dağına çıxdıqda, Uca Allah ona buyurdu: **"İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdi. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!"** (Əraf, 7/156) Hz. Məryəm atasız dünyaya gətirdiyi İsa (ə.s) haqqındakı suallara cavab verməkdə çətinlik çəkdikdə, beşikdə olan gələcəyin peyğəmbəri Hz. İsa belə cavab verdi: **"O, harada oluramsa olum, məni mübarək** (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) **etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu"** (Məryəm, 19/31).

Zəkatın vacibliyi Kitab, Sünnə və İcma ilə sabitdir. Allah-Təala belə buyurur: **"Namaz qılın, zəkat verin!"** (Bəqərə, 2/110), **"Ya Rəsulum!) Onların mallarından sədəqə** (zəkat) **al. Bununla onları** (günahlarından) **təmizləmiş, pak etmiş** (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) **olarsan"** (Tövbə, 9/103). **"**(Onların hər biri) **bar verdiyi zaman barından yeyin, yığım günü haqqını** (zəkatını, sədəqəsini) **ödəyin..."** (Ənam, 6/141).

Sünnədən dəlil Hz. Peyğəmbərin *"İslam beş əsas üzərinə qurulmuşdur. Bunlardan biri də zəkat verməkdir"* hədisi ilə Muaz ibn Cəbəli Yəmənə başçı kimi göndərərkən ona dediyi bu sözlərdir: *"Onlara bildir ki, Allah-Təala onlara zəkatı vacib etmişdir. Zəkatı oranın zənginlərindən al yoxsullara ver"* (Buxari, Zəkat, 1, Tövhid, 1). Zəkatın vacibliyini bildirən başqa hədislər də mövcuddur. Digər tərəfdən əsrlər boyu bütün İslam hüquqşünasları zəkatın vacibliyi haqqında həmfikir olmuşlar. Əshabi-kiram zəkat

İPƏKYOLU NƏŞRİYYATI

verməyənlərlə mübarizə aparmağın lazımlığı bərədə həmfikir olmuşlar. Zəkatın vacibliyini inkar edən kəs dindən çıxar.



BİLGİ QUTUSU

Zəkat yerinə yetirilib-yetirilməməsi istəyə buraxılmış bir yardım deyil, yoxsulun haqqı və varlının yerinə yetirməli olduğu məcburi bir vəzifədir. Qurani-Kərimdə bu məsələ belə vurğulanır: **"Mallarında da dilənçinin və yoxsulun haqqı (payı) var"** (Zariyat, 51/19). Məhz bu səbəbdən Hz. Əbu Bəkr (r.ə) dövlət başçısı seçildikdən sonra zəkat verməyənlərə qarşı mübarizə aparmışdır.

B. ZƏKATIN HİKMƏTLƏRİ VƏ FAYDALARI

Zəkatın vacib olmasının hər bir şəxs tərəfindən anlaşılan bir sıra hikmətləri vardır. Haqq-Təala insanlara müxtəlif qabiliyyətlər bəxş etmiş və bunun nəticəsində də sərvət yönündən fərqliliklər yaranmışdır.

Qurani-Kərimdə belə buyurulur: **"Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir"** (Nəhl, 16/71). Maddi üstünlüyə malik olan var-dövlət sahiblərinin mal-dövlətlərinin bir qismini kasıblara vermələri vacibdir. Çünki bu kimi məcburiyyət olmazsa, varlı təbəqədən kasıb təbəqəyə bu maddi axını təmin etmək qeyri-mümkündür. Allah-Təala belə buyurur: **"O kəslər ki, onların mallarında müəyyən bir haqq** (pay) **vardır - Dilənən və** (hər şeydən) **məhrum olan** (lakin abrına qısılıb dilənməyən) **kimsə üçün"** (Məaric, 70/24, 25).

İslamın gətirdiyi zəkat anlayışı məhz varlı təbəqə ilə yoxsul təbəqə arasındakı müvazinəti təmin edən mühüm tədbirdir. Zəkat İslamdakı sosial yardımlaşmanın reallaşmasını təmin etmiş, sərvətlərin yalnız zənginlərin arasında dövr edən bir güc olmasına əngəl olmuşdur. Odur ki, İslamın ilkin dövrlərində Misir, Suriya və İraq torpaqları uğrundakı müharibə iştirakçılarına (qazilər) paylaşdırılmayıb köhnə sahiblərinə cizyə və xərac vergisi almaq şərti ilə verilərək, insanların hər cür ehtiyacları üçün sərf olunması və sərvətin sırf varlılar arasında dövr etməsinə mane olma məqsədini güdmüşdür. Allah-Təala belə buyurur: **"Allah Öz Peyğəmbərinə** (fəth olunmuş) **məmləkətlərin əhalisindən** (dinc yolla) **verdiyi qənimət Allaha, Peyğəmbərə,** (Mühəmməd əleyhissəlama yaxın olan) **qohum-əqrabaya, yetimlərə, yoxsullara və** (pulu qurtarıb yolda qalan) **müsafirə** (yolçulara) **məxsusdur. Bu ona görədir ki,** (həmin mal-dövlət) **içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın** (ondan yoxsullar da faydalansın)**. Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir"** (Həşr, 59/7).

Məhz bu səbəbdən İslam mal-dövlətin yalnız müəyyən təbəqənin əlində cəmləşib geniş xalq kütlələrinin yoxsulluq içində yaşamasına göz yummamışdır. İslam vərəsəlik payları, zəkat və digər iqtisadi işləri tənzimləyərkən daim bu prinsipi əsas almışdır.

Zəkatın hikmətlərini aşağıdakı kimi sadalamaq olar:

1. Zəkat varlı ilə kasıbı bir-birinə yaxınlaşdırır. Belə ki, varlı kömək etdiyi üçün sevinərkən, kasıb da ona qarşı sevgi və hörmət bəsləyər. Beləliklə də, həsəd ortadan qalxar. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Müsibəti ancaq dua geri qaytarar, ömrü də ancaq yaxşılıq uzadar"* (Tirmizi, Qədər, 6; İbn Macə, Müqəddimə, 10).

2. Zəkat əmək qabiliyyəti olmayanlara normal həyat yaşama imkanını təmin edir. Cəmiyyəti yoxsulluqdan, dövləti zəiflikdən mühafizə edir. Allahın Rəsulu belə buyurmuşdur: *"Qiyamət günü yoxsullar səbəbi ilə vay zənginlərin halına! Yoxsullar deyərlər: "Rəbbimiz! Sənin bizə ayırdığın haqları verməyərək zənginlər bizə haqsızlıq etdilər". Allah-Təala: "İzzət və Cəlalıma and olsun ki, sizi Özümə yaxınlaşdıracaq onları isə uzaqlaşdıracağam"*, - buyuracaq. Bundan sonra Hz. Peyğəmbər: **"O kəslər ki, onların**

İPƏK YOLU NƏŞRİYYATI

qızıl
20 misqal

pul
20 misqal qızılın qiyməti

gümüş
200 dirhəm

qoyun və keçi
40 ədəd

inək, camış
30 ədəd

dəvə
5 ədəd

əkin məhsulları
5 vəsq

mallarında müəyyən bir haqq (pay) **vardır - Dilənən və** (hər şeydən) **məhrum olan** (lakin abrına qısılıb dilənməyən) **kimsə üçün”** ayəsini oxudu.

3. Zəkat insanı xəsislikdən mühafizə edir, comərd, əliaçıq etməklə digər insanlara qarşı məsuliyyət hislərini qüvvətləndirir. Sərvətinin bir qismini sırf Allah rizası üçün yoxsul dindaşlarına verən və müqabilində onlardan heç bir şey gözləməyən hər kəs mütəmadi olaraq cəmiyyət mənafeyini öz mənafeyindən üstün tutma xarakterinə sahib olur.

4. Zəkat mal-dövlətin qarşılığında Uca Allaha şükürdür və onun qəzəbini söndürür. Malı əsla azaltmaz, əksinə bərəkətləndirər və artırar. Qurani-Kərimdə: **“Əgər** (Mənə) **şükür etsəniz, sizə** (olan nemətimi) **artıracağam”**, – buyurulur (İbrahim,14/7). Malın zəkatını vermək baharda üzüm bağlarında artıq olan budaqları budamağa bənzəyir. Bunlar təmizlənmədikdə bütün çubuqlarda böyüyən üzüm salxımlarını kökü bəsləyə bilməz, salxımlar zəif və səmərəsiz olar. Məhz zəkatı verilməyən sərvət də bunun kimidir.

5. İnsan sosial bir varlıqdır. Cəmiyyətdən təcrid olmuş bir halda təkbaşına həyatı yaşama insanın yaradılışına ziddir. Digər tərəfdən cəmiyyət bölünməz və vahiddir. Odur ki, hər kəs gəlir və qazanc əldə etmə mövzusunda bir-birindən faydalanır. Məhz buna görə də əmələ gələn sərvətlərdə başqalarının da haqqı vardır. Varlının mal-dövlət sahibi olmasında yaşadığı cəmiyyətin də bir payı olmadığını kim inkar edə bilər? Belə bir mühitdən uzaqda, dağın başında təkbaşına yaşasaydı, bu imkanlar olardımı? Belə olan halda bütün bu nemətləri verən Allaha şükür və yaşadığı cəmiyyətə minnətdarlıq borcunu zəkat əmrinə tabe olmaqla yerinə yetirmiş olur.

6. İnsanın mayası torpaq olduğundan, torpağın suyu özünə çəkib tutması kimi insanda da mal-dövləti özündə tutma xarakteri hakimdir. Torpağın aldığı rütubətlə bitki əmələ gətirməsi kimi, insanın başqalarına vermək surəti ilə xəsislik hisləri azalar. Odur ki, zəkat ən azı alan qədər verən üçün də faydalıdır.

İPƏKYOLU NƏŞRİYYATI

C. ZƏKATIN FƏRZ OLMASININ ŞƏRTLƏRİ

Zəkatın fərz olması bəzi şərtlərə bağlıdır. Belə ki, bu şərtlərin bir hissəsi zəkat verənə, bir hissəsi də zəkatı verilən mala aiddir.

1. Mükəlləfdə (zəkatı verən şəxsdə) tələb olunan şərtlər

Aşağıdakı şərtlərə sahib olanın zəkat verməsi fərzdir:

a. Müsəlman olmaq: zəkatdan qadın da kişi kimi məsuldur. Mehr səbəbilə və ya başqa yollarla nisab miqdarı qızıl, gümüş və pula sahibi olan qadın zəkatını verməlidir.

b. Ruhi xəstə olmamaq: əqli cəhətdən xəstə olan zəkatdan məsul deyil.

c. Həddi-büluğa çatmaq: yetkinlik yaşına çatmayan uşaqların zəkat vermələri fərz deyil. Ancaq İmam Şafei varlı olan uşağın mal-dövlətindən onun adına valideynlərinin zəkat verməsinin vacib olduğunu bildirmişdir. Günümüzdəki alimlər də uşaq və ruhi xəstələrin var-dövlətlərindən istifadə edilib gəlir gətirməsi təmin edilərsə, bunun zəkatının verilməsinin vacib olduğunu bildirmişlər.

d. Azad olmaq: kölə və cariyələrə zəkat fərz deyil, lakin həbsdə olan, əgər digər şərtləri daşıyırsa, zəkatını verməlidir.

e. Nisab miqdarı mala sahib olmaq: zəkat verən təməl ehtiyaclarından və borclarından başqa ən azı nisab miqdarı mala sahib olmalıdır.

Təməl ehtiyaclar: nə qədər gözəl olursa olsun oturulan ev, bu ev üçün lazımi əşyalar, kitablar, lazım olan geyim əşyası, şəxsi kompüter, cib telefonu, avtomobil, minik vasitələr, yük heyvanları, ov iti, aylıq maaşla keçinirsə, bir aylıq ərzaq və market xərcləri, sahib olunan peşə və əkinçiliklə bağlı alətlər və istifadə edilən silahlar. Borc əvəzi əldə olan qiymətli əşya ilə ticarət üçün istifadə edilməyən bir qadının daim istifadə etdiyi inci, zümrüd, almaz kimi zinət əşyaları da təməl ehtiyac qəbul edilir və bunların da zəkatı yoxdur.

Nisab: dinin mallar üçün qoyduğu müəyyən ölçü və miqdarlardır. Peyğəmbərimizin dövründə zəkata daxil olan mallar üçün müəyyən edilən nisab miqdarları belədir:

- **Qızıl** üçün 20 misqal (80 qram qızıl).
- **Nağd pul və ticarət malları** üçün 20 misqal qızıl qiyməti olan miqdar. Məsələn, qızılın qramı 40 manat olarsa, 3400 manata sahib olan varlı sayılır.
- **Gümüş** üçün 200 dirhəm (595 qram gümüş).
- **Qoyun və keçi** üçün 40 ədəd.
- **İnək və camış** üçün 30 ədəd.
- **Dəvə** üçün 5 ədəd.
- **Əkin məhsulları** üçün 5 vəsq (650 kq və ya 1 ton). Ancaq Əbu Hənifəyə görə, əkin məhsullarında nisab yoxdur. Çünki Uca Allah belə buyurur: **"...yığım günü haqqını** (zəkatını, sədəqəsini) **ödəyin ..."** (Ənam, 6/141).

2. Zəkatı verilən malda tələb olunan şərtlər

a. Mal name (artan, çoxalan, böyüyən) bir mal olmalıdır: bir malın zəkat çərçivəsində sayılması üçün onda "name" xüsusiyyəti olmalıdır. Name lüğətdə artmaq, çoxalmaq və inkişaf etmək mənasına gəlir. Termin baxımından isə iki cür mənaya gəlir:

İPƏKYOLU NƏŞRİYYATI

Həqiqi artma: bir malın ticarətlə, çoxalaraq və ya əkilib-becərilərək artması "həqiqi artma" adlanır. Bu səbəbdən ticarət məqsədilə əldə olunan əşya və heyvanlar zəkata daxil olduğu kimi, balasını və südünü əldə etmək üçün otlaqlara göndərilən saimə heyvanlar da zəkata daxildir.

Hökmi artma: bir malın özünəməxsus artma imkanı və potensialının mövcud olmasıdır. Qızıl, gümüş və pul bu xüsusiyyətdədir. Həmin əşyalar ticarətdə istifadə olunduğu, malların mübadiləsində bir vasitə kimi ehtiyacları qarşıladığı üçün əsli etibarı ilə artmağa və ticarətə əlverişlidir. Məhz bu səbəbdən əldə olan qızıl və gümüş əşyalar, qızıl külçəsi, bəzək qızıl və gümüşdən olan bəzək əşyaları, ticarətə niyyət edilsə də, edilməsə də, hətta bunlar nəfəqəüçün olsa da, ev almaq üçün yığılsa da nisab miqdarına çatdıqda zəkatın əhatəsinə daxildir.

Alimlərin kitabları və ya sənətkarların iş alətləri əsasən çoxalan və inkişaf edən mallar deyil. Bu səbəbdən zəkata daxil deyil.

İtib illər sonra tapılmış maldan ötrü də zəkat vermək lazım deyil. Çünki bunlarda çoxalma və inkişaf etmə yoxdur. Dənizə düşüb illər sonra çıxarılan mallarla, qəsb edilmiş mallar bu hökmdədir. Qeyd edilən bu kimi hallarda zəkatın fərz olmaması bu hədisə əsaslanır: *"Dimar maldan zəkat vacib deyil"* (Malik, "Müvəttə", 18). Dimar mal mülkiyyəti davam etdiyi halda geri qayıtması və tapılması ümid edilməyən mal deməkdir. Bunlardan istifadə etmək mümkün olmadığı üçün zəkatını vermək də vacib deyil.

b. Var-dövlət şəxsin mülkiyyətində olmalıdır: zəkat olaraq verilən malın şəxsin mülkiyyətində olması ilə yanaşı, həmin mal (zilyəd) onun öz əlində olmalıdır. Zilyədlik malın sahibinin əlində olması və ya onun əmrində olması mənasına gəlir.

Odur ki, öz əmlakı olmasına baxmayaraq əlində olmazsa və ya əlində olduğu halda şəxsi əmlakı olmayan əşyalardan zəkat vermək vacib deyil. Məsələn, bir qadına yoldaşının mehir borcu varsa, onu tam verməyincə qadın zəkatdan məsul olmaz. Çünki o, mehrə malik olsa da, hələ əlində (zilyəd) mövcud deyil.

Həmçinin girov götürənin əlindəki girov mala da zəkat vacib olmaz. Çünki bu, borc müqabilində götürülən əşyadır. Sözügedən mal əmlak sahibinin əlində deyil. Borc verən kəs də, verdiyi borca qarşılıq olan maldan zəkat verməz. Çünki həmin mal onun əlində mövcud olmasına baxmayaraq malın əsas sahibi deyil.

Satın alınmış, ancaq hələ təhvil alınmamış mallar zəkat nisabına daxildir. Mötəbər sayılan rəyə görə, bunlardan da zəkat vermək vacibdir. Səfərdə olmaq zəkata mane deyil. Çünki səfərə çıxan şəxsin hərçənd ki, malı əlində deyil, vəkil vasitəsi ilə mümkün olduğu üçün zəkatdan məsuldur.

Sahibsiz əmlak zəkata daxil deyil. Cəmiyyətin xidmətinə təqdim olunan əmlak, dövlətin zəkat, vergi və digər gəlirlərdən əldə etdiyi mallar, müəyyən sahibi olmadığı üçün zəkata tabe olmaz. Sözügedən mallar yoxsulların da içində olduğu bütün cəmiyyətə məxsusdur.

Öz əmlakı olduğu halda həqiqətdə ondan istifadəsi qeyri-mümkün olan mallardan da zəkat verilməz. Bu kimi mallara dimar mal deyildiyini yuxarda qeyd etmişdik. Məsələn; itmiş heyvan, mal, dənizə düşmüş mal, dövlətin müsadirə edərək götürdüyü mal, əldə hər hansı sənəd olmadan inkar olunmuş, ancaq bir il keçdikdən sonra insanların hüzurunda iqrar edilərək sübuta yetirilmiş mal zəkata daxil deyil.

Şafei, maliki və hənbəlilərə görə, zəkat verilən maldakı şərt mülkiyyətin və istifadə səlahiyyətinin mövcud olmasıdır. Malikilər hənəfilərdən fərqli olaraq vəqf olunan malın idarə olunmasını sahibi öz öhdəliyinə götürərsə, həmin malın da zəkatı vacib olur fikrini irəli sürmüşlər. Çünki onlara görə, bir malı vəqf etmək onu mülkiyyətdən çıxarmır. Bunban başqa, şafeilərə görə, borc kimi alınan mal, alanın əlində bir ildən artıq qalarsa, onun zəkatını verməlidir.

c. Malın üzərindən bir il keçməlidir: oruc və həcc ibadətlərində olduğu kimi zəkat mövzusunda da qəməri təqvim əsas alınır. Zəkatın vacib olması üçün nisab miqdarı olan malın üstündən bir qəməri il

İPƏKYOLU NƏŞRİYYATI

keçməlidir. Buna "həvəlanül-həvl" deyilir. Dəlili isə bu hədisi-şərifdir: *"Üstündən bir qəməri il keçməyincə bir maldan zəkat vermək vacib olmaz"* (İbn Macə, Zəkat, 5).

Əbu Hənifəyə görə, üstündən bir il keçməsi nöqteyi-nəzərdən mallar iki qismə bölünür:

1) Nağd pul, qızıl, gümüş və ticarət malları ilə ilin yarısından çoxsunu otlaqda keçirən (saimə) heyvanlar.

2) Əkin məhsulları, mədənlər və dəfinələr. Birinci bənddəki malların zəkatında nisaba malik olduqdan sonra bir illik müddətin keçməsi şərtdir. Əkin məhsulları ilə mədənlərdə isə, bir illik müddətin keçməsi şərti yoxdur. Çünki bir çox məhsulun yığımı bir neçə ayda ola bildiyi kimi, bəzi torpaqlardan da ildə birdən çox məhsul hasil ola bilər. Bu kimi hallarda ilin axırını gözləmək yoxsula zərər verər.

Bununla birlikdə əkin məhsulları, meyvə və mədənlərin üstündən bir il keçmə şərtinin olmaması istehsalçılar baxımındandır. Bunlardan əkin məhsulları üçün şərtləri gerçəkləşdikdə onda bir (1/10/ üşr) və ya suvarma edilən ərazilərdə iyirmidə bir (1/20) nisbətində zəkat verilir. Mədənlərdə isə zəkat beşdə birdir (1/5). Ancaq əkin məhsullarını və ya mədənləri satın alıb, əlində ticarət məqsədi ilə saxlayan hər kəs bunun zəkatını digər ticarət malları kimi verər. Belə ki, bunlar nisab miqdarını keçmiş və üstündə bir il də keçmiş sə, qırxda bir (1/40) zəkatı verilir.

Əbu Hənifəyə görə, üşr ərazisində insan əli ilə yetişdirilən buğda, arpa, düyü, darı, qarpız, badımcan, yonca, çay, şəkər qamışı kimi məhsullara nisab və bir il şərti qoyulmadan üşr hökmləri tətbiq olunur. Odur ki, torpaqdan əmələ gələn hər şeyin onda bir və ya suvarma edilən yerlərdə iyirmidə bir zəkat verilməlidir.

Əbu Yusif və İmam Məhəmmədə görə isə, təqribən 650 kq-a çatmayınca sözügedən məhsullardan və insanların əllərində bir il müddətinə qalmayıb çürüyən meyvə və tərəvəzdən üşr verilməz.

Zəkata daxil olan malın üstündən bir il keçərkən, nisab miqdarı həm ilin başında, həm də axırında mövcud olmalıdır. Bu miqdarın il içərisində nöqsanlaşması müddəti kəsməz. Bunun müqabilində il içərisində artan malda, il axırında digər mal ilə birlikdə zəkata daxil olur. Məsələn, bir kəsin Ramazan ayının ilk günü, əsli ehtiyaclarından əlavə üç yüz qram qızılı olsa, ilin ortasında bu qızılın miqdarı əlli qrama düşsə və ya dört yüz qrama çıxsa, bir il sonra yenə Ramazan ayının ilk günü iki yüz qram qızılı olsa, beş qram qızılı zəkat olaraq verməklə məsuldur. Əgər ilin axırında səksən qramdan aşağı düşərsə, nisab miqdarına çatmadığı üçün zəkat verməz. Ancaq nöqsan olan həmin nisabın əmələ gəlməsi üçün gümüş, nağd pul, valyuta və ya ticarət malı varsa, bunların hamısı birlikdə qırxda bir zəkata daxildir.

İlin əvvəlində altmış qram qızıl olsa, ilin axırında həmin miqdar iki yüz qrama çıxsa və ya ilin əvvəlində iki yüz qram ikən, ilin axırında altmış qrama düşərsə, zəkat vacib olmaz. Ancaq səksən qrama çatdığı gündən etibarən bir ilin axırında yenə eyni miqdarda və ya daha çox olarsa, zəkat vacib olar.

İmam Züfərə görə, nisab miqdarı ilin əvvəlindən axırınacan nöqsansız mövcud olmalıdır.

Şafei və hənbəlilərə görə, nisab il ərzində mövcud olmalıdır. Zəkata daxil olan mal il içərisində nisabdan aşağı düşərsə, ondan zəkat verilməz. Daha sonra təzədən həmin mal nisabı keçərsə, il keçmə şərti təkrar başlayar. Ancaq cari ildə artım olan heyvanların balaları ilə ticarət mallarının qazancı əslə (əsas mala) tabe edilərək qiymətləndirilir.

Zəkata daxil olan hər hansı mal üstündən bir il keçdikdən sonra artarsa, həmin artan qismi artdığı gündən etibarən bir il keçməyincə zəkata tabe olmaz. Məsələn, bir şəxs Ramazan ayının ilk günü nisaba malik olsa, bir ilin axırında üç yüz qram qızıl və ya bu dəyərdə ticarət malına sahib olsa, yeddi qram yarım qızıl zəkat verilməlidir. Bundan iki gün sonra qızılın miqdarı dört yüz qram olarsa, artan qismi üçün təzədən bir il müddəti başlayar.

İPƏKYOLU NƏŞRİYYATI

D. ZƏKATIN SƏHİH OLMASININ ŞƏRTLƏRİ

1. Niyyət

Ümumiyyətlə, digər ibadətlərdə olduğu kimi zəkatda da niyyət şərtdir. Hz. Peyğəmbər (s.ə.s): *"Əməllər niyyətlərə görədir..."*,-buyurmuşdur (Buxari, Bədül-vəhy, 1). Zəkat vermək bir əməl və namaz kimi bir ibadətdir. Ona görə də nafilə sədəqədən zəkatı ayırmaq üçün niyyət şərtdir.

Zəkatı yoxsula verərkən və ya zəkat üçün bir mal ayırıb kənara qoyarkən, bunun zəkat olduğuna qəlblə niyyət olunmalıdır. Dil ilə tələffüz olunması şərt deyil. Hətta bir malı yoxsula zəkat niyyəti ilə verərkən, bunun hədiyyə və ya borc kimi verildiyini demək də zəkat olmasına mane olmaz.

Niyyət zəkatı vermə vaxtına yaxın olmalıdır. Çünki bütövlüklə ayrılıb kənara qoyulan zəkat ehtiyacı olanların vəziyyətinə görə qismən və ya müxtəlif vaxtlarda verilə bilər. Odur ki, bir malı zəkat olaraq ayırarkən niyyətlənmək kifayətdir. Belə olan halda zəkat verən bu mövzuda çətinliyə düşməz. Necə ki, oruca da axşam günəş batdıqdan sonra niyyətlənmək caizdir.

Bir şəxsin zəkat olaraq ayırdığı mal itsə və ya oğurlansa, yaxud da tələf olsa, zəkat borcu öhdəliyindən düşməz və bunun zəkatını verməlidir. Çünki geridə qalan malından zəkatı çıxarıb verməsi mümkündür.

Bir şəxs bir malı yoxsula niyyətsiz versə, sonradan zəkata niyyətlənsə, əgər bu mal hələ də yoxsulun əlindədirsə, niyyət etibarlıdır. Ancaq mal onun əlindən çıxmışsa, artıq niyyət etibarsızdır. Həmçinin bir şəxs başqasının malını onun adına icazəsiz zəkat versə, mülk sahibi icazə verdiyi təqdirdə, mal yoxsulun əlində mövcud isə zəkat etibarlı, əks təqdirdə etibarsızdır.

Zəkatda vəkilin deyil, mal sahibinin niyyəti daha etibarlıdır. Məhz buna görə mal sahibi zəkatı vəkilə verərkən və ya ən gec vəkil bu zəkatı fağıra verərkən zəkata niyyət olunmalıdır. Yalnız vəkilin niyyəti kifayət deyil. Vəkil zimmət əhlindən xristian və ya yəhudi də ola bilər.

Zəkat vermək niyyətində olan bir şəxs bunun üçün bir mal ayırmadan vaxtaşırı yoxsullara müəyyən şeylər payladığı halda ağlına niyyət gəlməzsə, bunlar zəkatdan sayıla bilməz. Ancaq yoxsula bu kimi mallar verərkən "bunu nə üçün verirsən?" kimi suala heç fikirləşmədən dərhal "zəkat olaraq verirəm" cavabını verə bilən niyyət etmiş sayılır.Bununla yanaşı, bir kəsin yoxsullara bir müddət müəyyən şeylər verdikdən sonra "bu müddət ərzində verdiyim şeylərin zəkatımdan olmasına niyyət etdim" deməsi kifayət deyil. Çünki nafilə olaraq yerinə yetirilən bir ibadəti sonradan mücərrəd bir niyyətlə fərz ibadətə çevirmək qeyri-mümkündür.

Malın hamısını zəkatına niyyət etmədən sədəqə kimi verən hər bir kəsin zəkat borcu istehsan yolu ilə öhdəliyindən düşər. Ancaq həmin sədəqəni verərkən bir nəzir və ya kəffarə kimi borcuna niyyət etməməlidir. Əks təqdirdə mal həmin niyyətə görə verilmiş olur, eyni zamanda həmin mala görə verəcəyi zəkat miqdarını da borclanmış olur.

Hənəfilər istisna olmaqla əksər İslam hüquqşünaslarına görə, bir şəxs bütün malını nafilə sədəqə olaraq versə və bununla zəkata niyyət etməsə, zəkat borcu öhdəliyindən düşməz. Çünki bununla fərzə niyyət etməmişdir. Bu məsələ yüz rükət namaz qıldığı halda fərzə niyyət etməyən kimidir.

Bir şəxs zəkatı vacib olan bir malın bir qismini yoxsula bağışlasa, öhdəliyindən həmin qismə aid zəkat düşər. Odur ki, bir varlı yoxsula verdiyi borcu ona bağışlasa, həmin miqdara aid zəkat borcu onun öhdəliyindən düşər. Burada zəkata niyyət edib-etməməsi nəticəni dəyişdirməz. Çünki bu vəziyyət malın məhv olmasına bənzəyir. Belə ki, həmin miqdardakı malı məhv olsaydı, zəkat vacib olmazdı. Məsələn, bir varlının yoxsulda dörd yüz qram qızıl alacağı borc varsa, bunun hamısını yoxsula bağışlasa, həmin alacağı borca aid on qram zəkat borcu öhdəliyindən düşər. Yoxsa həmin dörd yüz qram qızılı digər mallarının zəkatından saya bilməz.

İPEKYOLU NƏŞRİYYATI

Onu da qeyd etmək lazımdır ki, zəngin olan bir borcluya belə bir mal bağışlansa və ya həmin borcdan vaz keçilsə, bununla nə o malın, nə də başqa mallarının zəkatı verilmiş olur. Odur ki, mötəbər sayılan rəyə görə, həmin bağışlanan mala və ya borca aid malın zəkatı verilməlidir.

Şafeilərə görə, uşaq və ruhi xəstə adına onun vəli və vəsiləri (qəyyumları) zəkat verməklə məsul olduğu üçün, həmin şəxslərin zəkatı verərkən niyyət etmələri kifayətdir.

2. Təmlik

Zəkatın etibarlılığı üçün təmlik şərtdir. Təmlik zəkat olaraq verilən mal və ya nağd pulun mülkiyyətini zəkatı alanın adına keçirmək mənasına gəlir. Bu səbəbdən bir şəxs yoxsulu öz süfrəsinə dəvət edərək ona ehsan versə, burada təmlik olmadığı üçün zəkat yerinə keçməz. Nafilə sədəqə gerçəkləşir. Zəkat ruhi xəstə və ya müməyyiz olmayan uşağa verilə bilməz. Ancaq onlar adına ana, ata, vəsi (qəyyum) və ya vəli kimi onu təmsil edən kəslərə verilə bilər.

Zəkatda təmlik şərtinin istinad olunduğu dəlil "zəkat verin" ayələridir. Bu ayələrdəki vermək əmlakın (pulun, malın) mülkiyyətini qarşı tərəfin adına keçirmək deməkdir. Eyni zamanda **"Sədəqələr** (zəkatlar) **Allah tərəfindən müəyyən edilmiş bir fərz** (vacib əməl) **olaraq ancaq yoxsullara,** (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) **minskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri** (müsəlmanlığa) **isinişib bağlanmaqda olanlara** (iman gətirib hələ kamil mömin olmayanlara)**, azad ediləcək kölələrə** (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə)**, həmçinin** (borcu ödəməyə imkanı olmayan) **borclulara, Allah yolunda cihad edənlərə və yolçulara** (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) **məxsusdur"** (Tövbə, 9/60) ayəsində sayılan səkkiz sinfin başına qoyulan (həmin ləfzlərin başında olan) "ləm" hərfi (hərfi-cər) təmlik ifadə edir. Odur ki, zəkatın mülkiyyətini həmin səkkiz sinfə və ya bu sinifdən hər hansı birinin adına keçirmək labüddür.

E. ZƏKAT NECƏ VERİLMƏLİDİR?

1. Müsəlman zəkatını sırf Allahın rizasına nail olmaq üçün verməli, bu ibadəti başa qaxmadan və minnət qoymadan yerinə yetirməlidir.

2. Hənəfilərə görə, zəkat riyakarlıqdan uzaq olması və verilən şəxsin şəxsiyyətinin zədələnməməsi üçün gizli verilməsi daha yaxşıdır. Şafei və hənbəlilərə görə isə, insanları bu ibadətə təşviq etmək üçün zəkatın açıq-aşkar verilməsi daha düzgündür. Uca Allah belə buyurur: **"Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır!"** (Bəqərə, 2/271). Bütün İslam hüquqşünaslarına görə, zəkatdan başqa digər sədəqələri və infaqları gilincə vermək daha əfzəldir.

3. Zəkat verənin yoxsula verdiyinin zəkat olduğunu bildirməməsi daha yaxşıdır.

4. Müsəlmanın zəkatını özünün şəxsən verməsi şərt deyil. Bu ibadətinin yerinə yetirilməsi üçün etibarlı bir müsəlmanı və vəqfi vəkil təyin edə bilər. Lakin təyin etdiyinə verdiyinin zəkat olduğunu bildirməli və zəkat yerinə çatdırılmalıdır.

5. Zəkat verilmə vaxtı gəldikdə gecikdirmədən verilməlidir. Zəkatı verilməmiş bir mal təmiz olmaz. Məhz bu səbəbdən üzrsüz zəkatını gecikdirən günahkar olar.

6. Müsəlman özünə verilməsini istəmədiyi malları başqalarına zəkat və sədəqə olaraq verməməlidir.

7. Zəkat və sədəqə veriləndə üzsüzlük edənlərlə, sözün əsil mənasında yoxsullar bir-birindən fərqləndirilməlidir. Zəkat mükəlləfi Allahdan qorxan, həyasına görə ehtiyacını dilə gətirməyənləri araşdırıb tapmalı və zəkatını onlara verməyə cəhd etməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

8. Zəkatın zəkat düşən qohum-əqrəbaya verilməsi daha məqsəduyğundur.

9. Zəkat varlı olanın özünün və ya var-dövlətinin olduğu yerdə yaşayan yoxsullara verilməlidir. Ancaq o bölgədən başqa yerdə fağır qohumlar və ya daha möhtaclar varsa, onlara göndərməyə də üstünlük verilə bilər.

10. Zəkat verərkən və alarkən dua edilməlidir. Uca Allah "Tövbə" surəsinin 103-cü ayəsində Hz. Peyğəmbərə (s.ə.s) xitabən belə buyurur: **"**(Ya Rəsulum!) **Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş** (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) **olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır). Allah hər şeyi eşidəndir, biləndir"**. Bu əmrə tabe olaraq Hz. Peyğəmbər (s.ə.s) zəkat gətirənə: *"Allahım, filankəsin ailəsinə bərəkət ver!"*-deyə dua etmişdir (Buxari, Zəkat, 64). Zəkat verərkən də Hz. Peyğəmbərin (s.ə.s) bu duasını etmək məndubdur: *"Allahım, bu zəkatı mənim üçün qazanclı et, onu ürəksiz ödədiyim bir borc etmə!"*

F. ZƏKAT KİMLƏRƏ VERİLƏR

Qurani-Kərimdə zəkatın kimlərə veriləcəyi müəyyən edilmiş və hicrətin IX ilində nazil olan "Tövbə" surəsinin 60-cı ayəsində belə sadalanmışdır: **"Sədəqələr** (zəkatlar) **Allah tərəfindən müəyyən edilmiş bir fərz** (vacib əməl) **olaraq ancaq yoxsullara,** (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) **miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri** (müsəlmanlığa) **isinişib bağlanmaqda olanlara** (iman gətirib hələ kamil mömin olmayanlara)**, azad ediləcək kölələrə** (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə)**, həmçinin** (borcu ödəməyə imkanı olmayan) **borclulara, Allah yolunda cihad edənlərə və yolçulara** (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) **məxsusdur. Allah hər şeyi biləndir, hikmət sahibidir"**.

Bu ayəyə görə zəkat aşağıda qeyd olunanlara verilməlidir:

1. Fağırlar: fağır ev və ev əşyası kimi əsas ehtiyaclarını qarşılayan malı olsa da gəlirləri olmaqla yanaşı, bütün ehtiyaclarını qarşılamayan və borcları çıxıldıqda nisab miqdarından az malı olan şəxsdir. Bir işdə işləməsinə baxmayaraq, gəliri əsas ehtiyaclarını qarşılamayan şəxs də bu sinfə daxildir.

2. Miskinlər: miskin isə heç bir gəliri və malı olmayan kəsdir. Quranda **"toz-torpağa sərilmiş bir miskinə yemək yedirmək"**dən bəhs olunur (Bələd, 90/11, 14, 16). Bu ifadə miskinin hədsiz dərəcədə yoxsul və möhtac olduğuna dəlalət edir. Belə olan halda miskin fağırdan daha möhtac olan şəxsdir. Müalicə xərclərini qarşılaya bilməyən şikəst və xəstələr, baxıma möhtac yaşlılar, yoxsullar da bu qrupa daxildirlər.

3. Zəkat işlərində işləyənlər: bunlar zəkat işlərində işləyən məmurlardır. Ayədə qeyd olunan "amil" lüğətdə iş görən, işçi, sənətkar kimi mənalara gəlir. Termin mənası isə zəkat gəlirlərini toplamaq və onları lazımi şəxslərə paylamaq üçün vəzifələndirilən şəxs mənasına gəlir. Bu termin hədislərdə ümumi olaraq idarə edən, hər cür dövlət gəlirini və xüsusilə zəkatı toplayıb paylayan məmur mənasında istifadə olunur. Bununla birlikdə eyni mənada müxtəlif fiqh əsərlərində "arif, aşir, cabi, əmin, xazin, sai və müsəddiq" terminlərindən də istifadə olunduğu müşahidə edilir. Quranda "amillər"in zəkatdan pay alma hüququna malik səkkiz sinifdən biri kimi qeyd olunması, bu işin müəyyən maaş qarşılığında edilə biləcəyini göstərir. Odur ki, bu işdə işləyən şəxs varlı da olsa onun əməyinin qarşılığı zəkat payından verilər. Zəkat toplama işini müəyyən hissə qarşılığında mütəxəssisə və ya təşkilatlara həvalə etmək də mümkündür. Beləliklə, zəkat kimi böyük sosial yardımlaşma qurumu dövlətə hər hansı maddi çətinlik vermədən fəaliyyət göstərə bilər. Zəkat məmurunun ədalət sahibi olması və zəkatla bağlı hökmləri bilməsi şərtdir. Buna üşr yığan məmurlar, mütəxəssislər, katiblər, zəkatı paylayanlar, yığılan malları mühafizə edənlər və digərləri də daxildir.

İPƏKYOLU NƏŞRİYYATI

4. Müəlləfeyi-qülub: yuxarıda qeyd olunan ayədə dördüncü sinfin ürəkləri müsəlmanlığa isinişdirilməsi istənənləri əhatə edir. Hz. Peyğəmbər Məkkənin fəthində təzəcə İslamiyyəti qəbul edən bəzi şəxslərə zəkatdan pay vermişdir. Bunların içində hələ İslamiyyəti qəbul etməyənlər də vardı. Bu sinfə zəkat verməkdən məqsəd imanı zəif olanların imanlarını gücləndirmək və ya onların şərlərindən əmin olmaq, yaxud onları xeyrə sövq etməkdir. Zəmanəmizdə bəzilərinin İslama verəcəyi zərərə mane olmaq, İslam lehinə işlər görməsini təmin etmək və ya beynəlxalq lobbi fəaliyyətlərini istiqamətləndirmək üçün zəkatın məhz bu sinfindən yararlanmaq mümkündür. Hz. Peyğəmbər istər zəkat, istərsə də fey və qənimət kimi dövlət gəlirlərindən qəlbləri müsəlmanlığa isindirilmək istənənlərə paylar vermişdir. Səfvan İbn Ümeyyə, Üyeynə ibn Hisn və Əqrə ibn Habis bunlar arasındadır. Hətta bunlardan bəzilərinə zəkatın həmin hissəsindən faydalana bilmələrinə dair sənədlər də vermişdir. Onlar Hz. Peyğəmbərin vəfatından sonra Hz. Əbu Bəkrin hüzuruna gedərək paylarını istədilər, o da fikir almaq üçün onları Hz. Ömərin yanına göndərdi. Ömər (r.ə) onlara: "Hz. Peyğəmbər müsəlmanlığa isinişdirmək üçün sizə zəkatdan pay verirdi. Bu gün Allah dinini gücləndirmişdir. Müsəlman olaraq qalırsınızsa qalın, əks təqdirdə sizə qarşı müharibə elan edərik",-dedi. Hz. Ömərin bu ictihadı nəticəsində artıq dörd xəlifə dövründə həmin sinfə zəkat verilmədiyi, hətta bu mövzuda səhabə icması meydana gəldiyi fikri irəli sürülmüşdür. Hənəfi və malikilərə görə, Hz. Peyğəmbərin vəfatından sonra müəlləfeyi-qülubun zəkat gəlirlərindən hissələri ləğv edilmişdir. İmam Şafeiyə görə isə, müharibə şəraiti kimi vaxtlarda ehtiyac duyularsa, həmin fond təzədən fəaliyyətə keçirilə bilər. Bir Quran hökmünün Hz. Peyğəmbərin vəfatından sonra ictihadla nəsx və ləğv edilməsi düşünülə bilməz. Lakin müsəlmanların güclənib düşmənin zəifləməsi səbəbilə ayədəki hökmün illəti (səbəbi) ortadan qalxdığı üçün Hz. Əbu Bəkr dövründə həmin tətbiqat dayandırılmışdır. Daha sonra şərtlər dəyişib Hz. Peyğəmbər dövründə mövcud olan illət yenidən ortaya çıxarsa, müəlləfeyi-qüluba zəkatdan pay verməyə hər hansı əngəl yoxdur.

5. Kölələr (əsrlər): mömin kölələri azaldığa qovuşdurmaq məqsədilə zəkat verilə bilər. Bəzi alimlərə görə, düşmənin əsir aldığı müsəlman əsirlər də bu qrupa daxildirlər.

6. Borclular: borcu çıxıldıqdan sonra nisab miqdarı malı qalmayanlar bu sinfə daxildirlər. Başqasından malı və ya alacağı olmaqla yanaşı, bunu alması mümkün olmayan da borclu hesab olunur. Bu kimi şəxslərə, yəni borcu səbəbilə darda qalanlara zəkat vermək borcsuz yoxsula verməkdən əfzəldir. Çünki borclunun hürriyyəti bir baxıma məhdudlaşdırılmış olur, onu bu sıxıntıdan qurtarmaq gərəkdir. Başqasının malını və ya canını qurtarmaq, ara düzəltmək kimi səbəblərdən borc götürən varlı olsa da borclular sinfindən faydalana bilər. İslam hüquqşünaslarının əksəriyyətinə görə, iki cür borclu vardır. Birincisi, öz ehtiyacı üçün borc alan şəxs, özü və ailə fərdləri üçün dolanışıq xərcləri, ev, müalicə xərcləri, uşağını evləndirmə kimi səbəblərdən borc alanlar bu qrupa daxildir. İkincisi isə, cəmiyyətin istifadəsi üçün borc alanlardır. Düşmən olan iki qrup arasında sülhü bərqərar etmək üçün müəyyən məbləğdə borcu öz öhdəliyinə götürənlər, başqasına zamin durmaq və ya xeyriyyəçilik məqsədilə borca girən və bu səbəbdən də möhtac vəziyyətə düşənlər məhz bu qrupa daxildirlər.

7. Allah yolunda olanlar: kəlmə olaraq "Allah yolunda" mənasına gələn "fi səbilillah" ifadəsi termin kimi iki mənada işlədilir. Birinci mənası İslamı ucaltmaq üçün və ya vətən uğrunda gedən döyüşdə və müharibədə iştirak etməkdir. Belə olan halda müharibədə olan mücahidlərə zəkat verilir. Hətta İmam Şafei və Malikə görə, müharibədə iştirak edənlər arasında varlı-kasıb fərqi qoyulmaz. Çünki döyüşçülər öz bölgələrində varlı olsalar da döyüş bölgəsində var-dövlətlərindən uzaqdadırlar. "Fi səbilillah"in ikinci mənası isə Allah rizasına uyğun olaraq və Ona yaxınlaşmaq üçün edilən hər növ xeyir işdir. Odur ki, Allahın istəyinə müvafiq, xeyir və itaət xüsusiyyəti daşıyan işləri edən fiziki və ya hüquqi şəxslərə zəkat

İPƏKYOLU NƏŞRİYYATI

fondundan yardım etmək mümkündür. Yuxarıda qeyd olunan müxtəlif mənalar səbəbilə bəzi İslam hüquqşünasları yalnız müharibədə iştirak edənlərə və ya həcc və ümrə ibadətlərini yerinə yetirənlərə, yaxud təhsil alanlara zəkat verilə biləcəyini söyləyərkən, digər bir sıra İslam hüquqşünasları məscid, məktəb, xəstəxana, körpü kimi xeyir işlərinə zəkat pulundan pay verilə biləcəyini bəyan etmişlər. Belə ki, Ənəs və Həsən əl-Bəsri körpü və yol çəkmək kimi sədəqeyi-cariyə sayılan yerlərə zəkat verilə biləcəyi fikrindədirlər. Həcc ibadətinin "Allah yolunda olanlar" çərçivəsinə daxil olduğunu göstərən dəlil budur: İbn Abbasdan (r.ənhüma) rəvayət edildiyinə görə, bir şəxs dəvəsini Allah yolunda vəqf etmiş, arvadı isə həcc etmək istəyirmiş. Hz Peyğəmbər (s.ə.s) həmin qadına: *"O dəvəyə minərək həcc et, çünki həcc də fi səbililləhdən sayılır"*,-buyurmuşdur (Əbu Davud, Mənasik, 79). Ancaq nafilələrdə genişlik olduğu üçün nafilə həcc üçün zəkat verilməz. Bundan əlavə böyük Hənəfi hüquqşünası əl-Kasani (ö.587/1191) *"əl-Bədai"* adlı əsərində "fi səbililləh" (Allah yolunda) terminini "Allaha yaxınlaşdıran bütün işlər" kimi təfsir etmişdir. Bu səbəbdən Allaha itaət və xeyir yolunda olan hər bir kəs möhtac olduqda, sözügedən bu sinfə daxil olar. Beləcə, islamiyyətin yayılması üçün səy göstərən və xeyirxahlar dəstəklənmiş olar. Hənəfilərdən bir qismi "Allah yolunda" ifadəsini "elm öyrənmək" mənasında olduğunu dilə gətirmişlər. Elm öyrənən zəngin də olsa bu sinfə daxildir.

8. Yolda qalanlar: yolçuluğa çıxan, yaxşılıq və faydalı bir iş üçün yolçuluq edən və getdiyi yerə köməksiz çatması mümkün olmayanlar bu sinfə daxildirlər. Həcc, müharibə, məndub ziyarətlər və ya ticarət üçün edilən yolçuluqlar buna örnək verilə bilər. Yolçu öz vətənində varlı olsa da yolçuluq əsnasında möhtac vəziyyətə düşərsə, gedəcəyi yerə çatacaq qədər zəkat verilə bilər. Ancaq bu kimi yolçunun mümkün qədər zəkat yerinə borc alması məqsədə müvafiqdir. Öz bölgəsində malını itirmək və ya alacaqlarını almama nəticəsində möhtac vəziyyətə düşən də həmçinin yolçu hökmündədir. Bunlar ehtyacları qədər zəkat ala bilərlər, daha sonra mallarını əldə etdikdə, aldıqları zəkatdan geri qalan miqdarı başqalarına vermələrinə də ehtiyac yoxdur.

Bir şəxs zəkatını yuxarıda müəyyən edilmiş sinflərdən hər hansı birinə verə biləcəyi kimi, ikisinə, üçünə və ya hamısına da paylaya bilər. Çünki ayədə zəkat yalnız bu səkkiz sinfə məxsus edilmiş, lakin bu siniflər arasında ayrı-seçkilik edilməmişdir.

Bundan əlavə, nisab miqdarına çatmayan zəkatın qeyd edilən siniflər içərisindən yalnız bir şəxsə verilməsi də caizdir. Çünki ayədə "əl-füqəra" (kasıblar) kəlməsinin "əlif ləm" hərfi ilə müəyyənlik bildirməsi, məcazi mənada cins bildirir. Beləliklə də, sadalanan həmin bu cinslərdən birinə verməklə zəkat vermə yerinə yetirilmiş sayılır. Buradakı "əlif ləm" hərfi həqiqi mənası olan əhatə mənasında alınırsa, bütün cinsi əhatə edər. Belə olan təqdirdə bir bölgədəki zəkatda həmin bölgədəki hər bir yoxsulun haqqı olar. Bu isə tətbiqatda hədsiz çətinliklər əmələ gətirəcəyi üçün məqsədəuyğun deyil.

Zəmanəmizdə bu səkkiz sinifdən dördünün ümumi olması mümkündür. Bunlar kasıblar, miskinlər, borclular və yolçulardır.

Dört məzhəb müctəhidlərinin əksəriyyətinə görə, zəkatın Allah-Təalanın Qurani-Kərimdə qeyd etdiyi yerlərdən başqasına verilməsi caiz deyil. Odur ki, məscid, yol, körpü, bulaq, kanal açma, kəfən, ölən şəxsin borcunun ödənməsi, qala, döyüş ləvazimatı hazırlamaq, döyüş gəmilərinin hazırlanması, silah almaq kimi malın mülkiyyətini qarşı tərəfin mülkiyyətinə keçirmə mənası daşımayan ibadətlərə və Allaha yaxınlaşdırıcı yollara xərclənməsi caiz deyil. Çünki **"Zəkatlar ancaq yoxsulların, düşgünlərin ... haqqıdır"** ayəsində "innəmə" kəlməsi "həsr və isbat" mənasına gəlir. Yəni, qeyd olunanı sabitləşdirmək, bunun xaricində qalanların hökmünü ləğv etmək üçündür. Ümumiyyətlə, zəkatların sayılan bu yerlərdən başqasına verilməsi caiz deyil. Çünki bunlarda "təmlik", yəni birinə zəkat malını şəxsən verməklə zəkat malını onun mülkiyyətinə keçirmə məsələsi yoxdur.

ARAŞDIRIN

Varlı zəkat ala bilərmi? Hansı hallarda varlılara zəkat verilə biləcəyini araşdırın!

İPƏKYOLU NƏŞRİYYATI

G. ZƏKAT KİMLƏRƏ VERİLMƏZ

1. Baxmaqla məsul olunan şəxslərə: bir şəxs öz zəkatını yoxsul olan arvadına, üsul və fürusuna verə bilməz. Üsul bir şəxsin anası, atası, babası və nənələridir. Füru isə oğulları, qızları, nəvələri və nəticələridir. Boşanma iddəti gözləyən arvadı da bu hökmə daxildir. Çünki bir şəxs onsuz da yoxsul düşdükləri zaman bunlara baxmaqla və nəfəqələrini təmin etməklə məsuldur. Bunlara zəkat verərsə, nəticədə özünə qayıtmış olur. Halbuki zəkat verildikdən sonra zəkat verənlə zəkat alan arasında mənfəət ortadan qalxmalıdır.

Şafeilərə görə, bir şəxsin baxmaqla məsul olduğu şəxslərə zəkatını verməsi caiz deyil. Çünki yaxınları tərəfindən nəfəqəsi təmin edilən kəs möhtac sayılmaz. Bu kimi şəxslər hər gün kifayət qədər gəliri olan şəxs kimidir.

Əbu Hənifəyə və hənbəlilərdə əsas qəbul edilən rəyə görə, bir qadın zəkatını yoxsul ərinə verə bilməz. Çünki bu təqdirdə zəkat nəfəqə yolu ilə qadına geri qayıtmış olur.

Əbu Yusif, İmam Məhəmməd, İmam Şafei və İmam Malikə görə, qadının yoxsul ərinə zəkat verməsi caizdir. Çünki Rəsulullah (s.ə.s) bu mövzuda sual soruşan Abdullah ibn Məsudun arvadı Zeynəbə (r.ənha) belə buyurmuşdur: "*Ərin və uşaqların təsəddüq etməyə ən layiq olan kəslərdir*" (Əbu Davud, Zəkat, 44). Əks fikirdə olanlar isə bu hədisdəki "təsəddüq" kəlməsini nafilə sədəqə vermək kimi şərh etmişlər.

Zəkatı üsul və füru istisna olmaqla möhtac vəziyyətdə olan qohumlara vermək daha yaxşıdır. Belə ki, əvvəlcə möhtac olan bacı və qardaşlara, sonra onların uşaqlarına, sonra əmilərə və bibilərə, sonra onların uşaqlarına, sonra dayı və xalalara, sonra onların uşaqlarına, daha sonra digər zəvil-ərham deyilən yaxınlara vermək daha fəzilətlidir.

Hz. Peyğəmbər (s.ə.s) qohumlara təsəddüqü (sədəqə verməyi) təşviq edərək belə buyurmuşdur: "*Yoxsullara verilən sədəqə bir sədəqə, qohumlara verilən sədəqə iki sədəqədir. Biri sədəqə, digəri isə yaxınlara yaxşılıqdır*" (Tirmizi, Zəkat, 26).

Nafilə sədəqələrə gəlincə, bunları üsul və fürua, həmçinin ər-arvadın bir-birinə verməsi caizdir. Çünki bunu etməklə də sədəqə və yaxınlara yaxşılıq etməklə iki savaba nail olmaq mümkündür. Belə ki, nafilə sədəqələrin zənginlərə və müsəlman olmayanlara da verilməsi caizdir. Çünki Allah-Təala: **"Onlar, Allah sevgisi ilə miskin, yetim və əsirlərə yemək yedirirlər"**,-buyurur (İnsan, 78/8). Hz. Peyğəmbər dövründə əsirlər müşriklərdəndi.

2. Müsəlman olmayanlara: zəkat ibadət mahiyyəti daşıyan bir öhdəlik olduğu üçün qeyri-müsəlmanlara, batil əqidəni mənimsəyənlərə və dindən çıxanlara (mürtədlərə) verilməz. Hz. Peyğəmbər Muaz ibn Cəbəli (r.a) Yəmənə göndərərkən: *"Zəkatı oranın zənginlərindən al, yenə oranın fəqirlərinə ver"*, -buyurmuşdur (Buxari, Zəkat, 1, 63).

Aralarında dörd məzhəb imamının da olduğu fəqehlərin əksəriyyətinə görə, zəkat müsəlman cəmiyyətindəki zimmilərə (müsəlman olmayan vətəndaşlar) də verilməz. Çünki zəkat müsəlman yoxsulların haqqıdır. Onların varlılarından alınıb yoxsullarına verilməlidir. Qeyri-müsəlmanlar isə zəkatdan məsul deyillər. Məhz bu öhdəlikdən məsul olmadıqları üçün bundan faydalanma hüquqları da yoxdur.

Hz. Ömərin zəkatın veriləcəyi yerləri müəyyən edən ayədəki "miskinlər" kəlməsi üçün "bunlar əhli-kitabın yoxsullarıdır" fikrinə əsaslanaraq, bəzi fəqehlər zəkatın zimmilərə də verilə biləcəyi fikrini irəli sürmüşlər. Belə ki, hənəfi fəqehlərindən İmam Züfər də bu fikirdədir. Çünki zəkatın məqsədi Allah-Təalanın rizasına nail olmaq üçün sıxıntıda olanların ehtiyaclarını qarşılamaqdır. Belə olan halda zəkatı yoxsul zimmilərə verməklə də bu məqsədi həyata keçirmək mümkündür.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Hənifə və İmam Məhəmmədə görə, yoxsul zimmilərə yalnız fərz olmayan (nafilə) sədəqələrin verilməsi caizdir. Dəlili isə bu ayədir: **"Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır!"** (Bəqərə, 2/271) Bu ayədə müsəlman və ya zimmi yoxsul arasında hər hansı fərq qoyulmamışdır. Bu səbəbdən ayə ümumi məna bildirir. Lakin yuxarıda qeyd olunan Muaz (r.ə) hədisi zəkat mövzusundakı ayəni təxsis etmişdir (xüsusiləşdirmişdir). Bu hədis səbəbilə zəkat yalnız müsəlman olanlara verilə bilər.

3. Varlılara: varlı olana zəkat vermək caiz deyil. Sadəcə olaraq zəkat məmuru (toplayan) əməyinin qarşılığında zəkatdan pay aldığı üçün varlı da olsa ona ayrılan payı ala bilər. Həmçinin səfərdə ikən ehtiyacı olan varlı da zəkat ala bilər. Çünki səfərdə olan şəxs həqiqətdə varlı olsa belə həmin anda imkansız hesab olunur.

Öz ehtiyaclarından başqa nisab miqdarı mala sahib olan şəxs "varlı" sayılır. İslamın malın növünə görə təyin etdiyi nisabdan az miqdarda mala sahib olan şəxs sağlam, güclü və iş qabiliyyətinə sahib olsa belə zəkat ala bilər. Çünki bir şəxs güclü olmasına baxmayaraq, işləri alınmaya bilər, iş tapa bilməz və ya işlədiyi işdən əldə etdiyi gəlir dolanışığına kifayət etməyə bilər. Buna görə də evi, ev əşyası, xidmətçisi, miniyi, silahı, paltarı, müxtəlif iş alətləri, kitabxanası olsa da öz ehtiyaclarını qarşılayacaq miqdarda gəliri olmazsa zəkat ala bilər. Çünki sadalanan əşyalar əsli ehtiyaclardır.

Varlı bir şəxsə nafilə sədəqə verilə bilər. Buna görə də vəqflərin qazancını vəqf nizamnaməsinə müvafiq olaraq zəngin şəxslərin alması da halal hesab edilmişdir. Bu, bir hibə (hədiyyə) və bir əta sayılır.

Varlı şəxs zəkatını araşdıraraq zəkat düşən şəxsə verərsə və zəkatı alan adamın həqiqətən bu zəkata ehtiyacı olduğu daha sonra başa düşülərsə, zəkat sahibinə çatmış sayılır. Bunun əksinə, zəkata ehtiyacı olub-olmaması bilinməz və ya varlı olduğu daha sonra ortaya çıxarsa, Əbu Hənifə ilə İmam Məhəmmədə görə yenə də caizdir. Lakin zəkatı haqq edib-etmədiyi araşdırılmadan verilərsə, zəkatı yenə caiz olsa da, zəkatı haqq etmədiyi daha sonra ortaya çıxarsa, zəkatını yenidən verməlidir. Çünki tam şəkildə araşdırılmalıdır.

4. Hz. Peyğəmbərin qohumlarına: Hz. Peyğəmbərin ailəsinə zəkat və sədəqə almaq qadağan olunmuşdur. Çünki zəkatlar insanların mallarının artıqlarıdır. Hz. Peyğəmbərin ailəsinə beytül-maldakı qənimətlərin beşdə birindən lazımi qədər xərclənir. Bir hədisi-şərifdə belə buyurulmuşdur: *"Bu sədəqələr yalnız insanların artıqlarıdır, Mühəmmədə (s.ə.s) və Mühəmmədin (s.ə.s) ailəsinə halal deyil"* (Müslim, Zəkat, 167, 168).

Hənəfi və hənbəlilərə görə, zəkat və sədəqə vermək caiz olmayan Haşim oğulları bunlardır: Abbas oğulları, Əli oğulları, Cəfər oğulları, Aqil oğulları və Haris ibn Əbdülmüttəlib oğulları.

Lakin daha sonrakı dövrlərdə Hz. Peyğəmbərin yaxınlarının müxtəlif haqsızlıqlara məruz qalması və beytül-maldakı paylarının onlara verilməməsi nəticəsində hərçənd ki, onlara zəkat verməyi qadağan edən hədislər var, Əbu Hənifə (ö.150/ 767) dövrün dəyişdiyini, beytül-maldan olan haqların sahiblərinə çatmadığını söyləyərək, Haşim oğullarına zəkatdan hissə verilməsinin lazımlığına dair fitva vermişdir. Bundan əlavə, bir çox alimlərə görə Haşim oğullarına nafilə sədəqələr halaldır.

5. Kiçiklər və ruhi xəstələr: yeddi yaşından kiçiklərə və ruhi xəstələrə zəkat vermək caiz deyil. Zəkat onlar adına onların vəlilərinə (qəyyum/himayəçi) verilir. Bayram və buna oxşar sevincli günlərdə ehtiyacı olan xidmətçilərə, işçilərə və ya təmyiz yaşındakı uşaqlara, yaxud da şad xəbər gətirən imkansız şəxslərə verilən hədiyyələrin zəkat niyyəti ilə verilməsi caizdir.

Zəngin bir şəxsin kiçik yaşlı uşağına zəkat vermək caiz deyil. Çünki kiçik yaşlı uşaq atasının varlı olması səbəbilə varlı sayılır. Bununla yanaşı varlı bir qadının yetim və atası müsəlman olan uşağına zəkat verilə bilər. Çünki uşağın nəsli ata tərəfindən müəyyən edilir, anasının sərvəti ilə varlı sayılmaz.

İPƏKYOLU NƏŞRİYYATI

Bir şəxs zəkatını zəngin bir şəxsin yoxsul və müsəlman olan atasına və ya yoxsul və müsəlman olan böyük oğluna və ya qızına, yaxud həmin şəxsin yoxsul və müsəlman olan arvadına verə bilər. Çünki bunlar müstəqil vəlayət sahibi olub bir-birinin sərvəti ilə zəngin sayılmazlar.

Zəkatın malın olduğu yerdəki yoxsullara verilməsi əsaslı prinsipdir. Çünki Rəsulullah (s.ə.s) Muaza (r.ə): *"Zəkatı Yəmən xalqının zənginlərindən al və Yəmən xalqının yoxsullarına ver"*,-buyurmuşdur (Buxari, Zəkat, 1, 63).

Zəkatın ilin axırında başqa bölgədəki fəqirlərə göndərilməsi tənzihən məkruhdur. Ancaq zəkatın göndəriləcəyi yerdəki ehtiyac sahibləri qohum olar və ya malın olduğu bölgədəki fəqirlərdən daha möhtac vəziyyətdə olarlarsa, başqa bölgəyə göndərmək caiz olar. Zəkatın toplandığı yerdə paylaşdırılması bir çox asanlıqlar meydana gətirir. Belə ki, ehtiyac sahiblərinin daha yaxşı təsbit olunması və sözün əsil mənasında həqiqi ehtiyacların bilinməsi, toplama və paylama xərclərinin azalması ilə müxtəlif bölgələrə mali və iqtisadi sərbəstlik və özünüidarə etmə imkanının verilməsi bunlar arasında sayıla bilər.

H. ZƏKATA DAXİL OLAN MALLAR

1. Qızıl, gümüş və pulların zəkatı

Qızılın nisabı iyirmi misqal (80 qram), gümüşün nisabı isə iki yüz dirhəmdir (595 qram). Borcundan və təməl ehtiyaclarından əlavə iyirmi misqal qızıla və ya iki yüz dirhəm gümüşə, yaxud bunların dəyərində pul (valyuta), ya da ticarət malına sahib olan kəs üzərindən bir il də keçmişsə, zəkatdan məsul olur. Qızıl, gümüş və pulda zəkat nisbəti qırxda birdir, yəni 2,5%. Qızıl və ya gümüş qarışıq olarsa, hansı maddə əsas təşkil edərsə, o əsas götürülür. Qızıl və gümüşə zəkat düşməsi üçün onların qiyməti yox, ağırlıqları nəzərə alınır. Külçə olan və ya qab-qacaq olaraq evdə olan qızıl və ya gümüş bütövlüklə zəkata daxildir. Qızıl və ya gümüşdən düzəldilmiş bəzək əşyası, zinət əşyası, tablo kimi əşyaların da zəkatı verilməlidir. Qadınların zinət əşyası olaraq taxdıqları inci, zümrüd və yaqut kimi bəzək əşyası zəkata daxil deyil. Ancaq bunlar pul yığmaq məqsədilə olarsa, zəkatları verilməlidir.

Başqa mədənlərdən düzəldilmiş və bir ehtiyac üçün istifadə olunmayan əşyanın miqdarı qızılın nisabına çatsa, onun da zəkatı verilməlidir. Evi olmayan bir şəxs ev almaq üçün yığdığı pulun üstündən bir il keçər və hələ ev alınmazsa, pul da nisab miqdarından çox olarsa, zəkatı verilməlidir. Faizsiz bankçılıq kimi ortaqlığa pul qoyulduğu təqdirdə, bu pulların həm sərmayəsindən, həm də qazancından il sonunda qırxda bir nisbətində zəkat verilməlidir.

Qızıl, gümüş, pul və ticarət malları nisab tamamlamada bir-birinə əlavə olunmalıdır. Belə ki, bir şəxsin müəyyən qədər qızıl ilə gümüşü, müəyyən qədər də ticarət malı olsa, bunların cəmi nisab miqdarına məsələn, 80 qram qızıla bərabər olarsa, qırxda bir nisbətində zəkat verməlidir.

2. Ticarət mallarının zəkatı

Qurani-Kərimdə ticarət mallarının zəkatının verilməsi əmr edilmişdir: **"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin** (ən pak, halal və) **yaxşılarından** (Allah yolunda) **sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç bir şeyə ehtiyacı yoxdur.** (O, hər cür) **şükrə** (tərifə) **layiqdir!"** (Bəqərə, 2/276). Bu ayədə qeyd olunan "qazandığınızın yaxşılarından... sərf edin" ifadəsi İslam hüquqşünasları tərəfindən "ticarət yolu ilə əldə etdiyiniz qazancdan zəkat verin" kimi başa düşülmüşdür. Çünki bu ayə ticarət mallarının və əkin məhsullarının zəkatı ilə əlaqədar olaraq nazil olmuşdur. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Dəvə və inəyin zəkatı vardır, parçanın da zəkatı vardır"*. Səmurə ibn Cündəb (r.ə) belə demişdir: "Rəsulullah (s.ə.s) ticarət üçün hazırladığımız mallardan zəkat verməyimizi bizə əmr edərdi". Əbu Amr ibn Həmmasın atasından rəvayət etdiyinə görə, Hz. Ömər ona ticarət üçün əlində olan ox torbaları və dərilərdən zəkat verməsini bildirmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

Ticarət malından zəkat alınmasının şərtləri

a. Ticarət malının nisab miqdarına çatması: ilin başında qiymətləri ən az iki yüz dirhəm gümüş və ya iyirmi misqal qızıl miqdarında olan ticarət mallarının zəkatı üçün ilin axırındakı qiymətləri əsas alınır. Bu qiymətlərə görə zəkat verilir. Malın qiyməti hər ölkənin öz bazarına görə müəyyən edilir. Əgər həmin mallar şəhərdən kənarda isə bura ən yaxın şəhərdəki qiymətləri əsas alınır.

Zəkat nisabını tamamlamaq üçün ticarət mallarının qiyməti qızıl, gümüş və ya pula əlavə edilir. Yəni bunlar birləşdirilərək cəmi hesablanır.

b. Ticarət malının üstündən bir il keçməsi: ticarət malına malik olunan tarixdən etibarən malların qiymətləri üzərindən bir il keçməlidir. Malın özünün üstündən bir il keçməsi şərt deyil. Hənəfi və malikilərə görə, bu mövzuda ilin başı və sonu nəzərə alınır, ortası yox. Belə ki, bir kəs ilin başında nisab miqdarı mala sahib olub il içində bu mal azalar, sonra ilin axırında yenidən nisab miqdarına çatarsa, bu maldan zəkat verilməlidir. İlin başında və ya sonunda nisabdan əskik olan maldan isə zəkat vermək lazım olmaz.

c. Satın alarkən ticarətə niyyət etmək: ticarət malları satın alınarkən bunlarla ticarət etməyə niyyət edilməlidir. Əgər bu mallara sahib olduqdan sonra niyyət edilərsə, niyyət ticarət işinə yaxın olmalıdır. Satışa qoymaq, satış üçün elan vermək və ya satış üçün başqasına səlahiyyət vermək kimi bir davranış olmadıqca mücərrəd niyyətlə bir mal ticarət malına çevrilməz.

Bununla birlikdə ticarət məqsədilə istifadə olunan mal ticarətə niyyət etməyə əlverişli mal olmalıdır. Məsələn, bir kimsə xərac və ya üşr ərazisini ticarət məqsədilə satın alsa, bunu satana qədər əkib-becərsə, zəkat yox, xərac və ya üşr verməlidir.

İmam Məhəmmədə görə, miras, pay və ya vəsiyyət kimi yollardan biri ilə ələ keçən bir mal üçün ticarətə niyyət edilsə, mücərrəd olaraq bu niyyətlə mal ticarət üçün olmaz. Əbu Yusifə görə isə, bir şəxs özünün qəbul edib-etməməsi ilə əlaqəli olan bu kimi malları ticarət etmək niyyəti ilə qəbul edərsə, həmin mal ticarət malı sayılar.

Başlanğıcda ticarət niyyəti ilə satın alınmamış bir mal, məsələn, torpaq sahəsi, bir sıra əşya, xalça və ya ərzaq irəlidə satılmaq üzrə saxlansa, bu, ticarət malı sayılmaz. Bu səbəbdən bunların üstündən bir il keçsə də zəkat lazım olmaz. Bir kəs şəhər kənarındakı bir daşınmaz əmlakı təsərrüfat üçün və ya anbar və s. üçün icarəyə verərsə, bu yerin gəliri zəkata daxil olar. Ancaq həmin yer bələdiyyə sahəsinə daxil olar və orada bələdiyyə bölgü apardıqdan sonra sahibinin satışa çıxardığı tarixdən etibarən ticarət malına çevrilər və qiymətinə görə qırxda bir zəkata daxil olur.

Xülasə, bir şeyin ticarət malı sayılaraq zəkatın vacibliyi üçün, malın nisab miqdarına çatması, üstündən bir il keçməsi, niyyətlə birlikdə əməli olaraq da ticarətə başlanılması, eyni zamanda malların ticarət niyyətinə münasib olması lazımdır.

Ticarət malından zəkatın hesablanması

Ticarət əşyasının üstündən bir il keçdikdən sonra qızıl və ya gümüşdən yoxsulun xeyrinə olanla nisab təyin edilir. Ancaq günümüzdə gümüş, qızıla görə çox dəyər itirdiyi üçün, qızılın meyar alınması daha münasibdir. Zənginlik həddinin təsbitində əsas ehtiyac maddələri istisna edilərək, üstün tutulan rəyə görə, bir şəxs özünün və baxmaqla məsul olduğu kəslərin bir illik xərclərini və borclarını çıxar. Geridə qalan nağd pul və ya ticarət əşyası nisab miqdarına çatar və üstündən də bir il keçərsə, bunlar bir-birinə əlavə edilərək qırxda bir zakəta daxil olar.

Ticarət malının zəkatı qırxda bir öz növündən verilə bildiyi kimi, malın qiymətinin qırxda biri də verilə bilər. Zəkatla məsul şəxsin bu mövzuda seçmə hüququ vardır. Çünki ticarət malı zəkatın fərz olduğu bir maldır. Qızıl, gümüş, heyvan və ya əkin məhsullarında zəkat öz növlərindən verilə bildiyinə görə, bunların zəkatını da öz növündən vermək caizdir. Bu fikir hənəfilərə aiddir.

İPƏKYOLU NƏŞRİYYATI

Fəqehlərin əksəriyyətinə görə isə, ticarət mallarının zəkatını qiymət olaraq vermək lazımdır. Çünki nisab qiymət üzərindən müəyyən edilir. Bu səbəbdən zəkat malda deyil, ancaq qiymətində fərz olur.

Hənəfilərə görə, ticarət mallarının zəkatının öz növündən verilə bilməsi tətbiqatda bir sıra asanlıqlar gətirir. Bir tərəfdən xüsusilə yoxsulların ehtiyacı olan qida maddələri, geyim əşyaları, tikinti materialları və buna oxşarların öz növündən zəkatını vermək yoxsulların bilavasitə faydalanmalarını təmin edir. Digər tərəfdən ticarətlə məşğul olanlar və iş adamlarının böyük məbləğlərə çatan zəkatını il sonunda nağd olaraq ayırıb ödəməsi çətinlik çıxarar, məhz bu vəziyyət zəkatın ya gec verilməsinə və ya az verilməsinə, ya da heç verilməməsinə gətirib çıxarar. Halbuki topdan ərzaq satıcısının, parça tacirinin və ya bir istehsalçının sayaraq ticarət malının qırxda birini mal olaraq yoxsullara paylaması, ya da bunun əsri-səadətdə olduğu kimi dövlət əli ilə yerinə yetirilməsi, bir İslam ölkəsində yoxsulluq problemini köklü həll etməyə kifayətdir.

Ticarətdən il boyunca əldə edilən qazanclarla heyvanların artımı, miras, bağışlama kimi ticari olmayan yollardan əldə edilən mallar sərmayəyə əlavə edilir. İlin axırında bunlar bütövlüklə dəyərləndirilərək zəkat hesablanar. Ancaq il qurtardıqdan sonra meydana çıxan əlavələrin, əsil mala əlavə edilə bilməyəcəyində fikir birliyi var.

Fabrikin binası, makinalar, cihazlar, xidmət və iş avtomobilləri kimi artmayan sabit sərmayə zəkata daxil deyil. Ancaq ticarətə daxil olan hər növ nağd pul, xammal, emal olunmuş, ya da qismən emal olunmuş bütün iqtisadi dəyərə malik olan əşyalar qırxda bir (2.5%) nisbətində zəkata daxil olur.

Birjada alınıb-satılan hissə sənədləri də ticarət malı kimi olduğu üçün, bunlar da qırxda bir nisbətində zəkata daxildirlər.

Şirkətlərdə hər bir şərikin şirkətdən başqa var-dövləti də nəzərə alınaraq zəkatını özü hesablayıb verməsi əsasdır. Ancaq şirkət müqaviləyə əsasən şirkət idarəsi tərəfindən hesablanıb verilə də bilər.

Ticarət məqsədilə əldə tutulan ev, dükan, iş yeri kimi binalar və ticarət məqsədilə əldə olan bütün danışmazlar ilə satmaq üçün alınan avtomobillər qırxda bir zəkata daxildir. Bir mal satılmasa belə satış üçün elan verilmiş və ya satması üçün başqasına səlahiyyət verilmişsə, ticarət malı qəbul olunur və zəkata daxil olur.

3. Heyvanların zəkatı

Quranda birbaşa heyvanların zəkatından bəhs edən bir ayə yoxdur. Ancaq **"**(Ya Rəsulum!) **Onların mallarından sədəqə** (zəkat) **al"** (Tövbə, 9/103) ayəsinin ümumi mənasının heyvanları da əhatə etdiyi düşünülə bilər. Çünki heyvanlar xüsusilə köçəri cəmiyyətlərdə mühüm əhəmiyyət kəsb edən dolanışıq və zənginlik vasitəsidir. Eyni zamanda səhrada yaşayan ərəblər arasında "mal" kəlməsi heyvan mənasında istifadə olunmuşdur. Hz. Peyğəmbərin hədislərində digər zəkat malları kimi heyvanlar da detalları ilə mövcuddur. Belə ki, Allahın Elçisi zəkata daxil olan mallarla onların nisab və miqdarlarını müəyyən edən uzun bir vergi tarifi hazırlatmış, ancaq bunu lazımi yerlərə göndərə bilmədən vəfat etmişdir. Bu zəkat tarifi Hz. Əbu Bəkr və Hz. Ömər dövründə icra edilmişdir.

Bu tarifə və əlaqədar digər hədis və icraatlara görə hevanların zəkatında aşağıdakı əsaslara görə zəkat vermək lazımdır:

a. Hz. Peyğəmbər, səhabə və Tabeunlar dövründə yalnız dəvə, inək və qoyun zəkata daxil edilmişdir. Camış inək cinsindən, keçi isə qoyun cinsindən sayılır. Beləliklə, say beş olur. Bunlar eyni zamanda ev heyvanlarıdır. Bu səbəbdən ev heyvanı olmayan zəkata daxil deyil.

b. Dəvənin nisabı beş, qoyunun nisabı qırx və inəyin nisabı isə otuzdur. Bu nisaba çatmayan heyvanlara zəkat düşmür.

İPƏKYOLU NƏŞRİYYATI

c. Sahibinin mülkiyyətində olaraq heyvanların üzərindən bir il keçməlidir. Əgər heyvan bir şəxsin mülkiyyətində bir il qalmazsa, ondan zəkat vermək vacib deyil. Rəsulullah (s.ə.s): *"Bir il keçməyincə bir maldan zəkat vermək vacib deyil"*,-buyurmuşdur. Çünki il tamamlanmadan malın artması və heyvanların çoxalması qeyri-mümkündür.

Odur ki, il içində heyvanın satış, bağışlama və digər yollarla əldən çıxması halında yenidən başqa heyvan satın alınar və ya heyvan mübadiləsi edilərsə, nisabı tamamlamada sonradan alınan heyvanların üzərindən bir il keçməsi mövzusunda satın aldıqları tarix əsas alınar.

ç. Heyvan ilin çox hissəsini saimə olmalıdır, yəni otlaqda və ya çaylaqda bəslənməlidir, ağılda və ya tövlədə yemlə bəslənən (məlufə) heyvanlardan olmamalıdır. Bu heyvanlar sırf südləri alınmaq və ya çoxalmaları təmin edilmək və ya bəslənmə üçün otlaqda otlamalıdır. Məhz bu səbəbdən altı aydan az müddətdə otlaqlarda otlayan və ya sırf minik və ya yük daşımaq üçün, yaxud kəsilib ətləri alınmaq üzrə otlaqlarda az-çox otladılan heyvanlar da zəkata daxil deyil. Ticarət üçün olan heyvanların hökmü digər ticarət malları kimidir. Ticarət malı olmayan heyvanlardan zəkatın fərz olması üçün ilin yarısından çoxunu hər kəsin istifadəsində olan otlaqlarda bəslənməli olduğu müxtəlif hədisi-şəriflərdə mövcuddur.

d. Heyvan əkin və daşıma işlərində istifadə edilən (amilə) heyvanlardan olmamalıdır.

İmam Malikə görə, heyvanların saimə olmasına və ya əkin, ya da daşıma işində istifadə edilib-edilməməsinə baxılmadan müəyyən edilən növlər nisaba çatdıqda, bunlardan zəkat vermək vacib olar.

Qoyun və keçilərin zəkatı

Saimə olan qoyun və keçinin nisabı qırxdır. Qoyun və keçinin sayı qırxa çatar və bir il keçərsə, zəkat vacib olar.

0-39 qoyunlarda zəkat yoxdur.

40-120 qoyuna 1 qoyun,

121-200 qoyuna 2 qoyun,

201-399 qoyuna 3 qoyun zəkat verilməlidir.

400 qoyuna 4 qoyun zəkat verilməlidir. Bundan sonra hər yüz qoyuna bir qoyun daha verilməlidir. Məsələn, 400-499 arasında 4 qoyun, 500-599 arasında 5 qoyun kimi. Belə olan təqdirdə zəkata daxil olan və bir il keçən qırx qoyunu olanla, yüz iyirmi qoyunu olan iki müsəlman da hərəsi bir qoyun zəkat verər. Beləliklə də, buradan aydın olur ki, zəkat miqdarından aşağı və yuxarı arasındakı say əfv olunar və zəkata daxil deyil.

Keçi də qoyun kimidir. Çünki hədislərdəki "ğənəm" ifadəsi erkək və dişi qoyunla keçini öz əhatəsinə alır. Bu səbəbdən qoyunla keçi eyni cins sayılır və nisabı tamamlamada bir-birinə əlavə edilir. Məsələn, otuz qoyunla on keçisi olan bir qoyun zəkat verməlidir. Bunların erkəkləri ilə dişiləri bərabərdir. Yəni, zəkat verilən heyvan erkək və ya dişi ola bilər.

Qoyunlarla keçilərdən hansı daha çox olarsa, zəkatın ondan verilməsi məqsədəuyğundur. Sayları eyni olarsa, istədiyindən verə bilər. Ancaq hamısı qoyun və ya hamısı keçi olarsa, zəkatı həmin cinsdən verilməlidir.

İnək və camışların zəkatı

Saimə olan inəklərin nisab miqdarı otuzdur. Bundan azına zəkat vacib deyil.

0-29 arası zəkat yoxdur.

30-39 arası iki yaşında erkək və ya dişi buzov,

İPƏKYOLU NƏŞRİYYATI

40-59 arası üç yaşında erkək və ya dişi bir dana verilməlidir. Altmış inəkdən isə hər biri bir yaşında iki buzov verilməlidir. Sonra hər otuzda bir buzov və hər qırxda bir dana zəkat verilməlidir. Məsələn, yetmiş inək üçün bir buzov ilə bir dana zəkat verilə biləcəyi kimi, səksən inək üçün iki dana, doxsan inək üçün üç buzov, yüz inək üçün bir dana ilə iki buzov və yüz on inək üçün də dörd buzov və ya üç dana verməkdə azaddır. Çünki bunda dörd otuz, üç ədəd də qırx vardır. Bundan sonrakı saylar üçün də bu tərzdə zəkat hesablanır.

Zəkat mövzusunda inəklə camış eyni cins qəbul edilir. Bunlar qarışıq olduğu təqdirdə bir-birinə əlavə edilir. Məsələn, iyirmi inəklə on camış olsa, bunlar üçün iki yaşında bir buzov verilməlidir. İki cinsdən hansı çox olarsa, zəkat ondan verilir. Sayları bərabər olduğu təqdirdə, bahalı olanların ucuzundan, ucuz olanların bahalısından verilir. Məsələn, inək və camış bərabər miqdarda qarışıq və camış qiymətli olarsa, camışın ucuzundan, inəyin yaxşısından verilməlidir.

Dəvələrin zəkatı

Saimə olan dəvənin nisabı beşdir.

0-4 dəvə üçün zəkat yoxdur.

5-9 dəvə üçün 1 qoyun,

10-14 dəvəyə 2 qoyun,

15-19 dəvəyə 3 qoyun,

20-24 dəvəyə 4 qoyun,

25-35 dəvəyə iki yaşında 1 dişi dəvə,

36-45 dəvəyə üç yaşında 1 dişi dəvə,

46-60 dəvəyə dörd yaşında 1 dişi dəvə,

61-75 dəvəyə beş yaşında 1 dişi dəvə,

76-90 dəvəyə üç yaşında 2 dişi dəvə,

91-120 dəvəyə dörd yaşında 2 dişi dəvə verilməlidir.

Zəkat mövzusunda dəvələrin erkəkləri ilə dişilərinin qarışıq olub-olmaması nəticəni dəyişdirməz. Ancaq zəkat verilən dəvələr orta səviyyədə dişi olmalıdır. Erkək dəvə verildiyi təqdirdə qiymət olaraq verilər.

İl başında nisab miqdarında olan saimə heyvanlara, il içində miras, bağışlama və ya satın alma kimi yollarla eyni cinsdən saimə heyvanlar əlavə olunsa, il sonunda hamısının zəkatı birdən verilməlidir.

İmam Şafeiyə görə isə, sonradan əlavələrin üstündən bir il müddəti mülkiyyətinə keçirildiyi vaxtdan etibarən hesablanar.

Saimə heyvanlar arasında olan kor, zəif heyvanlar da nisaba daxil edilir. Lakin bunlar zəkat olaraq verilməz. Əbu Hənifə və İmam Məhəmmədə görə, saimə olub hələ yaşı bitməmiş quzulardan, inək, camış və dəvə balalarından ötrü, sayları nisab miqdarına çatsa da zəkat vacib deyil. Ancaq aralarında öz cinslərindən böyük heyvanlar olarsa, onlarla birlikdə zəkata daxil olarlar.

Məsələn, il boyunca əlli qoyunla səkkiz aylıq yetmiş beş quzusu olsa, ilin axırında iki qoyun zəkat verməlidir. Həmçinin iyirmi doqquz inək balası ilə bir ədəd də inək olarsa, bir yaşında bir buzov verilməlidir. Dörd dəvə balası ilə bir ədəd də iki və ya üç yaşında dəvə olarsa, bir qoyun zəkat verməlidir.

Əbu Yusifə görə, hələ yaşı bitməmiş heyvanların sayı nisab miqdarına çatdıqda zəkat vacib olur. Məsələn, qırx quzu üçün bir quzu zəkat verilməlidir. İmam Şafei də eyni fikirdədir.

İPƏKYOLU NƏŞRİYYATI

Zəkata daxil olan heyvanların bir qismi məhv olsa, Əbu Hənifəyə ilə Əbu Yusifə görə, zəkatdan azad olan pillələrdə meydana gələn azalma zəkata təsir etməz. İmam Məhəmməd və İmam Züfərə görə isə zəkat məhv nisbətində azalar.

Məsələn, altmış qoyunu olan birinin on və ya iyirmi qoyunu ilin içində bir fəlakət nəticəsində məhv olsa, birinci fikri mənimsəyənlərə görə, geridə qırx qoyun qaldığı üçün bir qoyun zəkat verilməlidir. İmam Məhəmməd və İmam Züfərə görə isə, zəkat on qoyun məhv olmuşsa altıda bir, iyirmi qoyun məhv olmuşsa altıda iki nisbətində zəkat miqdarı azalar. Zəkat heyvan yerinə qiyməti ilə verilə bildiyi üçün, bu azalma orada nəzərə alınar.

Hənəfi və hənbəlilərə görə, zəkata daxil olan bir malın ilin axırı keçdikdən sonra zəkatı verilmədən satılması, yalnız zəkat miqdarının təzminatını verməklə caizdir.

Şafeilərə görə, zəkat fərz olduqdan sonra bir mal satıldıqda, alqı-satqı müqaviləsi zəkat miqdarı qədər olan hissədə etibarsızdır. Çünki fərz olan miqdar yoxsullara məxsusdur, eləcə də onlar həmin hissəyə şərikdirlər və onların icazəsi olmadan satıla bilməz.

Atların zəkatı

Hz. Peyğəmbər belə buyurmuşdur: *"Sizi at və qulun zəkatından azad etdim", "Müsəlmana qulu və atından ötrü zəkat yoxdur"* (Buxari, Zəkat, 45, 46). Lakin Rəsulullahın (s.ə.s)"çoxalma məqsədilə baxılan saimə atları" bundan istisna etdiyini bildirən hədislər də rəvayət edilmişdir.

Hz. Ömər Allahın Rəsulu və Əbu Bəkr dövründə atlardan zəkat alınmadığına görə Dəməşqdən bu mövzunu soruşmaq üçün gələnlərə, atlardan zəkatın vacib olmadığını bildirmişdir. Ancaq daha sonra şamlılardan, atlarının zəkatını alması üçün Əbu Übeydə ibnül-Cərraha müraciət etməsi və Əbu Übeydənin yazılı cavab istəməsi ilə Hz. Ömər "atların zəkatını vermək istəyirlərsə, bu zəkatı almasını və oranın yoxsullarına paylamasını" yazılı şəkildə bildirmişdir.

Fəqehlərin əksəriyyəti Hz. Peyğəmbərin atları zəkatdan azad etdiyini bildirən hədislərə və icraata əsaslanaraq, at cinsinə zəkatın vacib olmadığı fikrini mənimsəmişlər.

Hz. Peyğəmbər və dörd xəlifə dövründə atlar ümumiyyətlə səfər, müharibə və nəqliyyat işində istifadə edildiyi üçün, digər dəvə və inək cinsinin əkin və nəqliyyat işində istifadə edildikdə (amilə) zəkata daxil edilmədiyi kimi, atların da daxil edilmədiyi aydın olur. Ancaq atlar çoxalmaq üçün ilin yarısından çoxunu otlaqlarda otlayaraq keçirərsə, saimə olarlar. Belə ki, Əbu Hənifə və Züfərə görə, nəsli əldə edilib irəlidə satılmaq üzrə, erkəyi və dişisi qarışıq halda yaşayan və ilin çoxunu otlaqlarda otlayaraq keçirən saimə atlar üçün ya hər ata görə 1 dinar (təqribən 4 qr qızıl pul) və ya atın qiyməti əsas alınaraq 2,5% zəkat verilməlidir. Əbu Hənifənin bu atları saimə vəsfi ilə yanaşı ticarət malı sayaraq zəkata daxil etdiyi aydın olur. Buradakı fikir ayrılığı at sahibinə istehsalçı zəkatının vacib olub-olmaması mövzusu ilə əlaqədardır. Atlar ticarət məqsədi ilə baxılar və ya satın alınarsa, bunların zəkat vaxtında qiymətlərinə görə zəkata əlavə edilməsinin vacibliyində şübhə yoxdur.

4. Mədən və dəfinələrin zəkatı

Allah-Təalanın yer üzünü yaradarkən yerin altında yaratdığı müxtəlif iqtisadi sərvətlərə "mədən", insan əli ilə basdırılmış əşyalara isə "dəfinə" deyilir. Hənəfilərə görə, "rikaz" mədən və dəfinələri əhatə edən bir termindir. Mədənlər ümumiyyətlə, odda əriyib qəlibə tökülən maddələrdir. Hənbəlilərə görə isə, bərk və maye bütün mədən mövləri bu kateqoriyaya daxildir.

Mədənlər üç növdür:

a. Bərk olub əriyən və qəlibə tökülən mədənlər: qızıl, gümüş, mis, dəmir, qurğuşun, qalay, bürünc mədənləri bu qəbildəndir. Bunların zəkatı nisab miqdarına çatdıqda beşdə birdir (1/5).

İPƏKYOLU NƏŞRİYYATI

b. Əridilməyə əlverişli olmayan bərk mədənlər: bunlar odda əriməyən və qəlibə salına bilməyən mərmər, kirəc, gips daşı, almaz, yaqut, firuzə, duz kimi mədənlərdir. Bu kimi mədənlərdən istehsalçı zəkatı alınmaz. Bunların hamısı sahibinə, sahibi yoxdursa tapana aiddir.

c. Maye olub bərkiməyən mədənlər: civə və neft kimi qatı olmayan maddələrdir. Bunlardan da istehsalçı zəkatı vacib deyil. Bunlar tamamilə ərazinin sahibinə aiddir. İstehsaldan sonra ticarət malı kimi zəkata daxildir. Belə olan halda beşdə bir zəkat yalnız odda əriyib qəlibə tökülən mədən növü olan birinci növ üçün vacibdir. Bu növ mədənlər istər üşr, istərsə də xərac torpaqlarında olsun beşdə bir zəkat alınar və qənimətlərin xərcləndiyi yerə sərf edilər. Bunun dəlili Kitab, Sünnə və qiyasdır. Qurani-Kərimdə belə buyurulur: **"Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir** (pulu qurtarıb yolda qalan yolçularındır)**. Allah hər şeyə qadirdir!"** (Ənfal, 8/41) Hənəfilərə görə, mədənlər qənimət hökmündədir. Çünki bunlar əvvəl əhli-küfrün əlində olan torpaqlardan çıxarılır. Ancaq müsəlmanlar bu torpaqları daha sonra savaşaraq əldə etmişlər. Sünnədən dəlil Hz. Peyğəmbərin bu hədisidir: *"Rikazda xüms (beşdə bir vergi) vardır"* (Buxari, Müsaqat, 3, Zəkat, 66).

Hz. Ömərin Mədinə kənarında olan 1000 dinar qızıl pulun 200 dinarını dövlət adına beytulmala aldığı, Hz. Əlinin də mədənləri "rikaz" olaraq adlandırıb çıxarılan mədənlərdən və qədim dövrlərə aid tapıntı pullardan beşdə bir vergi aldığı rəvayət edilmişdir.

İmam Şafei, Malik və Əhməd ibn Hənbələ görə, rikaz qədim dövrlərdə yerin altında basdırılıb gizlədilən qiymətli əşya, xəzinə və dəfinədir. Mədənlər rikazın əhatə dairəsi xaricində qalır. Hətta İmam Şafei rikazı, sadəcə, cahiliyyə dövründə basdırılmış qızıl və gümüşdən ibarət olduğunu və bunlardan alınan beşdə bir verginin zəkat verilən şəxslərə sərf edilməli olduğunu bildirir. Əbu Hənifədən nəql edilən bir fikrə görə, Malikə və Əhməd ibn Hənbələ görə isə, beşdə bir gəliri fey hökmlərinə daxil olur və zəkata yox, sosial xidmətlərə xərclənir.

Hənəfilərə görə, mədənlərin zəkatı beşdə bir ikən, digər üç məzhəbə görə qırxda birdir. Bu fikir ayrılığı, üç məzhəbin mədənləri rikazın əhatə dairəsi xaricində qəbul etmələrindən irəli gəlir.

Hənəfilərə görə, tapılan mədənlərlə dəfinələrdən beşdə bir zəkat verildikdən sonra qalan qisim, əgər mədən və dəfinələr birinin mülkündə tapılmışsa, mülk sahibinə aiddir. Əgər heç kimin mülkiyyəti deyilsə, qalan qismi tapana aiddir. Belə olan təqdirdə dövlətin mülkiyyətində olan ərazilərdə tapılan mədənlər tamamilə dövlətə məxsusdur.

<u>Dəfinələr də üç növdür</u>:

a. Sahibsiz torpaqlarda və ya sahibi naməlum torpaqlarda tapılmışsa, beşdə bir vergi alınır, qalan beşdə dördü tapana aiddir. Sahibi olan yerlərdə tapılmışsa, hənəfilərə görə, beşdə dördü mülk sahibinə və ya varislərinə verilir. Belə bir dəfinəni qeyri-müsəlman və ya uşaq da tapsa, hökm dəyişmir.

b.Tapılan qızıl, gümüş və ya qiymətli əşyanın İslami dövrə aid olduğunu göstərən möhür və yazı kimi bir əlamət daşıyarsa, "lüqətə" (tapılan mal) hökmləri tətbiq edilir. Bu kimi tapılan əşya bir il ərzində elan edilir. Bunları tapanlar yoxsuldursa özünə, varlıdırsa başqa yoxsullara və ya İslam dövlətinin səlahiyyətli təmsilçilərinə təhvil verərlər.

c. Hansı dövrə aid olduğu şübhəli olan dəfinələr: üstündə nə İslami nə də İslamdan əvvəlki dövrə məxsus olduğunu göstərən bir nişanə olmayan basdırılmış dəfinə bir fikrə görə İslamdan əvvəlki dövrə, başqa bir fikrə görə İslami dövrə məxsus olduğu qəbul edilir.

Tapılan bu növ əşyanın vergisində əksər fəqihlərə görə nisab şərt deyil. Ancaq İmam Şafei nisabı şərt qoşmuşdur.

İslam hüquqşünasları rikazın beşdə bir vergiyə daxil edilməsi üçün, tapıldıqdan sonra üstündən bir il keçməsinin şərt olmadığında fikir birliyi etmişlər.

Bir evdə tapılan dəfinə ev sahibinə aid olur. Əbu Hənifəyə görə, bundan beşdə bir zəkat vermək

İPƏKYOLU NƏŞRİYYATI

vacib deyil. Çünki bu, torpaq altında bir yerə gətirilmiş torpaq hissələri kimidir. Əbu Yusif və İmam Məhəmmədə görə isə, belə bir dəfinədən beşdə bir zəkat vacibdir. Çünki *"Rikazdan beşdə bir zəkat vermək vacibdir"* hədisin mənası ümumidir. Evdə və ya ev kənarında olan dəfinələr arasında hər hansı fərq qoyulmamışdır.

Dənizdən çıxarılan mirvari, ənbər, sikkəli pullar və balıqlardan Əbu Hənifə ilə İmam Məhəmmədə görə, zəkat vermək vacib deyil. Əbu Yusifə görə isə, dənizdən çıxarılan nağd qızıl və gümüşdən, mirvari ilə ənbərdən beşdə bir zəkat alınar.

İmam Şafeiyə görə, qızıl və gümüşdən başqa mədənlərdən zəkat vermək vacib deyil. Qızıl və gümüşdə qırxda bir zəkat verilir. Çünki qızıl və gümüşün zəkatı ilə əlaqədar hədislər ümumilik ifadə edir. Eyni zamanda mədənin zəkatında bir il keçmə şərti yoxdur. Çünki bir il keçmə şərti mallarda çoxalmanın əmələ gəlməsi üçün qoyulmuşdur.

V. Əkin məhsullarının zəkatı

Əkin məhsullarından zəkatın fərz olması Kitab, Sünnə və İcma dəlillərinə söykənir. Qurani-Kərimdə belə buyurulur: **"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin** (ən pak, halal və) **yaxşılarından** (Allah yolunda) **infaq** (sərf) **edin!"** (Bəqərə, 2/267) İslam hüquqşünasları buradakı əmrin torpaqdan əldə edilən məhsulların zəkatı ilə əlaqədar olduğu fikrindədirlər. Bununla birlikdə "infaq" termini geniş mənası ilə zəkatı da ehtiva edir. Həmçinin ayədə: **"..yığım günü haqqını** (zəkatını, sədəqəsini) **ödəyin.."**,-buyurulur (Ənam, 6/141). Əksər İslam hüquqşünasları bu ayədəki "haqq" terminin torpaqdan çıxan məhsulların zəkatı olduğu fikrini mənimsəmişlər.

Hz. Peyğəmbər belə buyurmuşdur: *"Yağış və çay suları ilə sulanan torpaq məhsullarında onda bir (üşr), əl əməyi ilə sulananlarda iyirmidə bir (nisf üşr) vardır"* (Buxari, Zəkat, 55). Hədislərdə ki "üşr" termini "torpqdan əldə edilən məhsulların zəkatı" mənasında istifadə edilmişdir. Bununla birlikdə İslam alimləri əkin məhsullarının onda bir və ya iyirmidə bir zəkata daxil olduğu mövzusunda həmrəydirlər. Ancaq zəkata daxil olub-olmayan ərazi və ya torpaq məhsulu növləri haqqında fikir ayrılığı vardır.

Əkin məhsullarından zəkat alınmasının şərtləri

Əkin məhsullarının zəkatından məsul şəxsin ağlı başında olması (ruhi xəstə olmaması) və ya həddi-büluğ çağına çatması şərt deyil. Ruhi xəstə və ya kiçiklərin sahib olduğu məhsuldan da zəkat vermək vacibdir. Ancaq məsul şəxsin müsəlman olması şərtdir.

Hənəfilərə görə, yuxarıdakı ümumi şərtlərə əlavə olaraq əkin məhsullarından zəkatın fərz olması üçün aşağıdakı şərtlər müəyyən edilmişdir:

a. Torpaq üşr torpağı olmalıdır. Xərac ərazisindən üşr vermək vacib deyil. Çünki bir torpaqdan həm xərac, həm də üşr vergisi alınmaz.

b. Torpaqdan məhsul götürülməlidir. Əgər üşr torpağından bir şey əldə edilməzsə, üşr vermək də vacib olmaz. Çünki üşr hasil edilən məhsuldan verilir.

c. Torpağı əkib-becərmək, gəlir və məhsul əldə etmək, artım kimi məqsədlər üçün edilməlidir. Bu səbəbdən başlanğıcda məhsulu olmayan meşə, şam, qovaq, ot və bu kimi ağac və digər şeylərdən üçün üşr verilməz. Ancaq bunlar kəsilib material kmi istifadə olunaraq satılarsa, ticarət malı kimi digər zəkat mallarına əlavə olunur.

Zəkat verilən əkin məhsulları və öhdəliklər

Əbu Hənifəyə görə, əkin məhsullarının zəkatında nisab miqdarına çatması şərt deyil. Buğda, arpa, düyü, darı, lobya və digər dənli bitkilər, qarpız, badımcan, pomidor, şəkər qamışı, şəkər çuğunduru, xurma, üzüm və bu kimi tərəvəzlər üşr ərazisi məhsullarından az olsun, çox olsun üşr zəkatı alınar. Əsaslandığı dəlil **"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin** (ən pak, halal və) **yaxşılarından** (Allah yolunda) **sərf edin!"** (Bəqərə, 2/267) ayəsidir.

İPƏKYOLU NƏŞRİYYATI

Xülasə, Əbu Hənifəyə görə, insan əli ilə əkilib-becərilən hər məhsuldan üşr vermək lazımdır. Üşrdə bir növ vergi mənası olduğu üçün bunu dövlətin zorla alma hüququ vardır. Bu səbəbdən ölünün mirası olan əkin məhsullarından, uşaq və ya ruhi xəstəyə məxsus sahələrin məhsulundan da üşr alınar.

Hənəfilərə görə, torpaq məhsullarının üşrə daxil olması üçün üstündən bir il keçmə şərti yoxdur. Bir il içində, birdən çox məhsul götürülən yerlərdə, üşr də məhsula bağlı olaraq təkrar verilir.

Əbu Yusif və İmam Məhəmmədin də içində olduğu əksər alimlərə görə, əkin məhsulları üçün nisab miqdarı hər məhsul növü üçün beş vəsqdir (təqribən 650 kq, kufəlilərə görə 1 ton). Bu nisaba çatmayan əkin məhsullarından zəkat vermək vacib deyil. Dəlil Hz. Peyğəmbərin bu hədisidir: *"Beş vəsqdən az (məhsulda) zəkat yoxdur"* (Buxari, Zəkat, 4, 32, 38).

Bundan əlavə, əkin məhsulları bir il saxlanıla bilən məhsullardan olmalıdır. Bu səbəblə təzə meyvə və göy-göyərti növləri üçün üşr vacib deyil. Armud, alma, şaftalı, ərik, pomidor, bibər və s. kimi. Çünki bunlar tez xarab olan və çürüyən məhsullardır.

Torpaq məhsullarının zəkatı torpağın suvarılmasına görə müəyyən edilir. Torpaq əmək sərf edilmədən yağış, çay və bunların kanalları ilə sulanarsa, zəkat onda bir, vedrə, motor və ya pul ilə alınan suyla suvarılarsa iyirmidə bir verilir. Əgər hər ikisi ilə suvarılmışsa, il boyunca daha çox sulama əsas götürülərək üşr miqdarı müəyyənləşdirilir.

Dövrümüzdə suvarma ilə yanaşı gübrələmə, dərmanlama, mazut və işçilərin xərclərinin çox artdığı nəzərə alınaraq, bu kimi torpaqlardan əldə edilən məhsulun, əmək və xərc çəkilərək suvarılan torpaqların məhsuluna qiyas edilməsi uyğun hesab edənlər olduğu kimi, suvarmadan başqa qalan bu xərclərin zəkatdan götürüldükdən sonra, geri qalandan suvarma üsuluna görə zəkat verilməli olduğunu irəli sürən müasir alimlər də vardır.

İmam Şafei və Malikə görə, bir il ərzində saxlana bilən qida maddələri zəkata daxildir. İmam Şafei meyvələrdən sadəcə xurma və üzümə üşrün vacibliyi fikrindədir. Əhməd ibn Hənbəl isə, qida maddəsi fərqi qoymadan insan əli ilə əkilib-becərilən və saxlanıla bilən, kilo ilə alqı-satqısı edilən hər cür əkin məhsuluna üşrün vacibliyini bildirmişdir.

Zeytun, küncüd, günəbaxandan üşr alındığı təqdirdə, daha sonra yağlarından yenidən üşr alınmaz. Ancaq bunları istehsalçıdan ticarət məqsədilə satın alan kəs yenidən "ticarət malı" zəkatına daxil edər.

Torpaq məhsullarının üşrü, dənli bitkilərdə xırman vaxtında, meyvələrdə isə toplandıqdan sonra verilir. Bunların sahibləri vəfat etsə belə, varislər üşrü verməlidirlər. Bu kimi ərazilərin vəqf edilməsi də üşr öhdəliyini aradan qaldırmaz.

Hələ üşrü verilməyən dənli bitkilərdən və ya ağacın üstündəki meyvələrdən yeyilərsə, üşrü verilmək niyyəti ilə yeyilməli və bunun üşrü də verilməlidir. Məsələn, Əbu Hənifəyə görə 10 kq üzüm toplanmışsa, 1 kq zəkatı verilməlidir.

Əbu Yusif və İmam Məhəmmədə görə, beş vəsq (650 kq) olan nisabı tamamlamada əkin məhsullarının müxtəlif növləri bir-birinə əlavə edilə bilməz. Hər növün ayrı-ayrı nisabı tamamlanmalıdır.

Sahibi olmayan, vəqf edilmiş üşr ərazisi məhsullarından da üşr verilir. Çünki üşr torpağın özündən yox, çıxan məhsulundan verilməlidir.

Zəkata daxil olan torpaq məhsulları yetişdikdən sonra, yığılmadan satılarsa, üşrü ərazi sahibinə, yetişmədən satılarsa, satın alana aiddir.

Balın zəkatı: üşr torpağından bəslənən arıların balından onda bir zəkat verilməlidir. Xərac ərazisindən, mübah otlaq və ya meşələrdən bəslənən arıların balları isə üşrə daxil deyil. Dəlil bu hədisdir: "Əbu Səyyarə (r.ə) özünün arı pətəkləri olduğunu dedikdə, Hz. Peyğəmbər bunların üşrünü verməsini bildirmişdir". Bununla birlikdə Allahın Eçisi Yəmən xalqına belə yazmışdır: *"Bal istehsalçılarından üşr alınsın!"* Şafei və malikilərə görə isə, baldan zəkat vacib deyil. Əsaslandıqları dəlil Tirmizinin balın zəkatı mövzusunda mühüm bir rəvayətin olmadığını deməsi ilə balın südə qiyas edilməsidir.

İPƏKYOLU NƏŞRİYYATI

6. Verilən borcların (alacaqların) zəkatı

Başqalarının öhdəliyində olub nisab miqdarına çatan nağd pulları geri alacaq şəxslərin (borc verənlərin) həmin məbləği zəkata daxil olub-olmaması baxımından üç qismə bölmək mümkündür:

a. Qüvvətli borclar: borc olaraq verilən pullar, nisyə satılan ticarət mallarının əvəzi, borclu borcunu qəbul edirsə və ya borcun sənədlə sübuta yetirilmə imkanı varsa, qüvvətli hesab edilir. Bunlar hasil olan zaman keçmiş illərə aid zəkatlar verilir.

Qüvvətli və üstündən bir il keçmiş bir borcdan, zəkatla məsul şəxs zəkat nisabının ən az beşdə bir miqdarını əldə etdikdə, bu miqdarın zəkatını dərhal verər. Bundan az olarsa, zəkata daxil başqa malı olmazsa, zəkatını dərhal verməsi vacib deyil.

İmam Məhəmmədə görə, bu kimi borclar, borclu olan tərəfdən inkar edilərsə, borcunu tələb edənin sübuta yetirən sənədləri olsa belə, əldə etdikdə keçmiş illərə aid zəkat vacib olmaz. Düzgün hesab edilən fikir də budur. Çünki hər sənəd hakim tərəfindən etibarlı sayılmaz və hər kəs iddia qaldırma imkanı tapmaya bilər.

b. Orta dərəcədə olan borclar: ev və ya dükan icarəsi kimi zəkat ünsürü olmayan bir malın əvəzi bu qismə daxildir. Bu kimi borclarda bir il keçmə müddəti kirəkeşin borclanmağa başladığı tarixdən etibarən başlayar və keçən hər bir il üçün zəkat verilməlidir. Ancaq tam nisab miqdarı qədər əldə edilməyincə, sahibkarın zəkata daxil başqa malı olmadığı təqdirdə, zəkatını dərhal vermək məcburiyyətində deyil.

Əbu Hənifədən daha sağlam sayılan bir rəvayətə görə, bu kimi borcların keçmiş illərə aid zəkatlarını verməyə ehtiyac yoxdur. Nisab miqdarı qədər borcu alıb bir il keçdikdə və ya zəkata daxil başqa mal varsa, ilin keçməsi gözlənilmədən buna əlavə edilərək zəkatı verilir.

c. Zəif borclar: hər hansı malın əvəzi olmadan öhdəlikdə olan borclardır. Mehr, miras, vəsiyyət, müqaviləli boşanmada qadından alınan müxaliə əvəzi və diyə kimi şeylər bu qismə daxildir. Çünki mehr bir mal mübadiləsindən əmələ gələn bir borc deyil.

Nəticə etibarilə, verilən borcların hər birindən zəkat vermək vacibdir. Ancaq zəkat, verilən borcu geri alma əsnasında fərz olar. Qüvvətli borclarda nisabın beşdə biri alındıqda, orta və zəif borclarda isə nisab miqdarı qədər alındıqda zəkat verilməlidir. Bununla birlikdə bir əvəz qarşılığı olmayan zəif borclar yeni bir qazanc əldə etmə xarakterli olduğu üçün, bunların üstündən bir il müddət keçməlidir. Zəkata daxil başqa bir mal mövcud olsa, bunlar bir-birinə əlavə edilərək zəkat verilir.

İ. SƏDƏQƏ VƏ NÖVLƏRİ

1. Sədəqənin tərifi

"Sədəqə" kəlməsi "təsdiq etmək, doğru söz söyləmək, bir şeyi halal yolla xərcləmək" mənalarına gəlir. Termin mənası isə "insanın malından möhtac olanlara çatdırmaq üzrə Allah rizası üçün köməklik göstərməsidir". Sədəqə zəkat və digər yardım növlərini əhatə edən bir məfhumdur. Sədəqənin əhatəsinin geniş olduğunu bu hədisi-şərifdə görmək olar: *"İçində günəşin doğulduğu hər gün insanların hər bir oynağı üçün onlara bir sədəqə vermək düşür. İki nəfərin arasında ədalətli hökm vermək bir sədəqədir. Heyvanına minmək istəyən birisinə yardım edərək heyvana mindirən və ya əşyasını heyvana yükləməyin bir sədəqədir. Gözəl və xoş söz bir sədəqədir. Namaza gedərkən atdığın hər addım sədəqədir. Gəlib keçənə mane olan şeyləri yoldan götürməyin bir sədəqədir"* (Buxari, Sülh, 11).

Sədəqə malın bərəkətlənməsinə səbəbdir. Hz. Peyğəmbərimiz (s.ə.s): *"Sədəqə malı əskiltməz!"*-buyurmuşdur (Müslim, Birr və silə, 19). Qadınların da sədəqə verməsi təşviq edilmişdir. Hz. Peyğəmbər (s.ə.s) bir gün qadınlara xitab edərək belə buyurmuşdur: *"Ey qadınlar topluluğu, zinətlərinizdən də olsa sədəqə verin!"*

İPƏKYOLU NƏŞRİYYATI

Sədəqənin növləri

Sədəqələr fərz, vacib və nafilə olmaqla üç növdür:

a. Fərz olan sədəqələr: bu, zəkatdır. Zəkat öz-özlüyündə bir ibadətdir və özünə məxsus hömləri var.

b. Vacib olan sədəqələr: fitrə sədəqəsi ilə nəzir, and, oruc və zihar kəffarələri səbəbilə meydana gələr öhdəliklər vacib olan sədəqə növünə daxildir.

c. Nafilə olan sədəqələr: bunlar zəkat və vacib olan sədəqələrdən başqa digərləridir. Nafilə sədəqənin ən yaxşılarından biri sədəqeyi-cariyə deyilən mütəmadi olaraq davam edən sədəqə növüdür. İbadətgahlara, təhsil müəssisələrinə, yol, su, körpü kimi yerlərə, eləcə də vəqflərə, xeyriyyə cəmiyyətlərinə Allah rizası üçün bağışlamaqla bu gözəl əməl yerinə yetirilə bilər.

Zəkat və sədəqə arasında fərq varmı? Sinifdə müzakirə edin.

J. ALLAH YOLUNDA VERMƏYİN, İNFAQIN ƏHƏMİYYƏTİ

"İnfaq" istər qohum-əqrəbalardan, istərsə də digər insanlardan yoxsul və möhtaclara pul və ya ərzaq verərək dolanışıqlarını təmin etmək mənasına gəlir. Qurani-Kərimin çoxlu sayda ayəsində möminlərə "Allah yolunda infaq" etmək əmr və tövsiyə olunmuş, Allah yolunda sərf edənlər mədh edilmişdir.

Allah-Təala Qurani-Kərimdə belə buyurur: **"**(Ey insanlar!) **Allaha və Peyğəmbərinə iman gətirin. Sizi varis etdiyi maldan** (Onun yolunda) **xərcləyin. Sizdən iman gətirib** (mal-dövlətini Allah yolunda) **sərf edənləri böyük bir mükafat gözləyir!"** (Hədid, /7). **"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah** (lütfü ilə) **genişdir"** (Bəqərə, 2/261). **"Mallarını gecə və gündüz, gizli və aşkar** (yoxsullara) **sərf edənlərin Rəbbi yanında böyük mükafatları vardır. Onların** (axirətdə) **heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər"** (Bəqərə, 2/274).

İmkan olduğu halda fağırlara, kasıblara, yoxsullara, yetimlərə köməklik göstərməmək cəhənnəmə getməyə səbəb olan bir mövqedir. Bununla bağlı Uca Allah belə buyurur: **"...bir-birindən soruşacaqlar; Günahkarlar barəsində** (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər)**: "Sizi Səqərə** (cəhənnəmə) **salan nədir?" Onlar deyəcəklər: 'Biz namaz qılanlardan deyildik; Yoxsulu da yedirtməzdik"** (Müddəsir, /40-44).

Uca Allah təqva sahibi möminlərdən xəbər verərkən onlar haqqında belə buyurur: **"... və onlara verdiyimiz ruzilərdən infaq edərlər"** (Bəqərə, 2/3). Ayədən də aydın olur ki, insana mal-dövləti ruzi olaraq verən Uca Allahdır. Bu səbəbdən insan bunun şüurunda olmalı və yoxsullara qarşı xəsis olmamalı, möhtac olanları daim nəzərdə saxlamalıdır. Belə etdiyi təqdirdə savabını və qarşılığını Uca Allahdan artıqlaması ilə alacaqdır. Çünki Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Kim din qardaşının bir ehtiyacını aradan qaldırarsa, Allah da ona köməklik göstərər. Kim bir müsəlmanın bir sıxıntısını aradan qaldırarsa, Allah da qiyamət günündə onun bir sıxıntısını aradan qaldırar"* (Müslim, Birr və silə, 58).

Bolluqda və qıtlıqda infaq etmək üçün səy göstərilməlidir. Uca Allah belə buyurur: **"O müttəqilər ki, bolluqda da, qıtlıqda da infaq edər (mallarını yoxsullara xərcləyər), qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər"** (Ali-İmran, 3/134). Rəsulullah (s.ə.s) heç bir şeyi olmayanı belə infaq səfərbərliyinə təşviq edərdi. Məsələn, Əbu Zərr (r.ə) səhabələrin ən kasıblarında olduğu halda onu da infaqa dəvət edərək belə buyurardı: *"Ey Əbu Zərr, şorba bişirdikdə suyunu çoxlu et*

İPƏKYOLU NƏŞRİYYATI

və qonşularını da nəzərə al!" (Müslim, Birr, 142). Məhz bu səbəbdən səhabələr daim infaq edərdilər. Təbük səfəri üçün Hz. Ömər mal-dövlətinin yarısını gətirmiş, Hz. Əbu Bəkr isə mal-dövlətinin hamısı infaq etmişdi.

QEYD EDƏK

İnfaqla bağlı bu ayeyi-kərimə diqqəti cəlbedicidir: **"Səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De: 'Ehtiyacınızdan artıq qalanını!'"** (Bəqərə, 2/219).

Ailə üzvləri arasında çətin vəziyyətdə olanlar durarkən uzaqda olanlara kömək etmək məqsədəuyğun deyil. Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Bir kəsin sərf edəcəyi ən fəzilətli dinar öz ailə üzvlərinə infaq etdiyi dinarla, Allah yolunda heyvanına və Allah yolunda cihad edən yoldaşlarına xərclədiyi dinardır"* (Müslim, Zəkat, 38). Ailə üzvlərinə sərf edilənlər eyni zamanda sədəqə hökmündədir. Hədisi-şərifdə belə buyurulur: *"Bir müsəlman ailə üzvlərinin dolanışığını Allahın razılığını umaraq təmin etsə, bu, onun üçün sədəqə olar"*.

Allah-Təala ayeyi-kərimədə belə buyurur: **"Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta,** (pulu qurtarıb yolda qalan) **müsafirə (yolçulara), əlinizin altında olana yaxşılıq edin!"** (Nisa, 4/36).

İmkanı olan bir şəxs üçün infaqın ən fəzilətlisi onun möhtac olan qohum-əqrəbaları üçün etdiyi infaqdır. Hz. Peyğəmbərimiz (s.ə.s): *"İnfaqa əvvəlcə özündən, sonra dolanışığı sənə vacib olanlardan başla!"* (Buxari, Zəkat, 18)-buyuraraq bu məsələyə diqqət çəkmişdir. Əgər qadının əri yoxsul olarsa, var-dövlətindən kömək etməlidir. Peyğəmbərimiz belə buyurmuşdur: *"Ərin və uşağın sədəqə verməyə ən layiq olan kəslərdir"* (Əbu Davud, Zəkat, 4).

K. FİTRƏ (FİTR SƏDƏQƏSİ)

1. Fitrə sədəqəsinin tərifi və dinimizdəki yeri

"Fitr" lüğətdə "orucu açmaq", fitrə də "yaradılış" mənasına gəlir. "Fitrə sədəqəsi" savab üçün verilən yaradılış ətası deməkdir. Dini terminologiyada fitrə sədəqəsi Ramazan bayramına çatan və təməl ehtiyaclarından başqa müəyyən miqdar mala sahib olan müsəlmanların özləri və məsul olduqları şəxslər üçün yerinə yetirməklə məsuliyyət daşıdıqları maddi bir ibadətdir.

Fitrə sədəqəsi Ramazan orucunun fərz buyurulduğu hicrətin II ilinin şaban ayında zəkatdan əvvəl vacib buyurulmuşdur. Bu, bir yardımlaşmadır və orucun qəbuluna, ölüm anındakı sıxıntılardan və qəbir əzabından xilas olmaq üçün bir vasitədir. Yoxsulların ehtiyaclarını aradan qaldırmağa və onların da bayram əhvali-ruhiyyəsində olmalarına bir köməkdir.

Fitrə hədis dəlilinə söykənir. Bununla bağlı hədislər eyni zamanda onun tətbiq olunması şərtlərini də müəyyən edir. Abdullah ibn Ömərdən belə dediyi rəvayət edilmişdir: *"Hz. Peyğəmbər fitrə sədəqəsini 1 sa (çəki vahidində) xurma və 1 sa arpa olmaqla qul, kişi, qadın, kiçik və böyüklərə fərz buyurmuş və insanlar (bayram) namazına getmədən əvvəl verilməsini əmr etmişdir"* (Buxari, Zəkat, 76; Müslim, Zəkat, 12).

Əbu Səid əl-Xudridən (r.ə) rəvayət edilən bir hədisdə fitrə verilən maddələr və miqdarları belə birdirilir: "Biz Peyğəmbər dövründə fitrəni yeyinti məhsullarından 1 sa olaraq verərdik. O vaxt bizim yediyimiz arpa, quru üzüm, xurma və yağı alınmış pendir idi". İbn Abbasın (r.ənhüma) rəvayət etdiyi bir hədisdə belə buyurulur: "Rəsulullah (s.ə.s) orucluları lazımsız və çirkin sözlərdən paklaşdırmaq və yoxsullara yemək təmin etmək üçün fitrəni fərz buyurmuşdur. Kim fitrəni namazdan əvvəl verərsə, bu məqbul bir zəkat, kim də namazdan sonra verərsə, hər hansı sədəqə vermiş kimi olar" (Buxari, Zəkat, 70, 71, 77).

Abdullah ibn Sələbə (r.ə) belə rəvayət etmişdir: "Rəsulullah (s.ə.s) Ramazan bayramından bir və ya iki gün əvvəl çıxış edərək belə buyurdu: *"Buğdadan, arpadan və ya xurmadan 1 sa olmaqla azad və ya qul, kiçik və ya böyüklər üçün sədəqə olaraq verin"* (İbn Hənbəl, V, 432).

İPEKYOLU NƏŞRİYYATI

Bir müd, bir sa ağırlıq ölçü vahidinin dörddə birinə bərabərdir və 260 dirhəm edir. Bu da dini ölçüyə görə 260 x 2,8 = 728 qramdır. Belə olan halda buğda yarım sa = 2 müd x 728 = 1456 qram olur. Bir sa isə 2912 qramdır.

Adətdəki ölçüyə görə bir dirhəm 3,2 kq-dır, 1 sa = 1040 dirhəm x 3,2 = 3328 qr olur. Bunun yarısı olan 1664 qr da buğdanın fitrə miqdarıdır.

Nəticə etibarilə,

a. Arpa, quru xurma və quru üzümün fitrə miqdarı dini ölçüyə görə təqribən 3 kq, adətdəki ölçüyə görə isə 3,33 kq-dır.

b. Buğda və eyni hökmdə olan buğda unu üçün isə dini ölçüyə görə təqribən 1,5 kq, adətdəki ölçüyə görə isə 1,66 kq olur.

Sözü gedən iki növ ölçüdən birisini seçmək mümkün olmaqla birlikdə adətdəki ölçü daha çox olduğu üçün yoxsulların faydasınadır və daha çox savab qazanmağa səbəbdir.

Hənəfilərdən başqa üç məzhəb imamına görə fitrə buğdadan da 1 sadır.

Yuxarıdakı dörd növ qida məhsulu yerinə qiymətləri də verilə bilər. Ancaq yoxsullar bu məhsullara möhtac olduqları təqdirdə, fitrəni həmin növlərdən vermək daha əfzəldir. Əks təqdirdə, hesablanıb pul olaraq verilməsi daha yaxşıdır.

2. Fitrənin vacibliyi üçün lazımi şərtlər

a. Müsəlman olmaq: fitrə verməklə məsul olan şəxs müsəlman olmalıdır. Ancaq Şafei məzhəbindəki bir rəyə görə qeyri-müsəlmanın baxmaqla məsul olduğu müsəlman yaxınının fitrəsini də verməlidir.

b. Varlı olmaq: hənəfilərə görə, fitrə sədəqəsinin vacibliyi üçün insanın Ramazan bayramının birinci günü təməl ehtiyaclarından başqa nisab miqdarı mala sahib olmalıdır. Zəkat nisabından fərqli olaraq sahib olunan malın "artan" (name) olması şərt deyil və üstündən bir ilin keçməsinə ehtiyac yoxdur. Təməl ehtiyaclar ev, paltar, ev əşyası, minik, silah, qulluqçu, ailənin bir illik xərcləri və borclarıdır. Nisab miqdarı iki yüz dirhəm gümüş və ya iyirmi misqal qızıl və ya bunların qiymətinə bərabər olan bir maldır.

Şafei, Maliki və Hənbəli məzhəblərinə görə isə, fitrə sədəqəsinin vacibliyi üçün varlı olma meyarı olan nisaba malik olmaq şərt deyil. Təməl ehtiyaclardan başqa bayram günü və gecəsinə kifayət edəcək miqdarda azuqəyə sahib olmaq kifayətdir.

c. Səlahiyyətli olmaq: Əbu Hənifə, Əbu Yusif və digər üç məzhəb imamının fikrinə görə, fitrə sədəqəsinin maddi cəhəti əsas olduğu üçün bunun vacibliyi səbəbi ilə ağlı başında olmaq və yetkinlik yaşına çatmaq şərt deyil. Bu səbəbdən kiçik uşağın və ruhi xəstənin malından da valideyn fitrə verməlidir. Fitrənin ibadət cəhətini üstün qəbul edən hənəfilərdən İmam Məhəmməd və Züfərə görə isə, kiçiklərin və ruhi xəstələrin malından fitrə sədəqəsi vacib deyil.

d. Baxmaqla məsul olmaq: bir şəxsin özündən başqa birinin fitrə sədəqəsini verməklə məsul olması üçün, o şəxsin qəyyumu və ya ona baxmaqla məsul olmalıdır. Ona görə də qəyyumluğunu etdiyi kiçik uşaqların və ya ruhi xəstə olan yaxınlarının fitrəsini verməklə məsuldur. Ramazan bayramından əvvəl vəfat edən oğlunun uşaqları da buna daxildir. Bunun müqabilində bir şəxs ata-anasına, böyük uşaqlarına, yoldaşına, qardaşlarına və digər yaxınlarına baxmağı öz öhdəliyinə götürsə də onlar üçün fitrə vermək vacib deyil. Bununla birlikdə vəkalətləri olmadığı halda bu şəxslər üçün fitrə sədəqəsi verilməsi kifayətdir. Beləcə, yoxsullar bununla bayram namazından çıxmadan əvvəl ehtiyaclarını görərlər.

İPƏKYOLU NƏŞRİYYATI

e. Vaxt: hənəfilərə görə, fitrə sədəqəsi Ramazan bayramının 1-ci günü dan yerinin ağarması ilə vacib olur. Çünki fitrə bayrama aiddir. Beləliklə, oruc tutmağın qadağan edildiyi bir gündə, fitrə ilə yoxsul müsəlmanların sevinclə bayrama iştirakları əsas məqsəddir.

Fitrə Ramazan bayramından bir və ya iki gün əvvəl ilə bayram namazı arasında verilir. Beləcə, yoxsullar bununla bayram namazından çıxmadan əvvəl ehtiyaclarını aradan qaldırmış olurlar. Bununla birlikdə fitrə Ramazan ayı başladıqdan sonra, hətta Ramazan ayı başlamadan da verilə bilər. Bayram günündən sonraya qalarsa, öhdəliyində qalar və ilk fürsətdə verilməlidir.

Fəqehlər fitrənin bayram günü dan yeri ağardıqdan sonra və namaz qılınmadan əvvəl verilməsinin müstəhəb olduğunda həmrəydirlər. Əsaslandıqları dəlil Abdullah ibn Ömərdən (r. ənhüma) rəvayət edilən bu hədisdir: *"Hz. Peyğəmbər fitrənin insanlar bayram namazına getməzdən əvvəl verilməsini əmr etmişdir"*.

Ramazan bayramının ilk günü səhər açılmadan vəfat edən və ya yoxsullaşan, yaxud səhər tezdən dünyaya gələn və ya İslamiyyəti qəbul edən biri üçün fitrə vermək vacib deyil. Ancaq səhər açıldıqdan sonra ölən varlı bir müsəlmana vacib olar. Vəsiyyət etmişsə, mirasın üçdə birindən verilir.

Bir üzr səbəbi ilə oruc tuta bilməyən müsəlman da fitrədən məsuldur. Xəstə, yolçu və çox yaşlı insanlar kimi.

Nisaba malik olan bir müsəlman həm özü, həm də yoxsul olan ruhi xəstə və ya kiçik uşaqları və qulluqçusu üçün fitrə verməlidir.

Hənəfilərdən başqa üç məzhəb imamına görə, fitrə Ramazan ayının son axşamı günəşin batmasından etibarən vacib olur. Bayramdan sonraya təxirə salınması caiz deyil. Ancaq üzrlü olması istisnadır. Bununla birlikdə təxirə salma fitrə verməyi öhdəlikdən götürməz və qəzası vacibdir.

3. Fitrə verilən yerlər

Fitrə verilən yerlər baxımından hər cəhətdən zəkat kimidir. Fitrə niyyət edilərək fağırlara təmlik (mülkiyyətə keçirmək) surəti ilə verilir, mübah etmə tərzində fitrə olmaz. Niyyət fitrəni ayırarkən və ya verərkən edilə bilər. Ancaq fağıra verərkən bunun fitrə olduğunu deməyə ehtiyac yoxdur.

Heç kim fitrəsini yoldaşına, üsul və fürusuna yəni ana və ya atasına, uşaq və nəvələrinə verə bilməz.

Hər bir kəs fitrəsini bir və ya bir neçə yoxsula verə bilər. Birdən çox kəslər də fitrələrini bir neçə yoxsula və ya bir yoxsula verə bilərlər. Ancaq bir fikrə görə, birdən çox yosula verilə bilməz. Bununla birlikdə fitrələrin ayrı-ayrı verilməsi məqsədəuyğundur.

Fitrə məsul şəxsin olduğu yerdəki yoxsullara verilməlidir. Başqa yerlərə göndərilməsi məkruhdur.

Fitrə üçün hədislərdə dörd əsas qida məhsulunun müyyən edilməsi, bu köməkləşmənin hər dövr və bölgədə tətbiq edilməsini asanlaşdırmışdır. Çünki bundan məqsəd yoxsulun bir günlük ehtiyacını qarşılamaqdır. O da bu qida məhsulları ilə və ya bunları satın alacaq qədər pulla gerçəkləşir. Əgər bunların yerinə müəyyən pul təsbit edilsəydi, bu dərəcədə real nəticə ortaya çıxmazdı. Çünki qida məhsullarının qiymətləri tez-tez dəyişdiyi üçün bu məbləğ ilə yoxsulun bu miqdarda qida məhsulu alması mümkün olmaya bilər və məqsəd də reallaşmazdı.

Fitrə mal olaraq deyil, pulla verilərsə, günün şərtlərinə görə, məsul şəxslərin vəziyyəti nəzərə alınaraq müəyyən edilməsi məqsədəuyğundur. Bu, hədislərdə bildirilən qida məhsullarının orta hesabla dəyərlərini almaqla reallaşır.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Zəkatın əhəmiyyəti, hikmətləri və faydaları haqqında məlumat verin.
2. Zəkat kimlərə fərzdir?
3. Zəkatı verilən malda tələb olunan şərtlər hansılardır?
4. Qızıl və gümüşdəki nisab miqdarını söyləyərək qızıl və gümüşdən olan əşyalardan zəkatın verilib-verilmədiyi haqqında məlumat verin.
5. Ticarət mallarının zəkatı hesablanarkən nələr əsas alınır?
6. İnək və camışların, qoyun və keçilərin zəkat miqdarları haqqında məlumat verin.
7. Əkin məhsullarından nə qədər zəkat verilməli olduğunu öyrənərək dəftərinizə yazın.
8. Zəkata daxil olmayan mallar hansılardır?
9. Zəkat verilənlər haqqında məlumat verin.
10. Zəkat verilməyənlər haqqında məlumat verin.
11. Sədəqənin tərifini deyib növləri haqqında məlumat verin.
12. Sədəqənin əhəmiyyəti və fəziləti haqqında məlumat verin. Bu mövzuda üç ayeyi-kərimə və üç hədisi-şərif əzbərləyin.
13. Fitrə sədəqəsinin tərifini deyin.
14. Fitrə sədəqəsinin nisabını öyrənin. Nələrdən verilə biləcəyini miqdarları ilə bildirin.
15. Fitrənin nə vaxt yerinə yetirildiyi barədə məlumat verin.
16. İnfaq etməyin əhəmiyyətini izah edən bir hekayə tapıb sinifdə danışın.

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) Yerin altından çıxarılan qızıl, gümüş, mis, qalay və dəmir... kimi atəşdə əridilə bilən rikazdan 1/5 nisbətində zəkat alınır.

2. ( ) Bir şəxs verdiyi borcdan nisab miqdarı qədərini alsa, verdiyi bütün borcu almayınca bunun zəkatını vermək məcburiyyətində deyil.

3. ( ) Balın zəkatı qazancın qırxda birindən verilməlidir.

4. ( ) Heyvanların zəkatında balalar da zəkat hesabına daxil edilir.

5. ( ) Fitrə sədəqəsini yaxınında möhtac olan olduğu təqdirdə daha uzaqda olanlara vermək məkruhdur.

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(dinar, vəsq, rikaz, müəlləfeyi-qülub, nisab, dirhəm)

1. Dinin mallar üçün qoyduğu müəyyən ölçü və miqdara ..... deyilir.

2. Peyğəmbərimizin dövründə qızıl pul üçün ....., gümüş pul üçün ..... istifadə edilmiş, əkin məhsulları üçün 5 ..... zəkat nisabında minimal miqdar qəbul edilmişdir.

3. Zəkat verilən siniflərdən biri qəlbləri İslama isinişdirilmək istənilənlərdir, yəni ..... dur.

4. Yerin altına insanlar tərəfindən basdırılmış dəfinə və xəzinlərə ..... deyilir.

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Zəkatın səhih olması üçün mal mülkiyyətdə olmalıdır. Hansı hallar bunlardan biri deyil?

a. Ələ keçməmiş olsa belə, pulu ödənmiş mal zəkata daxildir

b. Zəkat fərz olduqdan sonra zəkatı verilmədən mal məhv olsa, malın zəkatı verilməlidir

c. Bir daha əlinə keçmə ehtimalı olmayan mallardan zəkat vermək lazım deyil

d. Mal insanın öz səlahiyyətində olmalıdır

2. Nisab miqdarı ilə bağlı aşağıdakı məlumatlardan hansı yalnışdır?

a. İnək və camış: 5 ədəd

b. Qızıl: 20 misqal

c. Qoyun və keçi: 40 ədəd

d. Gümüş: 200 dirhəm

3. Aşağıdakılardan hansı zəkat verilən səkkiz sinif arasında yer almır?

a. Miskinlər

b. Yoçular

c. Borclular

d. Yetimlər

4. Zəkat bəzi şəxslərə və yerlərə verilə bilməz. Aşağıda qeyd edilən yerlərdən hansına zəkat vermək olar?

a. Dolanışığını rahat təmin edən insanlara

b. Atası köməklik göstərməyən tələbəyə

c. Nəvələrimizə

d. Məktəb və məscidlərə

5. Zəkatın səhih olması üçün tələb olunan şərtlərdən deyil.

a. Niyyət

b. Təmlik

c. Keyfiyyət

d. Gizlilik

6. Heyvanların zəkatında hansı məlumat səhv qeyd olunub?

a. 40-120 qoyuna 1 qoyun

b. 5-9 dəvəyə 1 qoyun

c. 201-399 qoyuna 3 qoyun

d. 30-39 inəyə 2 inək

İPƏKYOLU NƏŞRİYYATI

7. Mədənlərin zəkatı haqqında hansı məlumat düzgün qeyd edilmişdir?

a. Mədəndə nisab miqdarı yoxdur və beşdə bir zəkat verilməlidir

b. Mədən nisab miqdarına çatdıqda onda bir zəkat düşür

c. Mədən nisab miqdarına çatdıqda iyirmidə bir zəkat düşür

d. Mədəndə nisab yoxdur və qırxda bir zəkat düşür

8. Zəhmətlə sulanan əkin məhsullarında hansı nisbətdə zəkat vermək lazımdır?

a. 1/5

b. 1/10

c. 1/20

d. 1/40

9. Verilən borcların zəkatı haqqında qeyd edilən məlumatlardan hansı səhvdir?

a. Ticarətlə bağlı olan borc geri alınan kimi bir illik zəkat verilməlidir

b. Orta dərəcədəki borc geri alınmadıqca zəkatını vermək vacib deyil

c. Mehri müəyyən olan qadın mehr alacağından zəkatını verməlidir

d. Borc verən kəs, əgər bir il keçmişsə, verdiyi borcu nisab miqdarı qədər geri aldıqda bir il əvvəlin zəkatını da verməlidir

10. Zəkat və fitrə sədəqəsi nə vaxt fərz buyurulmuşdur?

a. Hicri 1-ci ildə

b. Hicri 2-ci ildə

c. Hicri 3-cü ildə

d. Hicri 4-cü ildə

11. Bir müsəlman kimin fitrəsini vermək məcburiyyətində deyil?

a. Xidmətçisinin

b. Möhtac olan atasının

c. Arvadının

d. Evli uşağının

12. Fitrə sədəqəsi nə vaxt verildiyi təqdirdə məkruh olar?

a. Bayramdan bir gün əvvəl

b. Bayramdan iki gün əvvəl

c. Bayram namazından əvvəl

d. Bayram namazından sonra

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

XII BÖLMƏ

HƏCC VƏ ÜMRƏ

MÖVZULAR

A. HƏCCİN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI

B. HƏCCİN ŞƏRTLƏRİ

C. HƏCCİN NÖVLƏRİ

D. HƏCC VƏ ÜMRƏ İBADƏTİ İLƏ BAĞLI TERMİNLƏR

E. HƏCCİN FƏRZLƏRİ

F. HƏCCİN VACİBLƏRİ

G. HƏCCİN SÜNNƏLƏRİ

H. ÜMRƏ

İ. HƏCC VƏ ÜMRƏNİN YERİNƏ YETİRİLMƏ QAYDASI

J. HƏCC VƏ ÜMRƏ İLƏ BAĞLI DİGƏR MƏSƏLƏLƏR

İPOKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Həccin nə vaxt fərz buyurulduğunu müəllimlərinizdən soruşaraq öyrənin.
2. Ailənizdə həccə gedib gələn varsa, həccin yerinə yetirilməsi ilə bağlı onlardan məlumat alın.
3. Həcc ibadəti İslamdan əvvəl ilahi dinlərdə olubmu? Bu mövzunu dinlər tarixi ilə bağlı kitablardan araşdırın.
4. Kəbənin müsəlmanlar üçün əhəmiyyəti haqqındakı fikirlərinizi bildirin.
5. Həccin dünya müsəlmanları baxımından əhəmiyyətini müzakirə edin.
6. Həcc ibadətini yerinə yetirənlərin həyat tərzlərində hansı fərqliliklər müşahidə edirsiniz?
7. “Ehram, şövt, təvaf, səy” terminlərinin mənalarını bir elmihal kitabından öyrənin.
8. Həccin fəziləti haqqında bir neçə hədisi-şərif tapıb dəftərinizə yazın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. HƏCCİN TƏRİFİ, ƏHƏMİYYƏTİ VƏ FAYDALARI

İslamın beş əsas şərtindən biri olan həcc həm fiziki, həm də maddi bir ibadət olub şərtlərini daşıyan hər bir müsəlmanın ömründə bir dəfə yerinə yetirməli olduğu mühüm bir ibadətdir.

Həcc kəlməsi "ehtirama layiq olan yerləri ziyarət etmək" mənasına gəlir. Fiqh termini kimi isə **həcc** "ehrama girmək surətilə Ərəfatda vəqfədə dayanmaq, Səfa və Mərvə arasında səy etmək və Kəbəni üsuluna müvafiq təvaf edərək ziyarət etməkdir".

Həcc ibadətini yerinə yetirənə "hacı (cəmi hüccac)" deyilir. Ümrə edənə "mütəmir" deyilir.

1. Həccin dinimizdəki yeri

Həcc hicrətin doqquzuncu ilində fərz buyurulmuşdur. Həccin fərz olması Quran, Sünnə və İcma ilə sabitdir. Uca Allah "Ali-İmran" surəsinin 97-ci ayəsində belə buyurur: **"Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna** (ərzaq, minik, və sağlamlıq baxımından) **gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu** (bu borcu) **inkar edərsə** (özünə zülm etmiş olar)**. Əlbəttə, Allah aləmlərə heç kəsə möhtac deyil!"** Hz. Peyğəmbərimizin (s.ə.s) bu mövzuda çoxlu sayda hədisləri var. Bunlardan birisi belədir: *"Ey insanlar, Allah sizə həcci fərz buyurmuşdur. Elə isə həcc edin!"* (Müslim, Həcc, 224). Hz. Peyğəmbərimiz (s.ə.s) həccin İslamın şərtlərindən olduğunu bu hədisində bildirmişdir: *"İslam beş əsas üzərinə qurulmuşdur: Allahın varlığına və təkliyinə, Mühəmmədin Onun qulu və elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və gücü çatan üçün həccə getmək"* (Buxari, İman, 19-20).

Həcc lazımi şərtləri daşıyan hər bir müsəlmanın yerinə yetirməli olduğu bir ibadətdir. Mühüm bir üzrü olmayanın özünün yerinə başqasını göndərməsi də caiz deyil. Əgər həccə gedə bilməyəcək bir vəziyyətdə olarsa, başqasını vəkil olaraq göndərə bilər.

Həcc vəzifəsi fərz olan bir müsəlmanın gecikdirmədən yerinə yetirməli olduğu uca bir vəzifədir. Bir müsəlman fərz olmadığı bir vaxtda həccə gedib bu ibadəti yerinə yetirərsə, bu öhdəlik ondan götürülmüş olar. Bundan sonra təkrarən həcc etməsinə ehtiyac yoxdur.

Həcc ibadəti fərz olan bir qadın yanında məhrəmi ilə birlikdə həccə getmək məcburiyyətindədir və əri onun həccə getməsinə mane ola bilməz. Ancaq fərz olmadığı halda nafilə həcc etmək istəyən qadın ərindən icazə almadan həccə gedə bilməz.



BİLGİ QUTUSU

Həcc ibadətinə qarşı səhlənkarlıq etməməliyik. Əks təqdirdə, Hz. Peyğəmbərin (s.ə.s) tənbehi müdhiş və qorxuducudur: *"Bir kəs yemək, içmək və minik xərclərinə malik olub Allahın evinə getmək imkanı olduğu halda həcc etməzsə, onun yəhudi və ya xristian kimi ölməsinə heç bir əngəl yoxdur"* (Tirmizi, Həcc, 3).

II. Həccin hikmət və faydaları

Həcc içimizdəki nəfs deyilən düşməni və şeytani meyilləri daşlaya bilməyimizi, sinfi fərqlilikləri yox edib kəfənə bürünərək Rəbbimizə yönəlməyimizi təmin edir. Qəbul olunmuş bir həcc insanın cənnətə girməsinə vasitəçi olur. Rəsulullah (s.ə.s) belə buyurur: *"Həcci-məbururun (qəbul olunmuş həccin) qarşılığı cənnətdən başqa bir şey ola bilməz"* (Buxari, Ümrə, 1). Əbu Hüreyrədən rəvayət edilən bir hədisi-şərifdə də həccin əhəmiyyətini görmək olar: "Allahın elçisinə hansı əməlin daha fəzilətli olduğu

İPƏKYOLU NƏŞRİYYATI

soruşulduqda belə buyurdu: *"Allah və Rəsuluna iman!"* Sonra hansı?-deyə soruşuldu. O: *"Allah yolunda cihad!"* - buyurdu. Sonrakı suala isə: *"Məbrur həcc!"* - buyuraraq cavab verdi" (Buxari, Həcc, 4, 34, 102).

Məbrur bir həcc üçün ən azı aşağıdakı beş şərtə riayət olunmalıdır:

a. Həccə ixlasla, yəni sırf Allah üçün getmək. Sanki Allahın ziyarətinə gedirmiş kimi Ondan başqa hər şeyi bir kənara qoymaq,

b. Halal pulla həccə getmək,

c. Bütün qul haqlarından təmizlənərək həccə getmək. Həmçinin namaz və oruc kimi Allaha qarşı olan borcları da yerinə yetirdikdən sonra həccə getmək,

d. Həcc boyu boş və çirkin söz, niyyət və davranışlardan, dava-dalaşdan uzaq durmaq,

e. Həcci digər zahiri və batini şərtlərinə uyğun tamamlamaq. Həcc əsnasında tövbə, Allaha yönəlmə, dua və istiğfar ilə, saleh əməllərlə həcci yerinə yetirmək, həcdən sonra da bu əhvali-ruhiyyənin davamı üçün Allah-Təalaya söz vermək lazımdır.

Allah rizası üçün qayda-qanunlarına tabe olaraq yerinə yetirilən həcc möminlərin günahlardan təmizlənməsinə vasitəçi olur. Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Kim Allah üçün həcc edər və həcc əsnasında pis sözlərdən və Allaha qarşı gəlməkdən çəkinərsə, anasının onu dünyaya gətirdiyi kimi günahlardan təmizlənmiş halda həcdən qayıdar"* (Buxari, Həcc, 4).

Həcc müsəlmanları bir yerə cəm edərək iman qardaşlığı təsis edir. Dünyanın müxtəlif ölkələrində yaşayan müsəlmanların bir-biri ilə tanış olmalarına, bir-birinin problemlərini həll etmələrinə vasitəçi olur.

Həcdə geyilən ehram insana təfəkküri-mövt (ölümü düşünmə) əhvali-ruhiyyəsi verir. Həcc əsnasında sosial mövqeyindən asılı olmayaraq bütün müsəlmanların eyni qiyafədə olmaları və xüsusilə Ərəfatda vəqfə anındakı izdiham və qələbəlik insanlara məhşər gününü xatırladır.

Ehram insanı ruhani həyata yönləndirir. İnsanın hər bir halda səbirli olmasını və möminlərə qəzəblənməməsini aşılayır. Yolçuluq və həcc zamanı məruz qalınan məşəqqətlər və məhrumiyyətlər insanlara nemətlərin qədr-qiymətini bilməyi və bunlara şükür etməyi öyrədir. Ehram qadağaları insanı heyvanlara, bitkilərə və möhtac insanlara qarşı daha şəfqətli hala gətirir və həssas bir ruha sahib olmasını təmin edir.

Həcc çox həssas bir ibadətdir. Çünki həcdə halal olan çoxlu sayda şeylər qadağan olur. Ona görə də həcc yolçuluğuna mənəvi hazırlıqdan sonra çıxılmalıdır. Bir müsəlman həccə niyyət etdiyi anda şeytan onun arxasına düşər. Bu səbəbdən həccə gedənlər birinci növbədə "səbir" silahı ilə silahlanmalıdırlar. Çünki həcc digər ibadətlərdən fərqli bir ibadətdir. Görünüşdə asan gəlir, lakin ən çətin ibadətlərdən biridir. Odur ki, niyyət cümləsindəki "Allahım, onu mənə asanlaşdır!" ifadəsi də orada öz yerini almışdır.

III. Həcc əməlləri ilə bağlı hikmətlər

Həcc məhşərin bir oxşarını yaşadaraq "Ölmədən əvvəl ölün!" sirrinin həqiqətinə vasitəçi olan bir ibadətdir.

Həcc Allahın mərhəmətinin təzahür və təcəlla etdiyi, dünya müsəlmanlarının cəmləşdiyi mübarək və möhtəşəm əhavali-ruhiyyənin canlandığı bir ibadətdir. Həccin yerinə yetirildiyi mübarək məkanlar ilahi nişanələrlə doludur.

İPƏKYOLU NƏŞRİYYATI

Məkkə ölkə, rəng, irq, qiyafə və s. məfhumların ortadan qalxıb İslam qardaşlığı altında bütün möminlərin bir millət olduğu həqiqətinin təzahür etdiyi bir məkandır.

Mədineyi-münəvvərə aləmlərə mərhəmət olaraq göndərilən peyğəmbərimizin və onun gözəl əshabələrinin yaşadıqları mübarək bir yerdir. Rəsulullahın (s.ə.s) nəfəs aldığı havada nəfəs almaq möminə dərin bir feyz və mənəvi ab-hava verir. Məscidi-nəbəvini, Peyğəmbərimizin qəbrini, şəhidlərin qəbirlərini ziyarət etmək insanlara əsri-səadəti xatırladır. Ürəklərdəki Peyğəmbər sevgisini gücləndirir və Sünnəyə daha çox tabe olmağa yönləndirir.

Kəbə Rəbbimizin Qurani-Kərimdə **"Səcəd et və yaxınlaş!"** (Ələq, 96/19) ifadəsi ilə yerinə yetirilməsini əmr etdiyi namaz ibadətinin istiqamətidir.

Həcəri-əsvəd salam verilib öpülən və Allaha qulluq və beyət sözünün verildiyi mübarək bir daşdır.

Ərəfat qəbirlərdən qiyamət günü qalxışı və dəstə-dəstə məhşər meydanında toplanışı xatırladır. Bütün qullar Allahın hüzurunda aciz, möhtac və ümidvar halda əfv gözləyəcəklər. Ürəklər və gözlər tövbə yaşları ilə islanar, Haqqa neçə-neçə səmimi dua və niyazlar yüksələr. Həyat dəftərlərində tər-təmiz səhifələr açılar və Uca Allaha ömrün bundan sonrakı hissəsində itaət üzrə yaşanılacağına dair sözlər verilər.

Müzdəlifə ürəkləri Rəbbin əzəmət, qüdrət, səltənət və ilahi təcallaları ilə yoğurub dünya və bütün mənfəətləri arxaya atma yeridir.

Mina Həzrət İbrahim və Həzrət İsmayılın təvəkkül məqamıdır.

Şeytan daşlama İblisin lənətlənməsi və qəlbin hər cür qəflətdən və vəsvəsədən azad Allaha yönəlməsidir.

Səfa və Mərvə təpələri su axtaran Həcər anamızı xatırlayaraq aciz bir varlıq olduğumuz hissi ilə Uca Allaha doğru qaçıb Ona sığınmaqdır.

Qurban Hz. İsmayılın təslim olmasını yaşayaraq var-dövlətdən, candan və nəfsani arzulardan təcrid edilərək Allaha təslim olmağı tərənnüm edir.

B. HƏCCİN ŞƏRTLƏRİ



1. Həccin fərz olmasının şərtləri

Müsəlman olmaq, ruhi xəstə olmamaq və həddi-büluğa çatmaq: yetkinlik yaşına çatmadan əvvəl bir şəxs həcc edərsə, fərz olan həcc onun öhdəliyindən götürülməz. Həddi-büluğa çatıb varlı olduqdan sonra yenə həccə getməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

Azad olmaq: kölə və əsirlərə həcc fərz deyil.

Varlı olub həccə getməyə gücün çatması: həcc yolçuluğu üçün lazımi yol puluna, özü və baxmaqla məsul olduğu şəxslərin həcc müddətində dolanışıqlarını qarşılayacaq qədər imkana sahib olmaq lazımdır.

İmam Şafei və İmam Məhəmməd irəlidə yerinə yetirməyə əzm göstərilməli və yerinə yetirmə imkanının əldən çıxması kimi bir qorxunun olmaması şərti ilə həccin təxir edilə biləcəyini bildirmişlər. Bununla yanaşı, bu alimlər də həcc ibadətinin tezliklə və ilk fürsətdə yerinə yetirilməsinin Sünnəyə uyğun və daha ehtiyatlı bir davranış olduğunu vurğulamışlar.

İPƏKYOLU NƏŞRİYYATI

2. Həccin yerinə yetirilməsinin şərtləri

Həccə şəxsən getmək imkanına sahib olmaq üçün aşağıdakı şərtlər olmalıdır:

Sağlam olmaq: görmək qabiliyyətini itirən, yatalaq, iflic və həcc yolçuluğuna dözə bilməyəcək qədər xəstə və yaşlı olanların şəxsən həcc etmələri fərz deyil.

Yol təhlükəsizliyinin olması: Məkkədə yoluxucu bir xəstəliyin olması həccin həmin il fərz olmasını aradan qaldıran səbəblərdəndir.

Həccə getməyə hər hansı bir maneənin olmaması: həbsdə olan məhkumlara, girov götürülən və həccə getməsinə əngəl olunanlara bu vəziyyətləri davam etdiyi müddətdə həcc fərz deyil.

Qadının yanında əri və ya məhrəmi olması: həcc və ya ümrəyə gedən qadının yanında əri, atası, babası, qardaşı, oğlu, nəvəsi, əmisi, dayısı kimi nikahları düşməyən kəslərdən hər hansı birisi olmalıdır. Şafei məzhəbinə görə isə, yanında əri və ya məhrəmi olmayan qadın etibarlı bir qadın qrupu ilə birlikdə yola çıxıb fərz olan həcci yerinə yetirə bilər.

Qadının iddə müddətinin qurtarmış olması: həccə gedən qadın ərindən boşanmış və ya əri ölmüş bir qadın isə, iddəsini qurtarmalıdır. İddə müddəti boşanan qadın üçün ən azı üç ay, əri ölən qadı üçün isə ən azı dörd ay on gündür.

Yuxarıdakı şərtləri daşıyanlar həcc ibadətini şəxsən yerinə yetirməlidirlər. Əgər bu şərtlərdən hər hansı birisi gerçəkləşməzsə, vəkil göndərməli və ya vəsiyyət etməlidirlər.

İPƏKYOLU NƏŞRİYYATI

MÜZAKİRƏ EDİN

Əbu Hənifə və Əbu Yusif ilə maliki və hənbəlilərə görə, həcc ibadəti "fövri"dir, yəni həcci yerinə yetirməklə məsul olanlar lazımi şərtlərə sahib olduqları ilk ildə həccə getməlidirlər. Peyğəmbərimiz (s.ə.s): "Həcci yerinə yetirməyə tələsin. Çünki sizdən heç kəs ölümün ona nə vaxt gələcəyini bilə bilməz", – buyurmuşdur (Əbu Davud, Mənasik, 5).

Gənc ikən və yaşlılıqda həccə getməyin yaxşı tərəflərini sinifdə müzakirə edin.

İPƏKYOLU NƏŞRİYYATI

3. Həccin səhih olmasının şərtləri

Həccin etibarlı ola bilməsi üçün üç şərt olmalıdır:

Ehram: həccin etibarlı olması üçün həcc niyyəti ilə ehrama girilməli və ehramlı olduğu müddətdə ehram qaydalarına müvafiq hərəkət edilməlidir.

Xüsusi vaxt: həcc əməlləri həcc ayları içində yerinə yetirilməlidir. Qurani-Kərimdə belə buyurulur: **"Həcc bilinən aylardadır"** (Bəqərə, 2/197). Belə ki, "ehrama girmə", "Ərəfat vəqfəsi", "ziyarət təvafı", "səy" və "şeytan daşlama" kimi həcc əməlləri müəyyən edilən günlərdə, yəni ərəfə və bayram günlərində yerinə yetirilməlidir.

Xüsusi məkan: vəqfə Ərəfatın hüdudlarında və təvaf isə Kəbənin ətrafında yerinə yetirilməlidir.

Bu şərtlərdən hər hansı birinin əskikliyi nəticəsində edilən həcc ibadəti etibarlı olmaz.



C. HƏCCİN NÖVLƏRİ

1. Hökmləri baxımından həccin növləri

a. Fərz olan həcc: varlı olub şərtlərini daşıyan hər bir müsəlmanın ömründə bir dəfə yerinə yetirməli olduğu həcdir.

b. Vacib olan həcc: başlanmış olduğu halda yarıda qoyulan nafilə həccin qəzası vacibdir. Bundan başqa, hər hansı bir səbəbdən həcc etməyi nəzir edən bir şəxsin bu əhdini yerinə yetirməsi də vacibdir.



c. Nafilə olan həcc: fərz olan həcci yerinə yetirənlər və ya həddi-büluğa çatmayan uşaqların Allahın rizası üçün etdikləri həcc nafilə həcdir.

2. Yerinə yetirilməsi baxımından həccin növləri

Həcc yerinə yetirilməsi baxımından ifrad, təmättü və qiran olmaqla üç növdür:

a. İfrad həcci: yalnız həcc niyyəti ilə ehrama girib ümrə etmədən tamamlanan fərz, vacib və ya nafilə həcdir. Bu həcc üçün ehrama girərkən yalnız həccə niyyət edilir.

b. Təmättü həcci: həcc mövsümündə əvvəlcə ümrə üçün ehrama girib ümrə etdikdən sonra, həmin mövsümdə, yəni evə qayıtmadan təkrarən ehrama girib yerinə yetirilən fərz həcdir.

c. Qiran həcci: həcc mövsümündə bir ehram və bir niyyətlə əvvəlcə ümrə, sonra da həcc ibadətini ehramdan çıxmadan birlikdə yerinə yetirməkdir.

D. HƏCC VƏ ÜMRƏ İBADƏTİ İLƏ BAĞLI TERMİNLƏR

AFAQİ: miqat hüdudlarının çölündən gələn hacılar, yəni uzaqlardan gələnlər.

ƏRƏFAT: Məkkeyi-mükərrəmənin 25 km. şimal-şərq tərəfdə vəqfənin yerinə yetirildiyi yer.

İPƏKYOLU NƏŞRİYYATI

HARAM BÖLGƏSİ: haram Məkkə ilə ətrafında bitkiləri qoparılmamaq və ov heyvanlarına zərər verilməmək üzrə müəyyən hüdudlar içindəki yalnız müsəlmanların girməsinə icazə verilən təhlükəsiz bölgədir. Haram bölgələrinin hüdudları Hz. Cəbrayılın (ə.s) rəhbərliyi ilə Hz. Peyğəmbər (s.ə.s) tərəfindən müəyyən edilmişdir.

HƏRVƏLƏ: Səfa və Mərvə arasında səy edərkən kişilərin yaşıl direklər arasında sürətli və göstərişli yerimələri, yüngül qaçmalarıdır.

HİLL BÖLGƏSİ: haram bölgəsi ilə miqat yerləri arasındakı yerlərdir.

EHRAM: həcc və ya ümrə etməyə niyyət edənin digər vaxtlarda mübah olan bəzi əməlləri müəyyən müddətə qədər, yəni həcc və ya ümrənin rüknlərini tamamlayana qədər özünə haram etməsi mənasına gəlir.

İZAR: ehrama girən kişilərin beldən aşağı hissəsinə doladığı örtüdür.

MƏNASİK: həclə bağlı əməllər və ibadətlər. Həcc və ümrədə yerinə yetirilməli olan işlərdən hər birinə, edilən ibadətlərə "nüsük" deyilir.

MƏSCİDİ-HARAM: Beytüllahın (Kəbənin) ətrafındakı məsciddir. Məscidi-haram yer üzündəki məscidlərin ən fəzilətlisidir. *"Məscidi-haramda qılınan bir namaz digər məscidlərdə qılınan yüz min namazdan daha fəzilətlidir"* (İbn Macə, hədis no. 1406).

MİQAT BÖLGƏSİ: ehram qadağalarının başladığı, Uca Allahın hüzuruna çıxmaq üçün hazırlıqların görüldüyü ilk yerdir. Hz. Peyğəmbər tərəfindən müəyyən edilmiş Məkkəyə gələnlərin ehramsız keçmədikləri beş nöqtədir.

1. Zülhüleyfə: Məkkəyə Mədinə tərəfdən gələnlərin miqatıdır. Mədinədən 10 km. Məkkədən isə 430 km. uzaqlıqdadır. Məkkəyə ən uzaq olan miqatdır. Hz. Peyğəmbərimiz (s.ə.s) vida həcci üçün bu miqatda ehrama girmişdir.

2. Cühfə: Misir və Suriya istiqamətindən gələnlərin miqatıdır. Məkkədən 187 km. uzaqlıqdadır. Süveyş tərəfindən qırmızı dəniz yolu ilə gələnlər Cühfə yaxınlığında Rabiğ tərəfdə ehrama girirlər.

3. Zatüirq: İraq tərəfdən gələnlərin miqatıdır. Məkkədən 94 km. uzaqlıqdadır.

4. Qərnülmənazil: Nəcd və Küveyt istiqamətindən gələnlərin miqatıdır. Məkkədən 96 km. uzaqlıqdadır.

5. Yələmləm: Yəmən, Hindistan tərəfdən gələnlərin miqatıdır. Məkkədən 54 km. uzaqlıqdadır.

Ticarət niyyəti ilə miqatlardan keçən, lakin Məkkəyə baş çəkməyə niyyət etməyənin ehrama girməsi vacib deyil.

MİNA: Məkkə ilə Müzdəlifə arasında Haramın hüdudlarında olan bir bölgədir. Hacıların cəmrələri daşladıqları və qurban kəsdikləri yerdir.

MÜHƏSSƏR VADİSİ: Mina ilə Müzdəlifəni bir-birindən ayıran və hacıların Minaya gedərkən dayanmalı olduqları yerdir. Bura əshabi-filin (Kəbəni yıxmağa gələn Yəmən valisi Əbrəhənin ordusunun) məhv edildiyi yerdir.

MÜLTƏZƏM: Kəbənin qapısı ilə həcəri-əsvəd arasında qalan Kəbə divarındakı bir neçə daşdır.

MÜZDƏLİFƏ: Haramın hüdudlarında Ərəfat ilə Mina arasında qalan yerdir. Qurban bayramının birinci günü imsak vaxtından günəşin çıxmasına qədər Müzdəlifədə bir müddət olmaq və vəqfə etmək vacibdir.

RƏMƏL: kişilərin təvafın ilk üç şövtündə qısa addımlarla çiyinlərini silkələyərək, qaçaraq göstərişli yerimələridir. Rəməl yalnız arxasından səy edilən təvaflarda Sünnədir.

RİDA: ehrama girən kişilərin beldən yuxarı hissəsini örtdüyü tikişsiz örtüdür.

İPƏKYOLU NƏŞRİYYATI

RÜKNİ-YƏMANİ: Kəbənin Yəmən tərəfində olan şimal tərəfdəki küncüdür. Bura da həcəri-əsvəd kimi salam verilir.

SAÇLARI QIRXDIRMAQ VƏ YA QISALTMAQ: ehramdan çıxmaq üçün əqəbə cəmrəsinə daş atdıqdan sonra saçları qırxdırmaq və ya qısaltmaq həcc və ümrənin vaciblərindəndir. Həcdə saçları qırxdırmağın və ya qısaltmağın vaxtı qurban kəsmə günləridir.

Minada əvvəlcə şeytanı daşlama, sonra qurban kəsmə, daha sonra da saç qırxdırılıb (qısaldıb) ehramdan çıxma vəzifələrinin sıra ilə yerinə yetirilməsi vacibdir.

SƏY: Səfa ilə Mərvə təpələri arasında Səfadan Mərvəyə dörd dəfə gediş, Mərvədən Səfaya da üç dəfə qayıdış olmaqla yeddi şövt etməkdir. Həccin və ümrənin vaciblərindəndir.

ŞÖVT: təvafda həcəri-əsvədin tuşundan başlayıb Kəbənin ətrafında dönərək təkrar eyni yerə gəlməkdir. Səydə isə Səfadan Mərvəyə, yaxud Mərvədən Səfaya bir dəfə gedilir. Hər təvaf və səy yeddi şövtdən ibarətdir.

ŞEYTAN DAŞLAMAQ: şeytan daşlmaq bayram günlərində Minada olan kiçik cəmrə, orta cəmrə və əqəbə cəmrəsi adı verilən yerlərə kiçik daşları atmaqdır.

Bayramın birinci günü yalnız əqəbə cəmrəsinə daş atılır. Bu müddət bayramın ikinci günü imsak vaxtına qədər davam edər. İlk daşın atılması ilə təlbiyə kəsilər və bundan sonra artıq təlbiyə edilməz. Əqəbə cəmrəsinə daş atıldıqdan sonra taraş olunur və ehramdan çıxılır.

Daş atmağın vaxtı bayramın dörd günüdür. Bayramın ikinci və üçüncü günləri cəmrələrin üçü də daşlanır. Bayramın ikinci və üçüncü günləri daşlama vaxtı günəşin zenit nöqtəsinə gəlməsindən ertəsi gün imsak vaxtına qədər olan müddətdir. Bayramın dördüncü günü günəşin batması ilə daş atma vaxtı sona çatır.

Daşları cəmrələrə əl ilə hamısını birdən yox, ayrı-ayrı atmaq lazımdır. Gücü çatanın daşları müəyyən vaxt ərzində şəxsən özü atmalıdır. Yeddi daşı dalbadal atmaq və hər bir daşı atarkən "Bismillah! Allahu əkbər!" demək, bayramın ikinci və üçüncü günlərində əvvəlcə kiçik, sonra orta, sonra da əqəbə cəmrələrinə sıra ilə daş atmaq və atılan daşların kiçik olması Sünnədir.

TƏVAF: Kəbənin ətrafında həcəri-əsvəddən başlayıb Kəbəni sol tərəfə alaraq yeddi dəfə dönməkdir.

QÜDUM TƏVAFI: Məkkeyi-mükərrəməyə çatan kimi edilən ilk təvafdır. Afaqilər, yəni uzaqdan gələnlər üçün Sünnədir.

TƏTƏVVÜ TƏVAFI: Məkkeyi-mükərrəmədə olanların zaman-zaman etdikləri nafilə təvafdır.

ÜMRƏ TƏVAFI: ümrəyə niyyət edənin etdiyi təvafdır.

VİDA TƏVAFI: bunun digər adı sədr təvafıdır. Həcc əsnasında cəmrələrin daşlanması qurtardıqdan sonra Məkkədən çıxmadan əvvəl afaqilər, yəni uzaqdan gələnlər tərəfindən yerinə yetirilməli olan təvafdır. Həcc vəzifələri bununla sona çatar. Miqat hüdudlarında Məkkə və haram bölgəsində oturanlar ilə, sadəcə, ümrə edənlərə bu təvaf vacib deyil. Vida təvafı etmədən aybaşı olan və təmizlənmədən Məkkəni tərk edən qadınlar üçün də vida təvafına dair məsuliyyət qalmaz. Ziyarət təvafından sonra edilən hər bir təvaf vida təvafı sayılır.

İFADA TƏVAFI (ZİYARƏT TƏVAFI): Ərəfatdan düşdükdən sonra qurban bayramı günlərində edilən təvafdır. Həccin rüknü olan təvaf budur. Ehramdan çıxıb, yuyunub təmizləndikdən sonra edilməsi daha fəzilətlidir.

TƏLBİYƏ: həcc əsnasında bir topluluqla qarşılaşıldığı, hündür bir yerə çıxıldığı, bir vadiyə düşüldüyü, yuxudan oyanıldığı vaxtlar və təhəccüd vaxtında tez-tez oxunan təlbiyə duası belədir:

لَبَّيْكَ أَللَّهُمَّ لَبَّيْكَ لَبَّيْكَ لاشَرِيكَ لَكَ لَبَّيْكَ إِنَّ الْحَمْدَ والنِّعْمَةَ لَكَ وَالْمُلْكَ لاشَرِيكَ لَكَ

İPƏKYOLU NƏŞRİYYATI

"Ləbbeyk Allahümmə ləbbeyk. Ləbbeykə lə şərikə ləkə ləbbeyk. İnnəl-hamdə vən-nimətə ləkə vəl-mülkə lə şərikə lək."

Mənası: *"Dəvətinə görə sözüm və özümlə gəldim. Ey Allahım! Əmrinin başım üstündə yeri var. Dəvətinə görə sözüm və özümlə gəldim. Ey heç bir şəriki olmayan! Əmrinin başım üstündə yeri var. Həmd Sənin, nemət Sənin, mülk də Sənindir. Sənin heç bir şərikin yoxdur"*.

Ehram geyilib iki rükət namaz qıldıqdan sonra təvafa başlayana qədər təlbiyə duası oxunur.

TƏRVİYƏ GÜNÜ: zülhiccənin səkkizinci günü. Həmin gün Minaya çıxmaq və gecəni orada keçirmək Sünnədir.

ÜMRƏ: ilin hər hansı bir günündə ehrama girilərək təvaf və səy etdikdən sonra saçları qırxdırmaq və ya qısaltmaqla yerinə yetirilən ibadətdir.

ÜRƏNƏ VADİSİ: Ərəfatda bir vadinin adıdır. Ancaq Ərəfat vəqfəsi burada edilmir.

VƏQFƏ: ərəfə günü Ərəfatda, bayram gecəsi də gecə yarısından sonra Müzdəlifədə olmaq, buralarda təlbiyə, oxumaq dua etmək, təsbeh, təkbir kimi zikrlərlə, istiğfar və dualarla, təfəkkür və niyazlarla ibadət etmək həccin ən mühüm vəzifələri arasındadır.

E. HƏCCİN FƏRZLƏRİ

HƏCCİN FƏRZLƏRİ

- EHRAM
- ƏRƏFATDA VƏQFƏ
- ZİYARƏT TƏVAFI

I. Ehram

Ehram həccin şərtidir. Ehram deyəndə ağla gələn ilk şey ağ tikişsiz paltar olsa belə, **ehram** həccə və ümrəyə getməyə qərar verən şəxsin normal vəziyyətdə halal olan-dırnaq tutmaq, taraş olmaq, cinsi əlaqədə olmaq, Məkkə və ətrafındakı bitkiləri qoparmaq, yaşıllığa zərər vermək, bəzi şeyləri özünə haram etməsidir.

Ehramın rüknləri

Hənəfi məzhəbində ehramın **niyyət** və **təlbiyə** olmaqla iki rüknü var. Bunlardan birini tərk edən ehrama girmiş olmur. Digər üç məzhəbə görə isə, ehrama girmək üçün yalnız niyyət kifayətdir.

Təlbiyə ibadətə başlama anını təmsil edən müəyyən sözlərin deyilməsindən ibarətdir. Təlbiyəni ehrama girərkən bir dəfə demək fərz, zaman-zaman bərkdən təkrarlamaq isə Sünnədir. Qadınlar həm təlbiyə, həm də digər dua, zikr və təsbehləri ucadan etməzlər.

Ümrə edənin xüsusi bir vaxtı olmadığına görə ümrə üçün hər vaxt ehrama girə bilər. Afaqilər, yəni uzaqdan gələnlər miqat hüdudlarından ehrama girərlər. Hava yolu ilə Ciddəyə gələnlər isə, gəldikləri istiqamətdəki miqatı keçmədən niyyət və təlbiyə edərək ehrama girərlər. Miqatilər həm həcc, həm də ümrə üçün Haram bölgəsinə girmədən olduqları Hill bölgəsində ehrama girərlər. Məkkəlilər həcc üçün Haram bölgəsinin hüdudlarında, ümrə üçün isə Tənim və ya Ərəfat kimi Haram bölgəsinin çölündəki bir yerdə ehrama girərlər. Həcc və ümrə edib ehramdan çıxan afaqilər və miqatilər Məkkəli kimi hərəkət edərlər.

İPƏKYOLU NƏŞRİYYATI

Ehramın vacibləri

1. Miqat hüdudunu ehramsız keçməmək. Haram bölgəsinə gedən afaqilər miqat hüdudunu ehramsız keçsələr, cəza (dəm) vacib olar.

2. Ehram qadağalarından uzaq durmaq. Aşağıda təfərrüatı ilə izah olunduğu kimi, ehrama girənin ehram müddətində davranışlarını həccin məna və məqsədinə də müvafiq olaraq nəzarət altında saxlaması və müəyyən qadağalara tabe olması labüddür.

Ehramın sünnələri

1. Ehrama girərkən qüsl və ya dəstəmaz almaq.
2. Ehrama girmədən əvvəl qoltuq altını və digər yerləri təmizləmək, dırnaq tutmaq və ətir sürtmək.
3. Ehrama girmədən əvvəl iki rükət namaz qılmaq.
4. Kişilərin izar və rida deyilən iki hissədən ibarət olan örtüyə bürünməsi.
5. Ehramlı olduğu müddətdə hər fürsətdə təlbiyə demək. Təlbiyəni hər dəfə deyəndə üç dəfə təkrarlamaq.
6. Təlbiyədən sonra salavatı-şərifə, salavatdan sonra dua etmək.

Ehramla əlaqədar olan qadağalar

Ehrama girənlərə ehramdan çıxana qədər qadağan olan hərəkətlər var. Bunlara "ehram qadağaları" deyilir. Ehram qadağaları ilə bağlı aşağıdakı halları sadalamaq olar:

1. Edilməsi günah olan və başqalarına zərər verən məsələlərlə bağlı qadağalar

a. Rəfəs: cinsi əlaqə və ümumiyyətlə, cinsi əlaqəyə aparan öpmə, şəhvətlə tutma kimi davranışlara yol vermək. Ehtirasi duyğuları təhrik edən sözlər sərf etmək.

b. Füsuq: günah sayılan hər hansı bir hərəkətə yol vermək.

c. Cidal: başqaları ilə münaqişə təhqir və dava-dalaş etmək.

Məbrur bir həcc edə bilmək üçün ehramlı ikən səbirli olmaq və qadağan olan bu kimi davranışlardan uzaq durmaq lazımdır.

2. Bədənlə bağlı qadağalar

a. Saç və ya saqqal qırxdırmaq, bığları düzəltmək.

b. Tükləri yolmaq və ya qoparmaq.

c. Dırnaq tutmaq.

d. Bəzənmə məqsədilə saç, saqqal və bığları boyamaq, qadınların kosmetik vasitələrdən istifadə etmələri.

3. Geyim və geyim əşyası ilə bağlı qadağalar

Geyimlə bağlı qadağalar yalnız kişilərə aiddir. Çünki qadınlar normal paltarlarını geyərlər, ehram müddətində yalnız üzlərini örtməzlər.

a. Tikişli paltar və alt paltarı kimi geyimlərdən istifadə etmək. Belə taxılan kəmərdə, çiyinə asılan çantada, ayaqlara geyilən üstü və topuqları açıq ləpikdə tikiş ola bilər. Örtülən ridanın uclarını bir-birinə bağlamaq və ya iynədən istifadə etmək cəza qurbanını lazım etməsə də məkruh hesab olunur.

b. Başı və üzü örtmək, başa təsək qoymaq və ya sarıq taxmaq.

c. Əlcək, corab və topuqları bağlayan ayaqqabı geymək.

İPƏKYOLU NƏŞRİYYATI

İmkan daxilində üstü açıq olan ayaqqabı geymək müstəhəbdir. Topuqları örtən ayaqqabı geymək isə qadağandır və cəza qurbanı lazım gələr.

4. Ov qadağası

Həm Haram bölgəsində, həm də çölündə əti yeyilən heyvan olub-olmamasında asılı olmayaraq hər cür ov, ovçuya ov göstərmək və ona kömək etmək, ov heyvanlarına zərər vermək qadağandır.

Dəniz heyvanlarının ovlanması isə qadağan olmamaqla yanaşı, toyuq və qoyun kimi ev heyvanlarının kəsilməsi də ehramlıya qadağan deyil.

5. Haram bölgəsi ilə bağlı qadağalar

Məkkə şəhəri və ətrafındakı Haram deyilən bölgədəki ov heyvanlarının ovlanması, bitkilərin kəsilməsi və ya qoparılması istər ehramlı, istərsə də ehramsız olsun hər kəs üçün qadağandır.

Ehramlıya qadağan olmayanlar

1. Yuyunmaq, qoxusuz sabundan istifadə etmək.
2. Ehram örtülərini dəyişdirmək və yumaq.
3. Dişləri fırçalamaq, sürmə çəkmək.
4. Qırılan dırnağı və zərər verən və ya narahatedici tükü qoparmaq.
5. Diş çəkdirmək, qan aldırmaq, iynə vurdurmaq, yara üstünə sarğı sarımaq.
6. Bilərzik, üzük və qol saatı taxmaq.
7. Kəmər taxmaq, çiyinə çanta taxmaq.
8. Üzü və başı örtmədən yorğan və odeal kimi bir örtü ilə örtünmək.
9. Palto, pencək kimi geyim əşyasını geymədən çiyinlərə salmaq.
10. Çətirdən istifadə etmək, kölgəlikdə oturmaq.
11. Balıq tutmaq.
12. Ehramsız şəxs tərəfindən ovlanan heyvanın ətindən yemək.
13. İlan, əqrəb, sıçan, milçək, birə, gənə kimi zərərli heyvan və həşəratlarla tutan it, canavar və qaplan kimi yırtıcı heyvanları öldürmək.

II. Ərəfatda vəqfə etmək

Həccin ən mühüm rüknü Ərəfat vəqfəsidir. Vəqfə ərəfə günü günorta ilə axşam vaxtı arasında Ərəfatda olmaq mənasına gəlir. Ərəfat vəqfəsinə ərəfə günü günəş batana qədər davam edilməsi vacibdir.

Ərəfat bölgəsinin Ürənə vadisi və Nəmirə məscidninin cənub-qərb hissəsindən başqa hər yerində vəqfə edilə bilər. Ərəfə günü zaval vaxtından Qurban bayramının birinci günü imsak vaxtına qədər Ərəfatda bir müddət dayanan kəs fərz olan vəqfəni yerinə yetirmiş sayılır. Ərəfə günü Ərəfatda qısa bir müddət də olsa olmayan kəs həccə çatmamış olur. Daha sonra yenidən həcc etməlidir. Ərəfatda vəqfə həccin ən mühüm rüknüdür.

Vəqfənin şərtləri

1. Həcc üçün ehrama girmiş olmaq.
2. Ərəfat vəqfəsini vaxtında yerinə yetirmək.
3. Ərəfat vəqfəsini Ərəfat bölgəsində etmək.

İPƏKYOLU NƏŞRİYYATI

Vəqfənin vacibləri



Ərəfatda vəqfənin bir ədəd vacibi var o da, zülhiccənin 9-cu günü günortadan sonra günəş batana qədərki müddətdə Ərəfatda olmaqdır. Hənəfi məzhəbinə görə, bir şəxs günəş batmadan oranı tərk edərsə, bir qoyun qurban etməsi vacib olar. Oturaraq və ya ayaq üstə duraraq, yatmış halda və ya ürəyi getmiş vəziyyətdə belə olsa vəqfə caiz olur.

Vəqfənin sünnələri

1. Ərəfə günü günəş çıxdıqdan sonra Minadan Ərəfata hərəkət etmək.

2. Zavaldan əvvəl Ərəfatda olmaq.

3. Zaval vaxtından sonra imkan olarsa, qüls etmək, əgər imkan olmazsa, Ərəfata çıxmadan qüsl etmək.

4. Ərəfatdakı Nəmirə Məscidində günorta namazından əvvəl imamın cümədə olduğu kimi iki xütbə oxuması,

5. Günorta və ilkindi namazını bir azan və iki iqamə ilə günorta vaxtında cəmi-təqdim edərək qılmaq.

6. Vəqfəyə namazdan sonra başlamaq.

7. Vəqfə əsnasında dəstəmazlı olmaq.

8. Oruclu olmamaq.

9. Vəqfəni imkan olarsa, Cəbəli-rəhmə deyilən təpənin yaxınında qibləyə çevrilərək etmək.

10. Vəqfə edərkən ayaq üstə olmaq.

11. Ərəfatda olduğu müddətdə təlbiyə, təkbir, təhlil, salavat və istiğfar etmək, Qurani-Kərim oxumaq və namaz qılmaq, özü, ana və atası ilə bütün möminlər üçün dua və istiğfar etmək.

III. Ziyarət təvafı (ifada təvafı) etmək

Kəbəni ziyarət edib ətrafında yeddi dəfə şövt etməyə, yəni Kəbənin ətrafında yeddi dəfə dönməyə təvaf deyilir. Təvafın yeddi şövtündən ilk dördü fərz, son üçü isə vacibdir.

Ziyarət təvafı Qurban bayramı günlərində Ərəfatda vəqfədən sonra Məscidi-harama gəldikdə edilir. Bu təvafa ifada, yəni fərz təvaf deyilir. Aybaşı olan qadınlar təmizlənəndən sonra bu təvafı edərlər. Bu təvafı üzr olmadan gecikdirmək caiz deyil və yerinə yetirilməyincə də həcc tamamlanmış olmur.

Təvafın vacibləri

1. Dəstəmazlı olmalıdır. Təvaf əsnasında dəstəmaz pozularsa, dəstəmaz alındıqdan sonra əskik qalan şövt tamamlana bilər.

2. Sətri-övrət, yəni ayıb yerlər örtülü olmalıdır. Sətri-övrət daim fərzdir. Təvafda vacib olmasının mənası budur ki, əgər buna əməl edilməzsə, cəza lazım gəlir. Övrət sayılan üzvlərin dörddə biri və ya daha çox hissəsi açılarsa, cəza lazım gələr, bundan azında isə cəza yoxdur.

İPƏKYOLU NƏŞRİYYATI

3. Təvaf edən Kəbəni sol tərəfinə alıb özü də Kəbənin sağında olaraq təvafını etməlidir.

4. Təvafa həcəri-əsvəd və ya onun tuşundan başlanılmalıdır.

5. Təvaf xətimin kənarından dolaşaraq edilməlidir. Çünki xətim deyilən hissə Kəbədən sayılır. Xətimin kənarından dolaşmadan edilən şövtlər təzədən edilmədiyi və ya əskik qalan hissə xətimin ətrafından dolaşaraq tamamlanmadığı müddətdə cəza lazım gəlir.

6. Fərz və vacib olan təvaflar yeddi şövtə tamamlanmalıdır.

7. Gücü çatanlar təvafı piyada etməlidirlər. Yaşlılıq, xəstəlik və ya şikəstlik səbəbilə piyada təvaf edə bilməyənlər əlil arabası ilə təvaf edə bilərlər.

8. Təvaf namazı qılınmalıdır. Belə ki, istər fərz, istər vacib, istərsə də nafilə olsun hər bir təvafdan sonra iki rükət təvaf namazı qılmaq vacibdir. Arada təvaf namazı qılmadan dalbadal təvaf etmək məkruhdur. Təvaf namazını "Məqamı-İbrahim"in arxasında qılmaq müstəhəbdir. Orada yer olmasa, məscidin içində uyğun olan bir yerdə qılına bilər. Haram bölgəsindən kənarda qılmaq isə məkruhdur. Ehram namazında olduğu kimi bu namazın da birinci rükətində "Kafirun", ikinci rükətində "İxlas" surələrininin oxunması müstəhəbdir. Təvaf üçün kərahət vaxtı yoxdur. Ancaq hənəfilərə görə, təvaf namazı fərz və vacib namazların qılınması məkruh olan üç vaxtdan başqa, sübh və ilkindi namazlarının fərzləri qılındıqdan sonra da qılınmaz. Şafei məzhəbində isə kərahət vatında tamamlanan təvafla bağlı təvaf namazı o anda qılına bilər.

Yuxarıda qeyd edilənlərdən ilk altısı yalnız hənəfilərə görə vacibdir. Digər üç məzhəbdə bunlar təvafın səhih olması üçün şərtlər olduğuna görə hər hansı birinin əskik olması nəticəsində təvaf səhih olmaz və yenidən edilməsi vacib olar. Son ikisi, yəni təvaf namazı və təvafın piyada edilməsi hənəfi və malikilərə görə vacib, şafei və hənbəlilərə görə isə Sünnədir.

Təvafın vaciblərindən biri üzrsüz təkr edilərsə, cəza lazım gələr, lakin təvaf səhih olar. Təvaf yenidən edilərsə, cəzaya ehtiyac qalmaz.

Təvafın sünnələri

1. Nəcasətdən təharət. Bədəndə, ehramda və ya paltarda namaza mane olan nəcasət olmamalıdır.

2. Təvafa başlayarkən Həcəri-əsvədə və ya onun tuşuna Rüknülyəmani yönündən gəlmək.

3. Təvafa başlayarkən və hər şövtün axırında həcəri-əsvədi istilam etmək sünnətdir. İstilam həcəri-əsvədi salamlamaq mənasına gəlir. İstilam üçün həcəri-əsvədə tərəf çevrilib namaza duran kimi əllər qulaqlara qədər qaldırılıb "Bismilləhi Allahu əkbər" deyilərən üstünə qoyular və əllərin arasından həcəri-əsvəd öpülər. Yaxınlaşmaq mümkün olmazsa, uzaqdan ovucların içi Kəbəyə çevrilərək əllər qulaqlara qədər qaldırılıb "Bismilləhi Allahu əkbər" deyilərək işarə ilə salamlanır və sağ əlin içi öpülür. Bu əsnada dayanıb gözləmədən yeriməyə davam edilməlidir. Təvafın hər şövtündə Rüknülyəmaninin də istilam edilməsi müstəhəbdir.

4. Ardınca səy edilən təvafların ilk üç şövtündə kişilər rəməl etməlidirlər. Rəməl təvafda qısa addımlarla qaçaraq və çiyinləri silkləyərək göstərişli və sürətli yeriməkdir. Rəməl yalnız sonunda səy edilən təvaflarda edilir. Qadınlar rəməl etməzlər.

5. Rəmənin edilməli olduğu təvaflarda kişilərin "iztiba" etməsi sünnətdir. İztiba ridanın, yəni ehramın vücudun beldən yuxarısını örtən hissəsinin bir ucunu sağ qolun altından keçirib sol çiynin üstünə salaraq sağ qolu və çiyni açıq qoymaqdır. Rəmənin edilməli olduğu təvafların bütün şövtlərində iztiba sünnədir. Təvaf qurtardıqdan sonra çiyin örtülür, təvaf namazı çiyin örtülmüş halda qılınır. Rəmənin edilməli olduğu təvaflardan başqa vaxtlarda isə iztiba məkruhdur.

6. Müvalat, yəni təvafın bütün şövtlərini fasilə vermədən dalbadal etmək. Təvaf əsnasında dəstəmazın pozulması və ya fərz namaz üçün iqamə oxunması kimi təvafa davam etməyə mane olan bir hal baş verərsə, təvaf olduğu yerdə tərk edilər, qalan hissəsi də sonra tamamlanar.

İPƏKYOLU NƏŞRİYYATI

7. Kişilər imkan daxilində Kəbəyə yaxın, qadınlar isə kişilərin arasına qarışıb sıxışmadan müəyyən məsafə qoyaraq təvaf etməlidirlər.

8. Təvafın Sünnələrinin üzrsüz tərk edilməsi məkruhdur. Sünnələrin tərk edilməsi nəticəsində hər hansı bir cəza vacib olmaz.

Təvafın edilmə qaydası

Təvafın növündən asılı olmayaraq ona niyyət edilərək Rüknülyəmani tərəfindən həcəri-əsvəd tuşuna gəlinər. Təkbir və təhlil ilə həcəri-əsvəd öpüldükdən və ya uzaqdan salamlandıqdan sonra dua oxunaraq təvafa başlanır.

Xətmin çölündən dolaşılaraq və hər şövtdə tuşuna gəlindikdə Rüknülyəmani və həcəri-əsvəd istilam edilərək yeddi şövt tamamlanar. Rüknüliraqi və Rüknüşşamidə istilam yoxdur. Təvaf tamamlandıqdan sonra imkan daxilində məqamı-İbrahimin arxasında, orada yer olmazsa, uyğun bir yerdə təvaf namazı qılınıb dua edilir.



Təvaf növləri

1. **Ümrə təvafı:** ilk dörd şövtü ümrənin rüknündən olan və ehramlı edilən təvaf olub yerinə yetirilməsi ümrə edənlər üçün fərzdir.

2. **Qüdum təvafı:** kənar ölkələrdən gələnlərin ehramlı yerinə yetirdikləri ilk təvafdır. Bunu etmək Sünnədir.

3. **İfada (ziyarət) təvafı:** Ərəfatdan qayıdandan sonra edilən və həccin rüknlərindən olan təvafdır.

4. **Vida təvafı:** Minada şeytan daşlandıqdan sonra Məkkəni tərk etmədən edilən son təvafdır. Başqa yerlərdən gələn afaqilərin bu təvafı etmələri məndubdur.

5. **Tətəvvü (nafilə) təvafı:** Məkkədə olan müsəlmanların zaman-zaman etdikləri təvafdır. Başqa yerlərdən gələnlər üçün bu təvafı etmək nafilə namaz qılmaqdan daha fəzilətlidir. Çünki onlar bu fürsəti həmişə tapmazlar.

İPƏKYOLU NƏŞRİYYATI

F. HƏCCİN VACİBLƏRİ



Əsli vaciblər: həcc ibadətində müstəqil olan vacib ibadətlər aşağıdakılardır:

1. Səy etmək

Səy lüğətdə "sürətli getmək, qaçmaq və cəhd etmək" kimi mənalara gəlir. Həcc və ümrə ilə əlaqədar bir termin olaraq isə səy "Kəbənin şərq tərəfində olan Səfa ilə Mərvə adında iki təpə arasında, Səfadan başlanıb Mərvədə qurtarmaq şərti ilə səy niyyəti ilə piyada yeddi dəfə gedib-gəlməyə" deyilir. Dörd dəfə getmək, üç dəfə gəlməklə səy tamamlanır. Bu iki təpə arasındakı məsafə təxminən 350 metrdir.

Səy təkcə həcc və ya ümrə üçün vacibdir. Nafilə, qüdum və ya vida təvaflarının səyi yoxdur. Odur ki, həcc və ya ümrə edən fərz və ya nafilə bir təvafdan sonra səy etməyə niyyət edərək, Səfa təpəsinə Kəbənin görüləcəyi yerə qədər çıxar. Kəbəyə tərəf dönərək əllər qaldırılar dua və niyaz edilər. Təkbir, təhlil, dua və salavatı-şərifə gətirilərək Məkkəyə tərəf gedilər. Mərvə təpəsində də Kəbənin görüləcəyi yerə qədər çıxılar. Kəbəyə tərəf dönərək təkbir, təhlil, salavati-şərifə oxunar və əllər qaldırılaraq dua edilər. Səyin yeddi şövtü bu şəkildə tamamlanar.

Hənəfilədən başqa digər üç məzhəbə görə, səy həccin bir rüknüdür. Quranda belə buyurulur: **"**(Ey möminlər!) **Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir** (ibadət nişanələrindəndir)**. Evi** (Kəbəni) **həcc və ya ümrə yolu ilə** (qaydası ilə) **ziyarət edən şəxsin bunları təvaf etməsində** (ətrafına dolanmasında) **heç bir günah yoxdur. Hər kəs** (vacibdən əlavə) **könüllü olaraq yaxşı bir iş görərsə, Allah** (onun etdiyi yaxşı işdən) **razı qalandır** *(əvəzini verəndir)***,** (onu) **biləndir"** (Bəqərə, 2/159). Hz. Peyğəmbər də belə buyurmuşdur: *"Şübhəsiz, Allah sizə səyi fərz buyurdu, səy edin"* (Buxari, Ənbiya, 4/142). Səyin əsli Hz. İsmayılın anası Həcərin su axtarmaq məqsədi ilə bu iki təpə arasında qaçmasını simvollaşdırma əsasına söykənir. Allahın təmiz və seçkin qulu olan Hz. Adəmin Səfada və Hz. Həvvanın da Mərvədə oturmasına görə təpələrə bu adların verildiyi nəql edilmişdir.

Səy ehrama girdikdən sonra edilməlidir. Çünki ehrama girmədən əvvəl həcc və ya ümrə mənasikindən heç bir şey edilməz.

Bununla yanaşı səyin ehramlı edilməsi şərt deyil. Elə buna görə də həcc üçün ehrama girən bir şəxs qurban bayramının birinci günü fəcri-sadiqdən əvvəl ehramdan çıxmadığı üçün, həcc səyini Ərəfə vəqfəsindən əvvəl etmək istəyərsə, nafilə bir təvafdan sonra ehramlı edə bilər. Ərəfatdan sonra dönüşü fərz təvafdan sonra səy etmək istəyərsə, ehramsız da edə bilər. Sünnəyə uyğun və daha fəzilətli olanı budur. Ümrə səyinin ehramlı olaraq edilməsi isə vacibdir.

Səy təkbaşına müstəqil bir ibadət olmadığına görə, səhih bir təvafdan sonra, ona bağlı olaraq edilə bilir.

Fərz təvafdan əvvəl edilən səyin, nafilə bir təvafın arxasından edilməsinin səbəbi budur.

Hənəfilərə görə, səyin yeddi şövtündən dördü rükn, üçü vacibdir. Digər üç məzhəbə görə isə, bütün şövtlər rükndür. Səy piyada Səfa təpəsindən başlayıb Mərvə təpəsində qurtarılmalı və yeddi şövt ilə Səfa ilə Mərvə təpələri arasındakı məsafəni tam əhatə etməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

2. Müzdəlifə vəqfəsi

Müzdəlifə Ərəfat ilə Mina arasında Haram bölgəsinin sərhədləri daxilində olan bir bölgədir. Müzdəlifəni Minadan Mühəssir vadisi ayırır. Həcc edən hər hansı bir şəxsin bayramın birinci günü dan yerinin ağarmasından etibarən günəşin doğmasına qədər Müzdəlifədə bir an da olsa olması vacib, gecəni orada keçirməsi Sünnə, Məşəri-haram adı verilən Küzah təpəsinə getməsi isə müstəhəbdir.

Ayədə belə buyurulur: **"**(Həcc mövsümündə) **Rəbbinizdən (**ticarətlə) **ruzi diləməniz sizin üçün günah deyil. Ərəfatdan qayıdarkən Məşəri-haramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın** (Ona dua edin)**, çünki siz bundan əvvəl** (doğru yolu) **azanlardan idiniz!"** (Bəqərə, 2/198). Hədisdə belə buyurulur: *"Kim bizim bu sübh namazında hazır olar, biz ayrılıncaya qədər bizimlə bərabər vəqfə edər və daha əvvəl gecə və ya gündüz Ərəfat vəqfəsini də etmiş olarsa, onun həcci tamam olur"* (Nəsai, Mənasik, 211).

Müzdəlifə vəqfəsinin vaxtı: hənəfilərə görə, bayramın birinci günü dan yerinin ağarmağa başlamasından günəşin doğmasına qədər olan müddətdir. Malikilərə görə, ərəfə gününün axşamı günəşin batmasından etibarən bayram səhəri fəcri-sadiqə qədər olan müddətdir; şafei və hənbəlilərə görə isə, gecənin yarısından etibarən fəcri-sadiqə qədər olan müddətdir. Gecə yarısı ilə günəşin batması ilə fəcri-sadiq arasındakı müddətin ortası nəzərdə tutulur.

Müzdəlifə vəqfəsində də Ərəfat vəqfəsindəki niyyət və bilmək şərt olmayıb, yuxarıda bildirilən müddət daxilində yuxuda, oyanıq və ya şüuru yerində olmadığı halda Müzdəlifə sərhədlərinin daxilində olan və ya burdan keçənlər bu ibadəti yerinə yetirmiş olurlar.

Gecəni Müzdəlifədə keçirib sübh namazını tezdən qılmaq, namazdan sonra təlbiyə, təkbir, təhlil, zikr, dua və istiğfar etməklə hava işıqlanana qədər vəqfəyə davam etmək və günəş çıxmadan Minaya getmək bütün məzhəblərdə Sünnə qəbul edilir.

Həcc edənlərin ərəfə gününün axşamı Müzdəlifədə axşam və yatsı namazlarını təkbaşına və ya camaatla, yatsı namazının vaxtında cəmi-təxir edərək qılmaları hənəfilərə görə vacib, şafeilərə görə isə sünnədir. Bu namazlar Ərəfatda və Müzdəlifəyə çatmadan əvvəl yolda qılınır və yatsı namazının vaxtı çıxmadan əvvəl Müzdəlifəyə çatarsa, Əbu Yusifə görə isə, Müzdəlifənin xaricində qılınması məkruh isə də təkrar etmələri lazım deyil. Birləşdirərək qılınan namazlarda, iki fərz namazın arasında nafilə namazın qılınması məkruh olduğu üçün, axşamın Sünnəsi ilə yatsının birinci Sünnəsi tərk edilir. Bir azan və bir iqamə ilə axşam və yatsı namazları birləşdirilərək qılınır. Burada yatsı namazı öz vaxtında qılındığı üçün, iqamə oxunaraq ikinci bir bildirişə ehtiyac yoxdur.

Müzdəlifə vəqfəsi bir üzr səbəbi ilə tərk edilərsə cəzası olmaz. Çünki Hz. Peyğəmbər bu vəqfəni edə bilməyən zəif olanların birbaşa Minaya keçə biləcəklərini bildirmiş və bundan ötrü də kəffarəni lazım bilməmişdir. Üzrsüz Müzdəlifə vəqfəsini tərk etməkdən ötrü isə cəza olaraq qurban kəsmək lazımdır.

3. Minada şeytan daşlamaq

Dilimizdə "şeytan daşlamaq" dediyimiz ibadətə ərəbcədə "rəmyətül-cəmərat (cəmrələrə daş atmaq)" deyilir. Cabir (r.ə) belə demişdir: "Rəsulallahı (s.ə.s) qurban bayramı günündə miniyinin üzərində şeytan daşlayarkən gördüm. O belə deyirdi. *"Həcc ibadətlərini məndən öyrənin. Mən bu həccimdən sonra həcc edib-etməyəcəyimi bilmirəm"* (Müslim, Hüdud, 12, 13).

Həcc edənlərin bayram günləri Minada kiçik cəmrə, orta cəmrə və əqəbə cəmrəsi deyilən, xalq dilində kiçik, orta və böyük şeytan adı da verilən daş topalarına "Bismillahi Allahu əkbər" deyərək, yeddi dənə balaca daş atmaları vacibdir. Birinci gün sadəcə əqəbə cəmrəsinə yeddi daş atılır. Mina, Müzdəlifə ilə Məkkə arasında Haram sərhədlərinin daxilində bir bölgədir. Hənəfilərə görə, şeytan daşlama günlərində Minada gecəni keçirmək Sünnədir. Digər üç məzhəbə görə isə, hər hansı bir üzrü olmayanların bu gecələrdən hər birinin yarıdan çoxunda Minada olmaları vacibdir. Əks halda cəza lazım olur.

İPƏKYOLU NƏŞRİYYATI

Cəmrələrə daş atmaq Hz. İbrahim, zövcəsi Həcər və oğlu İsmayılın o yerdə şeytan daşlamasının bir simvoludur. Şeytan həmin vaxt onlara İsmayılın qurban kəsilməməsi üçün vəsvəsə verməyə çalışmışdır.

Daşların əllə, hər birinin ayrı-ayrı atılması və daş hovuzunun içinə və ya yaxınına düşməsi lazımdır. Gücü çatanlar daşları özləri atmaldırlar. Gücü çatmayan vəkili vasitəsi ilə də ata bilər. Namazını ayaqda duraraq qıla biləcək halda olanlar şeytan daşlamada vəkil tuta bilməzlər. Odur ki, gəzə bilməyəcək qədər xəstə və ya qoca olanlarla, zərər görməsindən qorxulan hamilə qadınlar vəkil vasitəsi ilə daş ata bilərlər. Ancaq daş atma müddətində yaxşılaşmaq və ya tənha vaxtlarda daş atma imkanı olanların, özünün daş atmağa çalışması daha uyğundur.

Daş atma vaxtı: bayramın birinci günü fəcri-sadiqdən dördüncü günü günəş batana qədər olan vaxtdır.

Bayramın birinci günü: bu gündə təkcə əqəbə cəmrəsinə yeddi daş atılır. Hənəfilərə görə, bu birinci gündə daş atma vaxtı fəcri-sadiqdən, ertəsi günün fəcri-sadiqinə qədər olan müddətdir. Bu müddət içində günəşin doğması ilə günorta vaxtına qədər edilən daşlama Sünnə, zavaldan günəş batana qədər daş atmaq mübah, səhər günəşin çıxmasından əvvəl və ya axşam günəşin batmasından sonra edilən daşlama isə məkruhdur.

İslam alimləri bayram günü fəcr doğmadan əvvəl şeytan daşlamanın qəbul olunmadığı fikrində həmrəydirlər. Digər tərəfdən zəiflik və s. kimi bir üzrü olanlar fəcri-sadiqdən sonra günəş doğmadan əvvəl və ya gecə vaxtı da daş ata bilərlər.

Digər tərəfdən, gecə daş atmağın uyğun olmamasının səbəbi qaranlıqda daş atmağın çətin olmasıdır. Ancaq günümüzdə işıqlandırma səbəbi ilə bu çətinlik ortadan qalxmış gündüz vaxtı daşlamada çətinlik çəkən qocaların və qadınların bu vaxtlarda daş atması həm özləri üçün, həm də gündüz vaxtı olan izdihamı azaldacağı üçün daha uyğun görülmüşdür.

Malikilərə görə şeytan daşlama vaxtı bayramın birinci günü dan yerinin ağarması ilə başlayar və günəş batmana qədər davam edər. Şafei və hənbəlilərə görə isə, bu vaxt gecənin yarısından etibarən başlayar və ertəsi gün dan yeri ağarana qədər davam edər. Bu müddətin hər hansı bir anında daş atmaq kifayətdir. Ancaq günəş doğmadan əvvəl daş atmaq məkruh, günəş doğduqdan zaval vaxtına qədər olan müddətdə sünnə, zavaldan günəş batana qədər kərahətsiz caiz və üzrü olmadığı halda günəş batdıqdan sonraya təxirə salmaq isə məkruhdur.

Bayramın ikinci və üçüncü günləri: bu günlərdə hər cəmrəyə yeddi daş olmaq şərti ilə cəmi 21 daş atılır. Bu iki gündə daş atma vaxtı zavaldan etibarən ertəsi günün fəcri-sadiqinə qədər olan müddətdir. Müəyyən edilən bu müddətdə hər vaxt daş atıla bilər. Bu iki gündə zavaldan əvvəl daş atmaq caiz deyil.

Bayramın dördüncü günü: Əbu Yusif, İmam Məhəmməd və digər üç məzhəbə görə, dördüncü gündə də şeytan daşlamanın müddəti bir əvvəlki iki gündəki kimidir. Əbu Hənifəyə görə isə, dördüncü gün şeytan daşlamanın vaxtı fəcri-sadiqlə başlayır. Ancaq daşların hələ günəş çıxmadan əvvəl atılması məkruh, günəş çıxdıqdan zavala qədər olan müddətdə caiz və zavaldan sonra atılması isə Sünnədir.

Dördüncü gün Məkkədən ayrılmaq və yol üçün hazırlıq görmək kimi məşğuliyyəti olanlar axırıncı günü daşlarını atmaya bilərlər. Bayramın dördüncü günü daş atmayanların hənəfilərə görə, dördüncü gün fəcri-sadiqdən əvvəl, digər üç məzhəbə görə isə üçüncü gün günəş batmadan əvvəl Minadan ayrılmaları lazımdır.

Atılan daşlarən sayı: ilk gün əqəbə cəmrəsində 7, digər günlərdə sıra ilə "kiçik, orta və əqəbə cəmrələrinə 7 daşdan olmaq şərti ilə 21 daş atılır ki, bunlar cəmi 70 olur. Axırıncı günün daşları atılmazsa, bu miqdar 49 olar. Hər bir daş atılarkən "Bismillahi Allahu əkbər" deyilir. Daş hədəfə çatmaz və ya uzağa düşərsə, onun yerinə başqası atılar. Əldə artıq qalan daşlar ehtiyacı olana verilir və ya münasib bir yerə qoyulur. Torpağa basdırmağa ehtiyac yoxdur.

İPƏKYOLU NƏŞRİYYATI

Xəstəlik, qocalıq və əlil olmaq kimi bir üzr səbəbi ilə cəmrə yerinə özü gələrək daş atma imkanına sahib olmayanlar, münasib şəxsləri vəkil təyin edərək daşlarını ata bilərlər. Üzrün ölçüsü ayaq üstə namaz qıla bilməyəcək vəziyyətdə olmaqdır. İzdiham səbəbilə gündüz cəmrələrə yaxınlaşmağa imkanı olmayanlar, daşlarını gecə tənha vaxtda da ata bilərlər. Gecə daş atmaq imkanına sahib olanlar üçün vəkil vasitəsi ilə daş atması caiz deyil. Vəkil əvvəl öz yerinə daşını atmalıdır.

Daş atma günlərində hər günün daşını öz vaxtında atmaq vacib olduğu kimi, vaxtında atılmayan daşların daş atılma müddətində qəza edilməsi də vacibdir. Bayramın dördüncü günü günəş batdıqdan sonra artıq əda və qəza olaraq atılan daş qəbul olmaz.

Əbu Hənifə və İmam Malikə görə, vaxtında atılmayan daşlar daşlama müddətində qəza edilsə belə cəzası aradan qalxmaz. Əbu Yusif və İmam Məhəmmədə görə isə, daş atma müddətində qəza edildiyi təqdirdə cəzası aradan qalxar.

Yeddi daşın çoxu və ya hamısı tərk edilsə, cəza olaraq qurban kəsilməlidir. Daşların iki-üç daş kimi az hissəsi tərk edilərsə, hər daş üçün bir sədəqə vermək lazımdır. Birinci yeddi daşın Müzdəlifədən toplanaraq birinci gün əqəbə cəmrəsinə atılması müstəhəb olub, geri qalan 63 daşın toplanması üçün xüsusi bir yer yoxdur.

Şafei və hənbəlilərə görə isə, vaxtında atılmayan daşlar ən gec bayramın dördüncü günü günəş batmadan əvvəl atıldığı təqdirdə, qəza deyil əda sayılır. Gecikmədiyi üçün də cəza lazım olmaz.

İstər əda, istər də qəza olsun daş atma müddəti bayramın dördüncü günü günəşin batması ilə qurtarar.

4. Saçları qırxmaq və ya qısaltmaq (həlq və ya təqsir)

Həcc və ya ümrənin axırında saçların qırxılması və ya qısaldılması ehramdan çıxmağın bir simvoludur. Bu əməl edilmədiyi müddətdə ehramdan çıxılmaz. İfrad həcci edənlərin Minada bayramın birinci günü əqəbə cəmrəsinə yeddi daş atdıqdan sonra, həcc ilə ümrəni birləşdirmiş olan təmattü və qıran həccini edən zəvvarın isə, bu daşlamanın arxasından şükür qurbanlarını kəsdikdən sonra, Məkkə Haramında və bayramın birinci üç günündən birində saçlarının ən az dörddə birini qırxdırması və ya qısaltması vacibdir. Saçların hamısının qırxılması və ya qısaldılması isə Sünnədir.

Şafeilərdə Vacibin yerinə yetirilməsi üçün üç telin, maliki və hənbəlilərə görə isə, saçların hamısının qırxılması və ya qısaldılması lazımdır. Məzhəblər qırxılacaq və ya qısaldılacaq saçın miqdarını dəstəmazda başa çəkilən məshin miqdarına qiyas etmişdir.

Qadınlar saçlarının dörddə bir qədərinin ucundan bir az kəsərlər. Beləcə, ehramdan çıxmış olarlar. Quranda belə buyurulur: **“Sonra həcc əməllərini (dırnaq kəsmək, saçını qırxmaq, yaxud qısaltmaq və s.) yerinə yetirsinlər (və ya kirlərini təmizləsinlər)”** (Həcc, 22/29).

İbn Ömər ayədəki “təfəs” kəlməsinin saçları qırxmaq və ehramdan çıxıb paltarları geymək mənasına gəldiyini söyləyir.

Həcc üçün ehrama girənlər bayramın birinci günü fəcri-sadiqdən əvvəl, ümrə üçün ehrama girənlər isə, ümrə təvafının ən az dörd şövtünü gerçəkləşdirmədən qırxma və qısaltmaqla ehramdan çıxmış olmazlar. Ehram qadağasını pozmuş olarlar və bundan ötrü cəza verilər. Ancaq ümrə edənlərin səyi ehramlı vəziyyətdə etmələri vacib olduğu üçün, səy etdikdən sonra qırxılmaları lazımdır.

Hz. Peyğəmbər vida həccində bayramın birinci günü Minadan əvvəl əqəbə cəmrəsinə yeddi daş atmış, sonra qurbanlarını kəsmiş, daha sonra qırxılmış və həmin gün Məkkəyə gedib ziyarət təvafını etmiş və yenə Minaya qayıtmışdır.

İPƏKYOLU NƏŞRİYYATI

Əbu Hənifəyə görə, bunlardan ilk üçündə sıraya riayət etmək vacibdir. Əks halda qurban lazım olar. Əbu Yusif, İmam Məhəmməd və digər üç məzhəbə görə isə, burada sıraya riayət etmək Sünnədir. Sıraya riayət etməmək məkruh olsa da cəza olaraq qurban kəsmək lazım olmaz. Ancaq malikilərə görə, əqəbə cəmrəsinə daş atmaq taraş və ziyarət təvafından əvvəl olmalıdır. Ziyarət təvafında isə, sıraya riayət etməyin vacib deyil, Sünnə olduğuna dair fikir birliyi vardır. Belə olan halda ifrad həcci edənlər bayramın birinci günü əqəbə cəmrəsinə daş atdıqdan sonra, təmättü və qiran həcci edənlər isə daş atıb şükür qurbanını kəsdikdən sonra saç kəsib ehramdan çıxarlar.

Ənəsdən (r.ə) belə dediyi nəql edilir: "Rəsulullah (s.ə.s) Minaya gəldi və cəmrələri daşladı. Sonra Minada qaldığı yerə getdi və qurban kəsdi. Sonra bərbərə başının sağ və sol tərəflərini göstərərək, saçlarını qırxmasını söylədi.

Əbu Hüreyrədən edilən bir rəvayətə görə, Hz. Peyğəmbər ehramdan çıxarkən saçını kəsənə Allahdan iki dəfə məğfirət istəyərək dua etmiş, saçını qısaldanlar üçün də dua etməsi istənəndə, üçüncü dəfə də onlara dua etmişdir. Buna görə də ehramdan çıxarkən saçları təmiz qırxmaq, qısaltmaqdan daha fəzilətlidir.

Ayədə belə buyurulur: **"**(Ey möminlər!) **Siz, inşallah, əmin-amanlıqla,** (bəziniz) **başınızı qırxdırmış,** (bəziniz saçınızı) **qısaltmış halda və** (müşriklərdən) **qorxmadan Məscidiharama daxil olacaqsınız.** (Allah) **sizin bilmədiklərinizi bilir"** (Fəth, 48/27). Hz. Peyğəmbər (s.ə.s) Hüdeybiyyə səfərindən əvvəl bu ayədə xəbər verilən vəziyyəti yuxusunda görmüş, beləcə Məkkənin fəthini və ediləcək həcci əshabına müjdələmişdir.

5. Vida təvafı (sədər)

Miqatların xaricindən gələnlərin həcci edib qurtardıqdan sonra Məkkədən ayrılacaqları vaxt son olaraq Kəbəni təvaf etmələri vacibdir. Hz. Ömərdən belə nəql edilmişdir: "Kim həcc edərsə, onun axırıncı niyyəti Beytullah olsun. Ancaq aybaşı olan istisnadır Rəsulullah (s.ə.s) qadınlara icazə verdi". Odur ki, vida təvafının şərtləri zəvvarın Hicaza Hicazın xaricindən gəlmiş olması, aybaşı və zahı olmaması, təvafa niyyət etməsi və ziyarət təvafından sonra etməsindən ibarətdir.

6. Hədy qurbanı kəsmək

Həcc və ümrədə Mina bölgəsində kəsilən qurbanlara **hədy** deyilir. Təmättü və ya qiran həcci edənlərin hədy qurbanı kəsmələri vacibdir. İfrad həcci edənlərin həcdə qurban kəsmələri isə vacib deyil. Ancaq istəsələr nafilə qurban kəsə bilərlər. Qurani-Kərimdə hədy qurbanı ilə bağlı belə buyurulur: **"Allahdan ötrü həcc və ümrə (kiçik həcc) əməllərini tam yerinə yetirin, əgər arada sizə maneçilik olarsa, (sizə) müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə (Minaya) çatıncaya qədər başınızı qırxdırmayın. Əgər (ehramda ikən, ziyarət zamanı) sizdən xəstələnən və yaxud baş ağrısına tutulub əziyyət çəkən olarsa, belə şəxs (başını qırxdırmağın əvəzində) fidyə olaraq (üç gün) oruc tutmalı və ya sədəqə verməli, yaxud da bir qurban kəsməlidir. (Maneçiliyin aradan qalxmasına) əmin olduqda isə həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc ziyarəti günlərində üç gün və (vətəninə) qayıdandan sonra yeddi gün oruc tutmalıdırlar ki, bu da tam on gün edir. Bu (ümrə ziyarəti) ailəsi Məscidülhəramda (Məkkədə və ətrafında) sakin olmayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allahın əzabı şiddətlidir"** (Bəqərə, 2/196).

İPƏKYOLU NƏŞRİYYATI

Hədy Kəbəyə və Harama hədiyyə edilmək üzrə kəsilən qurban olduğu üçün, istər vacib, istərsə də nafilə olsun haram bölgəsi hüdudlarında kəsilir. Hədy qurbanları haram bölgəsindən kənarda kəsilərsə, nafilə olan ifrad həcci qurbanı istisna olmaqla digərləri sonradan haram bölgəsində təkrarən kəsilməlidir.

Təmättü və qiran həcci edənlərin kəsmələri vacib olan şükür qurbanlarını bayramın ilk günü dan yerinin ağarmağa başlamasından bayramın 3-cü günü günəş batana qədər kəsmələri vacibdir. Bu müddət ərzində kəsilməzsə, ayrıca cəza qurbanı da lazım gələr.

Təmättü və ya qiran həcci edən qurbanlıq heyvan tapa bilməzsə, üç günü həcc əsnasında, qalan yeddi gününü də öz vətəninə qayıtdıqdan sonra olmaqla on gün oruc tutmalıdır. Həcc əsnasında üç günlük orucu tuta bilməzsə, mütləq qurban kəsməlidir.

Fəri vaciblər: həcc əməllərinə bağlı vaciblər aşağıdakılardır:

Ehram vacibləri

1. Miqat hüdudunu ehramsız keçməmək
2. Ehram qadağalarından çəkinmək

Təvafın vacibləri

1. Hədəsdən təharət
2. Sətri-övrət
3. Təvafa həcəri-əsvəd tuşundan başlamaq
4. Təyamün etmək, yəni təvaf əsnasında Kəbəni sol tərəfinə alaraq təvaf etmək
5. Xətimin çölündən dolaşmaq
6. Gücü çatanın piyada təvaf etməsi
7. Qurtardıqdan sonra təvaf namazı qılmaq
8. Ziyarət təvafını bayram günlərində etmək
9. Yeddi şövtə tamamlamaq

Səyin vacibləri

1. Gücü çatanın piyada etməsi
2. Səfadan Mərvəyə 4, Mərvədən Səfara 3 dəfə piyada yeddi şövtə tamamlamaq

Ərəfat vəqfəsinin vacibləri

Günəş batmadan Ərəfat bölgəsini tərk etməmək

Müzdəlifənin vacibləri

Axşam və yatsı namazlarını yatsı vaxtı girdikdən sonra (cəmi-təxir ilə) qılmaq

Minanın vacibləri

1. Əqəbə cəmrəsinə daş atmaq
2. Qurban kəsmə ilə taraş olma arasındakı tərtibə riayət etmək
3. Təmättü və ya qiran həcci edənlərin qurban kəsməsi
4. Qurbanı haram bölgəsində kəsməsi

İPƏKYOLU NƏŞRİYYATI

5. Taraşı bayram günlərində və haram bölgəsində etmək

6. Cəmrələrə atılan daşları nöqsansız vaxtında atmaq

G. HƏCCİN SÜNNƏLƏRİ



Əsli sünnələr: həcc ibadətində müstəqil sünnə olan ibadətlər bunlardır:

1. Qüdum təvafı etmək: Məkkəyə gəlmə təvafı deməkdir. Bu təvaf ifrad və ya qiran həcci edən afaqilərə, yəni uzaqdan gələnlər üçün Sünnədir. Həccin səyi bu təvafdan sonra edilməyəcəksə, iztiba və rəməl bu təvafda edilməz. Məkkəlilər, miqat hüdudları daxilindən həccə gələnlər, yalnız ümrə və ya təmättü haccı edənlər, ifrad həcci etdikləri halda Məkkəyə baş çəkmədən birbaşa Ərəfata çıxanlar ilə xüsusi halları səbəbilə qüdum təvafını etməyə vaxt tapmadan Ərəfata çıxan qadınların qüdum təvafı etmələrinə ehtiyac yoxdur.

2. Xütbələr: Məkkə, Ərəfat və Minada imamın xütbə verməsi və verilən xütbələri dinləmək sünnədir.

3. Ərəfə gecəsi Minada gecəni keçirmək: zülhiccənin 8-ci günü (tərviyə günü) günəş çıxdıqdan sonra Məkkədən Minaya gəlmək, gecəni burada keçirmək, ərəf günü günəş çıxdıqdan sonra Ərəfata hərəkət etmək Sünnədir.

4. Bayram gecəsini Müzdəlifədə keçirmək: Ərəfatdan Müzdəlifəyə gəldikdən sonra bayram gecəsini burada keçirmək Sünnədir.

5. Bayram günlərində şeytan daşlamaq üçün Minada qalmaq: qurban kəsmə günlərində Minada qalmaq və orada gecəni keçirmək sünnədir.

6. Təhsib: Minadan Məkkəyə qayıdan başı "Əbtəh" deyilən vadidə bir müddət istirahət etməkdir.

Fəri sünnələr: həcc ibadətlərinə bağlı sünnələr bunlardır:

Ehramla bağlı sünnələr

1. Ehrama girmədən əvvəl taraş olmaq, qoltuq altı və digər yerləri təmizləmək, dırnaq tutmaq və ətir sürtmək.

2. Ehrama girərkən qüsl etmək və ya dəstəmaz almaq.

3. Ehramın sünnəsi niyyəti ilə iki rükət namaz qılmaq.

4. İzar və rida deyilən iki hissədən olan örtüyə bürünmək.

5. Ehramlı olduğu müddətdə hər fürstdə təlbiyə demək.

6. Təlbiyəyə hər başlayanda üç dəfə təkrarlamaq.

7. Təlbiyədən sonra salavatı-şərifə, salavatdan sonra dualar etmək.

İPƏKYOLU NƏŞRİYYATI

Məkkə və Kəbə ilə bağlı sünnələr

1. Məkkəyə imkan daxilində gündüz girmək.
2. Məkkəyə girmədən əvvəl imkan daxilində qüls və ya dəstəmaz almaq.
3. Kəbəni görən kimi istədiyi duanı etmək.
4. Kəbənin qabağına gələndə təkbir və təhlillər demək.
5. Mültəzəmdə üzü və sinəni Kəbə divarına dirəyib dualar etmək.

Təvafla bağlı sünnələr

1. Təvafa başlayarkən həcəri-əsvədin tuşuna rükni-yəmani tərəfindən gəlmək.
2. Təvafın başlanğıcında və hər şövtün axırında həcəri-əsvədi istilam etmək.
3. Sonunda səy edilən təvaflarda kişilərin iztiba və rəməl etmələri.
4. Bütün şövtləri dalbadal, fasilə vermədən etmək.
5. Nafilə təvafı çox etmək.
6. Təvaf əsnasında zikr, təkbir, təhlil və dua ilə məşğul olmaq.

Səylə bağlı sünnələr

1. Təvaf qurtardıqdan sonra fasilə vermədən səyə başlamaq.
2. Səyə gedərkən həcəri-əsvədi istilam etmək.
3. Səfa və Mərvədə Kəbə görülə biləcək qədər hündürə çıxıb Kəbəyə tərəf çevrilərək təkbir, təhlil və dua etmək.
4. Kişilərin iki yaşıl sütun arasında hərvələ etmələri.
5. Bütün şərtləri dalbadal, fasilə vermədən etmək.
6. Səy əsnasında təkbir, təhlil və dua ilə məşğul olmaq.
7. Səyi dəstəmazlı etmək. (Aybaşı və zahı olan qadınlar səy edə bilərlər.)

Ərəfat və vəqfə ilə bağlı sünnələr

1. Ərəfə günü Minada günəş çıxdıqdan sonra Ərəfata doğru hərəkət etmək.
2. Günorta və ilkindi namazlarını cəmi-təqdim ilə qılmaq.
3. Vəqfə üçün zavaldan sonra qüsl etmək.
4. Vəqfə əsnasında dəstəmazlı olmaq.
5. Vəqfəni Cəbəli-rəhmə yamaclarındakı qara qayalıqların yanında etmək.
6. Vəqfə əsnasında qibləyə yönəlmək.
7. Gün boyu təlbiyə, zikr, təsbeh, təkbir, təhlil, salavat, namaz və dua ilə məşğul olmaq. Özü, valideynləri, ailəsi, keçmişləri və bütün möminlər üçün dualar etmək.

İPƏKYOLU NƏŞRİYYATI

Müzdəlifə və vəqfəsi ilə bağlı sünnələr

1. Ərəfə günü günəş batdıqdan sonra Ərəfatdan Müzdəlifəyə aramla enmək və Müzdəlifədə Məşəri-haram həndəvərində gecəni keçirmək.

2. Sübh namazını tez qılıb vəqfəyə başlamaq.

3. Vəqfəni hər tərəf işıqlanana qədər davam etdirmək.

Mina və rəmyi-cimar (şeytan daşlama) ilə bağlı sünnələr

1. Bayram səhəri hər tərəf işıqlandıqdan sonra günəş çıxmadan Müzdəlifədən hərəkət edib Minaya gəlmək.

2. Vaxt keçirmədən əqəbə cəmrəsinə daş atmaq.

3. Əqəbə cəmrəsinə daş atarkən Məkkəni soluna Minanı da sağına almaq. Digər iki cəmrəyə daş atarkən istədiyi kimi dayana bilər.

4. Daşları cəmrələrə təqribən 3,5-5 m. uzaqdan atmaq.

5. Yeddi daşı dalbadal atmaq.

6. Təşriq günlərində kiçik, orta və əqəbə cəmrələrinə daşı sıra ilə atmaq.

7. Kiçik və orta cəmrələrə daş atdıqdan sonra dua etmək, əqəbə cəmrəsini isə dərhal tərk etmək.

8. Daşları bayramın ilk günü günortadan əvvəl, digər günlər isə günortadan sonra atmaq.

9. Minadan Məkkəyə enməyə tələsənlərin bayramın üçüncü günü günəş batmadan Minanı tərk etməsi.

Zəmzəmlə bağlı sünnələr

1. Vida təvafını edib təvaf namazını qıldıqdan sonra çoxlu zəmzəm içmək və vücuduna tökmək.

2. Zəmzəmi Kəbəyə qarşı ayaq üstə və ona baxaraq içmək.

Vidalaşmaq və qarşılamaqla bağlı sünnələr

1. Ailə, qonşu və dostları ziyarət edib onlarla vidalaşmaq və dualarını istəmək.

2. Həccə gedəni yola salmaq.

3. Həccə gedəni yolda qarşılamaq.

4. Həccə gedərkən və həcdən qayıtdıqdan sonra şükür üçün öz evində iki rükən namaz qılıb dua etmək.

Bunlara əlavə həccə gedənlərin aşağıdakıları etmələri müstəhəbdir:

- Əgər borcu varsa, həcc üçün yola çıxmadan borcu qaytarmalıdır.
- Günahlardan tövbə etməli, qəzaya qalmış ibadətləri varsa, onları qəza etməlidir.
- Riyakarlıqdan, təkəbbürdən uzaq durmalı, təvazökar olmalıdır.
- Həcc ilə bağlı məlumat və təcrübə sahibləri ilə məsləhət etməlidir.
- Yolda yoldaşlarla və digər yolçularla mübahisə etməkdən çəkinməlidir.
- Düşmənləri varsa, onları bağışlamağa və başa düşməyə səy göstərməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

H. ÜMRƏ

1. Ümrənin mənası

Ümrənin kəlmə mənası "ziyarət etmək"dir. Termin mənası isə "Kəbəni təvaf etmək, Səfa ilə Mərvə arasında səy etmək kimi ibadətləri yerinə yetirmək məqsədilə Kəbəyə getməyə əzm etməkdir".

2. Ümrənin hökmü

Hənəfi məzhəbinə görə, ömürdə bir dəfə ümrə etmək müəkkəd Sünnədir. Ümrənin fəziləti ilə bağlı Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Ümrə daha sonrakı ümrəyə qədər ikisi arasında işlənən günahlar üçün kəffarədir"* (Buxari, Ümrə, 1), *"Ramazan ayında edilən ümrənin savabı həccə bərabərdir"* (Nəsai, Siyam, 6), *"Həcc və ümrəni bir-birinə əlavə edin (dalbadal birlikdə yerinə yetirin). Çünki bunlar körüyün dəmir, qızıl və gümüşdəki kiri, pası apardığı kimi yoxsulluğu və günahları aparar"* (Tirmizi, Həcc, 2).

3. Həcc ilə ümrənin fərqi

Həcc ilə ümrə arasındakı fərqliliklər bunlardır:

- Ömürdə bir dəfə həcc etmək fərz, ümrə isə müəkkəd Sünnədir.
- Həccin vaxtı bəllidir. Ümrə üçün isə müəyyən bir vaxt yoxdur. Ümrə Qurban bayramı ərəfəsi ilə bu bayramın edildiyi dörd gündən başqa ilin hər hansı bir vaxtında da edilə bilər. Ərəfə günü zaval vaxtından etibarən bayram günlərində ümrə üçün ehrama girmək təhrimən məkruhdur.
- Ərəfat və Müzdəlifə vəqfələri, şeytan daşlama, xütbə, sədər təvafı və namazların birləşdirilərək qılınması kimi mənasik yalnız həcdə olur.
- Həcdə qurban kəsildiyi halda ümrədə kəsilmir. Həcci pozmaq inək və ya dəvə qurban etməyi vacib edir, ümrəyi pozmaq isə qoyun qurbanı cəzası ilə nəticələnir.

4. Ümrənin rüknləri və edilmə qaydası

Ümrənin rüknü Kəbəni təvaf etmək, ehram isə ümrənin şərtidir. Səfa ilə Mərvə arasında səy etmək, saçları qırxdırmaq və ya qısaltmaq da ümrənin vaciblərdir.

Ümrə edən şəxs ehrama girər, ümrəyə niyyət edər və təlbiyə deyər. Məkkəyə girəndə Kəbəni təvaf edər, sonra Səfa ilə Mərvə arasında səy edər. Səy qurtardıqdan sonra saçlarını kəsərək və ya qısaldaraq ehramdan çıxar. Beləcə, ümrəni tamamlamış olur.

İ. HƏCC VƏ ÜMRƏNİN YERİNƏ YETİRİLMƏ QAYDASI

Həcc və ümrə mənasiki (əməlləri) ehrama girməklə başlayır. Ehrama girmədən əvvəl dırnaqlar tutulur, qoltuq altı və digər yerlər təmizlənir, lazım gələrsə, saç, saqqalar taraş edilib bığlar qısaldılır. İmkan daxilində qüls edilir və ya dəstəmaz alınır. Qüsl almaq dəstəmazdan daha fəzilətlidir.

Bu hazırlıqlardan sonra kişilər üstlərindəki bütün paltarları çıxarıb izar və rida deyilən iki hissədən olan örtüyə üsuluna uyğun bürünərlər. Başları açıq, ayaqları çılpaq olur. Ayaqlarına imkan daxilində üstü və topuqları açıq olan ləpik geyinərlər. Qadınlar normal paltarlarını dəyişdirməzlər. Onların hər cür geyim əşyası, qapalı ayaqqabı, corab və əlcək geyinmələrində hər hansı qəbahət yoxdur. Ancaq üzlərini örtməməlidirlər.

Kərahət vaxtı deyilsə, iki rükət ehram namazı qıldıqdan sonra niyyət və təlbiyə edilərək ehrama girilir.

İPƏKYOLU NƏŞRİYYATI

İfrad həcci edənlər "Allahım, Sənin rizana nail olmaq üçün həcc etmək istəyirəm. Onu mənə asanlaşdır və qəbul et!" duasını edərək yalnız həccə niyyət edər və təlbiyə deyərlər.

Təmättü həcci edənlər "Allahım, Sənin rizana nail olmaq üçün ümrə edəcəyəm, onu mənə asanlaşdır və məndən qəbul et!" duasını edərək yalnız ümrəyə niyyət edər və təlbiyə deyərlər.

Qiran həcci etmək istəyənlər isə "Allahım, Sənin rizana nail olmaq üçün ümrə və həcc etmək istəyirəm. Bunların yerinə yetirilməsində mənə asanlıq ver və hər iksini də qəbul et!" duasını edərək həm ümrə, həm də həccə niyyət edib təlbiyə edərlər.

Niyyət və təlbiyənin edilməsi ilə ehrama girilmiş və ehram qadağaları başlamış olur.

Təlbiyə, təkbir, təhlil və salavatı-şərifə deyərək yolçuluğa davam edilir. Təlbiyə ehram müddətində hər fürsətdə deyilir. Xüsusilə zaman, məkan və vəziyyətdə yenilik və dəyişiklik olduqda, yoxuşda, enişdə, qafilələrə rast gəldikdə, fərz namazlardan sonra, təhəccüd vaxtlarında deyilməlidir. Təlbiyəni hər deyəndə üç dəfə təkrarlamaq, sonra təkbir, təhlil və salavatı-şərifə demək müstəhəbdir.

Təlbiyə həcdə bayramın ilk günü əqəbə cəmrəsinə daş atmağa başlamaqla, ümrədə isə ümrə təvafına başlamaqla qurtarar və daha sonra edilməz.

Məkkədə qalınan yerə yerləşib imkan daxilində qüsl, əks təqdirdə dəstəmaz alındıqdan sonra təlbiyə deyilərək Haramı-şərifə gedilər. Beytullah görüləndə üç dəfə təkbir və təhlil deyilib dua edilər.

Fərz namaz qılınmırsa, dərhal təvafa başlanılar.

İfrad həccində ilk edilən təvaf "qüdum təvafı", təmättü və qiran həccində isə "ümrə təvafı"dır. Təmättü və qiran həccində ümrə təvafından sonra ümrənin səyi edildiyi üçün təvafda "iztiba" və "rəməl" edilir. İfrad həccində isə, əgər həcc səyi qüdum təvafından sonra ediləcəksə, təvafda iztiba və rəməl edilir, əks təqdirdə edilməz.

İmkan varsa məqamı-İbrahimin arxasında, orada yer yoxdursa, uyğun olan başqa bir yerdə təvaf namazı qılınıb dua edildikdən və zəmzəm içildikdən sonra təmättü və qiran həcci edənlər ümrə səyini, ifrad həcci edənlər isə istəyərlərsə, həcc səyini edərlər.

İfrad həcci edənlər həcc səyini edib-etməmələrindən asılı olmayaraq taraş olmazlar və ehramdan çıxmazlar, ehramlı qalarlar.

Təmättü həcci edənlər miqatda yalnız ümrəyə niyyət tedikləri üçün ümənin səyi tamamlandıqdan sonra taraş olub ehramdan çıxarlar.

Təkrar həcc üçün ehrama girənə qədər Məkkədə ehramsız qalarlar. Zülhiccənin səkkizinci günü, yəni tərviyə günü və ya istəyərlərsə daha əvvəl həcc üçün təkrarən ehrama girərlər.

Həcc üçün ehrama girdikdən sonra nafilə bir təvaf etdikdən sonra istəyərlərsə, həcc səyini Ərafata çıxmadan əvvəl edə bilərlər. Belə olan təqdirdə ziyarət təvafından sonra səy etməzlər.

Qiran həcci edənlər ehrama girərkən həccə də niyyət etdikləri üçün ümrə səyindən sonra taraş olmaz və ehramdan çıxmazlar. Bunlar ümrə səyi qurtardıqdan sonra lazım olarsa, bir az istirahət edib sonra qüdum təvafı edərək təvaf namazını qılarlar. Həcc səyini istəyərlərsə bu qüdum təvafının ardınca, istəyərlərsə ziyarət təvafından sonra edələr. Arxasınca səy edilən təvafda iztiba və ilk üç şövtdə rəməl edərlər.

Həcc mənasiki əsas zülhiccə ayının 8-13 arasındakı altı gündə yerinə yetirilir. Bu günlərdən hər birində yerinə yetirilən həcc əməlləri aşağıdakılardır:

1. Tərviyə günü (zülhiccənin 8-ci günü): həcc edənlərin hər biri tərviyə günü sübh namazından etibarən Minaya və ya Ərəfata getməyə başlayar. Tərviyə günü günorta namazından ərəfə günü sübh namazına qədər olan beş vaxt namazı Minada qılmaq və gecəni orada keçirib günəş çıxdıqdan sonra Ərəfata hərəkət etmək Sünnədir.

İPƏKYOLU NƏŞRİYYATI

2. Ərəfə günü (zülhiccənin 9-cu günü): Ərəfatda zaval vaxtına qədər çadırlarda istirahət edilir və ibadətlə məşğul olunur. Zaval vaxtından sonra imkan daxilində qüsl edilir. Günorta və ilkindi namazları cəmi-təqdim ilə qılındıqdan sonra vəqfə edilir. Bütün gün təlbiyə, təkbir, təhlil, təsbeh, salavatı-şərifə, dua, namaz, tövbeyi-istiğfar, Qurani-Kərim tilavəti kimi ibadətlərlə məşğul olunur. Rəsulullah (s.ə.s): *"Bu gün gözünə, qulağına və dilinə sahib olanın keçmiş günahları bağışlanar"*,-buyurmuşdur (İbn Hənbəl, I, 329, 356). Günəş batdıqdan sonra axşam namazı qılınmadan Ərəfatdan Müzdəlifəyə keçməyə başlanır. Axşam ilə yatsı namazları yatsı vaxtı girdikdən sonra Müzdəlifədə cəmi-təxir ilə qılınar. Bayram gecəsi burada ibadət və istirahət edilir. Şeytan daşlamada istifadə edilmək üçün kifayət qədər daş toplanar.

3. Bayramın birinci günü (yövmi-nəhr, zülhiccənin 10-cu günü):

a. Vaxtı girən kimi sübh namazı Müzdəlifədə qılınır. Namazdan sonra hər tərəf işıqlananadək vəqfə edilir. Dua və istiğfar edilir. Hər tərəf tam işıqlandıqdan sonra günəş çıxmadan Minaya tərəf hərəkət edilir.

b. Minada əşyalar çadırlara yeləşdirildikdən sonra əqəbə cəmrəsinə gedilər. Hər birində "Bismilləhi Allahu əkbər, rağmən liş-şeytani və hizbih" ifadəsi ilə yeddi daş atılır. İlk daşın atılması ilə təlbiyə qurtarar. Bundan sonra artıq təlbiyə deyilməz.

c. Daha sonra Haram bölgəsi hüdudlarında qurban kəsilər və ya vəkalət yolu ilə kəsdirilər. Təmättü və qiran həcci edənlərin şükür qurbanı kəsmələri vacibdir. İfrad həcci edənlərə qurban kəsmək vacib deyil. Ancaq istəsələr nafilə qurban kəsə bilərlər.

d. İfrad həcci edənlər əqəbə cəmrəsinə daş atdıqdan sonra; təmättü və qiran həcci edənlər isə qurbanlarını da kəsdikdən və ya kəsdirdikdən sonra saç qırxdırıb ehramdan çıxarlar. Beləcə, cinsi əlaqədən başqa digər bütün qadağalar aradan qalxar. Cinsi əlaqə ilə bağlı qadağa isə yalnız ziyarət təvafından sonra aradan qalxar. Həcc edənlər şəxsən öz saçlarını kəsə bildikləri kimi, bir-birinin saçlarınıda kəsə bilərlər. Artıq saçını qırxdıra bilən bir ehramlının özü saçını aldırmadan başqa bir ehramlının saçını almasında hər hansı bir qəbahət yoxdur.

e. İmkan varsa həmin gün Məkkəyə enərək ziyarət təvafı edilər. Daha əvvəl həcc səyini etməyənlər ziyarət təvafından sonra həcc səyini də edə bilərlər. Ziyarət təvafının bayramın birinci günü edilməsi daha fəzilətlidir. O gün edilməsə, daha sonra da edilə bilər. Bu təvafın ən gec bayramın üçüncü günü günəş batmadan əvvəl edilməsi Əbu Hənifəyə görə vacib, digər müctəhidlərə görə isə sünnədir.

f. Ziyarət təvafı bayramın ilk günlərində edilmişsə, təvafdan sonra təkrar Minaya qayıdıb şeytan daşlama günlərində Minada gecəni keçirmək hənəfilərə görə sünnə, digər üç məzhəbdə isə vacibdir.

4. Bayramın 2, 3 və 4-cü günləri (zülhiccənin 11-13-cü günləri):

a. Bayramın 2-ci və 3-cü günləri zaval vaxtından sonra sıra ilə kiçik, orta və əqəbə cəmrələrinin hər birinə yeddi daş atılır. Kiçik və orta cəmrələrə daş atdıqdan sonra münasib bir yerə çəkilərək dua edilir. Əqəbə cəmrəsi daşlandıqdan sonra isə orada artıq dua üçün dayanılmadan dərhal tərk edilir. Bu iki gün zavaldan əvvəl "şeytan daşlama" edilməz.

b. Bayramın 4-cü günü cəmrələrə daş atmayanlar o gün fərci-sadiqdən, yəni dan yeri ağarmadan əvvəl Minanı tərk etməlidirlər. Bunların 3-cü gün günəş batmadan Minanın hüdudlarından kənara çıxmaları sünnə; günəş batdıqdan sonra çıxmaralı isə məkruhdur. 4-cü gün dan yeri ağarmağa başlamadan Minanı tərk etməyənlər o gün də cəmrələrin hər üçünə yeddi daş atmalıdırlar. Ancaq Əbu Hənifəyə görə, 4-cü gün daşların fəcri-sadiqdən etibarən zavaldan əvvəl atılması da caizdir. 4-cü gün daşlar atıldıqdan sonra Minadan Məkkəyə enilər.

c. Afaqilər Məkkəni tərk etmədən əvvəl vida təvafı edərlər. Beləcə, həcc ibadəti başa çatmış olar.

İPƏKYOLU NƏŞRİYYATI

Həcdə qadınlar

Həcc və ümrə əməllərində qadınların kişilərdən fərqləndikləri məsələlər aşağıda qeyd edilənlərdən ibarətdir:

1. Ehramlı ikən paltar, corab, əlcək, qapalı ayaqqabı, məst, sapoq və hər cür geyim əşyası geyinə bilərlər. Başlarını örtərlər, yalnız üzlərini örtməzlər.

2. Təlbiyə, təkbir və dua edərkən səslərini çox ucaltmazlar.

3. Təvafda iztiba və rəməl, səydə isə hərvələ etməzlər.

4. Ehramdan çıxmaq üçün saçlarını aldırmazlar, uclarından bir az kəsərlər.

5. Kişilər arasında sıxışmamaq üçün həcəri-əsvədi uzaqdan salamlayarlar.

6. Ziyarət təvafından sonra aybaşı və ya zahı olub Məkkəni tərk etmək məcburiyyətində qalsalar, vida təvafının öhdəliyi onlardan götürülər.

7. Xüsusi günlərində olan qadınlar təvafdan başqa həccin bütün mənasikini (əməllərini) həmin halda edə bilərlər. Aybaşı və zahılıq deyilən xüsusi halları səbəbilə fərz olan ziyarət təvafını əyyami-nəhrdən, yəni bayramın ilk üç günündən sonra etmək və ya vida təvafını tərk etməklə onlara hər hansı cəza lazım gəlməz.

Aybaşı və ya zahı olan bir qadın qüdum və ümrə təvafını etmədən Ərəfata çıxmaq və vəqfə etmək məcburiyyətində qalarsa;

a. İfrad həcci etmək üzrə yalnız həcc üçün ehrama girmişsə, təmizləndikdən sonra ziyarət və vida təvaflarını edər. Sünnə olan qüdum təvafı tərk edildiyi üçün hər hansı bir cəza lazım gəlməz və həcci tamamlanar.

b. Təmettü həcci etmək üzrə yalnız ümrə üçün ehrama girmişsə, hənəfilərə görə, Ərəfata çıxarkən həcc üçün niyyət edərək və təlbiyə deyərək ümrə ehramını ləğv edər. Həcdən əvvəl ümrə etmədiyi üçün ifrad həcci etmiş olar və şükür qurbanı kəsməsi vacib olmaz. Həcdən sonra ləğv etdiyi ümrəni qəza edər və ləğv etdiyi üçün də cəza qurbanı kəsər.

Digər məzhəblərə görə, həcc üçün niyyət edib təlbiyə deməklə ümrə ehramı pozulmaz, həcc ehramı ilə birləşmiş sayıldığı üçün qiran həcci etmiş olar və qiran hədyi kəsməsi də vacib olar. Lakin həcdən sonra edilməyən ümrənin qəzası üçün ayrıca təvaf və səy lazım gəlməz. Həcc üçün edilən təvaf və səy ümrə üçün də kifayət edər.

Qiran həcci üçün ehrama girmişsə, hənəfilərə görə, ümrə təvafından əvvəl Ərəfatda vəqfə etməklə ümrə pozulmuş sayıldığı üçün ifrad həcci etmiş olur. Şükür qurbanı kəsməsi vacib deyil. Lakin həcdən sonra pozulan ümrəni qəza edər və pozduğu üçün bir cəza qurbanı kəsər.

Digər məzhəblərə görə, ümrə təvafını etmədən Ərəfatda vəqfə etməklə ümrə pozulmuş olmur. Edilən həcc yenə də qiran həci olur və şükür qurbanı kəsməsi vacib olur. Həcdən sonra edilməyən ümrənin qəzası üçün ayrıca təvaf və səy etməsi də vacib deyil. Həcc üçün edilən təvaf və səy ümrə üçün də kifayət edər.

HƏCC İLƏ ÜMRƏ ARASINDAKI FƏRQLƏR

	İBADƏT NÖVÜ	VAXT	EHRAM	TƏVAF	SƏY	VƏQFƏ	MÜZDƏLİFƏDƏ VƏQFƏ	DAŞ TOPLAMA	ŞEYTAN DAŞLAMA	QURBAN KƏSMƏ
HƏCC	FƏRZ	✓	✓	✓	✓	✓	✓	✓	✓	✓
ÜMRƏ	SÜNNƏ	✗	✓	✓	✓	✗	✗	✗	✗	✗

İPƏKYOLU NƏŞRİYYATI

J. HƏCC VƏ ÜMRƏ İLƏ BAĞLI DİGƏR MƏSƏLƏLƏR

1. Hədy qurbanı

Uca Allahın mərhəmətinə yaxınlaşmaq və ya işlənən bir günaha kəffarə olsun deyə Haram bölgəsində kəsilən qurbana "hədy" deyilir. Qurbanlıq heyvanda tələb olunan xüsusiyyətlər hədy qurbanı üçün də etibarlıdır.

Hədy qurbanı beş növdür:

a. Şükür hədyi: həcc ilə ümrəni birlikdə edənlərin, yəni təmättü və ya qiran həcci edənlərin kəsmələri vacib olan qurbandır. Həcc və ümrəni birlikdə edə bilmək müqabilində bir şükür məqsədilə kəsildiyi üçün buna "şükür qurbanı" deyilir. Bu qurbanın ətindən sahibi də yeyə bilər. Geri qalan hissələri yoxsullara paylaşdırılır.

b. Cəza hədyi: həclə bağlı qadağalardan birini işləyənin kəffarə olaraq kəsməsi vacib olan qurbandır. Bunun ətindən sahibi, onun həyat yoldaşı, anası, atası, babası, nənəsi, uşaqları və nəvələri yeyə bilməz. Əgər yesələr, yedikləri qədərinin pulunu fağırlara verməlidirlər.

c. Ehsar hədyi: həcc və ya ümrə etmək üçün ehrama girdikdən sonra xəstəlik və ya pulun itirilməsi kimi səbəblərdən həcc səfərinə davam etmək imkanı olmadığı üçün, vəqfə və ya təvaf etmədən ehramdan çıxmaq məcburiyyətində qalanın kəsməsi vacib olan qurbandır. Bunun ətindən sahibi, onun həyat yoldaşı, anası, atası, babası, nənəsi, uşaqları və nəvələri yeyə bilməz. Əgər yesələr, yedikləri qədərinin pulunu fağırlara verməlidirlər.

d. Nəzir hədyi: Haram bölgəsində kəsilmək üzrə nəzir edilən vacib olan qurbandır. Bunun ətindən sahibi, onun həyat yoldaşı, anası, atası, babası, nənəsi, uşaqları və nəvələri yeyə bilməz. Əgər yesələr, yedikləri qədər olan pulunu fağırlara verməlidirlər.

e. Nafilə hədy: yalnız həcc, yəni ifrad həddi və ya yalnız ümrə edənlərin Allah rizası üçün kəsdikləri qurbandır. Bu qurbanın ətindən sahibi yeyə bilər. Geri qalan hissəsini də yoxsullara paylayar.

Cəza, ehsar və nəzir olan hədy qurbanlarının kəsilməsi üçün müəyyən bir vaxt yoxdur. Haram hüdudlarında olmaq şərtilə istənilən vaxt kəsilə bilər.

2. Həcc və ümrə qadağaları

Həcc və ya ümrə üçün ehrama girənlərin dini baxımdan etmələri qadağan olan əməllər var ki, bunların işlənməsinə "cinayətül-həcc" deyilir. Bu qadağalara məhəl qoyulmazsa, bir sıra cəzalarla nəticələnər. Bu cəzalar işlənən qadağanın mahiyyətinə görə fərqli olur. Bunlardan bir qismi bir qoyun və ya keçi, bir qismi də bir inək və ya dəvə qurbanı kəsməyin vacib olması ilə nəticələnir. Bəzi cinayətlər üçün isə sədəqə vermək vacib olur. Edilən işin cinayət olub-olmadığını bilməmək də nəticəni dəyişdirmir. Qəsdən, səhvən, unudaraq və ya zor altında etmək arasında heç bir fərq yoxdur.

1) Bədənə (dəvə və ya inəyin qurban edilməsi) lazım gələn hallar

a) Həcdə ehramdan çıxmadan əvvəl cinsi əlaqədə olmaq,

b) Ziyarət təvafını cünub, aybaşı və zahı halında etmək.

2) Dəm (qoyun və ya keçinin qurban edilməsi) lazım gələn hallar

Bunlar həccin vaciblərindən birini tərk etmək, gecikdirmək, ümrəni pozmaq və ya ehram qadağalarına riayət etməməklə bağlı cinayətlər olmaqla iki qisimdir:

a) Həccin vaciblərindən birini tərk etmək və ya vaxtında yerinə yetirməməklə bağlı cinayətlər:

İPƏKYOLU NƏŞRİYYATI

miqatı ehramsız keçmək, səyi və ya onun ən azı dörd şövtünü tərk etmək, Müzdəlifə vəqfəsini üzrsüz yerinə yetirmək, şeytan daşlamağı etməmək və ya bir gündə atılmalı olan daşların yarıdan çoxunu atmamaq, ziyarət və ya ümrə təvafının son üç şövtünü və ya yalnız birini etməmək, miqatın çölündən gələn hacıların vida təvafını tərk etmələri və ya çoxunu, yəni dörd və ya daha çox şövtünü etməmələri, ziyarət və ya ümrə təvafını dəstəmazsız, vida və ya qüdum təvafını cünub etmək, Ərəfatı günəş batmadan əvvəl tərk etmək, ziyarət təvafını üzrsüz bayram günlərindən sonra etmək, ehramdan çıxmaq üçün Haram bölgəsindən kənarda və ya bayram günlərindən sonra taraş olmaq, həcc tərtibinə riayət etməmək cəza hədyi olaraq qoyun və keçinin cəza qurbanı kimi kəsilməsini vacib edən hallardandır.

b) Ehram qadağasına riayət etməməklə bağlı cinayətlər: bir dəfədə bir orqanın hər tərəfinə ətir sürtmək və ya bəzənmək məqsədilə xına kimi bir şeylə boyamaq, tam bir gün və ya gecə boyu paltar, corab və ya topuqları örtən bir ayaqqabı geymək, başı və üzü örtmək, saç, saqqal və ya vücudun başqa bir yerini qırxmaq, bir əl, yaxud bir ayağın dırnaqlarının hamısını tutmaq, taraş olub ehramdan çıxdıqdan, lakin ziyarət təvafını etmədən əvvəl cinsi əlaqədə olmaq və ya ehram əsnasında cinsi əlaqəyə aparan hərəkətlərə yol vermək cəza hədyi olaraq qoyun və ya keçinin cəza qurbanı kimi kəsilməsini vacib edən hallardır.

3) Fitrə sədəqəsi qədər sədəqə verilməsinin lazım gəldiyi hallar

Hər hansı bir orqanın bir hissəsinə ətir sürtmək, ehramlı ikən baş, saqqal və ya başın dörddə birindən daha azını qırxmaq, başqasını qırxmaq, tam bir gün və ya tam bir gecədən daha az bir vaxt tikişli paltar, topuqları örtən ayaqqabı geymək və ya başı örtmək, bir əl və ya ayağın dırnaqlarından bir hissəsini tutmaq, qüdum, vida və ya nafilə təvafı dəstəmazsız etmək, vida təvafında və ya səydə dördüncü şövtdən sonrakı şövtləri əskik qoymaq, cəmrələr əskik daş atmaq sədəqə verməyi vacib edən hallardır.

Haram bölgəsində ov etmək, özbaşına bitən və qurumayan ağacların kəsilməsi və otların qoparılması ehramlı olub-olmamaqdan asılı olmayaraq hər kəsə haramdır. Haram bölgəsində özbaşına bitmiş ağac və bitkiləri kəsən və ya qoparanın bunların dəyərini sədəqə olaraq yoxsullara verməsi vacibdir. İnsanlar tərəfindən əkilən ağac və bitkilərin qoparılmasından ötrü cəza qurbanı vacib olmaz. Haram bölgəsində ov edən onun dəyərini təsəddüq etməlidir.



BİLGİ QUTUSU

Bir zərurət və üzr səbəbilə ehram qadağalarına tabe olmayan cəza olaraq aşağıdakıları seçmədə sərbəstdir:

1. Haram bölgəsində cəza qurbanı kəsə bilər
2. İstədiyi yerdə dalbadal, yaxud fasilə ilə üç gün oruc tuta bilər
3. Altı yoxsulu bir gün və ya bir yoxsulu altı gün doyuzdura bilər
4. Altı yoxsula fitrə sədəqəsi verə bilər.

3. Ehsar

Ehsar həcc və ya ümrə üçün ehrama girənin Ərəfat vəqfəsindən və təvafdan əngəllənməsidir. Düşmən, həbs, xəstəlik, pulun itirilməsi kimi həcc yolçuluğuna və ya təvaf və vəqfə etməyə mane olan bütün hallar ehsar səbəbi ola bilər. Ehsar səbəbilə Ərəfatda vəqfə etməkdən və təvafdan məhrum olan ehsar hədyi kəsərək ehramdan çıxar. Ehsarlı qiran həcci üçün ehrama girmişsə, həm həcc, həm də ümrə ehramı üçün iki ayrı ehsar hədyi kəsməlidir. Ehsarlı haram bölgəsindən kənarda olarsa, qurbanını və ya onun pulunu haram bölgəsinə göndərər və orada hədy kəsilənə qədər ehramlı halda gözləyər. Hədyin kəsilməsi ilə

İPƏKYOLU NƏŞRİYYATI

taraş olmasa da ehramdan çıxmış sayılar. Ehsar səbəbilə tamamlana bilməyən həcc və ya ümrənin münasib bir vaxtda qəza edilməsi vacibdir.

4. Fəvat (həccə çatmamaq)

Həcc etmək üzrə ehrama girən ərəfə günü zaval vaxtından bayram günü dan yerinin ağarmağa başladığı vaxta qədər bir an üçün belə olsa Ərəfatda olmazsa, həccə çatmamış olur. Bu şəxs ümrə edib ehramdan çıxar. Daha sonrakı illərdə həccini qəza edər.

5. Vəkil təyin etməklə həcc

Həcc ibadətini yerinə yetirməkdən aciz olan bir şəxs yerinə başqasını vəkil göndərməsi caizdir. Bilindiyi kimi Xəsəm qəbiləsindən olan bir qadın vida həcci ilində Peyğəmbərimizin yanına gələrək: "Ey Allahın Rəsulu! Allahın qullarına həclə bağlı əmri atama miniyin üstündə dayana bilməyəcək dərəcədə yaşlı ikən gəlib çatdı. Onun adına həcc etsəm, borcu ödənmiş olarmı?"-deyə soruşdu. Peyğəmbərimiz (s.ə.s) də: *"Bəli, olar!"*-buyuraraq cavab verdi (Buxari, Həcc, 1-2).

Başqa bir rəvayətdə də Cüheynə qəbiləsindən bir nəfər Peyğəmbərimizin yanına gəlib: "Anam həcc etməyi nəzir etmişdi, lakin həcc edə bilmədən vəfat etdi. Onun adına həcc edimmi?"-deyə soruşdu. Hz. Peyğəmbərimiz: *"Bəli, həcc et! Ananın borcu olsaydı, sən onu ödəməzdinmi? Elə isə, Allah haqqını da ödəyin. Çünki Allah haqqı ödənməyə daha layiqdir"*,-buyurdu (Buxari, Səyd, 22).

Həcc fərz olduğu halda həcc edə bilməyən ölümündən əvvəl özünün adına həcc etmək üzrə lazımi vəsait qoyaraq birinin göndərilməsi üçün vəsiyyət etməlidir. Malının üçdə biri həcc üçün başqasını göndərməyə çatarsa, varislər bu vəsiyyəti yerinə yetirməlidirlər, əgər çatmazsa, vəsiyyətin yerinə yetirilməsi varislərə bir borc olmaz. Vəkil olaraq həcc edən ehrama girərkən onu göndərən adına niyyət etməli, vəkilin xərclərinin hamısı göndərən tərəfindən qarşılanmalıdır.

6. Həcc və ümrə ilə əlaqədar olan ziyarət yerləri

Həcc və ümrəyə gedən afaqilərin Mədinəyə gedib Məscidi-nəbəvidə namaz qılması və Peyğəmbərimizin (s.ə.s) qəbri-şərifini ziyarət etməsi ədəbdəndir.

Məkkədə ziyarət yerləri

Peyğəmbərimizin dünyaya gəldiyi ev: Kəbeyi-müəzzəmənin Babüs-salam qapısı tərəfdədir və hal-hazırda bu bina kitabxana kimi istifadə olunur.

Cin məscidi: "Cin" surəsinin nazil olduğu yerdir və həmin yerə tikilən bir məsciddir. Cinlər Hz. Peyğəmbəri Quran oxuyarkən məhz orada dinləmişlər və orada iman gətirib müsəlman olmuşlar.

Cəbəli-rəhmə: Ərəfat vadisində olan və Hz. Peyğəmbərin vəqfə etdiyi kiçik bir dağdır. Dünyaya göndərilən Hz. Adəm ilə Hz. Həvva anamızın uzun bir müddətdən sonra ilk dəfə orada görüşdükləri nəql edilmişdir.

Cəbəli-nur (Hira dağı): Məkkə şəhərinin cənub-şərqində Məkkə şəhərinin mərkəzi ilə Mina arasındadır. Hz. Peyğəmbərə ilk dəfə vəhyin gəldiyi mağaranın olduğu dağdır.

Sövr mağarası: Məkkə şəhərinin şimalındadır və Ərəfata gedən yola yaxındır. Rəsulullah (s.ə.s) Mədinəyə hicrət edərkən müşriklərin şərindən Hz. Əbu Bəkrlə birlikdə gizləndikləri mağaradır.

Cənnətül-müəlla: Məkkə şəhərinin ən qədim qəbiristanlığıdır. Hz. Peyğəmbərin xanımı Hz. Xədicə anamız burada dəfn olunmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

Mədinədə ziyarət yerləri

Məscidi-nəbi və mərqədi-şərif: həcc və ümrə edən Peyğəmbərimizin (s.ə.s) məscidini və qəbrini ziyarət edər. Bura gələrkən Peyğəmbərimizə çoxlu salavatı-şərifə gətirər. Məscidi-nəbəviyə gələndə minbər ilə onun qəbri arasında cənnət bağçası deyə adlandırılan yerdə iki rükət təhiyyəti-məscid namazı ilə iki rükət şükür namazı qılar və özü, ailəsi, valideynləri, yaxınları və başqaları üçün dua edər.

Mədineyi-münəvvərədə qalınan müddətdə beş vaxt namazı Məscidi-nəbidə qılmağa cəhd edilməlidir. Boş vaxtları məsciddə qəza, nafilə qılaraq və Quran oxuyaraq dəyərləndirməlidir. Mühüm olan oradakı mənəvi ab-havadan istifadə etməkdir.

Yer üzündə namaz qılmaq və ziyarət etmək məqsədilə səfər çıxılacaq üç məsciddən birisi də Məscidi-nəbidir. Hz. Peyğəmbər (s.ə.s) bir hədisi-şərifində belə buyurur: *"Üç məsciddən başqa heç bir yerə (ibadət etmək üçün) xüsusi olaraq səfər edilməz: Məscidi-haram, Məscidi-əqsa və mənim məscidim"* (Buxari, Fəzailüs-səlat, 1, 6).

Məscidi-nəbəvidə qılınan namaz digər məscidlərdə qılınan namazlardan çox fəzilətlidir. Rəsulullah (s.ə.s) bir hədisi-şərifində belə buyurmuşdur: *"Məscidimdə namaz Məscidi-haram istisna olmaqla digər məscidlərdə qılınan min rükət namazdan daha xeyirlidir"* (İbn Hənbəl, I, 184).

Quba məscidi: camaatla namaz qılmaq üzrə tikilən ilk məsciddir. Məscidi-nəbəviyə 5 km. uzaqlıqdadır. Hz. Peyğəmbər (s.ə.s) Quba məscidini hər şənbə, bəzən də bazar ertəsi günləri mütəmadi olaraq ziyarət etmişdir. Ora bəzən miniklə, bəzən də piyada gedər və namaz qılardı. Bir hədisi-şərifində bunu müsəlmanlara da tövsiyə edərək belə buyurmuşdur: *"Kim gözəl bir şəkildə dəstəmaz alar, sonra da Quba məscidinə gələr və orada namaz qılarsa, ona ümrə savabı var"* (İbn Macə, İqamə, 198).

Məscidi-cümə: Hz. Peyğəmbərin (s.ə.s) hicrəti əsnasında ilk cümə namazının qılındığı yerdir. Mədinə-Quba yolu üstündə olan bu yerə Rəsulullah (s.ə.s) tərəfindən Məscidi-cümə adı verilən böyük bir məscid inşa edilmişdir.

Məscidi-qibləteyn: Sələmə oğulları məscidinə iki qibləli məscid mənasına gələn Məscidi-qibləteyn adı verilmişdir. Çünki gələn vəhy ilə Məscidi-əqsa istiqaməti olan ilk qiblə hicrətdən 18 ay sonra şaban ayının 15-də Məscidi-haram tərəfinə məhz həmin məsciddə döndürülmüşdür.

Cənnətül-bəqi: Mədinə müsəlmanlarının qurduqları ilk qəbiristanlıqdır. Məscidi-nəbəvinin şərq tərəfindədir və burada on minə yaxın səhabələr dəfn edilmişdir. Başda Hz. Osman olmaqla Hz. Peyğəmbərin əmisi Hz. Abbas, bibisi Hz. Safiyə, ən kiçik oğlu Hz. İbrahim, qızları Hz. Ruqiyə, Ümmügülsüm və Hz. Fatimə, nəvəsi Hz. Həsən, süd qardaşı Osman ibn Məzun burada dəfn edilmişlər.

Ühüd dağı və şəhidliyi: Ühüd dağı Mədinənin 5 km. cənubundadır. Hicrətin üçüncü ilində müsəlmanlarla müşriklər arasında məhz burada böyük bir döyüş olmuşdur. Əshabi-kiramdan 70 nəfər şəhid olmuş və bu dağın yamaclarına dəfn edilmişlər. Peyğəmbərimizin əmisi Hz. Həmzə (r.ə) ilə Müsəb ibn Ümeyr (r.ə) də bu şəhidlərin arasındadırlar. Peyğəmbərimiz bu şəhidliyi zaman-zaman ziyarət edərdi.

Məscidi-səbə: Xəndək döyüşünün baş verdiyi bu yerə bir-birinə yaxın yeddi kiçik məscid inşa edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Həccin tərifini yazın.
2. Həccin hikmət və faydaları haqqında danışın.
3. Ehram, təlbiyə, təvaf və vəqfə nə deməkdir?
4. Yerinə yetirilməsi baxımından həccin növlərini söyləyin.
5. Həccin rüknləri hansılardır?
6. Həcc kimlərə fərzdir?
7. Ümrənin mənası və hökmü nədir? Nə vaxt yerinə yetirilir?

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Mənasik		*Kəbənin ətrafında yeddi dəfə dönmək*
2	Afaqi		*İbadət məqsədilə bir yerdə dayanmaq*
3	Şövt		*Kəbənin ətrafındakı məscid*
4	Hill		*Kəbənin ətrafında bir dəfə dönmək*
5	Məscidi-haram		*Həcc ilə bağlı əməllər*
6	Miqat hüdud	**1**	*Zülhiccənin səkkizinci günü*
7	Təvaf		*Miqat hüdudlarının kənarından gələn hacılar*
8	Tərviyə		*Haram bölgəsi ilə Miqat arasındakı yer*

SƏHV-DÜZ

1. ( ) Müctəhidlərin əksəriyyətinə görə, həcc ibadəti "fövri"dir, yəni həcc fərz olanların lazımi şərtləri daşıdıqları ilk ildə həcc etməyə səy göstərmələri vacibdir.

2. ( ) Yalnız həcc niyyəti ilə ehrama girib ümrə etmədən tamamlanan həccə "qiran həcci" deyilir.

3. ( ) Mina Məkkə və Müzdəlifə arasında Haram hüdudları içində olan bir bölgədir.

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(rida, təvafı-tətəvvü, səy, Mədineyi-münəvvərə, həcəri-əsvəd, izar)

1. .... aləmlərə mərhəmət olaraq göndərilən Hz. Peyğəmbərimizin və onun gözəl əshabələrinin yaşadıqları mübarək yerdir.

2. .... təvaf əsnasında salam verilib öpülən mübarək daşdır.

3. Ehrama girən kişilərin beldən aşağı hissəsinə doladıqları örtüyə ....., beldən üst hissəsinə örtdükləri tikişsiz örtüyə isə ..... deyilir.

4. ..... ibadəti Səfa ilə Mərvə təpələri arasında Səfadan Mərvəyə dörd gediş, Mərvədən Səfaya üç dönüşlə yerinə yetirilir.

5. Məkkeyi-mükərrəmədə olanların zaman-zaman yerinə yetirdikləri nafilə təvafa .... deyilir.

BOŞ QOYULAN YERLƏRƏ HÖKMLƏRİNİ YAZIN

Miqat hüdudunu ehramsız keçməmək	*vacib*
Ərəfatda Cəbəli-rəhmə təpəsinin yamacında dayanmaq	
Həcc əməllərini qurtardıqdan sonra vida təvafı etmək	
İfada təvafını etmək	

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Həcc mövsümündə əvvəlcə ümrə üçün ehrama girib ümrə etdikdən sonra, həmin mövsümdə evə qayıtmadan təkrarən ehrama girərək yerinə yetirilən həcc növü hansıdır?

a. Təmättü həcci

b. Qiran həcci

c. İfrad həcci

d. Vida həcci

2. Aşağıdakılardan hansı miqat hüdudlarından bir deyil?

a. Cühfə

b. Yələmləm

c. Ərəfat

d. Zülhüleyfə

3. Vəqfə haralarda edilir?

a. Mina və Müzdəlifədə

b. Ərəfat və Müzdəlifədə

c. Səfa və Mərvədə

d. Ərəfat və Minada

4. Aşağıdakılardan hansı ehramlıya qadağan deyil?

a. Ətir sürtmək

b. Dırnaqları tutmaq

c. Saçları qırxdırmaq

d. Paltarını dəyişdirmək və yuyunmaq

5. Həccin fərzləri arasında aşağıdakılardan hansı yoxdur?

a. Ziyarət təvafı

b. Ərəfatda vəqfə

c. Ehram

d. Səy

6. Qurban bayramının birinci günü təmättü və qiran həccini yerinə yetirənlər sıra ilə hansı əməlləri etməlidirlər?

a. Əqəbə cəmrəsini daşlamaq, qurban kəsmək, saç qırxdırmaq, ifada təvafı

b. İfada təvafı, qurban kəsmək, əqəbə cəmrəsini daşlamaq, saç qırxdırmaq

c. Saç qırxdırmaq, ifada təvafı, əqəbə cəmrəsini daşlamaq, qurban kəsmək

d. Qurban kəsmək, saç qırxdırmaq, əqəbə cəmrəsini daşlamaq, ifada təvafı

7. Bir zərurət və üzr səbəbilə ehram qadağalarına riayət edə bilməyən cəza olaraq fərqli şeyləri seçmədə sərbəstdir. Hansı bu hallardan biri deyil?

a. Cəza qurbanı kəsmək

b. Üç gün oruc tutmaq

c. Bir yoxsula sədəqə vermək

d. Altı yoxsulu doyuzdurmaq

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

XIII BÖLMƏ

QURBAN

MÖVZULAR

A. QURBANIN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ

B. QURBAN KƏSMƏSİ VACİB OLAN KƏSLƏR

C. QURBANLIQ HEYVANLARIN XÜSUSİYYƏTLƏRİ

D. QURBANIN VAXTI VƏ KƏSİLMƏSİ

E. NƏZİR VƏ ƏQİQƏ QURBANI

İPDK YOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Qurbanın yardımlaşma baxımından faydaları haqqında fikir mübadiləsi edin.
2. Qurbanın tarixçəsi haqqında bildiklərinizi deyin.
3. Qurbanlıq heyvanların xüsusiyyətləri haqqında məlumat verin.
4. Nəzir qurbanı nə deməkdir? Qurban bayramında kəsilən qurbanlarla nəzir qurbanı arasında hansı fərqlər var? Bu mövzuda müəllimlərinizdən məlumat alın.
5. Qurbanın necə kəsildiyini bilirsinizmi? Qurban kəsilərkən nələri müşahidə etdiniz?
6. Əqiqə qurbanı uşaq hansı yaşda ikən kəsilir? Araşdırın.
7. Əti yeyilən və yeyilməyən heyvanlar haqqında məlumat əldə edin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. QURBANIN TƏRİFİ VƏ ƏHƏMİYYƏTİ

I. Qurbanın tərifi

Qurbanın kəlmə mənası "yaxınlaşmaq"dır. Termin mənası isə "Uca Allahın mərhəmətinə yaxınlaşmaq üçün müəyyən bir vaxtda ibadət niyyəti ilə kəsilən və qurban olma xüsusiyyətlərini daşıyan heyvandır". Qurban bayramında kəsilən qurban ərəb dilində "üdhiyyə" adlanır.

II. Qurban ibadətinin dinimizdəki yeri

İnsanın Allaha yaxınlaşmasına vasitəçi olan qurban Uca Allahın bəxş etdiyi nemətlərinə bir şükür borcudur. Allah-Təalaya yaxınlaşmaq, Onun mərhəmət və əfvinə nail olmaq üçün bir vasitədir.

III. Qurbanın hökmü

Qurban kəsmək vacibdir. Qurbanın kəsilməsi Uca Allahın əmridir. Allah-Təala "Kövsər" surəsinin 2-ci ayəsində belə buyurur: **"Rəbbin üçün namaz qıl və qurban kəs!"** Alimlər bu ayədəki xitabın Peyğəmbərimizə edilməsi səbəbilə qurbanın fərz yox, vacib olduğunu bildirmişlər.

Qurani-Kərimdəki "Həcc" surəsinin 34-cü ayəsi olan **"Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları** (qurban kəsərkən) **Allahın adını çəksinlər"** ifadəsi də qurban kəsməyin Uca Allahın bir tələbi olduğunu vurğulayır. Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Kimin imkanı olub qurban kəsməzsə, namazgahımıza yaxınlaşmasın"* (İbn Macə, Ədahi, 2). Başqa bir hədisi-şərifində Peyğəmbərimiz bu ibadətin İbrahim peyğəmbərdən bəri yerinə yetirildiyini vurğulamışdır: *"Qurban kəsin! Şübhəsiz ki, bu, atanız İbrahimin Sünnəsidir"*.

Qurban bayramının ilk üç günündə qurban kəsməyə gücü çatdığı halda bunu etməyən günahkar olar. Sonradan yoxsullaşsa da kəsmədiyi qurbanın borcundan qurtulmuş olmur. Heyvanı kəsmədən canlı olaraq və ya pulunu yoxsula verməklə qurban ibadəti yerinə yetirilmiş olmur.

IV. Qurbanın faydaları

Qurbanın çoxlu sayda faydaları var. Bunlardan bir neçəsini belə sadalaya bilərik:

- Allah yolunda maddi baxımdan fədakarlığa yönəldir.
- Yoxsullara köməklik göstərilməsini təmin edir.
- Qurban fağırların qida ehtiyaclarının az da olsa qarşılanmasına səbəb olur. Hər gün yer üzündə minlərlə heyvan kəsilir və əksər hallada bundan imkanı olanlar istifadə edir. Qurban bayramında isə dini bir vəzifəni yerinə yetirmək niyyəti ilə kəsilən qurbanlardan daha çox yoxsul və möhtac olan insanlar istifadə edirlər.
- Qurbanın əti və dərisi xeyriyyə cəmiyyətlərinə verilərək onlara dəstək verilir. Qurban fəaliyyətlərinin təşkil olunması sayəsində dünyanın ən ucqar yerlərinə belə yardımlar çatdırılır.
- Qurban iqtisadi baxımdan canlanma meydana gətirir.
- Qurban ibadəti səbəbilə mühüm bir dolanışıq mənbəyi olan heyvandarlıq təşviq olunur. Qurbanlıq heyvan bəsləyib satanlar dolanışıqlarını buradan təmin edirlər.



İPƏKYOLU NƏŞRİYYATI

B. QURBAN KƏSMƏSİ VACİB OLAN KƏSLƏR

Qurban bayramında ibadət niyyəti ilə qurban kəsmək aşağıdakı şərtləri daşıyana vacibdir:

1. Müsəlman olmaq.
2. Ruhi xəstə olmamaq.
3. Həddi-büluğa çatmaq.
4. Azad olmaq.
5. Yolçu olmamaq. Hz. Əbu Bəkr ilə Hz. Ömər səfərdə olduqlarında qurban kəsməmişlər. Hz. Əli də: "Səfərdə cümə namazı ilə qurban borc deyil", - demişdir. Əgər səfərdə olan naflə olaraq qurban kəsərsə, etibarlı olar. Ancaq kəsmədiyi təqdirdə məsul olmaz.
6. Təməl ehtiyaclarından başqa artan və çoxalan olub-olmamasından asılı olmayaraq nisab miqdarında mala sahib olmaq. Qurbanın nisab miqdarı fitrənin nisabı ilə eynidir. Qurbanın nisabının zəkatın nisabından fərqli olan tərəfi zəkata daxil olmayan malların qurbanın nisabında daxil olmasıdır.

C. QURBANLIQ HEYVANLARIN XÜSUSİYYƏTLƏRİ

Qurbanlar yalnız qoyun, keçi, inək, camış və dəvə cinsindən olan heyvanlardan kəsilir. Bu heyvanların erkəyi də, dişisi də qurban edilə bilər.

Altı ayını keçib bir yaşındakı qoyun kimi iri olan quzular da qurban edilə bilər. Bir dəvəni və ya inəyi ən çox yeddi nəfər şərikli qurban edə bilərlər. Ancaq ortaqların hamısı müsəlman və hər biri öz payına düşən miqdarın pulunu verib Allah rizası üçün qurban kəsmə niyyətində olmalıdırlar.

Qurbanlıq heyvanı qurban edilməyə əngəl olmayan qüsurları:

Qulağı dəlik, qulağının ucu kəsik, qulağı yarıq, dişlərinin azı tökülmüş, cinsi orqanı burulmuş heyvanlar qurban edilə bilər.

Çəp, topal, anadangəlmə buynuzsuz, buynuzunun bir qismi qırılmış heyvanlar da qurban edilə bilər.

Qurbanlıq heyvanın qurban edilməyə əngəl olan qüsurları:

Bir və ya iki gözü kor, dişlərinin çoxu tökülmüş, buynuzunun birisi və ya hər ikisi kökündən qırıq, qulağının və ya quyruğunun yarısından çoxu kəsik, anadangəlmə qulaqsız və ya quyruqsuz heyvanlar qurban edilməz.

Döşünün ucu qopuq, çox zəif, ayaq üstə dayana bilməyəcək, ya da bir neçə addım ata bilməyəcək qədər xəstə, gəzə bilməyəcək dərəcədə topal heyvanlar da qurban edilə bilməz.

Qurban kəsmədə heyvan seçimi:

Qurban edilmək istənən iki heyvan ət və qiymət baxımından bərabər olarsa, hansının əti daha ləzzətli isə, həmin heyvanı qurban etmək daha fəzilətlidir. Əgər ətləri ləzzət baxımından bərabər olarsa, qiymət, ya da ət baxımından daha çox olanın qurban edilməsi daha fəzilətlidir.

- Qoç ilə qoyun qiymət və ət baxımından bərabər olsalar, qoça üstünlük verilər.
- Kök bir qoyun qiymət və ət baxımdan inək və ya dəvə ilə bir nəfərlik pay cəhətdən bərabər olsa, qoyun üstün tutular.

Keçi, inək və dəvələrin erkəkləri ilə dişiləri qiymət baxımından bərabər olsalar, bunların hər birinin dişisini qurban etmək erkəyini qurban etməkdən daha fəzilətlidir. Qoyun cinsində isə qoç kəsmək daha məqbuldur.

İPƏKYOLU NƏŞRİYYATI

D. QURBANIN VAXTI VƏ KƏSİLMƏSİ

I. Qurbanın kəsilmə vaxtı, qaydası və duaları

Qurban, bayramın birinci, ikinci və üçüncü günləri kəsilməlidir. Ancaq birinci günü kəsmək daha yaxşıdır. Qurbanlar şəhərlərdə və ya bayram namazı qılınan digər yaşayış yerlərində namazdan sonra, bayram namazı qılınmayan kəndlərdə və köçəri həyat yaşayan yerlərdə isə bayram günü dan yerinin ağarmasından sonra kəsilir. İlk vaxtı budur. Son vaxtı isə bayramın üçüncü günü günəş batana qədər davam edir. Bir üzr səbəbi ilə bayram namazına gedə bilməyən kəs, namaz qılınacaq qədər bir müddət keçdikdən sonra qurbanını kəsə bilər. Qurbanı gecə kəsmək tənzihən məkruhdur. Çünki gecə qaranlıq səbəbi ilə kəsmək çətindir və xəta etmə ehtimalı da vardır.

Qurban kəsmə müddətini üç günlə məhdudlaşdırma bu dəlillərə söykənir: Hz. Ömər, Hz. Əli və İbn Abbasdan (r.ənhüma) rəvayət edilmişdir: *"Qurban kəsmə günləri üç gündür, ilk gün ən fəzilətlisidir"*. Eyni zamanda İbn Ömər (r. ənhüma) da belə demişdir: "Qurban günləri birinci qurban günündən sonra iki gündür".



BİLGİ QUTUSU

Bu hədisi-şərifə görə, ərəfə günü gündüz və ya gecə, yaxud bayramın ilk günü, bayram namazı qılınan yerlərdə namazdan əvvəl kəsilən heyvan qurban hökmündə olmaz. Ənəsdən (r.ə) rəvayət edilən bir hədisdə belə buyurulur: *"Kim namazdan əvvəl qurban kəsərsə, bir daha kəssin. Hər kim namazdan sonra kəsərsə, onun bu ibadəti tamamdır və müsəlmanların sünnəsinə əməl etmişdir"* (Buxari, İdeyn, 5, 10, 17, 23, Zəbaih, 17, Ədahi, 1, 4, 8, 11, 12).

Maliki və hənbəlilər də hənəfilər kimi qurban kəsmə müddətini üç gün olaraq qəbul edirlər. İmam Şafeiyə görə isə, qurban kəsmə müddəti dörd gündür və təşriq günlərinin sonuna qədər davam edir. Əsaslandıqları dəlil bu hədisdir: *"Ərəfat bütövlüklə vəqfə (ayaq üstə durma) yeridir və bütün təşriq təkbirləri də qurban kəsmə zamanıdır"*. İbn Hibbanın bir rəvayətində isə, "Bütün təşriq günlərində qurban kəsilər" deyilir. Təşriq günləri bayramın dördüncü gününü də əhatə edir.

Qurbanlar qibləyə tərəf yatırılar və ***"bismillahi Allahu əkbər"*** deyilərək kəsilər. Bunu, mümkün olarsa, sahibi kəsməlidir, əks təqdirdə uyğun bir müsəlmana kəsdirməli, özü də başında olmalı və bu ayə oxunmalıdır:

إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ لَا شَرِيكَ لَهُ

Mənası: ***"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur"*** (Ənam, 6/162).

Cabir ibn Abdillah (r.ə) Rəsulullahın (s.ə.s) bayram günü iki qoç kəsdiyini və bunlara tərəf çevrilərək belə dua etdiyini rəvayət etmişdir: ***"İnni vəccəhtu vəchiyə lilləzi fətaras-səməvəti vəl-ərdi hanifən və mə ənə minəl-müşrikin. İnnə səlati və nüsuki və məhyəyə və məməti lillahi Rabbil-aləmin. Lə şərikə ləhu və bizəlikə umirtu və ənə əvvəlul-müslimin. Allahummə minkə və ləkə an Muhəmmədin və ümmətihi"*** (İbn Macə, Ədahi, 1). Mənası: ***Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri Yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm*** (Ənam, 6/79). ***Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam*** (Ənam, 6/162-163).

İPƏKYOLU NƏŞRİYYATI

Hz. Peyğəmbər bu duanın ardından kəsilən qurbanlarla əlaqəli bu əlavə etmişdir: *"Ey Allahım! Bu iki qurbanı səndən və sənə məxsus olmaqla Mühəmməd və ümməti adına kəsirəm"*. Əbu Hüreyrədən gələn rəvayətdə bu iki qurbandan birini ümməti adına, digərini isə özü və Mühəmməd ailəsi adına kəsdiyi ifadə edilir (İbn Macə, Ədahi, 1).

Qurban kəsilərkən yalnız qurban sahibinin bismillah deməsi kifayət deyil, qurbanı kəsəndə ***"bismillahi Allahu əkbər"*** deməlidir. Bismillahı qəsdən tərk edərsə, qurbanın əti yeyilməz. Qurban yiyəsi əlini qəssabın əlinin üstünə qoyaraq qurbanı kəsərlərsə, ikisi də bismillahı deməlidir. Biri qəsdən bismillahı tərk edərsə, heyvanın əti yeyilməz.

Ənəs ibn Malik Hz. Peyğəmbərin iki qoçu qurban edərkən bismillah və təkbir dediyini və ayağının heyvanın yan tərəfinə qoyduğunu rəvayət etmişdir.

Qurban bayramında kəsilmək üzrə satın alınmış qurbanlıq heyvan kəsilməyib bayramın üç günü keçərsə, əgər bu heyvan mövcuddursa özü, istifadə edilibsə qiyməti yoxsullara sədəqə verilməlidir. Odur ki, növbəti ilə təxir olunması düzgün deyil.

Qurbanın vacibliyi üçün kəsmə müddətinin axırı da etibarlıdır. Belə ki, qurban bayramının üçüncü günü, günəş batmazdan əvvəl varlı olan və digər şərtləri də daşıyan bir müsəlmana qurban vacibdir. Bundan əvvəlki vaxtlarda yoxsul olması nəticəni dəyişdirməz. Bunun əksinə, bayramın üçüncü günü günəş batmadan bir az əvvəl yoxsullaşan və ya vəfat edən müsəlmandan da qurban məsuliyyəti götürülər.

İnsanlar bayram gününü müəyyən etmədə yanılsalar və namaz qılıb qurbanlarını kəsdikdən sonra, o günün ərəfə günü olduğu aydın olsa, qıldıqları namaz və kəsdikləri qurbanlar məqbuldur. Çünki bu kimi səhvlərdən çəkinmək daim mümkün deyil. Bu səbəbdən müsəlmanların ibadət və itaətlərini qorumaq məqsədi ilə bu mövzuda caizlik hökmü verilmişdir.

Qurbanlıq heyvan kəsilən yerə əziyyət verilmədən aparılmalı və kəskin bıçaqla kəsilərək ona çətinlik çıxarılmamalıdır. Dərisi heyvan sakitləşdikdən sonra soyulmalıdır. Qurban sahibinin qurban kəsildiyi gün, ilk yeməyini qurbanın ciyərindən yeməsi məndubdur.

2. Qurbanın əti və dərisi ilə bağlı məsələlər

Nəzir qəbilindən olmayan qurbanın ətindən sahibi varlı olsun və ya olmasın özü yeyə bildiyi kimi yoxsul olmayanlara da yedirə bilər və paylaya bilər. İslam alimlərinin əksəriyyətinə görə, qurban ətinin üç hissəyə bölünməsi müstəhəbdir. Bunlardan bir hissəsi qurban sahibi və baxmaqla məsul olduğu şəxslər tərəfindən istifadə edilir. İkinci hissəsi varlı olsalar da arvad, dost və qohum-əqrəbaya pay verilir. Üçüncü hissəsi isə qurban kəsə bilməyən yoxsullara paylanır. Dəlilə, Kitab və Sünnədir. Quranda belə buyurulur: **"Onlardan özünüz də yeyin, biçarə (zavallı) yoxsullara da yedirdin!"** (Həcc, 22/28) **"Onlar böyrü üstə düşən (canları çıxdığı) zaman (ətindən) özünüz də yeyin, (yanınızda olub utandığından) əl açmayana (lakin verilənə e'tiraz etməyənə) və dilənçiyə də yedirdin"** (Həcc, 22/36).

İbn Abbas (r.ənhüma) Hz. Peyğəmbərin qurbanı ilə əlaqədar bunu rəvayət etmişdir: "O, üçdə birini ailə fərdlərinə yedirər, üçdə birini yoxsul olan qonşularına yedirər, geri qalan üçdə birini də sədəqə verərdi". Bununla birlikdə orta vəziyyətdə olan qurban sahibinin, baxmaqla məsul olduğu şəxslər çox olarsa, qurban ətini onlara ayırıb qoyması da məndubdur.

Hz. Peyğəmbər əvvəllər qurban ətlərinin üç gündən çox saxlanmasını qadağan etmiş, lakin sonradan buna icazə vermişdir. Bir hədisdə belə buyurulur: "*Mən sizə azuqə istəmək məqsədi ilə gələn bədəvi ərəblə görə (onlara verməyiniz üçün) üç gündən artıq qurban ətlərini saxlamağınızı qadağan etmişdim. Artıq*

İPƏKYOLU NƏŞRİYYATI

Allah bolluq ehsan etmişdir, istədiyiniz kimi saxlaya bilərsiniz" (Müslim, Cənaiz, 106, Ədahi, 37). Başqa hədislərdə mövcud olan "yeyin, saxlayın və sədəqə verin" və ya "yeyin, yedirin və saxlayın" (Buxari, Ədahi, 16) ifadələri qurban sahibinə öz vəziyyətinə görə hərəkət etmə imkanı vermişdir.

Nəzir olaraq kəsilən qurbanın ətindən nəzir edən şəxslə ana, ata, baba, nənə, uşaq, nəvə və arvad kimi baxmaqla məsul olduğu şəxslər yeyə bilməz. Əgər yesələr, yediklərinin qiymətini yoxsullara bağışlamalıdırlar. Nafilə olaraq kəsilən qurbanın ətindən sahibi və baxmaqla məsul olduğu şəxslər yeyə bilər.

Qurban sırf Allahın razılığını əldə etmək məqsədilə kəsildiyi üçün, bunun ətinin və digər hissələrinin satılması və ya sahiblərinə gəlir gətirən işlər üçün xərcləməsi caiz deyil.

Odur ki, qurban əti, dərisi, yunu, bağırsaqları, sümükləri, piyi, baş-ayaq və digər hissələrinin satılması məkruhdur. Bu istər vacib, istərsə də nafilə qurban olsun hökm dəyişmir. Əgər satılarsa, qiyməti yoxsullara bağışlanmalıdır. Eləcə də qəssaba bundan zəhmət haqqı da verilməz. Hədisdə belə buyurulmuşdur: *"Qurbanın dərisini satanın qurbanı olmaz"* (Zeyləi, "Nəsbür-rayə", IV, 218). Hz. Əlidən belə dediyi rəvayət edilmişdir: "Rəsulullah (s.ə.s) dəvələr qurban kəsilərkən başında dayanmağımı, dərilərini və bellərindəki çullarını paylaşdırmağımı əmr etdi və onlardan hər hansı bir şeyi qəssaba zəhmət haqqı kimi verməyi mənə qadağan etdi və *"Qəssabın pulunu biz özümüz verərik!"* - buyurdu" (Müslim, Həcc, 348).

Qurbanın dərisi Allahın rizasına uyğun bir yerə bağışlanar və ya ehtiyac varsa, üstündə namaz qılmaq üçün və ya oturmaq üçün istifadə edilə bilər. Kəsilməzdən əvvəl yunlarını qırxmaq məkruhdur. Qırxılarsa, qiyməti yoxsullara bağışlanmalıdır. Ancaq kəsildikdən sonra yunundan istifadə edilə bilər. Dəri daimi olan və faydalı olan başqa bir şeylə dəyişdirilə bilər. Ancaq pulla satıla bilməz və bu dəri yeyinti məhsulları ilə də mübadilə edilə bilməz. Hz. Ayşənin (r.ə) və digər bəzi səhabələrin qurban dərilərindən su qabı düzəltdikləri rəvayət edilmişdir.

Qurbanın dərisi zəkat verilən kəslərə sədəqə olaraq verilə bilər. Həmçinin məscid, məktəb, yol, körpü kimi yerlərə, eləcə də İslama uyğun fəaliyyət göstərən dini vəqf və xeyriyyə cəmiyyətlərinə də bağışlana bilər. Lakin haram yolda fəaliyyət göstərən təşkilatlara verilməsi caiz deyil.

Qurban ətinin zəkatda olduğu kimi kəsilən bölgədə paylanması təşviq edilmişdir. Ancaq daha çox möhtaclar olduqda, başqa yerlərə göndərilməsi və ya orada kəsmək də caizdir.

Bir şəxs öz malından alıb savabını bir ölüyə bağışlamaq üzrə bayram günlərində qurban kəsə bilər, kəsdiyi bu qurbanın ətindən yeyə bilər, başqalarına da verə bilər. Lakin bir şəxs vəfat edənin vəsiyyəti ilə onun adına kəsdiyi qurbanın ətindən yeyə bilməz, bu tamamilə sədəqə verməlidir. Ölü üçün kəsilən belə bir qurban da qurban bayramı günlərində kəsilər, ərəfə günü kəsilə bilməz.

Hünnəşdən (r.ə) belə dediyi rəvayət edilmişdir: "Hz. Əlini iki qoç kəsərkən gördüm və ona: "Bu nədir?" - deyə soruşdum. Hz. Əli: "Rəsulullah (səs) mənə onun üçün qurban kəsməyimi vəsiyyət etmişdi, mən də onları kəsirəm", - dedi".

Şafeilərə görə, icazəsi olmadan başqası adına qurban kəsilə bilməz. Vəsiyyət etməmişsə, ölü adına da qurban kəsilməz. Çünki Uca Allah: **"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!"**, - buyurmuşdur (Nəcm, 53/39).

Varlı üçün vacib olan qurbanın əsas ünsürü (rüknü), qurbanlıq heyvanı kəsməkdir. Bu olmayınca qurban məsuliyyəti yerinə yetirilmiş olmaz. Bu səbəbdən qurbanlıq heyvanın kəsilmədən özünün və ya qiymətinin yoxsullara verilməsi qurban yerinə keçməz. Ancaq hər hansı bir səbəbdən alınan qurbanlıq bir heyvan kəsilmədən bayramın üçüncü günü günəş batsa, artıq diri olaraq bağışlanmalıdır. Çünki buradakı kəsmə bağışlamadır və artıq bunun ətindən sahibi yeyə bilməz.

Bir qurbanı əhli-kitabın kəsməsi məkruhdur. Atəşpərəst və ya inkarçının kəsməsi isə caiz deyil. Lakin kəsilən bir qurbanın ətindən qeyri-müsəlmana bağışlanmasında hər hansı əngəl yoxdur.

İPƏKYOLU NƏŞRİYYATI

E. NƏZİR VƏ ƏQİQƏ QURBANI

QURBAN NÖVLƏRİ

- **ÜDHİYYƏ QURBANI** (Qurban bayramında kəsilən vacib qurban)
- **HƏCDƏ KƏSİLƏN QURBANLAR** (Minada kəsilən şükür, cəza və ehsar hədy qurbanları)
- **NƏZİR (ƏHD) QURBANI** (Edilən nəzir nəticəsində kəsilməli olan qurban)
- **ƏQİQƏ QURBANI** (Doğulan körpə üçün Allah-Təalaya şükür məqsədilə kəsilən qurban)
- **NAFİLƏ QURBAN** (Hər hansı bir vaxtda Allah rızası və şükür üçün kəsilən qurban)

1. Nəzir (əhd) qurbanı

Nəzir (əhd) qurbanı bir şərtə bağlı olaraq və ya olmayaraq sırf Allah rizası üçün kəsməyə söz verilən qurbandır. Məsələn, "Oğlum dərslərini keçərsə, bir qoyun kəsəcəyəm" deyənin bu əhdi şərtə bağlı bir nəzir qurbanına misal verilə bilər. Həmçinin hər hansı bir şərtə bağlı olmadan "Allah rizası üçün bir qoç qurban edəcəyəm" deyənin əhdi şərtə bağlı olmayan bir nəzir qurbanına misaldır.

Nəzir edənin etdiyi nəzir qurbanını kəsməsi vacibdir. Uca Allah belə buyurur: **"...**(möminlər) **nəzirlərini yerinə yetirsinlər..."** (Həcc, 22/29). Nəzir varlılara verilməz. Nəzir qurbanının ətindən nəzir edən, onun həyat yoldaşı, atası, anası, nənəsi, babası, uşaqları və nəvələri yeyə bilməz. Əgər yesələr, əvəzini yoxsullara verməlidirlər.

Nəzir qurbanın dərisi və bağırsaqları digər qurbanlardakı kimi yoxsullara, xeyriyyə cəmiyyətlərinə verilə bilər. Dərisi ev əşyası olaraq da istifadə edilə bilər. Ancaq əvəzi fağırlara verilməlidir.

Nəzir (əhd) qurbanınnən səhih olması üçün aşağıdakı şərtlər olmalıdır:

a. Dini baxımdan etibarlı olmalıdır. Bir insanın və ya bir məxluqun adına edilərsə, caiz olmaz. Məsələn, bir qəbirin adına edilən nəzir etibarsızdır və yerinə yetirilə bilməz.

b. Yerinə yetirilməsi mümkün olmalıdır. Məsələn, "Bir göz qırpımında aya gedib gəlsəm, qurban kəsəcəyəm" deyilərsə, bu nəzir etibarsız olar.

c. Halal bir iş olmalıdır. Haram və məkruh olan şeyləri nəzir etmək nə caiz, nə də səhihdir. Məsələn, "Bu gün oğurluq edə bilsəm, qurban kəsəcəyəm" demək kimi. Bu kimi nəzirlər yerinə yetirilməz. Hz. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Allaha üsyan edəcəyini nəzir edən Allaha asi olmasın!"* (Buxari, Eyman, 28).

d. Nəzir edilən şey qurban kəsməyi əhd etmək kimi fərz və ya vacib ibadət növündən olmalıdır. Xoruz kəsməyi, balıq tutmağı və s. nəzir etmək yerinə yetirilməsi lazım olmayan nəzirlərdir.

e. Özbaşına bir ibadət olmalıdır. Dəstəmaz almağı nəzir etmək özbaşına bir ibadət olmadığı üçün nəzir sayılmır.

f. Nəzir edilən şey nəzir edən üçün əvvəlcədən fərz və ya vacib olmamalıdır. Qurban bayramında vacib olan qurbanı kəsmək kimi bir ibadət nəzir edilərsə, bu etibarsız olar. Çünki nəzir edən onsuz da bu qurbanı kəsməlidir.

g. Nəzir qurbanını kəsməyib onun pulunu sədəqə kimi verməsi caiz deyil. Çünki nəziri yerinə yetirmək vacib olduğu üçün onun əvəzi verilə bilməz.

İPƏKYOLU NƏŞRİYYATI

2. Əqiqə qurbanı

Əqiqə kəlməsinin mənası "doğulan körpənin başındakı tüklərdir". Termin mənası isə "yeni dünyaya gəlmiş körpə üçün Allah-Təalaya şükür məqsədilə kəsilən qurbanın adıdır". Buna "nəsikə" də deyilir. Əqiqə qurbanını kəsmək Sünnədir.

Əqiqə qurbanı uşağın doğulduğu gündən etibarən yetkinlik çağına çatanadək kəsilə bilər. Ancaq körpənin dünyaya gəlişinin yeddi günündə kəsilməsi daha fəzilətlidir. Yeddinci gündə əqiqə qurbanı kəsilir, körpənin adı qoyulur və saçları kəsilir. Saçları ağırlığında qızıl və ya gümüş sədəqə olaraq verilər.

Əqiqə qurbanının ətindən sahibi və yaxınları yeyə bilər. Əti sədəqə olaraq da paylana bilər. Dərisi də evdə istifadə edilə bildiyi kimi, sədəqə olaraq da verilə bilər.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Qurbanın kəlmə mənası ilə qurban ibadəti arasındakı əlaqəni izah edin.
2. Qurban kəsməyin fərqli məzhəblərə görə hökmünü araşdırın.
3. Qurbanı kimlər kəsməlidir? Bu mövzunu izah edin.
4. Qurbanlıq heyvanların xüsusiyyətlərini yazın.
5. Hansı heyvanlar qurban edilməz?
6. Qurban kəsməyin vaxtı nə vaxtdır?
7. Bayram namazından əvvəl kəsilən qurbanın hökmünü deyin.
8. Əqiqə qurbanı hansı məqsədlə kəsilir?
9. Nəzir qurbanı nə deməkdir, necə olur?

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) Anadangəlmə qulaqsız və ya quyruqsuz olan heyvanlar qurban edilə bilməz.
2. ( ) Qurban kəsmək üçün son vaxt bayramın dördüncü günü günəş batana qədərdir.
3. ( ) Xristian və ya yəhudi qurbanı Allahın adını anaraq kəsərsə, o qurbanın əti yeyilər.
4. ( ) Əqiqə qurbanının ətidən sahibi və ailə üzvləri yeyə bilməz.
5. ( ) Altı ayını keçmiş bir yaşındakı qoyun kimi görsənən iri quzular qurban edilə bilər.

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakı məlumatlardan hansı səhvdir?

a. Qurbanlar yalnız qoyun, keçi, inək, camış və dəvə cinsindən olan heyvanlardan kəsilməli

b. Qurban kəsmək vacib olan bir müsəlman ruhi xəstə olmamalı və azad olmalıdır

c. Heyvanı kəsmədən canlı və ya pulunu yoxsula verməklə qurban ibadəti yerinə yetirilmiş olur

d. Heyvan qanı axıdılmadan öldürülərsə, qurban yerinə keçməz

2. Qurbanlıq heyvanda aşağıdakı qüsurlardan hansı olarsa, qurban edilməsinə əngəl təşkil etməz?

a. Çəp olarsa

b. Buynuzu kökündən qırılmış olarsa

c. Bir gözü kor olarsa

d. Dişlərinin çoxu tökülmüş olarsa

3. Ət və qiymət baxımından bərabər olduqda qurbanlıq heyvanlar arasında ən fəzilətli olanı hansıdır?

a. Qoyun

b. Dəvə

c. İnək

d. Keçi

4. Qurban kəsməklə bağlı məlumatın hansı düzgündür?

a. Dinsiz və müşrik qurban kəsə bilər

b. Kəsərkən bəsmələ qəsdən tərk edilsə, o heyvanın əti yeyilə bilər

c. Kəsərkən bəsmələ unudularsa, qurban əti bəsmələ ilə yeyilə bilər

d. Xristian və ya yəhudi heyvanı kəsərsə, o qurban yeyilməz

5. Qurban ətini neçə hissəyə ayırmaq ən gözəldir?

a. 4

b. 3

c. 2

d. 5

6. Əqiqə qurbanı haqqında hansı məlumat səhvdir?

a. Digər adı nəsikədir

b. Allaha şükür üçün kəsilir

c. Dərisi satıla bilər

d. 7-ci günə qədər kəsilməsi fəzilətlidir

İPƏKYOLU NƏŞRİYYATI

XIV BÖLMƏ

İSLAM AİLƏ HÜQUQU

MÖVZULAR

A. AİLƏDƏ TƏLƏB OLUNAN ƏSAS XÜSUSİYYƏTLƏR

B. EVLİLİYİN FAYDALARI

C. EVLİLİKDƏN ƏVVƏL DİQQƏT EDİLMƏLİ OLAN MƏSƏLƏLƏR

D. EVLƏNMƏ MANEƏLƏRİ

E. HÜQUQİ NƏTİCƏSİ OLMAYAN NİKAH MÜQAVİLƏLƏRİ VƏ VƏLİNİN SƏLAHİYYƏTLƏRİ

F. DİNİMİZƏ GÖRƏ DÜZGÜN OLMAYAN NİKAHLAR

G. NİKAH VƏ TOY ŞƏNLİKLƏRİ HAQQINDA BİLİNMƏLİ OLAN MƏSƏLƏLƏR

H. MEHR

İ. NƏFƏQƏ (AİLƏ DOLANIŞIĞININ TƏMİN OLUNMASI)

J. EVLİLİK HƏYATININ SONA ÇATMASI (BOŞANMA)

K. BOŞANMANIN NÖVLƏRİ

L. İDDƏ VƏ HÖKMLƏRİ

M. UŞAĞA BAXMAQ VƏ BUNUNLA BAĞLI MƏSƏLƏLƏR (HİDANƏ)

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. Cəmiyyətlər ailə müəssəsəsi olmadan xoşbəxt ola bilərmi? Müzakirə edin.
2. Zinanın çoxaldığı cəmiyyətlərdə hansı problemlər olur? Araşdırın.
3. Evliliklə əlaqədar olan ayə və hədisləri araşdırın.
4. Qadın və kişinin evlənməklə meydana gələn hüquq və öhdəliklərini böyüklərinizdən öyrənin.
5. Nikah, nəfəqə, mehr, talaq, müxaliə, təfriq terminlərinin mənalarını tapın.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. AİLƏDƏ TƏLƏB OLUNAN ƏSAS XÜSUSİYYƏTLƏR

Ailə bir-birinə qarşı meyilli olan qadın və kişini, hüquqi ölçülər çərçivəsində bir yerə gətirən, ürəyi rahatlığa, bədəni isə sükunətə qovuşduran bir müəssəsədir. Allah-Təala ailədəki sevgi və etimada əsaslanan xoşbəxtliyi, Özünün əzəmətinə aid bir dəlil olduğunu bildirir: **"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!"** (Rum, 30/21)

Yeni nəsillər bu dəyərləri ailə mühitində qazanırlar. Bunun üçün də sevgi, hörmət, yardımlaşma və dəstək olmaq kimi fəzilətlərin meydana gəlməsi üçün, cəmiyyətlər sağlam bir ailə quruluşuna sahib olmaq məcburiyyətindədir.

İslam dini müsəlmanlar tərəfindən qurulan ailə həyatını bəzi prinsiplərə bağlamışdır. Bu prinsiplər çərçivəsində qurulan müsəlman bir ailədə tələb olunan əsas xüsusiyyətlər bunlardır:

1. İslama görə, ailə hər şeydən əvvəl qanuni bir nikaha əsaslanmalıdır.

İslam dini evliliyi təşviq etmişdir. Quran-Kərimdə belə buyurulur: **"(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir!"** (Nur, 24/21)

Rəsulullah (s.ə.s) gənclərə xitab edərək belə buyurmuşdur: *"Nikah mənim Sünnəmdir. Kim mənim Sünnəmi tərk edərsə, məndən deyil. Evlənin, çünki mən digər ümmətlərə qarşı sizin çoxluğunuzla fəxr edəcəyəm. Ey gənclər! Kimin evlənməyə gücü çatırsa, evlənsin. Çünki evlilik gözü və namusu harama qarş daha yaxşı qoruyur. Evlənməyə gücü çatmayan da oruc tutmağa davam etsin. Çünki oruc onun üçün bir qalxandır"* (İbn Macə, Nikah, 1; Buxari, Nikah, 2, 3). Bir hədisdə də belə buyurulmuşdur: *"Evlənməkdə sədəqə vermək qədər savab vardır"* (Müslim, Zəkat 52; Əbu Davud, Tətəvvü 12).

Əshabi-kiramdan üç nəfər Hz. Peyğəmbərin (s.ə.s) xanımlarına onun gecə ibadəti haqqında soruşmuş, verilən cavab qarşısında özlərinin gecə ibadətlərinin peyğəmbərin gecə ibadətləri yanında az olduğunu düşündülər. Bunun müqabilində onlardan birincisi gecələri heç yatmadan ibadət edəcəyinə, ikincisi davamlı oruc tutacağına, üçüncüsü isə heç evlənməyəcəyinə və xanımlarından ayrı qalacağına qərar verirlər. Onların bu qərarlarından xəbər tutan Allahın Rəsulu belə buyurdu: *"Bəzi şəxslər var ki, belə-belə demişlər. Ancaq mən həm namaz qılır, həm də yatıram; həm oruc tutur, həm də tutmaram; qadınlarla da evlənirəm. Kim mənim Sünnəmi tərk edərsə, məndən deyil.* (Müslim, Nikah 5)

2. Ər-arvad arasındakı münasibətlər qarşılıqlı sevgi və hörmət əsasına söykənməlidir.

Allah-Təala ailə həyatının "gözəl rəftar" əsasına söykənməli olduğunu belə bildirir: **"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyil! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun"** (Nisa, 4/19).

Vida həccində Peyğəmbərimiz (s.ə.s) ər-arvad arasındakı hüquqları təfərruatı ilə izah etmişdir. (Müslüm, Həcc 147). Bundan əlavə, Peyğəmbərimiz müxtəlif hadisələrdə qadınlara qarşı yaxşı davranılmasını tələb etmiş və xanımına qarşı yaxşı davranan kişini "xeyirli kişi" kimi tövsif etmişdir: *"Mömünlərin iman*

İPƏKYOLU NƏŞRİYYATI

baxımından ən mükəmməl olanı, əxlaq baxımından ən yaxşı olanıdır. Sizin xeyirli olanınız, ailəsinə qarşı ən xeyirli olanınızdır" (İbn Macə, Nikah 50).

3. Ər-arvadın bir-birinə əziyyət vermək və zülm etmək haqqı yoxdur. (Əbu Davud, Sünnə 14)

"Qadınlarınız haqqında Allahdan qorxun. Şübhəsiz onlar sizin yanınızdakı köməkçilərinizdir. Onları Allahın əmanəti olaraq aldınız..." (Əbu Davud, Mənasik 56).

Hz. Peyğəmbər xanımları ilə ən yaxşı rəftar edənlərdənn idi. Daim gülərüzlü və şirindil idi və ailə üzvlərinə iltifat edərdi. Hz. Aişə Rəsullah (s.ə.s) özü ilə etdiyi bir yarış haqqında belə danışır: "Rəsulullah (s.ə.s) ilə qaçışda yarışdıq mən onu keçdim. Bu mənim arıq olan vaxtımda olmuşdu. Mən kökələndən sonra bir daha yenidən yarışdıq, ancaq bu dəfə o məni keçdi" (İbn Macə, Nikah 50).



BİLGİ QUTUSU

Ömür boyu birlikdə yaşamağa qərar verən ər-arvad bir-birinin qədr-qiymətini bilməli, qarşılıqlı anlayış və fədakarlıq içində İslamın bildirdiyi prinsiplərə tabe olaraq Uca Allahın rizasını qazanmağa çalışmalıdırlar.

4. Ata-ana və uşaqlar arasındakı münasibətlər qarşılıqlı sevgi və hörmətə əsaslanmalıdır.

Hz. Peyğəmbər (s.ə.s) uşaqlarına, nəvələrinə və səhabələrin uşaqlarına qarşı həddindən artıq şəfqətli və mərhəmətli idi. Əshabını da belə davranmağa təşviq edərdi (Buxari, Ədəb 18).

Hz. Aişənin nəql etdiyinə görə, bir bədəvi Allahın elçisinin yanına gələrək belə dedi: "Siz kiçik uşaqları oxşadaraq öpürsünüz, ancaq biz onları öpmərik". Hz. Peyğəmbər ona belə buyurdu: *"Allah-Təala sənin qəlbindən mərhəməti çəkib çıxartmışsa, mən nə edəbilərəm?"*

Əbu Hüreyrədən (r.ə) rəvayət edildiyinə görə buna bənzər bir hadisə də belə meydana gəlmişdir. Bir gün Allahın Rəsulu nəvəsi Hz. Həsəni öpmüşdü. Həmin an orada olan Əqra ibn Habis (r.ə) belə dedi: "Mənim on dənə uşağım var. Ancaq onlardan heç birini öpməmişəm". Allah Rəsulu ona baxdı və belə buyurdu: *"Mərhəmət etməyənə mərhəmət edilməz"* (Buxari, Ədəb 18, 27).

Ata-ana uşaqlarına ədalətli davranmalıdır. Uşaqlar da ata-analarına qarşı lazmi hörməti göstərməlidirlər. Xüsusilə də, qocaldıqları dövrlərdə bu daha çox əhəmiyyət qazanır. Allah-Təala belə buyurur: **"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: 'Uf!' belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!"** (İsra, 17/23) Ancaq unutmamalıyıq ki, insanların verdikləri əmrlərə itaət etmənin şərti Allahın əmr və qadağanları ilə zidd düşməməsidir. Ata-anaya itaət etmək də bu prinsiplə məhduddur.

Allaha asilik sayılamayan mövzularda ata-anaya itaət etmək vacibdir. Ancaq namaz, oruc, kimi fərzləri etməmək kimi mövzularda ata-ananın qoyduğu qadağalara uşaqlar tabe olmaq məcburiyyətində deyil. Elə buna görə də ayədə belə buyurulur: **"Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik. (Ey insan!) Əgər (valideynlərin) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə. Hamınız (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi sizə bir-bir xəbər verəcəyəm!"** (Ənkəbut, 29/8)

İnsanlar içində xidmət edilməyə, hörmət göstərilməyə ən layiq olan ana və atadır. Rəsulullahdan hansı əməlin daha fəzilətli olduğu soruşulmuş, o da: *"Vaxtında qılınan namaz"*, - deyə cavab vermişdir. Bundan sonra hansı əməlin daha fəzilətli olduğu sualına isə: *"Ata-anaya yaxşılıq etmək (birr)"*, - deyə cavab vermişdir (Müslim, İman 137).

Bir nəfər gəlib: "Ey Allahın Rəsulu, yaxşı davranmağıma və xoş sözlər söyləməyimə ən çox layiq olan kimdir? Gözəl dolanmağıma, gözəl baxmağıma ən çox layiq olan kimdir?"- deyə soruşdu. Hz. Peyğəmbər (s.ə.s): *"Anandır!"* - deyə cavab verdi. Həmin kişi: "Sonra kimdir?" - dedi. Rəsulullah (s.ə.s)

İPƏKYOLU NƏŞRİYYATI

yenə: *"Anandır!"* - deyə cavab verdi. Kişi təkrar soruşdu: "Sonra kimdir?". Rəsulullah yenə də: *"Anandır!"* - deyə cavab verdi. Həmin kişi bir daha təkrar: "Sonra kimdir?" - deyə soruşduqda Rəsulullah dördüncü dəfə də *"Atandır!"* - deyə cavab verdi" (Buxari, Ədəb, 2; Müslüm, Birr, 1).

Allahın Rəsulu müxtəlif hədislərdə ata-ana ilə əlaqəni kəsməyin böyük günahlardan olduğunu bildirmişdir: *"Üç adam var ki, bunlar cənnətə girə bilməyəcəkdir: Ata-anasının haqqına rəayət etməyən, içki düşkünü olan və etdiyi yaxşılıqları başa qaxan"* (Nəsai, Zəkat, 69).

5. Ailə üzvüləri düzgün və möhkəm etiqada və yaxşı əməllərə sahib olmalıdırlar.

İslam dini bu mövzuda ailə başçısına öhdəliklər yükləmişdir. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Bir ata uşağına gözəl əxlaqdan daha üstün bir miras qoya bilməz"* (Tirmizi, Birr, 33). Bu hədisi-şərifə əməl edərək bir ata-ana uşaqlarını gözəl əxlaqlı və tərbiyəli yetişdirməyə səy göstərməlidir.

Valideynlər uşaqlarını İslam fitrəti üzrə yetişdirməli və əbədi həyata hazırlamalıdırlar. Hədisdə belə buyurulur: *"Hər doğulan uşaq İslam fitrəti üzrə doğular. Daha sonra ata-anası onu yəhudi, xristian və atəşpərəst edər"*. Əbu Hüreyrə yuxardakı hədisi nəql etdikdən sonra bu ayəni oxumuşdur: **"(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman-təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar)"** (Rum, 30/30).

6. Uşaqların təlim-tərbiyəsinə diqqət yetirilməlidir.

İslamiyyət xeyirli övlad yetişdirmək məsələsi üzərində də diqqətlə dayanmışdır. Allah-Təala belə buyurur: **"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir)"** (Təhrim, 66/6). Bu ayə nazil olduqdandan sonra Hz. Ömər: "bu Allahın Rəsulu! Allah və Rəsulunun əmrlərinə itaət edərək özümüzü cəhənnəm əzabından qoruya biləcəyimizi bilirəm. Ancaq xanımlarımızı və uşaqlarımızı necə qoruyacağımızı bilmirik?"- deyə soruşdu. Bunun müqabilində Allahın Rəsulu belə buyurdu: *"Allahın əmrlərini onlara əmr edər və qadağalarından da çəkindirsəniz, bu davranışınız onlar üçün cəhənnəmdən qorunma vəsitəsi olar"*.

Hər kəs idarəsi altındakılardan məsuldur. Allahın Rəsulu belə buyurmuşdur: *"Sizin hər biriniz bir çobansınız və hər kəsgüddüyündən məsuldur. Dövlət başçısı bir çobandır və idarəsi altında olanlardan məsuldur. Evin kişisi bir çobandır və ailə fərdlərindən məsuldur. Qadın evi daxilində bir çobandır və güddüyündən məsuldur. Xidmətçi ağasının əmlakının bir çobanıdır və bunun qorunması və idarə olunmasından məsuldur"* (Buxari, Cümə, 11).

Ata-ana uşaqları üçün əxlaq qaydalarını tətbiq edən ən gözəl nümunədir. Buna görə də, Allah-Təala buyurur: **"Ailənə namaz qılmağı əmr et. Özün də namaz qılmağa davam et!"**

Qurani-Kərim xeyirli bir övlad olması istənilən bir uşağa öyrədilməli olan ibadət anlayışı ilə cəmiyyətdəki davranış qaydalarını Loğmanın (ə.s) oğluna nəsihəti timsalında belə ifadə edir: **"Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib Mənə tərəf dönənlərin (islamı qəbul edənlərin) yolunu tut. Sonra (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!'(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır! Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr**

İPEKYOLU NƏŞRİYYATI

et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir! Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!" (Loğman, 31/15-19)



BİLGİ QUTUSU

Allahın Rəsulu insanlar üçün xeyir və bərəkətin üç şeydə olduğunu bildirmişdir: *"İnsan öldükdən sonra onun əməl dəftəri bağlanır, lakin üç şey səbəbilə əməl dəftəri açıq qalır: sədəqeyi-cariyə, insanların faydalandıqları elm və əməlisaleh övlad"* (Tirmizi, Əhkam, 36).

B. EVLİLİYİN FAYDALARI

1. Müsəlman nəslin davam etməsinin təminatçısıdır.

Peyğəmbərimiz bir çox hədisində evlənməyi təşviq edərək, qiyamət günü ümmətinin çoxluğu ilə fəxr edəcəyini bildirmişdir. Rəsulullah (s.ə.s) belə buyurur: *"Vədud (çox sevən) və vəlud (çox doğan) qadınlarla evlənin. Çünki mən digər ümmətlərə qarşı sizin çoxluğunuzla fəxr edəcəyəm"* (Əbu Davud, Nikah, 3/2050).

Allah-Təala bir ayeyi-kərimədə : **"Onlar: 'Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!' - deyərlər"**, (Fürqan, 25/74) - buyurmuşdur. Bu dəlillər bizə göstərir ki, evliliyin ən mühüm məqsədlərindən biri xeyirli nəsillər yetişdirməkdir.

2. Cəmiyyət xoşbəxt olar və əxlaqsızlığın qarşısı alınar.

Evlilik fərdi və cəmiyyəti də mühafizə edər. Çünki, cəmiyyəti təşkil edən fərdlər namuslu olduğu zaman cəmiyyət də fəzilətli olar. Bununla bağlı Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Allah kimə bir salehə qadın nəsib edərsə, dinin yarısında ona yardım etmişdir. Artıq digər yarısı ilə əlaqədar Allahdan qorxsun və çəkinsin"* (Hakim, "Müstədrək". II, 175).

Bir insan evlənməklə, yaradılışında mövcud olan şəhvət duğularını halal yolla həyata keçirmiş olar. Buna işarə edərək Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Dini həyatından və əxlaqından razı qaldığınız birisi evlənmək üçün qızınızı istəsə, evləndirin. Belə etməsəniz, yer üzündə böyük bir fəsad zühur edər"* (Tirmizi, Nikah 3).

Evlilik həyatının olmadığı və ya evlənmənin asanlaşdırılmadığı cəmiyyətlərdə əxlaqsızlıqlar çoxalar, iffət və namus təhlükə altında qalar. Bu da bir çox ailənin yıxılmasına səbəb və bununla da cəmiyyətin firavanlığına xələl gələr.

3. İnsan təhlükəsizlikdə, cəmiyyət də əmin-emanlıqda olar.

İnsanlar sevinc və kədərlərini bölüşməsi üçün başqa insanlara möhtacdır. Qadın və kişinin bir-birinə qarşı məhəbbəti və meyil etməsi də nikah sayəsində fərqli bir məna qazanır. Elə buna görə də, Rəsulullah (s.ə.s): *"Bir-birini sevənlər üçün nikah qədər sevgini artıran başqa bir şey görülmədi"* (Ibn Macə, Nikah, 1) - deyə buyurmuşdur.

Kişi və qadın bir-birinə möhtacdır və birisi olmadan digəri həyatını tam mənası ilə davam etdirə bilməz. Qurani-Kərim insanın bu halına diqqəti belə çəkir: **"Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız. (Bir-birinizə həddindən artıq yaxınsınız). Allah sizin özünüzə pislik (xəyanət) etdiyinizi (yaxud nəfsinizə qarşı zəiflik göstərəcəyinizi) bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər**

İPƏKYOLU NƏŞRİYYATI

orucunuzu tamamlayın; məscidlərdə ibadətdə (etikafda) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin. Bunlar (bu hökmlər) Allahın hədləridir, bunları aşmayın! Allah (insanlara) hökmlərini bu cür bildirir ki, bəlkə, müttəqi olsunlar!" (Bəqərə, 2/187)

Evliliyin hikmətlərindən biri də kişi və qadının rahatlıq tapmasıdır. Qurani-Kərimdə belə buyurulur: **"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!"** (Rum, 30/21)

4. Evlənənlərin savab qazanmaları üçün bir vasitədir.

İslamda nikah müqaviləsi həm hüquqi bir davranış, həm də bir ibadətdir.

Kişinin xanımının ehtiyaclarını qarşılaması, xanımın da ərinin halal olan istəklərini yerinə yetirməsi və uşaqları ilə məşğul olması kimi məsələlərdə evlilik savab qazanmaq üçün bir vasitədir. Bunlardan başqa, evlilik ehtirasi duyğuların halal yoldan həyata keçirilməsi səbəbilə savab və xoşbəxtlik mənbəyidir.

Evliliyin yuxarıda bəhs olunanlardan başqa çoxlu sayda faydası var. Bunlardan bəziləri aşağıdakılardır:

Qeyri-qanuni uşaqların dünyaya gəlmələrinin qarşısının alınması,

- Nəfsin pis istəklərini islah etmək,
- Uşaq sevgisini yaşamaq,
- Qocaldıqdan sonra himayə olunmaq,
- Əqrəbaların artması,
- Çoxalaraq güclənmək.....

C. EVLİLİKDƏN ƏVVƏL DİQQƏT EDİLMƏLİ OLAN MƏSƏLƏLƏR

İnsan verdiyi sözdən çox mühim bir səbəb və zərurət olmadığı müddətcə dönməməlidir. Allah-Təala belə buyurur: **"Yaxşı niyyət istisna olmaqla, yetimin malına həddi-büluğa çatana qədər yaxın düşməyin. (Bu mala ancaq onu qorumaq, artırıb çoxaltmaq və yetimin öz xeyrinə istifadə etmək məqsədilə əl vurmaq olar). Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində (qiyamət günü) cavabdehdir. (İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suala tutulacaqdır)"** (İsra, 17/34).

- Başqasının nişanlısına evlənmə təklifi etmək caiz deyil. Hədisdə belə buyurulur: *"Sizdən biriniz müsəlman qardaşının alış-verişinin üstünə alış-veriş etməsin. Müsəlman qardaşının nişanının üstünə icazəsi olmayınca nişan da etməsin"* (Buxari, Büyu, 58).

- Naməhrəm qız və oğlanın birlikdə gəzib dolaşmaları və təkbaşına qalmaları caiz deyil. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Heç kim naməhrəm bir qadınla təkbaşına qalmasın. Əks halda üçüncüsü şeytan olar. Ancaq yanlarında məhrəm olan üçüncü bir şəxsin olması bundan istisnadır"*. (Buxari, Nikah 111, 112).

- Yanlarında üçüncü bir şəxsin olması və ya ictimai bir yerdə olması şərti ilə evlənmək niyyətində olanların bir-birilərinə baxmaları, evlilik haqqında danışmaları və bununla bağlı bir-birinin düşüncələri ilə tanış olmaları mümkündür. Müğirə ibn Şöbə (r.ə) bir qadınla evlənmək istəyirdi. Peyğəmbər (s.ə.s) ona: *"Get onu gör. Çünki görmək bir-birinizə qarşı meyil etməyiniz üçün daha yaxşıdır"*, (Əbu Davud, Nikah, 18) - buyurdu.

İPƏKYOLU NƏŞRİYYATI

Evlilik, evlənmələri haram olmayan bir qadın və bir kişi arasında meydana gələn, birlikdə yaşamaq və nəsli davam etdirmək üçün aralarında bir bağ meydana gətirən əqddir. Bu səbəbdən bir kişinin evlənmək üçün həyat yoldaşı axtararkən nəfsinə görə davranmayıb, diqqət etməli olduğu bəzi məsələlər var:

a) Evlənərkən qadının dindar və əxlaqı gözəl olanı seçilməlidir. Hədisdə belə buyurulur: *"Bir qadınla dörd xüsusiyyətinə görə evlənilir: malı, nəsli, gözəlliyi və dini, sən dindar olanını seç ki, bərəkət tapasan"* (Buxari, Nikah, 15). Sadəcə qadının gözəlliyi və zənginliyinə görə edilən evliliyin təhlükələrini Allahın elçisi belə bildirmişdir: *"Qadınlarla yalnız gözəlliklərinə görə evlənməyin. Çünki, gözəllikləri əxlaqsızlaşmalarına səbəb ola bilər. Onlarla yalnız zənginliyinə görə də evlənməyin. Çünki, zənginliyi azğınlaşmasına səbəb ola bilər. Onları dindarlıqlarına görə nikahlayın. Şübhəsiz, dindar olan köhnə paltarlı bir cariyə, digərlərindən daha üstündür"* (İbn Macə, Nikah, 6).

b) Soyu və nəsli təmiz olan ailələr seçilməlidir. Odur ki, atası bilinməyən və ya pis yola düşmüş qadınlarla evlənmək məkruhdur. Allah-Təala belə buyurur: **"Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər. Bu (belə bir evlənmə), möminlərə haram edilmişdir"** (Nur, 24/3). Evlənərkən qan uyğunsuzluğu və başqa problemlərin meydana gəlməməsi üçün, yaxın qohumlarla deyil, qohum olmayanlarla evlənməyə çalışılmalıdır. Əmi qızı, dayı qızı, bibi qızı və xala qızı ilə evlənmək caiz olsa da, yola getməmək və boşanmaq kimi hallarda əqrəbalıq əlaqələri zərər görə bilər.

c) Ətrafına sevinc saçan, gözəl, itaətkar, bakirə və nəsli dünyaya övlad gətirə bilən bir qadınla evlənməyə çalışılmalıdır. Hədisdə belə buyurulur: *"Evlənmək üçün bakirə qızlara üstünlük verin. Çünki onlar daha şirindil və daha qənaətcildirlər"* (İbn Macə, Sünən, I, 597). *"Ərini sevə bilən övlad dünyaya gətirən qadınla evlənin....."* (Əbu Davud, Nikah, 3); Başqa bir hədisdə də belə buyurulur: Peyğəmbərimizə: "Hansı qadın daha xeyirlidir?"- deyə soruşuldu. Allahın elçisi belə buyurdu: *"Əri ona baxdığı zaman təbəssüm edər, sevinc hissi verər və buyurduğu zaman da itaət edər. Ərinin namusunu əri evdə olmadığı zamanlarda da mühafizə edər"* (Əhməd ibn Hənbəl II, 251, 432).

D. EVLƏNMƏ MANEƏLƏRİ

Qurani-Kərimdə evlənmə maneələrinin hamısı bir ayədə belə bildirilir: **"Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək isə sizin üçün günah deyil. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"** (Nisa, 4/23) Bu ayeyi-kəriməyə görə, üç cür qohumluq daimi evlənmə meneələrini meydana gətirir.



Ömür boyu davam edən evlənmə maneələri bunlardır:

1. **Qan qohumluğu:** bir kişi anası, nənəsi, qızları, qız nəvələri, bacıları və bunların qızları, bibi və xalası ilə evlənə bilməz. Babalarının bacıları olan ata və ananın bibiləri də qadağan olanlara daxildir. Qadın isə eyni qohumların kişi olanları ilə evlənə bilməz. Məsələn, ata, baba, oğul, nəvə, qardaş, qardaşının oğlulları, dayı və əmi ilə evlənməməsi kimi.

2. Sihri qohumluq: evlənməklə meydana gələn sihri qohumluq ölənə qədər davam edər. Bir kişi üçün sihri qohumları dörd qrupda toplamaq mümkündür. a. Ögey qızlar (yoldaşının əvvəlki evliliyindən olan qızları). ibn Qayınanalar, c. Ata və babasının xanımları, d. Oğlu və ya nəvələrinin xanımları. Qadında sihri qohumluq isə kişinin ziddinədir.

3. Süd qohumluğu: süd qohumluğunun meydana gəlməsi üçün, südün ən azından bir dəfə də olsa doyunca içilməsi, yəni mədəyə çatması və iki yaşına qədər əmilməsi şərtdir. *"Süd qohumluğu yalnız iki yaş a qədər əmizdirilən südlə meydana gələr"* (Buxari, Nikah, 21) .

Süd əmizdirən və onun nəsli süd əmən uşağln mərhəmi olur. Allahın Rəsulu (s.ə.s): *"Nəsəbə görə haram olanlar süd yolu ilə də haram olurlar",* (Buxari, Şəhadət, 7; Müslüm, Rəda, 1)- buyurmuşdur. Bir şəxs süd anası və ya süd əmdiyi qadının əri ilə, süd qardaş və bacıları ilə, süd əmdiyi qadından süd əmən bütün uşaqlar və nəvələrlə, eləcə də bunların yoldaşları ilə, süd əmdiyi qadının və ərinin ata-anası ilə süd anasının qardaşı və bacısı olan süd xalası və dayısı ilə, süd anasının ərinin bacı və qardaşı olan süd bibisi və əmisi ilə evlənə bilməzlər.



Müvəqqəti evlənmə maneələri bunlardır:

1. Başqası ilə evli olmaqdan irəli gələn manea: ayədə belə buyurulur: **"...ərdə olan qadınlarla (da evlənmək sizə haram edildi)"** (Nisa, 4/24).

2. Qadının birdən çox kişi ilə, kişinin isə dörtdən çox qadınla evli olma maneəsi: qadın bir kişi ilə evli olması, eyni anda başqa bir kişi ilə evli olmasına manedir. Kişinin birdən çox qadınla evlənməsinə İslam dini bəzi şərtlərlə icazə vermişdir. Ancaq bir kişinin dörddən çox qadınla evlənməsi qadağandır. Rəbbimiz belə buyurur: **"Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər (onlarla da) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin (yaxud: o halda təkcə bir nəfər azad qadınla evlənin və ya əlinizin altında olan kənizlərlə kifayətlənin). Bu, ədalətli olmağa (ədalətdən kənara çıxmamağa) daha yaxındır"** (Nisa, 4/3).

3. İddə gözləməkdən irəli gələn evlənmə maneəsi: evlilik həyatının ölüm və boşanmaq kimi səbəblərdən sona çatmasından sonra qadının yenidən evlənə bilməsi üçün, gözləmək məcburiyyətində olduğu müddətə "iddə" deyilir. Evlilik həyatı ərin ölməsi ilə sona çatdıqdan sonra qadının gözləyəcəyi iddə dörd ay on gündür. Boşanan qadının iddəsi isə, üç dəfə aybaşı olub təmizlənməsidir. Aybaşı olmayanların iddəsi üç aydır. Ərin ölməsi və ya boşanma əsnasında hamilə olan qadının iddəsi uşaq doğulana qədərdir.

İPƏKYOLU NƏŞRİYYATI

4. Boşadığı qadınla təkrar evlənmə maneəsi: üç dəfə rici və ya bain talaqla boşanan bir qadın boşandığı kişi ilə təkrar evlənə bilməsi üçün başqa bir kişi ilə həqiqi mənada evlənərək ondan ya boşanması, ya da kişinin ölməsi ilə evliliyə xitam verilməsi şərtdir.

5. İki bacı və ya xanımın öz bibisi və ya xalası ilə eyni vaxtda bir kişi ilə evli olma maneəsi: Qurani-Kərimdə belə buyurulur: **"...iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (cahiliyyə dövründə) olan bu cür işlər müstəsnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"** (Nisa, 4/23) Peyğəmbərimiz də belə buyurmuşdur: *"Həyat yoldaşı ilə bibisi və xalası eyni nikah altında tutulmaz"* (Buxari, Nikah, 27) .

6. Fərqli dindən olması: müsəlman qadın və kişi heş bir vəchlə müşriklərlə evlənə bilməz.

Müsəlman bir kişi müsəlman və ya əhli-kitab olan xristian yaxud yəhudi bir qadınla evlənə bilər. Qurani-Kərimdə belə buyurulur: **"...Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!"** (Maidə, 5/5) Müsəlman olan bir qadının əhli-kitab olan bir kişi ilə evlənməsi haramdır.

Bir müsəlman, müşrik və ya kafir olduğunda və ya bir qadının əri müsəlman ikən sonradan xristian və ya yəhudi olduğunda İslam hüququna görə nikah müqaviləsi dərhal pozulmuş olur. Sonradan təkrar müsəlman olarlarsa, yenidən nikah qıyılmalıdır.

E. HÜQUQİ NƏTİCƏSİ OLMAYAN NİKAH MÜQAVİLƏLƏRİ VƏ VƏLİNİN SƏLAHİYYƏTLƏRİ

Bəzi nikah əqdləri var ki, bağlanmış olsa da, hər hansı bir hüquqi nəticəsi meydana gəlmir vəlinin və ya evlənən qızın səlahiyyətləri burada əsas rol oynayır. Belə hallar aşağıdakı vəziyyətlərdə meydana gəlir:

a) Vəlinin xəbəri olmayanda: Peyğəmbərimiz (s.ə.s) belə buyurur: *"Nikah ancaq vəli ilə olur"* (Buxari, Nikah, 36).

Qızların vəlisindən icazəsiz evlənmələri doğru qəbul edilməmişdir. Çünki qadınlar hissi davrandıqları üçün kişilər tərəfindən aldadılma ehtimalı var və sonradan peşman olmalarına səbəb olar. Hədislərdə bu kimi hallar açıq-aydın bildirilmişdir: *"Hər hansı bir qadın vəlisinin icazəsi olmadan evlənərsə, onun nikahı batildir, batildir, batildir"* (Əbu Davud, Nikah, 19); *"Qadını qadın evləndirə bilməz. Qadın özünüdə evləndirə bilməz (qadın özbaşına evlənə bilməz)"* (İbn Macə, Nikah, 15).

Vəli evləndirmə məsələsində özünü bakirə qızdan daha çox səlahiyyətli görməməlidir. Çünki evlilik ürək məsələsidir. Əgər qız bir oğlanla evlənmək istəyirsə və bunu ailə böyükləri ilə məsləhətləşərək qərar vermişsə, qızın istəyi əsas alınaraq nikah əqdi bağlanmalıdır. Peyğəmbərimiz (s.ə.s) belə buyurur: *"Bakirə qadın özü haqqında vəlisindən daha çox haqq sahibidir"* (Əbu Davud, Nikah, 25).

Kişinin xarakterini və psixologiyasını tanımış olan dul qadın isə, vəlisi olmadan da evlənə bilər: *"Dul qadın haqqında vəlinin edə biləcəyi bir iş yoxdur"* (Əbu Davud, Nikah, 25) hədisi bunun dəlilidir.

Bir qız vəlisinin icazəsi olmadan evlənmişsə, mehri-misl ilə müqavilə bağlanmalıdır. Bundan aşağı bir mehrlə evlənən həddi-büluğa çatmış qızın bu evliliyini vəlinin fəsx (ləğv) etməsi mümkündür.

b) Vəlinin zorla evləndirməsi: Hz. Aişə zorla evləndirilən bir qızla əlaqədar olaraq Allahın Rəsulunun davranışını belə nəql edir: "Ənsardan bir qadın Hz. Aişənin yanına gəlib: "Atam ailə şərəfinə görə məni qardaşının oğlu ilə evləndirdi. Mən isə bu evliliyi istəmirəm", - dedi. Hz. Aişə də ona: "Rəsulullah (s.ə.s) gələnə qədər gözlə!" - dedi. Hz. Peyğəmbər gəldikdə Hz. Aişə vəziyyəti ona danışdı. O da qızın atasını çağırdı və qıza evlənib-evlənməməkdə seçmə haqqı verdi. Bunun müqabilində qadın belə dedi:

İPƏKYOLU NƏŞRİYYATI

"Ey Allahın elçisi! Atamın bağladığı nikah müqaviləsini qəbul etdim. Ancaq bu davranışımla qadınlara atalarının belə bir səlahiyyətlərinin olmadığını bildirmək istəmişdim" (Əhməd ibn Hənbəl, VI, 368).

Həddi-büluğ yaşına çatmayan bir qız və ya oğlan uşağını vəlisi nikahlamışsa, bu uşağın buluğ müxəyyərliyi (seçim haqqı) vardır. Bunlar həddi-büluğ yaşına çatdıqdan sonra əvvəlcədən onların adına kəsilmiş nikahı qəbul etməzlərsə, nikah müqaviləsi etibarsız olar.

c) Qadın və kişi arasında kəfaətin (bərabərlik) olmaması: kəfaət evlənəcək kişinin qadına bərabər olması mənasına gəlir. Bir kişinin evlənəcəyi qadına bərabər olması, xüsusilə qadını qorumaq məqsədini daşıyır.

Bir qadın tayı-bərabəri olmayan bir kişi ilə evlənərsə, qadının vəlisi bu evliliyə icazə verənə qədər nikah əqdi hüquqi nəticə əmələ gətirməz. Kəfaət evlənənk cütlər arasında dini, iqtisadi və sosial mövqe baxımından yaxınlığın və bərabərliyin olması deməkdir.

Kəfaət altı məsələdə axtarılır. Bunlar müsəlman olmaq, dindarlıq, azadlıq, nəsil, mal və peşədir. Evlilikdə bərabərlik kişidə axtarılır. Məsələn, bərabər sayılmaları üçün kişi mehr və dolanışıq təmin etməli və ya kişi qadının sərvətinə bərabər bir sərvətə sahib olmalıdır.

Dini prinsiplərə bağlı olmayan və əxlaqi baxımdan aşağı səviyyədə olan fasiq bir kişi, fəzilətli bir qadına bərabər sayıla bilməz.

Allahın elçisi Hz. Əliyə belə buyurmuşdur: *"Üç şeyi gecikdirmə: vaxtı girən namazı, hazır olan cənazəni, özünə bərabər olan oğlanın istədiyi qızı"* (Tirmizi, Salat, 13).

F. DİNİMİZƏ GÖRƏ DÜZGÜN OLMAYAN NİKAHLAR

Ruhi xəstə olmayan və həddi-büluğ yaşına çatan müsəlman bir kişi ilə bir qadının aralarında bir evlənmə maneəsi olmadan iki şahidin hüzurunda qıydıqları və insanlara elan etdikləri nikah müqaviləsi etibarlıdır. Ancaq aşağıda qeyd edilən nikahlarda isə evlilik tam meydana gəlməz və burada evliliyin meydana gəlməməsinə səbəb olan əskikliklər ortadan qaldırılmalıdır.

a) Siğə (mütə) nikahı: bir qadınla bir kişinin müəyyən bir müddətə evlənməsidir. İslamın ilk dövrlərində bəzi çətinliklər səbəbilə icazə verilən bu evlilik növü daha sonra əbədi olaraq haram edilmişdir. Səbrə ibn Məbəddən (r.ə.) belə nəql edilmişdir: *"Allah Rəsulu vida həccində mütə nikahını qadağan etmişdir"* (Buxari, Məğazi, 38).

Mütə nikahı, hökmü nəsx edilən (ortadan qaldırılan) bir evlilik növüdür. Rəsulullah (s.ə.s) mütə nikahını qadağan etmişdir: *"Ey insanlar! Mən sizə qadınlarla muta nikahı bağlamağınıza icazə vermişdim. Şübhəsiz, Allah bunu qiyamətə qədər haram etmişdir. Kimin yanında mütə nikahlı qadın varsa onu sərbəst buraxsın. Onlara verdiyiniz heç bir şeyi geri almayın"* (Müslim, Nikah, 22) .

b) Gizli nikah: gənclər arasında yayılan bu evlilik növü etibarsızdır. Məsələn, bir oğlan üniversitetdəki qız yoldaşı ilə cinsi münasibətdə olaraq özlərinə görə evlilik həyatını yaşayırlar. Bu qeyri-qanuni evlilik həyatını ya heç kəs bilir, ya da təkcə onları tanıyan yoldaşları bilir. Həqiqətdə isə bu, zinadır. Çünki, görünüşdə bir nikah qıyılmış olsa da, ancaq vəlinin bundan xəbəri yoxdur. Bu da gələcəkdə geri dönüşü mümkün olmayan problemlərə səbəb olar.

Rüknlərində və ya meydana gəlmə (iniqad) şərtlərində bir əskiklik olan nikah müqaviləsinə **"batil nikah"** deyilir. Batil sayılan evliliklərin bir qismi bunlardır:

1. Təmyiz gücünə sahib olmayan (yaxşı ilə pisi ayırd edə bilməyən) uşağın və ya ruhi xəstənin vəlisi olmadan nikahlanması,

2. Gələcək zaman forması ilə nikah əqdi bağlamaq,

İPOKYOLU NƏŞRİYYATI

3. Başqası ilə evli olan bir qadınla nikah bağlamaq,

4. Bacı, bibi və ya xala kimi məhrəm olan qohum-əqrəba ilə nikahlanmaq,

5. Müsəlman bir qadının qeyri-müsəlman və ya müşrik bir kişi ilə, müsəlman kişinin də Allaha şərik qoşan bir qadınla nikah əqdi bağlaması,

Batil sayılan nikah istər cinsi münasibət olsun, istər olmasın evliliyə aid hüquqi bir nəticə meydana gətirməz. Batil evlilikdə tərəflər özləri ayrılmazlarsa, hakim zorla nikaha xitam verib onları ayırar. Qadın başqa bir kişi ilə təkrar evlənə bilməsi üçün, bir aybaşı müddəti gözləməlidir. Buna "istibra" deyilir.

Etibarlılıq şərtlərində əskiklik olan evliliyə isə **"fasid evlilik"** deyilir. Fasid sayılan evliliklərdən bir qismi bunlardır:

1. Şahidsiz və ya əskik (və ya şahidlikləri nöqsan olan) şahidlə bağlanan nikah əqdi,

2. Evli bir qadınla evli olduğunu bilmədən və ya əvvəlki evliliyindən iddəli olduğu halda nikah bağlamaq,

3. Evlənmələri əbədi olaraq qadağan olan qan, sihr (evlilikdən irəli gələn qohumluq) və ya süd qohumlarından birisi ilə aralarındakı qohumluq əlaqəsinin mövcudluğundan xəbərsiz nikahlanmaq,

4. Başqa bir kişinin evlənmə təklif etdiyi (nişanlı olduğu) qadınla qıyılan nikah,

Fasid evlilikdə evliliyi fasid edən səbəb bilinən kimi dərhal ayrılmaq lazımdır. Fasid evlilik, zifafdan əvvəl sona çatmışsa, heç bir nəticə meydana gətirməz. Əgər zifaf olmuşsa, sihri qohumluq meydana gələr. Bu zaman qadına mehri-misl verilməli iddə gözləməlidir. İddə gözlədiyi müddətdə nəfəqəsi təmin edilməlidir.

Bəzi hallarda yenidən nikah bağlamaq surətilə nikahın fasid olmasına səbəb olan nöqsanın aradan qaldırılması mümkündür. Məsələn, şahidsiz bağlanan nikah əqdi yenidən şahidlərin hüzurunda bağlanmaqla evliliyin davam etdrilməsi təmin edilir.

G. NİGAH VƏ TOY MƏCLİSİ HAQQINDA BƏZİ MƏSƏLƏLƏR

İslam dinində qadın və kişinin gizli nikahlanaraq evlənmələri düzgün qəbul edilmir. İki etibarlı kişi şahid və ya bir kişi iki qadın şahid olmayınca nikah əqdi etibarlı olmaz. Allah-Təala belə buyurur: **"Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borclu olan şəxs borcunu söyləyərək (deyə-deyə) yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan (borcdan) bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə (qoca və ya uşaqdırsa), yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun (əvəzinə) vəkili ədalətlə deyib (borcu) yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər (qadınlardan) biri (şəhadəti) unudarsa, o birisi onun yadına salsın. Şahidlər (bu işə) dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına qədər (nə müddətə verilmiş olduğunu) yazmağa ərinməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır. Lakin aranızda həmişə dövr edən aşkar (nağd) ticarət zamanı onu yazmamağınız sizin üçün günah deyil. (Hər halda) alış-veriş etdiyiniz vaxt şahid tutun! Ancaq katibə və şahidə zərər yetirilməsin. Əgər zərər yetirsəniz, əlbəttə, bu sizin üçün pis işdir. Allahdan qorxun! Allah (ehtiyacınız olan şeyləri) sizə öyrədir. Allah bütün işləri biləndir!"** (Bəqərə, 2/282)

Nikah əsnasında ən az iki kişi və ya bir kişi iki qadın şahidin hüzurunda tərəflərə öz razılıqları ilə evlənib-evlənmədikləri soruşular. Mərasimdə həmçinin qızın istəyinə görə bir mehr də müəyyən edilir.

İPƏKYOLU NƏŞRİYYATI

Nikah mərasimlərində ailə başçılarının və ağsaqqalların iştirak etməsi, bir xütbə oxunması, dua edilməsi və mərasimdə iştirak edənlərə yemək (vəlimə) verilməsi evliliyin müstəhəblərindədir.

Evlilik tərəflərə gələcəyə yönəlik mehr, nəfəqə, miras kimi bəzi hüquq və öhdəliklər yüklədiyi üçün sözügedən hüquq və öhdəliklərin təminatı və rəsmiləşdirilməsi baxımından nikah rəsmi qaydada qıyılmalıdır.

Şahidlərin hüzurunda nikah evində səlahiyyətli şəxslərin və digər aidiyyəti orqanlar tərəfindən kəsilən nikah əsasdır və tərəflər bununla evli sayılırlar.

Nikahın Allah dərgahında mötəbər olması və evliliyin etibarlı olaması üçün elan şərtdir. Bu da daha çox toy və nikah mərasimi ilə meydana gəlir. Şahid hüzurunda, ancaq insanlara bildirilmədən gizli qıyılan nikah əqdi ilə evlilik meydana gəlməz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Nikahı elan edin və onu məscidlərdə qıyın....."* (Tirmizi, Nikah, 6). Bu hədis bizə nikahın dini bir yönünün olduğunu və elan edilməli olduğunu bildirir.

Toylar, insanların əyləndikləri və şadlandıqları bir mərasimdir. Toylarda insanlar əylənməli və sevinməlidirlər. Allahın Rəsulu (s.ə.s) belə buyurmuşdur: *"Nikahı elan edin. Onu məscidlərdə qıyın və dəf çalın"* (Tirmizi, Nikah, 6). Toylarda qadın və kişi ayrı olmaq şərti ilə öz aralarında əylənmələri İslamın ruhuna uyğundur. Ancaq günah qazandıran musiqilər caiz deyil.

Toylarda verilən yemək və əyləncələr İslama uyğun olmalıdır. Allahın Rəsulu möminin içki içilən süfrədə oturmasını açıq-aydın qadağan etmiş və belə buyurmuşdur: *"Allaha və axirət gününə iman edən içki içilən süfrədə oturmasın"* (Şövkani, "Neylül-övtar", II, 203).



ARAŞDIRIN

Evliliyin dini baxımdan etibarlı olması üçün hansı şərtlər yerinə yetirilməlidir? Bu məsələ ilə bağlı məzhəb rəylərini araşdıraraq ortaq olanları müəyyən edin.

Əgər bir müsəlman haramların işləndiyi toy məclisinə getmək məcburiyyətində qalmışsa və ya əvvəlcədən bilinmirsə, öyrənilən kimi həmin məclisi tərk etməli və məclis sahiblərinə xəbərdarlıq edilməlidir. Toyda və ya nikah mərasimində verilən yeməyə "vəlimə" deyilir. Hz,Peyğəmbər(s.ə.s) toyda yemək verməyi tövsiyə etmişdir. Buna görə də Əbdürrəhman ibn Övfün (ö. 32/652) evlənəcəyini eşitdikdə ona: *"Bir qoyun kəsərək də olsa, yemək ver"*, (Darimi, Ətimə, 28; Nikah, 22) - buyurmuşdur. Toyda verilən yeməklərdə riyakarlıq və israfdan uzaq durmaq lazımdır. Məhz bu səbəbdən hədisdə belə buyurulmuşdur: *"Vəliməni toyun ilk günü vermək bir haqdır, ikinci günü vermək gözəldir, üçüncü günü vermək isə şöhrət və riyakarlıq"* (Əbu Davud, Ətimə, 3).

Toya xüsusilə kasıblar çağrılmalıdır. Bir hədisdə belə buyurulur: *"Toya edilən dəvətlərin ən pisi, varlıların çağrılıb kasıbların çağrılmadığı dəvətdir"* (Müslim, Nikah, 107).

Dinimizə görə, münasib bir məkan və mühitdə edilən toy dəvətində iştirak etmək qüvvətli dərəcədə olan Sünnədir. *"Hər hansı bir şəxs toya çağrılar və o da dəvətə icabət etməzsə, Allah və Rəsuluna asi olmuş olar"* (Buxari, Nikah, 72); *"Sizdən biriniz toya çağrılarsa, getsin"* (Buxari, Nikah, 71). Eyni vaxtda bir neçə toya dəvətli olan getmə haqqını qohum-əqrəbaya və ya qonşuluqda daha yaxın olana versin. Həmçinin ilk dəvət edənin məclisinə getmək də məqsədəuyğundur.

İPƏKYOLU NƏŞRİYYATI

H. MEHR

Mehr nikahdan sonra qadına verilməli olan bir maldır. Allah-Təala belə buyurur: **"(Cihad vaxtı əsir olaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"** (Nisa, 4/24) **"Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!"** (Nisa, 4/4)

Satılması və istifadə edilməsi qadağan edilməyən hər şey mehr olaraq verilə bilər.

Mehrin ən çox miqdarı üçün hər hansı bir hədd qoyulmamışdır. Ayədə belə buyurulur: **"Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə (birinciyə) çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə gerimi alacaqsınız?!"** (Nisa, 4/20)

Əbu Hənifəyə görə mehrin ən az miqdarı on dirhəm gümüş və ya buna bərabər maldır. Hz. Peyğəmbər dövründə bu miqdarda pul təxminən iki qoyunun qiyməti qədər idi.

Rəsulullah(s.ə.s) mehrin müəyyən olunmasına əhəmiyyət vermişdir. Hz. Əli Allah elçisinin qızı Hz. Fatma ilə evlənərkən "xütami zirehi" deyilən qiymətli olan zirehini mehr olaraq vermişdir (Nəsai, Nikah, 76).

Evlənmək istəyən bir səhabəyə Allahın Rəsulu mehr olaraq bir şeyin verilməsinin vacib olduğunu bildirmişdir. Ancaq kasıb olduğunu öyrənən zaman: *"Evdə axtar, dəmirdən də olsa bir üzük varsa, gətir ver",* - deyə buyurmuşdur. Həddindən artıq kasıb olan bu səhabə bunu da gətirə bilmədiyi üçün, onu mehir olaraq bildiyi Quran qarşılığında həmin qadınla evləndirmişdir. (Nəsai, Nikah, 62).

Mehr ərin qəflətən ölməsi və yaxud boşanması kimi hallarda qadının həyatını yenidən qurana qədər yardım məqsədini daşıyır.

Mehrin növləri:

1) Müsəmma (miqdarı müəyyən edilən) mehr: nikah əqdi əsnasında və ya daha sonra ər arvadın qarşılıqlı razılığı ilə müəyyən edilən mehrdir. Miqdarı müəyyən edilmiş mehr dərhal və ya daha sonra verilmək üzrə iki qismdir.

a) Müaccəl (dərhal verilən) mehr: əqd əsnasında dərhal verilən mehrə müaccəl mehr deyilir. Bəzi fəqehlər Hz. Əlinin evlilik əsnasında Hz. Fatmaya zirehini mehr olaraq verməsinə əsaslanaraq, zifafdan əvvəl mehrin bir hissəsini verməyi müstəhəb saymışlar.

b) Müəccəl (dərhal verilməyib təxirə salınan) mehr: müəyyən bir vaxtdan sonra, az-az və ya müəyyən bir vədə görə ödənilməsi qərara alınan mehrə müəccəl mehr deyilir. Belə bir mehri qadın vədəsi gəlmədən vaxtından əvvəl tələb edə bilməz. Bu növ mehir boşanma və ya ölüm halında dərhal ödənilməli olan muaccal mehrə şevrilər.

Mehri-misl (miqdarı adət-ənənəyə görə müəyyən edilən mehr): adət-ənənəyə görə qadının ətrafındakılar nəzərə alınaraq müəyyən edilən mehrdir. "Mehri-misl" yaş, gözəllik, zənginlik, təqva, ağıl, bakirəlik, elm və əxlaq kimi keyfiyyətlər əsas alınaraq qadının bacı, xala qızı, bibi qızı və digər yaxın qohum-əqrabadan olan qadınların evlənərkən aldığı mehr miqdarı əsas alınaraq müəyyən edilir.

İPƏKYOLU NƏŞRİYYATI

Qadın aşağıdakı hallarda mehri-misl haqq edir:

a) Nikah əqdi əsnasında mehirin miqdarı müəyyən edilməmişsə, bundan sonra qadına Mehri-misl verilməlidir. Evlilik əsnasında mehrin bilərək və ya bilməyərək müəyyən edillməməsi nikah əqdinə mane deyil. Mehr müəyyən edilmədən ər vəfat edərsə, qadın mehri-misli miras malından alar.

b) Mehr müəyyən edilmədiyi və alqı-satqısının caiz olmadığı bir malın mehr olaraq müəyyən edilməsi hallarında qadına mehri-misl verilir. Məsələn, keyfiyyət və xüsusiyyətləri müəyyən edilmədən mütləq ifadə ilə sadəcə olaraq ev, avtomobil ifadə ilə müəyyən edilən mehrlərdə həddindən artıq qeyri-müəyyənlik olduğu üçün qadın mehri-misl alar.

c) Mehrin miqdarı ilə bağlı anlaşılmazlıq olarsa, qadın mehri-misl alar.

d) Əgər tərəflər mehrsiz evlənməyi qərarlaşdırmışsa, belə bir şərt etibarsız olduğu üçün qadına mehri-misl verilmələdir.

Mehrn miqdarı:

1) Tam mehr:

a) Əgər cinsi münasibət olmuşsa, qadına mehrin hamsı verilməlidir. Ayədə belə buyurulur: **"Siz onu necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdılar"** (Nisa, 4/21).

b) Ər-arvaddan birisinin ölməsi ilə qadına mehrin hamsı verilməlidir. Vəfat edən qadının mehri isə öz varislərinə qalar.

2) Yarım mehr:

a) Mehrin miqdarı müəyyən edilən evlilik cinsi birləşmə olmadan sona çatmışsa, qadına ən azı mehrin yarısı verilməlidir. Çünki ayədə belə buyurulur: **"Kəbin haqlarını təyin etmiş olduğunuz qadınları yaxınlıq etmədən əvvəl boşayarsınızsa, təyin olunmuş kəbin haqqının yarısını onlara verməlisiniz! Bununla belə, onlar (qadınlar) bunu (ərlərinə), yaxud əlində nikah müqaviləsi olanlar (ərlər) kəbin haqqının hamısını qadınlara bağışlaya bilərlər. (Ey kişilər!) Sizin bağışlamağınız (güzəştə getməyiniz) müttəqiliyə daha yaxındır. Bir-birinizə yaxşılıq etməyi unutmayın! Şübhəsiz ki, Allah sizin etdiklərinizi görəndir"** (Bəqərə, 2/237). Əgər mehrin hamısı verilmişsə, qadın bunun yarısını kişiyə qaytarmalıdır.

3) Mütə (təsəlli etmək məqsədilə verilən hədiyyə):

Nikahdan sonra cinsi münasibət olmadan boşanma meydana gələrsə və mehr də müəyyən edilməmişsə, mütə (təsəlli etmək məqsədilə verilən hədiyyə) verilər. Bundan əlavə qadın mehr müəyyən edilmədən və zifafdan əvvəl ölərsə, mutanı haqq etdiyi üçün qadının ailəsindən söz kəsiləndə və nişan əsnasında verilən hədiyyələr geri alınmaz. Ayədə belə buyurulur: **"Yaxınlıq etmədiyiniz (toxunmadığınız) və mehrini (kəbin haqqını, başlığını) təyin etmədiyiniz qadınları boşamaq sizə günah sayılmaz. Qəbul olunmuş qayda üzrə, varlı öz imkanı daxilində, kasıb da gücü çatdığı qədər, yaxşılıq (ehsan) edənlərə layiq şəkildə onlara bir şey (mütə) versin!"** (Bəqərə, 2/236) Ayədə ki "mütə" sözü kişinin mal, geyim və yemək kimi boşandığı qadına verdiyi şeylərdir.

4) Mehrin verilmədiyi hallar:

Nikah əqdi etibarsız olub, cinsi münasibət də olmamışsa və ya hakimin qərarı ilə nikaha xitam verilmişsə, kişinin mehr və ya mütə verməsinə ehtiyac qalmaz. Bundan əlavə, qadının dindən çıxması kimi qadından irəli gələn bir səbəb üzündən boşanma meydan gəlmişsə, qadına mehr verilməz.

İPƏKYOLU NƏŞRİYYATI

OXU MATERİALI

MÜSƏLMAN OL, EVLƏNİM!

Evlilik həyatının xoş təəsüratlar içində davam etməsi və bu böyük hədəfə çatması üçün ər-arvad arasındakı münasibətlər sağlam olmalı, ailə əlaqələri qüvvətli olmalı və ailə yaxşı bir həyat yoldaşı seçimi ilə möhkəm bir bünövrə üzərinə qurulmalıdır.

İslam tarixində bu məsələdə bizə nümunə olan bir qadın var. Bu qadın səhabənin adı Ümmü Süleym binti Milhandır.

Ümmü Süleym Mədinədə ənsar qadınlarından ilk islamiyyəti qəbul edənlərdən idi. Malik ibn Nədr ilə evlənmiş və Ənəs adında bir oğlu da olmuşdu.

Ümmü Süleym İslamı dinini qəbul etdikdə əri Malik bunu özünə sığışdıra bilmədi və onu tərk edib getdi. Çox keçmədən ərinin ölüm xəbərini aldı. Ümmü Süleym hələ çox cavan idi. Allahdan əcir və savabını gözləyərək başına gələnlərə səbir etdi. Bu əsnada Mədinədə zəngin, güclü, yaraşıqlı və seçkin gənclərdən olan və hələ müsəlman olmayan Əbu Təlhə ona evlilik təklifi etdi. Mədinə qızlarının dilindən düşməyən Əbu Təlhə Ümmü Süleymin bu təklifi dərhal qəbul edəcəyini düşünürdü. Ancaq Ümmü Süleym ona belə cavab verdi:

- Ey Əbu Təlhə! Sən müsəlman deyilsən və bütə sitayiş edirsən. Sənin bu təklifini qəbul edə bilmərəm. Həm də bilmirsən ki, sitayiş etdiyin ilah torpaqda yetişən bir ağacdır və O ağacı da Həbəşistanlı filənkəs kəsib yonmuşdur?!

Əbu Təlhə ona yüksək məbləğdə mehr verəcəyini, bolluq və rahatlıq içində bir həyat yaşadacağını uzun-uzadı anlatdı. Ümmü Süleym onu dinlədikdən sonra belə dedi:

- Allaha and içirəm ki, sənin kimi birisi əlbəttə, rədd edilməz. Ancaq sən inkarçısan, mən isə müsəlman bir qadınam. Səninlə evlənmək mənə halal deyil. Əgər İslamı qəbul etsən, sənin müsəlman olmağın mənim mehrim olsun. Səndən başqa mal və mülk istəmirəm.

Əbu Təlhə ikinci günü daha çox mehr və ikram vədi ilə Ümmü Süleymin yanına gələrək özü ilə evlənməyi yenidən təklif etdi. Ümmü Süleym yenə də Əbu Təlhəyə müsəlman olmazsa, evlənməyəcəyini bildirdi və sözünə belə davam etdi:

- Sizin sitayiş etdiyiniz ilahları filənkəslərin köləsi olan dülgərlər düzəldiblər. Oda atsanız bu ilahlarınız yanmazmı? Bu məntiqli və düşündürücü sözlərdən təsirlənən Əbu Təlhə özünə bu sualları soruşmağa başladı.

- Heç Rəbb olan yanar? Həqiqətən də, ilahlarını öz əlləri ilə düzəltməmişlər? Bu sualların qarşısında çarəsiz qalan Əbu Təlhə Kəlməyi-şəhadət gətirdi və müsəlman oldu.

Elə o anda Ümmü Süleym sevinərək oğlu Ənəsdən şahidləri çağırmağısını istədi. Şahidlər gəldi, nikahları qıyıldı və evlilikləri elan edildi.

Əbu Təlhə bütün sərvətini Ümmü Süleymə vermək istədi, ancaq o, bunu qəbul etmədi və tarix boyunca qadınlara nümunə olan bir fədakarlıq göstərərək belə dedi:

- Ey Əbu Təlhə! Mən səninlə yalnız Allah rızası üçün evləndim. Bundan başqa mehr olaraq səndən bir şey istəmirəm.

Ümmü Süleym çox yaxşı bilirdi ki, Əbu Təlhənin müsəlman olması ilə sadəcə olaraq özünə layiq bir ər qazanmamış, eyni zamanda Allah dərgahında böyük bir savaba da nail olmuşdur. Peyğəmbərimizin bu hədisi-şərifi yuxarıda bəhs edilən mukafatı ifadə etmək üçün kifayət edir: *"Sənin vasitənlə Allahın bir şəxsə hidayət verməsi, qızıl dəvələrə sahib olmağından daha xeyirlidir"* (Buxari, Müslim).

İPƏKYOLU NƏŞRİYYATI

İ. NƏFƏQƏ (AİLƏ DOLANIŞIĞININ TƏMİN OLUNMASI)

"Nəfəqə" bir şəxsin özünün və baxmaqla mükəlləf olduğu şəxslərin hər cür ehtiyaclarını təmin etməsidir.

Bir qadın evləndikdən sonra onun yeməyi, içməsi, geyimi, ev və ev üşün lazım olan bütün xərclər ərə aiddir. Ər həyat yoldaşının dolanışığını təmin etmək məcburiyətindədir. Quranda belə buyurulur: **"Analar (istər boşanmış, istərsə də boşanmamış olsun) uşaqlarını əmizdirmə müddətini tamamlatmaq istəyən (atalar) üçün tam iki il əmizdirsinlər. Analaların yeməyi və geyimi öz qüvvəsi dairəsində (uşağın) atasının üzərinə düşür. Heç kəs gücü çatdığından artıq yüklənməz. Nə bir ana, nə də bir ata uşağına görə zərər çəkməsin! (Ata öləndən sonra) bu vəzifə həmin qaydada varisin üzərinə düşür. Əgər ata və ana öz aralarında məsləhətləşib, uşağı (iki ildən tez) süddən kəsmək qərarına gəlsələr, ikisinə də heç bir günah olmaz. Əgər siz uşağınızı başqasına (süd anasına) əmizdirmək istəyirsinizsə, onun zəhmət haqqını müəyyən olunmuş qayda üzrə (şəriətə müvafiq) ödəsəniz, yenə də sizə günah sayılmaz. Allahdan qorxun və bilin ki, Allah, həqiqətən, sizin nə etdiklərinizi görəndir!"** (Bəqərə, 2/233) Bunun hikməti Qurani-Kərimdə belə izah olunur: **"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər). Bu, Allahın onlardan birini digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar"** (Nisa, 4/34). Nəfəqənin miqdarı kişinin maddi vəziyyətinə görə əsas alınır. Qurani-Kərimdə belə buyurulur: **"Varlı-karlı olan öz varına görə (süd haqqı) versin. İmkanı az olan isə Allahın ona verdiyindən versin. Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz. Allah hər bir çətinlikdən sonra asanlıq (yoxsulluqdan sonra dövlət) əta edər"** (Talaq, 65/7). Lakin kişinin kasıb olması səbəbi ilə həyat yoldaşının dolanışığını təmin edə bilməməsi, bir boşanma səbibi sayılmamışdır. Dəlil bu ayədir: **"(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir!"** (Nur, 24/32)



BİLGİ QUTUSU

Bəzi hallar qadını nəfəqə hüququndan məhrum edər. Bunlar aşağıdakılardır:

- Qadın ərinin dəvət eməsinə rəğmən onun evinə gəlməzsə və ya itaət etmədən evdən çıxıb gedərsə, kişinin nəfəqə məsuliyyəti aradan qalxar.
- Qadın irtidad edərsə, ərinin nəfəqə məsuliyyəti qalmaz.
- Qadının zina və başqa yolla səbəb olduğu boşanma nəticəsində nəfəqə hüququndan məhrum olan, nəfəqə haqqını düşürər.
- Ərinin vəfat etməsi səbəbilə iddə gözləyən qadına nəfəqə lazım gəlməz. Çünki, ər vəfat etdikdən sonra bütün malı varislər arasında bölüşdürülür. Xanımı da, dörtdə bir və ya səkkizdə bir nisbətində miras payı alır.

Uşaqların nəfəqələri də atalarına aiddir. Nəfəqənin əhatəsinə yemək, geyim, ev və ev üçün lazım olan ehtiyaclar daxildir. "Talaq" surəsinin 6-cı ayəsində belə buyurulur: **"Onları (boşadığınız, lakin gözləmə müddətləri sona yetməmiş qadınları) imkanınız çatdığı qədər öz yaşadığınız yerdə sakin edin. (Bu qadınları) sıxışdırmaq (evdən çıxıb getməyə məcbur etmək) məqsədilə onlara zərər (əziyyət) verməyə cəhd göstərməyin. Əgər onlar hamilədirlərsə, bari-həmləni yerə qoyana qədər xərclərini verin. (Həmin qadınlar gözləmə müddətləri qurtarandan sonra) sizin üçün uşaq əmizdirirlərsə, onların (süd) haqqını verin (çünki onlar artıq sizin uşaqlarınıza süd verməyə borclu deyillər). Öz aranızda yaxşılıqla (şəriətə müvafiq şəkildə) sazişə gəlin. Əgər (bu məsələdə) çətinliyə düşsəniz (bir-birinizlə razılığa gələ bilməsəniz), onu (uşağı) başqa bir qadın əmizdirə bilər"** (Talaq, 65/6). Bu

İPEKYOLU NƏŞRİYYATI

ayədən aydın olur ki, boşanmış bir qadının iddəsini tamamladıqdan sonra, əgər uşağını əmizdirirsə, bu da nəfəqəyə daxildir və uşağın atası tərəfindən təmin edilməlidir.

Ata, oğlan uşağına həddi-buluğ yaşına qədər baxmaqla mükəlləfdir. Ancaq oğlan uşağı həddi-buluğ yaşına girdiyi halda şikəst, xəstə olarsa və ya təhsil aldığı üçün pul qazanmaqdan aciz olarsa, yenə atanın nəfəqə mükəlləfiyyəti davam edər. Qız uşaqlarında isə həddi-buluğ və yaş şərti yoxdur. Evlənənə qədər qız uşaqlarının dolanışığının təmini ataya aiddir.

Ata-ana kasıb olar və ya yaşlanıb iş qabiliyyətini itirərsə, baxmaq mükəlləfiyyəti uşaqlara aiddir. Ayeyi-kərimidə belə buyurulur: **"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: 'Uf!' belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!"** (İsra, 17/23)

Cabir ibn Abdullah belə nəql edir: Hz. Peyğəmbərin (s.ə.s) yanına atası ilə birlikdə bir nəfər gəldi və belə dedi: "Ey Allahın elçisi! Mənim özümə aid malım var, ayrıca atamın da malı var. Atam mənim malımı almaq istəyir". Rəsulullah (s.ə.s) belə buyurdu: *"Sən və malın atana aiddir"* (İbni Macə, "Sünən").

OXU MATERİALI

GÖZƏL AİLƏ HƏYATI

"Əri ilə gözəl ailə həyatı yaşayaraq ölən qadın cənnətlikdir".

Əshabi-kiramdan Əsma binti Yezid adında bir qadın səhabə vardı. Gözəl və səlist danışardı. Bir gün xanım səhabələr Əsmanı öz aralarında təmsilçi seçib Peyğəmbərimizin yanına göndərdilər. Bilmək istədikləri bir mövzunu gedib öyrənməsini tələb etdilər. Əsma Peyğəmbərimizin hüzuruna girərək belə dedi:

"Anam-atam sənə fəda olsun, ey Allahın elçisi! Mən, qadınların öz aralarından seçib təmsilçi olaraq sizə göndərdikləri bir elçiyəm. Allah-Təala səni bütün qadın və kişilərə peyğəmbər göndərmişdir. Biz sənə və sənin Rəbbinə iman gətirdik. Ancaq biz qadınlar , siz kişilərin evlərində qapalı həyat tərzi keçiririk. Kişilərin cinsi istəklərini tətmin edirik. Uşaqlarını bətnimizdə daşıyırıq. Kişilər isə cümə namazı qılmaq, məscidlərə getmək və camaatlara qatılmaq, xəstələri ziyarət etmək, cənazədə iştirak etmək, dəfələrlə həcc edə bilmək və bunların hamısından da daha fəzilətli olan Allah yolunda cihad etmək kimi üstünlüklərə sahibdirlər. Bu da bir həqiqətdir ki, siz kişilər həcc və ya ümrə etmək və kafirlərlə vuruşmaq üçün evlərinizdən çıxdığınız zaman mallarınızı qoruyuruq, paltarlarınızı toxuyur və uşaqlarınıza baxırıq. Belə olan halda biz qadınlar, bu xeyirli işlərin savabında sizlərə ortaq ola bilmərikmi?"

Əsma çox gözəl danışdı. Peyğəmbərimiz onu diqqətlə sonuna qədər dinlədikdən sonra yanında olan səhabələrinə çevrilərək belə dedi:

"Siz bir qadından din mövzusunda soruşulan suallar arasında bundan daha gözəl (yaxşı) olanını eşitdiniz?" Sonra da Əsmaya bunları söylədi:

"Ey Əsma! Bunu yaxşı başa düş və səni bura göndərən xanımlara izah et ki, bir qadının əri ilə yaxşı dolanaraq onun rizasını qazanması, savab olaraq bəhs etdiyin bütün bu əmməllərin hamsına bərabərdir".

Bu cavabı alan Əsma dua edərək ordan çıxdı.

İPƏKYOLU NƏŞRİYYATI

K. EVLİLİK HƏYATININ SONA ÇATMASI (BOŞANMA)

İslamda ailə həyatının davamlı olması əsasdır. Ancaq İslam cəmiyyətdəki həqiqətləri qəbul edən və bunu əsas alan bir din olduğu üçün, nəticə etibarilə dolanmayacaqları bəlli olan və bir-birinə qarşı kin və nifrət hisləri daşıyan ər-arvadın ayrılmasını qəbul etmişdir.

Ailə içində baş verən bəzi problemlərin sülh yolu ilə həll edilməsi, vasitəçilər vasitəsilə kişi və qadının barışdırılması ilk nəzərdə tutulan yollardır. **"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!"** (Nisa, 4/35) Əgər bunlarla problemlər aradan qalxmaz və evliliyin davam etməsi ilə daha böyük problemlər yaşanırsa, İslam dini xoş qarşılamamaqla yanaşı boşanmağa icazə verir.

Boşanmağın yaxşı bir iş olmadığı hədislərdə bildirilmişdir. Abdullah ibn Ömər, Rəsulullahın (s.ə.s) belə buyurduğunu nəql etmişdir: *"Uca Allahın ən sevmədiyi halal boşanmadır"* (Əbu Davud, Talaq, 35)

Tərəflər boşandıqdan sonra ruzi qayğısını çəkməməlilər. Ayədə belə buyurulur: **"Əgər onlar (ər-arvad) bir-birindən ayrılsalar Allah onların hər birini Öz geniş lütfü (kərəmi) ilə ehtiyacsız edər. Həqiqətən, Allah geniş lütf sahibi, hikmət sahibidir!"** (Nisa, 4/130)

İslamda qəbul edilən boşanma səbəbləri:

1) Namusszluq və dinin zərər görməsi: Yoldaşının pis yolda olması, namusu qorumaması, namaz, oruc kimi qəti olaraq yerinə yetirilməsi əmr olunan fərzləri yerinə yetirməyə mane olması və ya içki, qumar kimi haramları etməsi hallarında boşanma tələb edilə bilər.

2) Həddindən artıq pis dolanmaq və pis rəftar etmək: tərəflərin bir-birinin şərəf və heysiyyətinə yönəlik təhqiramiz sözlər sərf etməsi, Uca Allahın haram buyurduğu bir işi etməyə onu məcbur etməsi və ya mühüm bir səbəb olmadığı halda maraqlanmaması hallarında boşana bilər.

3) Ərinə qarşı gəlməsi: qadının ərinə qarşı gəlməsi, ərinin cinsi istəklərini rədd etməsi, ərinə qarşı üsyan etməsi, nəfəqəsi təmin edildiyi halda ərindən məmnun olmaması, evinə və uşaqlarına qarşı tamamilə səhlənkar olması kimi hallarda ər boşana bilər.

4) Kişinin cinsi problemlərinin olması: qadın ərinin cinsi zəifliyinin olması, cinsiyyət üzvünün olmaması kimi qüsurlara görə boşanmaq məqsədilə məhkəməyə müraciət edə bilər.

5) Ərin nəfəqəni təmin etməməsi: qadının yemək, içmək, geymək və ev kimi ehtiyaclarının qarşılanması kişiyə aiddir. Ərin maddi və qazanma imkanları olduğu halda yoldaşı ilə maraqlanmaz və onu bunlardan məhrum edərsə, əvvəlcə qadın ərindən nəfəqə təmin etməyə çalışmalı, bu mümkün olmazsa, boşanmaq üçün başqa yollar axtarma hüququna malikdir.

Ər kasıbdırsa, qadın səbir etməlidir. Ayədə belə buyurulur: **"Varlı-karlı olan öz varına görə (süd haqqı) versin. İmkanı az olan isə Allahın ona verdiyindən versin. Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz. Allah hər bir çətinlikdən sonra asanlıq (yoxsulluqdan sonra dövlət) əta edər"** (Talaq, /7). Ancaq ər heç bir şəkildə nəfəqəni təmin edə bilmirsə, qadın boşanmaq üçün məhkəməyə müraciət edə bilər.

6) Ərin evi tərk etməsi: ərin evi tərk etməsi və bu səbəbdən qadının çətinlik çəkməsi halında boşanma tələb etməsi mümkündür. Hz. Ömər xəlifəliyi dövründə təlimat verərək, xanımlarından ayrı qalan kişilərin ya nəfəqə vermələrini, ya da xanımlarını boşamalarını əmr etmişdir.

Əgər kişi ölkəsindən uzaqdadırsa, hakim üç ay müddət verər. Bu müddət ərzində ailə fərdlərinin nəfəqəsini təmin etməzsə, evliliyə xitam verə bilər.

İPOKYOLU NƏŞRİYYATI

L. BOŞANMANIN NÖVLƏRİ

İslamda evlilik həyatı tərəflərdən birinin vəfat etməsi, kişinin boşaması və ya məhkəmənin nikaha xitam verməsi ilə sona çatar.

Bir kişinin yoldaşını boşama haqqı iki dəfədir. Üçüncü dəfədə artıq tamamilə ayrılmış olurlar. **"(Rici) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir. (Ey kişilər!) Onlara (qadınlarınıza) verdiyinizdən (kəbin haqqından, mehrdən) bir şey tələb etməniz sizə halal olmaz. Bu yalnız kişi ilə qadının Allahın (ər-arvadlıq) haqqındakı hökmlərini yerinə yetirə bilməyəcəklərindən qorxduqları zaman mümkündür. (Ey şəriət hakimləri!) Əgər onların (ər-arvadın) Allahın hökmlərini yerinə yetirməyəcəklərindən siz də qorxsanız, arvadın (kəbin haqqından) ərinə bir şey verməsində heç biri üçün günah yoxdur. Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın. Allahın hədlərindən kənara çıxanlar, əlbəttə, zalımlardır"** (Bəqərə, 2/229).

İslam qadının kişidən daha çox hissi davranması, mehri verib nəfəqəni qarşılayan kişinin hadisələrə daha obyektif yanaşması və bunun kimi başqa səbəblərə görə boşanma səlahiyyətini kişiyə verilmişdir. Ancaq bu səlahiyyətin pis məqsədlərdən ötrü istifadə edilməsinin qarşını almaq üçün də bəzi tədbirlər görmüşdür.

İstərsə nikah əsnasında olsun, istərsə də nikahdan sonra ərin xanımına boşanma səlahiyyəti verməsi caizdir. Buna **"tövzi-talaq"** deyilir. Kişi xanımına boşanma səlahiyyəti verərkən, "istəsən on gün içində boşana bilərsən" kimi müəyyən müddətə bağlı olaraq da verə bilər, "nə vaxt istəsən boşana bilərsən" kimi bəlli bir vaxta bağlı olmadan müddətsiz də verə bilər. Xanımına tövzi-talaq (boşanma səlahiyyəti) verən kişinin üş dəfə olan boşanma haqqı isə azalmayıb olduğu kimi qalar.

I. Sünnəyə uyğun olan və olmayan başanma

Boşanma Quran və Sünnəyə uyğun olub-olmamasına görə sünni və bidi olmaqla iki növdür.

A) Sünni talaq (sünnəyə uyğun edilən boşanma): sünnəyə uğun edilən boşanma kişinin yoldaşını aybaşı olmadığı bir vaxtda cinsi münasibətdə olmadan bir talaqla, yəni bir boşama haqqı ilə boşaması və iddənin axırına qədər gözləməsidir.

B) Bidi talaq (sünnəyə uyğun olmayan boşanma): qadını aybaşı ikən boşamaq, cinsi münasibətdən sonra bir dəfə boşamaq, bir dəfədə birdən çox boşamaq bidi boşama nümunələrindəndir. Bu cür boşanmalar sünnəyə uyğun olmamaqla yanaşı etibarlı hesab olunur.

İPOKYOLU NƏŞRİYYATI

II. Evlilik həyatına nikahsız geri dönməsinə icazə verilən və verilməyən boşanmalar

Boşanma qəti şəkildə ayrılığa səbəb olub-olmaması baxımından rici (iddə müddətində qayıtma imkanı verən) və bain (qəti şəkildə ayrılıq meydana gətirən) talaq olmaqla iki növdür.

A) Rici talaq (iddə müddətində qayıtmağa imkan verən boşanma): Kişəyə boşadığı qadına iddə müddətinin sonuna qədər yeni bir nikah əqdinə ehtiyac olmadan birtərəfli iradə ilə geri qayıtma haqqı verən boşanmağa "rici boşanma" deyilir. Bu boşanma növü tərəflərin bir müddət bir-birlərini görmək istəməməsi, küsülü qalması, ailədaxili bir problemi həll etmək və bir-birləri ilə müvəqqəti dolanmamaq kimi hallarda ortaya çıxar.

Rici boşanma nəticəsində aşağdakı hökmlər əmələ gəlir:

a) Evlilik həyatı iddə halının sonuna qədər davam edər. Rici talaqla boşanmış olan qadının evdə əri ilə qalması caizdir. Qadının hicab ilə bağlı məsələdə kişidən çəkinməsinə ehtiyac qalmaz. Hətta bu müddətdə evliliyin davam etməsini təmin etmək üçün qadının bəzənməsi yaxşı qəbul edilmişdir.

b) Boşanan qadın istər razı olsun, istərsə də olmasın, kişi, iddə müddətində yeni bir nikah əqdi bağlamadan onunla barışa bilər. Rici boşanmada kişi üç aybaşı müddətinin sonuna qədər yoldaşına qayıtmazsa (onunla barəşmazsa) buradakı rici boşanma bainə (qəti ayrılığa) çevrilər.

c) Rici boşanma səbəbi ilə qadın iddə gözlədiyi əsnada ər və arvaddan biri ölərsə, digəri ona varis olar.

d) Üç olan boşanma sayı (haqqı) azalmış olar. Əgər kişi yoldaşını iki rici talaqla boşamışsa, artıq bir boşama haqqı qalmış olar.

İslam, ailənin yuvalarının dağılmasını deyil, davamlı olmasını əsas aldığı üçün, bunu təmin edən bütün tədbirləri almışdır. Rici boşanmada nə mal-mülk, nə də digər hüuqlarla bağlı hər hansı bir məhdudiyyət qoyulmur. Rici boşanma nəticəsində peşman olan tərəflər iddə müddətində barışarsa, artıq heç bir şey olmamış kimi əvvəlki ailə həyatlarını davam etdirmək imkanı əldə edərlər.

B) Bain talaq (qəti olaraq evliliyə xitam verən boşanma): Boşanma əsnasında qəti olaraq evlilik həyatına son qoyan və yeni bir nikah əqdi bağlanmadan evlilik həyatının davam etməsinə imkan verməyən boşanmağa "bain boşanma" deyilir. Bain boşanmada iddə müddəti daxilində kişinin qadına toxunması caiz deyil. Çünki aralarındakı evlilik əlaqəsi tamamilə aradan qalxmışdır.

Bain boşanmanın hökmləri bunlardır:

a) Boşanma ilə nikahın hökmü sona çatar, qadın hicabsız kişinin yanına gedə bilməz.

b) Qadın iddənin sonuna qədər ərinin evində qala və nəfəqədən istifadə edə bilər.

c) Tərəflər arasında varisliklə bağlı hüuqlar aradan qalxar.

Kişinin bütün boşanma hüuqlarına son qoyan və hüllə olmadan yenidən evlənmə imkanı tanımayan boşanmağa bəynunəti-kübra (böyük ayrılıq) deyilir. Böyük ayrılıq iki dəfə boşadıqdan sonra qadını üçüncü dəfədə boşamaq surəti ilə meydana gələr. Əvvəlki boşamaların rici və bain olması arasında heç bir fərq yoxdur.

Boşanmada niyyət mühüm rol oynayır. Əhməd ibn Hənbəlin İbn Abbasdan nəql etdiyinə görə, Rükanə ibn Əbdi Yezid xanımını bir dəfədə üç talaqla boşamışdı. Rükanə daha sonra gördüyü bu işdən çox peşman olmuşdu. Hz. Peyğəmbər Rükanəyə yoldaşını necə boşadığını soruşduqda, o: "dəfə boşadım", - dedi. Rükanədəni "Bir dəfədəmi üç dəfə boşadın", - deyə soruşulunda, o: "Bəli!" cavabını verdi. Sonra da: "Allaha and olsun ki, bununla bir dəfə boşanmanı qəsd etdim", - dedi. Allahın elçisi bunun müqabilində: *"Bu, sadəcə olaraq bir dəfə boşamadır. İstəsən yoldaşına yenidən qayıda biələrsən",* - buyurdu. Rükanə də yoldaşı ilə barışdı (Əhməd ibn Hənbəl, "Müsnəd", I).

İPƏKYOLU NƏŞRİYYATI

Üç dəfə və daha çox edilən boşamalar üç talaq sayılır. Bir adam İbn Abbasın yanına gələrək: "Mən xanımımı yüz talaqla boşadım, nə etməliyəm?"- deyə soruşdu. İbn Abbas belə cavab verdi: "Xanımın səndən üç talaqla boşanmış və doxsan yeddi boşanma ilə də Allahın ayələrinə lağ eləmisən" (Malik, "Müvəttə, Talaq, 1).

III. Evliliyə hakimin qərarı ilə xitam verilməsi (təfriq)

İslam hüququna görə, tərəflər boşanmaları üçün məhkəməyə müraciət edə bilərlər. Hakim ehtiyac olarsa, evliliyə xitam verə bilər. Məhkəməyə müraciət edilməsini zəruri edən hallar bunlardır:

a) Kişinin nəfəqəni verməməsi və yoldaşına pis davranması.

b) Kişinin qeyb olması, itkin düşməsi və ya uzun müddətlik həbs olunması, kişidə cinsi həyata böyük təsir göstərən bir nöqsanlığın olması, tərəflər arasında ailə həyatının davam etməsinə mane olan dini müxtəlifliyinin meydana gəlməsi.

c) Mehrin mehri-misildən az olması və ya tərəflər arasında bərabərliyin olmaması ilə bağlı vəlinin etiraz etməsi, kiçik yaşda evləndirilən qız və ya oğlanın büluğ müxəyyərliyi hüququndan istifadə etməsi, əqli xəstənin sağaldıqdan sonra hakimə müraciət edib boşanmağı tələb etməsi.

d) Tərəfələrdən birisinin digərinin zina etdiyini söyləməsi ancaq bunu dörd şahidlə isbat edə bilmədiyi üçün məhkəmədə xüsusi bir şəkildə qarşılıqlı olaraq hakimdən boşanmağı tələb etməsi. Bu şəkildə boşanmağa lian (lənətləşmə) deyilir.

IV. Qadına verilən bir əvəz müqabilində boşanma (müxaliə)

Müxaliə, qadına verilən bir əvəz qarşılığında tərəflərin sövdələşərək evlilik həyatlarına xitam vermələri mənasına gəlir. Müxaliə boşanma üsuludur. Əgər qadın boşanmaq istəyib kişi boşanmaqdan müxtəlif bəhanələrlə boyun qaçırırsa, qadın alacağı mehirdən imtina edərək və ya bir əvəz qarşılığında özünü boşaması üçün əri ilə müqavilə bağlaya bilər. Kişi, uşaqların nəfəqə xərclərinin müəyyən bir yaşa qədər qadın tərəfindən qarşılanması şərti ilə də Müxaliə edə bilər.

Bir başqa metod olan müxaliə qadın üçün bir çıxış yoludur. Ayədə belə buyurulur: **"(Rici) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir. (Ey kişilər!) Onlara (qadınlarınıza) verdiyinizdən (kəbin haqqından, mehrdən) bir şey tələb etməniz sizə halal olmaz. Bu yalnız kişi ilə qadının Allahın (ər-arvadlıq) haqqındakı hökmlərini yerinə yetirə bilməyəcəklərindən qorxduqları zaman mümkündür. (Ey şəriət hakimləri!) Əgər onların (ər-arvadın) Allahın hökmlərini yerinə yetirməyəcəklərindən siz də qorxsanız, arvadın (kəbin haqqından) ərinə bir şey verməsində heç biri üçün günah yoxdur. Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın. Allahın hədlərindən kənara çıxanlar, əlbəttə, zalımlardır"** (Bəqərə, 2/229).

Müxaliə yolu ilə boşanma bir bain talaq sayılır. İbn Abbasdan (r.ə) rəvayət edildiyinə görə, Sabit ibn Qüysin xanımı Peyğəmbərin (s.ə.s) yanına gələrək: "Ey Allahın Rəsulu, Sabit ibn Qeysi əxlaq və din baxımından ayıblamıram (şikayət etmirəm). Ancaq küfr dərəcəsində bir xəta etməyindən qorxuram",- dedi. Hz. Peyğəmbər ondan soruşdu: "Bağçanı ona qaytaracaqsan?" Qadın qaytaracağını bildirdi. Bunun müqabilində Hz. Peyğəmbər Sabitə: "Bağçanı qəbul et və onu bir dəfədə boşa!" - buyurdu (Buxari, Talaq, 11).

V. Xanimina dörd ay yaxinlaşmamağa and içməklə boşanma (ila)

İla kişinin dörd ay və daha çox müddət ərzində yoldaşına yaxınlaşmayacağına and içməsi və ya bunu hər hansı bir şərtə bağlamasıdır. Ayədə belə buyurulur: **"Övrətlərinə yaxınlaşmamağı and içən kimsələr üçün dörd ay gözləmə müddəti vardır, əgər bu müddət içərisində andlarından dönsələr, Allah (onları kəffarə vermək şərtilə) bağışlayandır, rəhm edəndir"** (Bəqərə, 2/226).

İPƏKYOLU NƏŞRİYYATI

İla müddətində tərəflərin geri qayıtması və evlilik həyatının davam etməsi təşviq edilmişdir: **"Övrətlərinə yaxınlaşmamağı and içən kimsələr üçün dörd ay gözləmə müddəti vardır, əgər bu müddət içərisində andlarından dönsələr, Allah (onları kəffarə vermək şərtilə) bağışlayandır, rəhm edəndir"** (Bəqərə, 2/226). Hz. Aişə belə demişdir: *"Rəsulullah xanımlarına ila etdi və özünə halalı haram etdi. Arxasınca da özünə haram etdiyinihalal etdi və andına görə də kəffarə verdi"* (Buxari, Talaq 21) .

İla nəticəsində kəffarə verərək boşanma fikrindən daşınsa bir boşama haqqı azalmış olur.

İlada müddət yoldaşına yaxınlaşmamaq üçün kişinin and içdiyi vaxtdan etibarən başlayır. "Sənilə münasibətdə olarsam, qoç kəsəcəyəm" kimi ifadələrlə ila meydana gələr. Kişi dörd ay keçdiyi halda yoldaşına qayıtmazsa, məhkəmə tərəfindən bir qərar verməsi tələb olunur. Kişi bunu etməzsə, məhkəmə nikaha xitam verər.

Boşanmada xüsusi hallar:

Boşanmada şahid: Qurani-Kərimdə belə buyurulur: **"Bunların (bu qadınların) gözləmə müddəti başa çatdıqda (barışmaq istəsəniz) onları yaxşılıqla (mehrlərini verib) yola salın. (Sonradan aranızda ixtilaf olmasın deyə) içərinizdən iki ədalətli şahid tutun. (Siz də ey şahidlər!) Allah üçün (doğru) şahidlik edin! Bununla Allaha və axirət gününə iman gətirənlərə öyüd-nəsihət verilir. Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər"** (Talaq, 65/2). Şahidlərin adları da yazılaraq rəsmi qaydada ər və arvadın boşandıqlarının sənədləşdirilməsi nəfəqə, mehr və başqa hüquqların qorunması, boşanmanın dəqiqləşməsi və elan edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyri-ciddi boşanma: Evlənmək, boşanmaq kimi insan həyatına birbaşa təsir edən məsələlərdə zarafat edilməməlidir. Zarafat belə qadına "səni boşadım" kimi ifadələr sərf edilməməlidir. Əbu Hüreyrənin nəql etdiyi bir hədisdə belə buyurulur: *"Üç şey vardır ki, bunların ciddisi də, zarafatı da ciddidir. Evlənmək, boşanmaq və rici boşanmada yoldaşına qayıtmaq"*.

M. İDDƏ VƏ HÖKMLƏRİ

İddə evliliyin sona çatması nəticəsində qadının yenidən evlənə bilməsi üçün gözləmək məcburiyyətində olduğu və müddəti şəriətə görə müəyyən edilən vaxtdır. İddənin müddəti vəziyyətə görə fəqli olur:

A) Əri ölən qadının iddəsi: əgər qadın hamilə deyilsə, iddəsi dörd ay on gündür. Dəlili bu ayədir: **"Sizdən ölənlərin qoyub getdiyi qadınlar dörd ay on gün (başqa ərə getməyib) özlərini gözləməlidirlər. Bu müddət tamam olduqda, artıq onların öz barələrində şəriətə müvafiq surətdə etdikləri işdən sizə heç bir günah gəlməz. Allah etdiklərinizin hamısından xəbərdardır!"** (Bəqərə, 2/234)

B) Hamilə qadının iddəsi: Allah-Təala belə buyurur: **"(Yaşa dolmaqla) heyzdən kəsilmiş qadınlarınız (onların gözləmə müddəti) barədə şübhə etsəniz, (bilin ki) onların və həmçinin (yaşları müsaid olmadığı üçün) hələ heyz görməmiş olanların (heyz görməmiş gənc övrətlərinizin) gözləmə müddəti üç aydır (bu müddət başa çatdıqdan sonra başqası ilə evlənə bilərlər). Hamilə qadınların gözləmə müddəti isə onlar bari-həmlini yerə qoyduqda başa çatır. Kim Allahdan qorxsa, Allah onun işini (dünya və axirətdə) asan edər".** (Talaq, 65/4). Əshabi-kiramdan Harisin qızı Sübeya (r. ənha) hamilə ikən əri vəfat etmiş və on gün sonrauşağı olmuş, Hz. Peyğəmbərdə ona, iddəsinin qurtardığını və istədiyi təqdirdə evlənə biləcəyini bildirmişdir (Buxari, Talaq, 39) .

C) Boşanmış qadının iddəsi: boşanma iddəsi təxminən üç ay müddətində meydana gəlir. Quranda belə buyurulur: **"Boşanan qadınlar üç dəfə (heyz görüb təmizlənincəyə qədər başqa ərə getməyib) gözləməlidirlər. Əgər (o qadınlar) Allaha və qiyamət gününə inanıblarsa, Allahın onların bətnlərində yaratdığını (uşağı) gizlətmək onlara halal olmaz. (Bu gözləmə müddəti içərisində) ərləri barışmaq istərlərsə, onları geri almağa (hər kəsdən) daha çox haqlıdırlar. (Kişilərin qadınlar) üzərində**

İPƏKYOLU NƏŞRİYYATI

şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlandıqları üçün) onlardan bir dərəcə üstündürlər. Allah yenilməz qüvvət, hikmət sahibidir" (Bəqərə, 2/228). Hənəfilərə görə, "qüru" ifadəsi üç aybaşı müddəti mənasına gəlir. Şafei və malikilərə görə isə, "qüru" boşanan qadının iki aybaşı arasındakı təmiz olduğu günləri ifadə edir. Belə olan təqdirdə, qadın təmiz günlərində boşanmışsa, iddə başlamış olar və boşandığı təmizlik günləri bir təmizlik sayılar. Üçüncü təmizlik günlərinin sonunda iddəsi qutarmış olar. Bundan əlavə, zifafdan əvvəl boşanan qadının iddə gözləməsinə ehtiyac yoxdur.

D) Yaşlı qadınların və aybaşı olmayan qadınların iddəsi: çox yaşlıolan və ya yaradılışdan aybaşı olmayan qadının iddəsi üç aydan ibarətdir. Quranda belə buyurulur: **"(Yaşa dolmaqla) heyzdən kəsilmiş qadınlarınız (onların gözləmə müddəti) barədə şübhə etsəniz, (bilin ki) onların və həmçinin (yaşları müsaid olmadığı üçün) hələ heyz görməmiş olanların (heyz görməmiş gənc övrətlərinizin) gözləmə müddəti üç aydır (bu müddət başa çatdıqdan sonra başqası ilə evlənə bilərlər). Hamilə qadınların gözləmə müddəti isə onlar bari-həmlini yerə qoyduqda başa çatır. Kim Allahdan qorxsa, Allah onun işini (dünya və axirətdə) asan edər"** (Talaq, 65/4).

E) Əri qeyb olan və ya itkin düşən qadının iddəsi: Hənəfilərə görə, normal vəziyyətdə qeyb olan bir şəxsin öldüyü qəti olaraq bilinmirsə, nikahına xitam verilməz. Bu, bölgəsindəki həmyaşıdları vəfat edənə qədər davam edər. Belə bir qadın yalnız ərinin ölüm xəbərini etibarlı bir şəxsdən eşitmişsə, ərinin ölümü qətidirsə, əri ölən qadın kimi iddə gözləyər və bu müddətdən sonra yenidən evlənə bilər. Maliki və hənbəlilərə görə qeyb olan ər dörd il gözlənilməlidir. Ancaq qeyb olan ər yetmiş yaşına gəlməyincə mal-dövləti varislər arasında bölüşdürülməz. Kişi müharibədə itkin düşər və müharibəyə qatılan digər əsgərlərin geri dönüşündən etibarən bir il müddətində geri qayıtmazsa, qadının müraciət etməsi ilə hakim nikaha xitam verə bilər. Əgər qadın başqa birisi ilə evləndikdən sonra itkin düşən çıxıb gələrsə, qadının ikinci evliliyi ləğv edilməz.

İIddə gözləyən qadının hüquq və öhdəlikləri:

A) Nəfəqə haqqı: rici talaqla boşanan qadın iddə müddətində yemək, içmək, geyim və qalmaq kimi nəfəqə haqqına sahibdir.

B) Məskən haqqı: qadın rici və ya bain talaqla boşandığı zaman iddə müddətində ərinin evində qalma haqqına sahibdir.

C) Səyahət sərbəstliyində məhdudiyyət: iddə gözləyən qadının bəzənərək gəzib dolaşması yaxşı qəbul ediməmişdir. İddə gözləyən qadın zərurət olduqda evdən çıxa bilər. Əri vəfat edən qadının dolanışığını təmin etmək üçün evdən çölə çıxmasında bir qəbahət yoxdur. Ancaq başqa bir yerdə qalmamalıdır.

D) Nişanlanma və evlənmə qadağanı: boşanan və ya əri vəfat edən qadının iddə müddətində başqa bir kişi ilə nişanlanması və nikahlanması caiz deyil. Boşanmanın rici və ya bain olması nəticəni dəyişdirmir. Ayədə belə buyurulur: **"(Bu müddəti gözləyən) qadınlara elçi göndərmək (onlarla evlənmək) istədiyinizi (rəmz və) işarə ilə bildirməkdən və ya belə bir istəyi ürəyinizdə gizlətməkdən sizə heç bir günah gəlməz. Allah sizin onları xatırlayacağınızı bilir. Lakin (gözləmə müddətində) onlarla gizlində vədələşməyin, onlara şəriətə müvafiq söz deyin! Gözləmə vaxtları bitməyincəyə qədər onlarla nikah etmək fikrində olmayın! Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Ondan (Allahdan) qorxun, Allahın bağışlayan, həlim olduğunu bilin!"** (Bəqərə, 2/235)

İPAKYOLU NƏŞRİYYATI

N. UŞAĞA BAXMAQ VƏ BUNUNLA BAĞLI ÖHDƏLİKLƏR (HİDANƏ)

Hidanə baxılmağa möhtac olan şəxslərə baxmaq deməkdir. Hidanənin məqsədi, öz ehtiyaclarını qarşılaya və işlərini görə bilməyən şəxslərin himayəyə götürülməsi, baxım və tərbiyə işinin bir şəxsin məsuliyyətinə verilməsidir.

Ana uşağına baxmaq və tərbiyəsi ilə məşğul olmağa ən çox layiq olan və bu məsələdə fikir birliyi vardır. Bir qadın Allahın elçisinin yanına gələrək belə dedi: "Ey Allahın elçisi! Bu mənim oğlumdur. Qarnım ona bir qab, döşüm bir qida mənbəyi və qucağım isə isti bir yuva oldu. İndi isə atası məni boşadı və uşağı əlimdən almaq istəyir". Hz. Peyğəmbər (s.ə.s) belə buyurdu: *"Başqası ilə evlənmədiyin müddətdə uşaq üzərində daha çox haqq sahibisən"* (Əbu Davud, Talaq, 35).

Dul qalan ana iddədən sonra uşağına baxmağa və əmizdirməyə davam edərsə, əmizdirmək, baxmaq və uşağın yemək, içmək, geyim və təmizlik xərclərini uşağın atasından nəfəqə kimi tələb edə bilər. Əyər ana yoxdursa və ya hidanəyə layiq deyilsə bu haqq sırası ilə ana tərəfdən nənəyə, ata tərəfdən nənəyə və sonrada bacıya keçər. Bunlardan sonra xalaya, bacı və qardaş qızlarına və bibiyə keçər. Uşaq boyüdüyü zaman hidanə haqqı dəyişə bilər.

SUALLARI CAVABLANDIRIN

1. Ailənin cəmiyyətdəki yeri və əhəmiyyətini açıqlayın.
2. Evliliyin faydalarını maddələr halında yazın.
3. Ailədə uşaq tərbiyəsinin əhəmiyyətini izah edin.
4. Evliliklə bağlı ayə və hədislərin hər birindən dörd dənə yazın.
5. Nikahın səhih olmasının şərtləri hansılardır?
6. Bir qadın və ya kişinin kiminlə evlənməsi haramdır.
7. Evlənməklə meydana gələn hüquq və öhdəliklər hansılardır? İzah edin.
8. Mehr haqqında məlumat verin.
9. Nəfəqə öhdəliyi nə üçün kişiyə verilmişdir?
10. Neçə növ boşanma vardır?
11. İddə nə deməkdir? İzah edin.
12. Hidanə nə deməkdir?

İPƏKYOLU NƏŞRİYYATI

TERMİNLƏRİN İZAHINI TAPIN

1	Rici talaq		Təkrar nikah bağlanmadan evliliyə həyatına qayıtmaq mümkün olmayan baoşanma
2	Bidi talaq		Sünnəyə uyğun edilən boşanma
3	Töfvizi-talaq	1	Təkrar nikah bağlanmadan evlilik həyatına qayıtmaq mümkün olan (dönməyə icazə verilən) boşanma
4	Bain talaq		Evlilikdə qadına boşanma haqqı vemək
5	Sünni talaq		Sünnəyə uyğun olmayan boşanma

SƏHV-DÜZ

1. ( ) Kişi evdə ailə başçısı olduğu üçün xanımı ilə zarafatlaşması, onunla bir dost kimi əylənməsi doğru deyil.

2. ( ) Hər doğulan uşaq İslam fitrəti üzrə doğular.

3. ( ) Evlilik ehtirasi arzuların halal yoldan təmin edilməsi səbəbiylə savab mənbəyidir.

4. ( ) Evlənən qız və oğlanın əl-ələ tutuşub birlikdə gəzmələri caizdir.

5. ( ) Bir kişi yoldaşı ölərsə, yoldaşının əvvəlki ərindən olan qızı ilə evlənə bilər.

6. ( ) Süd qohumluğunun meydana gəlməsi üçün, süd uşağın mədəsinə çatmalı və iki yaşına qədər əmilməlidir.

7. ( ) Bir şəxs özünə bibi və əmi hesab olunan süd anasının ərinin bacı və qardaşları ilə evlənə bilər.

8. ( ) Müsəlman qadın və ya kişi müşriklərlə evlənə bilməz.

9. ( ) Əxlaqi dəyərlərə görə aşağı səviyyədə olan fasiq bir kişi fəzilətli bir qadınla eyni səviyyədə olmadığı üçün, qadının vəlisi evliliyə mane ola bilər.

10. ( ) Bir qadınla bir kişi müəyyən bir müddətə evlənmək üçün mütə nikahı bağlaya bilərlər. Bu, dinə görə qadağan deyil.

11. ( ) Səhih bir evliliyin meydana gəlməsi üçün şahidlərin də iştirakı ilə nikah mərasimi əsnasında tərəflər razılıqlarını açıq deməli və beləliklə, evliliyi elan etməlidirlər.

12. ( ) Mehrin ən çox miqdarı 200 dirhəmdir.

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Evlənmə haqqında aşağıdakılardan hansı doğrudur?

a. Müsəlman bir kişi müşrik bir qadınla evlənə bilər.

b. Müsəlman bir kişi əhli-kitab bir qadınla evlənə bilər.

c. Müsəlman bir qadın müşrik bir kişi ilə evlənə bilər.

d. Müsəlman bir qadın əhli-kitab bir kişi ilə evlənə bilər.

"Yaxşı dolanmağı və yaxşı davranmağı ən çox haqq edən kimdir?" sualına Allah Rəsulu hansı cavabı vermişdir?

a. Uşaqlar

b. Ata

c. Həyat yoldaşı

d. Ana

2. Bir atanın uşaqlarına qoyduğu ən yaxşı miras nədir?

a. Ev, maşın

b. Var-dövlət

c. Gözəl əxlaq

d. Qənaət

3. Hədisi-şərifdə insan öldüyündə üç şeydən başqa əməl dəftərinin bağlanacağı bildirilmişdir. Aşağıdakılardan hansı bunlardan biri deyil?

a. Faydalı elm

b. Sədəqeyi-cariyə

c. Xeyirxah övlad

d. Ölülərinə qoyduğu başdaşı

4. Nişanlanmış və gələcəkdə evlənmək niyyətində olan qız və oğlanın nəyi etmələri dinimizə görə münasibdir?

a. Əl-ələ tutşub gəzmələri

b. Əl və üzlərinə baxmaları

c. Heç kimin olmadığı yerdə tək başına qalmaları

d. Romantik mühitdə qucaqlaşmaları

5. Aşağıdakılardan hansı ilə bir qadın evlənə bilər?

a. Bacısının oğlu ilə

b. Ögey oğlu ilə

c. Qaynatası ilə

d. Əmisi oğlu ilə

İPƏKYOLU NƏŞRİYYATI

6. Süd qohumluğunun meydana gəlməsi üçün müəyyən yaş daxilində və müəyyən miqdarda süd əmmə şərti vardır Aşağıda verilənlərdən hansı süd qohumluğunun meydana gəlməsi üçün kifayət edir?

a. 2 yaşına qədər bir dəfə doyunca süd əmmək;

b. 1 yaşında beş dəfə doyunca süd əmmək

c. 2 yaşına qədər doymadan beş dəfə süd əmmək

d. 1 yaşında doymadan bir dəfə süd əmmək

7. Aşağıdakılardan hansı müvəqqəti evlənmə maneələri arasında yer almır?

a. İddəyə bağlı evlənmə maneəsi

b. Qadının başqası ilə evli olması

c. Üç dəfə boşanmadan irəli gələn mane

d. Sihri qohumluqdan irəli gələn mane

9. Evlilikdə vəli və qızın bəzi hüquqları vardır. Bu mövzuda verilən məlumatlardan hansı səhvdir?

a. Qızların vəlilərindən icazəsiz evlənmələri düzgün deyil.

b. Vəli qızını məcbur edərək evləndirə bilər.

c. Dul qadın vəlisi olmadan da evlənə bilər.

d. Ər namizəd qadınla səviyyə baxımından eyni olmazsa, vəli tərəfindən evliliyə mane oluna bilər.

10. Hansı nikah növünə icazə verilmişdir?

a. Rəsmi nikah

b. Mütə nikahı

c. Razılaşmalı hüllə nikahı

d. Şiğar nikahı

11. Zifafdan əvvəl mehri müəyyən edilmiş bir evlilik sona çatarsa qadın mehirin nə qədərini almağı haqq edər?

a. Mehrin hamsını

b. Mehrin yarısını

c. Mütə (təsəlli üçün verilən hədiyyə hədiyə)

d. Mehrdən heç bir şey almaz

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

XV BÖLMƏ

İSLAMDA TİCARƏT

MÖVZULAR

A. İSLAMIN ƏMƏK VƏ TİCARƏTƏ VERDİYİ ƏHƏMİYYƏT

B. RUZİ QAZANMAQLA BAĞLI DİNİ PRİNSİPLƏR

C. İŞÇİLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

D. TİCARƏT BAXIMINDAN QADAĞAN OLAN ŞEYLƏR

İPƏKYOLU Nəşriyyatı

TAPŞIRIQLAR

1. Ticarət əxlaqı məfhumundan nə başa düşürsünüz? Siyər kitablarından Peyğəmbərimizin ticarət əxlaqı ilə əlaqədar bölmələri araşdırın
2. Qurani-Kərimdəki ticarətlə bağlı ayələri oxuyun.
3. Yaşadığınız şəhərdəki və ya ölkədəki ticarət şirkətlərindən birinə gedərək şirkət və iş prinsipi haqqında məlumat alın.
4. İslamda qazanc məhdudiyyəti var? Öyrənin.
5. Həddindən çox qazanma istəyi ilə ticarət etməyin fərd və cəmiyyətə verdiyi zərərlər nələrdir? Tacirlərə soruşun. Araşdırın.
6. Günümüzdə insanların ticarət həyatında etdikləri səhvlər nələrdir? İslama görə hansı malların alış-verişi halal deyil? Araşdırın.
7. Yalan və ya hiylə qarışan alış-verişlərin çoxalması qloballaşan dünyamızda hansı nəticələr meydana gətirir? Müzakirə edin.
8. Tapdığınız bir malı nə edərdiniz? Müzakirə edin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. İSLAMIN ƏMƏK VƏ TİCARƏTƏ VERDİYİ ƏHƏMİYYƏT

İslam dini insanların imkan və qabiliyyətlərinə görə çalışıb qazanmalarını və ehtiyaclarına görə də xərcləmələrini tövsiyə etmişdir.

Uca Allah: **"Yeri (Yer kürəsini) sizə ram edən Odur. Onun qoynunda gəzin, (Allahın) ruzisindən yeyin. Axır dönüş də Onadır!"** (Mülk, 67/15) - buyurmuşdur. Yer üzündə dolaşmaqdan məqsəd insanlara faydalı olan nemətləri tapıb ortaya çıxartmaq və bunun üçün tədqiqat aparmaqdır.

İslam fiqhinə görə, bir müsəlmanın özünün və ailəsinin nəfəqəsini təmin edəcək və borcları varsa borclarını ödəyəcək qədər pul qazanması fərzdir. Bundan başqa, kasıb müsəlmanların ehtiyaclarını qarşılamaq və qohum-əqrabasına kömək etmək üçün pul qazanması da müstəhəbdir. Yaxşı və rahat bir həyat yaşamaq üçün bundan çoxunu qazanmaq isə mübahdır. Başqalarına qarşı təkəbbürlənmək, dünyəvi istək və arzulara qapılaraq mal-dövlət və sərvət yarışına girişmək və bununla həddi aşmaq və azğınlıq etmək üçün qazanmaq halal yolla belə olsa haramdır. Bununla yanaşı, küfrə qarşı aparılan mübarizəyə öz maddi köməkliyini göstərmək və malını Allah yolunda infaq (xərcləmək) üçün səmimi bir niyyətlə çox çalışaraq pul qazanmaq da gözəl bir ibadətdir. Bu məqsədlə çalışaraq pul qazanan şəxs davamlı ibadət etmiş kimi qəbul edilir.

İslam dininə görə, əsas və təbii qazanc yolu zəhmətdir. Rəsulullah (s.ə.s) zəhməti və sənətkarlığı təşviq etmək üçün belə buyurmuşdur: *"Heç kəs zəhməti ilə qazandığından daha xeyirli bir şey yeməmişdir"* (İbn Macə, Ticarət, 1; Buxari, Büyu, 15).

Hz. Peyğəmbərə (s.ə.s) hansı qazancın daha üstün olduğu soruşulduqda belə cavab vermişdir: *"Əlin zəhməti ilə və düzgün edilən ticarətdir"* (Əhməd ibn Hənbəl, "Müsnəd", III, 466).

İşləmədən boş oturmaq dinimizdə pis görülmüşdür. Allahın Rəsulu (s.ə.s) belə buyurur: *"Allah əlindən iş gələn sənatkar mömün qulu sevər"* (Münavi, "Feyzul-qədir, II/290).

Bir hədisdə də belə buyurulmuşdur: *"Vedrədəki suyu istəyənin qabına boşaltmaq və mömün qardaşınla təbəssüm edərək danışmaq kimi də olsa, yaxşı, gözəl və doğru heç bir sözü, işi və davranışı kiçik görmə (edə bilirsənsə heç dayanma)* (Əbu Davud, Libas).

İslam işləyərək qazanmaq imkanına sahib olan bir şəxsin dilənməsini qadağan etmişdir. Hz. Peyğəmbər (s.ə.s) belə buyurur: *"Allaha and içirəm ki, sizdən birinizin kəndirini alıb, dağdan bir şələ odun gətirib sataraq ailəsinin və özünün ehtiyaclarını təmin etməsi, başqasından istəməsindən daha xeyirlidir. Bəlkə də, yardım istədiyiniz şəxs istədiyini verər ona qarşı xəcalətli olarsan, ya da verməz zillətini çəkərsən"* (Buxari, Müsaqat 13).

Ticarət qiymətli olan bir mal və ya əşyanı, qiymətli olan başqa bir mal, əşya və ya pul ilə mübadilə etməkdir. Dinimizin ticarətdəki məqsədi yalnız qazanmaq deyil, insanlara ehtiyacları olan faydalı əşyaları təmin edərək xidmət etmək və bununla da halal bir qazanc əldə etməkdir.

Ticarətdə vacib olan bu məsələləri Quran belə qeyd edir: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir! Hər kəs təcavüz və zülm etməklə bu işləri görərsə, Biz onu cəhənnəm oduna atırıq. Şübhəsiz ki, bu da Allah üçün çox asandır!"** (Nisa,4/29-30)

İPƏKYOLU NƏŞRİYYATI

Rəsulullahın (s.ə.s) özü də ticarətlə məşğul olmuş borc almış, girov qoymuş, şəriklik etmişdir. Beləliklə, o, əshabına halal yoldan ticarətin necə ediləcəyini də öz əməli ilə öyrətmişdir.



BİLGİ QUTUSU

Halal bir ticarətdə aşağıdakılar olmalıdır:

1) Alan və satanın razılığı,

2) Qarşılıqlı səmimiyyət və düzgünlük,

3) Edilən ticarətlə tərəflərdən birinə və ya başqalarına zərər verilməməsi.

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI

OXU MƏTNİ

QABARLI ƏLLƏR

Hicrətin 9-cu ili idi. Peyğəmbərimiz (s.ə.s) Bizansa qarşı etdiyi Təbuk müharibəsindən qayıdırdı.Mədinəli müsəlmanlar İslam ordusunu qarşılamaq üçün şəhərin kənarına qədər çıxmışdılar. Hər kəs bayram sevinci içində idi. Peyğəmbərimizi və İslam ordusunu qarşılayanların arasında səhabələrdən Muaz ibn Cəbəl həzrətləri də var idi. Hz. Muaz bir üzr səbəbilə Təbuk döyüşündə iştirak edə bilməmişdi.

Rəsulullah (s.ə.s) özünü qarşılamağa gələn müsəlmanlarla bir-bir əl verərək görüşdü. Onların təbriklərini qəbul etdi. Bu əsnada Hz. Muaz ilə də əl verərək görüşdü. Ancaq Muazın əlləri digərlərin əllərindən fərqli, sərt və qabarlı idi. Peyğəmbərimiz:

- Ya Muaz, əllərin niyə bu qədər sərtdir? Bu nahamarlıq və qabarlar necə əmələ gəldi? - deyə soruşdu.

Hz. Muaz əllərinin sərtliyi ilə Peyğəmbərimizi narahat etdiyini zənn etmişdi. Üzr istəyərək səbəbini izah etməyə başladı.

- Ey Allahın Rəsulu! Mən uşaqlarımın ruzisini qazanmaq və nəfəqəsini təmin etmək üçün çalışıram. Əlimdən mişar, kərki, bel və çəkic düşmür. Buna görə əllərimin yumşaqlığı qalmadı. Bu şəkildə sərtləşib qabarlaşdı. Bunun müqabilində aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimiz, Muaz həzrətlərinin alnından öptü və:

- Bu əllərə od toxunmaz. Axirətdə cəhənnəm alovu dəyməz, - buyurdu.

Bu hadisə halal ruzi dalınca qaçan, ailəsinin nəfəqəsini təmin etmək üçün səy göstərən müsəlman zəhmətkeşlərə (işçilərə) böyük bir müjdə verir.

Bu böyük müjdəyə nail olmanın tək şərti Allahın əmrlərinə tabe olmaq, fərz ibadətləri yerinə yetirmək və qadağan etdiyi şeylərdən uzaq durmaqdır. Belə olduğu halda edilən dünyəvi işlər Allahın rızasına uyğun olar və ibadət savabını qazandırar.

Halal ruzi və ailəsinin dolanışığını qazanmaq üçün cəhd etməyən Allah dərgahında nə qədər məqbul bir ibadət olduğuna bu hədis-şərifdə də işarə edilir. *"Günahlar içində bəzi günahlar var ki, onlara nə namaz, nə oruc, nə həcc, nə də ümrə kəffarə ola bilər. Onlara ancaq dolanışığını təmin etmək üçün çəkilən əziyyət və çətinliklər kəffarə ola bilər".*

İPƏKYOLU NƏŞRİYYATI

B. RUZİ QAZANMAQLA BAĞLI DİNİ PRİNSİPLƏR

İslamda, ruzi qazanmaq üçün çalışmaq təşviq edilməklə yanaşı, özbaşına qoyulmamış, məhdudiyyətlər gətirilmişdir. Spirtli içki, narkotik vasitələr, donuz, büt, ədəbsiz əşya və rəsmlər kimi istifadə edilməsi İslamın qadağan etdiyi şeylərin ticarəti haram qəbul edilmişdir. Gündəlik həyatda edilən alış-verişləri Allahın razı olduğu şəkildə edə bilməsi üçün, hər bir müsəlman bu hökümləri bilməlidir. Bu məsələdə həssasbir müsəlman ola bilmək üçün ruzi təminində bu prinsiplər heç vaxt unudulmamalıdır.

Odur ki, ruzisini təmin etməklə məşğul olan bir müsəlman İslamın ticari həyata dair qoyduğu bütün hökmlərinin əsaslarını bilməlidir.

1. Halal yoldan pul qazanmağa əhəmiyyət verməlidir.

İslam mal mülk əldə etmək məsələsində halal yoldan qazanmağı əsas almışdır. Aldatmaq, yalan danışmaq, zorakılıq, möhtəkirlik, qarşı tərəfin çətin vəziyyətdə olmasından istifadə etmək, qeyri-müəyyənlik və inhisarçılıq yolu ilə qazanmağı qadağan etmişdir. Sərmayənin heç bir təhlükə daşımadan zəhmətsiz qazancı olan faiz başda olmaqla haqsız qazanc təmin etmə yollarının başında gələn oğruluq, qəsb etmək, rüşvət, ölçü və çəkidə hiylə, qumar haram edilmişdir. İçki satmaq kimi haramın işlənməsinə vasitəçi olub gəlir eldə edilməsi də qadağan edilmişdir.

Sevgili Peyğəmbərimiz, halal qazancın əhəmiyyətinə belə diqqət çəkmişdir: *"Bir şəxs (haqq yolunda) uzun səfərə çıxar, saçları dağılmış, toza-torpağa batmış bir halda əllərini səmaya qaldırıb: "Ya Rəbb, Ya Rəbb!" - deyə dua edər. Halbuki yediyi haram, içdiyi haram, geydiyi haram, xülasə, haramla bəslənmiş olarsa, belə bir adamın duası neçə qəbul edilər"* (Müslim, Zəkat, 65).

Başqa bir hədisdə belə buyurulur: "Elə bir zaman gələcək ki, insan oğlu aldığı şeyin halaldan mı, haramdan mı olduğuna heç diqqət etməyəcək. Belələrinin heç bir duası qəbul edilməz" (Müslüm, Zəkat, 65).

Müsəlmanlar halal-harama diqqət edərək özlərinin və ailə fərdlərinin ruzisini təmin etmək məcburiyyətindədirlər. Bunu edərkən də mütləq Allahın rizasına və Onun qoyduğu hüdudlara riayət etməlidirlər. Hz. Əbu Bəkrin: "Haram ilə bəslənən bir vücuda ancaq cəhənnəm atəşi yaraşır" sözü müsəlmanın ruzisini təmin etmə və alış-veriş anlayışını ən mükəmməl bir şəkildəəks etdirir.

2. Ruzi verənin Allah olduğunu unutmamaq və ruzi qorxusuna düşməmək lazımdır.

Uca Allahın bir adı da Rəzzaqdır. Ruzini məxluqatı arasında paylayan, istədiyinə az, istədiyinə də çox verən Odur. Allah-Təala hər insanın və hər heyvanın ruzisini əzəldə təqdir etmiş və ayırmışdır.

Bizi imtahan üçün bu dünyaya göndərən Rəbbimiz belə buyurur: **"Əgər insanların (müşriklərin cah-calal içində yaşadıqlarını görüb cahillikləri üzündən küfrdə birləşəcək) bir tək ümmət olmaq ehtimalı (təhlükəsi) olmasaydı, Rəhmanı inkar edənlərin (axirət əzabını daha da artırmaq məqsədilə) evlərinin tavanlarını və (damlarına) çıxdıqları nərdivanları gümüşdən edərdik. Eləcə də evlərinin qapılarını və söykəndikləri taxtları (gümüşdən düzəldərdik)"** (Züxrüf, 43/33-34).

"Əgər Allah (bütün) bəndələrinə bol ruzi versəydi, onlar (günah etməkdə) yer üzündə həddi aşardılar. Lakin O (Öz bəndələrinə) istədiyi qədər (birinə az, birinə çox) ruzi göndərir. Allah öz bəndələrindən xəbərdardır, (onları) görəndir! (Allah kimə nə qədər ruzi verəcəyini Öz əzəli elmi, ilahi hikməti ilə çox gözəl bilir. Bəndələr içərisində eləsi vardır ki, çörəyi artıq olsa, xalqa əziyyət verər, hər şeyi, Allahı belə danar; eləsi də vardır ki, güzəranı bir qədər pisləşsə, yer üzündə fitnə-fəsad törədər, özgə malına əl uzadar)" (Şura, 42/27).

"(Ya Rəsulum!) Məgər sənin Rəbbinin mərhəmətini (peyğəmbərliyini) onlarmı paylaşdırırlar?! Dünyada onların dolanacaqlarını (keçinəcəklərini) öz aralarında Biz bölüşdürdük. Bir-birlərinə iş gördürsünlər deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün tutduq. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından (dünya malından) daha yaxşıdır!" (Züxrüf, 43/32)

İPƏKYOLU NƏŞRİYYATI

3. Çalışmaq ibadətə mane olmamalıdır.

İslamda mal-dövlət düşkünlüyü pislənmişdir. Mal, mülk əldə edilərkən və bunu idarə edərkən, bu məşğuliyyətin mal sahiibni uca Allaha ibadət və itaətdən uzaqlaşdırmamalıdır. Əks təqdirdə, dünya və axirətdə böyük zərərə düçar olar. Quranda belə buyurulur:

"Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə (Allahı yada salmasa), bələləri əsl ziyana uğrayanlardır" (Münafiqun, 63/9). **"Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız (sizin üçün) ancaq bir imtahandır. Ən böyük mükafat (Cənnət) isə Allah dərgahındadır!"** (Təğabun, /15)

İnsanların bir qismi həyatlarının bünövrəsini dünyalıq üzərinə qurmuşlar. Bunun üçün də bütün düşüncə və istəkləri, sadəcə, dünyaya yönəlikdir və sevindikləri şeylər də yenə yalnız dünya mənfəətləridir. Dünyaya olan bu bağlılıqları səbəbilə buradakı həyatı sanki heç qutarmayacaq kimi yaşamaq istəyərlər.

4. Ruziqazanmaq üçün yaxşı və düzgün bir peşə seçməyə çalışmalıdır.

Peşə fərqli-fərqlidir. Peşə seçimində insanın fitrəti və qabiliyyəti nəyə uyğundursa, onu seçməsi ən yaxşı olanıdır. Ancaq seçilən məsələ dinə görə halal olmalıdır.

Müsəlmanların möhtac olduqları hər bir peşə, sənət və sənaye fərzi-kifayədir. Bununla yanaşı, İslam bütün insanların yalnız bir peşəni seçmələri də xoş qarşılamamışdır. Məsələn, əkinçiliyi təşviq etməklə bərabər təkcə onunla məşğul olub digər peşə və sahələri bir kənara qoymanın təhlükəli olmasına Rəsulullah (s.ə.s) diqqət çəkmiş və belə buyurmuşdur: *"Siz faiz yemək üçün hiyləli yollara girdiyiniz, inəklərin quyruğundan yapışdığınız, əkinçiliyə razı olduğunuz və cihadı tərk etdiyiniz zaman Allah sizi zillətə düçar edər. Ondan, cihad edərək dininizə qayıdanadək ondan qurtula bilməzsiniz."* (Əbu Davud, Buyu, 56)

Islam cəmiyyətinin əqidə və adət-ənənəsinə zərərli olan sənət və peşələri qadağan etmiş və bunlar vasitəsi ilə qazanc əldə etməyi haram saymışdır.

Islamın haram saydığı peşə və sənət sahələrinin bəziləri bunlardır:

➢ Cinsi duyğuları təhrik edən peşələr: İslamda qadın-kişi münasibətlərinə məhdudiyyət qoyulmuş, qarşı cinslə təkbaşına qalacaq bir şəraitdə katibə olaraq çalışmaq, qarşı cins masaj edərək dolanışıqnı təmin etmək qadağan edilmişdir. Rəqs, balet kimi şəhvəti duyğuları təhrik edən və ədəbsiz (əxlaqsız) oyunlar sənət olaraq qəbul edilsə belə halal deyil. Müğənnilik, fotomodellik və mankenlik kimi məsləklər dinə görə münasib görülmür.

➢ Predmeti və məqsədi haram olan peşələr: Bu peşələr arasında qumarxana işlətmək, heykəltaraşlıq və rəssamlıq (qeyri-əxlaqi, qeyri-dini, başqa dinlərin simvolu olan şeylərin heykəlini düzəltmək və rəsmlərini çəkmək) kimi peşələri saya bilərik. İslam şirki ortadan qaldırdığı üçün ona səbəb olan hər cür işin və peşənin icrasına da razılıq vermir. Məsələn, ədəbsiz qəbul edilən və ya şirkə səbəb olan bir rəsmin çəkilməsində və ya bir heykəlin düzəldilməsində çalışmaq caiz deyil.

➢ Sərxoşluq verən maddələrin istehsalı və satışı ilə əlaqədar peşələr: İslam içki, narkotik vasitələrin istehsal edilməsi, satılması, daşınması və içki satılan yerdə işləməyi qadağan etmişdir.

➢ Tamamilə haram qazanca səbəb olan işlər: oğruluq, yol kəsmək, sələmçilik, qəsb etmək və terrora şərait yaratmaq kimi işlər İslamda haram buyurulmuş və bir peşə kimi qəbul edilməmişdir.

ARAŞDIRIN

İslam dininə uyğun olmayan satış növləri ilə əlaqədar olaraq qanunlarda hansı cəzalar tətbiq edilir? Faiz qadağasının nəyi əhatə edib-etmədiyini araşdırın.

İPƏKYOLU NƏŞRİYYATI

OXU MƏTNİ

SALEH İNSANDA HALAL MAL

İmam Əzəm Əbu Hənifə həzrətləri satmaq üçün ipəkdən bir paltar gətirən qadına malının qiymətini soruşmuşdu. Qadın: "Yüz dirhəmdir, ey İmam!" - dedi. Əbu Hənifə buna etiraz edərək: "Xeyr, bu daha çox edər....", - dedi. Qadın heyrətlə yüz dirhəm artırdı. İmam Əzəm yenə qəbul etmədi. Qadın yüz dirhəm də artırdı. Ancaq yenə Əbu Hənifənin etirazı ilə təkrar yüz dirhəm artırdı. Əbu Hənifə: "Xeyr, bu dörd yüz dirhəmdən daha çox edər", - dedikdə qadın:"Ey İmam! Siz məni ələ salırsınız?" - deyə soruşdu.

Bunun müqabilində İmam Əbu Hənifə malın həqiqi qiymətini bilən birini çağırdı. Həmin şəxs paltarın qiymətini beş yüz dirhəm olaraq müəyyən etdi və İmam Əbu Hənifə paltarı bu qiymətdən satın aldı.

Həmçinin bir dəfə İmam Əbu Hənifə şəriki Həfs ibn Əbdürrəhmanı parça satmağa göndərmiş və ona: "Ey Həfs! Malda nöqsanlar var. Onun üçün bunu müştəriyə söylə və ucuz sat!"- demişdi.

Həfs də malı İmamın dediyi qiymətə satmış, ancaq maldakı nöqsanları alıcıya deməyi unutmuşdu. Bundan xəbər alan Əbu Hənifə həzrətləri Həfsdən: "Parçanı alan müştərini tanıyırsan?" - deyə soruşdu.

Həfsdə onu tanımadığını bildirdi. Bunun müqabilində İmam o maldan əldə edilən qazancın hamsını sədəqə olaraq payladı. Çünki o, Rəsulullahın (s.ə.s) buyurduğu *"Saleh insan üçün saleh mal ən gözəl olanıdır!"* həqiqətini yaşayır və halal ilə haram məsələsində təqva prinsipi ilə hərəkət edirdi.

İPƏKYOLU NƏŞRİYYATI

C. İŞÇİLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

1. İşə götürənin hüquq və öhdəlikləri:

İşə götürənin əsas vəzifəsi işçinin əmək haqqını müqavilədə müəyyən edilən şəkildə ödəməsidir. Hz. Peyğəmbər: *"İşçiyə əmək haqqını təri qurumadan ödəyin"*, - buyurmuşdur. İşçinin əmək haqqını ödəməyənlərin qiyamət günündə qarşılarında Allahı görəcəklərini bildirmişdir.

İşə götürənin işçiyə qarşı yaxşı davranması, işçinin hüquq və azadlıqlarını tanıması əsas vəzifələri arasındadır.İşə götürənin işi layiq olana vermə öhdəliyi də mühüm məsələlərdəndir. Hz. Peyğəmbər: *"-Daha layiqli olan mövcud olduğu halda, yaxınlıq səbəbilə başqasını seçib ona həvalə edən şəxs Allahın Rəsuluna və bütün müsəlmanlara xəyanət etmiş olar"*, - buyurmuşdur.

2. İşçinin hüquq və vəzifələri:

İşçi özünə verilən işi yerinə yetirərkən lazım olan diqqəti göstərməli və işə istəklə yanaşmalıdır. Əsas ehtiyacları istisna olmaqla iş müddətində işləmək və vəzifələrini yerinə yetirmək məcburiyyətindədir. Peyğəmbərimiz: *"Şübhəsiz ki, Allah-Təala sizdən birinizin gördüyü işi sağlam görməsindən razı qalar"*, - buyurmuşdur. İşçinin iş saatında işə götürənin təlimatına zidd başqa işlərlə məşğul olması və işləməməsi, bir növ işə götürənin malından oğruluq etməsi kimidir.

İşçi, öhdəsinə verilmiş alət və inventara yaxşı baxmalı,qulluq etməli və onu qorumalıdır. İşi yerinə yetirərkən lazımi diqqəti göstərməməsi, xətalı və ya məqsədli davranması nəticəsində işə götürənə dəymiş ziyanı ödəməlidir.

Tərəflər arasındakı bu hüquq və vəzifələrdən aydın olur ki, işçi və işə götürən arasındakı münasibətlər bəşəri münasibətlərdən, işçi hüquqları da insan hüququndan ayrı düşünülməməlidir. İslamın ümumi prinsip və məqsədləri də müəyyən bir qrupun rahatlıq və ya çətinlik içində olması üçün deyil, ictimai gəlir və çətinliyinin birlikdə və adil bir şəkildə bölüşdürülməsinə yönəlikdir. Bu əsaslar, işçi və işə götürən arasındakı münasibətlərin qarşılıqlı hörmət, sevgi və ədalətə söykənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

D. TİCARİ HƏYATDA QADAĞAN OLAN ŞEYLƏR

1. Haram yolla qazanmaq

Ayeyi-kərimədə Rəbbimiz belə buyurur: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"** (Nisa, 4/29)

Haram yolla qazanmaq rüşvət almaq, oğurluq etmək, başqasının malını qəsb etmək, saxta pul kəsmək, dövlət malını şəxsi mülkiyyətə keçirmək kimi hallarda meydana gəlir.

Rüşvət öz xeyrinə olaraq bir iş gördürmək xatirinə hər hansı bir vəzifəli şəxsə verilən pul və ya mənfəətdir. Bu kimi məsələlərdə vasitəçi olmaq da günahdır. Qurani-Kərimdə belə buyurulur: **"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini (onun sizə haram olduğunu) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (malınızı) hakimlərə (rüşvət) verməyin!"** (Bəqərə, 2/188) Rüşvət fərd üçün olduğu qədər cəmiyyət üçün də pis nəticələr meydana gətirir. Rüşvətin çoxaldığı yerdə haqsızlıq da çoxalar. Təhlükəsizlik və etibar ortadan qalxar. İctimai nizam pozular. Bunun üçün Peyğəmbərimiz: *"Rüşvət alan da, verən də cəhənnəmdədir"*, (Tirmizi, Əhkam, 9) - buyurmuşdur.

Oğruluq Quranın böyük günahlar arasında göstərdiyi və ağır cəzalarla qarşısını almaq istədiyi günahlardan biridir. **Gəsb etmək,** başqasının malını zorla əlindən almaq da böyük günahdır. Haram olan qazanc əgər sahibləri bilinirsə, sahiblərinə, sahibləri həyatda deyilsə, varislərinə qaytarılmalıdır. Əgər sahibləri

İPƏKYOLU NƏŞRİYYATI

bilinmirsə və tapılması da mümkün deyilsə, kasıblara əsil sahibləri adından sədəqə olaraq verilməlidir. Sonra da tövbə edərək, mərhəməti və məğfirəti sonsuz olan Allahdan bağışlanmağı diləməlidir.

2. Harama yol açan satışların həyata keçirilməsi

Mal əldə olmadığı halda onu satmaq, olmayan bir şeyi satmaq, möhtəkirlik və möhtəkirlik edərək rəqabəti aradan qaldırmaq harama səbəb olan satışlara misaldır.

Mal əldə olmadan satılmamalıdır. Allahın Rəsulu belə buyurur: *"Bir ərzağın ticarətini edəcəyin vaxt, əlinə keçənə qədər başqasına satma"* (Buxari, Büyu, 112).

Olmayan bir şeyi satmamalıdır. Allahın Rəsulu belə buyurur: *"Əlində olmayanı satma"* (Əbu Davud, Büyu, 68).

Möhtəkirlik etməməlidir. Ehtikar bir malı qiymət qalxdıqdan sonra satmaq məqsədi ilə yığıb satışa çıxarmamaqdır. Allahın Rəsulu belə buyurur: *"Bazara mal gətirən mərzuq (ruzi verilmiş), möhtəkirlik edən məlundur (lənətlənmişdir)"* (İbn Macə, Ticarət, 6) .

3. Haram olan malların ticarəti ilə məşğul olmamaq

Ticarətlə məşğul olanların diqqət etməli olduqları məsələlərdən biri də, haram olan malların ticarəti ilə məşğul olmamaqdır.Allah bir şeyi haram etmişsə, ondan əldə edilən qazancı da haram etmişdir.

Yol kəsənlərə silah satmaq haramdır. Çünki harama aparan (vasitə, səbəb olan) şey də haramdır. Qurani-Kərimdə belə buyurulur: **"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə (həcc mərasiminə), haram (hörmətli) aya (həcc ayı hesab edilən zülhiccəyə və ya rəcəb zülqədə, zülhiccə və məhərrəm aylarına), (Kəbəyə gətirilən) qurbanlara, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin Rəbbinin lütfünü və razılığını diləyərək Beytülhərama (müqəddəs evə) üz tutub (ziyarətə) gələnlərə hörmətsizlik etməyin! [Onlara qarşı nalayiq işlər görməyi özünüzə halal (rəva) bilməyin!] Ehramdan çıxdığınız zaman (istəsəniz) ov edin. (Vaxtilə) sizi Məscidülhərama daxil olmağa qoymayan camaata qarşı bəslədiyiniz kin sizi təcavüzə sövq etməsin (zülm və haqsızlıq günahına batırmasın). Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"** (Maidə, 5/2)

Bir möminin harama və ya haramın çoxalıb yayılmasına yol açan istehsal və ya ticarət növlərindən (sahələrindən) uzaqlaşmalıdır. İçkini qadağan edən **"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!"** (Maidə, 5/90) ayəsi nazil olduqdan sonra Allahın Rəsulu içkinin satışını qadağan edərək belə buyurmuşdur: *"Şübhəsiz, Allah içkini haram etmişdir. Bu ayədən xəbər tutub yanında içki olan şəxs ondan içməsin və satmasın...."* (Müslim, Müsaqat, 67) Başqa bir hədisdə də belə buyurulmuşdur: *"İçilməsini haram edən Allah-Təala satılmasını da haram etmişdir"* (Əbu Davud, Büyu, 64). Şərab istehsal olunan bir yerə üzüm satmaq da günahdır. *"Hz.Peyğəmbər(s.ə.s). içki ilə bağlı on nəfəri lənətləmişdir: istehsal edən, etdirən, içən, daşıyan, daşıtdıran, içirən, satan, içkidən əldə edilən qazancı yeyən, satın alan və satın aldıran..."* (Tirmizi, Büyu, 59).

Mömin bir qəssabın Allahın adı ilə kəsilməmiş bir heyvanın ətini satması da haramdır. Çünki heyvan kəsilərkən qəsdən Allahın adı çəkilməzsə, o ət haram olar. Eynilə büt və buna bənzər şeylərin satışı da İslamda qadağandır.

İPƏKYOLU NƏŞRİYYATI

Oğurluq olan bir əşyanın satılması və ya satışa qoyulması da caiz deyil. Hz. Peyğəmbərin (s.ə.s): *"Hər kim bildiyi halda oğurlanmaqla əldə edilmiş bir malı (əşyanı) satın alarsa, oğrunun günahına və alçaqlığına şərik olmuş olar"* (Beyhəqi, "Sünən", V, 336.) buyurduğu məlumdur. Buna görə də ticarətlə məşğul olan bir müsəlman istər alarkən, istərsə də satarkən bunlara diqqət etməlidir.

4. Faiz yemək

Ticarət həyatında bilinməli olan mövzulardan biri də faizlə əlaqədar olan mövzulardır. Bunun üçün də faizlə əlaqədar ətraflı məlumat veriləcəkdir.

Sələmçilik yuxarı təbəqədən olan ərəblərin faydalandıqları mühüm bir qazanc mənbəyi idi. Bunu dərhal aradan qaldırmaq mümkün deyildi. Buna görə də faizin qəti olaraq qadağan olunması İslamın ən son nazil olan ayələri ilə olmuşdur. Ancaq faizin qınağa çevrilməsi və keçmiş millətlərdən sələmçiliklə məşğul olanların qarşılaşdıqları fəlakətlərin izah edilməsinə İslamın ilk dövrlərindən etibarən başlanmışdır.

Faizin haram olduğuna dair hökm hicrətin səkkiz və ya doqquzuncu illərində nazil olan bu ayələr vasitəsi ilə ifadə edilmişdir: **"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!) Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!"** (Bəqərə, 2/278-279)

Quranda borc verilərkən əsas puldan əlavə tələb olunan miqdarın (riba) haram olduğu açıq-aydın ifadə edilmişdir: **"Ey iman gətirənlər! Sələmi (borc üzərinə qoyduğunuz faizi) qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!"** (Ali İmran, 3/130)

Quranın bildirildiyinə görə faiz qadağan edildiyində cahiliyyə ərəbləri belə demişdir: **"...Alış-veriş də sələm kimi bir şeydir!..."** (Bəqərə, 2/275) Buna görə də, Allah-Təala bu iki əməli bir-birindən ayıraraq **"... Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir ..."**, (Bəqərə, 2/275) - deyə cavab vermiş və arxasınca da: **"... İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!"** (Bəqərə, 2/275) - buyurmuşdur.

Hz. Peyğəmbər faiz qadağasına əməl edilməsi məsələsinə Vida həcci əsnasında toxunmuşdur: *"Diqqət edin, cahillik dövründən qalan faizin hamısı ləğv olunmuşdur. Ləğv etdiyim faizin ilki əmim Abbas ibn Əbdülmüttəlibin faizidir"* (Müslim, Həcc, 147); *"Bilin ki, cahillik dövrünün bütün faiz növləri ləğv edilmişdir. Pulun əsas hissəsi isə sizindir. Beləliklə haqsızlıq etməmiş və haqsızlığa da məruz qalmamış olarsınız"* (Əbu Davud, Büyu, 5).

İslamda ribanın (faizin) növləri:

İslamın alış-verişdə qadağan etdiyi faiz iki qisimdir: artıqlıq və nisyə olan faiz.

1) Artıqlıq faizi: ölçü və çəki ilə alınıb-satılan şeyləri öz növündən olan bir şey ilə nağd və biri digərindən çox,verilərək mübadilə etməkdir.Ancaq artıqlıq faizi standart olub sayı və metrə ilə satılan şeylərdə meydana gəlməz. Buna görə də, eyni cins olan iki parça fərqli uzunluqlarda nağd olaraq dəyişdirilə bilər. Həmçinin satılan on ədəd yumurtanı,səkkiz ədəd kənd yumurtası ilə nağd olaraq dəyişdirmək caizdir.

2) Nisyə satışla meydana gələn faiz: növləri fərqli olan qida məhsullarının və ya qızıl və gümüşün bir-biri ilə nisyə dəyişdirilməsi nəticəsində meydana gələn faiz növüdür. Bu maddələr bir-biri ilə dəyişdirildikdə nağd dəyişdirilməsinin vacibliyi hədisdə belə bildirilir: *"Gümüş çox olsa belə, qızılı gümüşlə*

İPƏKYOLU NƏŞRİYYATI

nağd olmaq şəri ilə dəyişdirməyin bir təhlükəsi yoxdur. Ancaq nisyə edilərsə, dəyişdirmək olmaz" (Əbu Davud, Büyu, 12).

Nəsiə faizi standart şeylərin nisyə mübadiləsindən meydana gələn bir faiz növüdür. Bu faiz növü həcm, ağırlıq, uzunluq və ya say ilə satılması kimi eyni xüsusiyyətləri daşıyan iki şeydən birini digərinin qarşılığında (əvəzində) nisyə satmaq və ya dəyişdirməklə meydana gəlir. Məsələn, bir metrə Türk parçasını eyni cinsdən olan bir və ya iki metrə Azərbaycan parçası müqabilində (əvəzində) nisyə satmaq caiz deyil. Bu satış nağd olmalıdır.

Aralarında faizin meydana gəldiyi maddələrin eyni növdən olanlar dəyişdirilərkən keyfiyyət fərqi nəzərə alınmır. Keyfiyyətli toxumluq buğdanı keyfiyyətsiz yemlik buğda ilə dəyiş-düyüş etmək istəyənlər, ya eyni miqdarda buğdanı nağd dəyişməlidirlər, ya da pul ilə qiymətləndirilərək satışını etməlidirlər. məhz buna görə də Hz. Peyğəmbər iki kq. adi xurmanı bir kq. keyfiyyətli xurma ilə dəyişdirən Hz. Bilala (r.ə.) belə buyurmuşdur: *"Bu, faizin lap özüdür. Bunu belə etmə. Xurma almaq istəyirsənsə, öz xurmanı pul ilə sat. Onun pulu ilə də istədiyin xurmanı al"* (Buxari, Vəkalət, 11).

5. Hiylə və aldatmaq

İslamda qazanc üçün müəyyən bir hədd qoyulmamaqla yanaşı ticarətdə yalan, hiylə, malın nöqsanını gizlətmək, malıda olmayan xüsusiyyətlər ilə tərifləmək və reklam etmək qadağan edilmişdir. Beləliklə, alış-veriş edənlərin hiyləli yollarla bir-birini aldatması və bu yolla malı həddindən artıq yüksək qiymətlərlə satılması caiz deyil.

İslamda aldatma, yalan və hiylə ilə əldə edilən hər cür qazanc haramdır. Bu cür qazancın şəxslərin ibadət, fərdi və ailəvi həyatına mənfi yöndə təsir edəcəyicəyində şübhə yoxdur. Əgər bir xəta ilə belə bir qazanc əldə edilmişsə, bu qazanc dərhal həqiqi sahibinə qaytarmalıdır. Sahibi ilə əlaqə qurmaq imkanı yoxdursa, bu qazanc hər hansı bir savab gözlənilmədən kasıb və ehtiyacı olanlara verilməli, yaxşı işlərdə istifadə edilərək əldən çıxarılmalıdır. Ancaq günah və qul haqqından qurtulmaq üçün bunun da kifayət etmədiyini unutmamalıdır. Allahın Rəsulu bir dəfə ticarətlə məşğul olanları belə xəbərdarlıq etmişdir: *"Ey ticarət əhli, alış-verişə boş söz və yalandan edilən andlar çoxlu qarışdığı üçün, bunu, sədəqələrinizlə əvəz edin"* (Əbu Davud, Büyu, 1).

Bir gün Peyğəmbərimiz (s.ə.s) bazarda gəzərkən gözünə bir buğda topası sataşdı. Əlini buğda topasının içinə saldığında, buğdanın islaq olduğunu gördü. Satıcıya buğdanın islaq olmasını işarə edərək: *"Bu nədir?"*- dedi. Buğda satıcısı: "Ey Allahın Rəsulu, yağış yağdı və belə oldu", - deyə cavab verdi. Bunun müqabilində Peyğəmbərimiz, *"Yaş olan tərəfini üzə çıxart, insanlar görsünlər. Bizi aldadan bizdən deyil"*, (Müslim, İman, 164; Əbu Davud, Büyu, 50) - buyurdu.

Qəbni-fahiş bir malı bazar qiymətindən çox baha satmaq və ya bazar qiymətindən çox ucuz almaq deməkdir. Belə bir zərərə məruz qalan alıcı və ya satıcının müqaviləni pozmaqla bağlı seçim hüququ var. Çünki, İslamda əsas olan insanların zərərə və haqsızlığa məruz qalmamasıdır. Hər hansı bir zərər və haqsızlıq meydana gəldikdə bunu ən ədalətli bir şəkildə ortadan qaldırmaq lazımdır.

6. Haqsız yerə rəqabət etmək

Ticarət həyatında başqasına zərər vermək və ya fəaliyyəti bu istiqamətdə aparmaq qadağandır. Peyğəmbərimiz: *"Özünüzə uyğun bir iş görün. Sırf başqalarına rəqabət olsun deyə iş görməyin...."*, (Tirmizi, Birr, 63) - buyurmuşdur.

Haqsız yerə edilən rəqabətə səbəb olan bəzi hallar bunlardır:

Satışda nəcəş etmək (müştərini qızışdırmaqla qiymətin qaldırılması): Bu, bir şəxsin satıcı ilə əlbir olub həqiqi alıcı olmadığı halda sırf müştəriləri qızışdırıb malın qiymətini qaldırmaq məqsədi ilə alış-verişə qarışmasıdır. Hz. Peyğəmbər: *"Sırf müştərini qızışdırmaq üçün satışa girməyin"* (Buxari, Büyu, 58, 64).

İPEKYOLU NƏŞRİYYATI

- buyurmuşdur. Həm malı satan satıcı, həm də müştəri kimi alış-verişə qarışıb malın qiymətini qaldıran olmaqla hər ikisi də günahda şərikdirlər. Belə bir müqavilədə həqiqəti başa düşən müştəri onu pozmaq hüququna malikdir.

İstərsə hərrac, istərsə də bağlı zərf üsulu ilə ən yüksək qiymət verənə malı satmaq mümkün və caizdir. Allahın Rəsulu yoxsul bir səhabənin bir əşyasını hərrac nəticəsində ən yüksək qiyməti verənə satmışdır. Ancaq hərraca hiylə qarışdırılmamalıdır. Günümüzdə xüsusilə hərracda bu metoddan çox istifadə edildiyini görürük. Əşyanın həqiqi alıcısı olmadığı halda hərraca girən bəzi şəxslər bəzi vaxtlarda malın qiymətini qaldırarkən, bəzi vaxtlarda da bir mənfəət qarşılığında hərracdan çəkilərək malın ucuzqiymətə satılamasına səbəb olurlar. Bu axırınca metodla da satıcı yerinə alıcının mənfəəti üçün səy göstərilir.

Tələqqir-rükban (karvanı yolda qarşılayaraq malı ucuz qiymətə alıb baha qiymətə satmaq) ilə bağlı qadağa: Tələqqir-rükban şəhərdə yaşayan bəzi şəxslərin, şəhərə mal gətirən kəndçiləri şəhərə gəlmədən yolda qarşılayıb əlindəki malları ucuz qiymətə almasıdır. Bununla da istehsalçının özü tərəfindən bazara mal gətirilməsinin qarşısı alınır və beləliklə, bazardakı gündəlik qiymətlərin istehsalçı tərəfindən öyrənilməsinə mane olunur. Bu da şəhərdəki satıcının malı daha bahalı qiymətə satmasına şərait yaradır. Hədisdə belə buyurulur: *"Hz. Peyğəmbər minikdəkiləri yolda qarşılamağı, yəni bazara gəlmədən yüklərini satın almağı qadağan etmişdir"* (Buxari, Büyu, 72).

Şəhərlinin kəndçiyə aid məhsulları anbara yığıb dəllallıq edərək satması qadağan edilmişdir. Hədisdə belə buyurulmuşdur: "Hz. Peyğəmbər (s.ə.s) atası və qardaşı belə olsa şəhərlinin kəndçi adına satmasını qadağan etmişdir" (Müslüm, Büyu, 21). Cabir ibn Abdullahın (r.ə) nəql etdiyi aşağıdakı hədis bunu açıq-aydın ifadə edir: *"Şəhərli kəndçi adına sata bilməz. Insanları öz hallarına buraxın. Allah onlardan bir bölümünü digərləri səbəbi ilə ruziləndirər"* (Buxari, Büyu, 58, 64).

Başqasının alış-verişinin üstünə alış-veriş etmək: İslamda ticarət tərəflərin bir-birinə zərər verməməsi, mübahisəyə səbəb olmaması və ya tərəflərdən birinə əlavə mənfəət verməməsi kimi prinsiplərə əsaslanır. Müəyyən bir malın alqı-satqısını edən alıcı və satıcının arasına girərək bu alış-verişi pozması və ya alıcıya öz malını satmaq istəməsi kimi hallar mənfəətlərin zidd düşməsinə səbəb olar. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Sizdən biriniz başqasının alış-verişi üzərinə alış-veriş etməsin"* (Buxari, Büyu, 58, 64).

Fasid şərtlə satış: satıcı və ya alıcıdan, sadəcə, birisinə birtərəfli əlavə mənfəət gətirən və üstünlük verən şərtə "fasid şərt" deyilir. Belə şərtlər satıcı və ya alıcıya bitərəfli mənfəət gətirən şərtlərdir.

Məsələn, satıcının bir il qalmaq şərti ilə evini, bir il əkib-becərmək şərti ilə torpaq sahəsini, bir ay müddətində sürərək istifadə etmək şərti ilə avtomobilini satması və yaxud alıcının satıcıya borc və ya hədiyyə verməsi kimi yalnız tərəfə mənfəət təmin edən şərtlərlə bağlanan müqavilələr fasid olur. Çünki tərəflərdən sadəcə birinin faydalana biləcəiyi əlavə mənfəət riba (faiz) xüsusiyyətini daşıyır. Çünki bu alqı-satqı müqaviləsində əvəzi olmayan bir mənfəət vardır. Hz. Peyğəmbərin bu hədisi bu mövzunu tənzimləmişdir: "Hz.Peyğəmbər (s.ə.s) bir əqdlə (bir əqd içində) iki müqavilə bağlamağı qadağan etdi" (İbn Hənbəl, I, 394).

Nəticə etibarilə, İslam dini insanlararası müxtəlif münasibətlərdə insanların bir-birini aldatmaması, biri digərinin çətin vəziyyətindən istifadə edərək özünə əlavə mənfəət təmin edən şərtlər qoşmaması və tərəfləri mübahisəyə sövq edən səbəblərin aradan qaldırılması kimi prinsipləri əsas almışdır.

7. Qeyri-müəyyənlik səbəbilə qadağan olan alqı-satqılar

İslammüxtəlif müqavilələrdə tərəflərin mübahisə etməsinə səbəb olacan qeyri-müəyyənliyi aradan qaldırmağa səy göstərmişdir. Müxtəlif hədislərdə satıcı və ya alıcının aldanmasına səbəb olan və ya satılan malın təhvil verilməsi çətin və ya mümkün olmayan alış-verişlər haqqında nümunələr verilmişdir.

Hələ əmələ gəlməmiş bir şeyin satışının etibarlı olmadığı ilə bağlı fikir biriliyi vardır. Heyvanın hələ doğulmamış olan balasını satmaq, meydana gəlmədən əvvəl meyvə və əkin məhsulunu satmaq buna

İPƏKYOLU NƏŞRİYYATI

misaldır. Satış əsnasında mövcud olmadığı və ya meydana gəlməmə təhlükəsi olduğu üçün bağlanan müqavilə etibarlı sayılmamışdır.

Hz. Peyğəmbər başqa bir hədisində: *"Sudakı balığı satın almayın. Çünki bunda aldanma (ğərar) vardır"* (Əhməd ibn Hənbəl, I, 288) - buyurmuşdur.

Satılan mal və ya qiymətdə qeyri-müəyyənlik çox az və cüzi olarsa, müqaviləyə zərər verməz. Xüsusi hovuz və vətəqələrdən satılan balıqları tutulmadan əvvəl almaq caizdir. Çünki belə bir yerdə balığın növünü və keyfiyyətini müəyyən etmək mümkün olduğu kimi, tutulması dəqiqdir.

Odur ki, qoz, badam, fısdıq, fındıq, şabalıd, qarpız, yemiş kimi qabıqlı bitkiləri qabıqları ilə, buğda, düyü və küncüd kimi bitkiləri isə sünbülü içində satmaq caiz hesab olunmuşdur. **Torba və vedrə ilə satılan, ancaq miqdarı bəlli olmayan meyvə və başqa şeylərin satın alınması, cəmiyyətdə adət halına gələn alış-verişlərdə tərəflər arasında mübahisə çıxmadığı üçün etibarlı və caiz sayılmışdır**

Meyvə və əkin məhsulları hələ əmələ gəlmədən satılar şaxta, isti, sel və xəstəlik kimi səbəblərdən məhsul əldə edilməzsə, satılan əşyanın əvəzi qarşılıqsız qalar. Belə bir satış aldanmağa səbəb olar. "Hz. Peyğəmbər meyvələri dadlanıncaya qədər ağacda ikən satılmasını qadağan etmişdir" (Buxari, Büyu, 83; Müslüm, Buyu, 53).

Meyvə və əkin məhsullarının hələ meydana gəlmədən satılması batil olduğu məsələsində fikir birliyi vardır. Hz. Peyğəmbər Hakim ibn Hizama: *"Sahib olmadığın bir şeyi satma",* (Əbu Davud, Büyu, 70) buyurmuşdur. Yetişmiş əkin məhsullarının və ya meyvələrin isə yığımından öncə sünbülündə və ya ağacında ikən təxmin edilərək satılması caizdir. Ancaq meyvələr ağacda satıldıqdan sonra, hələ yığılmadan təzə meyvələr meydana gələrsə, bunlar satıcıya aid olar.

8. İbadət vaxtında ticarətlə məşğul olmaq

Uca Rəbbimiz cümə günündə cümə namazını qılmağı fərz buyurmuşdur. Qurani-Kərimdə belə buyurulur. **"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın! (Yenə öz işinizə qayıdın!) Və Allahı çox zikr edin ki, nicat tapıb səadətə qovuşasınız! (Hər iki dünyada muradınıza yetişəsiniz!)"** (Cümə, 62/9-10)

Cümə namazı fərz olanların cümə namazının qılındığı vaxt işlərini tərk edib namaza getmələri fərzdir. Cümə namazına getməmək üçün üzrlü olan kişilər, qeyri-müsəlmanlar, qadın və uşaqlar bundan istisnadır. Cümə günü növbədə olub təhlükəsizliyi təmin edən, şikəst, xəstəbaxıcısı kimi üzrlü olanlar istisna olmaqla, cümə namazı qılınan yerdəki bütün həddi-büluğ yaşına çatmış müsəlman kişilərin alış-veriş və ya başqa işlərini tərk edib cümə namazına getmələri fərzi-eyndir.

İşi tərk edib cümə namazına gediş və dönüş müddəti Əbu Hənifəyə görə birinici əzanın oxunmasından cümə namazının fərzini qılıncaya qədər olan vaxtdır. Digər müctəhidlərə görə isə, bu müddət imam xütbə oxumaq üçün minbərə çıxdığı andan etibarən başlayar və fərzin sonuna qədər davam edər. Hənəfilərə görə bu vaxt ərzində alış-veriş etmək təhrimən məkruh olmaqla bərabər etibarlıdır. Maliki və Hənbəlilərə görə Cümə namazı vaxtında alış-veriş etmək haramdır və etibarlı deyil.

IX. Alış - verişi caiz olmayan əşyaları satmaq

Yeyilməsi, içilməsi və ya yemə - içmədən başqa bir məqsədlə faydalanması və istifadə edilməsi caiz olan şeylərin alış-verişi də caizdir. Allah-Təala belə buyurur: **"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!"** (Bəqərə, 2/29) **"Yeri (Yer kürəsini) sizə ram edən Odur. Onun qoynunda gəzin, (Allahın) ruzisindən yeyin. Axır dönüş də Onadır!"** (Mülk, 67/15)

İPƏKYOLU NƏŞRİYYATI

Yeyilməsi, içilməsi və faydalanması ayə və hədislərdə qadağan edilən şeylərin alqı-satqısı haramdır. Rəsulullah (s.ə.s) belə buyurur: *"Allah bir şeyi haram etdikdə, onun əvəzini də haram edər"* (Əbu Davud, Büyu, 38, 63, 64).

Yeyilməsi və içilməsi ayə və ya hədislə haram buyurulan şeyin haram olması əşyanın özündəki bir zərərdən ötrüdürsə, bu cür şeylərə "nəcis" (pis) deyilir. Spirtli içkilər, donuz və ya ölmüş heyvan əti və qan bunların arasında sayıla bilər. Spirtli içkilər, ölmüş heyvan əti və ya donuz əti kimi İslama görə dəyərsiz olan şeylərin satışı da etibarsızdır.

Günümüzdə qan itirən və ya əməliyyat olan xəstələrə damardan qan verilməsi məcburi bir müalicə metodu olmuşdur. Qan verilməsə, xəstə qan itirməsindən ölə bilər. Buna görə də, sağlam birisi üçün alınması caiz olmayan qan, xəstə üçün caiz olar. Çünki "zərurətlər qadağan olan şeyləri mübah edər" prinsipi, çətin vəziyyətlərdə mömünə asanlıq gətirər. Ancaq buna baxmayaraq satmaq caiz deyil.Könüllü verilməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Halal qazanc yolları hansılardır? İzah edin.
2. Müsəlman bir sahibkarın diqqət etməli olduğu məsələlər haqqında məlumat verin.
3. Peyğəmbərimizin ticarət həyatı ilə əlaqədar gətirdiyi prinsiplər hansılardır? İzah edin.
4. Quran-Kərimdə olan faizlə bağlı ayələri müəyyən edin və dəftərinizə qeyd edin.
5. Peyğəmbərimizin ticarətlə əlaqədar hədislərindən beş dənəsini nümunə olaraq göstərin.
6. İslamda işçi və işəgötürənin əsas hüquq və öhdəlikləri hansılardır? Danışın.
7. Ticarətdə qadağan olunan davranışları yazın.

TERMİNLƏRİN İZAHINI OXLA GÖSTƏRİN

1.	Rəzzaq	Bir malı pul və ya bir əşya ilə dəyişdirmək
2.	Çalışmaq	Bir işin edilməsi üçün sərf olunan güc, çəkilən zəhmət
3.	Ruzi	İnsanın həyatını davam etdirmək üçün davamlı etdiyi iş
4.	Ticarət	Allahın canlılara faydalanması üçün verdiyi şey
5.	Peşə	Cənabı Allahın bir ismi (Ruzini verən mənasında)
6.	Əmək	Bir şeyi ortaya çıxartmaq üçün zəhmət çəkmək.

SƏHV-DÜZ

1. ( ) İslam işləyib qazanmaq imkanına sahib olan bir şəxsin dilənməsini qadağan etmişdir
2. ( ) Tərəflər arasında qarşılıqlı razılıq olmaq şərti ilə hər şeyin alış-verişi caizdir.
3. ( ) Qeyri-əxlaqi şəkil və oyunlar sənət çərçivəsində qəbul edilsə belə, halal deyildir.
4. ( ) İslam içkinin daşınmasında, satışında və içki satılan bir yerdə işləməyi qadağan etmişdir.
5. ( ) İctimai vəzifələrə işçi alınarkən layiq olan birisi olduğu halda qohum-əqrəba olması səbəbi ilə bir başqasını alına bilər.
6. ( ) İşçi işi yerinə yetirərkən lazımi diqqəti göstərməz və bir səhv hərəkəti ucubatından işəgötürənə zərər verərsə, verdiyi zərəri ödəməlidir.
7. ( ) Rüşvət alanın cəhənnəmə gedəcəyi qəbul edildiyi kimi, verənin də cəhənnəmə gedəcəyi qəbul edilir.
8. ( ) Kredit kartıyla bankdan 1000 dollar borc pul alıb, 12 ay içində hər ay 100 dollar ödəmək faiz olaraq qəbul edilir.
9. ( ) Keyfiyyətli toxumluq buğda ilə keyfiyyətsiz yemlik buğdanı dəyiş-düyüş etmək istəyənlər bərabər miqdarda və nəğd mübadilə etmək məcburiyyətindədir. Pul ilə qiymət kəsilərək bir -birinə sata bilməzlər.
10. ( ) Bir malı bazar qiymətindən çox baha qiymətə alan alıcı müqaviləni ləğv etmək hüququna sahibdir.
11. ( ) Hərrac və ya gizli zərf üsulu ilə qiymət təklifi alaraq qiyməti ən yüksək verənə malı satmaq caizdir.

İPƏKYOLU NƏŞRİYYATI

BOŞLUQLARI AÇAR SÖZLƏR İLƏ DOLDURUN

(ehtikar, nəcəş satışı, tələqqir-rükban, düşmənlik, nisyə faizi, ot, mallarınız, uşaqlarınız, qumar, təqvada, içki, fasid şərt, haram, od)

1. “..... ilə bəslənən bir vücuda ancaq cəhənnəm odu yaraşır” (Hz. Əbu Bəkr).
2. “Ey iman gətirənlər! ..... və ..... sizi Allahı xatırlamaqdan uzaq tutmasın” (Münafiqun, 63/9).
3. ....., bir malı qiymət artdıqdan sonra satmaq üçün bazardan yığışdırmaq, yığıb saxlamaq və ya bazara çıxartmamaqdır.
4. Yaxşılıqda və ..... yardımlaşın. Günah işləməkdə və .... etməkdə yardımlaşmayın” (Maidə, 5/2).
5. “Ey iman gətirənlər! ....., ..., bütlər və fal oxları şeytanın pis işlərindən başqa bir şey deyildir. Bunlardan çəkinin ki, qurtuluşa çatasınız” (Maidə, 5/90).
6. Həcm, ağırlıq və ya uzunluq ölçüsü ilə və yaxud say ilə satılamsına görə eyni xüsusiyyətləri daşıyan iki əşyanın birini digəri ilə nisyə dəyişdirmək ..... olur.
7. Bir şəxs həqiqi alıcı olmadığı halda sırf müştərini qızışdırıb qiyməti artırmaq məqsədi ilə alış – verişə qarışmasına ..... deyilir.
8. ..... bəzi şəxslərin kənddən və kənardan gələn malları yolda qarşıləyaraq almasına deyilir.
9. Satıcı və ya alıcıdan birinə birtərəfli mənfəət təmin edən şərtə ..... deyilir.

CƏDVƏLDƏ BOŞ BURAXILAN YERLƏRƏ “CAİZDİR” VƏ “CAİZ DEYİL” İFADƏLƏRİNDƏN UYĞUN GƏLƏN BİRİNİ YAZIN

Ölmüş heyvan ətini satmaq	Caiz deyil.
Bir ay sürmək şərti ilə avtomobil satmaq	
Dənizdəki balıqları almaq	
Cümə namazı vaxtında ticarətlə məşğul olmaq	
Təzə, heç sürülməyən avtomobili işlənmiş iki avtomobillə dəyişdirmək	

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. **Aşağıdakılardan hansı doğrudur?**

a. Bir şəxsin ailəsinin nəfəqəsini qazanmaq üçün çalışması sünnədir.

b. Heç kim əlinin zəhmətindən daha xeyirli bir şey yeyə bilməz.

c. Allah sənət üçün çalışanı sevər.

d. İş görmək qabiliyyətinə sahib olub, ancaq kasıb olan bir insan dilənə bilər.

2. **Aşağıdakılardan hansı ruzi qazanmaqla əlaqədar qoyulan prinsiplərdən biri deyil?**

a. Ruzi verənin Allah olduğunu ağlından çıxartmamalıdır.

b. Cinsi duyğuları təhrik edən peşə seçməməlidir.

c. Ruzi qazanmaq üçün uyğun bir peşə seçməyə diqqət göstərilməlidir.

d. İşin keyfiyyətini aşağı saldığı üçün iş yerində ibadət edilməməlidir.

3. **Aşağıdakılardan hansı işəgötürənin hüquq və məsuliyyətlərindən biridir.?**

a. Verilən işi yerinə yetirərkən diqqətli davranmaq.

b. İşçinin zəhmət haqqını təri qurumadan vermək.

c. Öhdəsində olan əşyanın qulluq və qorumasını təmin etmək.

d. Özündən tələb olunan işi layiqincə yerinə yetirmək.

4. **Aşağıdakılardan hansı ticari həyatda haram olan qazanclardan biri deyil?**

a. Qəsb etmək;

b. Həddindən artıq qazanc əldə etmək;

c. Rüşvət almaq;

d. Malı bazar qiymətindən çox baha satmaq;

5. **Faiz İslam dininində böyük günahlardan biridir. Aşağıdakılardan hansı faizlə olan bir alış-verişə misal göstərilə bilməz?**

a. 8 qr 14 əyar ilə 5 qr 24 əyar qızılı dəyişdirmək

b. 5 kq arpanı 5 kq arpa ilə nisyə mübadilə etmək (satmaq)

c. Borc ödəmə tarixindən bir neçə ay əvvəl qaytarılarsa, əskik qaytarmaq

d. Vaxtı təyin edilmədən borc vermək

İPƏKYOLU NƏŞRİYYATI

XVI BÖLMƏ

HALAL VƏ HARAMLAR

MÖVZULAR

A. HALAL VƏ HARAM MÖVZUSUNDA İSLAMIN ƏSAS QAYDALARI

B. YEMƏK-İÇMƏKLƏ BAĞLI HALAL VƏ HARAMLAR

C. HEYVANLARIN OVLANMASI İLƏ ƏLAQƏDAR HÖKMLƏR

D. GEYİMLƏ BAĞLI HALAL VƏ HARAMLAR

E. BƏZƏNMƏ İLƏ BAĞLI HALAL VƏ HARAMLAR

F. EV ƏŞYASI İLƏ BAĞLI HALAL VƏ HARAMLAR

G. ƏYLƏNCƏ VƏ VAXTIN SƏMƏRƏLİ KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR HALAL VƏ HARAMLAR

H. AND İÇMƏ VƏ NƏZİR

İPƏKYOLU NƏŞRİYYATI

TAPŞIRIQLAR

1. İslam dininin qoyduğu qaydalar yalnız ibadət və əxlaqla əlaqəlidir? Sinifdə müzakirə edin.
2. Uca Allah içki içməyi və istifadə etməyi niyə qadağan etmişdir? İçkinin cəmiyyətə olan zərərlərini araşdırın.
3. Siqaretin sağlamlıq və dini baxımından təhlükələrini araşdırın.
4. İslam dininə görə heyvanların ovlanma qaydalarını araşdırın.
5. Kişi və qadının övrətləri haqqında məlumat əldə edin.
6. Kişilər üçün bəzənmə hansı çərçivədə olmalıdır?
7. Bir evdə canlı bir varlığın şəklinin asılmasının doğru olub-olmadığını araşdırın.
8. Qumarın ailələrin səadətinə necə təsir etdiyini araşdırın.
9. And içmə kəffarəsi necə yerinə gətirilir? Kəffarə hansı and içmə növündə vacib olur? Öyrənin.
10. Hədd cəzaları hansılardır? Əzbərləyin.

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

A. HALAL VƏ HARAM MÖVZUSUNDA İSLAMIN ƏSAS QAYDALARI

1. Qadağan edilməmiş hər şey halaldır: "Əşyada əsil olan onun mübah olmasıdır" kimi ifadə edilən bu qaydaya görə, hər hansı bir şeyi qadağan edən bir ayə və ya hədis olmadığı müddətdə haram hökmündən danışmaq olmaz. Rəsulullahdan (s.ə.s) yağ, pendir və vəhşi eşşək ətinin hökmü haqqında soruşmuşlar, o da belə buyurmuşdur: *"Halal Allahın kitabında halal etdiyi, haram da Allahın kitabında haram etdiyidir. Haqqında bir şey söyləmədikləri isə sizin üçün bağışlanıb sərbəst buraxdıqlarıdır"* (Tirmizi, Libas, 6; İbn Macə, Ətimə, 60); *"Allah bəzi şeyləri fərz buyurmuşdur, bunları əsla tərk etməyin. Bəzi sərhədlər qoymuşdur, bunları da keçməyin. Bəzi şeyləri haram etmişdir, bunları işləməyin. Unutduğu üçün deyil, sizə olan mərhəmətinə görə bəzi şeylər haqqında da heç bir şey buyurmamışdır, bunları da sorğuya çəkməyin".* (Bu hədisi Daraqutni rəvayət etmiş Nəvəvi də həsən olduğunu bildirmişdir.)

2. Halal və haram edən yalnız Allahdır: Heç bir qulun halal və haram qoyma səlahiyyəti yoxdur. Bu səlahiyyət yalnız Allah-Təalaya məxsusdur. Peyğəmbərin bu mövzudakı ifadələri Allahın iradəsini və hökmünü qullarına bildirmək və açıqlamaqdan ibarətdir. Bir ayənin tərcüməsi belədir: **"Diliniz (bizə belə əmr edildiyi deyə) yalana vərdiş etdiyi üçün (dəlilsiz-sübutsuz): 'Bu halaldır, o haramdır!' – deməyin, çünki (bununla) Allaha iftira yaxmış olursunuz. Allaha iftira yaxanlar (axirət əzabından) nicat tapmazlar!"** (Nəhl, 16/116) Bunda görə də, fəqihlər qəti nəss olmayan şeylər üçün "haram" deməkdən çəkinmiş, "məkruh, xoşgəlməz" kimi ifadələrdən istifadə etməyə üstünlük vermişlər.

3. Harama möhtac olmayacaq qədər halal vardır: İslam faydalı və insanların ehtiyacı olan heç bir şeyi haram buyurmamışdır. Haram buyurduqları şeylər ya tam zərərli, ya da spirtli içkilər kimi zərəri faydasından çox olan şeylərdir.

4. Harama aparan hər şey haramdır: Pis və zərərli olan bir şeyin qarşısının alınmasının ən doğru yolu, həmin şeylərə aparan vasitələri yox etməkdir. Islamın haram məsələsində tutduğu yol da budur. Məqsəd cinayətkarın cəza görməsi deyil, cinayətin tamamilə aradan qaldırmasıdır. Məsələn, zinanın özü haram olduğu kimi, zinaya aparan yollar da haramdır. Açıq-saçıq geyinmək, aralarında evlənmə maneəsi olmayan qız və oğlanın təkbaşına qalmaları, qeyri-əxlaqi rəsm və musiqi və s. qadağan olunmuş, haram buyurulmuşdur.

5. Haramı etmək üçün edilən hiylə də haramdır: Bir yolunu taparaq, qaydalara uydurarak və ya adını dəyişdirərək haramı etmək, məsuliyyəti aradan qaldırmır. Əksinə, bu yolların və çarələrin özləri də haramdır. Rəsulullah (s.ə.s) *"Ümmətimdən bəziləri adını dəyişdirərək şərabı halal sayacaqlar"* (Buxari, Əşribə, 6) ifadəsi ilə buna işarə etmişdir. Ədəbsiz əsər və fəaliyyətlərə "sənət" demək bunları halal etmir.

6. Yaxşı niyyət haramı məşru (halal) etməz: Yaxşı niyyətlə, yaxşı nəticə əldə etmək məqsədi ilə də olsa, haram iş görmək caiz deyil. Məscid tikdirmək, xeyriyyəçilik etmək üçün qumar oynamaq, oğuruluq oğurluq etmək və sələmçiliklə məşğul olmaq düzgün qəbul edilməmişdir. *"Haram yolla pul qazanan elə bir şəxs yoxdur ki, bu pulla verdiyi sədəqə qəbul olsun və nəfəqəsi bərəkətlənsin. Qalanı da onun üçün cəhənnəmə edəcək yolculuqda azuqə olar. Şübhəsiz, Allah-Təala pisi-pis ilə silməz, əksinə, pisi yaxşı ilə silər. Məhz buna görə də, pislik başqa bir pisliyi təmizləyə bilməz"* (Əhməd ibn Hənbəli, "Müsnəd") hədisi də eyni hökmü təsdiq edir.

7. Haram olduğu şübhəli olan şeylərdən uzaq durmaq lazımdır: İslamın haram və halal etdiyi şeylər açıq-aşkar ortadadır. Haram ilə halal arasında bir də şübhəli olanlar vardır. Təqva insana belə bir vəziyyətdə şübhəli olanlardan uzaqlaşmasını və ehtiyatla davranmasını tələb edir. Bu hədis bu mövzuda bir düstur mahiyyətindədir: *"Halal aşıq-aşkar bəllidir, haram da açıq-aşkar bəllidir. Bunların arasında xalqın əksəriyyətinin hansının halal, hansının da*

İPƏKYOLU NƏŞRİYYATI

haram olduğunu bilmədiyi şübhəli şeylər vardır. Dinini və namusunu qorumaq üçün bunları etməyən əmin-amanlıqdadır. Bunlardan bəzisini etmək istəyən isə harama çox yaxınlaşmış olur. Necə ki, qoruğun kənarında heyvanlarını otladan şəxs heyvanlarının qoruğa girmə təhlükəsi ilə üzə-üzə gəlmişdir. Diqqət edin, hər hökmdarın bir qoruğu vardır. Allahın qoruğu da haram buyurduğu şeylərdir" (Tirmizi, Büyu, 1). Rəsulullah (s.ə.s): *"Sənə şübhəli gələni tərk et, şübhəli gəlməyəni al!"* (Buxari, Zəbaih 2, 9) hədisi də buna işarə edir.

8. Haram müsəlman ölkəsinin xaricində də haramdır: Bir müsəlman faiz, zina, qumar kimi Allahın qadağan etdiyi bir əməl harda olursa olsun edə bilməz və etdiyində də günaha girmiş olar.

9. İsraf haramdır: İstifadə edilməyib zibilə atılan yeməklər və geyimlər, ehtiyacdan artıq edilən xərclər israfdır. İsraf da dinimizdə haram buyrulmuşdur (İsra, 17/26).

10. Zərurətlər haramı mübah edər: Haramın çərçivəsini olduqca dar tutan İslam, insan həyatında gözlənilməz baş verən hadisə və çətinliklər qarşısında bu çərçivənin daha da dar tutula biləcəyini diqqətə almışdır. Qullarına daima asanlıq göstərən Rəbbimiz, ölüm təhlükəsi səbəbi ilə çətin vəziyyətdə qalan, başqa çarə tapmayan müsəlmana, həddini aşmamaq şərti ilə haram olanı yemə və ya etmə rüxsəti vermişdir. Yəni bu kimi hallarda zərurətə görə güzəştə getmişdir. Zərurət ilə təhlükəni ortadan qaldıracaq halal bir yolun və əşyanın olmaması nəzərdə tutulur.

Yemək-içmək tapmayıb ölmək təhlükəsi ilə üz-üzə qalan bir şəxs, həyatını davam etdirəcək qədər haramdan istifadə edə bilər. Ölərək murdar olmuş heyvan əti, qan, donuz kimi haram olan şeylərin qeyd edildiyi dörd surədə təkrarlanan **"...həddi aşmadan (zəruri ehtiyacı ödəyənə qədər) bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir!"** (Bəqərə, 2/173), (Maidə, 5/3), (Ənam, 6/145), (Nəhl, 16/116) ayələr bu əsası bildirir.

Yanında öz ehtiyacından çox yeyəcək və ya içəcəyi olan bir müsəlman, bunları çətin vəziyyətdə qalanla bölüşmək məcburiyyətindədir.

Əgər zəruri hal xəstəlikdirsə, çətin vəziyyətdə qalan şəxs başqa çarə olmadıqda xəstəliyinə dərman kimi haram olan şeydən istifadə edə bilər. Rəsulullah (s.ə.s) kişilərə ipək paltar geyinməyi haram buyurduğu halda, dəri xəstəliyinə görə bəzi səhabələrə icazə vermişdir.

QEYD

Haram olanla müalicə caiz deyil: *"Allah şəfa tapmağınızı, sizə haram etdiyi şeylərdə yaratmadı"* (Buxari, Əşribə, 15).

B. YEMƏK VƏ İÇMƏKLƏ BAĞLI HALAL VƏ HARAMLAR

I. Haram edilən yeməklər

Quruda yaşayan heyvanlar:

A) Ətləri yeyilməyən heyvanlar yeddi qrupdur:

1. Donuzun haram olduğu ilə bağlı Quranda açıq ayə vardır (Bəqərə, 2/173). Quranda adı çəkilərək haram buyurulan yaganə heyvan donuzdur.

2. Allahdan başqası adına kəsilən heyvanların haram olduğu da Quran hökmünə əsaslanır. Heyvanları kəsərkən və ya ovlayarkən Allahın adını zikr etmək, "Bismillah" demək lazımdır. "Bismillahi Allahu əkbər deyilməsi müstəhəbdir. Bəsmələ qəsidli olaraq tərk edilərsə heyvanın əti yeyilməz, haram olar. Bəsmələ qəsdən tərk edilməmişsə, yeyilərkən bəsmələ çəkilərək yemək olar.

İPƏKYOLU NƏŞRİYYATI

Dinsizlərin kəsdiyi hayvanların ətləri yeyilməz. Heyvanı kəsən və ya ovlayan şəxs əhli-kitabdan yəhudi və ya xristiandırsa, kəsdiyi və ya ovladığı heyvanın ətindən yemək olar. Çünki Uca Rəbbimiz Qurani-Kərimdə belə buyurmuşdur: **"Bu gün sizə təmiz olan şeylər halal edildi. Özlərinə kitab verilənlərin yeməyi sizə halal, sizin yeməyiniz də onlara halaldır".** Yəhudi və xristianların kəsdiklərinin halal olması üçün heyvanı öz dini qaydalarına görə kəsmələri şərtdir.

3. Meytə, yəni leş, murdar olan heyvanların ətləri yeyilməz. Dini qaydalara görə kəsilməmiş olan heyvanlar bu qrupa daxildir. Kəsməyib, heyvanın vücuduna bıçaq vuraraq, başına vuraraq, boğaraq və ya dərman verərək, elektriklə öldürülən quruda yaşayan heyvanlar leş, murdar olar. Bunları yemək də haramdır.

Ayədə yeyilməsi haram olan heyvanlar belə bildirilir: **"O (Allah) sizə ölmüş heyvanı, (axar) qanı, donuz ətini və Allahdan başqasının adı ilə (bütlərin və s. adı ilə) kəsilənləri (yeməyi) qəti haram etmişdir. Lakin naəlac qaldıqda (başqasının malını) zorla mənimsəmədən və həddi aşmadan (zəruri ehtiyacı ödəyənə qədər) bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir!"** (Bəqərə, 2/173)

"Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə (bismillah deyilmədən) kəsilmiş, boğulmuş, (küt alətlə və ya silahla) vurulmuş, (bir yerdən) yıxılaraq ölmüş, (başqa bir heyvanın buynuzu ilə) vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş – canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır – dikinə qoyulmuş daşlar (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi. Bunlar günahdır" (Maidə, 5/3).

4. Yırtıcı heyvanlardan olan, yəni azıdişi və pəncəsi ilə ovlayan və ovunu parçalayan qurd, aslan, pələng, bəbir, meymun, kaftar, it, pişik və caynağı ilə ovlayan çalağan, qızıl quş, qartal, kərkəs kimi quşların əti yeyilməz. "Rəsulullah (s.ə.s) bütün azıdişli yırtıcılar ilə yırtıcı caynağı olan quşları yeməyi qadağan etmişdir" (Müslim, Səyd, 15, 16). Hənəfilər bu hədisdəki "siba" kəlməsini "ət yeyənlər" şəklində başa düşmüşlər.

5. Pis şeylərlə bəslənən kərkəs, quzğun, qarğa kimi quşların əti yeyilməz.

6. Həşərat, yəni torpaq içində yuvası olan kiçik heyvanlar halal deyil. Siçan, əqrəb, ilan, kərtənkələ, gənə, qurbağa, tısbağa, arı, ağcaqanad, milçək, köstəbək, kirpi, bit, birə kimi həşəratlar yeyilməz.

7. İnsanların diksindiyi bəzi quru heyvanlarını kəsmək və yemək caiz deyildir. Qatır və uzunqulaq (eşşək) ətinin haram olması ilə bağlı fikir biriliyi vardır. Hz. Peyğəmbər (s.ə.s) Xeybər günü eşşək ətini qadağan etmişdir (Buxari, Məgazi, 38; Zəbaih, 27, 28; Müslim, Nikah 30) At isə insanlara xidmət etdiyi və sadiq bir heyvan olduğu üçün kəsilməsi xoş qarşılanmamışdır.

B) Ətləri yeyilən heyvanlar dörd qrupdur.

1. Azıdişi ilə ovlamayan və ovunu parçalamayan heyvanlar ovlanaraq ətləri yeyilə bilər. Maral, ceyran, zürafə, dəvə quşu, dağ keçisi, vəhşi inək və zebra kimi heyvanlar bu qrupa daxildir.

2. Təbiətində vəhşilik və görünüşü iyrənc olmayan heyvanların ətləri halaldır, yeyilə bilər. Toyuq, qaz, ördək, hinduşqa kimi hində saxlanılan və dovşan kimi əhliləşmiş ev heyvanları ilə bildirçin, sığırçın, balıqudan, tovusquşu, sərçə, qaranquş, durna, qaratoyuq kimi quşların ətlərinin halal olması ilə bağlı fikir birliyi vardır.

Qumru, göyərçin, bayquş, sağsağan, bülbül, kəklik, tutuquşu kimi quşların ətləri də halaldır. Ancaq bunları başqa səbəblərə görə yemək yaxşı görülməmişdir. Yarasanın yeyilib-yeyilməməsinin haram və ya məkruh olduğu ilə bağlı ixtilaf vardır. Hudhud quşunu yemək isə məkruh görülmüşdür.

3. Çəyirtkənin yeyilə biləcəyinə dair sünnədə (bəzi ərəb qəbilələrinin yeməsi və qadağan edilməməsi) xüsusi hökmün olması, səbəbi ilə yeyilən heyvanlar qrubuna daxil edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

4. Qurban edilə bilən heyvanlar: İnək, camış, qoyun, keçi, dəvə bu qruba daxildir.

Nəcasət yeyən toyuq, inək və dəvənin ətini yemək məkruhdur. Belə heyvanları kəsib ətini yemək üçün toyuğu 3, qoyunu 4, inək və dəvəni 10 gün bağlı şəraitdə saxlayıb təmiz qidalarla bəsləmək lazımdır.

Dəniz heyvanları: Peyğəmbərimiz (s.ə.s) dəniz haqqında: *"Onun suyu təmiz, ölüsü halaldır"*, -buyurmuşdur. Bu hədisi əsas alaraq alimlərin əksəriyyəti dəniz heyvanlarının halal olduğu fikrindədirlər.

Balıq növlərinin hamısı bütün məzhəblərə görə halaldır. Balıqlar sinfinə girən, davamlı suda yaşayan və quruda yaşaması mümkün olmayan heyvanların hamısı halaldır. Xambala, sazan, ilan balığı, bunlardandır.

Dəniz heyvanlarında kəsmək şərt deyildir. Balıq ovlamaq üçün istifadə edilən bütün texniki metodlar caizdir və tutulan balıqlar yeyilir.

Hənəfi məzhəbinə görə öz-özünə ölmüş balıqlar yeyilməz. Sağlamlığa təhlükəli olduğu üçün bu fikri mənimsəmişlər. Günümüzdə fabrik və zavod tullantılarının qarışdığı kirli sular sağlamlıq üçün təhlükəli vəziyyətə gəlmişdir. Ordakı canlıları zəhərləyir və bu zəhərlər də həmin canlılardan istifadə edən insanlara keçir. Ancaq soyuqdan və istidən ölən balıqlar isə Hənəfi məzhəbinə görə yeyilir.

Hənəfilərə görə, dəniz heyvanları quruda yaşayan heyvanlara qiyas edilir. Əgər sudan çıxdığında ölürsə, yeyilməsi halaldır. Ancaq həm quruda, həm də suda yaşayırsa halal deyildir. Məsələn, qurbağa, xərçəng, su tısbağası, suiti, pinqvin, timsah, kərgədan kimi heyvanlar yeyilmir.

Nəcasətlə bəslənənlər və balıqlara bənzəməyənlər yeyilməz. Lakin Şafei məzhəbinə görə bütün dəniz heyvanlarının yeyilməsi caizdir.

II. İçkilər və narkotik vasitələr

İçki kəlməsi içildiyi zaman sərxoşluq verən içkilər üçün istifadə edilir. İslam dini bütün sərxoşluq verən içkiləri haram etmiş, içməyi qadağan etmişdir: **"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?"** (Maidə, 5/90-91)

İçki ilə əlaqədar digər qadağalar bunlardır:

1. Sərxoş edən içki haramdır: Sərxoşluq verən hər içki ayədəki "xəmr" məfhumunun hökmünə daxildir və haramdır. Verilən bir suala cavab olaraq Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Sərxoşluq verən hər şey içkidir və hər növ içki də haramdır"* (Müslim, Əşribə, 73-75).

2. Çoxu sərxoş edənin azı da haramdır: Dinimiz çoxu sərxoş edən içkinin azını içməyi də qadağan etmiş və haram buyurmuşdur. Rəsulullah (s.ə.s) belə buyurur: *"Çoxu sərxoş edən şeyin azı da haramdır"; "Bir qabı, şüşəsi sərxoş edən şeyin çox az miqdarı da haramdır"*.

3. İçki ticarəti haramdır: İslam içki ticarətini qadağan etmiş, müsəlmanın qeyri-müsəlmanla da olsa içki alış-verişi qadağan edilmişdir. "Peyğəmbər (s.ə.s.) içki istehsal edəni, istehsal etdirəni, içəni, daşıyanı, daşıtdıranı, paylayanı, satanı, gəlirindən istifadə edəni, satın alanı və satın aldıranı lənətləmişdir" (Tirmizi, Büyu, 58; İbn Macə, Əşribə, 6).

4. İçki məclisində iştirak etmək haramdır: Müsəlmanın vəzifəsi təkcə haramdan uzaq durmaqdan ibarət deyil, başqalarının etməməsi üçün onları da marifləndirməkdir. Hz. Ömərin rəvayət etdiyinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Allaha və axirət gününə iman gətirən içiki qoyulan süfrəyə əsla oturmasın!"* (Tirmizi, Ədəb, 43; Əbu Davud, Ətimə, 18)

İPƏKYOLU NƏŞRİYYATI

5. İçki ilə müalicə etmək qadağandır: Tariq ibn Süveyd əl-Cufi Peyğəmbərimizə (s.ə.s) şərabın hökmünü soruşmuş, o da ona şərabı qadağan etmişdi. Bu cavab müqabilində Tariq: "Amma mən onu təkcə dərman kimi istifadə edirəm"-dedikdə Peyğəmbərimiz: *"O dərman deyil, dərtdir"*, - buyurdu.(Müslim, Əşribə, 12).

6. Narkotik vasitələrdən istifadə etmək haramdır: Nəşə, eroin, kokain və bunlar kimi asılılıq yaradan digər maddələr, spirtli içkilərdən daha zərərlidir və insanları məhv edir. İslam ağlın qorunmasını əmr etmiş, ağlı başdan alan narkotik vasitələrdən istifadə edilməsini qadağan etmişdir.

III. Siqaret

Quran və Sünnədə qadağan olması haqqında açıq bir dəlil olmayan siqaret fəqehlərin əksəriyyətinə görə, məkruh qəbul edilmişdir. Ancaq günümüzdə tibbin ortaya qoyduğu məlumatlara əsasən həm özünün, həm də başqalarının səhhətinə zərər verdiyi üçün haramdır. Sulu qəlyan kimi vərdiş halına gələnlərin hökmü də siqaret kimidir.

Allah Təala: **"(Malınızı) Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir"** (Bəqərə, 2/195), **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"** (Nisa, 4/29) **-** buyurmuşdur.

C. HEYVANLARIN OVLANMASI İLƏ ƏLAQƏDAR HÖKMLƏR

Ov quruda və suda vəhşi heyvan, quş ovlamaq və balıq tutmaqdan ibarətdir. Tutmaq və ya ələ keçirmək yalnız ovlamaqla mümkün olan vəhşi heyvanlara da ov heyvanları deyilir.

İslam dininə görə ov etmək mübahdır. Ov və heyvanın kəsilməsi ilə əlaqədar bəzi şərtlər vardır. Bunlar aşağıdakılardır:

1. Bir heyvanı tutub canlı ikən hədəf kimi nişan alaraq öldürmək, əziyyət verərək, acı çəkdirərək öldürmək haramdır. Bir heyvanı tutduqdan sonra ona əziyyət vermək də dinimizdə qadağan edilmişdir.

2. Ovçuluq edən şəxs İslama görə ovçuluğun qaydalarını bilməlidir. Yəni, ov etməyi bilməli, silahı atarkən Allahın adını çəkməlidir. Heyvan diri ələ keçirilərsə, onu İslam əsaslarına görə kəsməlidir.

3. Ov təkcə əyləncə və idman məqsədi ilə edilməməli, başqa bir qazanc mənbəyi olmadığı təqdirdə ehtiyaclarını təmin etmək üçün edilməlidir. Bala heyvanlar, balası və ya boğaz olan ana heyvanların ovlanmamasına diqqət edilməlidir.

4. Ovlanan heyvana əziyyət verməmək üçün ov edilən alət kəskin və iti olmalıdır. Ox, nizə, qılınc, qırma və güllə kimi kəsici və deşici alətlərlə edilən ov yeyilə bilər (Maidə, 5/94). Daş, çomaq və başqa şeylərlə döyülərək, zərbə ilə və əzilərək öldürülən heyvan əti yeyilməz (Maidə, 5/3).

5. İt, şahin kimi ova öyrədilmiş heyvanlarla ov etmək caizdir. "...Bütün pak nemətlər sizə halal buyurulmuşdur. Allahın sizə öyrətdiyi (ov üsulları) ilə təlim edib əhliləşdirdiyiniz yırtıcı heyvanların (ov iti, şahin və s.) ovladıqları da sizə halaldır. Onların sizin üçün tutub gətirdiklərindən yeyin və ona görə (təlim etdiyiniz heyvan və quşları ov üzərinə qısqırtdığınız, silah işlətdiyiniz və ovu kəsdiyiniz zaman) Allahın adını çəkin (bismillah, Allahu-əkbər deyin)..." (Maidə, 5/4) ayəsi bunu ifadə edir. Ov edən heyvanların xüsusi təlim keçirilərək əhliləşdirilməli və ovu sahibinə yemədən gətirilməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

6. Ov üçün dənizə tor atarkən, heyvana ox atarkən, silahla atəş açarkən bismillah deməlidir. Allahdan başqasının adına qurban kəsilməməli, heyvan ovlanmamalıdır. **"Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin..."** (Ənam, 6/121) ayəsinin hökmü bunu vacib edir. Heyvan kəsilərkən və ov edilərkən unudaraq bismillah deməzsə, bismillah deyərək yeyə bilər.

7. Əti yeyilən heyvanların yeyilə bilməsi üçün qaydasına görə kəsilməlidir. Yaralanmış heyvan diri ələ keçirilən zaman kəsilməlidir. Kəsilərkən də nəfəs borusu, bunun yanındakı iki arterial qan damarları və yemək borusu kəsilməlidir.

Əti yeyilən heyvanların iki cür kəsilmə şəkli var:

1. Dəvə kimi boynu uzun olan heyvanlar, ayaq üstə boyunları sinəyə birləşdiyi yerdən kəsilməlidir. Buna "nəhr" deyilir.

2. Digər heyvanlar isə, yatızdırılaraq çənəsi ilə boyunlarının birləşdiyi yerdən kəsilməlidir. Buna da "zəbh" deyilir.

D. GEYİMLƏ BAĞLI HALAL VƏ HARAMLAR

I. Övrət yerini örtmək

Açılması, göstərilməsi, baxılması haram olub, örtülməsi fərz olan bədən üzvlərinə "övrət yeri" deyilir. Allah-Təala ilk peyğəmbərdən etibarən övrət yerlərinin örtülməsini əmr etmişdir. Kişilərin qadınlara nəzərən övrət yerləri fərqli olduğu kimi, məhrəm olan qohum-əqrabalar arasındakı övrət yerləri bir-birinə naməhrəm olan şəxlərin övrət yerləri ilə də fərqlidir.

a. Kişinin kişi və qadınlara görə övrəti:

Kişinin həm kişilərə, həm də qadınlara görə övrəti göbəklə diz qapağı arasıdır. Bu, İslam alimlərinin əksəriyyətinin fikridir. Dəlil Hz. Peyğəmbərin bu hədisidir: *"Kişinin övrət yeri göbəyi ilə diz qapağı arasıdır"* (Əhməd bin Hənbəl, II, 187). Səhih bir fikrə görə diz qapağı da ayağın bud hissəsindən olub, övrət yeri hesab edilir. *"Diz qapağı övrət yerindəndir"* (Zeylai, "Nəsbur-rayə, I, 297).

Hər bir müsəlman bir şəxs övrət yerinin açılmamasına diqqət göstərməlidir. Kişilərin bədəninin beldən yuxarısını (qarnı və kürəyini) qadınların yanında açması məkruhdur. Övrət yerinin göbəklə diz qapağı arası olması, müsəlman kişilərin bu tərzdə geyinərək gəzmələrinin caiz olduğu mənasına gəlmir. Rəsulullah bu məsələdə ən gözəl nümunədir. Çünki, həyalı hərəkət etmək müsəlmanın əxlaqındandır.

b. Qadının naməhrəm kişiyə görə övrəti:

Qadınların əl, üz və bəzi fəqehlərə görə topuqdan aşağı ayaqları istisna olmaqla bütün bədəni övrətdir. Qollar, qulaqlar və saçlar örtülməlidir. Hədisdə belə buyurulur: *"Qadın örtülməsi lazım gələn övrətdir. Çölə çıxdığı zaman şeytan ondan gözünü ayırmaz"* (Tirmizi, Rəda, 18).

Qadının üzü və əlləri, bir fitnə təhlükəsi olmadıqca namazda da, namazdan kənarda da övrət deyil. Uca Allahın **"...öz-özlüyündə görünən (əl, üz) istisna olmaqla, zinətlərini (zinət yerləri olan boyun, boğaz, qol, ayaq və s. naməhrəmə) göstərməsinlər...."** (Nur, 24/31) ayəsindəki zinət ifadəsindən məqsəd zinət əşyalarının taxıldığı yerlər olub, əllər və üz bundan istisna edilmişdir. Peyğəmbərimiz baldızı Əsmanın, dərisinin rəngini bəlli edən nazik bir paltar ilə yanına gəldiyində üzünü çevirərək: *"Ey Əsma! Qadın*

İPƏKYOLU NƏŞRİYYATI

həddi-büluğa çatanda, bu üzvlərindən başqa digər yerlərinin görünməsi halal və caiz olmaz"-demiş və bunu söyləyərkən, əllərini və üzünü göstərmişdi (Əbu Davud, Libas, 31).

c. Qadının məhrəm kişiyə görə övrəti:

Müsəlman bir qadının məhrəmi olan kişilərin yanında övrəti diz qapağı ilə göbək arası, qarın, sinə və kürək nahiyəsidir. Qadının məhrəmi olan kişilərə görə övrəti kişinin kişiyə görə olan övrəti kimidir.

Qadının zinət yerlərini göstərə biləcəyi məhrəmi olan kişilər "Nur" surəsinin 31-ci ayəsində aşağıdakı kimi sıralanmışdır.

- Əri (qadının ərinə görə heç bir yeri övrət deyil).
- Atası, babaları, ərinin atası və babaları (əmilər və dayılar da ata kimidir).
- Oğlan uşaqları və ərinin oğlan uşaqları.
- Qardaşları, qardaş və bacı uşaqları.
- Qadına qarşı hissiyatsız olan (fiziki və ya əqli problemlərinə görə cinsi gücünü itirmiş, şəhvəti olmayan) kişilər, çox yaşlı olduğu üçün köməyə möhtac olan qocalar.
- Cinsi anlayışa sahib olmayan uşaqlar.

İslam fəqehlərinə görə qadının zinət yerləri, əl-üzü, başı, saçı, qulağı, boynu, qolu və ayaqlarıdır. Çünki başa tac, boyna boyunbağı, qulağa sırğa, qola bilərzik, ələ üzük, ayaq biləyinə isə xalxal taxılır.

Odur ki, qadın yuxarıda sayılan məhrəm kişilərin yanında qolları, başı, boynu və dizdən aşağı ayaqları açıq dura bilər.

Bir qadın atasının, qardaşının yanında da, baba, əmi, dayı, süd qardaşı kimi daimi olaraq evlənmələri qadağan olunan qohumlarının yanında da zinət yerləri açıq dura bilər. Ancaq bir fitnə təhlükəsi olarsa, qadının örtünməyə üstünlük verməsi yaxşıdır. Ancaq "dura bilər" demək, mütləq olaraq durmaq mənasına gəlmir. Onların yanında da örtünməyə diqqət göstərsə daha yaxşı olar.

d. Qadının mömün qadına görə övrəti:

Müsəlman və əxlaqlı qadınlar arasında bir qadının övrət yeri, göbəyi ilə diz qapağı arasından ibarətdir. Bunun xaricində qalan yerləri qadınların yanında açə bilərlər. Bir qız, anasının və bacısının yanında da göbəyi ilə diz qapağının arasını açə bilməz. Nə hamamda, nə də başqa bir yerdə diz ilə göbəyi arasındakı yeri göstərməsi caiz deyil. Bir qadın, yaxın qohum-əqrəbalarından başqa qadınların yanında da, məcbur olmadığı müddətdə beldən yuxarı hissəsini də açmamalıdır.

e. Qadının qeyri-müsəlman qadınlara görə övrəti:

Qeyri-müsəlman və fitnəsindən əmin olunmayan müsəlman qadınlar içindəki bir müsəlman qadının övrət yeri kişilərə görə olan övrət yerlərindən ibarətdir. Üzü, əlləri və topuqdan aşağı ayaqlarından başqa heç bir yerini məcburiyyət olmadığı müddətdə göstərməməlidir. Bu səbəbdən istifadəsi təkcə qadınlara məxsus olsa belə, hovuz, hamam, çimərlik və b. yerlərdə islamın ədəb və həssaslığına diqqət göstərməlidir.

f. Namaz üçün sətri-övrət:

Bir kişinin övrəti göbəyi ilə diz qapağı arasıdır. Bədəninin göbəkdən yuxarı hissəsinin namaz qılarkən örtülməməsi isə məkruhdur. Hədisdə belə buyurulur: *"Bir kişi çiyinlərini örtmədən, tək hissədən ibarət bir örtü ilə namaz qılmasın"* (Buxari, Səlat, 5; Əbu Davud, Səlat, 77). Həcc və ümrə üçün ehramlı olanların da namaz qılacaqları əsnada çiyinlərini örtməlidir.

Namaz qılmaq istəyən qadınlar əl və üzdən başqa yerlərini örtməlidirlər.

İPƏKYOLU NƏŞRİYYATI

Namaz qılan zaman qadınlar başlarını örtməlidirlər. Hz. Aişədən (r.ənha) nəql olunan: *"Allah-Təala həddi-büluğ yaşına çatan qadının namazını hicabsız qəbul etməz"* (İbn Macə, Təharə, 132; Tirmizi, Səlat, 160) hədisi namaz qılarkən saçları daxil olmaq şərti ilə qadının örtünməli olduğunu ifadə edir. Yəni, örtülməli olan yerlər, əl, üz və topuqdan aşağı ayaqlar istisna olmaqla bütün bədənidir.

Topuqdan aşağı ayaqların qalan hissəsinin övrət olub-olmadığı isə İslam alimləri arasında mübahisəlidir. Maliki və Şafei alimlərinə görə azad qadınlar biləklərə qədər əl və üz istisna olmaqla bədənlərinin hər tərəfini örtməlidirlər. Nənəfi alimlərinə görə isə, bilələklərə qədər əllər və üzdən başqa topuqlardan aşağı ayaqlar da övrət yeri sayılmır.

Dərinin rəngini bəlli edən nazik paltarlarla övrət yeri örtülmüş sayılmaz. Bu şəkildə qılınan bir namaz səhih olmaz. Çünki, bununla hicab tamamlanmış olmur. Əgər geyinilən paltar qalın olmaqla birlikdə bədən əzalarını bəlli edəcək şəkildə dar olarsa, belə bir paltarla namaz qılan məzəmmət edilməklə yanaşı, namazı səhih olar. Çünki bunda məşəqqət vardır.

Sətri-övrətə riayət etmədən qılınan namazlar etibarsızdır. Bir şəxs qaranlıq bir evdə olsa belə, təmiz paltarı olduğu halda övrət yerlərini örtmədən namaz qılsa, səhih olmaz .

Geyinilməsi haram olan bir paltar ilə namaz qılmaq haramdır. Məsələn kişilər üçün ipək paltarı burada misal vermək olar. Geyinməyə başqa paltar olmazsa, belə haram paltar ilə namaz qılmaq olar. Geyinməyə heç paltarı olmayan bir şəxs çılpaq namaz qıla biləcəyi kimi, oğurlanmış bir paltar ilə də namaz qıla bilər. Çünki zərurət vardır. Bütün bədəni örtəcək qədər paltar yoxdursa, ilk öncə övrət bölgəsi örtülməlidir.

II. Əyin-baş alarkən diqqət edilməli olan məsələlər

Geyim alarkən aşağıdakılara diqqət edilməlidir:

Açıq-saçıq geyinmənin şeytanın yoldan azdırmaq üçün istifadə etdiyi bir metod olduğu unudulmamalıdır: **"Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas (və ya mal-dövlət) nazil etdik. Lakin təqva libası daha yaxşıdır (xeyirlidir). Bu, Allahın ayələrindəndir ki, bəlkə, (onunla) öyüd-nəsihətə qulaq asasınız. Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın..."** (Əraf, 7/26-27)

Allahın hüzuruna və cəmiyyətin içinə çıxanlar olanlar geyiminə diqqət etməlidirlər: **"Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin..."** (Ərəf, 7/31) ayəsi bunu ifadə etməkdədir.



BİLGİ QUTUSU

Müsəlman təmiz və səliqəli geyinməlidir: Rəsulullah (s.ə.s) belə buyurur: *"Şübhəsiz ki, Allah verdiyi nemətin əsər-əlamətini qulunun üzərində görməkdən xoşlanar"* (Tirmizi, Ədəb, 54).

Bir kişi saçı və saqqalı bir-birinə qarışmış halda Rəsulullahın yanına gəlmişdi. Peyğəmbərimiz (s.ə.s) belə buyurdu: *"Sizin şeytan kimi saçı-başı səliqəsiz gəlməsindən, daranaraq və səliqəli gəlməsi daha yaxşı olmazmı?"* (İmam Malik, Muvəttə, Şəar 7) Başqa birisini kirli bir paltarda görmüş və belə buyurmuşdur: *"Bu adam paltarını yuyacaq bir şey tapmadımı?"* (Əbu Davud, Libas 14; Əhməd ibn Hənbəl, "Müsnəd", 7/357)

Təkəbbürlənmək və riyakarlıq məqsədilə geyinilən paltarlar qadağan edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

Heyvan dərisindən tikilən paltarlara üstünlük verilməməlidir: heyvanların məhv edilməsinə qarşı olan İslam, vəhşi heyvanların öldürülərək dərilərinin paltar kimi istifadə edilməsini doğru qəbul etməmişdir. Buna görə də dəridən istehsal edilən paltarlar məkruh qəbul edilmişdir.

III. Qadının xarici geyimi və bu geyimin xüsusiyyətləri

İslam qadının naməhrəm olanlara qarşı örtünməsini əmr etmişdir. Evindən çölə çıxan qadınların övrət yerlərini örtmələri ilə yanaşı, cilbab (xarici geyim) geyməsi və başörtüyü taxmaları fərzdir.

Qurani-Kərimin "Nur" surəsinin 31-ci və "Əhzab" surəsinin 59-cu ayələri müsəlman qadınların naməhrəm kişilərə qarşı və evdən çölə çıxdıqlarında "öz-özlüyündən görünən yerlər"dən başqa bütün vücudlarını örtmələrini, baş örtüklərini sinələrinin üzərinə salmalarını, çölə çıxdıqlarında vücudu başdan ayağa örtən bir paltar geyinmələrini, bəzəklərini açıb göstərməmələrini, gizlətdikləri bəzək əşyalarının başqaları tərəfindən bilinməsi üçün diqqəti cəlb edən davranışlar göstərməmələrini tələb edir.

Qadının məhrəm və naməhrəm kişilərin yanında olarkən diqqət etməli olduqları daha bir neçə məsələ vardır. Bunlar aşağıdakılardır:

a) Paltar bədən görünməyəcək qədər qalın olmalıdır. Paltar bədənin rəngini bəlli etməməli və altını göstərməməlidir.

b) Paltar bədən xətlərini bəlli etməməlidir. Paltar əzaları bilinəcək qədər dar olmamalı və bədəni yanlardan örtəcək şəkildə olmalıdır.

c) Paltar bəzəkli olmamalı və diqqəti cəlb etməməlidir. Qadın bəzəkli və cəlbedici paltarları evdə əri üçün geyinməli, naməhrəm kişilərin yanında və evdən çöldə hicablı olmalıdır. Ancaq qarşı cinsin diqqətini çəkməyən təzə, səliqəli və təmiz paltarlar geyə bilər.

Allah Rəsulu (s.ə.s) bir hədisində "ərindən ayrılaraq dünya malına aldanan və cahillikdən irəli gələn bəzəklərə başı qarışan qadını Allahın soruğu-sual etmədən əbədi olaraq məhv edəcəyini" bildirir (Hakim, "Müstədrək", 1/119; Əhməd b. Hənbəl, "Müsnəd", 6/19).

Qadın vücud xətlərini və bədən üzvlərini bəlli edən dar bir paltar geyməməlidir. Üsamə ibn Zeyd belə demişdir: "Rəsulullah (s.ə.s) mənə "qutbi" deyilən incə və dar bir paltar hədiyyə etmişdi. Ona da "Dihyətül-Kəlbi" ərmağan olaraq göndərmişdi. Mən paltarı aparıb xanımıma verdim və o geyindi. Rəsulullah məni görəndə: "Nə üçün o qutbi paltarı geymə̇misən?"-deyə soruşdu. Mən də onu xanımıma verdiyimi bildirdim. Rəsulullah da: *"Qaç get altından bir köynək də geyinməsini de. Qorxuram ki, vücudun üzvləri bilinər",* (Məqdisi, "Muxtar hədislər", 1/441) - dedi.

İslam dinində qadınlara bəzi öhdəliklər verilmiş, ancaq bununla yanaşı bir sıra asanlıqlar gətirilmişdir. Heyz (aybaşı) və nifas (zahılıq) günlərində namaz, oruc və həcc ibadətlərində bir sıra asanlıqlar gətirilmişdir. Qadınlara cümə, bayram və cənazə namazlarını qılmaları və cihada getmələri fərz buyurulmamışdır. Qadının namazlarını evində qılması məsciddə qılmasından daha fəzilətli qəbul edilmişdir. Hər iki cinsin bir-birilərindən fərqləri mövcuddur və şübhəsiz ki, örtünmə əmri ilə məqsəd cəmiyyətdə baş verəcək fitnələrin qarşının alınmasıdır.

İPƏKYOLU NƏŞRİYYATI

IV. Qadının yerişində və danışığında vüqarlı olması

Qadınlar yerişlərinə diqqət etməli və başqalarının diqqətini cəlbedici tərzdə olmamalıdır. Ayədə belə buyurulur: **"... gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar..."** (Nur, 24/31).

Naməhrəm bir kişi ilə müxatəb olmaq məcburiyyətində qalan bir qadın ədəb, ciddilik, ağırbaşlılıq və utanma xislətlərini qoruyaraq danışmalıdır.

Qadınlar lazım gələrsə, kişilərdən nəyisə soruşa bilər və kişilərdən alış-veriş edə bilər. Səhabələrin xanımlarının kişilərlə lazım gəldiyində danışdıqları, alış-veriş etdikləri məlumdur. Rəsulullah (s.ə.s.) xanımı Sevdaya: *"Allah ehtiyaclarınızı təmin etmək üçün evdən çıxmağınıza icazə vermişdir"*, (Buxari, Nikah 115)-buyurmuşdur. Başqa bir hədisdə: *"Allahın xidmətçilərini (qadınları) Allahın məscidlərinə getmələrinə mane olmayın!"* (Müslüm, Salat 136)-buyuraraq qadınların elm, alış-veriş, toy, ibadət kimi haqlı səbəblərdən ötrü evdən çölə çıxa biləcəkləri ifadə edilmişdir.

Mömin bir qadın naməhrəm bir kişi ilə danışarkən diqqət etməli və ehtiyacı olan qədər danışmalıdır. Aəyədə belə buyurulur: **"...Buna görə də (yad kişilərə) yumşaq (əzilə-əzilə) danışmayın, yoxsa qəlbində mərəz (şəkk, nifaq və günah mərəzi) olan tamaha (özgə təmənnaya) düşər. (Danışdığınız zaman) gözəl danışın! (Allahın buyurduğu kimi, yaxud qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin!)"** (Əhzab 33/32) Bu ayədə Peyğəmbərin xanımlarının timsalında bütün müsəlman qadınlardan, naməhrəm kişilərlə danışdıqlarına diqqət yetirmələri, ciddi və lazımi qədər danışmaları tələb edilir.

TƏHLİL EDƏK

İslam dini bir qadın və kişinin bir-biri ilə görüşmələrinə bəzi məhdudiyyətlər qoymuş və qaydalar gətirmişdir. Cəmiyyətdə bunların hansına riayət etməkdə çətinlik yaşanır? Sinifdə diskusiya edərək bu mövzuda fikir mübadiləsi aparın.

V. Qarşı cinsə baxmaq

Mömünlərin başqalarının övrət yerlərinə baxmaları və görmək istəmələri haramdır. Bir müsəlmanın şəhvətlə baxa biləcəyi şəxs təkcə həyat yoldaşıdır.

Qadının və gənc kişilərin üzünə şəhvətlə baxmaq haram edilmişdir. İslam yolda və ya başqa yerlərdə qadınlarla qarşılaşarkən ilk baxışdan məsul tutmamışdır. Rəsulullah (s.ə.s.) Hz. Əliyə belə demişdir: *"Ey Əli çevrilib bir daha arxaya baxma, birinci baxış haqqındır, ancaq ikinci baxışa haqqın yoxdur!"* (Müslim, Ədəb, 45).

Kişi və qadın baxışlarına nəzarət etməlidirlər. Ayələrdə belə buyurulur: **"(...Ya Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar)..."**, (Nur, 24/30) **"Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar)..."** (Nur, 24/31).

Evlənmək niyyəti ilə bir qızın və ya qadının üzünə və əllərinə baxmaq olar. Peyğəmbərimiz (s.ə.s) evlənəcəyini deyən səhabəyə, qızı görüb-görmədiyini soruşmuş və görməsini tövsiyə edərək: *"Bu, bir-birinizə başa düşərək xoşbəxt olmağınız üçün daha münasibdir"*, (Nəsai, Nikah, 17) - buyurmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

VI. Qadın və kişinin bir-birinə əl verib görüşməsi

Qarşı cinsdən olan birisi ilə əl verərək görüşmək İslam dinində xoş qarşılanmamış və iki cins arasına bəzi məhdudiyyətlər qoyulmuşdur. Gənc və bir-birinə naməhrəm olan kişi və qadınların şəhvətdən arxayın olsalar belə, birbirilərinə toxunmaları caiz sayılmamışdır. Çünki bu davranışda şəhvət duyğularını hərəkət keçirmə ehtimalı vardır.

Qadınlardan beyət (söz, əhd) almanın əsaslarını müəyyən edən ayə nazil olanda, Allahın Rəsulu Mədinədə xanımları toplamış və onlardan beyət etmələrini istəmişdir. Hz. Aişə (r.ənha) bu beyətin mahiyyətini belə nəql edir: "Mömün qadınlardan ayədəki şərtləri qəbul edənə Hz. Peyğəmbər şifahi: *"Sənlə beyət etdim"*-deyirdi. Allaha and olsun ki, beyət edilərkən onun əli heç bir qadının əlinə dəyməmişdir" (Buxari, Əhkam 49, Şürut, 1).

Əgər fitnəyə səbəb olmayacaqsa, yaşlı qadınların əli hörmət əlaməti olaraq öpülə bilər. Buna görə də, Hz. Əbu Bəkrin yaşlı qadınlara əl verərək görüşdüyü və Abdullah ibn Zübeyrin (r.ə.) xəstələndiyi əsnada özünə xidmət etmək üçün yaşlı bir qadını xidmətçi tutduğu nəql olunmuşdur.

VII. Yataqları ayırmaq

Qız və oğlan uşaqları on yaşına çatdıqlarında ayrı-ayrı otaqlarda yatırılmalıdır. Bu, bir hədisi-şərifdə belə ifadə edilir: *"Uşaqlarınız on yaşına çatanda yataqlarını (otaqlarını) ayırın"* (Daraqutni, "Sünən", I, 230).

Uşaqlar yeddi yaşından kiçikdirsə, ailə fərdləri ilə eyni yataqda yata bilər. Ancaq yeddi yaşından sonra oğlan və qız uşaqlarınının eyni eyni yerdə yatmaları düzgün deyildir.

On yaşından sonra bu qadağa təkcə qarşı cinslə məhdud tutulmamışdır. Təkcə qızların oğlanlardan deyil, eyni zamanda qızların qızlardan və oğlanların oğlanlardan ayrılması lazımdır. Şübhəsiz ki, bunun çoxlu sayda hikmət və faydaları vardır. Əbu Səid əl-Xudridən bir rəvayətdə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Bir kişi başqa bir kişinin övrət yerinə baxmasın! Bir qadın da başqa bir qadının övrət yerinə baxmasın! Bir kişi başqa bir kişi ilə eyni yorğanda yatmasın! Bir qadın da başqa bir qadınla eyni yorğanda yatmasın!"* (Əhməd ibn Hənbəl, "Müsnəd", 372/1242).

VIII. Aralarında evlənmə maneəsi olmayan qadın və kişinin təkbaşına qalması

Bir qadın naməhrəm kişi ilə tənha bir yerdə təkbaşına qalmaqdan çəkinməlidir. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Naməhrəm qadının yanına getməkdən çəkinin"*.

Ey Allahın Rəsulu! Ərin qardaşı haqqında nə buyurursunuz? - deyə soruşulunca: *"Qaynı ölümdür"*, - buyurmuşdur (Tirmizi, Rəda, 16). Digər bir hədisdə də belə buyurulur: *"Kim Allaha və axirət gününə inanırsa, yanında məhrəmi olmayan bir qadınla təkbaşına qalmasın. Çünki, bu halda üçüncüləri şeytandır"* (Buxari, Nikah, 111). Eyni hədisin davamında Rəsulullah (s.ə.s) qadının yanında məhrəmi olmadan səfərə çıxmasını və yolçu olmasını da qadağan etmişdir.

Qadınların naməhrəm kişilərlə bərabər bir yerdə olmaları, sadəcə zərurət və ehtiyac olduqda icazə verilmişdir. İş səbəbi ilə bir kişinin yanına gedən bir qadın, görüşmənin təkbaşına olmamasına və danışarkən ədəb qaydalarına diqqət etməlidir. Ən yaxşısı, bir məhrəm əqrəbası ilə birlikdə və ya ictimai bir yerdə görüşməlidir.

İPƏKYOLU NƏŞRİYYATI

E. BƏZƏNMƏKLƏ BAĞLI HALAL VƏ HARAMLAR

İslam insanların yaradılışdan mövcud olan gözəlliklərini təbii olaraq ortaya çıxaran bəzəyi, rəng qoymağı, zinət əşyalarından istifadə etməyi və geyinməyi bəzi şərtlər daxilində mübah qəbul etmişdir. Ancaq fitrəti və yaradılışdan irəli gələn xüsusiyyəti dəyişdirmək mənasında bəzək, makiyaj və estetik əməliyyatları qadağan etmiş və bunları şeytan əməli saymışdır. Çünki, şeytan belə demişdi: **"...Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm!..."** (Nisa, 4/119).

İPƏKYOLU NƏŞRİYYATI

I. Kişilər üçün qadağan olunan bəzəklər

Kişilər qadın geyimi olan ipək paltar geyinməməlidir. Peyğəmbərimiz (s.ə.s) ipəyi kişilərə haram buyrumuşdur. Ancaq bir parçanın tərkibində cüzi miqdarda ipək olarsa, buna icazə verilir" (Nəsai, Ziynə, 84; Müslüm, Libas, 2).

Rəsulullah (s.ə.s.) belə buyurur: *"İpəkdən paltar geyməyin. Çünki ipəyi dünyada geyən axirətdə geyə bilməz"* (Buxari, Libas, 25).

Bir kişinin qızıldan üzük taxması haramdır. Əbu Musa əl-Əşəridən (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"İpək geymək və qızıl üzükdən istifadə etmək ümmətimin kişilərinə haram, qadınlarına isə halal edildi"* (Tirmizi, Libas, 1). Əli (r.ə) belə demişdir: "Rəsulullahı (s.ə.s.) gördüm, sağ əlinə ipəyi sol əlinə qızılı almışdı. Sonra da: *"Şübhəsiz, bu ikisi ümmətimin kişilərinə haram edilmişdir",*-buyurdu (Əbu Davud, Libas, 11).

İbn Ömərdən (r.ə) rəvayətə görə, Rəsulullah (s.ə.s) qızıldan bir üzük düzəltdirib taxmışdı. Bunu görən hər kəs qızıl üzük düzəltdirdi. Bunun müqabilində Rəsulullah (s.ə.s): *"Bu üzüyü taxırdım, ancaq bundan sonra onu heç vaxt taxmayacağam"*-deyərək çıxarıb atdı. Səhabələr də Rəsulullaha (s.ə.s.) tabe olaraq üzüklərini çıxarıb atdılar (Müslim, Libas, 3; Əbu Davud, Xatəm, 3).

Hz. Əlidən (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah qızıl üzükdən istifadə etməyi, qızıldan bəzəkləri olan döşəklərdə oturmağı, ipək paltar geyməyi və şərab içməyi qadağan etdi" (Əbu Davud, Libas, 11; Müslim, Libas, 2).

II. Döymə etdirmək, dişlərin formasını dəyişdirmək, qaş aldırmaq və estetik əməliyyat

İynə batıraraq açılan deşiklərə rəng töküb edilən döymə və diş minasını yonmaqla edilən estetik əməliyyatın sağlamlıq üçün nə qədər zərərli olduğu məlumdur.

Abdullahdan (r.ə.) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s.) döymə edən və etdirən, gözəl görünmək üçün qaşlarını alan və dişlərini incəldib formasını dəyişdirənləri lənətləmişdir (Buxari, Libas, 83; Müslim, Libas, 2).

Tibbi və estetik baxımından normal və sağlam olan dişləri, dəbə görə dəyişdirmək üçün sökdürüb təzədən düzəltdirmək caiz deyil. Əbu Reyhanədən (r.ə.) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) dişləri incəldib cəlbedici hala salmağı, müxtəlif orqanlara döymə etdirməyi və qaşları incəldərək cəlbedici hala salmağı haram buyurdu (Buxari, Libas, 87; Müslim, Libas, 33).

Çıxarılann dişin yerinə yeni diş taxdırmaq, çürüyən dişi müalicə etdirmək qadağan deyil. Bunlar, dəstəmaz və qüsl almağa da mane deyil.

Qaş aldırmaq, qaşın tüklərini yonaraq həddindən artıq incəltmək və qaşın formasını dəyişdirməklə edilir. Bu, xilqəti dəyişdirmək mahiyyətindədir. Ancaq qadının üzündə bitən qılları aldırması və ərinin icazəsi ilə həddini aşmamaq şərtilə bəzənmək bəzi İslam alimlərinə görə caiz hesab olunmuşdur. İmam Nəvəvi də bunu caiz hesab edənlər arasındadır.

Çoxlu pul xərcləyərək burun, çənə, döş kimi əzaların formasını dəyişdirməkdən ibarət olan estetik əməliyyatı, yuxarıda qeyd edilən hədislərin əhatə dairəsinə daxil olduğu aydın olur. Ancaq insanı kompleksə salan, cəmiyyət içində utanmasına və mənəvi işgəncə çəkməsinə səbəb olan bir nöqsanlıq olarsa, bunun aradan qaldırılması müalicə mahiyyətindədir. Peyğəmbərimiz (s.ə.s) gözəllik məqsədi ilə dişlərini seyrəldənləri lənətləmişdir (Buxari, Libas, 82, 84; Müslim, Libas, 120). Burada keçən "gözəllik məqsədi ilə" şərti, bir ehtiyac səbəbi ilə edilən əməliyyatları istisna edir.

İPƏKYOLU NƏŞRİYYATI

III. Parik qoymaq və qaynaq etdirmək

Parik taxmaqla həm təbii forma dəyişdiyi, həm də qarşısındakını aldatdığı üçün İslam bunlara yaxşı baxmamışdır.

Rəsulullahın qadağan etdiyi və lənətlədiyi şeylərdən birisi də saçı tökülən və ya tökülməyən şəxslərin başlarına parik taxmalarıdır (Buxari, Libas, 83, 85; Müslim, Libas, 115, 117, 119). İbn Ömərdən (r.ə.) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Saçını qaynaq edən və etdirən, döymə edən və etdirənə Allah lənət etsin, yəni mərhəmətindən uzaqlaşdırsın"* (Əbu Davud, Tərəccül, 5; Nəsai, Ziynə, 22).

Saçı tökülən bir şəxsin müalicə məqsədi ilə öz saçlarından alınaraq saç əkdirməsi müalicədir və caizdir.

İPƏKYOLU NƏŞRİYYATI

IV. Sürmə çəkmək və ətir sürtmək

İbn Abbasdan (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s.) belə buyurmuşdur: *"İsmid deyilən sürmə daşı ilə sürmə çəkin. Çünki o gözləri daha parlaq edər, kirpikləri də qidalandırar"*. İbn Abbas Peyğəmbərin (s.ə.s) bir sürmə qutusu olduğunu, hər gecə üç dəfə sağ gözünə, üç dəfə də sol gözünə sürmə çəkdiyini bildirmişdir (Nəsai, Ziynə, 28).

Qadın evdən çölə çıxarkən diqqəti cəlb edən qoxulardan istifadə etməməlidir. Çünki bütün alimlər həcc və ümrə edərkən ehrama girən şəxsin ətirlərdən istifadə etməsinin caiz olmadığı məsələsində icma etmişlər.

İPƏKYOLU NƏŞRİYYATI

V. Saç və saqqala rəng qoymaq

Peyğəmbərimizin (s.ə.s) dövründə yəhudi və xristian qocalar ağaran saç və saqqallarına rəng qoymazdılar. Onlara bənzəməmək üçün yaşlı səhabələr rəng qoymağa təşviq edilmişdilər (Buxari, Ənbiya, 50; Libas, 67; Müslim, Libas, 80).

İslam saça rəng qoymağı caiz hesab etmiş, ancaq kişilərin saçlarını qara rənglə boyamasının caiz olub-olmadığı haqqında alimlər ixtilaf etmişlər. Qadınların qara rənglə saçlarını boyamaları ümumiyyətlə caizdir. Əbu Hüreyrədən (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Ağaran saç və saqqalınızın rəngini xına ilə boyayaraq dəyişdirin. Dəyişdirməyib ağappaq saç və saqqalınızla yəhudilərə bənzəməyin"* (Nəsai, Ziynə, 65; Əbu Davud, Təaccül, 18).

Xına qırmızısı və qırmızı-qara qarışığı təbii bitki boyaları ilə boyamağın caiz olduğunda alimlər həmfikirdir. Rəsulullahın (s.ə.s) kafirlərə bənzəməmək üçün saç və saqqalı boyama əmri "təşviq" mahiyyətində başa düşülmüşdür. Bu səbəbdən Hz. Əbu Bəkr və Hz. Ömər (r.ənhüma) kimi səhabələr saç və saqqallarını boyamış, Hz. Əli, Übey, Ənəs (r. ənhum) kimi səhabələr isə saç və saqqallarını boyamamışlar.

VI. Qarşı cinsə bənzəməyə çalışmaq

Qadın və kişinin geyimləri qarşı cinsin geyimlərinə bənzəməməlidir. Qadın kişiyə, kişi də qadına bənzəməyə çalışmamalıdır. Hər iki cinsin özünə məxsus xüsusiyyətləri və buna uyğun geyimləri vardır. Qarşı cinsə bənzəməyə çalışmaq psixoloji xəstəlik və əxlaqi pozğunluqdur.

Allahın Rəsulu geyim, fiziki qurluşu və davranışları ilə kişiyə bənzəməyə çalışan qadına və qadına bənzəməyə çalışan kişiyə lənət etmişdir. Hədislərdə belə buyurulur: *"Qadınlardan kişilərə bənzəyənlər, kişilərdən də qadınlara bənzəyənlər bizdən deyil"* (Buxari, Libas, 61).

Abdullah ibn Abbasdan (r.ə) belə nəql olunmuşdur: "Hz. Peyğəmbər (s.ə.s) kişiləşən qadınlarla, qadınlaşan kişiləri lənətlədi və onların evlərdən çıxarılmasını əmr etdi" (Buxari, Libas, 61).

Abdullah ibn Ömər Allahın Rəsulunun (s.ə.s) belə buyurduğunu nəql etmişdir: *"Üç şəxs vardır ki, cənnətə girə bilməz və qiyamət günü Allah onlara mərhmət nəzəri ilə baxmayacaqdır. Bunlar ana-atasının sözünə baxmayan, kişilərə bənzəməyə çalışan qadın və həyat yoldaşını qısqanmayan ərdir"* (Əhməd ibn Hənbəl, II, 134).

F. EV ƏŞYASI İLƏ ƏLAQƏDAR HALAL VƏ HARAMLAR

Hər canlının bir yuvası, bir məskəni vardır. İnsanın yuvası da evidir. Peyğəmbərimiz (s.ə.s): *"Dörd şey xoşbəxtlik vasitələrindəndir: Yaxşı həyat yoldaşı, geniş ev, yaxşı qonşu və rahat minik vasitəsi"*, (İbn Hibban, "Səhih") - buyuraraq evin insan həyatındakı əhəmiyyətini vurğulamışdır. **"(Ya Peyğəmbərim!) De: Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?"** (Əraf, 32) ayəsi evin çiçəklər və naxışlarla bəzədilməsinə icazə verir.

Rəsulullah (s.ə.s): *"Qəlbində zərrə qədər kibr olan şəxs cənnətə girə bilməz"*,-deyəndə bir nəfər də: "Əgər paltarının və ayaqqabılarının yaxşı olmasından xoşlanırsa necə?" - deyə soruşmuş, Peyğəmbərimiz də bunun müqabilində: *"Şübhəsiz, Allah gözəldir, gözəl olanı da sevər"*, (Müslim, İman 147) - buyuraraq cavabını vermişdir. Ancaq bu icazələr və təşviqlər ümumi mənada deyil, bəzi məhdudiyyətləri də vardır:

1. Qızıldan və gümüşdən qablar, ipəkdən palazlar

Səhabədən Hüzeyfə belə deyir: "Rəsulullah (s.ə.s) bizim qızıl və gümüş qablardan yeyib-içməyimizi, ipək geyməyimizi və ipək palaz üzərinə oturmağımızı qadağan edib belə buyurdu: *"Bunlar dünyada onlar (kafirlər), axirətdə isə bizim üçündür"* (Buxari, Əşribə, 28). Bu hədis qızıl və gümüşün ev əşyası, ipəyin də palaz və başqa şey kimi istifadə edilməsinin kişi və qadın olmaqla bütün müsəlmanlara haram etmişdir. Çünki iqtisadi baxımdan qiymətli olan metalların dövriyyədən götürərək evdə bir əşya kimi saxlanılması cəmiyyət üçün zərərlidir.

2. Heykəl

Hz. Peyğəmbərimiz (s.ə.s) buyurmuşdur: *"İçində heykəllər olan evə mələklər girməz"* (Buxari, Bədül-xəlq, 7); *"Qiyamət günü əzabı ən şiddətli olanlardan biri də bu insan surətlərini düzəldənlərdir"* (Buxari, Ədəb, 75). Bu kimi hədislər müsəlmanın evində heykəl saxlamasına və heykəl düzəltməsinə qadağa qoymuşdur. Bunların haram edilməsinin hikməti və səbəbinə gəlincə aşağıdakıları qeyd edə bilərik.

a) Müxtəlif dövrlərdə insanlar heykəllərə sitayiş etmişlər. İnsanların zehinlərindəki bu xatirələrini silərək tövhid inancını güvvətləndirmək;

İPƏKYOLU NƏŞRİYYATI

b) Heykəltaraşın yaratma duyğusu kimi insana xas olmayan duyğu və düşüncələrə dalaraq günaha girməsinin qarşısını almaq;

c) İslama zidd olan şeylərin heykəlləşdirilməsinin qarşısını almaq;

d) Faydasız və israf olan yaşayış tərzinin qarşısını almaq;

Uşaqların oynadığı gəlincik, heyvan və başqa oyuncaqlar heykəl mahiyyətində olmadığı üçün caiz sayılmışdır. Məhz buna görə də, Hz. Aişənin evliliyin ilk vaxtlarında uşaqlıq dostları ilə bu cür oyuncaqlarla oynadığına Rəsulullah görmüş və təsvib etmişdir (Müslim, Ədəb, 54).

İPƏKYOLU NƏŞRİYYATI

3. Rəsm

Rəsulullah (s.ə.s) əvvəllər tövhid inancı qəlblərə yerləşincəyə qədər rəsm haqqında diqqətli davranmış və daha sonrakı dövrlərdə isə təhlükəsi olmadığı məsələlərdə rüxsət vermişdir.

İslam dini, rəsm çəkmək haqqında rəsmin mövzusuna, rəssam və ya rəsmdən istifadə edənin məqsədinə və istifadə etdiyi yerə görə müxtəlif hökmlər qoyur:

- İbadət və sitayiş olunan şeylərin rəsmlərini çəkmək və bunlardan istifadə etmək haramdır.
- İslam ədəb və əxlaqına zidd olan çılpaq, qeyri-əxlaqi insan və başqa rəsimləri çəkmək və istifadə etmək qadağandır.
- Canlı olmayan varlıqların rəsmlərini çəkmək və istifadə etmək caizdir. Məhz buna görə də, İbn Abbas bir rəssama rəsm çəkmənin qadağan olduğunu nəql etdikdən sonra belə demişdir: "Mütləq rəsm çəkməlisənsə, o zaman ağacların və bunun kimi ruhu olmayan varlıqların rəsmini çəkməlisən".

Hədislərin bəzilərində Peyğəmbərimizin (s.ə.s.) canlı varlıqların şəkillərini ehtiva edən rəsmlərin çəkilməsini təsvib etmədiyini, bəzilərində isə xüsusilə ayaq altında istifadə edilməsi kimi hörmət əlaməti daşımayan palaz, xalça kimi əşyaların üzərində icazə verdiyi bildirilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

4. Fotoşəkil

İslam alimləri şəxsiyyət vəsiqəsi və pasport kimi səbəblərə görə fotoşəkildən istifadə etməyin və çəkdirməyin bir ehtiyac (zərurət) olduğunu nəzərə alaraq caiz fitvasını vermişlər.

İslamda fotoşəkil çəkməyin və istifadə etməyin hökmü rəsmdə olduğu kimi fotoşəklin mövzusuna və fotografçının fotoşəkli çəkməkdəki məqsədinə görə dəyişir. Qadağan olan şeylərin fotoşəklini çəkmək də qadağandır.

Mövzusunun və məqsədinin əhəmiyyətini qorumaq şərtilə insan, heyvan və təbiət fotoşəkillərinin çəkilməsi və istifadə edilməsi mümkündür.

Qeyri - əxlaqi və ibadət edilən müqəddəs varlıqların fotoşəkillərinin çəkilməsi haramdır.

İPƏKYOLU NƏŞRİYYATI

5. İt saxlamaq

Rəsulullah (s.ə.s.) belə buyurur: *"Ov etmək, tarla, həyət, heyvan qorumaq məqsədi ilə saxlanılan itlər istisna olmaqla, it saxlayanların savablarından hər gün bir savab azalar"* (Buxari, Zəbaih, 6). İtin olduğu evə mələyin girmədiyini bildirən hədislər (Buxari, Bədül-xəlq, 7, 17) yuxardakı hədisə əlavə edildikdə çıxan nəticə budur: Qorunmaq və ovlanmaq kimi bir ehtiyac varsa it saxlamaq olar. Evin içində it saxlamağı isə İslam dini qadağan etmişdir.

Bununla yanaşı, hər bir canlıya mərhəmət edilməlidir. Bir su quyusunun başında susuzluqdan ölmək üzrə olan bir itə su verən günahkar qadının ilahi əfvə nail olduğunu Rəsulullah xəbər vermişdir (Buxari, Şürub, 9).

G. ƏYLƏNCƏ VƏ VAXTIN SƏMƏRƏLİ KEÇİRİLMƏSİ İLƏ BAĞLI HALAL VƏ HARAMLAR

İslam dini fitri, yəni insanın yaradılışından irəli gələn ehtiyaclara uyğun olan bir dindir. İnsanın ehtiyacları arasında istirahət etmək, sevinmək də var. Bütün həyatlarını ibadətlə keçirən, qidaları belə ibadət olan varlıqlar mələklərdir.

Mədəmiz yemək, içmək istədiyi kimi, gözümüz gözəl şeylərə baxmaq, qulağımız da yaxşı səsləri eşitmək istəyir. Necə ki, yemək yeməyi qadağan etmək mümkün olmadığı kimi, insanın istək və arzularını tamamilə qadağan etmək də və ya tamamilə sərbəst buraxmaq da mümkün deyil. İslam dini də bu yolu tutmuş, əsil məqsədə, yəni nəfsin tərbiyəsi, əmr və qadağalara rəayət etməklə bağlı prinsiplərinə zərər verməyən əyləncələri mübah saymışdır.

1. Musiqi

Musiqi (səma) qadın və ya kişi tərəfindən səs və alət (çalğı) ilə ifa edilən bir incəsənət növüdür.

Musiqi haram işlərə alət edilmədiyi təqdirdə mübahdır. Ancaq oxuyan şəxsə, oxunan mahnıya, musiqinin ifa olunduğu alətə, yerə və qulaq asan şəxslərə görə haram, məkruh, mübah və müstəhəb kimi müxtəlif hökmləri ola bilər. Musiqini haram və ya məkruh edən şey onun özündən deyil, musiqinin xaricində olan başqa səbəblərə görədir.

Musiqi ifa etmək

Musiqi ilə məşğul olmağı və ifa etməyi peşə kimi seçmək məkruh qəbul edilmişdir. Musiqili tədbir və yığıncaqlar İslamın başlanğıcından etibarən xoş qarşılanmamışdır. Hədislərdə bir çox musiqi aləti tənqid edilmiş və ümumiyyətlə musiqi ilə məşğul olanlar şeytana bənzədilmişdir. Bununla yanaşı bu cür hədislər hədis alimləri tərəfindən zəif qəbul edilmişdir.

İslam alimləri içki məclislərinin simvolu halına gələn musiqi alətlərinin haram olduğunu, ancaq müalicə, dinlənmək və başqa məqsədlərlə ney, nağara və qaval kimi musiqi alətlərindən istifadə olunmasının mümkün olduğunu bildirmişlər. Müharibədə vurulan kos ilə toylarda çalınan qabaldan istifadə edilməsinə fəqehlər icazə vermişlər.

Rəsulullahın (s.ə.s) toy və bayram kimi səbəblərə görə çalınan musiqini təsvib etdiyi, toylarda bunu təşviq etdiyi səhih rəvayələrə istinad edilir. Bundan əlavə İslam alimləri hər hansı bir harama vasitə və alət edilməyən saz alətlərinin və səs musiqisinin haram edildiyinə dair səhih rəvayətlərin olmadağını bildirmişlər.

Musiqi ilə məşğul olmaq başqalarının qulaq asması üçün deyil, özünün dinlənməsi və tənhalığının unutdurulması üçün edilərsə, caizdir. İmam Əbu Yusifdən toy

İPƏKYOLU NƏŞRİYYATI

məclisi istisna olmaqla, qaval çalıb-oynamaq haqqında soruşulan suala, ifrata varmamaq şərtilə caiz olduğunu bildirmişdir.

Mahnı oxumaq

Ümumiyyətlə, çox vaxt mahnın sözlərində faydalı nəsihətlərin yer almadığı, qədərə üsyan kimi İslam əqidəsinə zidd olan sözlərin yer aldığı müşahidə olunur. Əgər mahnını oxuyan şəxs söz, musiqi və davranışlarında İslami prinsiplərə diqqət edərsə, hökmü mübah olar.

Mahnının musiqisi yazılarkən insanları şəhvətə, nifrətə və başqa hislərə aparan musiqidən istifadə edilməməlidr. Hədislərdə xüsusilə insanları coşduran, oynamağa sövq edən musiqilər tənqid edilmişdir.

Musiqi, əgər içki məclisi kimi pis bir məclisdə ifa edilərsə, burada mahnı oxumaq, musiqi alətində ifa etmək haram qəbul edilmişdir. Belə bir məclisdə iştirak etmək təsvib edilməmişdir.

Mahnıya qulaq asmaq

Musiqiyə qulaq asan şəxsə görə musiqinin hökmü haram, məkruh, mübah və müstəhəb ola bilər.

1) Müğənninin geydiyi paltar, söz, səs və musiqisi ilə şəhvət duyğularını hərəkət keçirən və xüsusilə də qadın müğənni tərəfindən oxunan mahnılara qulaq asmaq haramdır.

2) Bütün boş vaxtları ibadət, elm və ya faydalı bir məşğuliyyət yerinə musiqiyə qulaq asaraq keçirmək məkruhdur.

3) İnsana rahatlıq verən bir musiqiyə qulaq asmaq mübahdır. Buna əsaslanaraq deyə bilərik ki, gözəl səsdən zövq almaqdan başqa bir şeyi düşünməyən və hiss etməyən şəxslər üçün musiqiyə qulaq asmaq mübahdır.

4) Allah, peyğəmbər, vətən, insan, heyvan və təbiət sevgisini aşılayan, insanları kövrəldən, kasıbları və məzlumları xatırladan, müharibə əsnasında müsəlmanları coşduran müsiqilərə qulaq asmaq müstəhəbdir. Buna istinadən deyə bilərik ki, Allah sevgisi ilə dolub daşan, duyduğu gözəl səs nəticəsində gözəl sifətləri xatırlayan şəxslər üçün musiqiyə qulaq asmaq müstəhəbdır.

2. Kino və televizya

Kino və televiziya həm gözə, həm də qulağa xitab edən mühüm bir təlim-tərbiyə və əyləncə vasitəsidir. Kino və televiziyanın özlərinə haram demək mümkün deyildir. Onlarda göstərilən və insanlara çatdırılan veriliş və tamaşalara baxaraq hökm vermək lazımdır.

Televizya və kinoteatrlardakı ümumi vəziyyəti nəzərə alaraq deyə bilərik ki, İslam əqidəsinə, əxlaqına və əhkamına zidd reklamlar, filmlər, tamaşalar göstərilən və təbliğatı aparılan televiziya verilişləri və kinoların seyr etmənin caiz olmadığı açıq-aşkardır. Əxlaq və ədəbə zidd olan verilişlərlə qarşılaşmamaq üçün, bu cür verilişlərə yer verən telekanallara mümkün olduğu qədər baxmamaq, istirahət və əylənmək məqsədi ilə olsa belə, İslam ailə anlayışına və əxlaqına münasib veriliş və proqramlara yer verən, xəbərlər verən telekanalları seyr etmək lazımdır.

Televiziya və kinoteatrları yaxşı, doğru və gözəl olanı göstərmək və insanları səhv məlumatlardan uzaq tutmaq məqsədi ilə istifadə etmək müsəlmanların vəzifələrindəndir.

3. Zarafatlaşmaq

Lətifə, zarafat, satirik yumor insanları sevindirən, güldürən, əyləndirən söz sənətidir. Peyğəmbərimiz (s.ə.s) lazım gəldiyində lətifə danışmış və zarafat etmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

Yaşlı bir qadın Rəsulullahın yanına (s.ə.s) gələrək: "Məni cənnətə qoyması üçün Allaha dua et!"- demişdi. Peyğəmbərimiz də: *"Ey filənkəsin anası! Cənnətə yaşlı qadın girə bilməz",* - buyurmuş, qadın da cənnətə heç vaxt girə bilməyəcəyini zənn edərək kədərlənmiş və ağlamışdı. Qadının bu halını görən Peyğəmbərimiz, ona dediyi sözlə məqsədinin nə olduğunu açıqlayaraq: *"Yaşlı qadın cənnətə yaşlı halda girə bilməyəcək. Allah onu yenidən yaradaraq gənc və bakirə olaraq girəcəkdir",* - buyurdu və ona bu ayəni oxudu: **"Şübhəsiz ki, Biz onları (huriləri) başqa cür (yeni bir yaradılışla, doğulmadan) yaradacağıq! Onları bakirə qızlar,** Ərlərini sevən, həmyaşıdlar edəcəyik" (Vaqiə, 56/35-37).

Zarafat edən şəxs heç kəsə lağ etməməli və qüruruna toxunan sözlər deməməlidir. (Hücurat, 49/11).

Başqalarını güldürmək üçün yalan danışmamalıdır. *"Yanındakılar gülsün deyə yalan danışanların vay halına, vay halına"* (Tirmizi, Zühd, 10).

4. İdman müsabiqələri

Qaçış: Qaçaraq yarışmaq bir idmandır. İdmanın ciddi mənada faydaları olmaqla yanaşı, yarışda iştirak edənlər və seyr edənlər üçün də əyləndirici tərəfi vardır. Səhabələr öz aralarında qaçışda yarışardılar. Hz. Əlinin yaxşı bir qaçışçı olduğu rəvayət olunmuşdur. Peyğəmbərimiz (s.ə.s) xanımı Aişə (r.ənha) anamızla yarışdığı, ilk yarışmada Hz. Aişənin, ikincisində isə Hz. Aişə artıq kökəldiyi üçün Rəsulullahın qaib gəldiyini, hafizəsində bu yarışı bir xatirə olaraq saxlayan Hz. Aişə tərəfindən rəvayət edilmişdir.

Günümüzdə məşhur və əsasən qaçışdan ibarət olan futbol, basketbol kimi idman oyun və yarışları əsnasında idmançıların geyindiyi paltarlara diqqət etmək şərti ilə mübah saymamaq mümkün deyildir. Ancaq bir komandanın tərəfdarlarının zaman-zaman qarşı komandanın tərəfdarlarına təhlükəli hərəkət və davranışlar nümayiş etdirəcək qədər azarkeş olması caiz sayılmamışdır.

Atıcılıq müsabiqəsi: Həm müharibəyə hazırlıq, həm də boş vaxtları səmərəli keçirmək məqsədi ilə atıcılıq müsabiqələri Hz. Peyğəmbər (s.ə.s) tərəfindən təşviq edilmişdir. O (s.ə.s), bu təlim yarışmalarında iştirak edənlərlə qarşılaşanda *"Gəlin atın, mən də sizinlə bərabərəm",* (Buxari, Cihad 78; Mənaqib, 4) - deyərək onları həvəsləndirərdi. Bu mövzuda gətirilən məhdudiyyət təkcə canlı hədəflərlə əlaqədardır. Canlıları hədəf alaraq keçirilən müsabiqələr dinimizdə doğru qəbul edilməmişdir.

Heyvan döyüşdürmək: İslamdan öncə mövcud olan və günümüzə qədər davam edən adətlərdən birisi də xoruz, it və öküz kimi heyvanları döyüşdürərək seyr etmək və əylənməkdir. Zövq almaq və əylənmək məqsədi ilə heyvanları döyüşdürərək əziyyət etməkdən ibarət olan bu adət Peyğəmbər (s.ə.s.) tərəfindən qadağan edilmişdir.

Qılınc, qalxan və nizə oynatma oyunu: Müsəlmanlar bəzi vaxtlarda milli adətlərindən olan nizə oyunları və rəqsləri edərdi. Bir dəfə Hz. Ömər bunu qadağan etmək istəmişdi. Hz. Peyğəmbər (s.ə.s.) də Hz. Ömərə: *"Dəymə, oynasınlar",*- demişdi.

Rəsulullah (s.ə.s.): *"Ey Həbəşlilər! Göstərin özünüzü",* (Müslim, İydeyn, 17, 21) - deyərək qılınc-qalxan oyunu oynayanları həvəsləndirmişdir. Hz. Peyğəmbərin özü Hz. Aişənin baxmasını təklif etmiş, bu əsnada kişilərin görməməsi üçün də ridası ilə onu örtmüş və birlikdə seyr etmişdilər. Fitri təmayülü diqqətə alan Allahın Rəsulu (s.ə.s): *"Əylənməyə meyilli olan gənc qızların halını təqdir edin, anlayışı olun"* (Buxari, Nikah, 82) - buyurmuşdur.

İPƏKYOLU NƏŞRİYYATI

Güləş: Hz. Peyğəmbərin (s.ə.s.) təşviq etdiyi idman və əyləncələr arasında güləş də vardır. Peyğəmbərimiz kürəyi yerə dəyməyən pəhləvan Rükanə ilə üç dəfə güləşmiş və onu məğlub etdiyi rəvayət edilmişdir.

Minicilik və üzmə: *"Allahı zikr etmənin xaricində hər şey əyləncə və qəflətdir. Ancaq üç şey bundan istisnadır. Bunlar bir adamın hədəfə qədər gedib gəlməsi (atıcılıq), həyat yoldaşına yaxınlaşması və üzməyi öyrənməsidir",* - buyuran hədis minicilik və atıcılığı təşviq etməkdədir.

Peyğəmbərimiz bir hədisi-şərifdə: *"Uşaqlarınıza uzgüçülüyü və atıcılığı, qadınlarınıza da ip əyirməyi öyrədin",* - buyurmuşdur. Hz. Ömər də Şam xalqına yazdığı məktubda: "Uşaqlarınıza üzməyi, atıcılıq və miniciliyi öyrədin", - deyə tövsiyə etmişdir.

Peyğəmbərimizin at yarışlarını təşkil etdirdiyi və birinci olana qazanana hədiyyə verdiyi rəvayət edilmişdir.

Nərd: *"Nərd oynayan əlini donuzun ətinə və qanına batırmış kimi olar"* (İbn Macə, Ədəb, 43); *"Nərd oynayan Allah və Rəsulunun əmrini dinləməmiş olur"* (Əbu Davud, Ədəb, 56) kimi hədislərə əsaslanaraq alimlər nərdin haram olduğu hökmünü mənimsəmişlər. Bəzi din alimləri isə bu hədislərin qumar məqsədi ilə oynanılan nərd oyununa aid olduğunu, qumarsız nərd oynamanın isə caiz olduğunu söyləmişlər. Kart və başqa kağız oyunları da nərd kimidir. Bunlar vərdiş halına gətirilməməli və qumara alət edilməməlidir.

Şahmat: Şahmat səhabə dövründən etibarən İslam dünyasında tanınmış və hökmü haqqında ixtilaf yaranmışdır. Şahmatı haram saymaq üçün səhih bir dəlil yoxdur. Digər mübah oyunlar kimi bunun da caiz olması aşağıdakı şərtlərə bağlıdır:

a) Oyuna başı qarışıb namazın vaxtını keçirməmək;

b) Qumara alət etməmək;

c) Oyun əsnasında dilini pis sözlərdən qorumaq;

Yarışlarda mükafatlar: Yarışlarda müvəffəqiyyət qazanan iştirakçılara üçüncü şəxs və ya müəssisə tərəfindən mükafatın verilməsi caizdir. Verilən mükafatı almaq da mübahdır.

İki şəxsin: "Əgər sən qalib gəlsən, sənə bu qədər pul verəcəm, yox, əgər mən qalib gəlsəm səndən heç bir şey almayacağam" şəklində birtərəfli şərt ilə edilən yarışlar caizdir. Bu şəkildə birtərəfli şərt qoşmaq haram olmadığı üçün, şərtə görə qalib gələn tərəfin şərt qoşulan mükafatı alması da haram deyildir. Ancaq ikitərəfli olması qətiyyətlə caiz deyil.

Elmi və interaktiv yarışlar da belədir. Əgər iki şəxs elmi bir məsələdə mübahisə etsələr və bunlardan biri digərinə: "Məsələ sənin dediyin kimi olsa, mən sənə bu qədər pul verəcəm, yox əgər mənim dediyim kimi olarsa, heç bir şey istəmirəm", - deyərək şərt qoşsa, bu caiz olar. Birtərəfli şərtlərdə mükafat olaraq vəd edilən pulu almaq caizdir.

Yarışlarda hər iki tərəf üçün də mükafat şərt qoşularsa yəni, yarış iştirakçılarından biri digərinə: "Mən qazansam, sən mənə, yox, əgər sən qazansan, mən sənə bu qədər pul vercəyəm", - deyərək edilən ikitərəfli qoşulan şərtlər qumar və haramdır.

5. Qumar

İslam qumarı qadağan edərkən bəlli bir şəkli qəsd etməmiş, məna və nəticəni əsas almışdır. Oynanılan alət və oyundan asılı olmayaraq qalibin əvvəlcədən bilinməməsi və sonunda tərəflərdən birinin qazanc əldə etməsi, digər tərəfin isə ziyana düşməsi qumardır.

"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla

İPƏKYOLU NƏŞRİYYATI

aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?" (Maidə, 5/90-91) ayəsi qumarı həm haram edir, həm də bu hökmün hikmətlərini sadalayır:

a) Qumar haqsız bir qazanc yoludur. Başqasının malını hiylə və aldatmaqla almaq qarşılıqlı razılıq belə olsa haramdır.

b) Uduzan udana ödədiyi məbləğə razı olsa belə, ürəyində üzülür və oyunu udana qarşı kin, düşmənçilik hiss etməsi şübhəsizdir.

c) Qumar ibadətlərə mane olar. Uduzan qazanmaq, udan isə bu sevinci təkrar yaşamaq üçün təkrar oynayar və bunun nəticəsində də qumarbaz olar.

d) Qumarın zərərləri təkcə fərdə deyil, cəmiyyətə də dəyir. Cəmiyyətdə istehsal fəaliyyəti olmayan, işsiz, avara, qumar oynamaqla vaxtını keçirən insanların çoxalmasına səbəb olar. Müsəlman həyatını və qazancını təsadüflərə deyil, aldığı tədbirlərə və çəkdiyi zəhmətin nəticəsinə bağlamalıdır.

Şansa bağlı olan oyunlar, lotereyalar, at yarışları, mərclər ilə, bu oyunların onlayn olanları da qumardır. Bunlar internet və başqa vasitələrlə daha böyük toplum və qrupların cəlb olunduğu qumar oyunlarıdır və qumarın bütün ünsürlərini daşıyır. Bu tərz qumar gəlirlərindən bəzi xeyriyyəçi cəmiyyətlərin faydalanması, bu cür oyunların təşkil edilməsi baxımından İslama görə bir üzr qəbul edilə bilməz.

Püşk atmanın hökmü: Püşk, hər hansı bir məsələdə tərəflərarasında birininin digərinə nəzərən seçilməsi ilə bağlı hər hansı bir səbəbin və üstünlüyün olmadığı hallarda müraciət edilən halal olan bir həlli yoludur.

Püşk atmaq Quran və Sünnə dəlillərinə əsaslanır. Qurani-Kərimdə keçmiş peyğəmbərlərin də bir qisminin içində yer aldığı bəzi mübahisələrin püşk atmaqla həll edildiyi haqqında məlumat verilmişdir.

Gündəlik həyatımızda da bir çox məsələnin həll edilməsi üçün püşk atma yoluna müraciət edildiyi bir həqiqətdir. Dəvə, inək kimi böyük baş heyvanları şərikli qurban kəsənlər, ətləri şəriklər arasında tərəzi ilə çəkərək yeddi yerə bölərlər. Daha sonra da bölüşdürülən payların kimə hansının düşəcəyini müəyyən etmək üçün aralarında püşk atarlar və halallaşarlar. Eyni zamanda varislər arasında miras payları bölündükdən sonra aralarında narazılığın olmaması üçün kimə hansı payın düşəcəyini müəyyən etməkdən ötrü püşk atarlar.

H. AND İÇMƏ VƏ NƏZİR

I. And

Bir termin kimi "and" bir işi etmək və ya etməmək üçün verilən qərarı qüvvətləndirmək məqsədi ilə Allah adına deyilən və verilən sözdür.

And içmək qəsəm və şərtə bağlamaq surəti ilə də edilir.

Qəsəm şəklində edilən and içmə Allah-Təalanın ad və sifətlərindən birisini demək surəti ilə edilən-dir. "Vallahi, Billahi, Tallahi, Allaha and içirəm ki, Allah adına and içirəm...." kimi ifadələr bu növ anda daxildir.

Şərtə bağlı and içmədə isə, Allah adının çəkilməsi, yəni and içmənin Allah adına edilməsi şərt deyil. Bu cür and içmə bir növ nəzir kimidir. Məsələn, "bu işi bir daha etməyəcəyəm. Əgər etsəm, evimi sənə bağışlamaq boynuma borc olsun" şəklində ifadələr, şərtə bağlı and içməyə aiddir.

And içən şəxs andını yerinə yetirməlidir. Əks təqdirdə günahkar olar. Ancaq haram bir işi etmək üçün and içən şəxs bu andını yerinə yetirməməli və kəffarəsini verməlidir.

And içmək əslində mübah olmaqla yanaşı, hər şeydən ötrü and içərək bunu vərdiş halına gətirmək məkruh qəbul edilmişdir.

İPƏKYOLU NƏŞRİYYATI

And içmənin növləri və hökmü: Qəsəm şəklində edilən andlar üç qismdir. Bunların hökmləri də and içmənin növünə görə dəyişir.

a. Qamus andı: Keçmiş, ya da indiki zamana aid bir şey haqqında bilə-bilə yalandan içilən anddır. Məsələn, borcunu ödəmədiyi halda, ödəmişəm deyərək yalandan and içmək buna misal verilə bilər.

Bu cür and, yəni yalan yerə and içmək çox böyük bir günahdır. Bu and içmədə qul haqqı da meydana gəldiyinə görə Allah-Təala yalnız kəffarəni yetərli saymamış, bununla yanaşı tövbə və istiğfar da edilməli olduğunu bildirmişdir.



b. Ləğv andı: Söylədiyi şey doğru olmadığı halda, həqiqətən doğru olduğunu zənn edərək içilən andlardır. Məsələn, borcunu aldığı halda xatırlamadığı üçün almadığını zənn edərək bir şəxsin içdiyi andlar bu növü andlara daxildir.

Vallahi, billahi, Allah haqqı kimi ifadələri sərf etməklə ağız vərdişi ilə edilən andlar da bu növ andlara daxildir.

Lazımsız yerə çox and içmək hədislərdə şiddətlə tənqid edilmişdir.

c. Münəqid and içmə: Gələcəkdə ediləcək və ya edilməyəcək bir işdən ötrü içilən andlardır. Məsələn, "Allaha and içirəm bunda sonra hər il Quranı xətm edəcəyəm" kimi andlar münəqid andlara daxildir.

Bu cür and içən bir şəxs andına sadiq qalmalıdır. Əgər andını pozarsa, tövbə edib kəffarəsini ödəməlidir.

Münəqid andı pozan şəxsin ödəməli olduğu kəffarələr sırası ilə aşağıdakı kimidir:

- Bir qulu (kölə) satın alıb azadlığa buraxmaq
- Yuxarda tələb olunan kəffarənin yerinə gətirilməsi mümkün deyilsə, on kasıba səhər - axşam olmaqla bir gün və ya bir kasıba səhər-axşam olmaqla on gün yemək yedizdirmək lazımdır. On kasıbı geydirmək də mümkündür.
- Bunları etməyə maddi imkanı yoxdursa, üç gün dalbadal oruc tutmalıdır.

II. Nəzir (əhd)

Bir termin kimi nəzr "hər hansı bir şəxsin dinən mükəlləf olmadığı bir məsələdə özünü mükəlləf tutmasıdır.

İPƏKYOLU NƏŞRİYYATI

Nəzir edən şəxs, etdiyi nəziri yerinə yetirmək üçün Allaha söz vermiş olduğuna görə, verdiyi sözü tutmalıdır. Ancaq haram olan bir mövzuda edilən nəzir yerinə yetirilməməli və yerinə and içmə kəffarəsi verilməlidir.

Nəzr edilən şeydə aşağıdakı şərtlər olmalıdır:

- Dinə görə qəbul edilən olmalı, haram və məkruh bir davranış olmamalıdır. Günah olan bir şeyi nəzir edən, bu nəzrini yerinə yetirə bilməz. Bunun üçün and içmə kəffarəsi də lazım gəlməz. Yerinə yetirilməsi mümkün olmayan nəzir də etibarsız qəbul edilir.
- Nəzir olunan şey ibadət növündən, yəni, fərz və ya vacib bir ibadət olmalıdır. Məsələn, oruc tutmaq və qurban kəsmək kimi.
- Nəzir olunan şey, nəzr edən şəxsin yerinə yetirməklə mükəlləf olduğu bir ibadət olmamalıdır. Məsələn, ramazanda oruc tutmaq, vaxt namazlarını qılmaq kimi.
- Nəzr olunan şey bir başa özü bir ibadət olmalıdır. İbadətin bir şərti və ya səbəbi olmamalıdır. Məsələn, dəstəmaz almağı nəzir etmək olmaz.

VAXTA GÖRƏ NƏZİRİN NÖVLƏRİ

- **MÜƏYYƏN NƏZİR** — Yerinə yetirilmə vaxtı müəyyən olunmuş nəzir
- **QEYRİ-MÜƏYYƏN NƏZİR** — Yerinə yetirilmə vaxtı müəyyən olunmadan edilən nəzir

ŞƏRTƏ BAĞLI OLMASINA GÖRƏ NƏZİRİN NÖVLƏRİ

- **MÜQƏYYƏD NƏZİR** — Bir şərtə bağlı olaraq edilən nəzr
- **MÜTLƏQ NƏZİR** — Bir şərtə bağlı olmadan edilən nəzr

Mütləq nəzirlər hər hansı bir şərtə bağlı olmayan nəzirlərdir. Məsələn, “Allah rızası üçün üç gün oruc tutacağam və ya Allah rızası üçün qurban kəsəcəyəm” kimi. Müqəyyəd nəzirlər isə hər hansı bir şərtə bağlanmış olan nəzirlərdir. Məsələn, “Allah xəstəmə şəfa verərsə, kasıblara yemək yedizdirəcəyəm və ya oğlum universitetə girsə, qurban kəsəcəyəm” kimi.

Ancaq nəzir hər hansı bir zamana və ya şərtə bağlanmamışsa, yəni mütləq nəzirdirsə, dərhal yerinə yetirilməsi müstəhəbdir. Əgər nəzir müqəyyəd isə, məsələn, “əgər xəstəm sağalarsa, bir ay oruc tutamağı nəzr edirəm”,-deyilərsə, xəstə sağalan kimi nəzir edən şəxsin üzərinə bir ay oruc tutmaq vacib olur. Əgər xəstə sağalmadan oruc tutarsa, tutduğu oruc etibarsızdır və sağaldığı təqdirdə yenidən tutmalıdır.

Hansı növ nəzir olursa olsun, edilən nəzir yerinə yetirilməlidir. Vaxtı müəyyən edilmiş olan nəzir, vaxtı gədikdən sonra şərtə bağlanmış olan nəzir də, qoşulan şərt meydana gəlikdən sonra yerinə yetirilməlidir. Əgər vaxtında yerinə yetirilməzsə, qəza edilməlidir. Nəzirini yerinə yetirməyən şəxs bundan məsul olar və nəzirini yerinə yetirmədiyi üçün günahkar olar.

İPƏKYOLU NƏŞRİYYATI

SUALLARI CAVABLANDIRIN

1. Halal və haram mövzusunda İslamın ümumi prinsiplərini yazın.
2. Haram edilən qida maddələrini müəyyən edin.
3. Ov nədir? Ovlanması halal olan heyvanlar hansılardır?
4. Heyvanlar kəsilərkən nəyə diqqət etmək lazımdır? Araşdırın.
5. Qızıl və ipək kimi maddələrin kişilərə qadağan olmasının hikmətlərini tapın.
6. Ətirdən istifadə etmənin hökmünü yazın.
7. Qarşı cins üçün bənzəmək hansı hallarda baş verir? Maddələr halında yazın.
8. Əti yeyilməyən heyvanlar hansılardır?
9. And növləri haqqında məlumat verin.

TERMİNLƏRİN İZAHINI TAPIN

1.	İsraf	Örtünməsi fərz olan yerlər
2.	Övrət	*Allah adına and içmək*
3.	Cilbab	Ölçüsüz (qədərində olmayan) xərcləmə
4.	Nəzr	*Qadının xarici geyiminə verilən ad*
5.	And içmə	Şərt qoşarak özünü məsul (mükəlləf) tutmaq

İPƏKYOLU NƏŞRİYYATI

SƏHV-DÜZ

1. ( ) İslam dinində cinayətin işlənməməsi əsas olduğuna görə harama aparan yollar haram edilmişdir.

2. ( ) Ədəbsiz bir heykəl düzəltmək, əgər sənət əsəri olaraq qiymətləndirilirsə, bunu etmək günah deyil.

3. ( ) Əməllər niyyətlərə görədir. Yaxşı niyyətlə hərəkət edən bir insan da yaxşı niyyətinə görə məscid tikdirmək üçün rüşvət ala bilər və ya verə bilər.

4. ( ) Darul-hərbdə yaşayan bir müsəlman faiz ala bilməz.

5. ( ) Az içdiyində sərxoş olmayan bir müsəlman bir stəkan içki içə bilər.

6. ( ) Ov edilərkən "bismillah" demək unudularsa, yeməkdən əvvəl bismillah deyərək ov heyvanının ətindən yeyilə bilər.

7. ( ) Bir qadın kiçik yaşdakı uşaqların yanında zinət yerlərini aça bilər.

8. ( ) Dərinin rəngini bəlli edən, vücudu bildirən incə bir paltar ilə qadın namaz qılarsa, namazı səhih olmaz

9. ( ) Heyvan dərisindən tikilmiş paltarların geyilməsi dinə görə bir qadağan deyildir.

10. ( ) Saçı tökülən və ya gözəl görünməyən biri cəmiyyət içindəki psixoloji vəziyyətinə görə parik taxa bilər.

11. ( ) İslam dini gözə sürmə çəkməyi doğru qəbul etməmişdir.

12. ( ) Bir qadının fərqli rənglərdə saçını boyaması caizdir.

İPƏKYOLU NƏŞRİYYATI

TEST

1. Aşağıdakı məlumatlardan hansı səhvdir?

a. Zərurətlər haramı mübah edər.

b. Haram müsəlman ölkəsinin xaricində də haramdır.

c. Yaxşı niyyət haramı halal edər.

d. Qadağan olunmamış hər şey mübahdır.

2. Aşağıdakılardan hansının yeyilməsi müsəlmanlara halaldır?

a. Allahdan başqası adına kəsilənlər

b. Leş (murdar olmuş heyvan əti)

c. Əhli kitabın kəsdiyi heyvanların əti

d. Donuz əti

3. İçki ilə əlaqədar bəzi qadağanlar vardır. Aşağıdakı məlumatlardan hansı bu qadağalara aid deyil?

a. Sərxoş edən hər cür içki haramdır.

b. İçki məclisində iştirak etmək haramdır.

c. Çoxu sərxoş edənin azı da haramdır.

d. İçində spirt olan hər şeyi istifadə etmək haramdır.

4. Ov haqqında aşağıda qey edilənlərdən hansı doğru deyil?

a. İdman məqsədi ilə ov etmək

b. İti bir alətlə ov etmək

c. Məişətini təmin etmək məqsədi ilə ov etmək

d. Ov üçün öyrədilmiş it ilə ov etmək

5. Aşağıdakılardan hansı övrət yeri deyil?

a. Kişinin dizi

b. Kişinin baldırı

c. Qadının saçı

d. Qadının boynu

6. Bir müsəlman kişi aşağıdakılardan hansını geyinə bilər?

a. Qırmızı rəngli geyim

b. İpəkdən tikilmiş geyim

c. Sarı rəngli geyim

d. Dizləri örtən dəniz geyimi

7. Hansı and içmə növündə içilən and pozularsa, kəffarə lazımdır?

a. Qamus andı

b. Ləğvi and

c. Münəqid andı

d. Allah adına edilməyən and

İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI

İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI
İPƏKYOLU NƏŞRİYYATI